AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

ZƏNGƏZUR
CƏMİYYƏTLƏRİ İCTİMAİ BİRLİYİ

# ZƏNGƏZUR YAZARLARININ ZƏFƏR ÇƏLƏNGİ

**Azərbaycanın Vətən müharibəsində**
**şanlı Zəfərinin 5 illiyinə həsr olunur.**

***Şeir, hekayə, esse, publisistika***

***

***müsahibə, roman, poemalardan parçalar***

*Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin "Zəngəzur yazarlarının Zəfər çələngi" layihəsi çərçivəsində nəşr olunub.*

*Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəlliflərə aiddir və Agentliyin rəsmi mövqeyini əks etdirməyə bilər.*

**Bakı – 2025**

**Layihə rəhbəri**

**Hacı Nərimanoğlu**

**Ön Söz**

**Prof. Dr. Mönsüm Alışov**

**Redaksiya heyəti və tərtibçilər:**

| | |
|---|---|
| İsmayıl İmanzadə | Cəbrayıl |
| Əli Bəy Azəri | Zəngilan |
| Azadə Novruzova | Sisian |
| Nanə Yavərqızı | Meğrı |
| Təvəkkül Goruslu | Gorus |
| Tamxil Ziyəddinoğlu | Qafan |
| Arif Məmmədli | Laçın |
| Namik Dəlidağlı | Kəlbəcər |
| Qafqaz Əvəzoğlu | Qubadlı |




***Prezident, Ali Baş Komandan İlham Əliyev:***

***XOŞBƏXT ADAMAM Kİ, ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRDİM.***



# ZƏFƏR OVQATLI TOPLUYA ÖN SÖZ

"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin donorluğu ilə reallaşan "Zəngəzur yazarlarının Zəfər çələngi" toplusunu hazırlayıb nəşr etməsi xeyirxah, əhəmiyyətli məqsəd daşıyır.

Azərbaycanın Vətən müharibəsində şanlı Zəfərinin 5 illiyinə həsr olunan bu topluda Qərbi və Şərqi Zəngəzur bölgəsini əhatə edən 9 rayonda - Cəbrayıl, Sisian, Meğri, Gorus, Kəlbəcər, Laçın, Qafan, Zəngilan, Qubadlıda doğulub yaşamış, soykökü ilə bu torpaqlara bağlı olan 250 müəllifin şeir, hekayə, esse, publisist yazıları, roman, poema, müsahibələrindən parçalar, eləcə də Zəngəzurun tarixinə dair elmi məqalələr toplanıb.

Bu ədəbi-bədii əsərlər şərəfli tariximizin ədəbi-bədii salnaməsidir, Xalqımıza, Dövlət Suverenliyini bərpa etmiş Ana Vətənimiz Azərbaycana, Milli Ordumuza, Şəhid və Qazilərimizə, ümummilli lider Heydər Əliyevə, Azərbaycan Prezidenti və Müzəffər Ali Baş Komandan İlham Əliyevə sevgi, ehtiramının, minnətdarlıq borcunun ifadəsidir, böyüməkdə olan nəslin mənəvi, hərbi-vətənpərvərlik tərbiyəsində, gənclərimizin bədii-estetik zövqlərinin formalaşmasında sanballı mənbədir.

Almanaxa daxil edilən ədəbi-bədii materialların toplanması prosesi çətin, məsuliyyətli, həm də zövqverici, savab bir iş olub. Toplunun tərtibi haqqında media və sosial şəbəkədə məlumatlar yayılandan sonra Ukrayna, Suriya, Gürcüstan, Rusiya, Avropada yaşayan müəlliflər öz yazılarını göndəriblər. Müəlliflərin bir çoxu da yazılarının bu almanaxa salındığından da xəbərsizdir, çünki müəlliflərin və cəmiyyətin əhvali-ruhiyyəsinə ayna tutan bu ədəbi məhsulların xeyli hissəsi tərtibçilər tərəfindən son 5 ilin sosial şəbəkə, media, internet bazalarından aranıb, yığılıb, seçilib, toplanıb. Təbii ki, topludakı bütün yazıları püxtələşmiş qələmin tam keyfiyyətli məhsulu saymaq doğru olmaz. Ancaq əsas olan budur ki, bu yazıların hər birində ürəkdən gələn səmimiyyət, müəlliflərin şəxsi könül çırpıntıları var, Vətən, Torpaq, Dövlət, Xalq, Ulu Öndər, Prezident-Ali Baş Komandan, Milli Ordu, Şəhid, Qazi, Ata-Ana, Zəngəzur, Bütöv Azərbaycan, TURAN, Azərbaycan -Türkiyə...sevgisinin təcəssümü var, tariximizin iftixar, bu yazılarda qürur dolu 5 ilimizin qələbə ovqatı əks olunub.

Əslində topludakı bütün yazıların əsas ruhunu təşkil edən, vahid xətt kimi keçən, kitabın hər səhifəsinə hopan bu duyğular həm də ümümxalq fikrinin, düşüncəsinin inikasıdır.

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan bu almanaxda yazıları toplanan müəlliflər ən müxtəlif peşə sahibləridir, cəmiyyətin ayrı-ayrı təbəqələrinə mənsub insanlardır; 12 – 92 yaş arası məktəbli, tələbə, əsgər, təqaüdçü, sürücü, fəhlə, müəllim, həkim, polis, mühəndis, yazıçı, jurnalist, şair, alim, dövlət məmurudur və xüsusilə qürurvericidir ki, müəlliflərdən 50-dən çoxu şəhid, şəhid atası, şəhid anası, şəhid qardaşı, müharibə veteranı, qazilərdir.

Topluda yazısı gedən müəlliflərin bir çoxu artıq ölkəmizdə, onun hüdudlarından kənarda çoxdan tanınır, bəziləri isə ilk qələm təcrübələrini ilk dəfə bu topluda təqdim edir. Topluda adı, sözü keçən yazarların bəziləri xalqımızın Zəfər günlərini görmədən vətən həsrətilə dünyadan köçüblər, onların yurd həsrətli, nisgilli yazıları da nəşrə salınıb və 8 Noyabr Zəferinin məna, mahiyyətini anlayıb nəticə çıxarmaq, qədir-qiymətini bilmək, müqayisələr aparmaq üçün bu yazıların da xüsusi dəyəri var.

Razılıq hissi ilə xatırlatmalıyıq ki, “Zəngəzur” birliyi bundan əvvəl Qarabağ və Zəngəzurun tarixi, mədəniyyətinin, Azərbaycan həqiqətlərinin tədqiqi, öyrənilməsi, təbliğinə, 8 noyabr zəfərindən sonrakı quruculuq, qayıdışa həsr olunmuş 9 adda kitab nəşr edib, eləcə də ölkəmizdə ilk dəfə olaraq Vətənimizin cənub regionunda yaşayan, Azərbaycan və talış dillərində yazıb-yaradan 128 şair və nasirin yaradıcılığından seçmələrin toplandığı “Gəl bizim yerlərə...” və Azərbaycanın şimal bölgəsində yaşayan, 8 dildə - Azərbaycan, ləzgi, tat, xınalıq, dağ yəhudiləri, qırız, buduq dillərində yazan 55 şair və nasirin əsərlərinin toplandığı “Bir yanı Şah dağı, bir yanı Xəzər” adlı ədəbi-bədii topluları buraxdırıb elm, təhsil, mədəniyyət müəssisələrinin kitabxanalarına paylayıb, elektron resurslarda yerləşdirib, Azərbaycan, Çexiya, Türkiyə, Gürcüstanda təqdimatları olub.

İnanırıq ki, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğunun, təsisatlarının güclənməsi, Azərbaycan həqiqətlərinin dünyada yayılması sahəsində son illər xeyli uğurlu işlər görən QHT Agentliyi belə əhəmiyyətli layihələrə bundan sonra da maliyyə yardımı göstərməkdə davam edəcəkdir. Çünki, belə layihələrin maliyyələşməsi, icrası həm də yaradıcı insanları həvəsləndirən xoş, təqdirəlayiq stimuldur.

“Zəngəzur yazarlarının Zəfər çələngi” kitabının nəşri münasibətilə QHT Agentliyini və “Zəngəzur” Cəmiyyətləri İctimai Birliyini təbrik edirəm, belə xeyirli toplunun işıq üzü görməsinə görə Söz adamlarının minnətdarlığını bildirirəm, əminəm ki, bu almanaxın nəşri, yayılması ölkəmizdə əhəmiyyətli ədəbi, ictimai-mədəni hadisəyə çevriləcəkdir.

**Prof. Dr. Mönsüm Alışov**



## I Bölmə

# ŞEİRLƏR



***Ramiz RÖVŞƏN***

*Rövşən Ramiz Məmmədəli oğlu 15 dekabr 1946-cı ildə doğulub. Əslən Qubadlının Teymur Müskanlı kəndindəndir.*

## VƏTƏNƏ TƏRİF

Neçə hirsli şeir yazdım sənə mən,
Qorxmadım, küsərsən, söz dəyər sənə.
Səni tərifləmək keçir içimdən,
Birdən təriflərəm, göz dəyər sənə.

Günbəgün dirilən, durulan vətən,
Gör necə ayıqsan, sayıqsan indi.
Yalan tériflərdən yorulan vətən,
Doğrudan, tərifə layiqsən indi.

Daha dərdin-qəmin axırına çıx,
Hər günün toy-bayram içində olsun.
Bir əlin həmişə hamıya açıq,
Bir əlin yumruqtək cibində olsun.

Çoxdur sənə tərs-tərs baxanlar hələ,
Adın çox gözlərə batır tikantək.
Səni sevməyənlər, vətən, var hələ,
Səni Allah sevsin! Səni biz sevək!

Bülbül cəh-cəh vursun hər gül kolunda,
Daha qan sızmasın yaralarından.
Ölüm uzaq dursun sənin yolunda
Qurban gedənlərin balalarından.

Daha dağlarından, dərələrindən
Tütək səsi gəlsin tüfəng yerinə.
Daha bayraqlara şəhidləri yox,
Bükək körpələri bələk yerinə.

...Mən tərif yazmadım heç zaman sənə,
Amma qınamadın, vətən, sən məni.
Birinci tərifdi, yazıram sənə,
Bilirəm, peşiman etməzsən məni!



***Musa URUD***

*Musa İsa oğlu Quliyev 25 noyabr 1961-ci ildə Sisian rayonunun Urud kəndində doğulub.*

**QARABAĞ AZƏRBAYCANDIR**

Zülmət yaran oğullar döndü nura qayıtdıq,
Qarabağa qayıtdıq, Zəngəzura qayıtdıq.
Qəlbimizdə bir Kitab, iki Surə qayıtdıq:
Qarabağ Azərbaycandır!

Şükür sənə, İlahi, Azan səsi eşitdik, Qarabağda.
30 il Azan səsi eşitdik.
Şərəfli bir tarixi yazan səsi eşitdik:
Qarabağ Azərbaycandır!

Gözümüzdə qalmadı - arzu, muradı gördük,
"Qənimətlər parkı"nı, "Zəfər Paradı" gördük.
Dəmir yumruq, tunc inam, polad iradə gördük:
Qarabağ Azərbaycandır!

Dağı, daşı, meşəsi, səması da bizimdir,
Odu, suyu, torpağı, havası da bizimdir.
Zəfərə gedən yolun Nidası da bizimdir:
Qarabağ Azərbaycandır!

Qarabağ bu millətin yeni qibləsi oldu.
Ata öyüdü oldu, ana duası oldu.
Ali Baş Komandanın zəfər müjdəsi oldu:
Qarabağ Azərbaycandır!!!



***Rafiq YUSİFOĞLU***

*Rafiq Yusif oğlu Əliyev 2 yanvar 1950-ci ildə Qubadlı rayonunun Çardaxlı kəndində doğulub.*

## MƏNİM ZƏNGƏZURUM

Zaman çevrilibdir bir qara yelə,
Elin arzuları yaralanıbdır.
Namərdin xəyanət qayçısı ilə
Mənim Zəngəzurum paralanıbdır…
Tikanlar boy atıb, çiçəklər solub,
Qartallar yurdunu qarğa, sar alıb.
Kolların dibində gül şehlə dolub,
Yolların gözünün kökü saralıb…
Bir vaxt Zəngəzurun kefi çağ idi,
Gör kimə inandıq, kimə güvəndik?
Xəyanət qurbanı oldu Ağudi,
Dəstəyird, Sofulu, Urud, Nüvədi…
Nə qədər dogma kənd döndü yad elə –
Çayların, göllərin gözləri doldu…
Düşüdü Qafan, Gorus, Sisian yad ələ,
Mehri kaftarkoslar diyarı oldu…
Oldu başımıza dünya niyə dar?-
Haqsızlıq səbrimi yaman daşdırır.
Bir yanda Ağbulaq, Şamsız, Niyədar
Bir yanda Qaragöl, Qızıldaş durur…
Üzü də qaradır əhdi qaranın,
Üstümə ağrılarlar alayı gəlir.
Qafandan yüzbaşı Mehdiqaranın,
Gorusdan Nəbinin harayı gəlir…
Dönüb sahibinə Topağac, Səngər, –
Zəngilan, Kəlbəcər qeyrət hasarı…
Özgə kölgəsində yatan köpəklər
Hürür Qubadlıya, Laçına sarı…
Namərd xəyallara saplanıb xəncər,
Düşmənlər bükülüb, yumağa dönüb.
Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər,
Çəbrayl bir dəmir yumruğa dönüb.
Ulu yurd yerləri halalca paydı,
Sonuncu fərmana zaman qol çəkir. –
Şərqi Zəngəzurun gözləri aydın,
Qərbi Zəngəzurun gözü yol çəkir…



***İsmayıl İMANZADƏ***

*İmanzadə İsmayıl Səlim oğlu (İsmayıl Mərcanlı) 10 dekabr 1945-ci ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olub.*

## ŞƏHİDLİYİN ZƏFƏR NƏĞMƏSİ

Tanrı dəhgahınadır, Şəhidim, son səfərin,
Yadlara göz dağıdır, qazandığın Zəfərin.
Hamı sənə ürəkdən deyir, Əhsən, Afərin!
Vətən-yurd sevgisidir halal qazancın-varın –
Əbədi yolçususan nur saçan sabahların!

Gur səsinlə,- "Qarabağ-Azərbaycandır!"-dedin,
Torpağım, dağım-daşım ürəkdir-candır-dedin!
Şəhid ya Qazi olmaq, şərəfdir-şandır-dedin!
Nəqş elədin imzanı torpağa al qanınla –
Tanındın hər tərəfdə isminlə, ünvanınla!

Uğrunda can verdiyin bu ana torpaq sənin,
Döyüş günü səsini əks etdirən dağ sənin.
Bayraqdarı olduğun üçrəngli bayraq sənin,
Şəhid ucalığında vətən daşına döndün –
Azadlıq nəğməsinə, Zəfər marşına döndün!

Ünyetməyən məkana qalxıb ölümsüz oldun,
Andında, peymanında, ilqarında düz oldun.
Qarı düşmən önündə hər an yenilməz oldun,
Məzarın and yeridir, adın hər qəlbdə naxış –
Şəhidim, əhsən sənə, hünərinə min alqış!



***Flora XƏLİLZADƏ***

*Sisian rayonunun Urud kəndində doğulub.*

## VƏTƏN

Çoxdan itirdiyim o sevdalı quş,
Tapıbdı ruhumu, səndən oxuyur.
Daha mənlik deyil o dağ, o yoxuş,
Ömür çeşnisini qəmdən toxuyur.

Vətənsiz yaşamaq varmış qədərdə,
Səngiməz tufanlar uçur başımdan.
Mənə ömrüm boyu yarmış kədər də,
Özgənin baharı keçir qışımdan.

Bu qəriblik hər zərbədən betərdi,
Haqqın nəfəsinə yollar açıla.
Öz içimdə hey çəkirəm bu dərdi,
Nə ola boynuma qollar açıla.

Vətən oğlu nərə çəkə qoşuna,
Hər kəs gedib obasına buluna.
Əlim dəyə ana yurdun daşına,
Sığal çəkəm tikanına, koluna.

Şöhrətinə kim qalxacaq, qoy olsun!
Təltifini kim alacaq, sözüm yox.
Yurd yerində büsat olsun, toy olsun,
Bu dünyadan umduğum yox, gözüm yox.

Yollarının tozu olum, ey Vətən!
Bazarçayı, Göbəkdaşı görüm mən.
Qızın olum, yazın olum, ey Vətən!
El-obanı, yar-yoldaşı görüm mən.



***Adil CƏMİL***

*Cəmilov Adil Savalan oğlu 8 oktyabr 1954-cü ildə Kəlbəcər rayonunun Kilsəli kəndində doğulub.*

## QAYITMADI O KƏLBƏCƏR

***...O Kəlbəcər qayıtmaz,***
***Qayıtsa yüz Kəlbəcər.***
***Məmməd Aslan***

İtib getmiş ad qayıtdı,
Tülkü qaçdı, qurd qayıtdı.
Məmməd Aslan, yurd qayıtdı,
Qayıtmadı o Kəlbəcər.

Həsrət qaldıq yaylağına,
Diz çökmədik bulağına.
Hər kəsin öz ocağına
Qayıtmadı o Kəlbəcər.

Nə çobanın tütəyinə,
Nə arının pətəyinə,
Nə də dağın ətəyinə
Qayıtmadı o Kəlbəcər.

Cana məlhəm havasıyla,
Eli, günü, obasıyla,
Dədəsiylə, babasıyla
Qayıtmadı o Kəlbəcər.

Demə yurdun yarası yox,
Gələnlərin yarısı yox...
Qocası yox, qarısı yox,
Qayıtmadı o Kəlbəcər.

Bu yarımçıq sevincimə
Sevinmirəm, yurd, incimə...
Tamarzıyam el içinə -
Qayıtmadı o Kəlbəcər.

Var olsun ər oğulları -
Gördük gerçək nağılları...
Qayıtdı dağlar diyarı,
Qayıtmadı o Kəlbəcər.

İndi yurdun öz kirəsi,
Görən verir göz kirəsi.
Qəm üyüdür kirkirəsi,
Qayıtmadı o Kəlbəcər.

Qoca həsrət məni əymiş,
Ötən çağlar, Allah, nəymiş...
Əsatirmiş, əfsanəymiş,
Qayıtmadı o Kəlbəcər.
Qayıtmadı o Kəlbəcər!



***Təvəkkül GORUSLU***

*Məmmədov Təvəkkül Məmməd oğlu 1 iyul 1962-ci ildə Gorus rayonunun Ağbulaq kəndində anadan olub.*

## ZƏFƏRİN MÜBARƏK

44 döyüş günü, üç min şəhadət,
Qələbə gətirdi sarsılmaz vəhdət,
Bu milli dirçəliş, milli fəxarət,
Zəfərin mübarək, can Azərbaycan!

Xalqların səngərdə oldular qardaş,
Sipərə çevrildi hər qaya, hər daş,
Bir cana dönmüşdü Vətən, vətəndaş,
Zəfərin mübarək, can Azərbaycan!

Düşmənlər asidi, həm də ki, satqın,
Ordumun gücüylə alındı haqqın,
Məğrurdu bayrağın, məğrurdu xalqın
Zəfərin mübarək, can Azərbaycan!

Qələbə tonqalı qalansın görüm,
Zəfərlər zəfərə calansın görüm,
Görüm azad olsun Vətən hər yerin,
Zəfərin mübarək, can Azərbaycan!

## BİZ SƏNİN ƏLİNİ ÖPÜRÜK, ANA!

Nəğmələr söylədin, laylalar ötdün,
Gecələr yatmadın, oğul böyütdün.
Sən ona örnəkdin, ona öyüddün,
Oğlun şəhid oldu, bayrağı öpdün,
Biz sənin əlini öpürük, ana!

Oğul itkisindən yansa da canın,
Ağrıdan, acıdan donsa da qanın,
Eşidən olmadı ahın, amanın,
Sən ey mərd anası dövrün, zamanın .
Biz sənin əlini öpürük, ana !

Durduğun torpağı vətən eylədin,
Qoru bu torpağı, oğul, söylədin.
Oğlun da qorudu, rəşadət etdi,
Vətəni uğrunda şəhadət etdi.
Biz sənin əlini öpürük, ana!

Bir oğlun getdisə yüzləri durur,
Bu eli, bu yurdu igidlər qorur,
Qəlbləri vətənlə, anayla vurur,
Simanla bir olsun əzəmət, qürur!
Biz sənin əlini öpürük, ana!



***Əlirza XƏLƏFLİ***

*Əzizli Əlirza Zal oğlu 1953-cü ildə Cəbrayıl rayonunun Xələfli kəndində doğulub.*

## MƏN ŞUŞAYA GEDİRƏM

Zəfər yolu çağırır, ruhum uçur yollara,
Aşıram neçə həddi, mən Şuşaya gedirəm.
Həsrətlərə od vurub, ayrılığı yandırıb,
Yıxıb divarı, səddi, mən Şuşaya gedirəm…

İnamımın ocağı küləkləndi, qor aldı,
Ümidimin köhləni şahə qalxdı, zor aldı…
Varlığım sahmanına tale payı var aldı,
Düzəldib bükük qəddi, mən Şuşaya gedirəm…

Pənah xan, İbrahim xan, ulu Natəvan səsi,
Ürəyimə, ruhuma içdim bu rəvan səsi,
Qəlbimə təpər verdi Qarabağın nəfəsi,
Yol açdı işıq cəddi, mən Şuşaya gedirəm…

Gordu baba əvəzi, Qurbani Diri də mən,
Xələf dağa can verib, yeriyən sirri də mən,
Su yoluna döndərib, gedənin biri də mən,
Tapdayıb izi, rəddi, mən Şuşaya gedirəm…

Sevincimi pay bölüm dedim bütün aləmə,
Gördüm bir səs deyir ki, yalan hay küy eləmə,
Xələflinin səsinə oyandım ki, sən demə,
Yuxuda keçib xətti, mən Şuşaya gedirəm…



***Mahirə ABDULLA***

*Mahirə Abdulla 12 avqust 1952-ci ildə Qubadlı rayonunun Başarat kəndində anadan olub.*

## QORXU

Mən ermənidən qorxmuram,
qorxuram onunla yenə qaynayıb-
qarışam,
qapıdakı iti-pişiyi sevmişəm
ona da gözüm öyrəşə, alışam
bilirəm hər yolu, yolağanı biləcək
aldığını arxada qoyub
başımı tovlaya-tovlaya gələcək
kişisi ərimlə cici-bacıdı
arvadı yatağımı böləcək
səhər salbaya gələcək
günorta halvaya gələcək
gecə tövləyə girəcək
yazığam, zəliləm deyib
göynəyə-göynəyə gələcək
mən bilə bilmərəm
özü bilir niyə gələcək
nəyə gələcək
sancıb tumanını belinə
əlimi ətəyinə tikməyə
sapa-iynəyə gələcək.

## QARA KÖTÜK

Qara bataqlıqda yosun qurdlayıb,
yurd həsrəti ürəyimə hörüklənib,
qara ayrılığın nazını çəkib,
qormutlayıb.
Yolum naltökəndi, daşlar diltökən,
qartal qanadında sıyrıntılar var,
bəlkə bu yuxuya yozum deməkdi,
acı ayrılığa çözüm deməkdi .
Üç gün gələcəyəm bu qapıya...
Qaldır papağımı, ocaq payıdı,
bir isti, şəfqətli qucaq payıdı.
Qaratikan kölgəsi yurd olsun,
təsəllim ürəyinə qut olsun.
Tirtap düşdü palıd yarmaçaları,
qəzəbi ac-löyün,
şükürlər, bu dəfə ölmədim,
ölümünü gördüm erməni kötüyün.

## ÇİYNİMİZDƏKİ DAŞLAR

Daşı daşlamazlar, deyib atalar.
O daşlar çiynimizdə Bakıya gəldi.
Külək başsız zirvələri yalayar,
gözünə torpaq atar ayrılığın,
gedilməyən yollar yenə yatar,
gözündən vurulan dizindən batar.
Bizim bir yolumuz da var –
qaysaq cığırların dərisini soyaq,
gedək Qarabağa –çiynimizdəki
daşları yerə qoyaq.



***Mürvət QƏDİMOĞLU HƏKƏRİ***

*1952-ci ildə Qubadlının Zilanlı kəndində doğulub.*

## MƏNİM ZƏFƏR BAYRAMIM

Bu dünya görməmişdi hələ belə toy-düyün,
Sevincinə çevrildi bu sevinc yerin, göyün.
Bu şanlı qələbənlə öyün Türk oğlu, öyün,
Səs saldı bu dünyaya mənim hünər bayramım,
Mənim zəfər bayramım!

Şən günümdə yetişdi ər oğlu Ərdoğanım,
Dar günümdə başlara dolu kimi yağanım.
İlhamımın köksünə qardaş kimi sığanım,
Tarixdə tarix yazdı bax, bu səhər bayramım,
Mənim zəfər bayramım!

Sevinci yoxa çıxdı farsın, rusun, ərəbin,
Qışın oğlan çağında nur yaydı al səhərin.
Hər şeyi yaxşı görür uca Tanrım, o rəbbim.
Yox oldu ürəklərdə ta qəm-qəhər, bayramım,
Mənim zəfər bayramım!

Zəfər yazan uçaqlar havada havalandı,
Qurbaninin sədası göylərdə dalğalandı.
Yer üzündən yüksəlib səmalarda dolandı,
Göylərin göy qurşağı üç rəngıi bayrağım,
Mənim zəfər bayramım!

Tarixdə bir ilk oldu bu qələbə, bu zəfər,
Qəlblərə fərəh verir bu sevinc axşam, səhər.
Belə sevincə hələ qərq olmamışdır bəşər,
Tarix görməyib hələ buna bənzər bayramı,
Mənim zəfər bayramım!

Yerdə qalmadı qanı Mübarizin, Poladın,
Sevinclə əvəz oldu anaların fəryadı.
Bu gün Azərbaycanım dünyada bir dünyadı,
Yağıların ömrünə düsər, kəsər bayramım,
Mənim zəfər bayramım!

Ərənlərim hey qeyrət səngərində yatdılar,
Vuruşub gecə-gündüz arzu-kama çatdılar.
Neçələri rütbəyə, ada-sana çatdılar.
Kişiliyə, ərliyə verdi dəyər bayramım,
Mənim zəfər bayramım!



***Mahir CAVADLI***

*Mahir Allahverdi oğlu Cavadov 27 fevral 1959-cu ildə Zəngilan şəhərində anadan olub.*

## YURDUMU AZAD ELƏ

Ey əzəli düşmənim,
Ayağıma düş mənim.
Üzülən boğaz sənin,
Əzib, didən diş mənim.

Az bəhanə, ad elə,
Az yalvar, imdad dilə.
Ağlını başına yığ,
Yurdumu azad elə.

Qan tökmə gəl havayı,
Yumruq qalxıb havaya,
Gəl, yıxıl ayağıma,
Son qoyaq bu davaya!

Bəsdir tökdün göz yaşı,
Ətəyindən at daşı,
Qələbəylə bitəcək
Xalqımın haqq savaşı!

Bu səfər, yürüş mənim,
Bu zəfər, döyüş mənim.
Sən artıq uduzmusan,
Ayağıma düş mənim,
Sən əzəli düşmənim!
Sən əbədi düşmənim!
dekabr, 2020

## SALAM, OD-OCAĞIM

Qara saça qar ələnib, dən düşüb,
Gəncliyimi burda qoyub getmişəm.
Heç bilmirəm illər necə ötüşüb,
Sanırdım ki, tükənmişəm, bitmişəm.

Gəlirəm, doğma yurd, doğma məmləkət,
Səni abad edim, ağıllı görüm!
Araz qırağında yeniləşən kənd,
Barlı-bərəkətli Ağalı görüm!

Alın tərim hopsun xam torpağıma,
Yanıb köz-köz olan külü gül açsın.
Baş əyim bəy obam, xan torpağıma.
Talanmış divarı, daşı dil açsın.

Başını dik saxla, şəhid məzarım,
Sıxma ürəyini, yenə varıq biz!
Dönür Zəngilanlı günüm, güzarım!
Tək Vətən qoynunda bəxtiyarıq biz!

Həkəri, Xan Araz sevinc göz yaşın,
Bəsit çay bəmindir, Oxçu zəngulən!
Şükrətaz, Süsənlə ucadır başın.
Gəlirəm, doğma yurd, Qızıl Zəngilan!
fevral, 2021



***Əjdər YUNUS XƏLƏFLİ***

*1952-ci il yanvarın 2-də Cəbrayıl rayonunun Xələfli kəndində doğulub,*

## GƏLMİŞƏM KƏNDİMƏ

*Cəbrayılın işğaldan azad olan gününə (04.10.2020)*

Əhdim olub üz qoyam daşına, torpağına,
Gül deyib, qoxulayam, soluxmuş yarpağına.
Xəyalən qayıtmağa o illərin o çağına,
Otuz il yurd-yuvasız ötüşəndə gəlmişəm.

Yurd deməkdən, illərlə, dilim qabar-qabardı,
Yurd dərdi çox arzumu çox vədəsiz apardı.
Bu gəlişim, bu görüş vüsalıma nübardı.
Qəlbimin yaraları bitişəndə gəlmişəm.

Öz tarixi, öz adı, öz şanı var bu yurdun,
Oylağıdır aslanların, oylağıdır Boz Qurdun.
Quzeyində yemişən, itburnu, daş armudun,
Suluxlayıb, sulanıb yetişəndə gəlmişəm.

Gəlmişəm birdəfəlik bu yerlərdə qalmağa,
Havasından, suyundan doyuncan bac almağa.
Kül altda buza dönmüş, ocağı qalamağa,
Neçə ildir gözləyib, köz düşəndə gəlmişəm.

Çox demişəm özüm seçəm öz yerini qəbrimin,
Özüm çəkəm hesabın öz xeyrimin, şərimin.
Qırx yaşımda yurddan çıxıb, ömrümün
Yetmişinə, ay Əjdər, yetişəndə gəlmişəm.

***Xankişi BƏXTİYAR***

*Məmmədov Xankişi Bəxtiyar oğlu*
*Qubadlının Başarat kəndində anadan olub.*



## ZƏFƏRİN MÜBARƏK, CƏNAB KOMANDAN!

Yenə Zəngəzurdan gəlir sorağın,
Zəfərin mübarək, cənab Komandan!
Bütün dünya bu gün Sizdən danışır,
Zəfərin mübarək, cənab Komandan!

Qatı açılmayan xəbərlər gətir,
Nəğməli gecələr, səhərlər gətir,
Zəngəzurdan təzə zəfərlər gətir,
Zəfərin mübarək, cənab Komandan!

Kipriyində nəm görməyim heç vədə,
Zərrə qədər qəm görməyim heç vədə.
Taleyini kəm görməyim heç vədə,
Zəfərin mübarək, cənab Komandan!

Cıdır düzündəki çiçəklər deyir,
Ərgünəş dağında küləklər deyir,
Bunu mən demirəm, mələklər deyir,
Zəfərin mübarək, cənab Komandan!

Yoxdur bərabərin, yoxdur bənzərin,
Çətin gələ bir ölçüyə dəyərin.
Dünyanın bir yanın əyər ləngərin,
Zəfərin mübarək, cənab Komandan!

Hər bəndə dünyanı düz görə bilmir,
Düzün düz qiymətin düz verə bilmir.
Hər adam Sizintək kövrələ bilmir,
Zəfərin mübarək, cənab Komandan!

Kəm olmasın bağlarından heç barın,
Allah olsun hər bir zaman qoy yarın,
Aldı qisasını Mais Əlyarın,
Zəfərin mübarək, cənab Komandan!

Ərdoğantək qardaşın var, nə dərdin,
Şuşa kimi daş-qaşın var, nə dərdin.
Mehribantək sirdaşın var, nə dərdin,
Zəfərin mübarək, cənab Komandan!

Hər yetirən duya bilməz bu mehri,
Aça bilməz bu qıfılı, bu sehri.
Namaz qılıb, sonra yazdım bu şeri,
Zəfərin mübarək, cənab Komandan!

Vətən tarixindən inşamız olsun,
İlham da ömürlük paşamız olsun.
Bir gün paytaxtımız Şuşamız olsun,
Zəfərin mübarək, cənab Komandan!

Xankişi söyləyən axşamlar gəlməz,
Peyğəmbərlər gəlməz, imamlar gəlməz.
İmamlar gəlsə də, İlhamlar gəlməz,
Zəfərin mübarək, cənab Komandan!



***Namiq MƏNA***

*01.11.1972, Qubadlı, Bəxtiyarlı kəndi*

**BİZ GEDİRİK QUBADLIYA**

Azad oldu torpağımız,
Biz gedirik Qubadlıya
Düz gedirik Qubadlıya
Əldə zəfər bayrağımız
Biz gedirik Qubadlıya!

Xalqımın Ulu Öndəri
Yetirdi dahi rəhbəri
Tarixə yazdıq zəfəri
Ətirləndi gül bağımız
Biz gedirik Qubadlıya!

Azad oldu torpağımız
Biz gedirik Qubadlıya
Əldə zəfər bayrağımız
Düz gedirik Qubadlıya!

Güclənirik ildən ilə
Bu səs səda düşdü dilə
Ali Baş Komandan ilə
Yetişdi ən xoş çağımız
Biz gedirik Qubadlıya!

Azad oldu torpağımız
Biz gedirik Qubadlıya
Əldə zəfər bayrağımız
Düz gedirik Qubadlıya!

Qaçaq Nəbi igid, nərim
Şanım, şöhrətim, hünərim
Coşdu Bərgüşad, Həkərim
Getdi ürəkdən dağımız
Biz gedirik Qubadlıya!

Azad oldu torpağımız
Biz gedirik Qubadlıya
Əldə zəfər bayrağımız
Düz gedirik Qubadlıya!

Qarabağ Azərbaycandır
Bir bədəndir, bir candır
Dünya bizə heyrandır
Birliyimiz, növrağımız
Biz gedirik Qubadlıya!



***İlham QƏHRƏMAN***

*İlham Umud oğlu Qəhrəmanov 24 aprel 1959-cu ildə Laçının Sus kəndində doğulub.*

## ƏSGƏRLƏRİMİZƏ

Sizin qarşınızda ikiqat ollam,
Bu yurdun ən təmiz, duru yerisiz.
Vətənin gözünün dikənəcəyi,
Xalqın ürək qutu, qürur yerisiz.

Parçalanmış yurdu bir yerə yığmaq, –
Sizdən bundan özgə nə umuruq biz.
Bir Allah bilir ki, hər gələn gecə
Sizə umud olub göz yumuruq biz.

Nə qədər meydanı daraldı onun, –
Qoy şaxı açılsın – o bayraq üç rəng!
Onun bir adı da sevinc göz yaşı, –
Ondan gözəl olmaz gözümdə heç rəng!

Nə vaxt döyüş olur, torpaq qayıdır,
O bayraq sizinlə irəli gedir.
Əsgər yoldaşının son nəfəsidi –
Bax o da dayanmır, yaralı gedir.

İllərdi ürəkdə bir arzumuz var, –
Düşmənin burnunu əzəsiniz bir!
Tanrı çox görməsin – qalxsın bu töhmət –
Papağı yan qoyub gəzəsiniz bir!

Yan-yana sıx durun düşmən önündə,
Amandı sıranız olmasın seyrək!
Tağbənd körpülərin daşları kimi
Biri birinizdən bərk yapışın, bərk.

Sizin qarşınızda ikiqat ollam,
Bu yurdun ən təmiz, duru yerisiz.
Vətənin gözünün dikənəcəyi,
Xalqın ürək qutu, qürur yerisiz.



***Zakir ZAHİR***

*1949-cu ildə Qubadlı rayonunun Abdalanlı kəndində anadan olub. Şəhid atasıdır.*

## ŞƏHİDİMİN ANASI

*Həyat yoldaşım, Şəhidimin anası Nailə xanıma*

Başını dik saxla şəhid anası,
Əymə qamətini, əymə qəddini.
Dərdin ağır dərddi, atam balası,
Dağlarda götürməz sənin dərdini.

Yaman saralmışan, yaman solmuşan,
Sel yuyub aparan yamac kimisən.
Özünü bu hala niyə qoymusan?
Bir bax ətrafına, sən tək deyilsən.

Səni tanımadım, bağışla məni
Qara saçlarına qar ələnibdir.
Solub gəncliyinin gülü, gülşəni,
Sinən qəm yükülə silələnibdir.

Tarix unutmayır mərd oğulları
Bunu bizdən əvvəl atalar deyib
Heç zaman əhdinə çatmayıb yağı
Arzusu,niyyəti, daşlara dəyib

Şəhid anasısan, şəhid anası,
Sənin başın uca, üzün də ağdır.
Bu ad qəlbimizdə hər an qalası,
Bu ad ürəklərdə yaşayacaqdır!

## QƏLBİMDƏN KEÇƏN DUYĞULAR

***Şəhid oğlum Zahirə***

Divardan asılmış məğrur şəkilinə,
Baxdıqca ürəyim alışıb yanır.
Həsrətəm, ay oğul, söhbətlərinə,
Gözümün önündə əksin canlanır,
Baxdıqca ürəyim alışıb yanır.

Təsəlli tapmıram kimsə sözündə,
Yuxum elə bil ki, ərşə çəkilib.
Yaman darıxıram bu yer üzündə.
Sinəmin üstündə dərd-qəm əkilib,
Yuxum elə bil ki, ərşə çəkilib.

Bəzən dayanıram yol qırağında,
Gəlib-gedənlərə nəzər salıram.
Xəyalım dolanır Sənəm dağında,
Quş olub dağlara qanad çalıram,
Gəlib-gedənlərə nəzər salıram!



***Nanə YAVƏRQIZI***

*Məmmədova Nanə Yavər qızı 1963-cü il iyunun 19-da Meğrı rayonunun Aldərə kəndində anadan olub.*

## ŞƏHİD QANIDIR

Bulud qan-yaş tökür göyün üzündən,
Hər düşən damlası şəhid qanıdır.
Lalə baş qaldırır çölün düzündən,
Onun hər ləçəyi şəhid qanıdır.

Üstün xəzəl örtmüş yaşıl bağların,
Bağrı güllələnmiş qoca dağların,
Əyilməz, vüqarlı uca dağların,
Torpağın bələyi şəhid qanıdır.

Doğma Qarabağda soyuq səngərin,
Yeni tarix yazan mərd igidlərin,
Vətən üçün qurban gedən əsgərin,
Arzusu, diləyi şəhid qanıdır.

## ZƏFƏR NƏĞMƏSİ

Alındı torpaqlar, alındı qisas,
Çinar tək şax durdu, əyilmiş başlar.
Eşitsin obalar, eşitsin hər kəs,
Sevincdən, qürurdan dil açdı daşlar.

Düşmənə dağ çəkdi igid ordumuz,
Hər qarış torpağa canını verdi.
Zəfərlə qayıtdı şəhid andımız,
Torpağa qanından lalələr sərdi.

Yarıb qaranlığı öz canlarıyla,
Zülmət gecələrdən səhərə doğru.
Əridib buzları öz qanlarıyla,
Yeni yol açdılar Zəfərə doğru.



***Pənah AZƏRİ***

*Pənah Bəşir olu Quliyev 15 yanvar 1952-ci ildə Meğri rayonunun Maralzəmi kəndində anadan olub.*

**MARALZƏMİYƏ**

Ümidlə baxırdım, qayıdacağam,
O dağa, o düzə, "Güllüzəmi"yə,
Əlimlə pay, sovqat aparacağam,
Mənim doğma kəndim, Maralzəmiyə.

Fikir, xəyallara dalıram, hər gün,
Səbəbin bilmirəm, nədən, nə üçün,
Dedim gedəcəyik, Mədinə Gülgün,
Mənim doğma kəndim, Maralzəmiyə.

Keçib "Mülüşü"nün sıx meşəsindən,
Bir qurtum su içib, "Bəyçeşməsi"ndən,
Baxardım yurdumun "Topçeşməsi"ndən,
Mənim doğma kəndim, Maralzəmiyə.

Olsam Ərzurumda, Qarsda, Turanda,
Çovğunda, şaxtada, boranda, qarda,
Təriflər deyəcəm bütün cahanda,
Mənim doğma kəndim, Maralzəmiyə.

Xəyalım seyr edir o gədikləri,
Gözlərim önündə el şənlikləri,
Çəkib aparardım gözəllikləri,
Mənim doğma kəndim, Maralzəmiyə.

Vətənsiz şairəm, qalmayıb heyim,
Təbib əlac etmir açılsın keyim,
Görürsən, - ürəkdən yazılıb şeirim,
Mənim doğma kəndim, Maralzəmiyə.



***Füzuli HƏSƏNOV***

*Meğri, Nüvədi kəndi, 01.01.1957*

***Ümummilli Lider Heydər Əliyev:*** *"Mehri rayonunda böyük Nüvədi kəndi var. Çoxminlik əhalisi olan bir kənddir. Sırf azərbaycanlıların kəndidir, Arazın qırağında, indi Ermənistanın olan Mehri rayonun Naxçıvanla Azərbaycanın böyük torpağı arasındakı ərazində yerləşir. Həmən bu Nüvədi kəndi ermənilərə 1929-cu ildə verilibdir. Qədim, çox böyük ənənələri olan kənddir. Nüvədi kəndinin əhalisi də çox dəyanətli insanlardır. Onlar hətta Ermənistanın ərazisindən azərbaycanlıların əksəriyyəti çıxarıldığı halda, 1991-ci ildə, mənim xatirimdədir, Nüvədidən çıxmırdılar".*

## NÜVƏDİDƏDİR

Soruşan olsaydı cənnətin yerin,
Deyərdim ki, cənnət Nüvədidədir.
Alimlər, şairlər yetirən ana,
Səadət beşiyi Nüvədidədir.

Hər kəs o yerlərdə olarsa qonaq,
Qayalar başında çatarsa ocaq.
Dolanıb hər yeri, sonra deyəcək,
Dərdlərin davası Nüvədidədir...

Üzüyü tanıdar onun daş-qaşı,
Buluda söykənər həmişə başı,
Olsa da ömrünün boranı, qışı,
Ömrün gözəlliyi Nüvədidədir.



***Firdovsi CƏFƏRXAN***

*Firdovsi Cəfərxan oğlu Kazımov 1955-ci il martın 25-də Qubadlının Yuxarı Mollu kəndində anadan olub.*

**AZƏRBAYCANIM**

Uzaq əsrlərdən, illərdən bəri,
Bəxş etdin cahana neçə ərləri.
Səninlə fəxr edir Turan elləri,
Sığmayır dünyaya şöhrətin, şanın,
Mənim ana yurdum, Azərbaycanım!
Bir oddan, atəşdən sən doğulmusan,
İlahi sevgiylə hey yoğrulmusan,
Türkün mərd, qeyrətli, ölməz oğlusan,
Dünyaya bəllidir müstəqil adın,
Mənim ana yurdum, Azərbaycanım!

Usanma heç zaman, sən axtar, ara,
Düşünüb dərdinə tapginən çara,
Sinəni dəliblər, ediblər yara…
Dayanmır damarda çağlayan qanım,
Mənim ana yurdum, Azərbaycanım!
Bir daha enməsin məğrur bayrağın!
Aləmə nur saçsın şmür çırağın!
Qoy eşitsin, bilsin düşmənin, yağın,
Sənə bir sipərdi, qurbandı canım,
Mənim ana yurdum, Azərbaycanım!

**QALX AYAĞA, AZƏRBAYCAN ÖVLADI!**

Qürurumuz, təpərimiz, de, hanı!
Yerdə qalıb neçə şəhidin qanı,
Sipər edib düşmənə şirin canı,
Qalx ayağa, Azərbaycan övladı!
Mübarizdən dərs almırıq, niyə biz!
Dirənib boğaza Vətən dərdimiz,
Daha bəsdir, tükənibdir səbrimiz,
Qalx ayağa, Azərbaycan övladı!
İstər düşməninlə üz-üzə dayan,
Qatlayıb dizini diz-dizə dayan,
İstərsə, ölümlə göz-gözə dayan,
Qalx ayağa, Azərbaycan övladı!

Cəngi çaldır, cuşa gəlsin ərənlər,
Qorxusundan muma dönsün görənlər,
Qoy dərs alsın sinəsini gərənlər,
Qalx ayağa, Azərbaycan övladı!
Xalq gözləyir, deyəsən son sözünü,
Düşməninin çıxarasan gözünü,
Bu savaşda göstər bir də özünü,
Qalx ayağa, Azərbaycan övladı!
Cihada qalx, bu gün beyət günüdü,
Bu günkü gün Türkün niyyət günüdü,
Yetər artıq, namus, qeyrət günüdü,
Qalx ayağa, Azərbaycan övladı!

*04.10.2019.*



***Asif TALIBOGLU***

*1953-cü il yanvarın 1-də Qubadlı rayonunun Yuxarı Mollu kəndində anadan olub.*

## YADA DÜŞÜBDÜR

Birnəfəsə neçə dağlar aşdığım,
Cığırlarda, dolaylarda çaşdığım,
Ayaqyalın çay aşağa qaçdığım,
Xatirələr yenə yada düşübdür.

Sərcələrə sapandla daş atdığım,
Kəndimizin palcığına batdığım,
Kol dibində şirin-şirin yatdığım,
Xatirələr yenə yada düşübdür.

Yadımdadı min xəyala daldığım,
Qorxub, qaçıb qonşumuzda qaldığım,
Yay axşamı çardaqda yer saldığım,
Xatirələr yenə yada düşübdür.

Baldırğanın qabığını soyduğum,
Qız adını ağaclara oyduğum,
Məktub yazıb daş altına qoyduğum,
Xatirəlır yenə yada düşübdür.

Sevinərdim qoyun-quzu səsdiyim,
Balıq tutmaq üçün ada kəsdiyim,
Sudan çıxıb, əsim-əsim əsdiyim,
Xatirələr yenə yada düşübdü.

Yurd yerində alaçıqlar qurduğum,
Yamaclarda atımızı yorduğum,
Qonşu qıza xəlvəti göz vurduğum,
Xatirələr yenə yada düşübdür.

Bu gün yenə qara geyib Göy nəbən,
Talıboğlu, vaxt keçibdi öynədən...
Hər gün məni göyüm-mgöyüm göynədən,
Xatirələr yenə yada düşübdür.



***Fərzalı ABBASƏLİOĞLU***

*Həziyev Fərzalı Abbasəli oğlu 1956-cı ildə Cəbrayılın Sirik kəndində doğulub.*

## ULU BAYRAĞIM

Dalğaların, şah əsərim,
Şahidisən zəfərlərin,
Atatürk, dədə Heydərin,
Azadlıq yolu bayrağım -
Ucalan, ulu bayrağım.

Qırmızı rəng, şəhid qanı,
Göy vəsf edir Türküstanı,
Yaşıl rəmzidir islamın,
Mərhəmət dolu bayrağım -
Ucalan, ulu bayrağım.

Enilməzsən dar ayaqda,
Qalib çıxdın, hər sınaqda,
Ucal cənnət Qarabağda,
Qeyrətin dili bayrağım -
Ucalan, ulu bayrağım.

Ulu xalqın sevgisiylə,
Ay, ulduzun, saçır şölə,
Nəğmə deyim gülə-gülə,
Mahnımın zili bayrağım -
Ucalan, ulu bayrağım.

Fərzalı sevmədi kini,
Sülhdür, dünyanın hakimi.
Haqqın dərgahına kimi,
Bir sevinc seli bayrağım -
Ucalan, ulu bayrağım.



***Şakir ƏLİFOĞLU***

*Albalıyev Şakir Əlif oğlu 25 aprel 1969-cu ildə Cəbrayıl rayonunun Dağtumas kəndində anadan olub.*

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən:**
*Əziz həmvətənlər! Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun 9 kəndi işğaldan azad edildi! Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm! Cəbrayıl rayonunun və digər işğal edilmiş ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm!*

*4 oktyabr 2020-ci il*

## CƏNAB ALİ BAŞ KOMANDAN!

Qolumuzda gücümüz var,
Şərəflidir şəhid olaq.
Əmr et, sıramızı alaq,
Cənab Ali Baş Komandan!

Bizlər əsgər atasıyıq,
Ordumuza olaq söykək.
Heydər baba nəvəsiyik,
Cənab Ali Baş Komandan!

Siyasətin gücümüzdür,
İşıq saçır yolumuza.
Güc-qüvvətsən qolumuza,
Cənab Ali Baş Komandan!

Biz könüllü döyüşçüyük,
Ucalacaq hax səsimiz.
Bizlər birlikdə güclüyük,
Cənab Ali Baş Komandan!

Qələbəyə apar bizi,
Yerə qoyaq düşmən dizin.
Ulu Öndər davamçısı,
Cənab Ali Baş Komandan!



***Dürdanə QARAŞOVA***

*12 dekabr 1970-ci ildə Cəbrayıl şəhərində anadan olub.*

## CƏBRAYILA GEDƏCƏYƏM

Şükür edirəm Allahıma,
Son qoymuşam ta ahıma.
Üz tutanda sabahıma,
Cəbrayıla gedəcəyəm!

Gəzəcəm doğma torpağı,
Öpəcəm gülü, yarpağı.
Seyr edib aranı-dağı,
Cəbrayıla gedəcəyəm!

Sevindirəcəm Dirimi,
Tapacam ocaq yerimi.
Səsləyib Aşıq Pərini,
Cəbrayıla gedəcəyəm.

Gəyəndə dərəndə çiçək,
Otlar izimi örtəcək.
Hamı sevinclə deyəcək,
Cəbrayıla gedəcəyəm.

Unudub kəsiri-kəmi,
Ürəyimdən sildim qəmi...
Tapdayıb yurd həsrətimi,
Cəbrayıla gedəcəyəm.



***Qüdrət MƏMMƏDOV***

*Məmməov Qüdrət Məhəmməd oğlu Cəbrayılın Şahvəlli kəndində doğulub.*

## ZƏFƏR NƏĞMƏSİ

Çilənsə də qanınız doğma torpağa, daşa
Əzəl gündən ürəklə qoşuldunuz savaşa.
Çıxdı pişvazınıza ərən timsallı Şuşa,
Savaş günü ya Şəhid, ya da Qazi oldunuz-
Düşmənləri elə hey haldan-hala saldınız!

Xudafərində qarı düşmənə dərs verdiniz.
Murovun, Topxananın səsinə səs verdiniz.
Uçuq şəhərə - kəndə nicat-həvəs verdiniz,
Savaş günü ya Şəhid, yada Qazi oldunuz-
Yenilməz ruhunuzla hər qəlbə iz saldınız!

Dediniz hər nə varsa Vətən ondan öncədir,
Qarabağda hər qarış torpaq Bakı, Gəncədir.
Qələbə əzmi yurdun tükənməz sevincidir,
Savaş günü ya Şəhid ya da Qazi oldunuz-
Tarixin yaddaşında həmişə gənc qaldınız!

Hər eldə, hər obada əzizlənir adınız,
Azadlıq məşəlitək sönən deyil odunuz!
Ürəklərə həkk olub isminiz- soyadınız,
Savaş günü ya Şəhid, ya da Qazi oldunuz-
Hər yanda bir yenilməz dağ kimi ucaldınız!



***Musa ASLANXANLI***
*1950-ci ildə Cəbrayılın*
*Böyük Mərcanlı kəndində anadan olub.*

## YENİLMƏZ VƏTƏNLƏ NƏFƏS ALANLAR

Şuşaya bir nəfəs yaxınıq!- dedi,
Ali Baş Komandan...
Dünyamız, yer üzü nura büründü,
Göylər təzələndi elə o andan!..

Oynadı ruhumuz, dindi ruhumuz
Çatdıq bir-birinə itən yolları!
Bir yeni məna da qazandı nəfəs-
Bildik ki, vaxt olur həsrət yaşanır-
Qayğıya çevrilir, sevgiyə dönür,
Nəfəslə ölçülür Vətən yolları!..

Nəfəs var, ən qədim yurdlara yaxın,
Beləcə nurlanır, durulur Vətən.
Bildik, ruhumuzda, qanımızdadır -
Yarı nəfəs Vətən, yarı nur Vətən...

Şuşaya bir nəfəs yaxınıq!- dedi...
Ali Baş Komandan, dağıldı kədər!..
Solan yarpaqların baharı gəldi,
Nəfəslə açıldı geniş üfüqlər!..
Yaxında, uzaqda... gördük kimlər var,
Az deyil, az deyil haqsız olanlar!
Dedik: durdurulsun bu haqsız işlər!

Yurdumuz uğrunda şanlı döyüşlər-
Yaratdı nə gözəl birlik ölkədə!
Güc haqdan gəlmişdi bizə bəlkə də...
Xalqımız haqq dedi, birliyə döndü,
Geniş sinəmizdə Vətən döyündü!

Şuşaya bir nəfəs yaxınıq!- dedi...
Ali Baş Komandan-
Vətən havasından gücünü alan...
Hər iki cəbhədə döyüşdə olan!..

Dayandıq Şuşayla nəfəs-nəfəsə...
Nəfəs- göy üzüdür, qanaddır bizə!
Həyacan! Həyacan- bütün ölkədə!
Başçımız- ən öndə olan döyüşçü,
Başçımız- ən öndə olan sərkərdə!
Ruhumuz nəfəsdir, gücümüz- nəfəs,
Yadlar unutmuşdu bunu bəlkə də...

Yenə meydandayıq, çox da dünyada
Hələ də ikili yanaşmalar var-
Siyasi meydanda, hərb meydanında
Güclüdür Vətənlə nəfəs alanlar!



***Hidayət SƏFƏRLİ***

*Hidayət Hümbət oğlu Səfərli 1964-cü ildə Cəbrayıl rayonunun Daş Veysəlli kəndində anadan olub.*

## GƏLMİŞƏM

Gedəndə cavandım, a yurdum, yuvam,
İndi hüzuruna qoca gəlmişəm.
Başım aşağıydı, dilim də gödək,
Qaldırıb başımı, uca gəlmişəm.

Gəlmişəm qoxlayam gözəl ətrini,
Deyəm ki, tutmuşam əziz xətrini.
Aç başım üstünə qayğı çətrini,
Sanki ziyarətə, haca gəlmişəm.

Unutmaram heç vaxt ağrı-acımı,
İtirmişəm neçə qardaş-bacımı.
Oğullar qaytardı o yurd tacımı,
Mən şahlar şahıyam, taca gəlmişəm.

Gedəndə cavandım, a yurdum, yuvam,
İndi hüzuruna qoca gəlmişəm.
Başım aşağıydı, dilim də gödək,
Qaldırıb başımı, uca gəlmişəm.





***Kamal FƏRHAD***

*Kamal Fehruz oğlu Fərhadov 1969-cu ildə Cəbrayıl rayonunun Yuxarı Mərcanlı kəndində anadan olub.*

## KÖNLÜM

Həyat şəkərdi, baldı,
Min arzudu, xəyaldı.
Dünən dünəndə qaldı,
Bu günü yaşa, könlüm.

Gecəsi var, danı var,
Qəfil gələn anı var.
Qarı var, tufanı var,
Aldanma qışa, könlüm.

Günəş aydın, göy qatı,
Göylərə əlmi çatır?
Ömrü, günü, həyatı,
Yaşama boşa, könlüm.

Könül gülə, üz gülə,
Arı qonar yüz gülə.
Sular kimi süzülə,
Qaynayıb, daşa könlüm.

## DƏHNƏDİ

Göz görər, könül duyar,
Sevgidən ürək doyar?
Hər kəs özün oynayar
Həyat gerçək səhnədi.

Ər doğulan ər olur,
Sinəsi sipər olur.
Təzə olan tər olur.
Köhnə elə köhnədi.

Hər sözü him-cim bilir,
Mizrab nədi, sim bilir.
İslanmasa, kim bilir,
Çəmən nədi, şeh nədi.

Bəlkə, eşidir, duyur,
Ay yatan bəxtim uyu.
Nə vaxtsa gələr suyu,
Dəhnə elə dəhnədi.



***Namiq ZAMAN***

*Zamanov Namiq Zaman oğlu 1971-ci ildə Laçının Zağaltı kəndində doğulub.*

## ZƏFƏR GÜNÜN MÜBARƏK

Sən ey səsi-sədası min illərdən gələnim,
Taleyimə, ömrümə günəş kimi gülənim,
Sənsən qürur mənbəyim, sənsən iftixar yerim,
Damarda coşan qanım, köksümdə çarpan ürək
Ey şanlı məmləkətim, Azərbaycanım mənim -
Sənə zəfər yaraşır, zəfər günün mübarək!

Dünya qədər ulusan, sən tarixin özüsən,
Zülmətlərə nur saçan sökülən dan üzüsən.
Məramın haqq yoludur, haqqın görən gözüsən,
Şəhidlərin haqqını unutmayaq biz gərək
Ey şanlı məmləkətim, Azərbaycanım mənim -
Sənə zəfər yaraşır, zəfər günün mübarək!

Qanlarıyla yudular torpağını, daşını,
Bahara döndərdilər xəzanını, qışını.
Yarana məlhəm olub, dikəltdilər başını,
İgidlərin-ərlərin öz canından keçərək
Ey şanlı məmləkətim, Azərbaycanım mənim -
Sənə zəfər yaraşır, zəfər günün mübarək!

Həmişə zirvələrdə dalğalansın bayrağın,
Qaliblər cərgəsindən yetsin bizə sorağın,
Pozulmasın heç zaman çal-çağırın, növrağın,
Nə qədər ömrümüz var, səni belə şad görək
Ey şanlı məmləkətim, Azərbaycanım mənim -
Sənə zəfər yaraşır, zəfər günün mübarək!



***Mirzə MİRİMLİ***

*Mirimli Mirzə Mirim oğlu 1954 cü ildə*
*Cəbrayıl rayonunun Qovşudlu kəndində anadan olub.*

## GECƏLƏR YUXUDA BİR KƏND GÖRÜRƏM

Taleyi, qisməti nəhsə dönübdü,
Bir şeirin xəyala, səsə dönübü,
Bəxtəvər günləri yasa dönübdü,
Gecələr yuxuda bir kənd görürəm.

Sevgisin qəlbimə yazıb gəlmişəm,
Səmtimi,yönümü azıb gəlmişəm,
Qəbrimi qoynunda qazıb gəlmişəm,
Gecələr yuxuda bir kənd görürəm.

İlləri bu qədər sərt görməmişəm,
Qövr edən dərdimi ört, görməmişəm,
O adda, nişanda kənd görməmişəm,
Gecələr yuxuda bir kənd görürəm.

Torpağı, havası, suyu möcüzə,
Baharı cilvəli, yayı möcüzə,
Şənliyi, büsatı, toyu möcüzə,
Gecələr yuxuda bir kənd görürəm.

Ərzin ədaləti, divanı hanı?
Bu evin dirəyi tavanı hanı?
Kənddisə qocası, cavanı hanı?
Gecələr yuxuda bir kənd görürəm.

Hoylanmışam, səksənmişəm, ay aman,
Dərd qoşundu, təklənmişəm, ay aman,
Qəm üstündə köklənmişəm ay aman,
Gecələr yuxuda bir kənd görürəm.



***Sabir ŞİRVAN***

*Zalov Sabir Əvəz oğlu 1961-ci ildə*
*Cəbrayıl rayonunun Xələfli kəndində anadan olub.*

## QAYITDIM

El ilə demişdik Allahu Əkbər,
El geri dönəndə mən də qayıtdım.
Gedəndə bilməzdik bu qədər çəkər,
Otuz ildən sonra kəndə qayıtdım.

Bu ömrü ömürdən seçib ayırdım,
Yurda dönəcəyim günü sayırdım.
Gedəndə Allahı yamanlayırdım,
Allaha ən əziz bəndə qayıtdım.

Çarpayı çəmənin mehində uyu,
Yamacda bulaqlar, həyətdə quyu.
Bal dadır möcüzə havası, suyu,
Şəkərə qayıtdım, qəndə qayıtdım.

Mübariz kəslərə edə bilməz kar,
Ürəyin atəşi, qəlbin odu var.
Daha dönmək üçün nə boran, nə qar,
Fərq etməz dumanda, çəndə qayıtdım.

Sabirin könlündə əssə də sazaq,
Unutmaz, hər daşı ocaqdı, ocaq.
Torpaqdan bir an da düşmədim uzaq,
Yurda xəyallarda gündə qayıtdım.



***Malik ƏHMƏDOĞLU***

*Məmmədov Malik Əhməd oğlu 1968-ci ildə Cəbrayıl rayonunun Dağtumas kəndində anadan olub.*

**DAĞLARI-DAĞLARI**

Şükür, gedib görə bildim,
Bizim, dağları-dağları.
Suladı qəm yaşlarıyla,
Gözüm dağları-dağları.

Sonda həsrət döndü külə,
Saf arzular gəldi dilə.
Qoymadı yada əyilə,
Dözüm dağları-dağları.

Hər bir dağın var öz adı,
Hər dağın var öz inadı.
Dolaşmaqdan yorulmadı,
İzim dağları -dağları.

Yol açıldı daha elə,
Susan dillər gəldi dilə.
İsidəcək ildən-ilə,
Közüm dağları-dağları.

Malik, dərdə oldu çara,
Qaysaqlayır daha yara.
Bəzəyəcək bundan sonra,
Sözüm dağları-dağları.



***Valeh HEYDƏR***

*Heydərov Valeh Yavər oğlu 17 oktyabr 1962-ci ildə Cəbrayıl rayonunun Karxulu kəndində doğulub.*

## VƏTƏNSEVƏR UŞAQLAR

Banu dedi, uşaqlar
Bilirsiniz neyləyək?!
Vətən haqda hərəmiz
Bir bənd şeir söyləyək.
Bu təklifi eşidib
Uşaqlar çox sevindi.
Hamısının üzündə
Sevinc, fərəh göründü.
Ayan dedi, canımtək
Mən sevirəm bayrağı.
Vətənimin üstündə
Dalğalanan hər çağı.
Nuray isə söylədi,
Baldan şirindir vətən
Başqa heç nə həyatda
Ola bilməz ona tən.
Rasim lap ucadan
Dedi: Olacam əsgər!
Qoruyacam yurdumu,
Mən də göstərib hünər!
Əziz şəhidlər haqda
Belə dedi Rüqəyya
Onlar yurd səmasında
Bənzəyir günə, aya.
Şagirdlərin sözlərin
Müəllim də eşitdi
Əzizləyib onları
Həm də təşəkkür etdi.
Dedi: Hər zaman sevin
Doğma, əziz vətəni!
Gözəl Azərbaycanın
Yoxdur heç yerdə təni!



***Fariz ÇOBANOĞLU***

*Zalov Fariz Zal oğlu-1970-ci ildə*
*Cəbrayılın Xələfli kəndində doğulub.*

**HƏYAT**

Həyat hər yerdə eynidir,
Hara getsə darıxır adam…
Yük əyiləndə
Öz yerindən
Üzülən daş kimi -
İçində qəriblik daşıyır adam.
Deyirəm axı,
Niyə belə qəribəm,
Niyə belə yadam..
Biri soruşsa halımı,
Silə bilmirəm
Nisgilli baxışımı.
Ancaq ki, yalan deyirəm -
Deyirəm xoşbəxtəm, şadam
Hələ yaxşı ki, bu çağacan
Dözüb qalmışam.
Adam deyiləm e, Vallah
Ayrılıq ağzında çeynənmiş daşam..
Bir gilə göz yaşına dəymərəm.
Qoy elə indidən deyim,
Sən dura - dura,
Heç özümü öymərəm.
Ağlım başımda olsa,
Öləndə kəfən də geymərəm..
Qoy desinlər nə Allahsız adamdı.
Hardan bilsinlər axı,
Adam,
Çoxdan öz içinə gömülmüş adamdı.
Bir doğma iz gəzdim -
öz biçimimdə.
Axtardım, aradım
Bir nişan tapmadım
Bu qədər gurrah içində...
Könlümü verməyə çiçəkli çöl,
Daş-kəsəkli yamac gəzdim.
Nə çöl tapıldı, nə yamac,
Çölü ” kraskalı”, üzü pudralı
İçi kif bağlamış şəhər içində...
Zəlitək canımı sordu fəsillər
Niyə danışmır axı -
Bəlkə laldı,
Bu kədərli sətirlər...
Nə yazına isindim, bu şəhərin,
Nə yayının odlu çağına
Axır dözəmmədim
ayrılığın tikanlı sazağına...
Hərdən mənə elə gəlir
göydən günəş çoxdan çəkilib,
İşığın yuvasına bir kor zülmət əkilib
Mənsə günəşə həsrət
bir buz parçasıyam.
Fəqət əriyib gedirəm,
bir namərd qış içində…



***Novruz SİRİKLİ***

*Həsənov Novruz Məhəmməd oğlu 4 aprel 1959-cu ildə Cəbrayıl rayonunun Yuxarı Sirik kəndində anadan olub.*

## VƏTƏN, MƏNİ TORPAĞINDA BİR DƏ ƏK

Solmuş yarpağınam, sınmış budağın,
Sönmüş ocağınam, uçmuş otağın.
Hər dərdə şəfadır isti qucağın,
Oxşa saçlarımı, dara, sığal çək -
Vətən, məni torpağında bir də ək!

Cücərərəm, boy ataram təzədən,
Qoy ələnsin saçlarıma təzə dən.
Köhnə dostda sədaqət çox təzədən,
Saf dostluğu, doğmalığı başa çək -
Vətən, məni torpağında bir də ək!

Həmsöhbət gəzirəm, hay verən yoxdur,
Tənhalıq qəlbimə saplanmış oxdur.
Xoşbəxt o kəsdir ki, duyanı çoxdur,
Həmdəmim ol, qoyma məni tənha, tək -
Vətən, məni torpağında bir də ək!

Tanımadın, övladınam, yaxşı bax,
Eynək bulaqları gözlərinə tax.
Səhvim varsa, qabağıma çıxacaq,
Sənə etməmişəm xəyanət, kələk -
Vətən, məni torpağında bir də ək!

Qovuşmağa həm istək, həm dözüm var,
Sənin üçün bükülməyən dizim var.
Bir ömürlük deyiləsi sözüm var.
Öz balanam, gözləyəcəm sonadək -
Vətən, məni torpağında bir də ək!

Qayğısız illərim dönə geriyə,
Kaş gəncliyim ayaq aça, yeriyə.
Novruz nəğmə qoşa bu gözəlliyə,
Bundan ilham ala, sevinə ürək -
Vətən, məni torpağında bir də ək!



***Səidə NUR***

*Səidə Mehdiyeva*
*Cəbrayılda doğulub.*

**QARABAĞ**

Torpağına sarılım
Qoxlayım gücə gəlim
Varlığından güc alım
Köçüm,köksünə gəlim
Qarabağ!

Anam qədər əzizsən
Ruhum kimi təmizsən
Dəmir yumruq kimisən
Qarabağ!

Qoynunda evim olsun
Çayında əlim donsun
Yağışında islanım
Qarabağ!

Yemliyindən dad alım
Qanqalından tam alım
Pətəyindən bal alım
Qarabağ!

Gəlim, başına dönüm
Ahıl qarıya dönüm
Ölüm,daşına dönüm
Qarabağ!

**YURDUM**

Bilsəydim sərilib, qucaqlayardım
Daşını-qumunu ay ana yurdum.
Bilsəydim gecələr yuxu yatmazdım
Yığardım canıma soyuqluğunu.

Orda uşaqlığım itib qalıbdır
Meşəndə, düzündə, məktəb yolunda
Neçə uşaqların əl izi qalıb
Qurumuş böyürtkən kolluqlarında.

Qanqalı yığardı kobud əlləri
Sümük bıcağıyla atam soyanda
Yığıb qucaq-qucaq qərənfilləri
Sərinlik tapardıq “Dost bulağı”nda

Ömrünün ən gözəl illəri olub
Qayğıkeş nənəmin, əziz nənəmin
Qonuma-qonşuya ver əli olub
O yurdda illəri keçib nənəmin.

Gəlirmi yadına yemlik yığmağın
Əlin qaralanda daşa sürtməyin
Ana tənbehindən qorxub, gizlənib
Nənənin yanına qaçıb girməyin.

Məktəb formasında keçib hasardan
Lalələr dərməyin yadındadırmı?
Önlüyü batırıb lalə südünə
Sonra ağlamağın, yadındadırmı?

Allahın verdiyi ömür payını
Kaş ki keçirəydim ata yurdumda
Yaşlaşıb bir qoca qarıya dönüb
Öləydim vətənin bal torpağında.



***Xosrov NATİL***

*Xosrov Qüdrət oğlu Kərimov 30 noyabr 1957-ci ildə Zəngilan rayonunun Üdgün kəndində anadan olub.*

## GƏLDİM KƏDƏRİNƏ ŞƏRİK ÇIXMAĞA

...Torpaq güllələnib, ağaclar ölüb,
Elə bil zəlzələ alıb cənginə.
Nə yol var, nə çay var öz düzümündə,
30 il zarafat gəlməsin sənə.

Məktəbin binası uçub, dağılıb,
düz otuz ildi ki, zəngi çalınmır.
Nə Zabil, nə Xosrov, nə Qulu müəllim,
Ay Azər, torpağın könlü alınmır.

Burdan ayrılıqlar keçdi otuz il,
30 il sükuta bələndi, necə.
Çadır düşərgəsi, yataqxanalar
Sanki yuxu kimi keçdi beləcə.

Öldük şəhər-şəhər, öldük kəndbəkənd,
Öldük küçə-küçə, öldük səkidə.
Səhəri dirigözlü açdıq hər yerdə
Allah göstərməsin hansı şəkildə.

İndi qayıtmışam, cığırlar itib,
Bir nişan qalmayıb söyüdlü arxdan
30 il yol çəkən gözü quruyub,
İçən yox qaynayan sərin bulaqdan.

30 il igidlər gəldi dünyaya
Lilləndi, duruldu axar suyumuz.
Ölməyən bir ümid payımız oldu,
Bir də Tanrı verən qismət – ruzumuz.

...Çalınmır toyları 30 il keçib,
Vağzalı çalınmır mağar toyunda.
Arzular gözləyir nişan gələcək,
Ümidlər döyüşür sərhəd boyunda.

Solur çəmən-çəmən, solur tər çiçək,
Bir sevgi nəğməsi, mahnı deyilmir.
Ömürlər gödəlir, ölüm çox cavan,
Ölənin adına ehsan yeyilmir.

Çəkil bağlarının dərdi çəkilmir,
Üzülüb tənəklər, dayağı yoxdu.
Üzü cadar-cadar torpağım mənim,
Beşbarmaq çinarın yarpağı yoxdu.

Dən düşmür nə vaxtdı şuma, torpağa,
Nə vaxtdı çəkillər budanmır yazda.
Tənəkə qamışlar, qarğı hörgülər
torranıb, adamsız qalıb ayazda.

Ağzıgünə qalıb qəbir daşları,
Bilinmir kimindi başdaşı yazı.
Düşmən gülləsindən şəkillər solub
Qəlpələr, mərmilər ölüm əşyası.

Vətən, yaddaşına güllə dəyməyə
bir qrad düşməyə elə, yığnağa.
Gəldim məzar-məzar sənə dəyməyə,
Gəlmişəm dərdinə şərik çıxmağa.



***Asya ƏHMƏDOVA***

*23 noyabr 1975-ci ildə Zəngilan rayonunun Məmmədbəyli kəndində anadan olub.*

## O KƏND, BİZİM KƏNDİMİZDİ

*Şeir Zəngilan rayonu Məmmədbəyli kəndinin timsalında işğaldan azad olan bütün kəndlərimizə həsr edilib.*

Sağında Həkəri axan,
Üz tutub Araza baxan,
Kumqayadan qartal qalxan,
O kənd, bizim kəndimizdi.

Başında bulud sürünən,
Dumana, çənə bürünən,
Sarıtəpədən görünən,
O kənd, bizim kəndimizdi.

Çiçəkləri vaxtsız solan,
Çaylaqları qanla dolan,
Neçə ildi əsir qalan,
O kənd, bizim kəndimizdi.

İyirmi yeddi ildi tamam,
Düşmən tapdağında qalan,
Daş üstündə daş olmayan,
O kənd, bizim kəndimizdi.

Cəbhədədi əsgər balam,
Zəng edib deyir ki, Anam,
Bax, işğaldan azad olan,
O kənd, bizim kəndimizdi.

Bu nə sevinc, bu nə törən,
Eşitməyən varmı görən,
Qələbə sorağı gələn
O kənd, bizim kəndimizdi.

Gözün aydın doğma Vətən,
Düşmənlərin oldu pərən,
Üçrəngli bayraq  bürünən,
O kənd, bizim kəndimizdi.

Göylərində qartal süzən,
Sularında sona üzən,
Vətən övladları gəzən,
O kənd, bizim kəndimizdi.

Yaşa, var ol Milli Ordum,
Azad oldu kəndim, yurdum,
Qələbə bayramı qurdum,
Bu kənd, bizim kəndimizdi.



***Salam CAVADLI***

*Salam Allahverdi oğlu Cavadov 3 iyul 1950-ci ildə Zəngilan şəhərində anadan olub.*

## ALTI QARDAŞ NAĞILI

Böyüyürdük altı qardaş,
Analıydıq, atalıydıq.
Yolumuzda olmadıq çaş,
Demədilər, xətalıyıq.

Böyüyürdük altı qardaş,
Göylərdəydi xəyalımız.
Yaş üstünə gəldikcə yaş,
Dəyişildi bu halımız.

Bir gün əziz atamızı
Çarəsiz dərd bizdən aldı.
Qasım bəyin qoçaq qızı
Qayğımızla yalqız qaldı.

Anamızın hünərilə
Qanadlandıq, pərvazlandıq.
O, əridi gilə-gilə,
Biz böyüdük, şux dayandıq.

Evimizin ağbirçəyi
Köçən zaman son mənzilə.
Pıçıldadıq bir gerçəyi:
Yetim qaldıq bundan belə!

Bir də baxdıq beş qardaşıq,
Daha yoxdur Cavadımız.
"Ölüm haqdır", geyir aşıq,
Bəs arzumuz, muradımız?!

Sahib daha çox tələsdi
Tez qovuşsun Zəngilana.
Ümüdini əcəl kəsdi,
Bizi qoydu yana-yana.

Sonra yenə aciz qaldıq,
Gördük dərdin gücünü də.
Son mənzilə yola saldıq
Kiçik qardaş Elçini də!

İllərdir üç qardaşımız
Haqq dünyada, məzardadir.
Bizim yaşam savaşımız
Yenə günluk güzardadır.

Hər fürsətdə soraqlaşıb,
Bir süfrəyə düzülürük.
Doğru edib, yaxud çaşıb
İtgilərə üzülürük.

Haqqı təftiş qəbahətdir,
-Belə deyir təriqət, din.
-Allah bilən məsləhətdir,
Qalanlara şükür edin!

Bir fikir də mənalıdır,
Fərq etdikcə ayılırıq.
Onlar ata-analıdır,
Bizsə yetim sayılırıq.



***Lalə İSMAYIL***

*Lalə Barat qızı İsmayılova 02 fevral 1972-ci ildə Zəngilan rayonunun Yuxarı Yeməzli kəndində anadan olub.*

**ZƏFƏR BAYRAMIMIZ MÜBARƏK OLSUN!**

Geyib dəmir libasın, nərə çəkdi ərlərin,
Qara yazını silib, aldı alın tərlərin,
Aradıb xainlərə, göstərdi öz yerlərin,
Övladların döyüşdə qan dedi qana, yurdum.
Sənin zəfər tarixin mübarək, Ana Yurdum.

Köhlən atlar nalında yuyub qəhərin üzün,
Açan Xarı bülbüllər qoyub zəfərin izin,
Qalxıb, Bozqurd ulayır, oyub səhərin gözün,
Şuşanın dağlarından Günəş oyana, yurdum.
Sənin zəfər tarixin mübarək, Ana Yurdum.

Uğruna taleyindən keçib neçə qəhrəman,
"Dastana döndüm" deyə, yazıldı neçə dastan,
Yaşıl otların üstə sürünərək göy duman,
Şəhid axan qanından can qatıb cana, yurdum.
Sənin zəfər tarixin mübarək, Ana Yurdum.

Ya olum, ya da ölüm, seç ikisindən birin,
Sayma ölünü bizdən, sənə bəs edər dirin.
Qırıb, dağıdıb, yox et əsarətin zəncirin,
İllər nədir, əsirlər ömrünə sana, yurdum.
Sənin zəfər tarixin mübarək, Ana Yurdum.

Soxulub qucağına, tələni yadlar qurdu,
Arxanda daldalanıb, üzünə yadlar durdu,
Od oğlusan, əzəldən adın var, Odlar Yurdu,
Sənə kəc baxan hər kəs, odunda yana, yurdum,
Sənin zəfər tarixin mübarək, Ana Yurdum!

Laçının dağlarından haray çəkir hər qalan,
Araz, Oxçu, Həkəri, Bəsitçaylı Zəngilan,
Gülür səhərə tərəf Qarabağ adlı balan,
Qurbanam bu şöhrətə, şadam bu şana, yurdum,
Sənin zəfər tarixin mübarək, Ana Yurdum.

Diləyidir Tanrıdan, bitsin elin çiləsi,
Vətən deyir son andı, yurd deyir son nəfəsi,
Laləni oyatmasın sinəndə güllə səsi,
Bir axşam al qoynuna, layla çal ona, yurdum,
Sənin zəfər tarixin mübarək, ana yurdum!
Sənin Zəfər Tarixin Mübarək, Ana Yurdum!



***Vaqif QÜDRƏT***

*Vaqif Həmzəyev 10 avqust 1945-ci ildə Zəngilanın Alıbəyli kəndində anadan olub, 2 fevral 2020-ci ildə vəfat edib.*

## MƏNƏ YOVŞAN GƏTİR

*Kəşfiyyata gedən zabit dostuma*

Vətənə gedirsən, Vətənə, qardaş,
Görən gözlərinin nuru olaydım.
Zərrətək qonaydım saçlarına kaş,
Qəlbinin atəşi, qoru olaydım.
Bir iltimasım var sənə bu üzdən;
Mənə yovşan gətir, qardaş, o düzdən.

Gedirsən, getdiyin yollara qurban,
Bu yol min dumandan, min çəndən keçir.
Bu yol ana yurdum Zəngilanımdan –
Bu yol ürəyimin içindən keçir.
İz sal bizsiz qalan yollara bizdən,
Mənə yovşan gətir, qardaş, o düzdən.

Dərə o dərəmi, dağ o dağmıdır?
Doğrusu, inana bilmirəm heç mən.
Yağan qarın rəngi yenə ağmıdır?
Yəqin su yox, axır qan Həkərimdən.
Bizsiz Günəş yenə çıxırmı tezdən?
Mənə yovşan gətir, qardaş, o düzdən.

Orda uşaqlığım, gəncliyim qalıb,
Sərgərdən ömrümdən ona soraq ver.
Orda rahatlığım, dincliyim qalıb,
Qanımla boyanıb o torpaq, o yer.
Bir nişan qalıbmı gör, kəndimizdən,
Mənə yovşan gətir, qardaş, o düzdən.

Neçə eloğlumun, qohum-qardaşın,
Atamın, babamın məzarı orda.
Bağrıma basardım hər qara daşın,
Ömrümüzün xoşbəxt çağları orda.
Qırxayaq dərədən – yurd yerimizdən
Mənə yovşan gətir, qardaş, o düzdən.

Mənə yovşan gətir, bir dəstə yovşan,
Doğma xatirələr qayıdar geri.
Vətənin ətrini qoy alım ondan,
Sonra da əbədi yumum gözləri.
Heç nə istəmirəm, bircə gətirsən,
Mənə yovşan gətir, qardaş, o düzdən.



***Aysel NƏSİRZADƏ***

*Aysel Bəhrəm qızı Bağırova 20 dekabr 1986-cı ildə Zəngilan rayonunun Ördəkli kəndində anadan olub.*

**DÜNYAYA ŞƏFƏQ SAÇAN AZƏRBAYCANIMIZ VAR!**

Cəng eyləyin, igidlər, atılın bu meydana,
Türkün gücün göstərin türkə qarşı durana.
Kim cürət edib çıxar bundan sonra yoluna?
Vüsala qucaq açın, bitdi artıq intizar –
Dünyaya şəfəq saçan Azərbaycanımız var!

Murovdan salam gedir, Süsən dağdan hay gəlir,
Şəki, Şirvan, Qarabağ bir-birinə tay gəlir.
Öz kökünə bağlanmış igid, ərli soy gəlir,
Ey yenilməz ordumdan xəbərdar olmayanlar –
Dünyaya şəfəq saçan Azərbaycanımız var!

Şuşadan yola çıxsın, dalğalansın bayrağım,
Odlar yurdu, od eli, əsla sönməz çırağın.
Qara qızıl, ağ qızıl bərəkətli torpağım,
Vüqarlı dağlarının köksü qızıl, başı qar –
Dünyaya şəfəq saçan Azərbaycanımız var!

Lap uzaq tarixlərdən yol alıb gələr bu yurd,
Sərt dağların qoynunda yuva qurandı boz qurd,
Qarabağ, Şuşanı, yağı düşmən, sən unut!
Bizim igid ərənlər aləmə çəkdilər car –
Dünyaya şəfəq saçan Azərbaycanımız var!



***Sona ƏLİ***

*Sona Xıdır qızı Əliyeva 16 iyun 1988-ci ildə Zəngilanda anadan olub.*

## DÜNƏNLƏR, SABAHLAR

Ayrılıqlar -
xəritədəki sərhədlər qədər şərti deyil.
Dünənlər...
təqvim vərəqləri qədər əlçatan,
sabahlar mütləq deyil.
Darıxmaq...
nədir ki qəribsəməyin yanında.
Bir də sözlər təkcə
deyilişinə, yazılışına görə
fərqlənmir axı -
deyənə də baxırlar.
Bütün arzuların
çin olmağını istəməyin,
pisdir.
Bir də...
aşkar duaya riya qarışar.

***

Mən o qadınam ki,
beş yaşında qızım var,
beş yaşım var.
Sabahdan arzum,
bu gündə haqqım,
dünəndə payım var.
Mən o qadınam ki -
niyə varam, bilirəm.
Dünyaya kişi gözü ilə baxa bilərəm,
baxmıram,
iyrənirəm.
Fikrimdə qayıq,
əlimdə qıyıq,
önümdə...
QORXU!
Mən o qadınam ki,
məndən yoxdur.

***

Bir ürək səsindən
oyanar küləklər,
döyülər qapılar.
Bir qadın gözündən
üzülər yağışlar
Bir günəş gizlənər
bir cüt əl dalında,
süzülər fəsillər.
Bir yarpaq nəfəsi...
Bir ürək səsindən
oyanar küləklər...
Döyülər qapılar.



***Bərxudar SƏLİMOĞLU***

*Bərxudar Səlim oğlu Hüseynov 7 yanvar 1962-ci ildə Zəngilan rayonunun Məmmədbəyli kəndində anadan olub.*

## ZƏNGƏZUR DAĞLARINA

Nə vaxtdır ki, yuxularım pozulub,
Yaman düşüb sorağına dağların.
Günü sabah dizin-dizin sürünüb
Gedəcəyəm ayağına dağların.
Bax, bu dərdi təkcə özüm çəkəcəm,
Duman olub ətəyinə çökəcəm,
Bulud kimi ağlayacam, tökəcəm,
Ünüm yetsə qulağına dağların.
Çalışacam hər dərdini bilməyə,
Çıxacağam zirvəsini görməyə,
Əlum gəlməz bircə gülün dərməyə,
Dəyəmmərəm növrağına dağların.

## SINDIRARSA...

Üzümə çırpma qapını
üzümü sındırarsan,
Arada baxışım qalıb,
Gözümü sındırarsan..
Baxışında yalvarış var,
yerişində aldanış var,
Elə getmə, dost-tanış var,
izini sındırarsa...
Bax, beləcə necə qalım,
Durum bəlkə yola salım?
Qorxuram ki, qadanalım
Sözümü sındırarsan...
Uçurma sevgi taxtımı,
Səndə heç insaf yoxdumu,
Bir də sınasam baxtımı,
Dözümü sındırarsan....



***Ruslan BƏHMƏNOĞLU***

*Ruslan Bəhmən oğlu Hüseynov 3 mart 1978-ci ildə Zəngilan rayonunun Vənətli kəndində anadan olub.*

## ZƏNGİLANIM, QAYIDIŞIN MÜBARƏK!

*“Mənə köçkün demə, ay canım, gözüm*
*Zəngilan adında elim var mənim!”*

Aç qolunu, qucağına gəlirəm,
Bitdi həsrət, ocağıma gəlirəm.
İtirdiyim xoş çağıma, gəlirəm,
Baharın mübarək, qışın mübarək,
Zəngilanım, qayıdışın mübarək!

Qəriblikdə agartmışam saçı da
Qüssə də çəkmişəm, dərdd də, acı, da.
Yaramın məlhəmi, tək əlacı da
Torpağın mübarək, daşın mübarək,
Zəngilanım, qayıdışın mübarək!

Neçə-neçə igidlərin var sənin,
Cəbrayılın, Emillərin var sənin.
Qəhrəmanın, şəhidlərin var sənin,
Qurtuluşun, doğuluşun mübarək,
Zəngilanım, qayıdışın mübarək!

Gerçək oldu niyyətimiz, arzumuz,
Zəfər cəngi çaldı şanlı ordumuz.
Azad oldu Torpağımız, yurdumuz,
Yeni günün, yeni yaşın mübarək,
Zəngilanım, qayıdışın mübarək!



***Səadət SALMANQIZI***

*Səadət Salman qızı Soltanova 19 iyun 1979-cu ildə Zəngilan rayonunun Alıbəyli kəndində anadan olub.*

**AZAD VƏTƏNİM**

Şərik oldum kədərinə, tən oldum,
Otuz illik dərddin, əldən gedənim.
Şükür, bu gün fəxarətlə deyirəm
Azad oldun, azad, doğma vətənim!

Oğulların səni darda qoymadı,
Yağı düşmən tapdağına qıymadı.
44 günə düşmən ruhu duymadı,
Azad oldun, azad, doğma vətənim!

Xocalı, Ağdərə azaddır indi,
Əskəran qalası, Şuşa, Xankəndi.
Zəngilan, Qubadlı, Fizuli şəndi,
Azad oldun, azad, doğma vətənim!

Ağdam, Cəbrayılım şənlik eyləyir,
Laçın Kəlbəcərə salam söyləyir.
Uşaqdan böyüyə hər dilim deyir
Azad oldun, azad, doğma vətənim!

Üç rəngli bayrağın başımın üstə,
Xarı bülbülündən tutaram dəstə.
Sevincim düşməni edəcək xəstə,
Azad oldun, azad, doğma vətənim!

Yaşasın Zəfəri çalan Ordumuz,
Biz Odlar yurduyuq, yoxdu qorxumuz.
Dədə ocağımız, baba yurdumuz,
Azad oldun, azad, doğma vətənim!



***Elvin ƏLİZADƏ***

*Elvin Nurəddin oğlu Əlizadə 20 fevral 1993-cü ildə Zəngilan rayonunun Ağalı kəndində anadan olub.*

## İLAHİ, O KƏNDDƏ NƏLƏR VAR İDİ

*Biz doğma yurdumuz Zəngilana çatanda narın-narın yağış yağırdı. Sanki ana illərdir həsrətində olduğu övladlarına qovuşurdu və sevinc göz yaşlarını saxlaya bilmirdi. Daha sonra göz qamaşdıran gün çıxdı... Görünür, təbiətin könlünü ala bilmişdik. Göz yaşlarının ardınca üzümüzə gülümsəyə bildi...*

Dünən Zəngilana getmişdim, ata,
Tikdiyin evlərdən əsər yox idi.
Vəhşilik adında əsər var idi,
Otların üstündə əsgər izləri,
Daşların dibində zəfər var idi.
İlahi, o kənddə nələr var idi...

Dünən Zəngilana getmişdim, ata,
Nə köhnə yerində şaftalı bağı,
Nə də üzümlükdə üzüm var idi.
Mən ordan çıxanda dil açmamışdım,
Qayıtdım, deməyə sözüm var idi.
Yerdə iməkləmək izim var idi.

Dünən Zəngilana getmişdim, ata,
Neçə güllələnmiş başdaşı gördüm.
Evlərin yerində çay daşı gördüm.
Çay nəyə deyirsiz? - Enli dərəydi,
İçində sevincdən göz yaşı gördüm...

Keçdim Babaylıdan, Məmmədbəylidən,
Yollar Ağalıya burulur, ata.
Gözü yolda qalan Həkəri ki var,
Bulanıq suları durulur, ata.
Deyəcəm, bəlkə də inanmayassan,
Oralar yenidən var olur, ata,
Oralar yenidən qurulur, ata!
Dünən kəndimizə getmişdim, ata!
Tikdiyin evlərdən əsər yox idi,
İlahi, o kənddə nələr yox idi...



***Ceyran QURBANOVA***

*Ceyran Səftər qızı Qurbanova 25 aprel 1990-cı ildə Zəngilanın Ördəkli kəndində anadan olub.*

## ƏSGƏRİM

Gecələri yatmayıb, gündüzləri sayaqsan,
Millətin söykəndiyi, yenilməyən dayaqsan,
Çətin, uğurlu yolda sən nurlu bir mayaksan,
Vətən səndən başlayıb, mənim məğrur əsgərim!
O qartal baxışına əmanətdir səngərim!

Uzun qış gecələri, tətikdə barmaqların,
Narahat çəkmələrdə sıxılan ayaqların,
Aslantək şığıyarsan üstünə "qoçaq"ların,
Vətən səndən başlayıb, mənim məğrur əsgərim!
O qartal baxışına əmanətdir səngərim!

Biz bu yay səhərinə oyanmışıq, sağıqsa,
Biz bu gün başı uca, üzümüz də ağıqsa,
Himalayla yan-yana, biz ən uca dağıqsa,
Vətən səndən başlayıb, mənim məğrur əsgərim!
O qartal baxışına əmanətdir səngərim!

Ayağın dəyən yerdə, güllər açar torpağım,
Quruca nəfəsinlə, dalğalanar bayrağım,
Sənin adınla başlar, toy-büsatım, növrağım,
Vətən səndən başlayıb, mənim məğrur əsgərim!
O qartal baxışına əmanətdir səngərim!

Sən Allah amanında, Vətən sənə əmanət,
Bu çırpınan ürəkdə, sənə böyük məhəbbət,
Quranın hər kəlməsi, səni edər hidayət,
Vətən səndən başlayıb, mənim məğrur əsgərim!
O qartal baxışından tir-tir əsər düşmənim!



***Elşad ZƏFƏR***

*Hacıyev Elşad Tofiq oğlu 1963-cü il noyabr ayının 8-də Zəngilan şəhərində anadan olub.*

**NEYNİRƏM**

Yenə zümrüd donun geyə dərələr,
Sübh şehdə isladıb, gündüz sərələr.
Qızlar güllərindən çələng hörələr,
Bu dərə mənimsə, dağı neynirəm!

Çinar meşəsində yaşıl bir tala,
Sünbül dalğalana meh laylay çala.
Oxşayam gülləri, bülbül hay sala,
Bu tala mənimsə, bağı neynirəm!

Yenə canım ala o qara zülfün,
Sığaldan huşumu apara zülfün,
Dağıla üzünə bir ara zülfün,
O zülflər mənimsə, tağı neynirəm!

Ola leyla gecə, həmdəm yar ola,
Ulduzlar sayrışa, həm səyyar ola
Gecə mənim ola, ixtiyar ola
Gündüzlü, günəşli çağı neyninirəm!

Elşadam, bu dünya özümdə mənim,
Vətəndir, sevgidir sözüm də mənim
Dünya rəngarəngsə gözümdə mənim,
Mən bir tək qaranı, ağı neynirəm!



***Həsən ORUCOĞLU***

*1954-cü ildə Zəngilanın Məmmədbəyli kəndində anadan olub, 2024-cü ilin iyulunda vəfat edib.*

## MƏNİM ŞAGİRDLƏRİM NƏNƏ, BABADIR

Görmədi illərin neçə rəngini,
Onda mən görəndə hələ uşaqdı.
Tez qaçıb vurardı məktəb zəngini,
İndisə körüklü bax, bir ocaqdı!

Kəkilli oğlandı, hörüklü qızdı
Təbaşir tozuna bulaşardılar.
Beşcə dəqiqəlik tənəffüs azdı,
Əski top üstündə dalaşardılar.

Elə böyüdülər həsrət içində,
Elə böyüdülər hicran dağında.
Bir ayrı geyimdə, ayrı biçimdə
Eşqin, məhəbbətin qəmli bağında...

Tab da tab gətirməz, dözüm də dözüm
Səbrin də tükənən vaxtı varıymış.
Ayrılıq içində ayrıydım özüm,
Fağırların necə bəxti varıymış?!

Çöllər sinif oldu, həyat partalar
Sınaqdan çıxdılar dümağ qar kimi.
Dinib-danışanda qızıl xırdalar,
Elə kəndimdəki bəhrə-bar kimi!

O sütül oğlanlar, qəmzəli qızlar
Döndü ağsaqqala, həm ağbirçəyə.
Yenə şirin oldu, şirin ağızlar
Ətir bəxş edəndə körpə çiçəyə!

Solan hər gül-çiçək bahar olacaq,
Hərəsi bir eldir, həm bir obadır.
Yurda qayıdıram...yurdum dolacaq,
Mənim şagirdlərim nənə-babadır!



***Adil HƏSƏNOĞLU***

*1957-ci ildə Zəngilan rayonunun Mincivan qəsəbəsində doğulub.*

## GƏLİMMİ?

*(Anamı düşünərək)*

Birlikdə bölünməz söz olaq deyə,
Yarımçıq hecana qonaq gəlimmi?
Bir ocaq qarsıdan köz olaq deyə,
Tüstüsüz bacana qonaq gəlimmi?

Gəllimmi dünyanı bir görmək üçün?
Gəllimmi hər yeri pir görmək üçün?
Gəlimmi dağılan yer görmək üçün?
Ruhu itkin cana qonaq gəllimi?

Gəlimmi bir zurna, qaval səsinə?
Gəlimmi bir nişan, toy həvəsinə?
Gəlimmi bəxtimin gənclik dərsinə?
Əllərimdə həna qonaq gəllimmi?

Gəlimmi "Şuşanı aldıq!", -deməyə?
Gəlimmi "Bir zəfər çaldıq", -deməyə?
Gəlimmi "Biz millət olduq", -deməyə?
Yazılan dastana qonaq gəlimmi?

Otuz il yolumu gözlədin orda,
Otuz il ağrımı izlədin orda,
Otuz il "Ay oğul, döz-dedin, orda"
Ana, Mincivana qonaq gəlimmi?
Ana, Zəngilana qonaq gəllimi?



***Səttarxan İMAMƏLİ***

*Səttarxan İmamxan oğlu İmaməliyev 1970-ci il fevralın 24-də Qafanın Kirs kəndində doğulub.*

## ŞƏHİD

*Ramazan Göydağlının və*
*cəmi şəhidlərimizin əziz xatirəsinə*

Şərəfli yaşayan şərəfli ölür,
Bu fikrin isbatı - həyatın, Şəhid.
"Gəzməyə qərib el, ölməyə vətən."-
Nə gözəl söylənmiş bayatın, Şəhid.

Sənin vətən üçün verdiyin cana
Yüz min ata qurban, yüz min də ana.
Şərəfin qaytardı Azərbaycana
Sənin adın, Şəhid, soy adın, Şəhid.

Vətən tapdaqlarda qalmasın deyə,
Düşmən Bakya da gəlməsin deyə,
Bayraq bez parçası olmasın deyə,
Qanınla al rəngə boyadın, Şəhid.

Nəşindən göyərdi vətənin yazı.
Allah səndən razı, biz səndən razı.
İnşaAllah, yurduna ta düşməz gözü
Nə xainin, Şəhid, nə yadın, Şəhid!

***Pərvanə ZƏNGƏZURLU***

*Qafan rayonu, Acıbac kəndi*



**ZƏNGƏZUR**

Mənə lazım deyil dünyanın malı,
Sənsən ən qiymətliləlim Zəngəzur.
Həyatda ən ülvi arzum budur ki,
Bir gün qucağına gəlim Zəngəzur.

Atamın kötükdə dəhrəsi qaldı,
Çatmada anamın nehrəsi qaldı,
Nənəmin darağı,cəhrəsi qaldı,
Zəhərə dönübdü balım Zəngəzur.

Dönüb yağışına ələnəcəyəm,
Şehli otlarına bələnəcəyəm,
Əhdimdir,bənövşə dilənəcəyəm,
Çatsa kol dibinə əlim Zəngəzur.

O cənnət mahalda qalıbdı gözüm,
Dağlardan aralı mən necə dözüm.
Pərvanəyəm, gəlib doyunca gəzim,
Sonra qucağında ölüm Zəngəzur.





***Zöhrə HƏBİBULİNA***

*1973-cü ildə Qafan rayonunun*
*Davudbəy qəsəbəsində doğulub.*

## VƏTƏN BOYDA VƏTƏNƏM!

Başım Xusdub dağı, sinəm Qazangöl,
Elə vətən boyda bir vətənəm mən.
Gözlərim bulaqdı ahım qasırğa,
Ay başı bəlalı vətən, sənəm mən.
Elə vətən boyda bir vətənəm mən!

Köksümdə dərd yatır gözlərimdə qəm,
Çəkildi sinəmə mincürə sitəm,
İstədim gül olub çöllərdə bitəm,
Buludam, leysanam, dağda çənəm mən.
Elə vətən boyda bir vətənəm mən!

Bir dərya qoynunda ada ürəyim,
Qorxuram dəryanı uda ürəyim,
Kövrək bənövşəyəm yada ürəyim,
Nərgizəm, reyhanam, yasəmənəm mən.
Elə vətən boyda bir vətənəm mən!

Mən bülbül deyiləm qəfəsdə olam,
Bəxtəvər deyiləm həvəsdə olam,
Zərzinət deyiləm hər kəsdə olam,
Qardələn bitirən bir çəmənəm mən.
Elə vətən boyda bir vətənəm mən!



***İsrayil HÜSEYNOV***

*1 fevral 1959-cu ildə Qafan rayonunun Pürülü kəndində doğulub.*

## AZƏRBAYCAN

Oddan-alovdan yoğrulan,
Sanki günəşdən doğulan,
Dərdi köksümə yığılan,
Ana yurdum, Azərbaycan!

Düşmənlərə sinə gərən.
Dostlarına qəlb göstərən,
Qonağına süfrə sərən,
Ana yurdum, Azərbaycan!

Dünyada adla tanınan,
Sözlərindən inci yağan,
Dahi şairlər yaradan,
Ana yurdum, Azərbaycan!

Əsarət zəncirin qıran,
Düşmənlərin bağrın yaran,
İlhamdır zəfərə varan,
Ana yurdum, Azərbaycan.

İsrayil də sənin balan,
Həmişə dərdinə qalan,
Sənsiz ömrüm olar yalan,
Ana yurdum, Azərbaycan.



***Ramazan SƏMƏROĞLU***

*Ziyadov Ramazan Səmər oğlu 20 dekabr 1961-ci ildə Qafan rayonunun Kurud kəndində doğulub.*

## ZƏFƏR PARADIMIZ MÜBARƏK, VƏTƏN!

Yuyuldu hər daşın şəhid qanıyla,
Zəfər paradımız mübarək, Vətən!
Torpağını aldı ordun canıyla,
Zəfər paradımız mübarək, Vətən!

Ali Baş Komandan, gözümüz aydın,
Zəfər sorağımı dünyaya yaydın,
Xankəndindən ötrü anları saydım,
Zəfər paradımız mübarək, Vətən!

Özünə güvəndi qardaşım, bacım,
Gördüm qələbəyə var ehtiyacım,
Sənin hədiyyəndir bu zəfər tacım,
Zəfər paradımız mübarək, Vətən!

Ölümü öldürdüm ölüm yox mənə,
Bələkdə körpəm də qımışır yenə,
Türküm gözün aydın söyləyir sənə,
Zəfər paradımız mübarək, Vətən!

Əsgərin düşmənə qan uddurdu, qan,
Qəddini dik saxla, can, Azərbaycan,
Səni təbrik edir İlham, Ərdoğan,
Zəfər paradımız mübarək, Vətən!



***SƏDAYƏT***

*Qurbanov Sədayət Heydər oğlu 1965-ci ildə Qafan rayonunun Pürülü kəndində anadan olub.*

## QADİR ALLAH ORDUMUZA YAR OLSUN!

Şanlı Ordum göstərəndə əzələ,
Düşmənlərə düşür qorxu, vəlvələ.
Bunun gücün görməmisən sən hələ.
Millətimiz, dövlətimiz var olsun,
Qadir Allah ordumuza yar olsun!

İgid əsgər, yeri ancaq irəli,
Tülkü başın əzəcəkdi şir əli.
Üstünüzdə olsun Haqqın bir əli.
Bu torpaqlar qoy düşmənə dar olsun,
Qadir Allah ordumuza yar olsun!

Quduzlaşıb hər vaxt nahaq qan tökən,
Aciz vaxtı yalvararaq diz çökən.
Bizim doğma torpaqlara göz dikən,
Düşmənlərə ölüm olsun, ar olsun,
Qadir Allah ordumuza yar olsun!

Bu xalq heç vaxt itirməmiş qeyrətin,
Hər kəs bilir onun gücün, qüvvətin.
Yada verməz nə yurdun, nə sərvətin.
Yağı düşmən qoy alçalsın, xar olsun,
Qadir Allah ordumuza yar olsun!

Sədad, verən bizə sevinc xəbəri,
Qoy çox olsun ordumuzun zəfəri.
Abad edək hər bir kəndi, şəhəri,
Vətənimiz bölünməsin, bir olsun,
Qadir Allah ordumuza yar olsun!



***Həmzə HƏMZƏYEV***

*Qafan rayonunun Pəyhan kəndi, 1921-1978.*

## DAĞLARIN

Adəmdən o yana, Nuhdan bu yana,
Sirlidir tarixi, yaşı dağların.
Bəstəkardı, müğənnidi, deyəsən,
Turacı, kəkliyi, quşu dağların.

Nərgiz mürgüsüdür, lalə həyası,
İlahidən düşüb rəngi -boyası.
Zümrüddür meşəsi, tuncdur qayası,
Qızıldır torpağı, daşı dağların.

Bəxtimmi gətirdi, talemi verdi?
Vətən necə ülvi, müqəddəs yerdi.
Həmzənin gözündə ocaqdı, pirdi
Hər guşəsi, hər qarışı dağların.

## SEVMİŞƏM

Cənnətdir hər yeri ana vətənin,
Çəmənini, çiçəyini sevmişəm.
Ətirli güllərdən dəstə tutmuşam,
Çiçəklərin ləçəyini sevmişəm.

Quş kimi uçmuşam dirriyə, bağa,
Şeir də yazmışam yaşıl yarpağa.
Kol-kosdan yapışıb çıxmışam dağa,
Çən - çiskinli neçəyini sevmişəm.

Gedərsən, dost xeyirli yol uğurlar,
Qayıdarsan, məclis qurub ağırlar.
Olanlara güzgü tutur nağıllar,
Nağılların gerçəyini sevmişəm.

Günəş göyün, göylər yerin yaşıdı,
Vətən eşqi gözün, könlün xoşudu.
Demə Həmzə məhəbbətdə naşıdı,
Gözəllərin göyçəyini sevmişəm.



***Abbas GÜLMALIYEV***

*Qafan rayonunun Kurud kəndi, 1925-1974.*

## AZƏRBAYCAN

Allı-güllü baharı var, yazı var,
Qədim-qədim eralarda izi var,
Ər xislətli igid oğlu-qızı var,
Xoşbəxtdir elləri Azərbaycanın.

Mənim yurdum cənnətidir cahanın,
Məkanıdır min cür zövqün, səfanın,
Güzgüsüdür ay-ulduzlu səmanın,
Sonalı gölləri Azərbaycanın.

Uca dağlar timsalıdır qüdrətin,
Öz tamı var hər yetişən nemətin,
Ağ üzüdür səadətin, zəhmətin,
Pambıqlı çölləri Azərbaycanın.

Yaylağında qoyun-quzu mələşir,
Aranında sarı sünbül gərişir,
Azad ellər nəğmə deyib gülüşür,
Xoş gəlir illəri Azərbaycanın.

Bu torpağa Tanrım verib dövləti,
Gündən-günə ucalaşır şöhrəti,
Tükənməzdir "qara qızıl" sərvəti,
Nurludu yolları Azərbaycanın.

## GƏLİB

Al-əlvan bəzənib bağçalar-bağlar,
Azəri yurdumun baharı gəlib.
Yamyaşıl geyinib dərələr, dağlar,
Dağların bənövşə çaparı gəlib.

Belə gözəllikdən, ey könül, keçmə,
İlham köhlən çapar, çalış gecikmə,
Gülümsər gözündən çağlayır çeşmə,
Qızıl torpağının əyarı gəlib.

Zirvələr dumandan sıyrılır nazla,
Ömür təzələnir arzu-murazla.
Quşlar nəğmə deyir min cür avazla,
İlhamın şeiriyyət nübarı gəlib.



***Bariz BƏHRAMOĞLU***

*İbrahimov Bariz Bəhram oğlu 1941-ci ildə Qafan rayonunun Həçəti kəndində doğulub,*
*17 oktyabr 2021-ci ildə vəfat edib.*

## BÜTÖV AZƏRBAYCANIN HİMNİ

Azərbaycan, Vətənimin şimalısan, qərbin hanı?
Şimalına cənubunu birləşdirən hərbin hanı?
Sənin xoşbəxt taleyinçün döyüşlərdə verərik can,
Hərb bizdədir, Qərb də bizim olacaqdır Azərbaycan!

Şərqin mavi Xəzərindir, qərbə doğru gedirik biz,
Yağı düşmən söz anlamır, hərbə doğru gedirik biz.
Qonaqpərvər millətik biz, "qonaqlara" deyərik "can"!
Hansılar ki, xain çıxdı, əz başını, Azərbaycan!

Babamızın qanı ilə suvarılıb torpağımız,
Birlikdədir nicatımız, azad həyat növrağımız.
Araz boyu qovuşacaq millətimiz, Azərbaycan!
Bütün ərzə yayılacaq şöhrətimiz, Azərbaycan!

Oğlun, qızın sərvətindir, hər biri dürr danəsidir,
Çox milyonluq Qərb soydaşın öz yerinə dönəsidir.
Əmin ol ki, cənub, qərbin birləçəcək, Azərbaycan,
Qədim torpaq başdan - başa türkləşəcək, Azərbaycan!





***Əliş ƏHMƏDOĞLU***

*6 sentyabr 1947-ci ildə Qafan rayonunun Şəhərcik kəndində doğulub.*

## ŞƏHİDLƏR

Millət "Vətən" deyib girdi savaşa,
Hər vaxt ön cəbhədə oldu şəhidlər.
"Ölüm, ya  azadlıq" şüarı qoşa,
Düşmənə zərbəni vurdu şəhidlər.

Vaxtsız aparsada əcəl onları,
Ölüm sarsıtmadı qəhrəmanları.
Sabahın cəngidir qızıl qanları,
Azad gələcəyə yoldu şəhidlər.

Hər biri bir igid, cəsur qəhrəman,
Döyüşdə kimsəyə vermədi aman.
Adı əzbər oldu zəfəri dastan,
Yağıdan qisası aldı şəhidlər.

Ucaltdı vətəni adı- sanıyla,
O aylı-ulduzlu hürr nişanıyla.
Vüsəti, inancı, eşqi qanıyla
Üçrəngli bayraqda qaldı şəhidlər.

Əlişəm, vurğunam ülvi niyyətə,
Əhdə, sədaqətə, saf məhəbbətə.
Getdi haqq dərgaha,əbədiyyətə,
Yolunu qəlbimdən saldı şəhidlər.



***Nailə İBRAHİMOVA***

*4 may 1953-cü ildə Qafan rayonunun Şəhərcik qəsəbəsində doğulub.*

## NECƏ GÖZƏL GÜNLƏRDİ

Zəngəzurda doğulub
Boya-başa çatmışam.
Gözəl bir kənd qoynunda
Böyüyüb boy atmışam.

Hər tərəfdə çiçəklər
Baxdıqca göz oxşardı.
Dağlardan gələn sular
Kükrəyərdi, daşardı.

Havası təmiz idi,
Meh xəfifcə əsərdi.
Solub saralan yarpaq,
Asta-asta düşərdi.

Meşədə buz bulaqlar,
Yolumuzu gözlərdi.
Hamı bu gözəlliyi
Seyr edərdi, izlərdi.

Süfrələr açılardı,
Yeyib içib gəzərdik.
Çəmənlikdə gülləri
Çiçəkləri üzərdik.

Necə gözəl illərdi,
Necə gözəl günlərdi,
Necə gözəl aylardı...
Yayda həyat qaynardı.

Şəhərdə yaşayanlar
Yayda kəndə gələrdi.
Şadlıqdan uşaq-böyük
Şənlənərdi, gülərdi.

Qohum-qardaş yığışıb
Sevincini bölərdi,
Necə gözəl günlərdi,
Necə gözəl günlərdi.





***Xanlar ZƏNGƏZURLU***

*Hüseynov Xanlar Qiyas oğlu 1956-ci il avqustun 18-də Qafan rayonunun Şəhərcik qəsəbəsində dünyaya göz açıb.*

## AZƏRBAYCAN ƏSGƏRİ

30 ildə saçlarımı ağartdım,
Sərsəm gəzdim, nə ayıldım, nə yatdım,
Əl çatmayan zirvələrə əl atdım,
Köməyimə çatan yalnız sən oldun,
Sevincimə, kədərimə tən oldun,
Azərbaycan əsgəri!

Baş komandan vətənimin qanadı,
Bu hikməti duysan, dərin mənadı,
Xalqım səni ağır gündə sınadı,
Heyrətimdən gözlərimdə nəm oldun,
Sevincimə, kədərimə tən oldun,
Azərbaycan əsgəri!

Fransanı laxlatdın öz yerindən,
Rusiyanı silkələdin dərindən,
Zəngəzurlu doymur Vətən seyrindən,
Can evimdə gül oldun, gülşən oldun,
Sevincimə, kədərimə tən oldun,
Azərbaycan əsgəri!

Mübarizim gizli cəngə tək getdi,
Tarix şanlı səhifəsinə həkk etdi,
Ermənilər Qarabağı tərk etdi,
Zəfər çaldın, üzügülər, şən oldun,
Sevincimə, kədərimə tən oldun,
Azərbaycan əsgəri!

Yağılardan qisas aldıq, bac aldıq,
Çox ləngidik, ömür getdi, qocaldıq,
Ərdoğandan biz mənəvi güc aldıq,
Göydə şimşək, yerdə tufan, çən oldun,
Sevincimə, kədərimə tən oldun,
Azərbaycan əsgəri!

Şəhid verdik kəsilmədən arası,
Sağalmazdır qəlbimizin yarası,
Türk qardaşım gözlərimin qarası,
Harda oldum, sən mənə həmdəm oldun,
Sevincimə, kədərimə tən oldun,
Azərbaycan əsgəri!

Şəhid verən analara qurbanam,
Onlar mənim öz bacımdır, öz anam,
Xanlar deyir, mən sadəcə yazanam,
Sən qəlblərdə çıraq oldun, şam oldun,
Sevincimə, kədərimə tən oldun,
Azərbaycan əsgəri!



***Allahverdi ƏLİYEV***

*Əliyev Allahverdi Əyyub oğlu 25 iyun 1953-cü ildə Qubadlının Teymur Müskanlı kəndində anadan olub, 12 iyun 2025-ci ildə vəfat edib.*

## DƏDƏ

Deyirsən ki sözün - savın,
Sözüm-savım yoxdu, dədə.
Ürəyimi yağmalayan,
Dərdim hələ çoxdu, dədə.

Diş tökülüb, saç ağarıb,
Qayım dağlar haraylayır.
Yaş yetmişi yaxalayıb,
Yüzə güman yoxdu, dədə.

Ana yurdum viran qalıb,
Yaylağında, yaram qalıb.
Mamır basmış qayam qalıb,
Ayağa dur, vaxtdı, dədə.

Hər il, ildən yaman gəlir,
Ot yerinə saman gəlir,
Şor çörəyə, güman gəlir,
İştahamız toxdu, dədə.

Qəmər atın xəbəri yox,
Kişnərtisi, ətəri yox,
Qurddan , quşdan şatəri yox,
Yaydan çıxdı, oxdu, dədə.

Qızıl armud yad qisməti,
Unutmadıq ar-isməti.
Namus -Qeyrət əmanəti,
Səni yaman yıxdı, dədə.

Çox götürüb, çox görsək də,
Xox gəlsək də, xox görsək də,
Gözümüzü tox görsək də,
Dövran üzə durdu, dədə.

## KƏKLİK

Baxır daşlar arasından,
Yazıq -yazıq kola kəklik.
Qayaların üst-başından,
Gəl özünü sına, kəklik.

Namərd ovçu bərədədi,
Nişan yeri düz, sənədi.
Qəm ocağın sinəmdədi,
Qismətini qına, kəklik.

Havada süz qanadınla,
Gəl sağollaş, yurd -yuvanla.
Çək bu fışqıran qanınla,
Lələyinə xına, kəklik.

Hər cür sifət görmüsən sən,
Kol dibini, ev etmisən.
Bəlkə dünyadan küsmüsən?
Salıb səni qana, kəklik.

Sən bir quşsan, mən bir yolçu,
Qırğılar olubdu qoçu,
Bir hiyləgər, bədnam ovçu,
Girib min cür dona, kəklik.

Yoxa çıxıb o şaqqıltın,
Daha gəlmir, o qaqqıltın.
Sönmüş yaramı qanatdın,
Mat qalımışam, buna kəklik.

Biz əlenmiş bir ələyik,
Əzrayılın gözündəyik,
İkimiz də, bir gündəyik,
Ömür yetir sona, kəklik.



***Mir MƏHƏMMƏD Mir SƏDİ oğlu***

*Qubadlı, Mirlər kəndi, 1946-1982.*

**QUBADLIYA GƏL**

A dostum seyr elə Azərbaycanı,
Gəz,dolan hər yanı, Qubadlıya gəl.
İlham al xalqımın hər zəfərindən,
Keç Mili, Muğanı, Qubadlıya gəl.

Bəzənir kəndləri bayramsayağı,
Dönür gülüstana bağçası, bağı,
Gəl yayda, payızda, gəl bahar çağı,
İlin hər zamanı Qubadlıya gəl.

Hüsnü çox gözəldir, insanları şən,
Bərgüşad yol açıb gen sinəsindən,
Nbinin, Həcərin qəlbindən keçən,
Məhəbbət ümmanlı Qubadlıya gəl.

Gəyəni, yazısı var-dövlətidir,
Baş ucaldan xalqı şan-şöhrətidir,
Hər kimi dindirsən deyər birə-bir,
Elin şərəf-şanı Qubadlıya gəl.

Bura bənzəri var əsil cənnətin,
Bu yerdən ayrılmaq çətindir, çətin,
Belə gözəl yerdə Mir Məhəmmədin,
Olginən mehmanı Qubadlıya gəl.



***Mirsədi MİRLƏR***

*Mir Sədi Mir Məhəmməd oğlu Mirsədizadə 1969-cu ildə Qubadlının Mirlər kəndində anadan olub.*

## AİDA

*Bakı Şəhidlər xiyabanının ən gənc "sakini"*
*Aida Bəhram qızı Şahkərimovaya (1976-19.06.1992)*

Sən şəhid olanda qara gözlərin ölmədi,
Eşq ilə dolu ürəyin, şirin sözlərin ölmədi,
Aida!

Hər vaxt görüşə gəldim, amma sən
olmayanda,
Sən torpağa gömüldün, vətənin olmayanda.
Qarşında dayanmağa cürətim çatmır mənim,
Gözlərinə baxmağa qeyrətim çatmır mənim.
Gözlərinin içində səmanın sonsuzluğu,
Dənizin mənası var.
Aləmlərə bədəlsən, qara dünya sənə dar.
Girdim gözlərinin içindən sənin,
Qarabağı gördüm, Arazı gördüm.
Şəhid qəbirlərin üstündən əsən
ayazı gördüm,
Aida!

Bəlkə də, qəbrindən böyüdü dərdim,
Bəlkə də, ruhundan dərdləri dərdim.
Şəhidlərin əsəri dünyaların fövqündə,
Dünya məkan hökmündə,
Sən zamanın ritmində,
Aida!

Yollar haraya getsə, sənin gözündən keçər,
Gözlərini görənlər varıb özündən keçər.
Bəlkə, elə sən idin Qarabağın maralı,
Sən Vətənə can verdin, Vətən səndən yaralı.
Sənin gözlərindədir məhəbbətim, nifrətim,
Sənin şəhidliyində mənim Tanrı qüdrətim,
Aida!

Dumanlandı xəyallar, dumanlandı arzular,
Bir oyun oynadılar, bizə fitnə qurdular.
Səni də tulladılar fələklərin cənginə,
Ruhun üzərimizdə döndü eşq çələnginə,
Aida!

Dayan dünya, dur zaman, axarını dəyişdir,
Yenidən bizi oyat, Vətən üçün döyüşdür.
Bu qüdsi torpaq üçün ölüm, dirilim, ölüm…
…Bir qar yağdı sonsuza,
Ya Qarabağ, ya ölüm!



***Sabir YAQUB***

*Yaqubov Sabir Ağakişi oğlu 1 oktyabr 1948-ci ildə Qubadlıda doğulub, 18 yanvar 2019-cu ildə vəfat edib.*

## DƏYİŞMƏM

Ər igidlər oylağıdır bu yerlər,
Ad-sanını xəzinə-vara dəyişməm.
Həyatımın növrağıdır bu yerlər,
Zərrəsini min diyara dəyişməm.

Qartalları zirvələrə həyandır,
Nəbiləri, Həcərləri bəyandır.
Bir tarixdir min hikmətə dəyəndir,
Cilid-cilid kitablara dəyişməm.

Gəyən, Yazı düzü geniş qucağı,
Görünmür yan-böyrü, ucu-bucağı.
Səngər Hərtiz dağı-piri ocağı,
Buz-bulaqlı yaylaqlara dəyişməm.

Bərgüşad,Həkəri axırlar qoşa,
Can atırlar Xan Araza.
Vadiləri başdan-başa tamaşa,
Çaylarımı dəryalara dəyişməm.

Ağ saçına,birçəyinə qurbanam,
Gözəlinə,göyçəyinə qurbanam.
Çəmən dolu çiçəyinə qurbanam,
Gülüstanın zəri-xara dəyişməm.

Meşələri, yamacları yaraşıq,
Burda yer-göy bir-birinə yar - aşiq.
Sərt qayalar qalalarla qarışıq,
Füsünkardı, bir dildara dəyişməm.

Sabirin əzəli,Vətəni burda,
Əbədi uyuyub yatanı burda,
Böyüyüb ərsəyə çatanı burda,
Qubadlımı mən heç hara dəyişməm.



***Mehdi MÜKƏRRƏMOĞLU***

*1952-ci il aprelin 15-də Qubadlının Dondarlı kəndində anadan olub, 2023-cü ildə vəfat edib.*

## BU TOY QUBADLIDA OLAYDI GƏRƏK

Bu Tale bizlərdən yamanca əymiş,
Bir az səbirli ol, partlama ürək.
Neyləmək, taleyin işi beləymiş,
Bu toy Qubadlıda olaydı gərək!

Nəbinin havasın çal mənə, qardaş,
Gəlin igidlərim, oyuna girək.
Bir ara boylanın Vətənə, qardaş,
Bu toy Qubadlıda olaydı gərək!

Müğənni qardaşım, bir mahnı oxu,
Qoynunda o bizim dağlara gedək.
Beləcə düşünür, sizlərdən çoxu,
Bu toy Qubadlıda olaydı gərək!

Bu bahar axşamı niyyətim toxdur,
Nə olur, bu işin axırı görək?
Hayana yozuram, əlacı yoxdur,
Bu toy Qubadlıda olaydı gərək!

Fəqət, Bakıdadır bu toy, bu gecə,
Xəzri küləkləri cövlan edərək,
Qəlbimi, ruhumu dağlayır necə,
Bu toy Qubadlıda olaydı gərək!





***Əbdül SƏMƏDOV***

*Qubadlı, Dəmirçilər kəndi (5.06.1932- 21.05.1987)*

## MİRİ

*Zəngəzurun məşhur seyidlərindən olan həkim*
*Mir Məhəmməd Mir Sədi oğluna (1946-1982) həsr olunub.*

Dolanım başına olum qurbanın
Soltanı bilirəm səni dünyanın
Kərəmi çox olar axı ağanın
Görürsən bədəndə yaramı, Miri
Dərmansız gəl eylə çaramı, Miri!

Əməli salehsən, zəkası gərgin
Nə etsin dərdimə, yazıq "analgin"
İllər xəstəsitək olmuşam əzgin
Rədd et baxtımdakı qaranı, Miri
Dərmansız gəl eylə çaramı, Miri!

Gəldim ayağına rəhmə, amana
Tutma bədənimi iynə, dərmana
Çevir öz başına, qul et ağana
Əzabdan olmuşam dəli-divana
Dərmansız gəl eylə çaramı, Miri!

Yatağa düşmüşəm özüm bilmədən
Hədəfə tuş oldum bir soruş nədən
Dərmanla müalicəm keçib həftədən
Gülşən qismət olsun xaramı, Miri?!
Dərmansız gəl eylə çaramı, Miri!

Axtardım tapıldı indi "Plazmol"
Vurdular qoluma iynəsiz zol-zol
Nə bədən dincəlir, indi nə də qol
Nədir yaradanın məramı, Miri
Dərmansız gəl eylə çaramı, Miri!

Siz də dilə gəlin, bir siz də deyin
Bəlkə rəhmə gələ bu "Askafein"
Əbdül şan-şan oldu, qıç oldu beyin
Aparım bu dərdi goramı, Miri?!
Dərmansız gəl eylə çaramı, Miri!





*Ərşad BƏDƏLOV*

*Şəhid atasıdır. Qubadlı, Dəmirçilər kəndi*
*(7.12.1937 - 30. 10. 2017)*

## ŞƏHİDLİYİN MÜBARƏKDİR, AY OĞUL!!!

Dərəm, təpəm, dağım şəhid,
Yaşıl meşəm, bağım şəhid,
Xoşbəxt günüm, çağım şəhid!
Vətən üçün çox gərəkdir,
ay oğul! –
Şəhidliyin mübarəkdir,
ay oğul!

Baban yatan qəbir şəhid –
Qeyrət, hünər, tədbir şəhid,
Cürət, dözüm, səbir şəhid,
Bu, Vətənə çox gərəkdir,
ay oğul!
Şəhidliyin mübarıkdir,
ay oğul!!!

Həkk oldun yaddaşa, durdun,
Dağlarla başbaşa durdun,
Oldun Vətən – qoşa durdun,
Torpaq olmaq – arxa, kürək!
ay oğul!
Şəhidliyin çox mübarək,
ay oğul!

Kölələikdə ömür güdüb –
Milyon-milyon insan gedib,
Kim özünü Vətən edib
Ona alqış, salam gərək,
ay oğul!
Şəhidliyin çox mübarək,
ay oğul !!!

## ZƏFƏRƏ APARAN NƏĞMƏ

Bu dəhşətdən bayılt məni,
Yox! Yox!Canım, ayılt məni,
Qazilərə tay et məni
Vətən bu gün qurban istər.

Umu, küsü! Yana qoyaq,
Rəqibi də qardaş sayaq,
Günahları qanla yuyaq-
Vətən bu gün qurban istər.

Torpaq yaxaq üzümüzə
Taqət verək dizimizə,
Qalib gələk özümüzə-
Vətən bu gün qurban istər.

Sənin! Mənim! Lənət buna,
Qılıncını salma qına.
Şəhid olan ata, ana!-
Vətən bu gün qurban istər.

Bəsdi uyduq gül- çiçəyə,
Gözləri xumar göyçəyə,
Gedək çıxaq biz Göyçəyə-
Vətən bu gün qurban istər.

Zəngəzurda ocaq çataq,
Zəfəri- zəfərə qataq,
İrəvanda qərar tutaq-
Vətən bu gün qurban istər.

Qarabağım mərkəz olsun,
Dəlidağda dur, gəz olsun,
Yer üzünə görkəz olsun,
Vətən bu gün qurban istər.

Arxa- arxa qoşalaşaq,
Zəfər günü biz daşlaşaq,
Tarix yazaq, tarixləşək-
Vətən bu gün qurban istər.

***Sevi SEVDİMALI***

*Sevi İsmayıl oğlu Sevdimalıyev,*
*Qubadlı, Göyyal kəndi (1942- 2019)*



## QUBADLIM

Dünya həm gəlimli, həm gedimlidir,
Nəbinin, Həcərinin yurdu qəmlidir,
Bu gün hamımızın gözü nəmlidir,
Ömrü baharında solan, Qubadlım,
Düşmənin əlində talan, Qubadlım.

Ömür bu dünyanın ilmə naxşıymış,
Belə ömürdənsə, ölüm yaxşıymış,
Əsir bir qəlb üçün nə bahar, nə qış,
Kafirlərə girov olan, Qubadlım.
Dünəni yalanmış, yalan, Qubadlım?

Üç il necə keçib payızlar, yazlar,
Məhəbbət gülünü dərməyib qızlar,
Həkəri, Bərgüşad kaman tək sızlar
Dədəsiz, nənəsiz qalan, Qubadlım,
Kimdən gəldi sənin bəla, Qubadlım.

Nəbi Qarayurdda, Həcər Molluda,
İndi qəm səslənir "Cəngi","Yallı"da
Çıxar asimana nalan Qubadlım,
Gözləri yollarda qalan, Qubadlım.

Vətənsiz yetimdir qolu zorlu da,
Yadımdan çıxmayır nə dağ, nə dərə,
Görəydim o yurdu kaş bircə kərə,
Nəbinin məskəni düşmənə bərə?
Ən istəkli varlıq-Anam, Qubadlım,
Ayrılıq yamanmış, yaman Qubadlım.

Ölürəm dərdinlə, ölə bilmirəm,
Hardayam, özüm də hələ bilmirəm,
Üç ildir qəmdəyəm, gülə bilmirəm
Qəlbi deşik-deşik, şan-şan, Qubadlım,
Qocalıbdı şair balan, Qubadlım.

Tale möhlət versin, ölüm vaxt versin,
Allah qara baxta bir az baxt versin,
Göydən baxan bizə bir az haqq versin,
Qayıdıb qoynunda ölüm Qubadlım,
Mənim qibləgahım, yönüm Qubadlım.





***Həmid CABBAROV***

*Cabbarov Həmid Allahverən oğlu, Qubadlı rayonunun Mehrili kəndində dünyaya göz açıb (1936-2006)*

## AY ALLAH

Kimə deyim, necə deyim dərdimi
Bir də deyil, yüzdümü, ya mindimi
Qubadlı mənim ocağımdı, pirimdi
Məni həsrətimə yetir, ay Allah!

Ürəyim günü- gündən yuxalır,
İl keçdikcə qəm, kədərim çoxalır,
Yaşı artan ahıllar hey azalır,
Qayıdışa ümid yoxmu, ay Allah!

Xəyalımdan getməyir heç o yerlər
Yamyaşıldı o dərələr, təpələr
Hər  xəbərdən yarama duz səpilər
Nədən didərgindi o ellərim, ay Allah!

Ayrılıq qəmi ürəyimi incidır,
Vətən mənə həm ləldir, həm incidır,
Qaçqın sözü məni yaman incidır,
Vətənimdə vətənsizəm, ay Allah!

Bu həsrətdən bizi qoru, ey Tanrı
Kaş düşəydi yolum Vətənə sarı
Ölmədən görəydim evimi barı
Yurdumdan nişanə varmı, ay Allah!

Elim, obam əsir düşüb düşmənə
Meyvəli bağ-bağçam qismət olmadı mənə
Bir xoş xəbər gəlsin, dönüm Vətənə
Məni öz yurduma yetir, ay Allah!



***Dostəli ABDULLAYEV***

*1954-cü ildə Qubadlı rayonunun Saray kəndində doğulub, 2024-cü ildə dünyadan köçüb.*

## QUBADLIM, SARAY KƏNDİM…

Yenə sarbanıyam qəm karvanının,
Qüssənin, kədərin sirdaşıyam mən.
Sevinc də, şadlıq da qalıb uzaqda,
Ağır, lal sükutun qardaşıyam mən.
Doğma torpağımın ətrini duydum,
Sanki obamdaydım, yatdım, uyudum,
Od tutub yanırdım söndüm, soyudum,
Ayılıb gördüm ki, qürbətdəyəm mən.
Burda həyat gözəl, yaşamaq gözəl,
Hər yana boylansan, orda bir gözəl,
Musiqi, toy-düyün, şeriyyət, qəzəl,
Amma əldə gəzən daşbaşıyam mən.
Bulaq o bulağa çata da bilməz,
Dənizi suyuma bata da bilməz,
Burda o yuxunu yata da bilməz,
Simləri qəm ötən pərdədəyəm mən.
Yurdsuzluq, elsizlik bir ölüm imiş,
Odsuzluq, közsüzlük bir zülüm imiş,
Vətənsiz keçən gün uzun il imiş,
O tozlu yolları ötmədəyəm mən.
O doğma Qubadlı, o ana Saray,
Xəyal aləmimə salıbdı haray,
Yerdə torpaq yanır, göydə günəş, ay,
Qəm adlı sevginin qardaşıyam mən.
Sinədən ürəyi, gözdən bəbəyi,
Çeşmədən cürdəyi, sudan sənəyi
Təknədən çörəyi, dildən istəyi,
Alan o tanrının qarğışıyam mən.
Ölsəm, bu torpağa basdırın məni,
Axı o torpağın övladıyam mən,
Anamdan qabağa basdırın məni,
O qəbr evinin həsrətiyəm mən.
Dostəlinin söylə, nəydi günahı,
Göyləri yandırıb yaxmada ahı
Yatanda, duranda anıb Allahı,
Damlanın deşdiyi su daşıyam mən.



***Məhəmmədhüseyn ŞƏHRİYAR***

*Seyid Məhəmmədhüseyn Behcəti Təbrizi (1906 – 18 sentyabr 1988, Təbriz)*

## QAÇAQ NƏBİ

Dur qəfəs qapısın bir açaq, Nəbi,
Bu sınıq qanadla bir uçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Qazamat istidi, yata bilmirsən,
Analar beşiyin sata bilmirsən,
Öz ata yurdunu ata bilmirsən,
Qeyrətin qurbanı, ay qaçaq Nəbi,
Ay qoçaq Nəbi!

On beş il gavurun zülmünə dözdün,
O nəqşə çəkdikcə, nəqşəsin pozdun,
İndi ki, obadan-eldən əl üzdün,
Qəm yükün çatmışam, dur köçək, Nəbi,
Ay qoçaq Nəbi!

Dördbir dövrəmizi saldatlar aldı,
Qələlər ucaldı, qaranlıq saldı,
Zindanın işıqsız, günəşsiz qaldı,
Qüvvətin ucadır, dam alçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Bir kəsin qalmayıb yardan, yoldaşdan,
Qalsa da, fayşadır, doymaz oynaşdan,
Gecəni qoy aşaq bu dağdan, daşdan,
Zindanı qazmışam, dur qaçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Dedin bəs vətən də sabiq vətəndir?
Gördün ki, dostun yox, hamı düşməndir,
Vətəndən qalan bir quru kövşəndir,
Ondan da əl çəkib vaz keçək, Nəbi?
Ay qoçaq Nəbi!

Çöllərdə çəkmişdim vətən zillətin,
Görəymiş özüm də çəkim qürbətin,
Qırıram vətənin ipin, ülfətin,
Cigərdən ayrılmır bir bıçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Vətəndən doymuşam, məni qınama,
Dur gedək, bu xəlqi artıq sınama,
Dur görüm! Bu ağac bənzir anama,
Telindən qoy qırım bir saçaq, Nəbi,
Ay qoçaq Nəbi!

Haralı olmalı? Bilə bilmədik,
Ləkəsin bu qanın silə bilmədik,
Bir də biz bu yana gələ bilmədik,
Arazın suyundan bir içək, Nəbi,
Qeyrətün qurbanı, ay qoçaq Nəbi!
Ay qoçaq Nəbi!



***Mikayıl BƏDƏLOV***

*14.01.1949-cu ildə Qubadlının Dəmirçilər kəndində doğulub.*

## **“Qələbə nidası”** poemasından

### Şərəfli gün

Atəşkəsi pozdular,
ermənilər bu gecə.
Hiyləyə əl atdılar,
plan qurub gizlicə.

Yağı çaş-baş qalıbdı,
ordusu darma-dağın.
Qaçmağa yol axtarır
kəsmişik solun-sağın.

Düşmən yaxşıca gördü,
ordumun hünərini.
İgidlərim göstərdi,
alçağa öz yerini.

Dikilibdi ekrana
yenə hamının gözü.
Sevindirəcək bizi
Ali Baş Komandanın
bir kəlməsi, bir sözü.

### Qələbə nidası

Ordum döyüşə hazır,
hər əmrə müntəzirdi.
İndiyəcən bu günü
əldə çıraq gəzirdi.

Əmr gəldi bu səhər
Ali Baş Komandandan.
Ordum səfərbər oldu
əmr gəldiyi andan.

Bu səhər tariximin
ən şərəfli səhəri.
Bu gün bizə verəcək
qələbəni, zəfəri.

27 sentyabr- şərəfli tariximin,
yaddaqalan günüdür.
2020-ci il - şərəfli tariximin,
azad olan yurdumun
özülüdü, himnidi.
Dünən çox öyünürdün,
indi halın necədir.
Artıq dünya gözündə
bir qaranlıq gecədir.

Yağı qorxu içində,
"Yaşma" düşmən ovunda.
Balıqtək çırpınırlar,
"Yaşma"nın tilovunda.

Düşmən səksəkədədir,
gecə gəlmir yuxusu.
Hamısının canında
"Bayraqdarın" qorxusu.

Qızılquştək şığıyır,
"Bayraqdar" düşmən üstə.
Qoyub səngəri qaçır
erməni dəstə-dəstə.

### Dəmir yumruq

Yağı çaş-baş qalıbdı,
Ordusu darma-dağın.
Qaçmağa yol axtarır,
Kəsmişik solun-sağın.

Dikilibdi ekrana,
Yenə hamının gözü.
Sevindirəcək bizi,
Ali Baş Komandanın
Bir kəlməsi, bir sözü.

Budur, məqamı gəldi,
Xoş dəqiqə, xoş anın.
Çıxışını dinləyirik,
Ali Baş Komnadanın.

Adını bir-bir çəkir,
Alınan torpaqların.
Bizə verdi dünyanın
O an dövlətin-varın.

Heç nə batıra bilməz,
Daha haqqın səsini.
Xalq sevinclə gözləyir,
Qələbə müjdəsini.

Bu yoldan dönən deyil,
Nə Ordum, nə Sərkərdəm.
Xoşbəxtik, bəxtəvərik,
Daha çəkmirik dərd-qəm.

### Şuşa sevinc nəğməmiz

Ali Baş Komandanın,
Gördük qətiyyətini.
O yerinə yetirdi,
Ata vəsiyyətini.

Hədəf düzgün seçildi,
Komanda düz verildi.
Keçilməzlər keçildi-
Necə ki, söz verildi.

Sıldırım qayalardan,
Dağlardan keçdi ordum.
“Şuşa haqqı”, dönmərik-
Belə and içdi ordum.

Şuşada igidlərim,
Ürəyilə döyüşdü.
Süngüylə, yalın əllə,
Biləyilə döyüşdü.

...Şuşam, qədim şəhərim,
AZADLIQın mübarək!
Sinəndə dalğalanan,
O Bayrağın Mübarək!.



***Zahid ŞAHSUVAROV***

*Qubadlı, Dəmirçilər kəndi, 15.10.1955*

**BU AXŞAM-AXŞAM**

*Bu şeirə yazılan mahnı "youtube.com"və*
*"facebook.com"da ən çox izlənən mahnılardan biridir.*

Köhnə damımızın küncü, bucağı,
Anamın laylası, isti qucağı.
Uçulub, dağılmış ata ocağı,
Yenə yada düşdü bu axşam-axşam.

Arxamca ağlayan leysan yağışlar,
Baş alıb getdiyim yollar, yoxuşlar,
Çəpərdən boylanıb baxan baxışlar,
Yenə yada düşdü bu axşam-axşam.

Zahid, bilməm nədən küsüm, inciyim,
Çoxdan yoxdu bu talehdən dincliyim.
Kəndimizdə itib qalan gəncliyim,
Yenə yada düşdü bu axşam-axşam.

*11.04.2005*





***Xasay CAHANGİROV***

*Xasay Məmmədqulu oğlu Cahangirov 21 mart 1930-cu ildə Qubadlının Məzrə kəndində doğulub, 2017-ci ildə vəfat edib.*

## ƏRDOĞANA

*Türkiyənin hava sərhədini pozan rus təyyarəsinin vurulması əmrini verən Türkiyə Prezidenti R.T.Ərdoğana həsr edirəm.*

**Əhsən sənə, əzəmətli Ərdoğan!**

Böhtan boğan, şeytan boğan, şər boğan.
Qartallara neyləyibdir, neyləyər
Kor yapalaq, ala qarğa, sağsağan?!
Şər-şeytanı zalım fələk doğubdur,
Səni huri, səni mələk doğubdur,
Bəlkə aslan, bəlkə pələng doğubdur,
Aslan doğmur, pələng doğmur hər doğan.
Türküm vurmaz düz yollarla qaçanı,
Vursa, vurar göydə əyri uçanı,
Haqdan kənar haqsız qapı açanı
Haqsız yerə vurmayıbdır nər boğan.
Bir cənnətdə cəhənnəmi yaratsa,
Bir çəməndə gül-çiçəyi saraltsa,
Bir ölkədə çıraqları qaraltsa,
Qaranlıqda özü qalar nur boğan.
Urus pozub sərhəddində havanı,
Özü salıb aralığa davanı,
Çox dağıdıb abad yurdu-yuvanı,
Şər atıbdır çoxlarına şər doğan.
Haqsızlara sərt cavabın haqlıdır,
Sərt cavablar el gücünə bağlıdır,
Əyilməzlər xalqın əsil oğludur,
Kaş mərdlərin onun doğa bir doğan.
Ulu Heydər öyünübdür, öyübdür,
İki dövlət, bir millətik deyibdir.
Nə zaman ki, tale bizdən əyibdir,
Hər türkümüz dönüb olub şir boğan.
Yanımdasan gen gündə də, darda da,
Yanındayam boranda da, qarda da,
Bu dostluğu qoruyarıq gorda da,
Yenilməyib heç bir zaman nər doğan,
Ulu türkün ər oğlusan, Ərdoğan!



***Elnur MƏXFİ***

*Qubadlı, Bəxtiyarlı kəndi, 12.07.1986-cı il.*

**VƏTƏN ÜÇÜN...**

Ulu şərqin qapısından
Əl eylədim vətən üçün.
nəğmə qoşdum, qopuz çaldım,
Söz söylədim vətən üçün.

Zəngəzurum talan oldu,
Keçən keçdi, olan oldu.
hər günüm ah-fəqan oldu,
Hey göynədim vətən üçün.

Didilmişəm didim-didim,
Başım alıb hara gedim?
qəhər uddum, kədər yedim,
Dərd çəynədim vətən üçün.

Vətən mənə murad verdi,
Uçmağa qol-qanad verdi.
ən azından həyat verdi,
Mən neylədim vətən üçün?

**ŞƏHİDLƏR**

Ölməzliyi qət etdi bu dünyadə şəhidlər
Daim fəxr hissilə düşür yada şəhidlər

Vardır eləsi qurmamış heç ev eşiyin də
Gənc ömrü keçirmiş ana yurdun keşiyində
Rahət uyumaqçün əbədiyyət beşiyində
Oldu bu fəna mulkdən azadə şəhidlər!

Bax qara bulud var yene göylərdə dərində
Tabutdu gedir sanki çiyinlər üzərində
Torpaqlara köç etsə də xalqın nəzərində
Yüksədi ən ali şərəfə, ada şəhidlər!

Canı vətən uğrunda fəda verməyimiz də
Ölmək də şərəfdir bizə öldürməyimiz də
Vardır səbəb azadə ömür sürməyimizdə
Xalqın çətin anında yetib dada şəhidlər!

Sizdə elə vardır ki, vətən sevgisi heç bir
Xain edə bilməz bu böyük sevgiyə təsir
İnsan bu fədakarlığı etsin necə təsvir
Yoxdur elə bir söz, elə ifadə, şəhidlər!

Bir gün tamam azad olacaq Azərbaycan
Çalmaqla zəfər şad olacaq Azərbaycan
Gündən günə abad olacaq Azərbaycan
Getməz bu fədakarlığınız bada, şəhidlər!




**Rəfiqə İsaqqızı (İbrahimova)**

*Qubadlı rayonunun Mollu kəndində doğulub.*

Şəhid İsa Məmmədovun xatirəsinə

Adın peyğəmbər adı,
Buraxmadın yurduna
Sən düşməni, sən yadı.
Əmanət etdin yurda
Tək övladın Fuadı.

Qeyrət nümunəsisən,
Nəbinin ellisisən.
Yəqin sənə güc verən
Nəbinin nəfəsidi,
Nəbinin nərəsidi.

Zəfər çaldı yurdumuz,
Yenilməzdi ordumuz...
Yaşadacaq sizləri
Vətən öz tarixində,
Mərd xalqım ürəyində.

Kəndim Şəhidlərini
Hər an salır yadına.
Dəyər verir sevgilə
Öz doğma övladına.

Oxuduğun məktəbi
Verib sənin adına.
Sənin kimi igidlər
Unudulmaz heç zaman.
Sənsən canım Şəhidim
Tarix yazan qəhrəman!



***Xeybər GÖYYALLI***

*1960-cı ildə Qubadlının Göyyal kəndində doğulub.*

Yazıçı-jurnalist X.Göyyallı həyatdan vaxtsız köçmüş istedadlı şair dostu Ramiz Kərəmin Türkiyədə nəşr olunan “Hece taşları” aylıq şeir dərgisinin xüsusi buraxılışında dərc edilmiş “Zəfər Şeiri”ni toplumuz üçün təqdim edib.

## ZƏFƏR ŞEİRİ

Qalx ayağa, qoca tarix,
qalx ayağa, qarı düşmən,
Min illərin o başından
bu dünyanın Türkü gəlir.
Əllərində qılınc-qalxan,
dodağında türkü gəlir.
Ayağında dəmir çarıq,
çiynində boz kürkü gəlir.

Qalx ayağa, haqsız dünya,
gözün haqqı görsün bir də.
Bu zəfərin izi vardı
Sən gördüyün min illərdə
Günbatandan gündoğana,
tappır-tappır gedən atlar,
gumbur-gumbur gərənaylar,
yadındmı, qoca tarix?!

Tanıdınmı, qoca tarix,
sənin hər səhifənə
qırmızı hərflərlə
müjdələr yazan Türkü?!
Bayrağının eşqinə
yağıya qan udduran,
səfləri pozan Türkü.

Qovğalarda sədlər yaran,
dinclikdə ozan türkü.
İndi də çox gözəldi,
“dam-daram-dam” ritminin
möhtəşəm sədaları.
Kəlbəcər də, Laçın da,
Ağdərə də, Şuşa da-
bizimdir nidaları.

Şəhidlər də, zəfər də,
bu sevinc də, kədər də-
bizimkidir, ana yurd.
Biz kədərlə sevinci
həmişə qoşa gördük.
Əziz günümüzdə də
Verib baş-başa, gördük.
Sınmadıq, əyilmədik,
Çox şükür bu günü də
Gördük, ey Vətən, yaşa!



***Kəmalə MAHMUDOVA***

*Mahmudova Kəmalə Allahverdi qızı Qubadlının Çaytumas kəndində anadan olub.*

## ŞƏHİD POLKOVNİK ŞÜKÜR HƏMİDOVUN XATİRƏSİNƏ

Cənab polkovnik, hər vaxt,
Hörmətlə anılırsan,
Qazandığın zəfərlə,
Tarixə yazılırsan.

Ayağın dəyən torpaq,
Qızıl qanla, gül açdı,
Qarabağ oğul dedi,
Səninlə qucaqlaşdı.

Adıntək şükrə gəldi,
Viran qalan torpağın,
Ucaltdın zirvələrdə,
Azərbaycan bayrağın.

Qovdun mənfur düşməni,
Azad oldu el-oban.
Qəhrəmanlar ölmürlər,
Yaşar qəlblərdə adın.

Vətən unutmaz səni,
Örnəkdir şücaətin,
Zəfərlərdən zəfərə,
Örnəkdir cəsarətin.

Sənin kimi oğullar,
Yetsə də şəhadətə,
Şanıyla, şöhrətiylə,
Ucalır Əbədiyyətə.

## YARIMÇIQ EŞQ HEKAYƏSİ

*Şəhid Müşviq Orucova həsr olunur*

Şəhid məzarına qoyulan məktub,
Bir gizli sevginin xəbərçisidi.
Hər sözdən süzülən,axan göz yaşı,
Yarımçıq bir eşqin hekayəsidi!.

Pöhrə bir sevgiyə son qoydu fələk,
Aldı çəmənzarı vaxtsız sin-duman.
Söndü baxışında min arzu-dilək,
Düşmən gülləsindən verildi fərman.

Şəhid məzarina qoyulan məktub,
Sahibin kim idi, çiçək tək soldu.
Bir qizin yuxuymuş, qurduqu xəyal,
Qalxıb ənginlikdə, tamam yox oldu!.



***Akif AMAL***

*Akif Əlif oğlu Bayramov 1957-ci ildə Qubadlı rayonunun Zor kəndində doğulub.*

**BAYRAĞI BAŞ ÜSTDƏ TUTMUSAN, VÜSAL**
*Şəhid Allahverdiyev Vüsal Tahir oğluna*

Bu göyün altında bu yer oğlusan,
Türk elli bu yurdun bir pir oğlusan.
Bir ərən kişinin bir ər oğlusan-
O kökün üstdə boy atmısan,Vüsal.

Bu torpaq uğrunda qoydun canını,
Qorudun millətin şərəf-şanını...
Sərhəddə, səngərdə qızıl qanını
Ərənlər qanına qatmısan,Vüsal.

Haqq bildiyin O Haqq yola and içib,
Tanrının yazdığı ömürdən keçib,
Güllərin yerinə gülləni seçib-
Bayrağı baş üstdə tutmusan,Vüsal.

Döyüşdə düşməndən durub bac aldın,
Adını yaşatdın başa tac aldın...
Şəhid zirvəsinə qalxıb ucaldın-
Şəhadət ətrinə batmısan,Vüsal.

Durub gözləməyə yovuşmasan da,
Səngərdə güllədən sovuşmasan da,
Eşqin vüsalına qovuşmasan da-
Tanrı vüsalına çatmısan,Vüsal.

Şərəfli,şöhrətli ad-san almısan,
Şəhidlik taxtında qalxıb qalmısan...
Tanrı ətəyində yer-yurd salmısan-
Cənnətin qoynunda yatmısan,Vüsal.




***Nurəddin BƏRGÜŞAD***

*Quliyev Nurəddin Cabbar oğlu,*
*Qubadlı, Əbilcə kəndi, 20.10.1962*

## XOŞ GÖRDÜK, AY ELLƏR

Yurd adlı yaramız ta qaysaqlayır,
Xoş gördük ay ellər, xoş gördük sizi.
Baxginən, sevincdən daş da aglayır,
Xoş gördük ay ellər, xoş gördük sizi.

Vaxtınız var idi baxçalı, bağlı,
Şən toylu, büsatlı, cox gözəl çağlı.
İndi gözü yaşlı, sinəsi dağlı,
Ay ellər xoş gördük, xoş gördük sizi.

Sevinin a dostlar, siz qanad açın,
Analar xınayla boyasın saçın.
Cəbrayıl, Zəngilan, Füzuli, Laçın,
Xoş gördük ay ellər, xoş gördük sizi.

Bu yurdun gözüdü Şuşa şəhəri,
Xankəndlə yanaşı, qoşa səhəri.
Adamı gətirir cuşa şəhəri,
Xoş gördük ay ellər, xoş gördük sizi.

Kəlbəcər, Agdərə, uca Qubadlı,
Dərdlərin əlindən qoca Qubadlı,
Dönəcək Məkkəyə, Həccə Qubadlı,
Xoş gördük ay ellər, xoş gordük sizi.

Eşitdim azadsız istədim qacım,
Sevincdən titrədi, dolaşdı qıçım,
Qocaldım qürbətdə, ağardı saçım,
Xoş gördük ay ellər, xoş gördük sizi.

Ürəyim sevinclə, həsrətlə döyür,
Ruhum hər daşına çöküb baş əyir,
Nurəddin Bərgüşad vüqarla deyir,
Xoş gördük ay ellər, xoş gördük sizi.



***Flora PİRİQIZI***

*1947-ci ilin avqustun 28-də Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

**DİLİMİN ƏZBƏRİ ANCAQ VƏTƏNDİR**

Belə yetişdirib zamana məni,
Şair təbiətli, xoş avazlıyam.
Bilsin hər eşidən, hər duyan insan,
Şeirə, qəzələ sözə bağlıyam.
Duyğularım aman verməyir mənə,
Neylərəm yas tutam, qara bağlayam.
İstəyirəm hey söz qoşam vətənə,
Dərdli zəngəzurlu, qarabağlıyam!
Şairlər yurdudur bu gözəl diyar,
Sizə bu sözlərim yadigar qalsın.
Bu fani dünyaya yoxdur etibar,
Heç vaxt Ana Vətən unudulmasın.
Vətənə bağlıdır arzum-diləyim,
Bütün şeirimin bəstəsi odur.
Onunla döyünür hər vaxt ürəyim,
Dilimin əzbəri ancaq Vətəndir!

**ELİMƏ BƏNZƏYƏN BİR EL, DE, HANI?**

Gül-çiçək alıbdı bütün hər yanın,
Bir bahar bilmişəm qarın-boranın.
Çox yerin gəzmişəm Azərbaycanın,
Elimə bənzəyən bir el, de, hanı?
Var alimi, həm loğmanı, şairi,
Suyu, havası da dillər əzbəri.
Olub çal-çağırlı hər bir günləri,
Elimə bənzəyən bir el, de, hanı?
Qalib gəlibdir ordum düşmənə,
Hər kəsin gümanı vardı o günə,
İnşallah, vaxt gələr deyərik yenə,
Elimə bənzəyən bir el, de, hanı?
Ay Flora, hamı yurda dönəcək,
Həmin həyat yenə davam edəcək.
Hər kəs gülüb, sevinibən deyəcək:
Elimə bənzəyən bir el, de, hanı?!

**Gülxar ƏMRAHQIZI**

*Qubadlı rayonu, Tatar kəndi*



## QƏLBİMİZDƏ YAŞAYACAQ!

*Vətən Müharibəsi Qəhrəmanı*
*Ceyhun Aydın oğlu Həsənovun*
*əziz xatırəsinə həsr olunur.*

Qarabağın qapısını,
İlk açanı Ceyhun oldu.
Düşmənlərin, ilk gücünü,
Məhv eləyən Ceyhun oldu.

Səksən nəfər igid ilə,
Düşmənlərə od yağdırdı,
Füzuli bir qala idi,
İlk işığını o yandırdı.

Düşmənlərə nifrət etdi,
Döyüşlərə öndə getdi,
Təkbaşına o qəhrəman,
Düz üç postu məhv etdi.

Əsgərlərini xilas edib,
Özü qurban getdi Ceyhun,
Öz canını fəda etdi,
Şəhadəti seçdi Ceyhun.

Vətən eşqi ürəyində,
Ata eşqin üstələdi,
İki əkiz balasını,
Bir doyunca görmədi.

Nə Cavidan, nə Cahid,
Bir yol ata söyləmədi,
Bir ananı ağlar qoydu,
Şəhadəti seçdi Ceyhun.

İgid oğul, mərd qəhrəman,
Vətəninə oğul oldu,
Qələbəni görməsə də,
İlk qələbə onun oldu.

Sən ağlama, mərd Ceyhunu,
Vətən üçün verən ana,
Sən analar anasısan,
Torpağını sevən ana.

Sənin oğlun, tarix yazdı,
Adı qaldı dilimizdə.
Azərbaycan yaşadıqca,
Yaşayacaq qəlbimizdə.



***Qaratel AZƏRİ***

*Qubadlı rayonu, Çaytumas kəndi*

## BAYATILAR

Başı bəlalı dağlar,
Köksü yaralı dağlar.
Sizə gələ bilmirəm,
Həsrət sinəmi dağlar.

Əzizinəm Həkəri,
Yox Bərgüşad, Həkəri.
Özgə sular soyutmur,
Ürəyimdən kədəri.

Əzizim, buta açmır,
Gül açmır, buta açmır.
Bülbül özün itirib,
Sevdiyi çiçək açmır.

Mən aşiq, qarabağlı,
Saçların qara bağlı.
Yazın bar-bərəkəti,
Qışdakı qara bağlı.

İgid ərlər-ərənlər
Yurdumu azad etdilər.
Murdar yağı düşməni
Qovub rəzil etdilər.

Nəfəsinə qurban olum,
Vətən, məni çağır gəlim.
Qoyma yenə ayrı qalım,
Səsə uça, uça gəlim.

**Tut ağacı**

Ağ tut ağacımız vardı,
Meyvəsi qənd-şəkər, baldı.
Yadigardı babamızdan
Yetişib bar verən zaman,
Çırpıb qablara yığardıq,
Qonşulara paylayardıq.
Uşaqların gözlərində,
İşıq, sevinc parlayardı,
Sanki toy-bayram olardı.
İndi nə nənəm, nə ağac var,
Bir nağıla dönüb onlar.
Nənəm qocalıb ahıllaşdı
Ömrün göylərə bağışladı,
Ağac kökdən ayrılmadı,
Torpağından qopammadı.



***Zaur ZƏNGƏZURLU***

*1 yanvar 1970-ci ildə Qubadlı rayonunun Saray kəndində dünyaya göz açmış, 1994-cü il martın 19-da Füzuli rayonunun Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olmuş qardaşım Məğrur İsgəndər oğlu Şirinovun xatirəsinə*

## SƏNSİZLİYƏ ALIŞA BİLMİRƏM

Ordumuz qanını düşməndən alıb,
Kəndimiz azaddır, evimiz viran qalıb,
Sarayda adına lövhə ucalıb,
Ora da mənə çox əziz məkan olub.

Şəhidlikdə məzarın əbədi ziyarətim
Dörd yanında uyuyur igid əsgərlərim
Etibarlı dostların hər zaman yanındadır
Adın el-obamızın dilində, yadındadır.

Neçə vaxtdır kəndimizə gələ bilmirəm
Sənə olan sevgimi bölüşə bilmirəm.
Sahibsiz evimizdən ayrıla da bilmirəm,
Sənə olan sevgimi sözə düzə bilmirəm.

Üzü solmuş rəsminə baxa bilmirəm
Gəlib yenisi ilə dəyişə bilmirəm
Qəmli baxışlarına baxıb dözə bilmirəm,
Qardaş, ətrini doyunca ala bilmirəm.

Məğrur, yuxularıma gəl, mənlə söhbət et,
Mənə təsəlli ver, de ki, darıxma, dur get,
İstəsəm də, mən sən ola bilmirəm
Səninlə öyünürəm, sənə çata bilmirəm.

Qəbrin Sumqayıtda, ruhun Sarayda
Mən də qalmısam uzaq yollarda
Düşünürəm-mən ölsəm sən nə edərdin
Sən dərdini, ağrını kimə, necə söylərdin?

Elə bilirəm dünyaya gəldiyin evimizdəsən,
Şəhid qanı ilə alınan kəndimizdəsən
Adın kimi qürurlu, ruhunla bizimləsən
Qardaş, şəhid adınla daim qəlbimizdəsən.



***Qafqaz ƏVƏZOĞLU***

*1954-cü ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

**ŞƏHİDLƏRƏ**

Bu Vətən naminə varsa ölən kim,
Həmişə bizimlə yaşayacaqdır!
Ən uca zirvədə qərar tutub o,
Şəhidlik adını daşıyacaqdır!

Bu adın önündə baş əyirəm mən,
Durub üz tutduğum qibləgahımdır.
Dünən özlərini şəhid edənlər,
Üzümə açılan xoş sabahımdır!

Bu vətən naminə, bu xalq naminə,
Ölümün üstünə düz gedən şəhid;
Açılan gülləyə, atılan topa,
Gərib sinəsini tuş edən şəhid:

- Sənin axıtdığın hər qətrə qanın,
Bu gün Vətən boyu açan çiçəkdir.
Bu Vətən naminə çəkdiyin nərə,
Bil ki, tarix boyu səslənəcəkdir!

Sinən sipər oldu neçə gülləyə,
Haqqa çıraq oldun dönməzliyinlə.
Ey şəhid qardaşım, sən bu millətə,
Ölməzlik gətirdin ölməzliyinlə!

Sən kimsən – ən uca möhtəşəm zirvə!
Mən isə kimsəyə gərək olmadım.
Özümü bir xoşbəxt sanardım, vallah,
Qoşa çəkilsəydi səninlə adım!..

Bu Vətən naminə varsa ölən kim,
Həmişə bizimlə yaşayacaqdır!
Ən uca zirvədə qərar tutub o,
Şəhidlik adını daşıyacaqdır!



***Ceyran HÜMMƏTQIZI***

*1971-ci ildə Qubadlı rayonunun Qarakişilər kəndində anadan olub.*

## İGİD ƏSĞƏR

İgid əsgər!
Vətən sənə əmanət!
Yağıların başını əz,
aman vermə düşmənə,
Yenə göstər rəşadət!

Anaların fəryadı,
tökülən şəhid qanı,
Mənim qan yadaşımda,
hər zaman qalacaqdır.

Qarabağım alınsa da,
Hər an sən sayıq ol,
düşmən oyaq,
Torpağıma göz dikənənin,
Gözlərin bir də oyaq!

Xarıbülbül gül açsın,
Bircə sən duy ətrini.
Məğrur dayan, məğrur dur,
Can tək qoru Vətəni!

Vətən sənə ümidlidir,
Ümidimiz sənədir.
Zəfər qələbəsin çal,
Yenə düşmən üstündə.
Yallı get, qol-qanad aç,
Qarabağın düzündə!

## VƏTƏNİM

Vətənim Azərbaycan!
Başdan-başa bir tamaşa,
Seyrinə çıx təbiətin.
Maral gölü,
Ceyran çölü,
Turş suyu var,
Torpağında yetişdirən
Qaçaq Nəbi, Həcəri var.
Neçə-neçə qəprəmanlıq salnaməsi,
Koroğlusu, Nigarı var.
Bu torpağın mayasından,
Yoğrulubdur bu dastanlar.
Yaşamağa ilham verən,
Bir təbibdir Ana Vətən.
Çiçəklənsin doğma diyar,
Biz də yaşayaq bəxtiyar.



***Mahir SARIYEV***

*1954-cü ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

## MƏKTƏBİM

*Qubadlıda təkcə xarabası qalan məktəbimə*

Hanı sənin o günlərin hay-küylü çağlı məktəbim
Ağlamayım bəs neyləyim qapısı bağlı məktəbim.

Alardın bizi qoynuna, hey çəkərdin nazımızı
Hər müşkülə dərman idin, dərdə şəfalı məktəbim.

Nədən dinib danışmırsan, dikilib yollara gözün
Məlul-məlul baxma belə, qızdan həyalı məktəbim.

Qaynayan həyatın hanı, indi sükuta dalmısan
Bilirəm ki, qəm çəkirsən işvəli, nazlı məktəbim.

Çalınmır zəngin nə vaxtdı, darıxıbdır qulaqlarım
Ölürəm o səsdən ötrü, qoynu səfalı məktəbim.

Müəllimlərə nə deyim, şagirdlərə nə söyləyim
Ver cavabın sualımın, min bir suallı məktəbim.

Əzəli gündən var şərəfin, ucaltmışıq ad-sanını
Cəm olanda tün məktəblər, cəmə misallı məktəbim.

Mahira, yaman günlərin ömrü olur az, deyirlər
Əzizləyər bizi yenə əli sığallı məktəbim.



***Mehdi CALAL***

*1961-ci ildə Qubadlı rayonunun Başarat kəndində anadan olub.*

## ŞƏHİDLƏR XİYABANINDA DÜŞÜNCƏLƏR

Rahatca yorğan-döşəkdə
Yatmaq bizə haramdı...
Min illərdi səngiməyən,
Qan axan öz yaramdı.

Dövlət xalqdan ayrı düşməz,
Xalq da öz dövlətindən.
Qanına yad qan qarışıb,
Qurtarmır zillətindən.

Əməldə yox, sözdə birdi,
Harın, saxta məmurlar.
Biz hər gün biraz ölürük;
Qəfil ölməyə nə var!

Dərdi "dərən" sözümüz yox,
Mərdi görən gözümüz!
Yox, adam tək yaşamağa,
Ya ölməyə üzümüz!

Vətən kimi darlıq çəkib,
Ruhunuz, can Şəhidim!
Biz qanla qurtardıq yenə,
Bağrı al-qan Şəhidim!

Hər dəfə yerə girmişik,
Ziyarətə gələndə.
Baxışınızdan yayınıb,
Sağ olmağı biləndə...

Bu torpağın hər qarışı
Qanlı tərdən yoğrulub.
Yenə bir gedənə əvəz,
Yüz ər igid doğulub.

### Bir əsgərimizin dilindən

Vətənin ağır günüdü;
Gedirəm Suqovuşana.
Kafirləri Yurddan qovub,
Zəfərlə dönərəm, ana!..

Qazi kimi gələ bilsəm
Təşnəsiyəm bir arzunun;
Eyləyərəm,- sevə-sevə,-
Toyunu bacım qızının.

Kaş əbədi xoşbəxt olsun;
Hər oğlu, hər qızı elin!..
Fəqət, bir gün şəhid olsam,
Bağışlasın məni Aylin!..



***Qazi İMADƏDDİN***

*1964-cü ildə Qubadlı rayonunun Dəmirçilər kəndində anadan olub.*

## BİR ANA HƏLƏ DƏ OĞLUN AXTARIR

*Qubadlının Həmzəli kəndində anadan olmuş şəhid tankçı komandir Əlövsət Cəfərxan oğlu Vəliyevin (15.12. 1968-31.08.1993) anası Heyvagül nənəyə*

Bir ana yol gedir Qubadlısına,
O şəhid oğlunun nəşin axtarır.
Gözlərində həsrət, qəlbində ağrı,
Bir ana hələ də oğlun axtarır.

Sarılıb yollara, yollar boyunca,
Çiçəyə sarılıb, gülə sarılıb.
Bir ana hələ də oğlun axtarır,
Günlərə, aylara, ilə sarılıb.

Gəzir qarış-qarış ata yurdunu,
Oğlunun ətrini torpaqdan alır.
Göylərə çəkilmiş aylı, ulduzlu,
Üçrəngli müqəddəs bayraqdan alır,
Bir ana hələ də oğlun axtarır.

Savaş meydanında, cəng meydanında,
Döğmalar içində, yadlar içində.
Bir ana hələ də oğlun axtarır,
Ağrısı, acısı odlar içində.

Oğul nəvəsinin üzündə gəzir,
Nəvənin gözündə oğul axtarır.
Beşiyi başında layla dediyi,
Balasını gəzir, qəbrin axtarır,
Bir ana hələ də oğlun axtarır.

İllərdi bir bacı qardaş soraqlar,
Bir gəlin illərdi yarın axtarır.
Yığılmır yollardan ananın gözü,
Ciyərparasın, ilkin axtarır,
Bir ana hələ də oğlun axtarır.

Həsrət çiçəkləyib ümidlərində,
Arzular dağılıb, pərən-pərəndi.
Bacı qardaşını, ana oğlunu,
Ata övladını, gəlin yarını,
O vaxtdan göz yolda, könül intizar,
O vaxtdan ümidlər pərən-pərəndi,
Bir ana hələ də oğlun axtarır.



***Vahid ƏLİRZAYEV***

*1948-ci ildə Qubadlı rayonunun Qilican kəndində anadan olub.*

## YAŞAMAQ HAQQI

*20.09.2023-cü ildə Qarabağda anti-terror əməliyyatda qəhrəmancasına şəhid olmuş Abbasov Zamin Xaqani oğluna*

Qəddini düz  saxla, şəhid atası,
İgidlər ömrünə şəhidlik seçər,
Sənin övladının köksün odlayan,
O güllə, mənim də içimdən keçər.

Başını uca tut şəhid anası,
Şəhidlər əbədi yaşayacaqdır,
Vətəni, elini sevən oğullar,
Millətin qəlbində ucalacaqdır.

Sən,ey gözü yaşlı şəhid nənəsi,
Ağlama, şəhidə yaş axıtmazlar,
Vətənin yolunda canını qıyan,
İgidlə öyünər, yas saxlamazlar.

Ey, şəhid övladı, şəhid balası,
Şəhidlik igidin məslək yoludur,
Atadan oğula əmanət qalan,
Qəhrəmanlıq yolu, uğur yoludur.

Gəl sil gözlərindən o qanlı yaşı,
Qəhrəman Zaminin həyat yoldaşı,
Onun məhəbbətin, Vətən sevgisin,
Ruhunda əzizlə, qəlbində daşı.

Ey şəhid qardaşı, sən də fəxr elə,
Qürur duy qardaşın şücaətiylə,
Hər oğul ömrünə şəhidlik düşməz,
Bu secim yaranır haqq niyyətiylə.

Sən də çox sızlama şəhid bibisi,
Vətəni oğullar qorumalıdır.
Şəhidlik bir ömrün uca zirvəsi,
Zirvəyə igidlər ucalmalıdır.

Sən də at kədəri, şəhid əmisi,
Vətən qeyrətini kişilər çəkər,
Gülləyə tuş gəlməz qorxaq sinəsi,
Comərdlər qanını vətənçün tökər.

Vətən gəldi-gedər torpaq deyil ki,
Bizə ululardan bir əmanətdir.
Onu qan tökməklə qorumalıyıq,
Vətən qurbanları bil, şəhidlərdir.

Ey, şəhid xalası, şəhid dayısı,
Hər kəsin üzünə baxın vüqarla,
Öyünək Zaminin igidliyiylə,
Qanıyla aldığı bu ucalıqla.

Niyyəti, məkanı, yeri cənnətdir,
Tanrı nəzərində yaşar şəhidlər.
Ömürdən qiymətli bir ucalıqda,
Fəxri çarpayıda “yatar” şəhidlər.

Ölüm, ömrün nəhayəti, sonudur,
Son, insanın bəlkə nicat yoludur?
Şəhidlik, igidin ölümdən sonra,
Yaşamaq haqqıdır, yeni doğumdur.



***Şəfəq ÜFÜQ***

*1975-ci ildə Qubadlı rayonunun Balasoltanlı kəndində anadan olub.*

## ŞƏHİD ANASI

*Şəhid Ülvi Tahir oğlu Məhərrəmovun anası*
*Xatirə xanımın timsalında bütün şəhid analarına*

Yaşın o yaş deyil, cavansan axı,
Qara saçlarının çoxalıb ağı.
Üzündə kədərin üzgün naxışı,
Nə tez qocaldın sən, Şəhid Anası!

Alnında qırışlar düymələnibdir,
Gözündə göz yaşı giləlƏnibdir.
Sözün, söhbətin də tamam fərqlidir,
Nə tez qocaldın sən, Şəhid Anası!

Sinəndə dağ boyda bir yara sızlar,
Hər gün o yaranın üstü açılar.
Ömürlük qəlbində o acı qalar,
Nə tez qocaldın sən, Şəhid Anası!

Görənlər yaşını soruşmur sənin,
Hörmətlə dolanır başına sənin -
Çünki qürurusan sən bu vətənin,
Nə tez qocaldın sən, Şəhid Anası!



***Ağaverdi ZƏNGƏZURLU (Nəsirov)***

*1955-ci ildə Qubadlı rayonunun Kürd Mahruzlu kəndində anadan olub.*



**QARABALAM GƏLMƏDİ**
*Ömür-gün yoldaşının dilindən*

Səfərdədir, qayıtmayıb nədənsə,
Qadasını gələ alam, gəlmədi...
Tez gələrdi, əmək haqqı ödənsə,
Darıxıram, Qarabalam gəlmədi.

Min qız olsun, belə baxmaz saf kişim.
Amma artır gündən-günə təşvişim.
Harda qaldı, qara-qura kişmişim,
Qarabalam, başa bəlam, gəlmədi.

Göy gözlərim dikilibdi yollara,
Bəlkə gəlib, bəlkə gedib bulvara.
Bəlkə yenə gecikibdi qatara,
Haray salım, Qarabalam gəlmədi.

Bir oğlum var, elə bil ki, özüdü,
"Gəlmir atam." deyib-durub, üzüldü.
Göz yaşları gilə-gilə süzüldü,
Yazıq balam... Qarabalam gəlmədi.

O deyildi belə səbrin yiyəsi,
Ürəyimi deşir hicran tiyəsi.
Kimi söyüm, varmı biri söyəsi,
Qarabalam, arxam, qalam gəlmədi.

Ağaverdi sən bil, bilsin bir allah,
Cəbhədəymiş, itkin düşüb o, vallah.
Ümid edək, o qayıtsın inşallah,
Muştuluğa gedək-görsək ölmədi.



***Babək ZEYNALOV***

*1963-cü ildə Qubadlı rayonunun Bəxtiyarlı kəndində andan olub.*

**VƏTƏN**

Sənə əl uzadan əllər qurusun,
Namərdin, nakəsin qalmasın, Vətən.
Hər qarış torpağın gülüstan olsun,
Tər qönçə güllərin solmasın, Vətən.

Yadelli qalmasın torpaqda, yurdda,
Dost seçməz özünə tək gəzər qurd da.
Dönməsin qapıya oğul tabutda,
Analar saçını yolmasın, Vətən.

Dişini qıcadı hərə bir yandan,
Şimaldan, cənubdan, o tay, bu taydan.
Növrəstə cavanlar olmasın candan,
Üstünü buludlar almasın,Vətən.

Acıya, itkiyə qalmayıb dözüm,
Hər gün atəş səsi, qan-qada, ölüm.
Biryolluq məhv edim, ya da ki, ölüm,
Bir daha şəhidin olmasın, Vətən.

Bir yarpağı düşsə, şah damarımdı,
Bir canı üzülsə, özcə canımdır.
Gözümün nurudur, axan qanımdır,
Alışıb, od tutub yanmasın, Vətən.





***Əlizamin QUBADLI***
*Əlizamin Abdullayev; 1968-ci il, Qaracallı kəndi.*

**BİZİM YERLƏR**

Bizim oba yuxarıdan başlayır
Sınıq körpüsündən, Qarakişidən.
Muradxanlı, Xəndək, Taftax düzündən
Həkəridən, axar çaydan başlayır.
Şıxavanın adı yoxdur xəritədə
Şəmil bəy də yaşayıbdır o kənddə
Mən sözümü deməliyəm əlbəttə
Qeyrət, mərdlik o diyardan başlayır.
Əlyanlını misal çəksəm bəs olar
Başqa kənddə danışsam da xoş olar
Qaramanlı, Qarağaclı, İşıxlı
O yerlərdə yurd salandan başlayır.
Başarat var, Armudluq var, Milanlı
Deştahatın, Hatın çölü maraqlı
O yerlərdə gəzərdilər silahlı
Şükür kimi qəhrəamandan başlayır.
Padar adı ölkəmizə bəllidir.
Muğanlıyla, Mollaburan fərqlidir.
Xocik, Mollu, Mərdanlı tək dərdlidir
Yusifbəyli, Çaytumasdan başlayır.
Qaracallı bütövlükdə sirr idi
Balasoltanlının qaşı pir idi
O ellərin xeyri-şəri bir idi
Dost, sirdaşlıq o ünvandan başlayır.
Həmzəlinin adı düşüb tarixə
Əfəndinin hörməti var həmişə
Şotlanlının adı köçüb keçmişə
Yol ayrıcı kənd Xanlıqdan başlayır.
Hüseyinuşağı, həm Alaqurşaq
Hərkəslə həmdərddi, həmdə ki, dayaq
O kənddə saxlasan bir anlıq ayaq
Salaməleyk qonaqlıqdan başlayır.
Yol boyunca Mahruzlu var, Zilanlı
İgiddilər, həmdə ki, dəliqanlıı
Vəsf elədim bir hissəni Qubadlı,
Sənin adın qədimlərdən başlayır.
Əlizaminəm, elim mənə əzizdir
Bataqlığı, gölü mənə dənizdir
Yazı düzü nə yetirsə ləzizdir
Dad da, tam da o torpaqdan başlayır.



***Elbrus QAYALI***

*Elbrus Məhərrəm oğlu Dünyamalıyev 29 iyul 1954-cü ildə Qubadlının Qayalı kəndində anadan olub.*

## QUBADLIDANAM

Dostlar, fəxr edirəm Qubadlıdanam,
Əlyarım, Bəylərim, Nəbim var mənim.
General Valehim, igid Aslanım,
Aqildən yazmağa təbim var mənim.

Dillərdə əzbərdi Dədə Süleyman,
Elin sevənlərə vəfam var mənim.
Dar gündə elimə, obama həyan,
Vasilim, Kərəmim, Səfam var mənim.

Kamran Hüseynovum, Eldar Baxışım,
Onların şəninə yazım var mənim,
Qəhrəman Şükürüm, Həsən Qorxmazım,
Dəf düzüm, Gəyənim, Yazım var mənim.

Arif Heydərovun, şair Ramizim,
Jurnalist Eyruzum, Əlim var mənim.
Həkəri, Bərgüşad bizimdir –bizim,
Qədirbilən obam – elim var mənim.

Qoçaq Kazımağa, cəsur Ələkbər,
İgidlər məskəni elim var mənim.
General Maisim qanında təpər,
Dağlar zirvəsində zilim var mənim.

Orda şıx Mirsədi, orda şux Mirim,
Neçə gözəl ayım, ilim var mənim.
Hər daşı səcdəgah, hər kolu pirim,
Orda gövhərim var, ləlim var mənim.



***Çingiz SALMANOV***

*1956-cı ildə Qubadlı rayonunun Çardaxlı kəndində anadan olub.*

## QUBADLIDADIR

Ulu torpağının Azərbaycanın,
Görməli yerləri Qubadlıdadır.
Dolanıb "Səngər"i, gəzsən hər yeri,
Müqəddəs pirləri Qubadlıdadır.
Dərdlərə dərmandı "Şirin bulağ"ı,
Hər nemət yetirən Xanlıq torpağı,
Göyyalın "Turş su"yu şəfa qaynağı,
Təbiət sirləri Qubadlıdadır.
Namərdlərdən qisas alıb Qoç Nəbi,
Elin səcdəgahı - haqdı Mir Sədi.
Ali Baş Komandan verdi qiyməti,
İgidi, ərləri Qubadlıdadır.
Dədə Süleymanlar yaradıb nələr,
Ağabala "Segah"la ilhama gələr.
Əliağa Aslanlar, siz deyin, kimlər,
İlham nəhəngləri Qubadlıdadır.
Vətən həsrətiylə odlanıb yanan,
Çingiz nigarandır ordan hər zaman.
Diləyi, xeyiri Tanrıdan uman,
İstək pəriləri Qubadlıdadır!





***Eldar XANLAROĞLU***

*1954-cü ildə Qubadlı rayonunun Göyərcik kəndində anadan olub.*

## BU ORDU SƏN DEYƏN ORDU DEYİL Kİ...

Əvvəlki illərə ağlın getməsin,
Bu ordu sən deyən ordu deyil ki...
Elə et yurdunda qanqal bitməsin,
Bu ordu sən deyən ordu deyil ki...

Keçirər boynuna xalta bu ordu,
Çəkib salar səni alta bu ordu,
Vurar dizlərinə balta bu ordu,
Bu ordu sən deyə ordu deyil ki...

Dolaşma dünyanı sən səfil-səfil,
Görərsən başına od yağar qəfil,
Nə qədər gec deyil yurdumdan çəkil,
Bu ordu sən deyən ordu deyil ki...

Əcdadım uludu, tarixim qədim,
Dosta dost olmuşuq, düşmənə qənim,
Sənsə buyruq qulum olmusan mənim,
Bu ordu sən deyən ordu deyil ki...

Əzərik başını ilan sayağı,
Lənətdi qarası həm də ki, ağı,
Çəkərik sinənə sağalmaz dağı,
Bu ordu sən deyən ordu deyil ki...

Qaraçı köçüsən, yurdun olmayıb,
Tarixdə qalası izin olmayıb,
Üzünü ağardan ordun olmayıb,
Bu ordu sən deyən ordu deyil ki...

Düşünmə bu hala çox dözürük biz,
Hamımız bir əmrə müntəzirik biz,
Məqam gözləyirik, vaxt gəzirik biz,
Bu ordu əvvəlki ordu deyil ki...

***Fərid MURADZADƏ***

*Qubadlı, Fərcan kəndi, 1980.*



## MÜZƏFFƏR ALİ BAŞ KOMANDANA

Adını tarixlərə həkk elədin əbədi,
Qələbəmiz dillərdə, könüllərdə nəğmədi,
Sən topladın, bir etdin, yumruq kimi milləti,
Müzəffər Ordumuzun Ali Baş Komandanı!

Artıq geridə qoyduq, həsrət dolu illəri,
Əmrinlə tarix yazdı Azərbaycan əsgəri,
Sücaətli sərkərdə, orduların sərvəri,
Müzəffər Ordumuzun Ali Baş Komandanı!

Bitdi ürəklərdəki yurd həsrətli yaralar,
Gülüstana dönəcək viran qalmış obalar,
Əzmin, səriştən ilə etdik düşmənləri xar,
Müzəffər Ordumuzun Ali Baş Komandanı!

Yoxdur status kvo! Daha yox təmas xətti,
Otuz illik o sədlər qırx dörd gündəcə bitdi,
Qurduğun səngərləri birdəfəlik məhv etdi,
Müzəffər Ordumuzun Ali Baş Komandanı!

Daban yalayan gədə, zəng edirdi "bütünə"
Cəbhədə məğlubluğun bağlamış idi dinə,
Aforizm sözləri düşdü xalqın dilinə,
Müzəffər Ordumuzun Ali Baş Komandanı!



***Saleh ƏLİOĞLU***

*1983-cü ildə Qubadlı rayonunun Muğanlı kəndində anadan olub.*

## KƏNDİMİZ

Mənzərəsi çox gözəldi,
Bərdi-bəzəkdi kəndimiz.
Qoxlanmamış tər çiçəkdi,
Pirdi, ocaqdı kəndimiz.

Bu yerlərin yox bənzəri,
Heyran edir gələnləri.
Laylasın çalır Həkəri.
Əsarəngizdi kəndimiz.

Yazı düzü, Gəyəni var,
Dağı, düzü, çəməni var.
Şükür, gəlib-gedəni var,
Qonaqsevərdi kəndimiz.

Almış idi qara duman,
Edilmişdi tamam viran.
Həqiqətə döndü güman,
Ellə qovuşdu kəndimiz.

İgid ərlər candan keçdi,
Otuz illik həsrət bitdi.
Həsrət-hicran sona yetdi.
Gülüstan oldu kəndimiz.

## QAYIDIRAM

Çay qırağı - gözəl məkan,
Baxıram, heç doymadan.
Uşaqlığı yada salan,
Doğma yurda qayıdıram.

Dağ-dərəsi doğma, tanış,
Həmin yerdir - fərqli baxış.
Dəli könlüm, susma, danış,
Doğma yurda qayıdıram.

Təbiəti gözəl, sərin,
Coşub daşır gur Həkərim.
Abadlaşır elim mənim,
Doğma yurda qayıdıram.

Ana yurdum, Ata yurdum,
Qəhərimdən mən udqundum.
Gəldim burda xoşbəxt oldum,
Doğma yurda qayıdıram.

Anamın gözləri doldu,
Gül bənizi sanki soldu.
Cavan getdi - qoca oldu,
Doğma yurda qayıdıram.



***Hacı BAXŞƏLİ***

*Qubadlının Mahruzlu kəndində doğulub.*

## GEDİRƏM

Qaçqınlar qayıdır el-obasına,
Sevinib hamıdan öndə gedirəm.
Gənclik illərimin xoş günü keçən,
Mahruzlu adında kəndə gedirəm.

Dözmədim tənəyə, töhmətə daha,
Qürbətdə hicrana, möhnətə daha,
Son qoyub ağrılı minnətə daha,
Yağışda, dumanda, çəndə gedirəm.

Həsrət qarabaqara izləyir məni,
Qoymur dincəlməyə bizləyir məni,
Həkəri, Bərgüşad gözləyir məni,
Olmuşam ən xöşbəxt bəndə, gedirəm.

Var olsun əsgərim, var olsun Ordum,
Mənli günlərinə qovuşur yurdum,
Səbirlə gözləyib mətinlə durdum,
Qurduğum bərəyə, bəndə gedirəm.

Baxşəli, qurban kəs, şənlik et, sevin,
Ordum canın aldı hiyləgər "devin"
Yolunu gözləyir "viranə" evin,
Ruhum şadlıq edir təndə, gedirəm.



***Ədalət NİCAT***

*Qubadlı rayonunun Hacılı kəndində doğulub.*

**YARI CANIM QUBADLIDADI**

Sumqayıtın haqqı çoxdu üstümdə,
Amma, yarı canım Qubadlıdadı.
Çəkiləndə yuxum gecələr ərşə,
Bilirəm ki, danım Qubadlıdadı.

Anamın laylasın dinlədim orda,
Könüldən bağlıyam mən ana yurda,
Səmtim orayadı olsam da harda,
Mələktək həyanım Qubadlıdadı.

Əsir zəfərimin yeli Vətənə,
Uzanmaz düşmənin dili Vətənə,
Yetişər ömrümün əli Vətənə,
Coşub daşan qanım Qubadlıdadı.

Günəş Araz üstən açar gözünü,
Gecə Bərgürşadda yuyar üzünü,
Mərddi insanıarı tutar sözünü,
Həm istək, həm yanım Qubadlıdadı.

Ədalət əzəldən bağlıdı elə,
Bir zaman göz yaşı dönmüşdü gölə,
Otuz il həsrətin çəksəm də belə,
Hər zaman xoş anım Qubadlıdadı.

***Eldar BAXIŞ***

*Qubadlı, Diləli Müskanlı kəndi*




## SALAM, DOĞMA KƏNDİM

Salam doğma kəndim, salamla birgə,
Sənin qabağında baş əyirəm mən.
Səni də bu təmiz havanla birgə,
Ciyərimə çəkmək istəyirəm mən.

Qollarımdan uzun qol verin mənə,
Qucum uşaqları, gözündən öpüm.
Yaman darıxıram, yol verin mənə,
O qaynar bulağın üzündən öpüm.

Necə dolanırsan, uca boy çinar?
Səni dörd tərəfdən bürüyüb çəmən.
O nədir, gövdəndə balta yeri var,
Gətir, dəsmalımla sarıyaram mən.

Nəğməkar qaranquş, gözəlsən, bəli,
Bir ağız cəhcəhin aləmə çatır.
Sənin quyruğunda ilanın dili,
Dimdiyində isə nəğmələr yatır.

De görüm necəsən, Niftalı əmi?
Bəs sən neyləyirsən, köhnə, uçuq dam?
Böyük vətənini sevə bilərmi,
Öz kiçik kəndini sevməyən adam?

Olmasın xəstəlik, ay çoban dayı,
Niyə baş-gözünü sarıqlamısan?
Özünə fikir ver, Bərgüşad çayı,
Bu il az yağıbdır, arıqlamısan.

Salam doğma kəndim, salamla birgə.
Sənin qabağında baş əyirəm mən.
Səni də bu təmiz havanla birgə,
Ciyərimə çəkmək istəyirəm mən.



***Qasım QASIMZADƏ***

*23 iyun 1923-cü ildə Qubadlının Aşağı Xocamsaxlı, kəndində doğulub, 28 iyul 1993-cü ildə Bakıda vəfat edib.*

## GƏLMİŞƏM

Səndən ayrılanda, dağlar, cavandım,
İndi görüşünə qoca gəlmişəm.
Qayğılar üstümə düşdü – talandım,
Üzümə üz tutub borca gəlmişəm.

Diləyim çoxsa da, gəl əsirgəmə,
Nə arzu eləsəm, yoxumdur demə.
Qaytar sən bu dəmdən məni o dəmə,
Düşmüşəm yamanca suça, gəlmişəm.

Mehribandır obaların, ellərin,
Şəfalıdır çiçəklərin, güllərin,
Məlhəm olsun deyə sərin yellərin
Sinəmi mən açа-aça gəlmişəm.

Xatirəmin güllərini üzməyə,
Cığır örtən otlarını əzməyə,
Haraylayıb gəncliyimi gəzməyə,
Yollarını quca-quca gəlmişəm.

Zəri alçı duran bəxtə-naxışa,
Möhkəmcə yaddaşa, möhkəmcə huşa,
Cağbacağ dişlərə – üyüdən daşa,
Yapdığım küt gedir, saca gəlmişəm.

Baxışda tüğyana gələn dənizə,
Qırışsız alına, gözlüksüz gözə,
Çəliksiz əllərə, əsməyən dizə,
Bükülməyən qola-qıça gəlmişəm.

Yanaqda közərən laləyə, gülə,
İlanı yuvadan çıxaran dilə,
Dayı dedirtməyən qapqara telə,
Hələ dən düşməyən saça gəlmişəm.

Damaqdan getməyən dada-ləzzətə,
Qızlar bəyəndiyi boya-qamətə,
İti, şux yerişə, taba-taqətə
Möhtac qalıb, uça-uça gəlmişəm.

Tövşümək bilməyən odlu nəfəsə…
Durnanı havada saxlayan səsə,
Tükənməz nəş’əyə, bitməz həvəsə,
Hünərə, qüdrətə, taca gəlmişəm.

Ömrün zinətini illər alıbdır,
Mahir oğru kimi bir-bir çalıbdır.
Bircə sən verdiyin vüqar qalıbdır,
Hüzuruna başı uca gəlmişəm!

***Haqverdi HACIOĞLU***

*Qubadlının Fərcan kəndində doğulub.*



**KƏNDƏ QAYIDAQ**

Həzin mehi, sübhü şehi bürüyür,
Ceyran, cüyür, yamaclarda yürüyür,
Dərələrdə duman, çənin sürüyür,
Sübh yuxusun, quş səsinə ayıldaq,
Doğmalarım, gəlin kəndə qayıdaq.

Maral otu, mərəvcəsi, yol otu,
Ayı dabanı, quzuqulağı, bal tutu,
Baldırğanı, kəklik otu batbatı,
Düzü lalə, yaşıl təpə, çılğın dağ,
Doğmalarım, gəlin, kəndə qayıdaq..

Hava təmiz, torpaq əziz, bol kəhriz,
Əti dadlı, südü yağlı, tər təmiz,
Saf qəlblər, çılğın ürək, aydın üz.
Olanları gedək, yenidən ayıldaq,
Doğmalarım gəlin, kəndə qayıdaq.
Qalın meşə, sərin guşə, var peşə,
Uşaqlığa, gəncliyə, saf keçmişə,
Gül-çiçəkli, tər ləçəkli, zər guşə,
Gəzək, görək, təmiz havasın udaq,
Doğmalarım, gəlin kəndə qayıdaq.

Geçələri ay, ulduzlu səmalar,
Təmiz ürək, gülərüzlü simalar,
Göydə mələk, göllərində sonalar,
Üzümüzü yad, üzlərdən yayıldaq,
Doğmalarım, gəlin kəndə qayıdaq.

Gölündə var Hacıoğlu, yaşılbaş sona,
Bürünmüş hər yanı, bəzəkli dona,
Məlhəm olsun, hər yaraya, hər cana,
Gedək elin ləziz, nemətin dadaq,
Doğmalarım, gəlin kəndə qayıdaq.

Yenə salaq işə, cütü, xırmanı,
Əkək yığaq, tərəvəzi, buğdanı,
Nəfəs dəysin, biz dirçəldək ormanı,
Yatanları gedək, təzdən ayıldaq,
Doğmalarım, gəlin kəndə qayıdaq.



***Əliağa ASLAN***

*Əliağa Aslan Surxay oğlu 1961-ci il yanvarın 1-də Qubadlının Qaracallı kəndində doğulub, 2009-cu ilin martın 2-də dünyasını dəyişib.*

**BƏRGÜŞAD**

Böyüdüm, başımda xata böyüdü,
Məni saflığında yudu Bərgüşad.
Ana laylasıdı, ata öyüdü,
Kim deyir adicə sudu Bərgüşad?!

Bərqi göydə Ayın bədrinə dəyər,
Nəğməsi min şeir sətrinə dəyər.
Adına çay desəm, xətrinə dəyər,
Sular sonasıdı, qudu Bərgüşad.

Ağlaya-ağlaya axıb yandırar,
Çağlaya-çağlaya baxıb yandırar.
Sazı pərdə-pərdə yaxıb, yandırar,
Sızladar kamanı, udu Bərgüşad!

Ta indi neyləyir yurdum hasarı?!
Yarama dərmandı yurdum, ha sarı!
Axıdın qanımı yurduma sarı,
Hamıya deyin ki, budu Bərgüşad!





***Azadə NOVRUZOVA***

*Qarakilsə rayonunun Şəki kəndində anadan olub.*

## ZƏFƏRİN MÜBARƏK, VƏTƏN!

Bitdi Qarabağ acımız,
Bitdi Şuşa həsrətimiz.
Həsrəti ilə yandığımız
Təbriz, Zəngəzur, Göyçəmiz,
BÜTÖV AZƏRBAYCANIMIZ!
Nə qaldı ki, beşcə-üçcə gün arada.
Sayıb bitirək bunu tez.
Gələk – çataq Çınqıllıya.
Öpək gözündən VƏTƏNİN.
Sığal çəkək tellərinə.
Yol gözləyən yolun-izin
Dolanıb qurbanın kəsək.
Əl çəkib evin-eşiyin
Toz basmış bucağın silək.
Gül əkək, çiçək bitirək
Dörd bir yanın Cənnət edək.
Perik düşən ruhları biz
Yad eləyib, şad eləyək.
Bütövləşsin Vətənimiz!
Bircə Bayraq, bir Komandan,
Əbədi olsun, QƏLƏBƏN!
ZƏFƏRİN, MÜBARƏK VƏTƏN!

## BU MEH VƏTƏNDƏN ƏSİR

Bir meh əsdi, basdı məni bağrına
Elə bildim,
ayrılığı əsir alıb, anam qucdu ruhumu.
Elə bildim,
zindan çəkib, qandal qırıb atam sardı boynumu.
Elə bildim,
qonaq gəldi əsgər gedən qardaşım.
Elə bildim,
Tanrı payım balam öpdü əlimi.
Elə bildim,
qərib düşən əzizlərim, doğmalarım, yığışdılar başıma.
Aman Allah, bu meh Vətəndən əsir,
dilim-dodağım əsir,
əlim ayağım əsir,
Bu meh vətəndən əsir,
Əsir vətəndən, əsir.
Çiçəkdən-güldən əsir,
Obadan-eldən əsir,
Dağılan məzarlıqdan
Qəbirdən-gordan əsir
Əsir vətəndən, əsir
Bu meh Vətəndən, əsir.



***Bəhruz NİFTƏLİYEV***

*Sisian rayonunun Urud kəndində doğulub.*

## MÜBARƏK ŞƏHİDİM

*Bir aya yaxındır döyüşlər gedir...*

Nə oğullar, nər oğullar getdi bax,
Vətən, qanım torpağına yetdi bax,
Anam, bacım bir ürəkdən dedi bax,
Şəhid adın mübarəkdir, mübarək!..
Qarın-qışın, bir qarışın olum mən,
Üzündəki bir qırışın olum mən,
Oğul deyim, ya qardaşın olum mən,
Şəhid adım mübarəkdir, mübarək !...
Allah məni pənahında saxladı,
Gözlərimi torpaq özü bağladı,
Mən ataydım, oğlum-qızım ağladı,
Şəhid adın mübarəkdir, mübarək!..
Azadlıqdı torpağımın gərəyi,
Sipər etdim köksümdəki ürəyi,
Türkün axı yerə gəlməz kürəyi,
Şəhid adım mübarəkdir, mübarək!
Ağı demə, anam şəhid oğluna,
Ağrı demə, yerimdəki boşluğa,
Yağış deyil, göydən yerə daş yağa,
Şəhid adım mübarəkdir, mübarək!
Qəm eləmə, qan eylədim düşməni,
Qılıncıma qın eylədim düşməni,
Əzdim-əzdim qum eylədim düşməni,
Şəhid adım mübarəkdir, mübarək!
Xarıbülbül xar olmadı, qayıtdım,
Hava soyuq, qar olmadı, qayıtdım,
Axşam düşüb, qaralmadı, qayıtdım,
Şəhid adım mübarəkdir, mübarək!
Bu yas deyil, mənim üçün bayramdır,
Nə fərqi var simal, cənub - hayandı?!
Vətən candı, torpaq mənə həyandı,
Şəhid adım mübarəkdir, mübarək!



***İbadulla İSMAYILOV***

*10 dekabr 1955-ci ildə Sisianın Ağdü kəndində doğulub.*

**ATA OCAĞI**

Həsrət qaldım yurd yerimin üzünə,
Duz basmışam hər yaramın gözünə,
Bircə dəfə baş qoymağa dizinə
Düşməmişdən ömrümün son yarpağı
Gəlim görüşəkmi, ata ocağı?!

Qapını açaydı o mələk anam,
Qolumu dolayam boynuna salam.
Deyə, harda qaldın, ay dəcəl balam?
Öpə gözlərimdən ana dodağı,
Gəlim görüşəkmi, ata ocağı?!

Ay ana,təndirin düşüb yadıma,
Lavaşın, pendirin düşüb yadıma.
O nehrən, kəndirin düşüb yadıma,
Gəlsin süfrəmizə nehrənin yağı,
Gəlim görüşəkmi, ata ocağı?!

Görüm, yerindəmi çörək damımız?
Ortası çatmalı dirək damımız?
Ay daşı, divarı kövrək damımız,
Necə doğma imiş küncü, bucağı,
Gəlim görüşəkmi, ata ocağı?!

Hanı buz bulaqlar, hər gün içdiyim?
Hanı dar cığırlar, yüz yol keçdiyim?
Yelləncəyi budağından asdığım
Yerindəmi qoşa armud ağacı?
Gəlim görüşəkmi, ata ocağı?!

Səhər ola, atam məni oyada,
Yuxulu-yuxulu gedəm nobata,
Allaha yalvaram: günəş tez bata,
Çobantək dolaşam dərəni, dağı,
Gəlim görüşəkmi, ata ocağı?!

Dəcəlliyim hazır idi, əlimdə,
Acı-acı tikanlarım dilimdə,
Anam oxlavını qıra belimdə,
Qaçam xəlvət-xəlvət dolanam bağı,
Gəlim görüşəkmi, ata ocağı?!

Qəriblik əlindən olmuşam yesir,
Gözlərim tor görür, əllərim əsir,
Yolumu yağılar, namərdlər kəsir,
Qismət olacaqmı Vətən torpağı?!
Gəlim görüşəkmi, ata ocağı?!



***Ruzigar Cəbisoy ÇƏLƏBİ***

*Ruzigar Əmənullah oğlu Cəbiyev 5 avqust 1953-cü ildə Sisianın Qızılcıq kəndində doğulub.*

## QALİB AZƏRBAYCANIM

*44 günlük Vətən müharibəsində qələbəmizə*

Şan- şərəfli şanım ilə,
Al şəfəqli danım ilə,
Ağ üzlü al qanım ilə,
Dövranim-zamanım olub,
Zamanım-dövranım ola.

Gül-çiçəkli yazım ilə,
Tar-kamanlı sazım ilə,
Ən şirin avazım ilə
Bütöv gülüstanım olub,
Bütöv gülüstanım ola.

Yurda can, hər anim ilə,
Ağ saray, ağ banım ilə,
Yada yad fərmanım ilə,
Xan-bəyim, sultanım olub,
Bəy, xanım sultanım ola.

Məkansız məkanım ilə,
Yer- göydə mehmanım ilə,
Hüdudsuz cahanım ilə,
Sonsuz asimanım olub,
Sonsuz asimanım ola.

Yenilməz ər qeyrətiylə,
Tükənməz var, sərvətiylə,
Nur vəhdəti-qüdrətiylə
Əbədi yananım olub,
Əbədi yananım ola.

Qırat, Dürat kəhəriylə
Xan Qazanın təpəriylə,
Ulu Turan zəfəriylə,
Qorqudlu dastanım olub,
Qorqurdlu dastanım ola.

Mübarizin hünəriylə,
Yağıyla mərd döyüşüylə,
Tanrım, əsgərim əliylə,
Düşmənimi sən məhv elə
Sən yurdumu abad eylə.

İnsana pak diləyiylə,
Haqqı süzən əlləriylə,
Yenilməz ruh. biləyiylə,
Saf sular axanım olub,
Yad- yağı yaxanım ola.

Sevinciylə, ələmiylə,
Qılıncıyla, qələmiylə,
Əziz, doğma həmdəmiylə
Zor, şərə üsyanım olub,
Şər, tora üsyanım ola.

Cavad xan, Polad kimi mərd,
Zülmətə ay- gün seli - dərd,
Məzluma xoş, zalimə sərt,
Gövhəri ləl-kanim olub,
Nəsimi tək kanım ola.

Tanrı sözüm-bağım ilə,
Bağrım- Qarabağım ilə,
Ruzigar, nur tağım ilə,
Öz Azərbaycanım olub,
Öz Azərbaycanım ola.



***Natiq VÜQARLI***

*Əliyev Natiq Mehdiqulu oğlu 18 may 1954-cü ildə Sisianın Ağdü kəndində anadan olub.*

**KƏNDİMİZİ GÖRÜRƏM MƏN**

Çıxıb İşıqlı dagına,
Kəndimizi görürəm mən,
Gəlirəm kolxoz bağına,
Kəndimizi görürəm mən.

Arabir də düşür yada,
Laləli düzlər, Cada.
Gecə yatıb yuxumda da,
Kəndimizi görürəm mən.

Möhtəsəmdir Qızılqaya,
Baxır sanki günə,aya.
Vurulmuşam Bazarçaya,
Kəndimizi görürəm mən.

Şükürbəli yayda gözəl,
Burda qış da, yay da gözəl.
Bulaqlar da, çay da gözəl,
Kəndimizi görürəm mən.

Ətəyində kolxoz bağı,
Süfrəsində nehrə yağı,
Bir cənnətdir solu, sağı,
Kəndimizi görürəm mən.

Bu nə oyun, bu nə şahmat?
Mən özüm də qalmışam mat.
Siz eşidin, ay camaat,
Kəndimizi görürəm mən

Ağdülüyəm, Vüqarlıyam,
Etibarlı, ilqarlıyam
Kəndimizə çox bağlıyam,
Kəndimizi görürəm mən.



## *SÜCAƏT*

*Əhmədov Sücaət Yunus oğlu, 4 iyun 1943, Kəlbəcər – 13 noyabr 2002, Gəncə.*

### KƏLBƏCƏR

Mənim ürəyimdi, mənim canımdı,
Düşmən süngüsünə keçən Kəlbəcər.
İndi ondan-bundan qiymət gözləyir,
Aqili nadandan seçən Kəlbəcər.
Tər-tər qəmli-qəmli axar sızıldar,
Dağlar gözlərini sıxar sızıldar.
Dağılmış evlərə baxar sızıldar,
Əsir düşüb, zəhər içən Kəlbəcər
Sücaət, neyləyək baxt belə baxtdı,
Darıxma, hər şeyi həll edən vaxtdı.
Bir gün gülə-gülə qayıdacaqdı,
Ağlaya-ağlaya köçən Kəlbəcər!

### MƏN OLAYDIM

Sınmayaydı qanadlarım
Quş, yerinə mən olaydım.
Uçardım düz Dəlidağa
Kaş yerinə mən olaydım.
Ömür talan, həyat yalan
Dərdə düşsün dərdə salan
Nə kövrək saatdı, nə kövrək andı,
Nəfəsim təngidi, ürəyim yandı.
Kəpəzdən bir çəngə bulud boylandı,
Xəyal uzaqlara uçdu, darıxdım.
Qoy yazım varağı qalmasın ağı,
Kim çəkər həsrəti Bəhmən sayağı.
Çox da müqəddəsdi Gəncə torpağı,
Kəlbəcər yadıma düşdü, darıxdım.



***Faiq BAYRAMOV***

*1955-ci ildə Sisianın Ağdü kəndində doğulub.*

**ÖZÜMÜ...**

Bu fani dünyada mən də qocaldım,
Fələk bükdü əyilməyən dizimi...
Enişdə-yoxuşda düz gəzəmmədim,
Nəvələrim qarışdırdı izimi...

Çox zamanlar sözüm gəzdi ağızda,
Ağlım-fikrim hey dolaşdı kağızda,
Lağ elədi sudan gələn o qız da-
Yerə saldı göynən gedən sözümü...

Gözəllərin gözlərində qalmadım,
Şirin-şirin sözlərini duymadım
Cənnət eldə Cənnətməkan olmadım,
Bu iqbqlla bədbəxt saydım özümü...

Çox gözələ könül açdım, "sev"dedim,
Qəlbim tutan yar evinə "ev"dedim,
Yar sinəsin Kəbədəki "yer" bildim-
Sığal çəkdim, ora sürtdüm üzümü...

Mən Faiqəm, niyə gəldim cahana,
Sevən kəslər arzulamaz bəhanə,
Yaradanın fikri nədi, qəsdi nə?
Bu iqbala layiq gördü özümü...



***Yasir BAYRAMOV***

*29 mart 1968-ci ildə Sisian rayonunun Urud kəndində dünyaya göz açıb.*

## YUXUDA GÖRÜR...

Vətənsiz yaşayan qəribə dönür,
Yana baxan gözlər çaşır, çaş görür...
Zəngəzur dağlarını duman hörür,
Laməkanlar yurdu yuxuda görür...
Onların gecələr ruhu şad olur,
Durnalar yuxuda yurduna uçur...
Gündüzlər açılır,gecələr solur,
Həsrətli gözlərə acı yaş dolur...
Urudum vətəndən vətənə köçdü,
Vətənə oxşayan bir ömür sürdü...
Qibləsiz qocalıb kəfənsiz öldü,
Vətənsiz yaşayıb vətənsiz öldü...
Yurdundan çıxanın yeri dar olar,
Qürbətdə gözləri intizar qalar...
Ürəklər haçalı, qəmlərlə dolar,
O gözlər üzü vətənə yumular..

## İTİRMİŞƏM

Gör necə doğma diyar, yüz min də can itirmişəm,
Duyğular əsir düşüb, ürəkdə qan itirmişəm...
Eşq azıb öz yolunu, çöllü biyabanda gəzir,
Huşum zülmət gecədir, sübh ilə dan itirmişəm...
Yurdum,Urudum talanıb, quru nəfəsi qalıb,
Köksümə köz basılıb, şöhrəti-şan itirmişəm...
Gözlərim məhbus olub, görməyə ürkək gözlüsün,
Dilim kabab edilib, ruhu nihan itirmişəm...
İrəvan ruh əkizim, Zəngəzur qüssə dağımdır,
Göyçəni, Dərələyəzi mən cahan itirmişəm...
Qaragöl şah damarım, Göyçə gölü yaraşığım,
Kəhrizləri,bulaqları çox ümman itirmişəm...
Yasirin ən şirini, keçmişi, tarixi olan,
Zəngəzur, Urud nisgilli bir məkan itirmişəm..



***Məhyəddin MƏHƏRRƏMOĞLU***

*İsmayılov Məhyəddin Məhərrəm oğlu 14 may 1942-ci ildə Kəlbəcər rayonunun Bağlıpəyə kəndində anadan olub.*

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən:** *Əziz həmvətənlər! Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. 25 noyabr 2020*

## A DAĞLAR

Xalqımıza ümid verib yaşatdın,
Yollarına qurban olum, a dağlar.
Layla dolu beşik bildim mən sizi,
Bir yer göstər, burda qalım, a dağlar.

Səhər-səhər bülbül qonur gül üstə,
Nəğmə deyir necə şirin dil üstə.
Bir yerlərdə şəfa tapar hər xəstə,
Gözəllikdi sağım, solum, a dağlar.

Nə sərvətdə, nə dövlətdə gözüm yox,
Əyrilikdə, bəd əməldə üzüm yox.
Ədalətsiz bir cığırda izim yox,
Haqq yoludur mənim yolum, a dağlar.

Qərib yerdə şad olmadım, gülmədim,
Vətən dedim, göz yaşımı silmədim,
Sizi gördüm bəlkə də heç ölmədim
Saf ürəyim, əlim, qolum, a dağlar.

Uşaqlıqdan saldın məni kəməndə,,
Hiss etdim ki sən məndəsən, mən səndə.
Məhyəddinəm, sözlər daşır sinəmdə,
Az qalmışam şair olam, a dağlar.



***Salman KƏLBƏCƏRLİ***

*Salman Vəli oğlu Balakişiyev 1959-cu ildə Kəlbəcər rayonunun Daşbulaq kəndində anadan olub.*

## QARABAĞ VƏTƏNDİR - AZƏRBAYCANDIR!

Ali Baş Komandan igiddi, ərdi
Yolun azanlara yerin göstərdi,
Gördü, yox, qanmırlar, yumruq göstərdi,
Dedi:-qismətiniz ölümdür, qandır,
Qarabağ Vətəndir- Azərbaycandır!

Yüz illik ağrını, yüz illik dərdi,
Həll etdi, misilsiz hünər göstərdi,
Göylər də ona “əhsən” deyirdi
Hər sözü dillərdə məsəl, dastandır,
Qarabağ Vətəndir- Azərbaycandır!

Qəzəb köhlənini bir anda mindi,
Qeyrət qılıncıyla meydana endi,
Şərəfsiz düşmənin ocağı söndü,
Qurama sarayı, binası yandı,
Qarabağ Vətəndir-Azərbaycandır!

İldırımtək çaxdı Xudafərindən,
Yer oynadı, göy oynadı yerindən,
Azərbaycan nəfəs aldı dərindən,
Milli Ordum bir basılmaz qaladır,
Qarabağ Vətəndir - Azərbaycandır!

Aqildir, müdrikdir, bilir dilləri,
Ata sevgisiynən sevir elləri,
Qorxudan tir-tir əsir yağı dizləri,
Hünərdə uca dağ, köksü ümmandır,
Qarabağ Vətəndir - Azərbaycandır!



***Rəfael DƏMİROĞLU***

*Əsgərov Rəfael Dəmir oğlu-13 iyul 1968-ci ildə Kəlbəcərin Susuzluq kəndində doğulub, 2024-cü ilin iyulunda vəfat edib.*

## KƏNDİM

*(Kəndimizin şəhidlərinə)*

Doğulub qucağında,
Gəzdik bağça-bağında.
Gözəlsən hər çağında,
Mənim Susuzluq kəndim!

Şəhidi olan diyar,
Hər zaman məğrur durar.
Şəhid balaların var,
Mənim Susuzluq kəndim!

Akif, Arif, Nəriman
Uğurunda verdi can.
Sən bu dünya boydasan,
Mənim Susuzluq kəndim!

Bil ki bu iki cavan,
Nakam getdi dünyadan.
Həm Zəlimxan, həm Rizvan,
Mənim Susuzluq kəndim!

Sevinirəm Vətəndə,
Bənzədin yaxşı kəndə.
Qurbanam sənə mən də,
Mənim Susuzluq kəndim!

Əyilməz vüqarımsan,
Sevimli diyarımsan,
Nə yaxşı ki varımsan,
Mənim Susuzluq kəndim!



***Hüseyn ŞAHBƏNDƏYEV***

*1958-ci ilin 16 fevralında Kəlbəcər rayonunun Başlıbel kəndində doğulub.*

**25 NOYABR KƏLBƏCƏR GÜNÜNƏ**

Gözümüz aydın olsun!
Mən Kəbə istəmədim,
Qibləm Kəlbəcərdədir.
Vəzifə istəmədim,
Rütbəm Kəlbəcərdədir.

Cavanlığım, gəncliyim,
Keçmişim, gələcəyim,
Yorulmağım, dincliyim,
Bəxtim Kəlbəcərdədir.

Ağzımın dadı, tamı
Tutqu, Barıtlı çayı,
Bumbuz suyu, saf balı,
Şəhdim Kəlbəcərdədir.

Tərifi sözə sığmaz
Başlıbelim əlçatmaz.
Dözmüşəm, şükür, qardaş,
Əhdim Kəlbəcərdədir.

Təbiəti heyrətim,
Yenilməyən qeyrətim,
Solmayan məhəbbətim,
Eşqim Kəlbəcərdədir….

**ŞƏHİD HÜSEYN NƏCƏFOVA**

Sən əbədi ömürlüsən
Biz yaşayıb nə etmişik?!
Hərə bir gün köç edəcək.
Bu, həyatın qanunudur,
Adımızı dost-tanışlar yad edəcək.
5 il, 10 il, bir az sonra
Yaddaşlardan silinəcək...
Şəhidlərsə heç vaxt ölmür,
Nəsillərlə daim yaşar,
Ürəklərdə məskən salar,
Heykəlləşər...
Uşaqlarla uşaqlaşar,
Cavanlarla cavanlaşar.
Əbədi ömrü olsa da,
Qocalığı görməyəcək,
Vətən üçün şəhid olan
Vətənlə çiyin-çiyinə,
Əbədilik yaşayacaq,
Vətənlə ömür sürəcək!



*Bəhmən VƏTƏNOĞLU*

*Kəlbəcər - Gəncə, 1932-2004*

## DARIXDIM

Axşam da qəribdi, mən də qəribəm,
Nələr ürəyimdən keçdi, darıxdım.
Zalım ayrılığın kamil ovçusu,
Ox atdı sinəmi deşdi, darıxdım.
Nə kövrək saatdı, nə kövrək andı,
Nəfəsim təngidi, ürəyim yandı.
Kəpəzdən bir çəngə bulud boylandı,
Xəyal uzaqlara uçdu, darıxdım.
Qoy yazım varağı qalmasın ağı,
Kim çəkər həsrəti Bəhmən sayağı.
Çox da müqəddəsdi Gəncə torpağı,
Kəlbəcər yadıma düşdü, darıxdım.

## MƏN OLMALIYAM

Qartal o zirvədən belə en, belə,
İnsanam, zirvədə mən olmalıyam.
Günəş yandıranda ana torpağı,
Duman olmalıyam, çən olmalıyam.
Zirvədən salıbdı yolu babalar,
fikri kamal ilə dolu babalar.
Müqəddəs yaşayıb ulu babalar,
Mən də fitnələrdən gen olmalıyam.
Kədər toy gətirməz, düyün gətirməz,
Sükunət dünyaya bir ün gətirməz.
Ağlamaq heç kimə ağ gün gətirməz,
Nə qədər həyat var, şən olmalıyam.



***Nicat HUNALP***

*Qasımlı Nicat Kamal oğlu 17 fevral 1996-cı ildə Mingəçevirdə anadan olub. Əslən Cəbrayıldandır.*

**ARAZI GÖRDÜM...**

Çiçəkləndi könül dünyam xoş oldu,
Ürək köksüm üstə qərib quş oldu.
Araz çayı gözlərimdə yaş oldu,
Yurdun sinəsində min sızı gördüm -
Xoşbəxtəm, ölmədən Arazı gördüm.

Nə həsrətdi könülüm üstə çırpınan,
Yurd yerində son ocaqdı o yanan.
Ağ saçları zirvəsi qar Savalan,
Qışdan ötdüm baharı -yazı gördüm -
Xoşbəxtəm, ölmədən Arazı gördüm.

Dön geriyə tarixlərdə Türkə bax,
Başındakı qeyrət rəmzi börkə bax.
And yerimiz ulu qalam Ərkə bax,
Orxonda Türk adlı daş yazı gördüm -
Xoşbəxtəm, ölmədən Arazı gördüm.

Hərdən bir qurd ular ulu Altayda,
Səsinə səs verər günəş də, ay da.
Türk bəylər yığışan qutlu sarayda
Ən həzin-həsrətli avazı gördüm -
Xoşbəxtəm, ölmədən Arazı gördüm.

Qanayan yaranı qaşımaq bir dərd,
Dərdi də içində daşımaq bir dərd!
Qürbətdə vətənsiz yaşamaq bir dərd,
Dərddən parçalanan o sazı gördüm -
Xoşbəxtəm, ölmədən Arazı gördüm.

İçimdə dərd yatır, yeri dərində,
Gecəsi haqq imiş hürr səhərində.
Yurdun həsrətiylə Xudafərində,
Arazla bir yaşda Arazı gördüm -
Xoşbəxtəm, ölmədən Arazı gördüm.



***Namiq DƏLİDAĞLI***

*29 sentyabr 1970-ci ildə Kəlbəcərdə anadan olub.*

## KƏLBƏCƏRƏ DÖNÜRÜK...

İlahi, sənə şükür, diləyimiz çin oldu,
Kəlbəcərə dönürük...
İllərdi gözləyirdik, bu gün, həmin gün oldu-
Kəlbəcərə dönürük...

Möcüzə yaranıbdı-sirr qayası, sirr daşı,
bu yurdun əvəzi yox-dür qayası, dür daşı.
Şəhid-Şəhid göyərən hər qayası, hər daşı-
Kəlbəcərə dönürük...

Kimin düşsə bu yerə güzarı- sevinəcək,
qalmayacaq ağrısı-azarı, sevinəcək.
...Uluların torpağı-məzarı sevinəcək,
Kəlbəcərə dönürük...

Var olsun milli ordum, zəfər çalıb gəlirik,
düşmənə qan uddurub, qisas alıb gəlirik,
məğlub kimi çıxmışdıq, qalib olub gəlirik-
Kəlbəcərə dönürük...

Günahkar tək yanına salıb qol-qanadını,
xəcalət çəkib deməz daha heç kim adını,
tarixin arxivinə atdıq "köçkün" adını,
Kəlbəcərə dönürük...

Acısını dadmışıq görün neçə il qəmin,
daha ağrısın çəkmir ürək dərdin, dil qəmin,
gözü aydın Şahbazın, gözü aydın Dilqəmin,
Kəlbəcərə dönürük...

Ta deyilsən yağıya girov, hər vaxtın xeyir,
görməz başın çən-duman, qırov, hər vaxtın xeyir,
Dəlidağ, salam olsun, Murov, hər vaxtın xeyir,
Kəlbəcərə dönürük...



***Əjdər ƏSLİSAF***

*İlyasov Əjdər Hüseyn oğlu 31.12.1962-ci ildə Kəlbəcər rayonunun Milli kəndində anadan olub.*

## GÖYÇƏDİ

Necə həsrət bir ömürdə cəmləşib,
Dərdlərimin ən acısı Göyçədi.
Olsa da Kəlbəcər doğma vətənim,
Arzuların ən ucası Göyçədi.

Əzəldən vurğunu olan könlümün,
Qərib diyarlarda viran könlümün,
Həsrətdə, hicranda qalan könlümün,
Asimanda əks-sədası Göyçədi.

Görsəydim olmazdı daha bir dərdim,
Ələsgər yurdunu bir də gəzərdim.
Çağırsaydı, dizin-dizin gedərdim,
İlhamımın ruh qidası Göyçədi.

Əjdərəm, arzumdu yurduma dönüm,
Əgər ki, qürbətdə olsa son günüm,
Dilimin son sözü Kəlbəcər, mənim
Nəfəsimin son nidası Göyçədi.





***Elşad Qazi KƏLBƏCƏRLİ***

*28.11.1984-cü ildə Kəlbəcərin Comərd kəndində anadan olub*

**"DƏMİR YUMRUQ"**

Güllə səsləriylə açıldi səhər,
Atıldı döyüşə hər kənd, hər şəhər.
Xalqımın birliyi verdi bar-bəhər,
Düşmənin gözünün odun almışıq -
Biz "Dəmir Yumruq"la zəfər çalmışıq!

Yolların tilsimin qıranlar bizik,
Düşmənin bağrını yaranlar bizik.
Çəkici bir yerə vuranlar bizik,
Ağır döyüşlərdə qalib olmuşuq -
Biz "Dəmir Yumruq"la zəfər çalmışıq!

Döyüş meydanında naşı əzildi,
Zəhərli ilanın başı əzildi.
Qurusu kül oldu, yaşı əzildi,
Polad biləkmişik, vuran qolmuşuq -
Biz "Dəmir Yumruq"la zəfər çalmışıq!

Şuşa marş sədalı zəfər nəğməsi,
Dünyaya səs salıb Ordumun səsi.
Yenilməz heç zaman ərən həvəsi,
"Hay"ları biryolluq taxtdan salmışıq -
Biz "Dəmir Yumruq"la zəfər çalmışıq!

Qədim Şuşa, bülbül kimi dil aç sən,
Kəlbəcərdən Laçınacan yol aç sən.
Ta Ağdamda, Füzulidə qol aç sən,
Qan töküb, torpağı geri almışıq -
Biz "Dəmir Yumruq"la zəfər çalmışıq!

Elşad, ta dillərdə söz olanlarıq,
Əlçatmaz zirvədə iz olanlarıq,
Həyatda amalı düz olanlarıq,
Daha nə saralıb, nə də solmuşuq -
Biz "Dəmir Yumruq"la zəfər çalmışıq!



***Səxavət KƏLBƏCƏRLI***

*Səxavət Süleymanov 1985-ci ildə Kəlbəcərdə doğulub.*

**QAYIDIŞ**

Doğma kəndim qucaqlaşaq doyunca,
Sıx məni bağrına mən qayıtmışam.
Səndən körpəlikdən ayrı düşmüşəm
İndi saçlarımda dən qayıtmışam.

Burda uşaqlığım üzümə baxdı,
Varlığım yaş olub gözümdən axdı,
İtkginiydi arzularım nə vaxdı,
Yığılıb başıma cəm qayıtmışam.

Səxavətəm bulud kimi dolmuşam,
Hərdən çiçək açıb,hərdən solmuşam.
Sənin həsrətindən şair olmuşam
Təpədən dırnağa qəm qayıtmışam

Otuz il həsrətdən göz yaşı tökdük,
Başı qarlı dağlar, biz qayıtmışıq.
Qalıb yaddaşımda hər qayan, daşın,
Xatirəli çağlar, biz qayıtmışıq.

Sizə qovuşmağa yanır ürəklər,
Əsin ürəyimə əsən kuləklər.
Yarpızlı dərələr, güllər, çiçəklər,
Lilparlı bulaqlar biz qayıtmışıq.

Sizinlə qoşadı şöhrətim, şanım,
Zərrə torpağına qurbandı canım.
Elə coşa gəlib damarda qanım,
Tərtər kimi çağlar, biz qayıtmışıq.

Dumanda çəkildi saxlamadı sədd,
Gəzdim zirvə-zirvə, dolandım kənd-kənd.
Kədərdən, qəmdəm yox, şair Səxavət,
Sevincindən ağlar, biz qayıtmışıq.

***Məcnun MƏMİŞOV***

*2003-cű ildə Şəmkir rayonunda anadan olub,*
*əslən Kəlbəcər rayonundandır.*



## DAĞLARDA BAHARIN ƏTRİ QALIBDI

Dağlarda baharın ətri qalıbdı,
Hələ də gűlləri təravətlidi..
Dərməyə qıymadım bircə dəstə də,
Bir baxış necə də səxavətlidi.

Ayırmaq çətindi dumanı çəndən,
Çiçəklər yığışıb baxır çəməndən.
De, necə ayrılım, mən indi səndən,
Daşların şəhərdən zərafətlidi...

Bulud başı űstdə hőrűlən çələng,
Rəssam, həqiqətdi, fırçadan əl çək.
Hər űzű nurludu, hər űzű gőyçək,
Əlləri Sinadan şəfaətlidi...

Gőrkəmin dəyişir ağarınca dan,
Daş kəsib yerində quruyur adam.
Bir kəsə etmədi səcdə, ehtiram,
Tanrıtək səbirli, dəyanətlidi...





**Adil HƏMID**

*07 dekabr 1967-ci ildə Kəlbəcər rayonunun Nəcəfalılar kəndində doğulub.*

## KƏLBƏCƏR

Sovqatın süfrərəyə bərəkət verdi,
Minbir nemətinlə dolu, Kəlbəcər!
Xəstəkən şəfaya qovuşdu əzam,
Şükr Yaradana, ulu Kəlbəcər!

Zəhər dadan dilim dönübdü qəndə,
Açıldı düşənlər tilsimə, bəndə.
Allahın hökmüylə başlayam mən də,
Arzularda qalan yolu, Kəlbəcər!

Kölgəm burda, orda ruh da özümün,
Ləhcəmin şəkəri, dadı sözümün,
Qəlbimin taqəti, nuru gözümün,
Cismimin qanadı, qolu, Kəlbəcər!

O ulu görüşə məndə tab qala,
Axı mənsiz qalıb çəmən, çöl, tala,
Ümidim sənədir, ay Allahtala,
Qoy olsun ömrümün sonu Kəlbəcər !

Adil, gəl səbr eylə, günlər gələcək,
Ağlayan, sızlayan üzlər güləcək,
Bir gün Prezidentim qərar verəcək,
Köç başlasın zəfər yolu-Kəlbəcər!



***İlham MƏMMƏDLİ***

*Məmmədli İlham Müseyib oğlu 9 fevral 1963-cü ildə Kəlbəcər rayonunun Bəzirxana kəndində doğulub.*

## MƏMMƏD

*(Ustad Məmməd Aslanın ruhuna böyük ehtiramla)*

Kəlmə-kəlmə, misra-misra böyüdü,
Sığmadı bir cana, bir tənə Məmməd.
Aldı ustadlardan dərsi, öyüdü,
Sözdən qala yaptı Vətənə Məmməd.

Dəmir çarıq geyib çöllərə düşdü,
Hikmət sorağıyla ellərə düşdü.
Yandı Kərəm kimi, dillərə düşdü,
Ürəyin açmadı yetənə Məmməd.

Əzəldən Ələsgər Pir-vəlisiydi,
Bayatı dağların daş Lələsiydi.
Şeirin xiridarı, söz dəlisiydi,
Gəldi sinədəftər, bir dənə Məmməd.

Bir ömür dağlarla ülfət saxladı,
Dəli Tərtər kimi coşdu, çağladı.
Qurbandan, Şəmşirdən kitab bağladı,
Sənəti yönəltdi səmtinə Məmməd.

Hər kolun dibində bir gül qoxladı,
Hər sözü yerində tutdu, haxladı.
Arifi, aqili tapdı, yoxladı,
Bənzədi itiyi itənə Məmməd.

Yaşatdı qəlbində Nazim ağrısın,
Ağladı şairin haqsız yarğısın.
Məqamında dedi sözün doğrusun,
Baxmadı hər daşı atana Məmməd.

Kəlbəcər gedəndən fikri dalğındı,
Yurd dərdi içində yığın-yığındı.
“Dərədən-təpədən” “Söz”ə sığındı
Görəndə nadandan bir tənə Məmməd.

Dünyaya gələndən söz vurğunuydu,
Hikmətin, mənanın öz vurğunuydu.
Bir nərgiz baxışlı göz vurğunuydu
Tərif söyləməzdi ötənə Məmməd.

Badə alıb içdi öz mələyindən,
Yüz hikmət töküldü söz ələyindən.
Simurq qanadından, qaz lələyindən
Sözünü yetirdi yatana Məmməd.



***Məhəmməd NƏRİMANOĞLU***

*1957-ci il fevral ayının 18-də Kəlbəcər rayonunun Otaqlı kəndində anadan olub.*

**KƏLBƏCƏRİMİN**

Əzəldən yaranıb hüsnü-tamaşa,
Vurğunam qışına Kəlbəcərimin.
Sübhün işığından axşam çağına
Dolanam başına Kəlbəcərimin.

Heyranam, vurğunam bulağa, çaya,
Aran haraylayır, tələsir haya.
G/öylərə ucalan min-min sal qaya,
Yaşıddı yaşına Kəlbəcərimin.

Baldı dodağımda şirin ləhcəsi,
Tarixdir, muzeydir hər bir guşəsi.
Məhəmməd, dövranın, zamanın səsi
Yazılıb daşına Kəlbəcərimin.

**DAĞLARI**

Dədə Şəmşir, bilirsənmi gül açmır,
Xəzan vurub bahar çağı dağları?!
Balaları şirin-şəkər dil açmır,
Bürüyübdü fəryad, ağı dağları.

Köç eyləyib, ellər səndən aralı,
Sinəsindən çalın-çarpaz yaralı.
Alıbdı nişana körpə maralı,
Salıbdı kəməndə yağı dağları.

Məhəmmədəm, ocağım yox bu yanda,
Qılınclar yamanca pas atır qında.
Hər «Novruz» günündə, bayram ayında
Dağlayır sinəmin dağı dağları.



***Milli DAŞQIN***

*Mayılov Daşqın Ziyəddin oğlu 26 sentyabr 1975-ci ildə Kəlbəcərin İstisu qəsəbəsində anadan olub.*

## KƏLBƏCƏR

Yenə örpəklənib həyalı dağlar,
Yenə sınaq olub qışa Kəlbəcər.
Olubdur könlümün intizar yeri,
Həmişə Göyçəylə qoşa Kəlbəcər.

Gəzdim diyar-diyar olunca vurğun,
Seyr etdim dağları hey oğrun - oğrun.
Bir şair balanam hüsnünə vurğun,
Doymaram ətrindən haşa, Kəlbəcər !

Azadsan yurd yerim, qoynun cənnətim,
Ölsəm qucağında, yoxdur minnətim.
Ruhumun qidası sözüm - söhbətim
Adınla çəkilir başa, Kəlbəcər !

Səyirdim yetişsin yel at qoynuna,
Bir çiçək istəsəm əl at qoynuna.
Hər dəfə gələndə elat qoynuna,
Sevincin başından aşa, Kəlbəcər !

Daşqın, "Şikəstə"ni Babək yandıra,
Əlövsət söz deyə, qanı dondura,
Ədalət "Misri"də simi sındıra,
Tərtərin çağlaya, daşa, Kəlbəcər !
Olubdur könlümün intizar yeri,
Həmişə Göyçəylə qoşa, Kəlbəcər!



***Elşən ƏZİM***

*Əzimov Elşən Baxşeyiş oğlu 28 avqust 1975-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində anadan olub.*

## ŞUŞAYA KÖÇ GƏLİR

Bulud ətir səpir öz yağışıyla,
Şuşaya köç gəlir yaz yağışıyla.
Qaya əllərini gözünün üstə-
Qaldırıb köçünü gözləyir Şuşa.
İçindən qopmuşdu ruhu otuz il
Ruhunu, İçini gözləyir Şuşa.
Oğul qarşılayan ana misalı
Bayram libasını geyinir Şuşa.
Gedəndə ardınca su atmamışdı-
Gələn qədəmlərə su səpir indi
Öyünür Şuşa.
Yuxudan ayılır bir qərinəlik
İnfarktdan sağalmış bir ürək kimi
Yenidən, yenidən döyünür Şuşa.
Açılır Şuşanın yolları, tanrım
Açılır qoynunda qalan qolları.
Sərir qollarını, qanadlarını
Gələn balasının qədəmlərinə.
Bu şəhər üz tutur sabahlarına
Bu köç salam verir qədimlərinə.
Şuşaya köç gəlir bu bahar çağı
Gəlir qələbənin nübarı kimi,
Düzülür bir durna qatarı kimi.
Bir zaman üzünü göylərə tutub
Durna qatarına söz deyən Vaqif
İndi göy üzündən yerlərə baxır
Bu köçü, növrağı gözləyən Vaqif
Deyir:"Fərağınızdayam xeyli zamandır
Sözüm vardır mənim sizə, durnalar."
Dağlar da düzülür yol qırağına,
Düzülür ağacın, daşın karvanı.
Şuşaya köç gəlir, durna qatarı...
Şuşaya köç gəlir, maşın karvanı...



***Ələmdar KEŞTƏKLİ***

*Ələmdar Nəriman oğlu Əmraslanov 1958-ci ildə Kəlbəcər rayonunun Keştək kəndində anadan olub.*

## DƏRƏLƏYƏZ

Görmədim hüsnünü bir dəfə heyf,
Vurğunam mən sənə, ay Dərələyəz.
Deyirlər gözəlsən bu yer üzündə,
Sənsən Kəlbəcərə tay, Dərələyəz.

Unuda bilmirəm ağır elləri,
Şır-şır bulaqları, ala gölləri,
Min növ çiçəkləri, min növ gülləri,
Mən deyim dərdimi say, Dərələyəz.

Hanı Arpa çayın, «Südlü» bulağın,
Təkədonduranın, gül «Səfolar»ın?
Görünmür ellərin, ağır yığnağın
Bu dərdi dünyaya yay, Dərələyəz.

Güllüdüzün bir bəzəkli gəlindi
Zorbulaq, Qavuşıq, Gədikvəng indi
Kimə qalıb, gəl bu dərdə döz indi
Bu qədər olmazdı pay, Dərələyəz.

Həsən kənd, Zeyta kənd uludan ulu
Her-her Kotanlının kəsildi yolu.
İmanlı bulağın gözləri dolu
Çox sərin olardı yay, Dərələyəz.

Mehdinin ruhunu saçın darıyır?
Qara qaya elsiz qalıb zarıyır.
Həsən Mirzə vətən deyib lalıyır
Dərdimiz var lay-lay, ay Dərələyəz.

Qəmli Ələmdaram, üzüm gülməyir,
Vətənsiz qalmışam, ürək göynəyir.
Sızıltım yanına bəyəm gəlməyir?
Axır gözlərimdən çay, Dərələyəz.



***Elbrus ŞAHMAR***

*11 aprel 1945-ci ildə Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.*

**DÜNYADA**

Baş açmadım bu dünyanın işindən,
Hiyləsindən, fitnəsindən, felindən.
Kimlər gəldi, kimlər getdi elimdən,
Olan qalmaz, ölən gəlməz dünyada.

Ələyi var, xəlbiri var fələyin,
Göz yaşı var, gülüşü var fələyin.
Qurtaran yox caynağından fələyin,
Olan qalmaz, ölən gəlməz dünyada.

Kırkası, cəhrəsi var fələyin,
Hanası var, həvəsi var fələyin,
Hikkəsi var, kələyi var fələyin,
Olan qalmaz, ölən gəlməz dünyada.

Cələsi çox, səyyadı çox fələyin,
Sümüyü çox, yeyəni çox fələyin,
Sifəti çox, siması yox fələyin,
Olan qalmaz, ölən gəlməz dünyada.

Fələyin tiyanı böyükdən böyük,
Nə qədər göz yaşı töksən də dolmaz,
Güləni az, ağları çox zamanda,
Olan qalmaz, ölən gəlməz dünyada.

İş biləni, iş axtarar, iş tapmaz,
Bilməyəni xoca olub dərs deyər,
Kor şeytandan, bəd əməldən dəmlənər,
Olan qalmaz, ölən gəlməz dünyada.

Yalan rəvac tapar, həqiqət susar,
Köhləni ağsayar, yabısı çapar,
İlləti çox olar, dərman axtarar.
Olan qalmaz, ölən gəlməz dünyada,

Baxanı çox, görəni az zamanda,
Şuğulu, ülgüsü kəsik zamanda,
Arşınları düz ölçməyən zamanda,
Olan qalmaz, ölən gəlməz dünyada.

Ağsaqqalı sayılmayan dövranda,
Biri yuyan, biri sərən dövranda,
Aqili gumansız qalan dövranda,
Olan qalmaz, ölən gəlməz dünyada.

Dəridən-qabıqdan çıxanları çox,
Lüt-üryanları çox, harınları çox,
Toxluq edənlərin qaytaranı çox,
Olan qalmaz, ölən gəlməz dünyada.

Dərk olunmaz bu fələyin gərdişi,
Nə sarvanı, nə karvanı, şələsi,
Qanlar tökər, qan damcılar tiyəsi,
Olan qalmaz, ölən gəlməz dünyada.

Sözün cilovdarı Nizami demiş,
"Nə şəhvət, nə yuxu, nə də ki, yemək,
Həyatın mənası olmasın gərək"
Olan qalmaz, ölən gəlməz dünyada.



***İlham BAXIŞOĞLU***

*15 may 1959-cu ildə Gorus rayonunun Şurnuxu kəndində anadan olub.*

## BİR DƏ O YERLƏRƏ DÜŞSƏYDİ YOLUM

Bir də o yerlərə düşsəydi yolum
Qoy deyim nətəhər olardım, qardaş
Bulağın başından dəhnəyə kimi
Torpağı duz kimi yalardım, qardaş.

Yəqin inanmazdı gözüm gözümə
Söz tapa bilməzdi sözüm-sözümə
Bir bayatı çəkib özüm-özümə
Bulud tək boşalıb, dolardım, qardaş.

Göy bulağın gözlərinə görünüb
Kolavatın dumanına bürünüb
Dizin-dizin ətəyinə sürünüb
Kəpəzin könlünü alardım, qardaş.

El-oba yuxudan durana kimi
Düşərdim çöllərə divanə kimi
Dolanıb başına pərvanə kimi
Elə Zəngəzurda qalardım, qardaş.

Götürüb əlimə bir dəmir əsa
Kəndlərin yolunu edərdim qısa
Baxıb Cibikliyə, baxıb Seytasa
Şirin xəyallara dalardım, qardaş.

Əmib Quş bulağın dodaqlarını,
Öpərdim çəmənin yanaqlarını
Yandırıb evimin çıraqlarını
Həsrətin saçını yolardım, qardaş.

Dönüb qızılquşa, dönüb bir leyə
Uçardım Qanbelə, Daşlı güneyə
Könlümü çevirib bir həzin neyə
Uşaqllq illəri calardım, qardaş.

Təpədən dırnağa kəndi seyr edib
İlhamın qalmadı bir dədi deyib
Qəddimi çökdürüb, boynumu əyib
Tanrıdan bir ölüm dilərdim qardaş
Dönüb Almalıqdan bir baş daşına
Elə o yerlərdə qalardım qardaş.



***Vidadi İLYASOĞLU***

*1957-ci il avqustun 18-də Qubadlı rayonunun Yuxarı Cibikli kəndində anadan olub.*

## BİRİ AZƏRBAYCAN, BİRİ TÜRKİYƏ

Gündüzün günəşi, gecənin ayı
Biri Azərbaycan, biri Türkiyə
Tanrının bəşərə kişilik payı
Biri Azərbaycan, biri Türkiyə.

Bir bədəndə iki candır demişik,
Bir damarda axan qandır demişik,
Harda olsa alnı acıq, başı dik
Biri Azərbaycan, biri Türkiyə.

Türkün türkdən ayrı qardaşı yoxdur,
Türkün türkdən ayrı yoldaşı yoxdur,
Arxası, dayağı, sirdaşı yoxdur
Biri Azərbaycan, biri Türkiyə.

Aramıza çəkə bilməz kimsə sədd,
Dünənimiz, bu günümüz şan şöhrət,
Şuarımız iki dövlət, bir millət
Biri Azərbaycan, biri Türkiyə.

Zaman bəxş eləyib bizə iki ər,
Hər biri tarixdə göstərib hünər,
Biri Atatürkdür o biri Heydər
Biri Azərbaycan, biri Türkiyə.

İki şəxs Vətəniçün edir canın şam,
Yandıqca alırlar yanğıdan ilham,
Biri Ərdoğandır, o biri İlham
Biri Azərbaycan, biri Türkiyə.



***Yavər HƏSƏN***

*Qubadlı rayonunun Dəmirçilər kəndində doğulub.*

## DOSTUM ƏMRAHA

Göy üzündən Yerə en,
bu dünyaya bir də gəl.
Sənsizlik hər gün artıq
boy göstərir Yerdə, gəl.

Çıxdın Vaxtın əlindən,
qanadlandın Göyə Sən.
O Sən görən deyilik,
qocalırıq deyəsən.

Hər gün hər şey dəyişir,
gəl gör Sənsiz necəyik.
Bir tərəfdən gündüzük,
min tərəfdən gecəyik.

Yer üzündə görməli
gün qalmayıb, görəsən.
Göy üzündən bir ovuc
rəhmət gətir Yerə Sən.

Göy üzündən Yerə en,
bu dünyaya bir də gəl.
Sənsizlik hər gün artıq
boy göstərir Yerdə, gəl.

Dəhşətdi, oturub düşünəndə ki,
bir də bu dünyaya gəlməyəcəksən.
Havanın ətrini, suyun dadını,
odun istisini bilməyəcəksən.

Nə dan olacaqsan, nə də ki, qürub,
baxıb görəcəksən, axarın durub.
Dünyanın dərdini özünə vurub,
özünü dünyaya bölməyəcəksən.

Ta heç kim payını saxlamayacaq,
adına bir boğça bağlamayacaq.
Ağlayan buludla ağlamayacaq,
açılan çiçəklə gülməyəcəksən.

Məhəbbət çıxardır yaradan Səni,
görürəm hər zaman Yara dan Səni.
Ölümsüz yaradıb Yaradan Səni,
qorxma, Yavər Həsən, ölməyəcəksən.





***Balaş TANRIQƏLB***

*Balakişi İsgəndərov 3 may 1964-cü ildə Qubadlının Qarağaclı kəndində doğulub.*

**SƏNGƏR VƏTƏN - AZƏRBAYCAN**

Ürək boyda səngər qala,
Ürəyimdə səngər qala.
Göz önündə "Səngərqala"
Səngər vətən- Azərbaycan!

Səngərimdi sinən belə,
Bir çatılmış ocaqsan sən!
Ey ağsaçlı anam- Vətən!
Qollarınla qucasan sən!
Sinəmdəki ürəyimi.

Bir çatılmış ocaqsan sən
Od almısan ocağından!
Anam Vətən, inan ki, mən,
Heç doymadım qucağından!

Ana mehri, məhəbbəti,
Gözlərində qərar tutub.
Məhəbbətin zaman-zaman
Dərdimizi unutdurub.

Qoca tarix meydan verdi
Bir zamanlar hər savaşda.
Bəxtin yaman parladı ha!
Qurşaq tutub, qılınc vurdu,
Neçə- neçə ər savaşda.

Cavanşirlər dünyasında
Meydan açdın, savaş qurdun.
Taleyinə zəfər yazdı,
Yol göstərdi, o Boz Qurdun.

Açılanda səhərlərin,
Zəfər taxtın ucalardı.
Gündoğandan, günbatana,
Turan adlı Vətən vardı!



***Şakir MİRLƏR***

*22 aprel 1962-ci ildə Qubadli rayonunun Mirlər kəndində doğulub.*

## CƏNAB ALİ BAŞ KOMANDAN!

Son qoydun həsrətinə vətəndə vətəndaşın,
Vermədiniz düşmənə bu yurdun bir qarışın,
Cavabını verdiniz o nanəcib yağının,
Bu gərgin bir sınaqdı, çətin bir imtahan,
Var olasız hər zaman, cənab Ali Komandan!
Səbirli, təmkinlisiz, həm də mərdana insan,
Ümummilli liderin adına layiq insan,
Sözünüz, əməliniz: Qarabağ, Azərbaycan!
Bu gərgin bir sınaqdı, çətin bir imtahan
Var olasız hər zaman, cənab Ali Komandan!
Qeyrət qalasıdır Kəlbəcər, Laçın, Şuşa
Ordumuza əmr etdiz, apardınız savaşa
Qırx dörd gündə bu işi siz yetirdiz başa
Bu gərgin bir sınaqdı, çətin bir imtahan
Var olasız hər zaman, cənab Ali Komandan!
Hər gün müjdə verirdiz Azərbaycana
Savaş bitən kimi yol aldız Zəngilana
Layiqli dərs verdiniz millətə kəm baxana
Bu gərgin bir sınaqdı, çətin bir imtahan
Var olasız hər zaman, cənab Ali Komandan!





***Mayıl MƏMMƏDLİ***

*Qubadlı, 2 may 1961*
*Qubadlının Teymur Müskanlı kənd sakini vətənpərvər şair, müəllim, dəyərli insan Allahverdi Əliyevə*

**AZ QALIB**

Ayrılığı dərd eyləmə özünə,
Dönəcəyik, o xoş günə az qalıb.
Bu müjdədən fərəh qonsun gözünə,
Vüsal görüşünə bircə yaz qalıb.

Çəmənində dirsəklənib yatmağa,
Gülşənində gül ətrinə batmağa,
Gözəllərdən işvə alıb satmağa,
Çəkiləsi, öyüləsi naz qalıb.

Gəl, gəz deyir göy meşənin talası,
"Səngər dağı" ər oğlu, ər qalası.
Yol gözləyir yurdun şəhid balası,
Qayalarda silinməyən iz qalıb.

Bərgüşadın, Həkərinin boyunca,
Seyrinə çıx sahilləri doyunca.
Yer üzündə cənnət varmı de, bunca ?
Vəsf etməyə neçə dürlü söz qalıb.

Gileylənmə, demə, ömür tamamdı,
Hər anımız haqqdan gələn fərmandı.
Bu fürsəti əldən vermə, məqamdı,
Ürəyində bir əmanət köz qalıb.




***Aydın QƏDİMOĞLU***

*1935-ci ildə Laçının Pircahan kəndində doğulub.*

## SALAM A KƏLBƏCƏR, SALAM AY LAÇIN

Nə müddətdir, əlim uzanaqlıdır,
Salam, a Kəlbəcər, salam ay Laçın!
Əbədi bir yuva versən qoynunda,
Qalam, a Kəlbəcər, qalam ay Laçın!

Həyatımda silinməz çox iziniz var,
Quşqonmaz zirvəniz, çox düzünüz var.
Hələ deyiləsi çox sözümüz var,
Böləm a Kəlbəcər, böləm ay Laçın!

O dərələr, o bərələr, mil yoxuş,
Yamacında minbir çeşni, min naxış.
Gözəllərdə min işvə-naz, min baxış,
Aləm, a Kəlbəcər, aləm ay Laçın!

Əzəldən bilmişəm bir bala kimi,
Ta bir də tapmasın bir bəla kimi.
Təbiət yaradıb bir qala kimi,
Qalam, a Kəlbəcər, qalam, ay Laçın!

Bir vaxta bax, dövran quran halım yox,
Köhlən sürüb, yoxuş yoran halım yox.
Aydın deyər, yaşanası halım yox,
Öləm, a Kəlbəcər, öləm ay Laçın!




***Aşıq UMBAY***

*1940-cı ildə Laçının Qarakeçdi kəndində anadan olub.*

**BAYRAM GÜNLƏRİ**

Necə də şirin yaraşır sözə bayram günləri,
Nə qədər sevinc gətirir üzə bayram günləri.
Yaranandan insan oğlu azadlığa təşnədir,
Səadətnən qismət olsun sizə bayram günləri.

İlahi, aç dərgahını, qəbul eylə sözümü,
Ürəklərdə məhv eləmə dəyanəti, dözümü.
Diz çökürəm, yön çevirib sizə sarı üzümü,
Laçınımda qismət eylə bizə bayram günləri.

Aşıq Umbay, xoş arzuya çatmamış ölmək olmaz,
Qəribliyin qəm daşını atmamış ölmək olmaz.
Bir gecə doğma Laçında yatmamış ölmək olmaz,
O gün bizə olacaqdır təzə bayram günləri.





***Nazim ƏHMƏDLİ***

*1953-cü ildə Laçının Əhmədli kəndində anadan olub.*

**GÖY ÜZÜNÜN ADAMI**

Məni Tanrı sevirmiş,
Laçında doğulmuşam;
dağların torpağından,
suyundan yoğrulmuşam;

səhərlər oyanmışam,
qartalların qıyından;
ürəyimə pay düşüb,
Tanrının söz payından;

min ildi yol gəlirəm,
bu dünyanın heçindən;
yer üzü də asılıb,
buludların heçindən;

bulaqların gözündən,
gözümə işıq gəlib;
o tanrı dağlarından,
yollarım aşıb gəlib;

dan üzündən nur gəlir,
Günəş yuyur odamı;
mən yer üzü qonağı,
göy üzünün adamı.

**LAÇINA MƏKTUB**

Laçınım, otuz ildi
dilimdə bir söz qalıb;
bir az da döz, əzizim,
gəlirəm, lap az qalıb;
yuxum qaçıb gözümdən,
çox küsmüşəm özümdən;
bilirəm, dərd üzündən
dağlar üzbəüz qalıb;
həsrət duydum üzümə,
yollar dondu gözümdə;
könlümün göy üzündə
buludlar bəyaz qalıb;
gəlim qapını açım,
çəkilsin ağrım-acım;
baxma ki, qardı saçım,
canımda bir yaz qalıb;
tək sevgidi var olan,
gəlləm, sənə sarılam;
yurd yerində qaralan
ocağımda köz qalıb.



***Bənövşə DAŞDILI***

*1954-cü ildə Laçının Yuxarı Laçın kəndində anadan olub.*

## ALİ BAŞ KOMANDANA TƏBRİK

Əkbər şahın davamçısı Atabəy, Qızıl Arslan,
Xətai sülaləsi, Babəksən, Koroğlusa!
Ot kökü üstə bitər, Ulu Heydər oğlusan!
Hər bir sahədə dahi, müdrik, qəhrəman İlham -
Allah səni qorusun, ey Ali Baş Komandan!
Dünya durduqca yaşa, ey Ali Baş Komandan!

Qələbə çalacağıq, dedin və verdin fərman,
Həsrətli ürəklərin dərdinə etdin dərman.
Hər evdə kəsilibdi adına neçə qurban,
Hər bir sahədə dahi, müdrik, qəhrəman İlham -
Allah səni qorusun, ey Ali Baş Komandan!
Yeni yaşın mübarək, ey Ali Baş Komandan!

Qırx dörd gündə dünyanı özünə məftun etdin,
Torpaqları azad, düşməni zəlil etdin,
Millətimi töhmətdən biryolluq azad etdin,
Hər bir sahədə dahi, müdrik, qəhrəman İlham -
Allah səni qorusun, ey Ali Baş Komandan!
Yeni yaşın mübarək, ey Ali Baş Komandan!

Qələbəylə, zəfərlə çatdırdın savaşı başa,
Siz Mehriban xanımla durun hər zaman qoşa.
Arzum budur ki, Prezidentim, yüz yaşa!
Hər bir sahədə dahi, müdrik qəhrəman İlham -
Allah səni qorusun, ey Ali Baş Komandan,
Yeni yaşın mübarək, ey Ali Baş Komandan!
Dünya durduqca yaşa, ey Ali Baş Komandan!

Söyləyir Bənövşə: sən ürəksən, ürək:
Xalqımıza bu müjdən, bu qələbən mübarək!
Xudam haqq işində olsun sizlərə kömək,
Hər bir sahədə dahi, müdrik, qəhrəman İlham -
Allah səni qorusun, ey Ali Baş Komandan!
Yeni yaşın mübarək, ey Ali Baş Komandan!
Dünya durduqca yaşa, ey Ali Baş Komandan!



***Xaliq LAÇINLI***

*1955-ci ildə Laçının Zağaltı kəndində doğulub,*
*2022-ci ildə dünyasını dəyişib.*

**PAYIZ GÜNLƏRI**

Qəribə dəqiqə, qəribə vaxdı,
Qəfil göy gurladı, şimşəklər çaxdı.
Qara buludlardan ağ yağış yağdı,
Beləcə başladı payız günləri.

Göylərin qatında ulduz göründü,
Xəyalım tələsdi, fikrim süründü.
Kimsəsiz bir tənha dərdə büründü,
Beləcə başladı payız günləri.

O kimdi? - Təklənib o yol yuxarı,
Bu yamac aşağı, o yal yuxarı.
Fikir belə çəkir, xəyal yuxarı,
Beləcə başladı payız günləri.

Döyür pəncərəmi, döyür damcılar,
Şimşəklər oynayıb göyü qamçılar.
İslanar yol üstə qərib yolçular,
Beləcə başladı payız günləri.

Hər şey vaxta baxır, vədə heç nəyə,
Daha yaylaqlarda qurulmaz dəyə.
Bir həsrət göynəyir, çıxan yox yiyə,
Beləcə başladı payız günləri.



***Adil ŞİRİN***

*1955-ci ildə Laçının Ərikli kəndində anadan olub.*

## QILINCIMIZ OYNADI

Qədim bir Türk elində,
Doğulduq at belində.
At belində doğulduq,
Haqq dərgahını bulduq.

Bu yurda oba dedik,
Dağlara baba dedik.
Aya könül bağladıq,
Sirr verdik, sirr saxladıq.

Ox atıb ov ovladıq,
Saz çalıb boy boyladıq.
Hər qayamız bir qala,
Çapıb getdik dördnala...

Bu dünya bir aynadı,
Qılıncımız oynadı.
Bayrağımızda hilal,
Qanımız yurda halal.

## YENƏ QAR YAĞIRMI

Qanadlı quş olum, Allah, bəlkə mən,
Uçub gedim burdan çox uzaqlara.
Dəli könlüm çərxi fələyə düşmən,
Yenə qar yağırmı bizim dağlara?

Qarlı gündə tüstülənsin bacalar,
Kənd yolundan bir at keçsin dördnala.
Cavanlığın yada salsın qocalar,
Seylon çayı soyusun bala-bala.

Ovçuları geri dönsün bu yurdun,
Bu ana duası, bu at, bu yəhər...
Dağ başında Aya baxan boz qurdun,
Qanlı gözlərində açılsın səhər...



***Rövşən ATAKİŞİOĞLU***

*1957-ci ildə Laçının Güləbird kəndində doğulub.*

## YOLUM DAĞLARA SARIDI

Qəribliyin daşını alıb atıb gedirəm,
Ahıl yaşa bir qucaq gənclik qatıb gedirəm,
Qartallarla uçuram, şirə çatıb gedirəm
yolum dağlara sarıdı!

Yapışmayın qoluma, təpərim özümdədi,
Araz aşığımdadı, dəli Kür dizimdədi.
Dəlisi nə söylədi, ağıllısı nə dedi?!
yolum dağlara sarıdı!

Çiçək verin, gül verin, məzarlara döşəyim,
Daşı olsun yastığım, qarı olsun döşəyim.
O sınıq qəbirlərə diz qatlayım, baş əyim,
yolum dağlara sarıdı!

Gəl səni də aparım, ay gözümün işığı,
Yaxşıya salam olsun, gözün aydın, Aşığım!
Qara yollar günəşim, dar cığırlar işığım,
yolum dağlara sarıdı!





***Eynulla SADIQ***

*1957-ci ildə Laçının Qarakeçdi kəndində doğulub.*

## LAÇINLA XƏYALİ GÖRÜŞ...

Silmisənmi yaddaşından?
Tanımadın, mənəm, mənəm.
Bir qocalmış didərginin
Saçlarında dənəm, mənəm.

Mən saralmış bir varağam,
Gözdən, könüldən irağam.
His bağlamış bir çırağam,
Qıyma, qoyma sönəm, mənəm.

Ömrüm qəmli hekayətdir,
Unudulmuş rəvayətdir.
Çəkdiklərim kifayətdir,
Dopdoludur sinəm, mənəm.

Sinəndən gül dərəm yenə,
Məzar üstə sərəm yenə,
Deyəm ki, hay verin mənə,
Ay dədəm, ay nənəm, mənəm.

Eynullanın haqq səsisən,
Sevincinin zirvəsisən.
Məkkəsisən, qibləsisən,
Yurdum, yuvam, binəm, mənəm,
Eynullayam, mənəm, mənəm.



***Cəbrayıl QƏHRƏMAN***

*1958-ci ildə Laçının Güləbird kəndində anadan olub.*

## BU GECƏ YUXUMA GƏLMİŞDİ ANAM

Bu gecə bir nurlu, aylı gecəydi,
Bu gecə yuxuma gəlmişdi anam.
Elə istəyirdim görəm üzünü,
Qəlbimdən keçəni bilmişdi anam.

Dedim:- Gəlişinə qurbanam, ana,
Nə vaxtdı qüssədən qəlbim yanırdı.
Ürək məşəl kimi gecəbəgündüz,
Sənin həsrətinlə alovlanırdı.

Görüşdük min ilin ayrısı kimi,
Sarılıb boynuna öpdüm üzündən.
Yenə əvvəlkitək qayğılı idi,
Suallar yağırdı qəmli gözündən.

Qəhər boğa-boğa danışırdı o:
-Özünü çox üzmə, qurbanın olum.
Nigaran olsam da hər birinizdən,
Gəlib-gedəmmirəm uzaqdı yolum.

Gözümə birtəhər dəyirsən, oğul,
Məni bağışla ki, əl tutammıram.
Bilmirəm, bu həsrət, bu ayrılıqdan,
Niyə alışmıram, niyə yanmıram.

Yaman sıxılıram o dar məzarda,
Məzarda yatmaqdan belim ağrıyır.
Tənhalıq içində, o lal sükutda,
Sizə "can" demiyən dilim ağrıyır.

Nigaran baxışla, min bir təlaşla,
Oğlunu, qızını soruşdu bir-bir.
-Hardadı uşaqlar, niyə görünmür?
Əvvəlki istilik gözümə dəymir.

Bilirəm, agahdı gün-güzəranın,
Hamının yükünü sən daşıyırsan.
Əzabla, ağrıyla keçir günlərin,
Sevinci paylayıb qəm yaşayırsan.

Mənə bir xəbər ver eldən, obadan,
Gedə bildinizmi doğma yurdlara?
Məzarım da ayrı düşdü Vətəndən,
Alışdı, tutuşdu qəlbim odlara.

... Daha getməliyəm, açılır səhər,
Olub-olmazları soruşdu getdi.
Bu gecə bir ayrı, nağıl gecəydi,
Yuxuma bal kimi qarışdı getdi.

Nə vaxtdı yoxluğun yandırır, ana,
Ağrılı qəlbimdən qara qan gedir.
Ruhun bizimlədir, cismin məzarda,
Analar dünyadan nigaran gedir.



***Xuraman CAMALQIZI***

*1959-cu ildə Laçının Alxaslı kəndində doğulub.*

## GƏLƏCƏYİN NURLU OLSUN, LAÇINIM

Xəyalımın bənd aldığı şəhərsən,
Yenə həmin bildiyimiz təhərsən,
İşıqlısan, umudlusan, səhərsən,
Gələcəyin nurlu olsun, Laçınım!

Köçhaköçdən bəlli olur sədaqət,
İşğal dovrü qorunubdu ləyaqət.
Sənə vurğun, sənə sevgi, məhəbbət,
Gələcəyin nurlu olsun, Laçınım!

Quran qurur, yaradana şükürlər,
Ucaldırlar, yaraşanı tikirlər.
Dəyərlənir ən sanballı fikirlər,
Gələcəyin nurlu olsun, Laçınım!

Laçın, sənin oğulların seçilir,
Keçilməyən çətin sədlər keçilir.
Sənə qarşı kim dayansa, kiçilir,
Gələcəyin nurlu olsun, Laçınım!

Hər kəndin öz gözləri yol çəkən var,
Qovuşmayıb, koksünə dərd əkən var.
Son nəfəsdə torpaq deyib çökən var,
Gələcəyin nurlu olsun, Laçınım!

Dağ çicəyi asan solmaz, bəllidi,
Hər tərəfin rəngarəngdi, güllüdü.
Daş yaddaşlı, ulu, qədim ellidi,
Gələcəyin nurlu olsun, Laçınım!



***Ağa LAÇINLI***

*Ağa Əliqəmə oğlu Əliyev; 5 may 1940, Oğuldərə, Laçın rayonu – 25 noyabr 2007, Bakı*

## AZƏRBAYCAN

Sən deyirsən
aran səni darıxdırır dar quyucan, –
Mən deyirəm
səhrada da ucalıqdı Azərbaycan!

Soruşursan
hansı adla cinaslıdı dilək hecan? –
Mən deyirəm
Azərbaycan, Azərbaycan, Azərbaycan!

Sən deyirsən
təklənəndə Göyə baxır könül bacan, –
Mən deyirəm
and yerimdi, qund yerimdi Azərbaycan!

Soruşursan
hansı azlıq çoxluqlardan çoxdu saycan? –
Mən deyirəm
Azərbaycan, Azərbaycan, Azərbaycan!

Sən deyirsən
qurdları var... heç qurtulmur yurdu qucan, –
Mən deyirəm
ağrısıyla dərd sağaldar Azərbaycan!

Soruşursan
hansı yolda candan keçib tökərdin qan? –
Mən deyirəm
qoy güvənsin, qoy çağırsın Azərbaycan!

Sən deyirsən,
çox öyünmə, odda üzür ulu qocan, –
Mən deyirəm
öz külündən diri çıxar Azərbaycan!

Sən deyirsən
üz görmədin göstərdiyin haqqı-saycan, –
Mən deyirəm
sevəninə bir heykəldi Azərbaycan!





***Hüseyn KÜRDOĞLU***

*Laçın, Molla Əhmədli kəndi*
*1934-2003*

## HƏKƏRİ

Dəlidağdan Arazacan yol gedər,
Min şaxəli, min budaqlı Həkəri,
Vəcdə gəlir ağ günündən ellərin,
Vadiləri bağça bağlı Həkəri.

Heç görmədim sakit olub kiriyə,
Ağ ləpələr oxşar köçən sürüyə,
Çox bürünər bəyaz duman bürüyə,
Körpüləri hilal tağlı Həkəri.

Karvan çəkər dumanların içindən,
Çəmənlərin, ormanların içindən,
Axıb keçər dastanların içindən,
Tarixlərdə səs-soraqlı Həkəri.

Səslənəndə sal qaşları xışmalar,
Yarğanları qılıncıyla aşmalar,
Harayında bayatılar, qoşmalar,
Şair könlü söz bulaqlı Həkəri.

Qıjovlarda sədəf düzər saçına,
Ayı-günü qatar dalğa köçünə,
Kuzəsindən şərbət verər Laçına,
Gül fəslində gül yanaqlı Həkəri.

Nur çiləyər min arzuya, diləyə,
Dalğaları bənzər xallı lələyə,
Gedər Aran torpağına köməyə,
At səyirdən bizim dağlı Həkəri.



***Nadir AZAYOĞLU***

*1962-ci ildə Laçının Sus kəndində doğulub.*

**VƏTƏN**

Səni dərdlərimin göyçəyi bildim,
Səni beşik-beşik ağladım, Vətən!
Ömrünü ömrümün gerçəyi bildim,
Dərdini dipdiri saxladım, Vətən!

Çiçəklər boylandı yurd yerlərindən,
Əllərim ətrinə uzalı qaldı.
Fərmanlar verildi yad ellərində,
Elə kağızlarda yazılı qaldı.

Nə yaxşı bu xalqa yaddaşı yarmış,
Nə yaxşı qorxuya əsir deyilmiş.
Nə yaxşı bu yurdun mayası varmış,
Nə yaxşı bu torpaq qısır deyilmiş.

Günəş tək doğdular doğma ellərə,
O millət oğullar, Vətən oğullar.
Otuz il xəyalım gedən yerlərə,
Qırx dörd gün içində yetən oğullar.

Onlar qoymadılar bu Vətən sına,
Bir hayla min düşmən bağrı dəldilər.
Elçi getmədilər qız qapısına,
"Qızıl" güllələrə nişan gəldilər.

Bilsən nə yazdılar igidlərimiz,
Sənin torpağına, daşına, Şuşa!
Yazdılar; bir əlin qoca Təbrizin,
Sağ əlin Dərbəndin başına, Şuşa!

Elə "bəylər" ilə bostan əkmişik,
Tağı nəştər olub bağrıma, Vətən!
O qədər yerindən ağrı çəkmişik,
Bir də heç yerindən ağrıma, Vətən!



***Malik FƏRRUX***

*Laçın - Bakı, 1948-1998*

**GÖZÜNÜZ AYDIN**

El arzusu sel oldu,
Sellər, gözünüz aydın.
Bu il ayrı il oldu,
İllər, gözünüz aydın.

Günə tutdum üzümü,
Daş göyərtdi izimi.
Gül açdı el dözümü,
Güllər, gözünüz aydın.

Oynayın, deyin, gülün,
Açıldı Novruz gülüm.
Açıldı bağlı dilim,
Dillər, gözünüz aydın.

Bəd arzunu, diləyi
Tutar elin çörəyi,
Əsir bahar küləyi,
Tellər, gözünüz aydın.

Yurdumun hər çəməni
Özü boyda səməni.
Nərgizli, yasəmənli,
Çöllər, gözünüz aydın.

Qismət olaydı bizə,
Əl yetəydi Təbrizə.
Mən də deyəydim sizə,
Ellər, gözünüz aydın.

Araz üstə daşlaşan
Yollar, gözünüz aydın.
Həsrət-həsrət sarmaşan
Qollar, gözünüz aydın.



***Şərahil LAÇIN***

*1963-cü ildə Laçın şəhərində anadan olub.*

## EY QƏHRƏMAN ŞƏHİDLƏR

Siz bu yurdun bağrına əkilən toxumsunuz,
Bircə-bircə göyərdər sizi vətən torpağı.
Sizlər də qürub kimi çəkilib yox oldunuz,
Günəşlə doğarsınız, dan yerində, sübh çağı.

O susayan torpaqlar sulandı qanınızla,
Hər könüldə yeriniz, hər yerdə adınız var.
Sizlərsiniz qızaran, sizlərsiniz qayıdan
Lalələrin qanayan yanağıyla hər bahar.

Gah dağlarda yellərə qoşulub əsərsiniz,
Beşikdə laylalarla körpələr sizi dinlər.
Ölməz ruhunuzu da sipər tək gərərsiniz,
Güllələr bu vətənin bağrına dəyməsinlər.

Getdiniz, son sözünüz- təki vətən yaşasın,
Getdiniz, əlinizdə ölməzliyin açarı.
Nə şərəfli səfər bu, yolunuz aydın olsun,
Ey vətən oğulları, şəhadət yolçuları.

Doğulan körpələrin "inqə" səsi də sizlər,
Bətinlərdə boy atan o susan qəlbinizdir.
Qəhrəmanlar vətəndən bir can əsirgəməzlər,
Şəhidlər Xiyabanı qeyrət heykəlinizdir.

Sizlər Tanrı qatında əbədi mücahidlər,
Yoxdur müqəddəslərə nə məkan, nə zamanlar.
Sizə yazdım bu şeiri, ey qəhrəman şəhidlər,
Sizə yazdım bu şeiri, ey adsız qəhrəmanlar.



***Rəfail Laçın SARIBABALI***

*1951-ci ildə Laçının Ərdəşəvi kəndində anadan olub.*

**ANIM GÜNÜDÜR**
*(qəzəl)*

Bu gün şəhidlərin anım günüdür,
Ol Vətən sevdalı canın günüdür.

Həkəri, Bərgüşad, Qarqar çayıtək,
Kükrəyib axan al qanın günüdur.

Laçın, Şuşamıza bayraq taxılıb,
Bərpa olan adın-sanın günüdür.

Ulu babalardan o bizə miras,
Şərəfin, şöhrətin, şanın günüdur.

Otuz illik həsrətin, nisgilin sonu,
Üfüqdə sökülən danın günüdür.

Ağ atın belində Baş Komandanın,
Hücum əmri verən anın günüdür.

Bu gün şəhidlərin ruhlarının şad,
Xınalı quzuya yanım günüdür.

Bu gün Xankəndəki əsən bayrağın,
Rəfail, Azərbaycanın günüdür.

**DAĞLARA**

Mənim ilk məhəbbətim, sonam deyin dağlara,
Laçin olub köksünə qonam deyin dağlara.

Mən onun övladıyam, çeşmindən nur əmmişəm,
Yoğrulmuşam daşından, anam deyin dağlara.

Buludlar demisindən çıxan qəlyan tüstüsü,
Zirvəsi ağ saçıdı, babam deyin dağlara.

Qarqar gümüş kəməri, Qaragöl aynasıdı,
Toxuyur güldən xalı, hanam deyin dağlara.

Sinəsində oyulmuş, kahalar tariximdi,
Ulularımdan miras, komam deyin dağlara.

Sağ tərəfi Qubadlı, sol tərəfi Kəlbəcər,
Ağdam, Şuşa, Laçınım, obam deyin dağlara.

Rəfail, perik düşmüş, qoca dağ qartalıdi,
İnşallah payız dönər, yuvam deyin dağlara.



***Adil CƏFAKEŞ***

*1966-cı ildə Laçının Şeylanlı kəndində anadan olub.*

**ŞƏHİDLƏR QÜRUR YERİM**

Şəhidlərin məzarı
İşıq yerim, nur yerim.
Şəhidlər varlığımdır,
Şəhidlər qürur yerim.

Qardaşımdır bir şəhid,
Biri bacımdır mənim.
Bura ziyarətgahım,
Kəbəm, hacımdır mənim.

Millətin hayqırtısı,
Sədası burdan gəlir.
Azadlığın haqq səsi,
Nidası burdan gəlir.

Şəhidlər xiyabanı,
Vətənin girişidi.
Bir millət oyanışı,
Bir millət yürüşüdü.

Şəhid qəbri olan yer
Vətənin əziz yeri.
Vətənin ən müqəddəs,
Vətənin təmiz yeri.

Məzarından şəhidin
Qalxıb bayraq cücərir.
Azadlığın toxumu,
Yarpaq-yarpaq cücərir.

Şəhidlər uyan yerə
Şeh çiləyir yarpaqlar.
Bax burda bütövləşir
Paralanmış torpaqlar.

Qürurlu olmaq gərək,
Vətən, nə sın, nə əyil.
Əgər yoxsa şəhidi,
O vətən Vətən deyil.



***Azər LAÇINLI***

*1966-cı ildə Laçının Şeylanlı kəndində doğulub.*

## LAÇINIM

Qartallar zirvəndə dünyaya baxır,
Adın qartal ilə qoşa, Laçınım!
Dağlar qar libasın yaxasın çəkib,
Baxdım ağ gül qonub daşa, Laçınım!

Baharın ruhları içdən oynadır,
Yayın nəğmələri döşdə qaynadır.
Sahildə meşənə çaylar aynadır,
Payız barın tökür başa, Laçınım!

El-oba sığınıb ürəyin üstə,
Qonağın bal yayır çörəyin üstə.
Mərdlər boy atıbdır kürəyin üstə,
Pozulmaz iz qoydun huşa, Laçınım!

Şairlər, alimlər, aşıqlar yurdu,
İgidlər dar gündə yanında durdu.
Azər keçmişini qayandan sordu,
Tarixlə başbaşa yaşa, Laçınım!





***Kamil VƏFADAR***

*1970-ci ildə Laçının Oğuldərə kəndində anadan olub.*

## QAN YADDAŞIMSAN

A kəndim, yadıma yaman düşürsən,
Canımın içində can yaddaşımsan.
Sənsiz nə çəkmişəm bir Allah bilir,
Yaralı ruhumda qan yaddaşımsan.

Xəzinə var imiş qara damında,
Köhnə sərnicində, paxır camında,
Sən Cabbar babamın dəyirmanında,
Üyünüb ələnən un yaddaşımsan.

Qürbətdə can verən şəhid Qəribsən,
Xəqani, İbadət, Pənah, Cümşüdsən,
Sən igid Baxışsan, şəhid Gündüzsən,
Əzəl yaddaşımsan, son yaddaşımsan.

Mənim həm xeyirim, həm də yasımsan,
Nə vaxt nə demişəm qulaq asmısan,
Molla Zülfüqarsan, Molla Qasımsan,
Göydən göndərilən din yaddaşımsan.

Düşmənlər bələdi qana dağları,
Hanı ellərimin o çağ çağları,
Ağa Laçınlını, xan Ağaları,
Bizə bəxş etdiyin gün yaddaşımsan.

Hanı yurd yerindən gedən ellərim,
Sözümü yazmağa tutmur əllərim,
Hanı o məktəbim, o müəllimlərim,
Qəlbimdən getməyən ün yaddaşımsan.

Ay Kamil, qalmadı ta canımda can,
Tale atdı bizi hardan haracan,
Yol gedim Ağsudan Elyolunacan,
A kəndim, sən mənim mən yaddaşımsan.



***Ötərxan ELTAC***

*1970-ci ildə Laçının Quşçu kəndində anadan olub.*

## MƏN ƏSGƏR ATASIYAM

Torpağıma sadağa yaşadığım ömürlə,
Varlığıma həkk olan həsrəti atasıyam.
Haqqın qılıncıyla mən sərhədləri yararaq,
Cənnət Qarabağımda arzuma çatasıyam,
Mən əsgər atasıyam!

Qarabağ cənnət diyar, görən hüsnünə mail,
Laçınım başıma tac, Kəlbəcərim həmail.
İrəvantək qalanı verdik, olmadı qail,
Düşmənimin gözünə ox olub batasıyam,
Mən əsgər atasıyam!

Hər kəlməm odlu kösöv, yandıracaq aləmi,
Eşq nuru dolduracaq Laçıntək piyaləmi.
Bir zəngulə vuracaq Cıdır düzdə Xan əmi,
Kirs döşündə qar üstə üz qoyub yatasıyam,
Mən əsgər atasıyam!

Şir qorxudan cəsarət ruhumun ilhamçısı,
Əsgərimin silahı ədalətin qamçısı.
Səni tarixdən silər nifrətimin damcısı,
O qanlı qırğınları sanma unudasıyam,
Mən əsgər atasıyam!

Bir-bir vərəqləmişəm kökünün hər qatını,
Sən çapırsan dördnala sanma zaman atını.
Ordumuzun qüdrəti susdurdu saatını,
Ruhum zəfər müjdəli, qələbə butasıyam,
Mən əsgər atasıyam!

Artıq sona yetibdi səksəkəsi yurdumun,
Düşmənim məhv olubdu qarşısında ordumun.
Bürüyübdü dağları harayı “boz qurd”umun,
Ot basmış cığırlarda yeni yol salasıyam,
Mən əsgər atasıyam!



***Arif PƏNAHOĞLU***

*1971-ci ildə Laçının Qoşasu kəndində anadan olub.*

## LAÇIN, GÖZÜN AYDIN, SABAHIN XEYİR

Səni itirməklə nələr itirdik,
Yedi ömrümüzü hicran həsrəti.
Bircə an çıxmadın ruhun içindən,
Səni yaşadırdı xalqın qeyrəti,
Bu gün nəfəsimiz üzünə dəyir,
Laçın, gözün aydın, sabahın xeyir.

Bir qərinə zaman ötdü bu gündən,
Hər anında vücudumuz donası.
Haqq yerini bu gün tapdı, bu gündən
Sən azadsan, anamızın anası.
Gör önündə neçə oğul baş əyir,
Laçın, gözün aydın, sabahın xeyir.

Otuz ili məhbus ömrü yaşadın,
Çəkilmirdi qara bulud başından.
Neçə - neçə şəhid ruhu boylanır
O müqəddəs torpağından, daşından,
Ta rahatıq, "şükür, Ya Rəbb" söyləyir,
Laçın, gözün aydın, sabahın xeyir.

Unutma ki, namərd qonşu busquda,
Möhkəm bağla bərələri, bəndləri.
Yumruq kimi birləşdirib bir yerə,
Yığ başına perik düşən kəndləri,
Viranələr nə müddətdi qəm yeyir,
Laçın, gözün aydın, sabahın xeyir.

Göz dağı çək yağılara bu gündən,
Yenə başla o firəvan növrağı.
Sənsiz köksü yaralıydı bu Vətən,
Dalğalanır üzərində bayrağı,
Yenə özün əzəlki tək şux sayır,
Laçın, gözün aydın, sabahın xeyir.



***Ənvər MƏSUD***

*1971-ci ildə Laçının Cicimli kəndində anadan olub.*

## SÖZÜM VARDI

Köklənərək qəm üstündə
Ağımı Şurda söylədim.
Orda nələr öyrənmişdim,
Gələndə burda söylədim.

Unutmadım heç kəsimi,
Bu da hər kəsin bəsimi?!
Heç vaxt qısmadım səsimi,
Gurladım, gur da söylədim.

Qəbul etdim qismətimi,
Hörmətimi, izzətimi...
Mən yalquzaq xislətimi
Ulayıb qurda söylədim.

Ürəyimdə közüm vardı,
Nə tab, nə də dözüm vardı.
Üç-dörd kəlmə sözüm vardı,
Onu da yurda söylədim.

## HƏLƏ BİLMİR

Şeirlərim rəvan, səlis,
Pozulmaz ahəngdə olur.
Bilənlər azdır, şeirdə
Ritm olur, ahəng də olur.

Yoxdur qəsdi, qərəzi də,
Dəyişməz ki, mərəzi də.
Haqqı çəkən tərəzidə
Arabir pərsəng də olur.

Aşiq oldun, sev ki, dərin,
Dəryalardan sevgi dərin.
Bulaqdakı sevgilərin
Sirləri səhəngdə olur.

Sevinirəm, elə şadam,
Məkrə ögey, şərə yadam.
Düz yaşayıb, ölən adam
Ömrü boyu cəngdə olur.

Zəhmət mənim, tər də mənim,
Halalımdır zər də mənim.
Tünlük olan yerdə mənim
Baş-qulağım dəng də olur.

Eyhamımı tələ bilmir,
Gedən gəlməz ələ, bilmir.
"Şair" var ki, hələ bilmir
Söz nədir, nə rəngdə olur.



**Sevinc QƏRİB**

*1976-cı ildə Laçın şəhərində doğulub.*

## SONRA...

Sonra kirpiklərim yükünü atdı,
boşaldı gözümün dolu tərəfi.
Sonra boğazımda dağı əritdim,
qəhər selə döndü o dar cığırda,
çəkdi qoşunların nəfəs yolumdan,
yenildi səbrimə qəzəb ordusu...

Sonra zəfər çaldı çiyinlərim də,
soyundu əynindən məğlub libasın.
Açıldı qaşımın düyünləri də,
sovruldu alnımdan qırış topası.
Sonra qollarımı havaya açdım,
"çiçəyi çırtladı" ümidlərimin...

Sığalsız saçlarım çox ağlamışdı,
sonra barmaqlarım savaba batdı.
Qurudu göz yaşı saçlarımın da
öldükcə ovcumda sığal həsrəti.
Yetim əllərimdə dua göyərdi,
inandım yerişsiz ayaqlarıma.
Bəlkə də üz tutub göyə gedərdim,
"dön" səsi oxundu qulaqlarıma.

Sonra ürəyimə bir nəğmə axdı,
dirildi içimdə ölən arzular.
Çəkdim pərdələri günəşə sarı,
tutdum şəfəqinin hörüklərindən.
...sonra gülümsədi aynamın üzü
baxdım ki, əksimi yaz qucaqlayıb...

## HƏLƏ...

Hələ yağışlardan səs-soraq yoxdu,
hələ toz uduruq quru havadan.
Hələ dalğalar da öz rəngindədi,
qayalar sağ çıxır sulu davadan.

Hələ meh darayır güllərin telin,
hələ küləklərin boyu gödəkdi.
Günəş geniş açıb pay verən əlin,
hələ şəfəqlər də dolu yedəkdi...

Hələ ürəyimin yanğısı sönük,
hələ qollarımda sızlamır ağrı.
Hələ dərd verməyir bir üzü dönük,
hələ öz eşqinə yuvadı bağrım.

Hələ düz yeriyir ayaqlarım da,
hələ əsalara bağlıdı yollar.
Durur kürəyimdə dayaqlarım da,
hələ qucaqlayır məni o qollar.

Özümü görürəm hələ güzgüdə,
Hələ əllərimin sahibi mənəm.
Hələ ögeyləşmir ruhum özgədə,
Hələ vətəniməm, hələ ölkəməm.




***Vəzirxan MİRZƏOĞLU***

*1944-cü ildə Laçının Kaha kəndində anadan olub.*

## DAĞLARIN

Göz dikiblər sərvətinə əzəldən,
Sinəsində yarası var dağların.
Boynu buruq bənövşəsi, nərgizi,
Bağrı qara laləsi var dağların.

Dillər əzbəridir adı, sorağı,
Qaçaqlar talası, Qırxqız yaylası.
Dünyanı mat qoyub İsa bulağı,
Şuşa kimi qalası var dağların.

Kirs dağıyla Sarıbaba qoşadı,
Hoçaz qayası da bir tamaşadı.
Orda mərhum şair İlyas yaşadı,
Ürəyimdə yuvası var dağların.

Köhnə kənd, Alıcan, Xumarta, İrçan,
Ədəb-ərkan məskənidir o cahan.
Qəlbimizdə yaşadırıq hər zaman,
Göz bulaqda aynası var dağların.

Dəstə dağ keçisi dağlar başında,
Seyrə çıxır baharında, qışında.
Qaqqıldaşır qayasında, daşında,
Kəkliyində xınası var dağların.

Ərdəşəvi, Şəlvə, Şamkənd obası,
Dağlara söykənib Qorçu zonası.
Qarabağım bir gözəllik dünyası,
Çiynində var al xarası dağların.

Keç bir Qızılcadan Mərkizə sarı,
Məğrur Ağoğlanı seyr eylə barı.
Əhmədliynən Minkənd cənnət diyarı,
Qaragöldə sonası var dağların.

Fəxr etmişəm obasıynan, eliynən,
Çəməniynən, çiçəyiynən, gülüynən.
Elə bil ki rəssam çəkib əliynən,
Düzümü var, sırası var dağların.

Ay Vəzirxan, Xətailər dünyası,
Viran qala bilməz eli, obası.
Deyirlər boş qalmaz tərlan yuvası,
Qartalının balası var dağların.



***Kərəm ARXUD***

*1951-ci ildə Laçının Qarabəyli kəndində doğulub.*

## AZƏRBAYCAN ƏSGƏRİNƏ

Sızıldayan yarana, tökülən al qanına,
Keçirdiyin hisslərə, dəqiqənə, anına,
O sevdiyim Vətənə, o qıydığın canına
Bu canım qurban olsun, Azərbaycan əsgəri!

Oğul odur özünü ər meydanda sınaya,
Nə özünü itirə, nə özünü qınaya.
Gündə yüz yol deyirəm: səni doğan anaya
Bu canım qurban olsun, Azərbaycan əsgəri!

Arxanızı çevirib söykəmisiz bir dağa,
Yol açmısız arana, yol açmısız yaylağa.
Xankəndində, Şuşada dalğalanan bayrağa
Bu canım qurban olsun, Azərbaycan əsgəri!

Mənfurların həyatın döndərmisiz zindana,
Kimin nə haqqı var ki, etdiklərinizi dana.
Yenilməz sərkərdəyə, Ali Baş Komandana
Bu canım qurban olsun, Azərbaycan əsgəri!

Cavan ikən, gənc ikən od yağdı başlarına,
Qəhrəmanlıq simvolu həkk olub daşlarına.
Nur içində, behiştdə yatan qardaşlarına
Bu canım qurban olsun, Azərbaycan əsgəri!

Kərəm Arxud, nə ola, haqq-ədalət qurula,
Zəhimindən çatlaya, düşmən bağrı yarıla.
Sizdə olan qeyrətə, sizdə olan qürura
Bu canım qurban olsun, Azərbaycan əsgəri!



***Xan RƏSULOĞLU***

*Qubadlı rayonunun*
*Qarıqışlaq kəndi, 11.10.1962-ci il*

## *AFORİZMLƏRİ*

- ✓ Dərd eləmə, dərs elə.
- ✓ Siyasətdə əsas məsələ xalqı əsas məsələlərdən yayındırmaqdır.
- ✓ Pulun dilini hamı bilməsə də, pul hamının dilini bilir.
- ✓ Hər hürənə bir daş atsan, yarı yolda qalacaqsan.
- ✓ Dünyanın, heç nəyi ciddi qəbul etməyən ən ciddi adamıyam.
- ✓ Yaxşılıq elə, özünə ziyan vurmadan.
- ✓ Həqiqət dairəvidir, hər kəsə də durduğu yerdən görünür.
- ✓ Vaxt itirib pul qazananların ən böyük amacı, pul verib vaxt qazanmaqdır.
- ✓ Uşağı oynatmazlar, uşaqla oynayarlar.
- ✓ Qurdun quzu üçün dişi göynəyir.
- ✓ Qarnımıza yemirik, qarnımız yeyir bizi.
- ✓ Baş qazandır, nəsə bişirməlisən.
- ✓ Qanmazın qanmazlığı qananın qazancıdır.
- ✓ Roman yazmağa nə var ki, çətini söz deməkdi.
- ✓ Uduza-uduza udan görmüşəm, udansa qanmayıb uduzduğunu.
- ✓ Ömür qısa deyil, yaşımdan utanıram.
- ✓ Səbr cəbri həll edər.
- ✓ Eşqi məşq eləməzlər.
- ✓ Dostum - səhvlərimin aynası.
- ✓ Həqiqətin əsgəri ol, həqiqəti dilənmə.
- ✓ qədər də yaxşı olma ki, sənə avam desinlər.
- ✓ Lazım gələndə kişilik göstərmək yox, hər zaman kişi olmaq gərəkdir.
- ✓ Ən böyük allahsızlığı, görürsən elə allahın adından danışanlar eləyir.
- ✓ İnsan ölür, təki insanlıq ölməsin.
- ✓ Pis millət yoxdur, pis tərbiyə var.
- ✓ Təbiətimiz yalan demir, tərbiyəmiz yalan danışır.

***https://kulis.az/xeber/media/hec-neyi-ciddiye-almayan-ciddi-adam-xan-resuloglunun-aforizmleri-19859***



***Məmməd İBRAHİMLİ***

*1954-cü ildə Laçının Oğuldərə kəndində doğulub.*

## SƏN DEMƏ

Vətən dərdi hər bir dərddən ağlarmış,
Qəlbim qəmin yuvasıymış sən demə.
Çəkdiyimiz həsrət, niskil, ayrılıq
Can evimin bənnasıymış sən demə.

Yaş ötdükcə insan kövrək olarmış,
Xəyalında günü-günə calarmış.
Şəhid qanı bu torpağı suvarmış,
Bu imandan, sevgidənmiş sən demə.

Biz gəlmirik, Allah verir fərmanı,
Dərd sağalar qarşı gəlsə loğmanı.
Məmməd, sənin hər dərdinin dərmanı
Təkcə Vətən torpağıymış sən demə.

## QAYITDIM

Şükür dərgahına sənin, ay Allah,
Vətənlə qol-boyun oldum qayıtdım.
Axır ki qırıldı zülmün zənciri,
İki ay qonağı oldum qayıtdım.

Baş vurur qartallar ənginliklərə,
Dönüb taləzara hər dağ, hər dərə.
Baxan heyran olur gözəlliklərə,
Bir şair gözüylə baxdım qayıtdım.

Boy atıb meşələr ovun gizlədir,
Cüyürlər, ceyranlar öz kefindədir.
Dağlar o əvvəlki görkəmdədir,
Vətəndən qismətim aldım qayıtdım.

Elsiz bulaqlar da qəribsiyibdi,
Bağlar bar gətirib, başın əyibdi.
Məmməd, qəlbin yaman
kövrəkləşibdi,
Bahar buludu tək çaxdım qayıtdım.



***Şükür MÜRSƏLOĞLU***

*1963-cü ildə Laçın şəhərində doğulub.*

## GEDİRİK

Bir başı kəfəndir, biri də bələk,
Bürünüb ağ appaq ağa gedirik.
Çəkir qaranlığa bizləri fələk,
Bilmirik nə sayaq çağa gedirik...

Kömək duracaqmı Tanrı dediyin,
Min günah içində haram yediyin...
Önü uçurumdur qarşı gədiyin,
Elə biləcəksən dağa gedirik...

Çəmənin, meşənin gül naxışından,
Bənövşə gözünün qəm baxışından...
Şehotu çimində yaz yağışında,
Meyvə həsrətində bağa gedirik...

Cənnət harayında qalmışıq elə,
Əlimiz göylərdə, dilimiz belə...
Ruhun qidasını biz bilə-bilə,
Yüyürüb bostanda tağa gedirik...

İlahi dərdlərdən yoğrulmuşuq ki...
Bir istək yolunda can qoymuşuq ki...
Şeytanın nəfsinə çox uymuşuq ki,
Gah sola, gah da ki, sağa gedirik...

Bir bahar günündə sevincək olub,
İldırım çaxanda səksənib, qorxub,
Analar dünyaya bizi lüt doğub...
Çağa doğulmuşuq, çağa gedirik.



***Cənnət QILINCSOY***

*1963-cü ildə Laçının Oğuldərə kəndində anadan olub.*

**44 GÜN**

Vətən birdi – nə o baş, nə bu başı,
Bu qələbə silkələdi yaddaşı.
İndi şəhid anaların göz yaşı
Bu torpağın sularının sanıdı.

Türkün oğlu hər savaşda ər olub,
Həm döyüşdə, həm masada nər olub.
Bu torpaqlar çox səngərə yer olub,
Bir qarışı min şəhidin canıdı.

Dalğalandı Azərbaycan bayrağı,
Gəldi igidlərin səsi, sorağı.
44 günlük bu qələbə sınağa
Bir əsrlik bir həsrətin sonudu.

Üstümüzə yağdı sevinc yağışı,
Sona yetdi hicran adlı qar-qışı.
İndi Vətən torpağının naxışı
Azərbaycan şəhidinin qanıdı.





***Xosrov CAMAL***

*1964-cü ildə Laçının Oğuldərə kəndində anadan olub.*

**LAÇINDANAM**

Məndən soruşursan kiməm, hardanam,
Hədsiz uzaqdanam, Nərdivandanam.
Kəlbəcər, Qubadlı, Şuşa oylağım,
Çaldan, Çalbayırdan, Dəlidağdanam.

Yaylağı, aranı daim qonaqlı,
Zirvəsi qartallı, sərin bulaqlı.
Şair təbiətli, həm dost soraqlı,
İgidlər məskəni o diyardanam.

Tükənməzdir, talanmazdır səfası,
Dərdlərə dərmandır təmiz havası.
Bir Xosrov Camalam, sözün qısası,
Dağlıq rayondanam, o Laçındanam.






***Nazim ƏKRƏM***

*1966-cı ildə Laçının Dambulaq kəndində anadan olub.*

**DAĞLAR**

Niyə tanımadın məni görəndə,
Yoxsa yadlaşmışam – yalanam, dağlar?!
Səndən ayrılandan zindan çəkirəm,
Həsrətdən büsbütün talanam, dağlar!

Ziyarət etməyə gəldim mən səni,
Bax burdan haylayım ünüm yetəni.
O qürbətdə qalan ana vətəni
Həmişə yadıma salanam, dağlar.

Murovu, Kəpəzi, Qoşqarı gördüm,
Zirvədə çiçəyi, həm qarı gördüm.
Çatıbdı düşmənin axırı, gördüm,
Qürurdan, fərəhdən kalanam, dağlar.

Namərdi sinənə qonaq eyləmə,
Amandı, sirrini yada söyləmə.
Məndəki vəfanı ondan gözləmə,
Köhnə dostlarından qalanam, dağlar.

Bəs niyə gizlətdin üzünü məndən?!
Sədd çəkdin qarşıma dumandan, çəndən.
Nazimin ürəyi dönərmi səndən,
Doğma övladınam, balanam, dağlar.



***Araz ELSEVƏR***

*1968-ci ildə Laçının Qarıkaha kəndində anadan olub. Qarabağ qazisidir.*

## GÖRƏM

Qoynuna gəlirəm, ey ana yurdum,
Gəlirəm qoynunda elləri görəm.
Sevincdən ağlayan, gülən gözləri,
Min alqış söyləyən dilləri görəm.

Ey ana yurdumuz, azadsan, azad,
Verir azadlığın mənə qol-qanad.
Yəqindir tezliklə olarsan abad,
O qurub yaradan əlləri görəm.

Doymaram qoynunda min büsat görsəm,
Sənə qovuşmaqçün canımı versəm.
Yönümü haraya çevirsəm, dönsəm,
Yamyaşıl çəməni, çölləri görəm.

Qeyrətli oğullar, min alqış sizə,
Siz qürur verdiniz ürəyimizə.
Seyrinə çıxanda mən gəzə-gəzə,
Açılan çiçəyi, gülləri görəm.

Eşidəm qoynunda bülbül nəğməsin,
Astadan mələyən cüyürün səsin.
Sakitlik olanda çay zümzüməsin,
Leysan yağan zaman selləri görəm.



***Daşqın LAÇINLI***

*1970-ci ildə Laçının Hoçaz kəndində doğulub.*
*Qarabağ qazisidir.*

## ÖPƏCƏM

İmkan düşüb, qayıdacam Laçına,
Doğma yurdun torpağından öpəcəm.
Cığırların dolayacam başıma,
Hər daşından, hər dağından öpəcəm.

Dostum, əldən gedib ömrün baharı,
Ta çəkə bilmirəm dərdi, qübarı.
Laçından üz tutub Hoçaza sarı,
Qızılcanın tut bağından öpəcəm.

Könül həmdəmimlə verib-qol-qola,
Həkəri boyunca düzəlib yola,
Üstümü-başımı cırdırıb kola,
Palıdların yarpağından öpəcəm.

Məcnunu olduğum Leyli dağların,
Məzəli dağların, meyli dağların.
Min çiçək bitirən şehli dağların
O çınqıllı qucağından öpəcəm.

Kəhər atın yalmanına yatacam,
Atam düşən yurda gedib çatacam.
İfçin nalı ayağından atacam,
Köhlənimin dırnağından öpəcəm.

Kimdi fikir verib Daşqına baxan,
Vətən həsrətiylə qəlbimi yaxan.
Otuz il gözümdən üzümə axan
Zümzüməli bulağından öpəcəm.



***Namiq ZAMAN***

*1971-ci ildə Laçının Zağaltı kəndində doğulub.*

**ZƏFƏR GÜNÜN MÜBARƏK**

Sən ey səsi-sədası min illərdən gələnim,
Taleyimə, ömrümə günəş kimi gülənim.
Sənsən qürur mənbəyim, sənsən iftixar yerim,
Damarda coşan qanım, köksümdə çarpan ürək.
Ey şanlı məmləkətim, Azərbaycanım mənim,
Sənə zəfər yaraşır, zəfər günün mübarək!

Dünya qədər ulusan, sən tarixin özüsən,
Zülmətlərə nur saçan sökülən dan üzüsən.
Məramın haqq yoludur, haqqın görən gözüsən,
Şəhidlərin haqqını unutmayaq biz gərək
Ey şanlı məmləkətim, Azərbaycanım mənim,
Sənə zəfər yaraşır, zəfər günün mübarək!

Qanlarıyla yudular torpağını, daşını,
Bahara döndərdilər xəzanını, qışını.
Yarana məlhəm olub, dikəltdilər başını
İgidlərin-ərlərin öz canından keçərək.
Ey şanlı məmləkətim, Azərbaycanım mənim,
Sənə zəfər yaraşır, zəfər günün mübarək!

Həmişə zirvələrdə dalğalansın bayrağın,
Qaliblər cərgəsindən yetsin bizə sorağın.
Pozulmasın heç zaman çal-çağırın, növrağın,
Nə qədər ömrümüz var, səni belə şad görək.
Ey şanlı məmləkətim, Azərbaycanım mənim,
Sənə zəfər yaraşır, zəfər günün mübarək,
Zəfər günün mübarək!




***Ziyəddin İSMAYILOV***

*1973-cü ildə Laçının Qoşasu kəndində doğulub.*

## ARZUMA ÇATAN YERDƏYƏM

*Azad Laçınıma azad Xocalıdan keçib gedərkən*

A dostlar, bir görün hara gəlmişəm,
Düşmən Şəhidləri atan yerdəyəm.
Neçə yaralını üst-üstə yığıb,
Diriykən tonqala çatan yerdəyəm.

Bura Xocalıdı, Əlifin yurdu,
Geri çəkilmədi, sonacan durdu.
Nə qədər kafiri məhv edib qırdı,
Qanını torpağa qatan yerdəyəm.

26 fevral - o dəhşət günü,
Dilsiz körpələrə taxıb süngünü,
Töküb quyulara, örtüb üstünü,
Faciə, müsibət qopan yerdəyəm.

Analar, atalar fəryad qoparan,
Qarqar qeyizlənib üzü qabaran,
Donmuş qız-gəlini yuyub aparan,
Körpələr ümmanda batan yerdəyəm.

Min şükür, İlahi, qisas alındı,
Çox böyük qələbə, zəfər çalındı.
Xocalı qurulub, şəhər salındı,
Ziyəddin arzuya çatan yerdəyəm.



***Əlibala AĞAYEV***

*1973-cü ildə Laçının Güləbird kəndində doğulub.*

**CANIMIZDA BİR CANSAN**

Gəldim sənə sarılım,
Məndən küsən torpağım.
Sənsən mənim gor yerim,
Sənsən kəfənim, ağım.

Yenə çiçəklənəcək
Bağçaların, bağların.
Başını dik tutacaq
Başı qarlı dağların.

Sənsiz xoş yaşamadıq
Biz bu ötən illəri.
Sənə qovuşmaq üçün
Dözdük illərdən bəri.

Ürəklərdə daşıdıq,
Canımızda bir cansan.
Bizim üçün can Laçın,
Sən bir Azərbaycansan!



***Məhəmməd AĞALAROV***

*1983-cü ildə Laçının Ağalaruşağı kəndində doğulub.*



**GƏLMİŞƏM**

Gözün aydın olsun, ay ata yurdum,
Daha qucağına dönüb gəlmişəm.
Bir də alışmasın, bir də yannasın,
Hicranın ocağı sönüb, gəlmişəm.

Səndən gedənlərin çoxu qalmadı,
Ayrılıq müddəti qısa olmadı.
Qayıdıb gəlməyim asan olmadı,
Neçə igidlərin ölüb, gəlmişəm.

Atma Məhəmmədi bir də qoynundan,
Yorulmuşam bu fələyin oynundan.
Tər qönçəydim ayrılanda qoynundan,
İndi çiçəklərim solub, gəlmişəm.





***Seyid MALİK***

*1987-ci ildə Laçının Oğuldərə kəndində doğulub.*

**GƏLİRƏM**

İlk həsrətim, son istəyim ay Laçın,
Ayaqyalın dağ aşmağa gəlirəm.
Ürəyimdə yuvalanıb gileylər,
Bircə-bircə danışmağa gəlirəm.

Neçə ildir mələr mənəm, nələr sən,
Nə çəkmişəm, necə deyim biləsən?
Bizdən sonra nələr gördün, nələr sən,
"Necə dözdün" soruşmağa gəlirəm.

Şükür, açdı şanlı ordum yolunu,
Üz bozardıb tökmə qara dolunu.
Ağrın alım, qolunu aç, qolunu,
Qol-boyunda sarışmağa gəlirəm.

Az gəzmədim ayaz vuran çölləri,
İlıq olmur qəribliyin yelləri.
Arva qoyub qaçqın, Köçkün elləri,
Xoş gününlə yarışmağa gəlirəm.

O uşağam, sən yadına sal məni,
Aldı getdi bir yumrulmuş yol məni.
Ana yurdum, ağuşuna al məni,
Torpağına qarışmağa gəlirəm.





***Xələf AZƏRİ***

*1990-ci ildə Laçının Qorçu kəndində doğulub.*

## GÖYNƏDİ

Salam yaylaq, elin dönüb qoynuna,
Söylə neçə ocaq yerin göynədi?
Otuz ildir biçilməyən biçənək,
Cığırlarda ayaq yerin göynədi.

Nənə! Çıxıb alaçıqdan dəmlə çay,
Qəndin yoxsa, gətir içim qəmlə çay.
Rüzgar əsdi ağ tellərdən, ay haray,
Bir baxdım ki, daraq yeri göynədi

Qar da yağdı, heç üzümüz gülmədi,
Nə çəkdiksə qohum, qonşu bilmədi.
Əmim öldü, daha bizə gəlmədi,
Evimizin qonaq yeri göynədi.

Ocaq sönüb, çay soyuyub, masa boş,
Selə döndü, gözlərimdən axan yaş.
Xalı üstə o qurulan, bardalaş,
His bağlamış çıraq yeri göynədi.

Yüz ah çəksəm, çətin könlün alına,
Gəl görüşək, bəlkə düşər yoluna.
A yurd yerim! hər baxdıqca halına,
Ürəyimdə qınaq yeri göynədi.



***Səddam LAÇIN***

*1992-ci il, Laçın Ziyrik kəndi.*

## LAÇIN - DOĞULDUĞUM ŞƏHƏR

Gözün aydın, Laçın!
Gözün aydın, Vətən!
Gözün aydın, ata!
Laçın – anamın ən gözəl günləri,
Uşaqlığı, uşaqlarından daha çox sevdiyi…
Laçın – atamın dirədöymə oynadığı,
Birinə bərk vurub, birinə qıymadığı,
Danışmaqdan doymadığı,
Hamıdan qısqandığı,
Yerinə başqasını qoymadığı
Müqəddəs şəhər.
Laçın – səmasında laçınların,
Torpağında Laçınlıların
Meydan suladığı,
Çaqqalların quyruq buladığı,
Boz qurdların hilala baxıb
Uladığı müqəddəs şəhər.
Laçın – Məkkəm, Mədinəm, Kərbalam.
Görmədən sevdiyim,
Yağışını anamın göz yaşlarında,
Qarını atamın ağ tellərində gördüyüm,
Dəli kimi aşiq olduğum şəhər.
Bir gün qoynunda ölmək diləyiynən,
Sən ey doğulduğum şəhər!



***Arif GÜRŞADOĞLU***

*1978-ci ildə Laçının Mişni kəndində doğulub.*

**KƏLBƏCƏR...**

Tərtərin Qarqar daşı,
Şuşanın tək sirdaşı,
Laçınımın qardaşı,
Kəlbəcər...

Hər qayası ordudu,
Yalquzaqğı, qurdudu.
Vətənoğlu yurdudu,
Kəlbəcər...

Bu İşıqlı, bu Murov,
Yamacı, yalı qırov,
30 il qaldın girov,
Kəlbəcər...

Cahanın daş qəfəsi,
Dədə Şəmşir həvəsi,
Sücaətin nəfəsi,
Kəlbəcər...

Qardaşın əl uzatdı,
Düz əməlli, düz addı.
Daha ruhun azaddı,
Kəlbəcər...

**LAÇINA YAĞIŞ YAĞIR**

30 il ekrandan izlədik, dostum,
Laçında havalar necədi görən?
Kövrəldik, ağladıq - gizlədik, dostum,
Laçının gündüzü gecədi görən?
Laçına yağış yağır...

Dağların başında duman ağladı,
Dumanlı dağlar da yaman ağladı.
Qürbətdə gözünü yuman ağladı,
Laçına yağış yağır...

Ceyranı, cüyürü qaçır deyəsən,
Utancaq bənövşə açır deyəsən.
Qaranquş alçaqdan uçur deyəsən,
Laçına yağış yağır...



***Zahir ABBAS***

*1978-ci ildə Laçının Güləbird kəndində doğulub.*

## A KÖHNƏ DİVARIM, A KÖHNƏ EVİM

Ay ata, qurduğun evə baş çəkdim,
Zəhmətin gözümdə çağladı, daşdı.
Könlümdə özümə bir məbəd tikdim,
Xəyalım dolandı, xəyalım aşdı.

Bu evdə gəncliyin, bacım, qardaşım,
O qədər sevincim itib, yox olub.
Dörd divar içində qalan sirdaşım,
Müəllim qazancıyla gözüm tox olub.

Qayıdıb gəlirəm ürəyi dolu,
A köhnə divarım, a köhnə evim.
Nə olar qarşıla, bir tanıt yolu,
Zahiri zahirtək təzədən sevim,
Ömürlük sevincim, ömürlük dərdim,
Söylə mən şəninə nələri deyim?!

## LAÇINIM MƏNİM

Sən mənim and yerim, güvənc yerimsən,
Məkkəm, Mədinəmsən, ocaq, pirimsən.
30 il göz yaşı, dərdi-sərimsən,
Müqəddəs varlığım - Laçınım mənim!

Sənsiz hey sızladı könlümün dili,
Soldu, gül açmadı bağçamın gülü.
Sən ey Zəngəzurun şeyda bülbülü,
İslamı anlığım - Laçınım mənim!

Qayıtdıq qoynuna, qucaqla bizi,
Yenidən tanıyaq bir-birimizi.
Gəl birgə bölüşək bu sirrimizi,
Olmasın darlığım, Laçınım mənim,
Varlığım, varlığım - Laçınım mənim!

## GÜLƏBİRD

Nədən varlığını duya bilmədim,
Şirinim, şərbətim, balım Güləbird.
Belə gözəllikçün niyə ölmədim,
Qadanı, bəlanı alım, Güləbird.

Ömür qısa imiş, çox sonra bildim,
Mən sənsiz sevindim, mən sənsiz güldüm.
Otuz il süründüm, nisgili böldüm,
Yerini qəlbimdə salım, Güləbird?!

Dözmədi, alışdı sinəmdə ürək,
Sizladı, ağladı Vətən deyərək.
Durub dağ döşündə Sarı Aşıq tək,
Dilqəmi havasın çalım, Güləbird?

Az qalıb qovuşam güllü bağçana,
Qayıdıb Laçının, elin, baxsana.
Zahiri köksünə durub sıxsana,
Yer ver ürəyində qalım, Güləbird.



***Pərviz AXUND***

*1987-ci ildə Laçının Qarakeçdi kəndində anadan olub.*

## ZƏFƏR ANDI

*Cövhər Qazi üçün*

Qarda, tarda
Əl yetməyən,
Səs getməyən dağlarda
Ərzaq payı çatmayan igidlər
Qurd ürəyi yeyirlər,
Zəfər andı içirlər.

Dar ayaqda – dalanda
Arxa-dayaqsız qalanda
Vətən faktına söykənib dururlar,
Fəxarətlə, qürurla.

Sevdiyinin gözlərini
Yollarda qoyan əsgər
Tarix yazıb göndərər
Məktubunun yerinə
Bütün sevdiklərinə.

İdarələr önündə
Müdir növbəsi üçün,
Möhür növbəsi üçün
Gözləyən oğul indi
Düşməni belə gözlətmir:
Bircə-bircə "möhür" vurur
Yağıların alnına.

Əl yetməyən,
Pay getməyən zirvələrdə igidlər
Qurd ürəyi yeyirlər,
Zəfər andı içirlər.



***Şərif AĞAYAR***

*1976-cı ildə Laçının Ağbulaq kəndində anadan olub.*

**AY LAÇIN**

Sözümün əvvəli, sözümün sonu
Məskənim, beşiyim, anam, ay Laçın
İstərəm eşqinlə Xan Kərəm kimi
Alışam, ay Laçın, yanam, ay Laçın!

Çırpılam qoynuna əsən yel kimi
Sızlayam dərdinlə incə tel kimi
Duyam nəfəsini, açam gül kimi
Bülbülüm, ay Laçın, sonam, ay Laçın!

De kimlər iz qoydu izlərin üstə?
Axar su töküldü közlərin üstə
Kükrəyən yaş olam gözlərin üstə
Həsrət yanağında donam, ay Laçın!

Qoynunda vursaydım ömrümü başa
Baxmazdım yolumu azdıran qışa
Dönəm dar qəfəsdən qurtulan quşa
Uçub sinən üstə qonam, ay Laçın!

Dərdinin zərbiylə yenə vuruldum
Yolunda çəkdiyim ünə vuruldum
Arzum-eşqim deyib sənə vuruldum
İnanma əhdimi danam, ay Laçın!

İndi qürbət eldə çəkər ahu-zar
İlhamı dağlardan alan duyğular
Sənsiz yaşamağa gümanımmı var?
Ürəyin itirmiş canam, ay Laçın...

Söz qoşam qoynunda hər daşa, dağa
Saralan çiçəyə, solan yarpağa
Yatam qucağında, dönəm torpağa
İtməyə qəlbimdə inam, ay Laçın
Məskənim, beşiyim, anam, ay Laçın!

***Elman ELSEVƏR***

*1948-ci ildə Laçın şəhərində doğulub.*



## LAÇINIM, MƏN SƏNƏ QAYIDACAĞAM

Kəməndəmi salıb könlümü saçın –
möhnətin içimi, içimdən otlar;
Soyuq nəğmə deyir ulduzlar, Laçın,
çimir soyuq nurda çiçəklər, otlar...

Bu sazaq hayandan baş aldı gəldi,
sis-çiskin qurğuşun siqlətli, ağır.
Qaragöl gözümə saflıq çilərdi,
Xəzərdən gözümə həsrətin yağır.

Yağır sarı-sarı, yağır şıdırğı,
Həkəri gözümdə dumana dönür.
Sinəmdə alışan inam çırağı
əriyib, sozalıb gümana dönür.

İpək durnalarım köç edib gedir,
bənövşə barmaqlar nə tez büzüşdü.
Ümid yarpaqlarım tökülür bir-bir,
ömrümün Dağsızlıq payızı düşdü...

Yox, yox, ulu Yurdum, ulu Ocağım,
Dağlı qəzəbimi oyadacağam.
Yarıb qaranlığı – ildırım təki
Mən Sənə, mən Sənə qayıdacağam!



***Arif MƏMMƏDLİ***

*1959-cu ildə Laçının İmanlar kəndində doğulub.*

## VƏTƏN QAZİLƏRİNƏ

Siz ey məmləkətin ər oğulları,
Qoy mübarək olsun Qazi adınız.
Şanlı qələbəyə təşnə xalqımın
Zəfər tarixini qanla yazdınız.

Arxalı köpəklər təşvişə düşdü,
Təzədən gördülər qurd üzünüzü.
Açıldı göy üzü Suqovuşanda,
Şuşada dediniz son sözünüzü.

Çaxdı şimşək kimi dəli nərəniz,
Dərəyə hay saldı, dağı oyatdı.
Ölən ümidimiz dirildi qəfil,
Sınan qürurumuz geri qayıtdı.

Düşmənin başına od ələdiniz,
Şəhid oğulların ruhu sevindi.
Vətənin başını uca etdiniz,
Bu Vətən sizinlə öyünür indi.

Həmişə beləcə haqq zəfər çalsın,
Ədalət dünyanın hakimi olsun.
Xalqın məhəbbəti, xalqın sevgisi
Sizin yaranızın məlhəmi olsun.



***Maarif KÖÇKÜN***

*1960-cı ildə Laçının Hətəmlər kəndində doğulub.*

## GƏLİB KEÇİR

Nahaqdan məzlumun tökülür qanı,
Terrorun dalğası tutub hər yanı.
Ay fani dünyanın nadan insanı,
Baxıram gözümdən tor gəlib keçir.

Yaxşı bax dünyada gedən savaşa,
Hər yanda basılır müsəlman daşa.
Düşmən kəsilibdi qardaş qardaşa,
Qışqırram, könlümdən car gəlib keçir.

Üzür qan gölündə Fələstin, İraq,
Xoşbəxt güzərandan verən yox soraq.
Ölür kişi, qadın, məhv olur uşaq,
Utannam, qəlbimdən ar gəlib keçir.

Səndən soruşuram, ay yazı yazan,
Bir ömrü axıra vurmuruq asan.
Niyə qənim çıxıb insana insan,
Bu dünya başıma dar gəlib keçir.

Uduruq, boğulur haqq səsimiz də,
Azalmır silaha həvəsimiz də.
Həzm edib zəhəri ciyərimizdə,
Alırıq, nəfəsdən çor gəlib keçir.

Qatillər-şümürlər hələ qan tökür,
Qədim şəhərləri dağıdıb sökür.
Kimi fəryad edir, kimi dərd çəkir,
Kiminin könlündən yar gəlib keçir.

Zövq versin hər kəsə həyatın dadı,
Olmasın ellərin ahı-fəryadı.
Köçkünəm, istəyim azad dünyadı,
Könlümdə gör nələr var, gəlib keçir.



***İntiqam CƏFƏROV***

*Cəfərov İntiqam Qafar oglu 05 yanvar 1951-ci ildə Qubadlının Əliquluuşağı kəndində doğulub.*

**QUBADLIM ƏLDƏN GEDƏNDƏN**

Qəm qalaq-qalaq qalandı,
Dərdim dünyanı dolandı,
Günlərim qara boyandı,
Qubadlım əldən gedəndən.

Cismim yandı həzin-həzin,
İtirdim babamın izin,
Dəfi döndü hamımızın,
Qubadlım əldən gedəndən.

Ürək sinəmdə qovruldu,
Arzum küləyə sovruldu,
Dərbədər elim yoruldu,
Qubadlım əldən gedəndən.

Nə deyim, nə gileylənim?
Kimə, ya nəyə söylənim?
Dönüb haraya boylanım
Qubadlım əldən gedəndən?

Daha ildırımlar çaxmır,
Günəş də dağlardan qalxmır,
Güllər əvvəlkitək qoxmur
Qubadlım əldən gedəndən.

Günlərimin qarası çox,
Bu dərdimin çarası yox,
Sinəmə sancılıbdır ox,
Qubadlım əldən gedəndən.

Qürbət oldu dağım-daşım,
İtdi neçə yar-yoldaşım,
Ağarıb saçım, başım,
Qubadlım əldən gedəndən.

avqust 2003

***Elşad QASIMOĞLU***



*1961-ci ildə Laçının Mirik kəndində anadan olub.*

## AĞLAMA, ŞƏHİD ANASI

*Şəhid mayor Quliyev Elnur Eldar oğlunun anası, tələbə yoldaşım Marusa xanım Həsənovanın timsalında bütün şəhid analarına*

Ağlama, şəhid anası,
Məğrur dayan sən, məğrur dur!
Sən qəhrəman anası
Xalq səninlə qürur duyur.

Sənin oğlun Vətən üçün,
Şirin canın qurban dedi.
Qoy yaşasın Azərbaycan,
Qoy var olsun Turan dedi.

Azad etdi Vətənimin
Torpağını qarış-qarış.
Belə oğul böyütmüsən,
Alqış sənə, min-min alqış!

Qisasını aldı min qat
Xocalılı qız-gəlinin.
Laçın, Şuşa, Ağdam birgə,
Kəlbəcərin, Füzulinin.

Bu, dəryada qərq edilən,
Zəngilanın qisasıdır.
Pərən düşən Qubadlının,
Cəbrayilin qisasıdır.

Sənin oğlun xilas etdi
Vətən adlı torpağımı.
Sənin oğlun ora taxdı
Ay-ulduzlu bayrağımı.

Ölmədi ki, o yaşayır
Qəlbimizdə hər bir zaman.
O ölməyib, yaşayacaq
Nə qədər var Azərbaycan!



***Sahib BÖYÜKTURAN***

*1973-cü ildə Laçının Dambulaq kəndində anadan olub.*

## ZƏFƏR ÇALDI ORDUMUZ

Sayıq oldu, qorxmaz oldu hər anda,
Dəmir yumruq işə düşdü bir anda.
Həmin zaman xalq birləşdi o anda,
Bir tarixi zəfər çaldı ordumuz!
44 günə azad oldu yurdumuz!

XTS-lər döyüşdə mərd dayandı,
Cəsarəti hər bir kəsə əyandı.
Mənfur düşmən al qanına boyandı,
Bir tarixi zəfər çaldı ordumuz!
44 günə azad oldu yurdumuz!

Qazilərin qanları ilə alındı,
Şəhidlərin canları ilə alındı.
İğidlərin şanları ilə alındı,
Bir tarixi zəfər çaldı ordumuz!
44 günə azad oldu yurdumuz!

Pualar səmada süzdü, uladı,
Düşmən gördü bir qaçılmaz bəladı.
Bütün postlarını bir-bir taladı,
Bir tarixi zəfər çaldı ordumuz!
44 gündə azad oldu yurdumuz!

Göz qırılıb, ruhu düşük gəzirdi,
Leşi üçün qutu, yeşik gəzirdi,
Mənfur girmək üçün deşik gəzirdi,
Bir tarixi zəfər çaldı ordumuz!
44 günə azad oldu yurdumuz!

Türk qardaşlar bizə dayaq oldular,
Haqqı yayıb dünyaya səs saldılar.
Sona qədər bizə sadiq qaldılar,
Bir tarixi zəfər çaldı ordumuz!
44 günə aza oldu yurdumuz!

Həm də dəstək oldu bizə Pakistan,
Bildirdi qardaşıq, bir ürək, bir can.
Dedi nüvəmiz var, verərik hər an,
Bir tarixi zəfər çaldı ordumuz!
44 günə azad oldu yurdumuz!



***Elgiz XANLAR***

*1992-ci ildə Laçının Budaqdərə kəndində anadan olub.*

## LAÇINDA

Mənfurlar əlindən lala dönmüşdü,
Açıldı elimin dili Laçında.
Qan verib, can aldı müzəffər ordu,
Sovruldu düşmənin külü Laçında.

Qurdlar keşik çəkib gəzdi qoruqda,
Bir kimsə qalmadı cəngdən qıraqda.
Bir xalqın birləşib dəmir yumruqda,
Polada çevrildi qolu Laçında.

Məhşərə qalmadı ahlar, nalələr,
Biz nələr itirib qazandıq nələr.
Al əlvan boyanıb çöllər, çəmənlər
Sərdi ayaqlara xalı Laçında.

Buz bulaqlar daşdan axıb durulsun,
Obalarda toy büsatı qurulsun.
Məclis əhli oynamaqdan yorulsun,
Mizrab dilləndirsin teli Laçında.

Elgizəm, a dostlar, intizar bitsin,
Arzu-niyazımız kamına yetsin.
Gələn günlərimiz sevinclə ötsün,
Bülbülə nazlansın gülü Laçında.



*Vüqar LAÇINLI*

*1982-ci ildə Laçının Qarıkaha kəndində anadan olub.*

## VƏTƏN, SƏNƏ DÖNƏ BİLDİK

Arzularımız çin oldu,
Vətən, sənə dönə bildik.
Otuz il yandıq, əridik,
Kül olmamış sönə bildik,
Vətən, sənə dönə bildik.

Çıxdıq dağların başına,
Əl sürtdük xına daşına.
Uşaqlığın yaddaşına
Silinməmiş çönə bildik,
Vətən, sənə dönə bildik.

Sökülübdü köhnə barı,
Yoxa çıxıb ata varı.
Cığırlarda kol-kosları
Qırıb bağa enə bildik,
Vətən, sənə dönə bildik.

Yaylaqların gül çiçəyin
Dərdik, qurutduq ləçəyin.
Ağsaqqalın, ağbirçəyin
Sevincini görə bildik,
Vətən, sənə dönə bildik.

Axdı neçə şəhid qanı,
Fəda oldu şirin canı.
Yurdumuz Azərbaycanı
Özümüzə ana bildik,
Vətən, sənə dönə bildik.

Vüqar, ömrün cavan çağı,
Əridi qəlbinin yağı.
Köksündəki Vətən dağı,
Yoxdur! – şükür yenə bildik,
Vətən, sənə dönə bildik.





***Şahgündüz CABBAROV***

*13 yanvar 1995-ci ildə Laçının Oğuldərə kəndində doğulub. 25 oktyabr 2020-ci ildə Füzulinin Əbdürrəhmanlı kəndi yaxınlığında gedən döyüşlərdə igidlik göstərərək şəhid olub.*

## DARIXDIM

Uşaqliq illərim yadıma düşdü,
Keçən aydan, ildən ötrü darıxdım.
Dörd tərəfə pərən-pərən dağılmış
Bir obadan, eldən ötrü darıxdım.

Həyatı bir şirin nağıl bilində,
Yersiz ağlayanda, yersiz güləndə.
Nənəmin dizində mürgüləyəndə
Sığal çəkən əldən ötrü darıxdım.

Qəlbim aşıb-daşan sevgi çeşməsi,
Eşqin-məhəbbətin şirin nəğməsi.
Dərdim-sərim təkcə ata şilləsi,
Tir-tir əsən dizdən ötrü darıxdım.

Sinifi bəzəyən o gözəl qızla,
Günlərim keçirdi nə xoş güzarla.
Dərslərimdən "2" alıb, divarla
Baxışdığım küncdən ötrü darıxdım.

Bəzən çiçəkli yaz, bəzən qışam mən.
Eşqin ilhamından pay almışam mən.
İyirmi yaşımda qocalmışam mən,
On yaşlı Gündüzdən ötrü darıxdım.

## QOCA QARTAL

*Xocavənd rayonunda hərbi xidmətdə olarkən*

Qoca qartal, səsin gəlmir nədəndi,
Yoxsa çağlar həmən çağlar deyilmi?!
Niyə belə sakit-sakit baxırsan,
Sənin yerin uca dağlar deyilmi?!

Qanad aç, qanad aç uca göylərə,
Özünlə ruhunu apar, a qartal!
Keçirt caynağına mənfur düşməni,
Sahib ol o elsiz yurdlara, qartal!

Daha bağlanmasın qolun-qanadın,
Səs sal gülü solmuş bağça-bağa sən.
Bir milyon didərgin elin-obanın
Yetir salamını Qarabağa sən.

Sən Xarı bülbülün ahın-naləsin
Duman Yeddiqata sarılanda gör.
Mənim ilhamımın eşqin-həvəsin
Qırxqızdan Laçına boylananda gör.

Əzəldən tək gəlib, tək gedən qartal,
Bir gün dilə gəlib dillənəcəksən.
Gündüzün ürəyin fəth edən qartal,
Bir gün Qarabağı fəth edəcəksən.



***Səadət CAHANGİR***

*Qubadlı rayonu, Diləli Müskanlı kəndi, 08.01.1968*

## EY SEVGİLİ AZADLIQ

Bir dəniz susuzluğu, bir sevdada yolçuluq,
Bir ağ yelkən savaşı dalğalar boğan suda,
Alnını öpmək üçün nə canlar fəda oldu,
Nə gözlər yolda qaldı, nə həyatlar yarıda!

Sən qanad çılğınlığı ruhuma yaranışdan,
Vulkanlarmı oyatdı hər gün bizi uğruna,
Ürəyim sənə doğru çırpınan Simurq quşu,
Ey sevgili Azadlıq, ölünməzmi uğruna?

Sən bayraq şairlərin ölməz misralarında
Min illər əzbər qalan kitabların baş sözü,
Sən bir dava uğruna milyonları qaldıran
Böyük yürüşlərdə himn, savaşlarda marş sözü!

Sən qarlı gecələrdə ayıq bir süvarinin
Od yağan nəfəsindən çölün əriyən buzu,
Sən göyüzü mavisi bulud göyərçinlərə,
Al şəhid qanlarından bayraq olan qırmızı!

Sən dustaq gözlərində günəş qaranlıqlara,
Çağırış şüarları divar yazılarında,
Sən buxov yasaqları qıran bahar rüzgarı,
Ram olunmaz fırtına okean sularında!

Sən qanad çılğınlığı ruhuma yaranışdan,
Vulkanlarmı oyatdı hər gün bizi uğruna,
Ürəyim sənə doğru çırpınan Simurq quşu,
Ey sevgili Azadlıq, ölünməzmi uğruna?



***Məmməd ASLAN***

*Aslanov Məmməd Muxtar oğlu, Kəlbəcər rayonu, Laçın kəndi, 24.12. 1939 – 23.09. 2015*

## QAYADAN QUMACAN

Dağın ayağından asılar daşlar;
Belə mənzil kəsər daş ağır-ağır...
Tükənmək bilməz ki, çılğın savaşlar;
Daşlaşmış canlardan kövrəklik yağır.
Soyumun daşını döşümə döydüm,
Döyə bilmədimsə, kimə nə borcu?!
Qayaya kök atıb, daşda böyüdüm;
Daş-daşla qovuşsa, daş - qala bürcü!
Çiyninə baş əysək bir-birimizin;
O daş yastıq olar, baş yarmaz daha!
Boğmaz işığını gecə gündüzün;
Sağ-salamat çıxar axşam sabaha!..
Bir soy ki bir daşa baş qoysa əgər,
O daş millət üçün səcdəgah olar!
Kök özünü sevsə, Haqq onu sevər!
Bir soyun ayarı tam agah olar.
Qaya sədası var başın yasında:
Baş, daşın üstündə heykələ dönər!
Orxon-Yeniseyin daş-qayasında,
Hələ Türklüyümün nəbzi döyünər.

## TANIMADIN BƏS MƏNİ

Kaş biləsən qəlbən necə istərəm,
Məndən xəfif inciməni,küsməni.
Ürəyimin tellərində gizlərəm,
Yarpaq kimi nazlı-nazlı əsməni.

Meh olmuşam,öyrənmişəm çəm indi,
Səndən ayrı ta etmərəm qəm indi,
Heç demirsən bu çağırış kimindi,
Hardan səslər belə tanış səs məni.

Hər səninlə öpüşdükcə bulaqlar,
Duymursanmı bu öpüşdə nəsə var,
O Məmmədi,çeşmə kimi çağlayar,
Pıçıltımdan tanımadın bəs məni?



**Sarı AŞIQ**

*XVII əsrdə Güləbirddə yaşayıb*

## BAYATILAR

Mən aşıq bilən bizi,
Tutubdu bilən bizi.
Dardayıq, unutmasın
Tanıyan, bilən bizi.

Aşıq başına bağlar,
Zülfün başına bağlar.
Bülbül öldü, gül soldu,
Qaldı başına bağlar.

Mən aşıq yara sızlar,
Bayqular yara sızlar,
Yaralının dərdini
Nə bilər yarasızlar?

Mən Aşıq dağ itdi,
Duman gəldi, dağ itdi.
Biz də bir oymaq idik,
Fələk vurdu dağıtdı.

Aşıq, ellər ayrısı,
Şana tellər ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.

Mən Aşığam, lələ mən,
Qəflətdəyəm hələ mən.
Dərddən, qəmdən, hicrandan
Bağlamışam şələ mən.

Gözəl Allah, gül Allah,
Qul bəndənə gül, Allah.
Mən ki, Haqq Aşığıyam,
La İlahə İlallah!

Mən Aşıq, gülən dəmlər,
Şeh düşmüş – güldə nəmlər.
Gülsün indi gülənlər,
Getdi biz gülən dəmlər.

Dağlarda qar qalandı,
Yağdıqca qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı.

Aşıq çırağı neylər,
Yanan çırağı neylər?
Bir çıraq Haqdan yana,
O çıraq yağı neylər?!

Mən Aşığam, ha kərim,
Dada yetiş, ha Kərim!
Sizə sizin gen dünya,
Mənə mənim Həkərim!

Mən Aşıq, ya qeyb Alı,
Xoş gördük, ya Qeybalı.
Qarı düşmən dost olmaz,
Yedirsən yağı, balı.



***Seyid Mir Həmzə NİGARİ***

*Zəngəzur mahalının Cicimli kəndində (Laçın) doğulub, Türkiyənin Amasya şəhərində dəfn edilib (1797-1885).*

## "DİVAN"INDAN SEÇMƏLƏR

Bir qönçeyi-gülün tarimarıyam,
Görüm abad olsun ol Qarabağı.
Bir gözəl kəbkin giriftarıyam,
Şənlik olsun dağı, bağı, ovlağı.

Canıma çəkmiş fələk Bərgüşadın dağını,
Sönməz atəşi, ursan Həkəri irmağını.
Ol dairədə Həkəri, Bərşad,
Eşqin yeridir, buyurdu ustad.

Ey Nigari, ömrün erişdipayə,
Salmadı başıma ol sərvi sayə.
Can qurban eylərəm peyki səbayə,
Xəbər versə bir gün ol Qarabağdan

Eşqin kanı Qarabağdır məkanım,
Bülbüli-şeydayəm, cənnət yerimdir.
Əvvəl başdan Qaraqaşlı bustanım,
İmdi gülüstanım Qara pirimdir.

Sinəmə çəkilən qara dağımdır,
Yandıran aləmi gör nə çağımdır!
Qara bağrım qanlu Qarabağımdır,
Gözlərimdən axan yaşi-tərimdir.

Yadigarım olsun əhli-sövdayə,
Göftari-dərdimi eyləsin mayə.
Şamü səhər ahim, ünüm biğayə
Dərgəhi-dildarə bərgü bərimdir.

Lütfi-ilahinin nəzərgahiyəm,
Ərbabi-sövdanın qibləgahiyəm.
Mülki-məlamətin padişahiyəm
Xaki-payi-dilbər taci-sərimdir.

Tükənməzmi dərdin, yoxmu bir çarə?
Yaxılursan şamü-səhər odlarə.
Səbr eylə biçarə, ey günü qarə,
Ey Seyyid Nigari, Mövla kərimdir.

***

Gözlərimdən hər dəm qan-yaş tökülür,
Sərvtək qamətim yay tək bükülür,
Sinəmə çal-çarpaz dağlar çəkilür
Yadıma düşdükcə Çilgəz yaylağı.

Xubları huridir, mələkmənzərdir,
Sözləri şirindir, şəhdü şəkkərdir.
Cənnətül-məvadır, hövzi-Kövsərdir
Qaraqaş yaylağı, Həmzə bulağı.

Kuhi-sövda üzrə eylərəm fəryad,
İmdadıma gəlməz sakini-övtad.
Dəmbədəm bin tişə əgər bin Fərhad
Çalsalar, əksilməz sinəmin dağı.

Nəsli-İsmailsən, əsli-ərəbsən,
Ali-Məhəmmədsən, alinəsəbsən.
Müntəxəbsən, silsileyi-zəhəbsən,
Ey Seyyid Nigari, ey Qarabaği.

***

Nə əcəb dövlət imiş seyri-şikari-Qarabağ,
Nə gözəl nemət imiş söhbəti-yari-Qarabağ.
Rəşki-müşk-ənbər imiş buyi-qubari-Qarabağ
Abi-heyvan imiş ənharü pünari-Qarabağ.
Kövsərü Tuba imiş çayi-çinari-Qarabağ
Aləmi-cənnət imiş dari-diyari-Qarabağ.
İmdi bildim nə imiş vəsfi-həzari-Qarabağ!
Yeridir kim çəkərəm ahü zari-Qarabağ.



***MİRSƏDİ AĞA MİR ZİYƏDDİN OĞLU***
*Qubadlı, Mirlər kəndi, 1898-1961*

## OLSUN

Məni məhbus edəni görüm aləmdə xar olsun.
Onunda könül evi mənimki tək tarı-mar olsun.
Yetişməsin kamına heç bilməsin eşqin dadını.
Sevdiyi sevgilisi özgələrə yar olsun.

O, bimürvət saldı bir quru böhtana məni.
Məndən artıq demirəm mənlə bərabər olsun.
Özü çəkdikcə bilər başqa cavanlar nə çəkir.
Etdiyi zülmlər qoy ona aşkar olsun.

Baxıban pəncərədən yarını əğyar ilə görsün.
Qana dönsün ciyəri gözləri ağlar olsun.
Qapısı pəncərəsi bağlı qalsın həmişə.
Ürəyi, ömrü boyu qüsseyi qubar olsun.

Möhtac qalıb köməyə Yusifi-Kənanı çağırsın.
Nə xudadan, nə imamdan ona bir kam olsun.
Mirsədiyəm qarğamaram özgə bəlaya onu mən.
Xoş günü zindan evi, dar günü məzar olsun.



Seyyid Mir Hamza Nigari Türbesi / AMASYA –Merkez-Şamlar Mahallesi



***Məhəmməd YAQUBLU***

*Qubadlı, Dondarlı kəndi*

## NECƏ AYRILIM?

Yetmiş il ömrümdə bir ev tikmişəm,
Bu böyük zəhmətdən neçə ayrılım?
Evin dörd yanını mən bağ etmişəm,
Bu var-dövlətimdən necə ayrılım?

Məni bağ əkmişəm ki, məhsulum dərəm,
Qonşuma, dostlara pay da göndərəm.
Burda yaş keçirəm, burda toy görəm,
Bu ülvi niyyətdən necə ayrılım?

Ənciri, alması, narı, üzümü,
Zoğalı, heyvası, nizam-düzümü,
Çəkmək istəmirəm vallah gözümü,
Mən belə sərvətdən necə ayrılım?

Bağda arılarım muğamat üstə,
Zümzümə eyləyir, çalır şikəstə,
Möcüzə yaradır adi mum üstə,
Bu gözəl nemətdən necə ayrılım?

Babalarım bu torpaqda yatıbdı,
Mir Məhəmməd nuru ərşi tutubdu,
Sədi babam cənnətinə çatıbdı…
Müqəddəs nemətdən necə ayrılım?!

Paşa babam daşdan vüqarla baxır,
Baxışı qananı yandırıb yaxır,
Qəzəbnakdı, baxışından od çaxır,
Nurdan, ziyarətdən necə ayrılım?

Dondarlıdı kəndim, adım Məhəmməd,
Çağırırarm, yetiş dada, ya Mədəd
Gedirəm, gəlməyim olur ya qismət,
Bəs ana Vətəndən necə ayrılım?!



***Tarıyel ÇAHANGİR***

*Qubadlı, Dəmirçilər kəndi*

**QUBADLIDADIR**

Ürək açan yerlər, gözəl küləklər,
Palıdlı, bənövşəli yaşıl meşələr,
Lalələr, nərgizlər, tər bənövşələr,
Ətirli çiçəklər Qubadlıdadır!
Şehli biçənəklər Qubadlıdadır!
Sərin yaylaqları axar-baxarlı,
Meyvə bağları var, bəhəri-barlı.
Uca dağları var, zirvəsi qarlı,
Gözəl oylaqlar da Qubadlıdadır!
Qaynar bulaqlar da Qubadlıdadır!




Qızılquş baxışı, bülbül nəğməsi,
Kəkliyin sürüsü, turacın səsi,
Tərlanın uçuşu, cüyürün izi,
Durnanın avazı Qubadlıdadır!
Qartalın yuvası Qubadlıdadır!
Dar gündə yəhərdə doğulanların,
Nəbi, Həçər kimi qəhrəmanların,
Şöhrəti, ad-sanı Qubadlıdadır!
İgidlər məkanı Qubadlıdadır!
Düşmənə kin, qəzəb, yağıya nifrət,
Dostlara sədaqət, əsil məhəbbət,
Qəribə ehtiram, qonağa hörmət,
Vəfa, etibar da Qubadlıdadır!
Düz əhd də, ilqar da Qubadlıdadır!

***Çərkəz MƏMMƏDOV***



*Qubadlı, Alaqurşaq kəndi*

## ELİN BU GÜNÜNDƏ GƏLƏYDİN, NƏBİ

Vətən həsrətindən yata bilmirəm,
Qəm yüküm ağırdı, ata bilmirəm,
Yağı arxalıdı, bata bilmirəm.
"Mənim bu günümdə gələsən, Nəbi!"
"Düşmənin əlindən alasan, Nəbi!"

Yarasa oylağı olubdur bağlar,
Göz yaşlı axıdır çaylar, bulaqlar,
Düşmən əlindədir sən gəzən dağlar,
"Mənim bu günümdə gələsən, Nəbi!"
"Düşmənin əlindən alasan, Nəbi!"

Erməni hampası olubdur cani,
Nahaq yerdən axır insanın qanı.
İnanı bəs qaşaqlar, bir söylə, hanı?
"Mənim bu günümdə gələsən, Nəbi!"
"Düşmənin əlindən alasan, Nəbi!"

Körpəyə həsrətdir doğma yuvalar,
Düşmən tapdağıdır kəndlər, obalar,
Məzarda əsirdi igid babalar.
"Mənim bu günümdə gələsən, Nəbi!"
"Düşmənin əlindən alasan, Nəbi!"







*Şahgəldi KAZIMOV*

*Qubadlı, Sarıyataq kəndi*

## KAZIMAĞA - ŞƏHİD QARDAŞIM

*Qubadlının ilk Milli Qəhrəmanı, Azərbaycanın ilk şəhid jurnalisti Kazımağa Kazımovun xatirəsinə (1 sentyabr 1951, Qubadlı – 15 iyun 1992, Bakı)*

Qəhrəman övladısan elin-obanın,
Ruhun qoy şad olsun, şəhid qardaşım.
Adına layiqsən Nəbi babanın,
Ruhun qoy şad olsun, şəhid qardaşım.

Ucaltdın adını sən bu ellərin,
Əzbəri olmusan şirin dillərin,
Gəncliyə layiqdir xoş əməllərin,
Ruhun qoy şad olsun, şəhid qardaşım.

Qartal oylağıdır daşı, qayası,
Alınmaz qaladır Həcər qalası,
Qubadlının ilk qəhrəman balası,
Ruhun qoy şad olsun, şəhid qardaşım.

Düşmənə gülləsindən axıbdır qanın,
Görünür hökmüdür bu da zamanın,
Əziz balasısan Türk dünyasının,
Ruhun qoy şad olsun, şəhid qardaşım.

Amansız olmusan yağı düşmənə,
Qatillər tuş olub sərrast güllənə,
Şan-şöhrət gətirdin ana Vətənə,
Ruhun qoy şad olsun, şəhid qardaşım.

Sənə halal olsun ananın südü,
Yaxşı götürmüsən ana öyüdü,
Rahat yat, düşmənin axır günüdü,
Ruhun qoy şad olsun, şəhid qardaşım.



***Nuşirəvan ƏSƏDOV***

*Qubadlının Xələc kəndində doğulub.*

## QUBADLIDA

Əzizim, cənnəti gərək görəsən,
Çalış bircə saat qal Qubadlıda.
Qurtarmaq istəsən dərddən, bəladan,
Dağların havasın al Qubadlıda.

Sərvlər cərgə-cərgə göyə ucalır,
Həkəri oxuyur, Bərgüşad çalır.
Çiçəklər rəqs edir, dağlar həz alır,
Baxça dilə gələr lal Qubadlıda.

Çəməndə diqqətlə bax hər yanına,
Çiçək bostanına, gül ormanına.
Çiyələyi boyama öz qanına,
Otu ehtiyatla çal Qubadlıda.

Səngərdən seyr eylə Azərbaycanı,
Dağları, düzləri bax, yaxşı tanı.
Hiyləgər düşməndən gözlə arxanı,
Görsən qisasını al Qubadlıda.

Əzəldən hüsnünə olmuşam mail,
Cənnətə dəyişməm olmaram qail,
Sorsan cavab verər Novruz, İsmayıl,
Neçə rəngdə olur bal Qubadlıda.

Ruhları oxşayır Nazimin səsi,
Fəxrəddin, Elxanın xoş zənguləsi.
Eşitmək istəsən bülbül nəğməsi,
Yerini bağçada sal Qubadlıda.

Bir cüt korifeyidir Süleyman, Əli,
Həcərlə Nəbinin qoşa heykəli.
İrəli çağırır, Sərxan, irəli,
Əvvəl topladığın xal Qubadlıda.

Əgər yolun düşsə bahar çağında,
Qorxunç dərəsində, uca dağında,
Bulaqlar başında, çay qırağında
Bənövşə qoxuyur kol Qubadlıda.

Sübh çağı dur yerdən, geyinmə qalın,
Yaşıl çəmənləri gəz ayaqyalın,
Tamam yaxşılaşar, halın, əhvalın,
Gör neçə loğmandır çöl Qubadlıda.

Eşit, ey yurdumun qoça, çavanı,
Dəyişmə heç nəyə təmiz havanı,
Əgər eşidirsən Nuşirəvanı,
Yaşa Qubadlıda, öl Qubadlıda.



***Hacı Mirhəsən HADİ***

*Qubadlının Qaralar kəndində doğulub.*

**VƏTƏN DÜŞÜB YADIMA**

Dərdin, qəmin içində,
ümidlərim can verir.
İnamların köçündə,
yaralarım qan verir.
Elim, haray deyirəm,
Kimsə çatmır hayıma,
Vətən düşüb yadıma!

Dərdin ağır daşını,
daha ata bilmirəm.
Gözlərimin yaşını,
bilə-bilə silmirəm.
Fələk də qəm gıŋdərir,
ünvanıma, adıma
Vətən düşüb yadıma!

İtik birdi güman min,
haranı duyub gəzim?!
Yaxşı birdi, yaman min,
hansını vurub əzim?!
Ocağımı söndürüb,
su səpirlər oduma,
Vətən düşüb yadıma!

Göyərçinəm, dənsizəm,
nə su , nə dən verən yox.
Vətəndə vətənsizəm,
Mənə vətən verən yox.
Həsrətəm Bərgüşad tək,
Həkəri tək çayıma.
Vətən düşüb yadıma!

Sinəm dolub yenə də,
könül ,dinmək istərəm.
Uşaq olub yenə də,
Qaçıb minmək istərəm
Üzəngisi od-alov,
Yüyəni daş atıma
Vətən düşüb yadıma!



***Vaqif Bayatlı ODƏR***



*Cəbrayılov Vaqif İsib oğlu, 1 oktyabr 1948-ci ildə Cəbrayılın Böyük Mərcanlı kəndində doğulub.*

**Qarabağda İlahinin nəfəsi - Qələbələrin ən şahanəsi**

*Ön söz yerinə*

Qarabağ – bağlar bağı, səslər səsi, sevgilər sevgisi, göylər göyü, ilahilər ilahisi.
İlahidən gələn bir göy yurdudur Qarabağ!
Qarabağ – dünyaya dünyanın ən gözəl səslərini hədiyyə etmiş, yenə də edir.
Tanrının bu səsləri Qarabağa yığmaqda istəyi nə imiş?
Tanrı Qarabağı dünyanın ən gözəl səsinə çevirməklə dünyanı daha da gözəlləşdirmək, daha sevgili, daha üstün yeni bir dünya yaratmaq istəmiş.
Qarabağ – gözəl səslərin dünyanı ən çox sevdirən çiçək səsləri.
Qarabağ – daha gözəl, daha üstün dünya!
Qarabağ – səslərin yer-göy ərazisi – İlahi ərazi.
Biz Qarabağı dünyanın ən gözəl səsinə çevirmişik, indi də özümüz o səsə çevrilirik. Biz dünyada İlahi səsə çevrilən tək millətik, tək xalqıq.
Sənin səsin göylərdədi, göylərdədi, Qarabağ, bütün dünya isə aşağı - lar da. Sənin səsindən çox-çox aşağılarda!

**İlahi qələbələrin ən şahanəsi**

Dünya şahanəlik tarixində
ilk dəfə İlahi döyüşlə bitdi
düşmənin hər cürə bəhanəsi –
cəmisi qırx dörd gün çəkdi,
İlahi Tarixə keçdi
İlahi döyüşlərin,
İlahi uçuşların,
İlahi qələbələrin ən şahanəsi

Tanrım! Tanrım! İlahi!
Tanrım! Tanrım! İlahi!
Bu göyləri bir zamanlar
Göy üzünün son qatından
aşağıya çəkdiyintək
Sən qalxan göyləri də,
Hər an şəhid çiçəyi açan
Şəhidləri də görməyə
bu göyü də aşağı çək.

**Aşk Azərbaycan, eşq Türkiyə**

Bir qılınc eşqdən doğulub,
Ay-ulduzu da göydən alıb,
Göy üzündən də uca olub
Aşk Azərbaycan, eşq Türkiyə.
Min illərə də bir an deyib,
Eşqli qana da əsl qan deyib,
Şəhidə ən eşqli can deyib
Aşk Azərbaycan, eşq Türkiyə.
Ən eşqli ulduzdan alışan,
İki ürək, bir eşq, bir can,
Dünyanın sonsuz sonunacan
Aşk Azərbaycan, eşq Türkiyə.



***Nəriman QASIMOĞLU***

*Qasımzadə Nəriman Qasım oğlu, 26 dekabr 1956, əslən Qubadlının Aşağı Xocamsaxlı kəndindəndir.*

## ŞUŞA - XİTABƏT KÜRSÜSÜ

*Qarabağ döyüşlərinin qəhrəman şəhidlərinə*
*və qazilərinə ithaf*
prelüd, postlüd

Bu da bir taledir payıma düşüb -
Şuşasız günləri yaşamaqdayam,
özüm öz dərdimin hayına düşüb
hüceyrə-hüceyrə aşınmaqdayam.

Ağzım dualıdır, ürəyim dolu,
zillənib gözlərim o uca taxta.
Tanrı dərgahına uzanan yolu
onsuz necə gedim bu qara baxtla?

Baxışı cığıra, yola dikili
Şuşam səni bəklər bozqurdum mənim,
di atıl qabağa cumaq irəli,
itirib səmtini başsız bədənim.

Şuşasız qalmışam mən günüqara,
nə yaxşı susmayır, sızlayır yaram.
Qoymaram ürəyim dönə məzara,
qoymaram bu dərdi ölə basdıram.

Bu yanğı sönməz də köz olub qalar
içimdə, bu dərddir məni isidən.
Şuşa bir xitabət kürsüsü olar,
söylərəm son sözü həmin kürsüdən.

*** ***1993***

***

Közərdi, sönmədi bu dərd, ölmədi
küllənən könlümdə illərdən bəri.
Üfürdün, alışdı, yaxdı zülməti,
ılıq nəfəsinlə açdım səhəri.

İlahi, həmd olsun, danışan məndim,
məndəydi o kürsü, bu mənə şükür.
Ayəti-kürsünə qarışan məndim,
enmişdim Şuşaya, kəlmənə şükür.

Dan yeri nuruna qarışdı haləm,
məsh çəkdi gözlərdə yazılan himnə.
Müdhiş bir mənzərə... zilləndi aləm
hüceyrə-hüceyrə hərflənən mənə.

Yazıydım, duaydım... bilmədim necə
qəfil havalandı söz güllələrim,
durduğum kürsüdə məni müstəcəb
eylədi avtomat zəngulələri.

Nə gözəl söylədim o son sözümü,
Gəldi əks-sədası göylərdən, şükür.
Tanrıya tutmuşam indi üzümü,
O-ndan varlığıma bir hüzur çökür.

****** 2021***



# II BÖLMƏ.

# HEKAYƏLƏR, ESSELƏR



***Azad QARADƏRƏLİ***

*Azad Vəli oğlu Vəliyev 5 mart 1954-cü ildə Zəngilan rayonunun Qaradərə kəndində anadan olub.*

## NOÇUYEV TAKTİKASI

(hekayə)

*Şəhid zabit, Vətən Müharibəsi Qəhrəmanı tabor komandiri kapitan Surxay Noçuyevin əziz xatirəsinə*

Atanın əlləri danışır. Titrəyən barmaqları sızıldasa da, onlara zillənmiş gözləri o sızıltını udur. Mən onun səsini səs kimi deyil, tökülən nahaqq qanın istiliyindən qalxan buğ kimi canıma çəkirəm...

"Uşaq vaxtı o, köynəyinin bütün düymələrini düymələyər, ayaqqabısının bağını tam bağlayar, yatağını özü yığışdırar, yeriyəndə şax yeriyərdi. Hətta oxuduğu məktəbdə də ona "əsgər" deyirmiş yoldaşları. Qaraqabaq, az danışan, sərt baxışları vardı. Oğlum olsa da, sonralar həqiqətən zabit olanda mən özüm də ondan çəkinirdim... Mən elə bilirdim ki..."

(Kövrəlir...) "...elə bilirdim ki, əsgərlərinə qarşı da sərtdir... hərdən görəndə istəyirdim deyəm ki, ay oğul, eşidirəm ki, bəzi zabitlər əsgərlərə qarşı çox sərt olurlar... nə olar əsgər olanda, onun da anası var, çox zilə çıxma... amma... belə deyilmiş... əsgəri çox istəy... bircə buna qulaq asın..."

Telefonunu çıxardıb nəsə axtarır. Boğuq səslə kimsə danışır.

"...əmi, sənin qadanı alım... o, başqa oğlan idi... burda, bilirsən də set yox idi, neçə gün evlə əlaqə saxlaya bilmirdik... bizimlə elə rəftar edirdi ki... nə deyim vallah... cavan yaşında hamımıza ata, böyük qardaş kimi idi... mənə baş leytenant rütbəsi verilmişdi... taborun önündə məni necə təbrik elədi, necə təbrik elədi!.. sonra gözləmədiyim halda qucaqlayıb öpdü məni..."

Səs qırılır. Elə bilirəm, bitdi danışıq... Amma bitməyibmiş... Səs xırıltılı olsa da, özünə gəlib davam edir.

"...həmişə acıqlı olardı... hirsli... bir neçə günə Şuşaya yola düşəcəkdik... Taborun önündə necə çıxış elədi, necə çıxış elədi... barmağını bizə tuşlayıb qəzəblə dedi: "İllərdir biz dünya xalqlarının yanında başı aşağıyıq. 30 ildir torpağımız erməni quldurlarının tapdağındadır! Bir milyondan çox insanımız qaçqın-köçkündür. Mən, qarabağlı olduğuma görə demirəm, bu gün onsuz da hamımız – on milyonluq Azərbaycan türkü də, əlli milyonluq dünya azərbaycanlıları da qarabağlıdır!.. Sizi bilmirəm, hər il 26 fefralda mən bəlkə neçə dəfə ölüb-dirilirəm! Qisas gününü gözləyirəm!.. Biz axı əsgərik, Vətəni dardan qurtara bilərik!.. İndiyə qədər belə bir imkanımız yox idi, amma indi cənab ali baş komandan bu

imkanı bizə yaratdı! Bax, önümüzdə üç yol var: ya şəhid olacaqsan, ya qazi olacaqsan... ya da qalib!.. mən çox istəyirəm ki, hamımız qazi və qalib olaq... amma bilirsiniz ki, bunların ikisindən də uca şəhidlik zirvəsi var! Kimə qismət olacaq, bilmək olmaz... amma sizdən xahiş edirəm, son dərəcə diqqətli olun! Bu həm də əmrdir! Ölmək olmaz! Şuşanı götürmədən heç kimə ölməyə icazə vermirəm!..."

Telefonda səs bir daha kəsilir. Mən yenə elə bilirəm ki, danışıq bitdi. Kişi işarə edir ki, bitməyib. Və bayaqkı səs yenidən özünü toplayıb bu dəfə bir qədər şövqlə davam edir.

"...sonra elə açıq havada, dağın dibində alaqaranlıqda dizimizin üstündə yemək yeməyə başladıq... "möhkəm yeyin" dedi komandir... "bəlkə bu bizim rahat yeyəcəyimiz son yeməyimizdir... bir də Şuşada yeyəcəyik, inşallah... bax, uşaqlar, mən sizin komandirinizəm, amma burada həm də biz sizinlə bir ailə kimiyik... baxın, set də yoxdur ki, evnən danışaq... bu da bəlkə taleyin qismətidir, bizi daha da yaxınlaşdırdı... bir-birimizə həyan etdi... bir: çalışın vurulmayın; iki: vuruldunuz, ən yaxınlığınızdakı yoldaşınıza xəbər verin ki, sizi qoyub getməsin; üç: vurulan yoldaşınızı, yaxud şəhid olan qardaşımızı qəti qoyub getmək olmaz..."

Səs yenə qəfil qırılır. Fikirləşirəm ki, daha bu dəfə qurtardı. Kişi işarə edir ki, yox, hələ var. Tez dillənir: "Doqquz dəqiqədir. Hələ var."

"...əmi, bilmirəm, xəbərin var, ya yox, indi bizim hərb elmində "Noçuyev taktikası" deyilən bir taktika var... biz Füzulidən Zəngilana, ordan Qubadlıya, ordan da Şuşaya qədər döyüş yolu keçəndə yarandı o taktika... taktikanın iki istiqaməti vardı: birincisi, atışın sərrast olmalıdır; çalışıb ilk gülldə düşməni vurmalısan ki, o qayıdıb səni vurmağa macal tapmasın... ikincisi, özünü və ətrafını qorumalısan... yəni şəxsi heyətin bir-birini mühafizə etməsi..."

Kişi telefonun düyməsini basır. Atanın nə hala düşdüyünü görmək üçün üzünə baxmağa cəsarət etmirəm. Danışan "barmaqlar" isə deyir ki, onun hələ deyiləsi çox sözü var.

"Oğlum bu taktikanın ikisinə də son nəfəsində belə əməl edib... Daşaltını alıb sıldırım qayalıqla Şuşaya qalxanda bir yaralını, şəhidi qoyub getməyiblər - əsgərləri, zabit yoldaşları danışırdılar... düşmənin səngərinə girəndə də döyüşçüləri ilə əldə süngü düşmənlə əlbəyaxa öndə döyüşüb. Şuşanın girəcəyində isə bir işıq dirəyinin arxasında daldalanaraq düşmənə aramsız atəş açıb, hücuma keçən əsgərlərini qoruyub... və... elə ... orda da vurulub... Son nəfəsdə də oğlum öz taktikasına əməl edib..."

Kişi bir də düyməni basır. Bayaqkı səs bu dəfə hüznlə davam edir...

"...kanatlarla qalxırdıq dağdan... inanmazsınız, komandir yenə öndə idi... qanımız donmuşdu, ya nə idi, əlimizi, ayağımızı hiss etmirdik... bir onu bilirdik ki, biz Şuşanı almağa gedirik... getdik də, aldıq da... düşmən səngərində əlbəyaxa döyüşdük, bıçaqla, süngü ilə qırdıq onları, 30 ilin qisasını aldıq düşməndən... amma komandirimiz yarıyolda vuruldu, Şuşanın tam azad olunmasını görmədi... müharibənin bitməsinə bir gün, yox, yarım gün qalmış... əmi, sən bir şeyə əmin ol: Surxay komutan şəhidliyi ilə də bizə nümunə oldu... biz hamımız sizin oğlunuzuq, biləsiniz... əmi, biləsən ki, hamımız şəhid olmağa hazır idik...

Polad paşanın yanında dəfn olunmağı kim istəməz ...”

Səs qırıldı və hiss olundu ki, daha danışa bilməyəcək...

Heç mənim də dinləməyə gücüm qalmamışdı. Eşitdiyimi hiss etmirdim. Anlamırdım... Yaxşı ki, ata mövzunu dəyişdi...

“Surxay Naxçivanski adına hərbi məktəbə oxumağa gedəndə mən soruşdum ki, ay oğul, sən özünü hərbçi olmağa hazır bilirsən?”

Uşaq olsa da çox ağıllı cavab vermişdi onda:

“Ata, döyüşçünün gərək qardaşı olsun ki, arxada gözü qalmasın... Allaha şükür, qardaşım var, mən şəhid olsam, o nəslimizi davam etdirəcək... ailəmizə baxacaq...”

...Ata özünü tox tutmağa çalışsa da olmur, səsi qırılır. Elə o qırıq səslə də deyir:

“Bir oğlu, bir qızı qaldı... Təskinliyim o uşaqlardı... Amma... Qızı doğulandan sonra heç üzünü görmədi...”

Qırıq qəlbin qırıq fəryadı duyulur son cümlələrdən. Amma zabit oğlunun bundan xoşlanmayacağını fikirləşirmi, ya qalib şəhidin oğlu oğlduğumu gəlir ağlın... qəddini düzəldir. Səsi də yerinə qayıdır.

“...Vallah çox fəxr eliyirəm oğlumla... Birincisi Zəngilanımızı, Məmmədbəylimizi almışdı taboruynan, ikincisi Qarabağa qanını tökmüşdü... Bu, asan iş deyil e!.. Qarabağın qara sinəsinə qırmızı şəhid qanı çilənməliydi ki, oralara həyat gəlsin... Mən indi ailəmlə ora rahat qayıda biləcəm... Surxayın getdiyi yolla... Vətən sağ olsun...”

***

Özümdə deyiləm. Şəhid zabitin atasıyla söhbət içimi yaralayıb. Sonda “Vətən sağ olsun” sözü məlhəm kimi gəldi, amma yara yaradır. Hələ qanı qurumayan yara...

– Əsgər paltarında bir qaragöz oğlan qapını döydü. Müəllimə heyva gətirmişəm dedi. Tək bircə bu heyvanı verib getmək istəyəirdi, dedim, “a bala, nə heyasıdı belə, sən kimsən, hardan gəlmisən?” Gülümsünüb dedi ki, deyərsiniz bir əsgər gəlmişdi... Zəngilannan... Elə heyva da oranındı... Tağım yoldaşlarım dedilər ki, müəllimə verərsən... – Xanımım bir az heyrət, bir az da fəxrlə mənə baxıb masaya qoyduğu meyvə qabındakı tək heyvanı göstərir...

Bütün günü bu cənnət ətrli heyvanın başına fırlanıram. Əlimlə tumarlayıram. Qoxlayıram. Gözlərimə sürtürəm. Ovqatım xeyli yaxşılaşıb. Gümraham...

Sonra xəbər qonum-qonşuya da çatır və mənimçün yurd ərmağanı olan meyvəni kəsəsi oluruq. On dilim... Ən kiçiyi və sonuncu dilimi mənə düşür

Hamı yeyib “bəh-bəh” desə də, mən yeməmişəm...

Hər gün bir az yan-yörəsi qaralan, böyür-başına burnu qırmızısov nünülər yığılan, amma hələ də ətrini itirməyən o dilimə baxır, baxıram...

O əsgəri isə tanıyan-bilən olmadı. Nə bilim, bəlkə Noçuyevin əsgərlərindən idi?*



***Ayaz İMRANOĞLU***

*Ayaz İmran oğlu Abbasov 12 mart 1959-cu ildə Zəngilan rayonunun Zərnəli kəndində anadan olub.*

## DƏBİLQƏ
*(hekayə)*

Lüks avtobusla yeni salınmış şümşad yolla Qarabağa gedirdik. Qırx dörd nəfər sərnişin idik. Hamımız da şəhid ailələrinin üzvləri. Son dayanacağımız Daşaltı kəndi olacaqdı. Orada əzizlərimizin qanları axıdılıb. Dəqiq bilirdim ki, qardaşımın oğlu noyabrın dördünü, beşini Daşaltıda olmuşdu. Oradan Şuşanın qayalıqlarını dırmaşıb Qalaya daxil olmuşdular.

Avtobusda olanlarımızın hamısı eyni dərdli idik.

***

Əlli-əlli beş yaşlarında qadın qara libasda idi. Başına qara yaylıq bağlasa da yaylığı altından ağ birçəklərindən görünənləri vardı.

– Bağışlayın, yəqin doğmanız həmin əməliyyatda olub? – dedim.

– Hə, qardaş, ərim həlak olub. Gedirəm onun qəbrini axtarmağa. Adı Cümşüddür. İtkinlərin siyahısında olub. İllər sonra bizə gələn döyüşçü dostu dedi ki, həlak oldu. Meyitini çıxara bilmədik. Ona “mərdəkanlı Cümşüd” deyirmişlər.

– Bəs nə bildiniz onları dəfn ediblər? Otuz il keçir həmin hadisədən... - soruşdum.

O, cavab vermədi, dərindən ah çəkdi.

***

Daşaltındaydıq. Hərbi geyimli cavan mayor bizə bələdçilik edirdi. Qırx dörd günlük müharibənin iştirakçısı olub. O, Daşaltıda baş verənləri danışırdı. Şəhidlərin çoxusunu da tanıyırdı.

– Bu ağacın dibində Qələndərli oturub cib bloknotuna qara karandaşla rəsm çəkirdi, - deyib on-on beş addım aralıdakı gər ağacını göstərdi, - Lap “Uzaq sahillərdə” filmindəki Mixaylo necə şəkil çəkir, o da eləcə çəkirdi. Əslən cənub bölgəsindən olan Axundzadə bu yerlərə elə vurulmuşdu ki, müharibədə olduğunu da unutmuşdu. Bax o qızılı qayanı çəkirmiş, - deyib yenə sözünə ara verib sərt qayalığa əlini uzatdı, - Snayperlə başından vurulmuş, qan damcıları çəkdiyi rəsmi ləkələmişdi. Oturduğu yerdəcə başını sinəsinə əyib əbədi yuxuya getmişdi.

Sonra o, əlində olan qərənfil güllərindən iki ədədini ayırıb ağacın dibinə qoyub baş əyib, fatiə surəsini oxudu. Biz də onun kimi fatiə oxuyub salavat çevirdik.

Şəhidin bacısı havalanmış kimi ağacı qucaqlayıb öpməyə başladı:

– Can qardaş, döyüşdən sonra dincəlirdinmi? Yoxsa bu yerləri bizim talış dağlarına oxşadırdın, şəklini çəkirdin? Kürəyini ağaca söykəmişdin ki, qızınasan?

Hüznlü halda ağacın yanından, “Axundzadənin qəbrindən” aralandıq. Bir az da getmişdik ki, mayor dayandı. Nəyisə dəqiqləşdirirmiş kimi saga, sonra da sola baxıb dedi:

– Aha, buradır. Səmədbəyli ağ daşın dibində çöməlib radiostansiya ilə əmr gözləyirdi. Elə həmin vaxt mərmi düşür yaxınlığına. Qəlpə başının yarısını aparmışdı.

Səmədbəylinin babası aramızdan çıxıb ağır addımlarla ağ daşa yaxınlaşdı. Titrək əllərini ağ daşa sürütlədi. Sürtdükcə dodağı altında öz-özüylə danışırdı.

Anidən əyilmiş belini dikəldib əllərini qoşalaşdırıb üzünə sürtdü.

***

Qışın orta ayı olsa da, orda-burda qar vardı. Soyuq günəş içimizi qızdırırdı. Daşaltı faciəsinin anım günü olduğunu dərk edirdik.

Xeyli getmişdik ki, birdən geri çevrilib ağ daşın yanına gəldi.

– Həmin mərmi qəlpəsindən Nadirli də şəhid oldu. Xırda bir qəlpə ürəyini dəlib kürəyindən çıxmışdı. Ayağa durub bir neçə addım atsa da… Çox cəsur döyüşçü idi.

Mayor danışdıqca Nadirlinin anası ağlayırdı. Qadınlar da ona qoşulmuşdu.

Qadın özüylə gətirdiyi yaylığı çantasından çıxarıb əvvəlcə Nadirlinin öldüyü yerə sərdi, sonra yaylığın içinə bir ovuc torpaq yığıb yaylığı düyünçələdi.

– Nişanlısının yaylığıdı. Öldüyü yerə yaylığı sərməsini xahiş etdi. Deyir nişanlısının qoxusu o torpaqda yaşayır. Bir ovuc da torpaq istəyib. Əhd eləyib ki, şəhid nişanlısı kimi qalacaq.

***

Daşaltıya axşam düşmüşdü. Qışın sazağı üz-gözümüzü yaladıqca, üşütmə canımıza yayılırdı.

Mayorun köməkliyi ilə 44 nəfərimizin hər birinə doğması haqqında xəbər “hədiyyə” olunmuşdu. Tək bircə nəfərin isə gözləri hələ də axtarırdı.

Müharibə iki il əvvəl bitsə də hələ də Caviddən heç bir xəbər yox idi. İtkin kimi qeydə almışdılar. Tək onu bilirdilər ki, son dəfə Daşaltıda görüblər. Onun sorağı ilə bura gələn bir vaxtlar tərbiyəçi müəlliməsi olmuş Xalidə xanım korpeşiman geri dönəcəkdi. Axı bura gələndə uşaq evinin balaca sakinlərinə söz vermişdi ki, Caviddən xəbər gətirəcək.

Mayor da Cavid Qələndərli adlı əsgərin olduğunu yadına sala bilmirdi.

– Müəllimə, ola bilsin Cavid Qələndərli Daşaltıda yox, başqa yerdə şəhid olub. Üç minə yaxın şəhidimiz var. Qarabağın hər yeri igid oğullarımızın qanları ilə suvarılıb. Məzarının da olmaması sual yaradır.

– Yox, ay qardaş. Daşaltıda şəhid olduğunu görənlər olub. Yuxuda da burada döyüşdüyünü görmüşəm. Mənim yuxularım gerçək olur. Ona görə bura gəlmişəm.

– Gedirik. Yazda bir də gələcəyik. Onacan döyüş yoldaşlarını tapın. Şəhid olduğu yeri, məzarının harda olduğunu desinlər.

***

Dəstəmiz yola düşmək üçün avtobusa yaxınlaşırdı. Bu vaxt kimsə arxadan bizi səslədi:

– Dayanın dəbilqə tapdım, - deyən bizi müşahidə edən minaaxtaran və əsgərlərdən biri idi.

Eyni anda hamımız geri çevrildik. Əlində tutduğu dəbilqəyə gözlərimiz dikildi.

Əsgərə yaxınlaşıb dəbilqəni ondan istədim. Əsgər dəbilqəni yun əlcəyi ilə silib, təmizlədikdən sonra mənə verdi. Təzə dəbilqə idi. Çünki tünd yaşıl rəndi hələ getməmişdi Demək 44 günlük müharibədən qalmışdı.

– Birdən düşmən dəbilqəsi olar ha, - dedi Səmədbəylinin babası.

Mən dəbilqənin tutacağındakı Azərbaycan bayrağının şəklini gördüyümdən:

– Yox, ay dayı. Bizim əsgərin dəbilqəsi olub. Özü də şəhidindir. Güllə yeri var, - dedim.

Dəbilqəni o üz, bu üzə çevirib içinə baxdım.

– Müəllimə, dediniz şəhidimizin adı Caviddir?

– Hə!.. Hə!.. – deyib göz yaşı içində mənə tərəf cumdu.

Mən dəbilqənin içində bıçaq ya da mismarla yazılmış yazını ona göstərdim. “Şağan. Uşaq evi. Cavid”.

Xalidə müəllimə dəbilqəni quş kimi məndən alıb sinəsinə sıxdı:

– Can!.. Can bala, can!..

Hamı sevinirdi. Dəbilqə əldən-ələ gəzdi.

Mayor üzünü dəbilqəni tapan əsgərə tutdu:

– Dəbilqəni hardan götürdün?

– O xırda təpəcikdən, - deyib əlini yaxınlıqdakı qarla örtülü təpəciyə tuşladı.

– Gəlin o təpəyə dəbilqəni qoyaq. Qərənfil güllərini düzüb baş əyək! – dedi mayor.

Bir azdan qarla örtülü təpəcikdə yaşıl dəbilqə, ətrafında da qırmızı qərənfillər və biz dövrəyə almışdıq.

– Əsil şəhid abidəsidir, - dedi şəhid anası.

***

Avtobus yola düşdü.

Maşının arxa şüşəsindən indicə abidəyə çevirdiyimiz yerə baxırdım.

Ağ təpə, dəbilqə, qərənfil gülləri şəhid Cavidə dönüb bizə gülümsəyirdi.

*21.03.2023*




***Zəhra SƏFƏRALIQIZI***

*Zəhra Səfəralı qızı Məmmədova 4 iyul 1960-cı ildə Zəngilan şəhərində anadan olub.*

## SİRR
*(hekayə)*

– Əmi, uşaqlar səni kəndin içinə qədər ötürsün, yoxsa özün gəzə-gəzə getmək istəyirsən? – hərbi geyimdə olan ucaboy, enlikürək kapitan qayğı dolu qara gözlərini yaşlı kişiyə dikdi.

Qəddi əyilmiş, yaşından çox-çox qoca görünən, nuru öləzimiş, gözlərinə kədər hopmuş kişi dil-ağız etməyə başladı:

– Allah səndən razı olsun, oğul, sözümü yerə salmadın! Məni ölmədən qabaq bu torpaqlara gətirdin.

Kapitan onun sözünü yarımçıq kəsdi:

– Nə ölmək, ay əmi?! O şərəfsizlərin basdırdığı minaları özləri kimi bu torpaqlardan bir təmizləyək, onda görəcəksən ki, bu kənddə neçə toy-bayramda iştirak edəcəksən.

– Ya qismət! – o, pıçıldadı və - sən narahat olma, buraları əlimin içi kimi tanıyıram. O qədər atanla uşaqlıqda qoyun-quzu otarmışıq ki... Hər daşına, ağacına bələdəm, – dərindən ah çəkib, köks ötürdü. – Bir az gəzib-dolaşıb, qayıdacam, – dedi və qapıya tərəf yönəldi. Qapıdan çıxanda duruxdu, sonra geri dönüb:
– Səndən bir xahişim də var, - yalvarışlı baxışları ilə baxdı.

– Buyur, əmi, nə istəyirsən, gözlərim üstə. Bilirsən ki, mən sənin xətrini çox istəyirəm. Təkcə mən yox, yataqxanamızın bütün qaçqın uşaqları səni çox istəyir, – dedi.

– Mənə bir şey olsa, elə buradaca torpağa verərsən, şəhərdə basdırmazsan, – astaca pıçıldadı.

Kapitan yerindən qalxıb, onun yanına gəldi, boynunu qucaqlayıb, alnından öpdü:

– Allah qorusun, əmi! Sənə nə olub ki, lap cavan oğlan kimisən.

O, heç nə demədi. Acı bir təbəssüm üzünə yayıldı. Qayğı və sevgi ilə kapitanın kürəyini əli ilə sığallayıb çıxdı. Kəndin içindən keçib dağılmış və xarabaya çevrilmiş evlərə baxıb:

– İnsanlıqdan nəsibini almayan məxluqlar, Allahın bəlasına gələsiniz! – ermənilərin qarasına qəzəblə söylənə-söylənə meşəyə tərəf getdi.

Meşənin dərinliyinə çatıb, dayandı. Həyəcandan ürəyi tir-tir titrəyirdi. Ayaqları, əlləri əsirdi. Ayaq üstə güclə dururdu. Ətrafa baxdı. Hər yeri kol-kos basmışdı. Həyacanlandı. Axtardığı qoca palıd ağacını görüb, dərindən bir ah çəkdi. Gözləri yaşardı. Xəcalət və əzab dolu qəlbinin çırpıntısı ilə palıd ağacına yaxınlaşıb, dibində diz çökdü. Əlləri ilə üst-üstə qalaqlanan, xəzəl olan yarpaqları, quruyub tökülmüş budaqları təmizlədi. Budaqlar və xəzəl olmuş yarpaqlar o qədər çox idi ki, sanki nə isə gizlədirdilər. Əlləri iri daş parçasına dəyəndə içi sızıldadı. Bu daş ilə qarlı torpağı qazıb, yoldaşını dəfn eləmişdi. Bir an elə bildi ki, həmin günlərdədi...

Sanki həmin gün dünyanın sonu idi. Hər yer zülmət qaranlığa bürünmüşdü. Gecə də öz müdhişliyindən qorxub, qınına çəkilmişdi. Qatı qaranlığıyla çox şeyi gizlədə bilən gecə bu gün gücsüz və bacarıqsız idi. Çarəsiz insanlara yardımçı ola bilmədiyi üçün xəcalət çəkirdi. Qəfil kəndə girən düşmən tanklarının gurultusundan qulaq batırdı. Çox adam ayaqyalın, başı açıq, bir-birindən xəbərsiz hara gəldi qaçırdı. O da on günün gəlini olan, əl-ayağı xınalı yoldaşının əlindən tutub, evdən çıxdı. Tələsik götürdükləri pencəyi və yun şalı qaça-qaça geyindilər. Qışqırıq və fəryadlar silahların ölüm qoxan səslərinə qarışmışdı. Erməni qaniçənləri qarşısına çıxan adamların çoxunu qəddarlıqla öldürür, qız-gəlinləri, uşaqları əsir götürürdülər. Onlar nəfəs almadan meşəyə tərəf qaçdılar. Hər addımbaşı öldürülmüş kənd camaatının meyidləri ilə qarşılaşırdılar. Gördükləri mənzərədən az qala dəli olacaqdılar. Bütün gecəni meşəni dolaşdılar, yol tapıb çıxa bilmədilər. Hər tərəfi erməni cəlladları tutmuşdu. Yaxınlıqdan ermənilərin vəhşi, tükürpədici səsi qadınların fəryadına, uşaqların çığırtısına, işgəncə edilən kişilərin bağırtısına qarışmışdı. Nə edəcəklərini bilmirdilər. Hər ayaq səsindən ürpənirdilər. O qədər meşənin o başına, bu başına qaçmışdılar ki, yorğunluqdan taqətləri kəsilmişdi. Nəfəslərini almaq üçün böyük bir palıd ağacının gövdəsinə söykənib, durdular. Soyuqdan tir-tir əsirdilər. Donmamaq üçün bir-birinə sığınmışdılar. Daha çox onları əsir düşmək ürpədirdi...

Dan yeri sökülürdü. Ətraf aydınlanırdı. Ümidsiz yoldaşına baxdı. Onun gözlərinin yaşı yanağında donmuşdu. Dolu, çəhrayı dodaqları soyuqdan gömgöy olmuşdu. Nə edəcəyini bilmirdi. Amansız şaxta ilə qaniçən ermənilərin arasında qalmışdılar. Yoldaşına baxdıqca ürəyi qan ağlayırdı. Qarşıda onları gözləyən dəhşəti düşündükcə, az qalırdı ürəyi partlasın. Qorxudan və soyuqdan qoynuna sığınan yoldaşının iniltili səsi onun qanını bir az da dondururdu:

– Bizim sonumuzdu, – deyə yoldaşı sızıldadı.

Onu sakitləşdirmək istədi:

– Elə demə, bir yol taparıq, – dediyinə heç özü də inanmadı.

Yoldaşı hıçqıra-hıçqıra ağlayırdı. Buz kəsmiş əlləri ilə onun göz yaşlarını silib, ümidsiz-ümidsiz:

– Bir şey edərik, – dedi və o da səsi çıxmasın deyə əlləri ilə ağzını tutub, hönkürdü.

Xeyli səssiz bir-birini isitmək üçün sarılmış halda palıd ağacına söykənib, durdular. Mehin hərdən gətirdiyi tükürpədici səsləri eşitdikcə ümidləri daha da

ölürdü. Qəfildən yoldaşı ondan aralandı. Başını qaldırıb, palıdın onlara tərəf əyilən budağına baxdı. Cəld başına örtdüyü yun şalın altından boynuna bağladığı qırmızı, uzun şərfi açıb, onun əlinə sıxdı. Bu şərfi ona nişanlı olanda hədiyyə almışdı. Hər zaman boynunda saxlayardı alagöz yarı... Əvvəl yoldaşının nə etmək isdədiyini anlamadı. Sonra bir an niyyətini dərk edib, diksindi, geri çəkilib:
– Olmaz! – deyə bağırdı.

– Başqa yolumuz yoxdu, bizi də bir azdan tapacaqlar, - yenə ağladı. Gözlərini yerə dikib:

– Ya ölməliyəm, ya da o alçaq qaniçənlərin əllərinə əsir düşüb… – sözünün ardını gətirmədi, yanağından süzülən gözlərinin yaşını sildi.

O:

– İlahi, bu, nə yazıdı! – deyib, fəryad elədi.

Hərdən yaxınlıqdan ayaqlanan qarın xışıltısı gəlirdi. O, şərfı ağacın budağına necə bağladığını, yoldaşının ayaqlarını qucaqlayıb, yuxarı necə qaldırdığını xatırlamadı. İniltili bir səs eşitdi:

– Ayaqlarımı burax.

Qəfldən nə etdiyini elə bil dərk elədi:

– Buraxmam, buraxmam, ilgəyi boğazından çıxar, yalvarıram, məni buna vardar etmə... – deyə fəryad etdi. Küləyin gətirdiyi dəhşətli bir bağırtı onun qollarını boşaltdı…

Ermənilər onu tapıb, döyə-döyə götürəndən sonra bir müddət əsirlikdə qaldı. Məşəqqətli işgəncələrə baxmayaraq şikəst qalsa da, ölmədi. Erməni əsirləri ilə dəyişdiriləndən sonra misgin bir yataqxananın balaca otağında alagözünə qovuşmaq üçün günlərini saydı. Sinəsində otuz ildən bəri gəzdirdiyi, hər gün günahkarcasına, xəcalətlə qoxladığı o qırmızı şərfi açıb, daşa bağladı. Sonra başını daşa söykəyib, honkür-hönkür ağladı və ona elə gəldi ki, daşın yanından bir cüt dupduru, sevgi dolu göz baxır...





**Tarverdi ABBASOV**

*Tarverdi Müzəffər oğlu Abbasov 3 aprel 1953-cü ildə Zəngilan rayonunun Muğanlı kəndndə anadan olub.*

## YARADANIMIZIN BƏXŞ ETDİYİ DƏMİR YUMRUQ
*(esse)*

...2018-ci il. Tək-tənha İran İslam Respublikasına yola düşdüm. Torpaqlarımız hələ də yağı düşmən tapdağında idi. "Atəşkəs" olsa da ara-sıra ermənilər postlarımıza atəş açırdılar.

Gecələr üzü Zəngilana doğru yatsam da, rahatlıq tapmırdım. Torpaq həsrəti içimi göynədirdi. Anadan olduğum Zəngilan rayonunun Muğanlı kəndi Araz çayının sağ sahilində yerləşirdi.

Son vaxtlar nəsə özümü yaxşı hiss etmirdim. Tez-tez xəstələnirdim. Dünya vəfasız dünyadır düşünüb, İran İslam Respublikası ərazisindən doğulub boya-başa çatdığım və düşmənin tapdağında olan doğma yurda uzaqdan da olsa baxmaq qərarına gəlmişdim. Arazın sol sahilindəki İran İslam Respublikasına aid azərbaycanlılar yaşayan Toyəli kəndi doğma Muğanlı kəndi ilə qarşı-qarşıya idi. Gedib oradan doğma torpağımı, kəndimi, öz əllərimlə min bir əziyyətlə inşa etdirdiyim evimin xarabalıqlarına da baxmaqla təskinlik tapmaq istəyirdim.

***

– Babam, istədiyiniz Toyəli kəndi buradır. Düşün.

O tay Biləsuvardan məni bura gətirən taksi sürücüsü maşını saxlayan kimi yerə düşdüm. Sürücünün pulunu verən kimi o, geri dönüb gözdən itdi.

Araz çayına doğru üz tutdum. İri addımlarla oraya çatdım. Sakit-sakit axan suya baxdım. Gözümü qaldırıb qarşı tərəfdəki dağıdılıb viranəyə çevrilmiş kəndimizə baxdım. Qəhər məni boğdu. Quruyub yerimdə qaldım.

Sifətim aşağı axan göz yaşı damcıları quruduqca yanağımı acışdırırdı. Çöməlib oturdum. Üzümə su vurmaq istədim. Əlim Arazın suyuna dəyən kimi canımdan bir gizilti keçdi, elə bildim tok məni vurdu. İndi kəndimizi daha aydın görürdüm, elə bil gözlərimə nur gəlmişdi. Başa düşdüm ki, Araz dastanlarda deyildiyi kimi ayıran deyil, qovuşduran çay imiş. Belə doğmalığı birinci dəfəydi hiss edirdim.

***

Çaydan aralandıqca tez-tez dönüb geriyə baxırdım. İki məsələ məni daha çox narahat edirdi. Bu ermənilər niyə bu qədər vəhşidirlər. Evləri də xarabalığa çeviriblər. Bizim ərazilərdə də bütün yaşıllıqlara qənim kəsiliblər. Hətta ağaclar da

məhv edilib. Həyatimdə əkdiyim nəhəng ağaclardan bircəciyi də qalmayıb. Kökündən məhv ediblər. Onlar düşünürlər ki, bir iz qoymayaq qalsın. Onda elə isə məni başqa ikinci məsələ narahat edirdi.

Onlar tarixi oxumurlarmı? Ümumiyyətlə, tarix dərsləri tədris olunmurmu? Yəqin tarix kitabları çap da olunmur. Yoxsa, oxuyub qanardılar ki, bu torpaqların əzəli sahibləri var. Gələcəkdə də torpaq sahibləri torpaqlarına sahib çıxa bilərlər. Necə ki, 44 günlük müharibədə çıxdılar!

Ay – hay ola bilərmi? – Heç vaxt! Çünki tarix özü hər şeyi hər yerdə həkk edir. Lazım olanda "güzgüyə" dönür, haqqı göstərir.

***

Həmişə haqqın tərəfində olan Yaradan bizə güclü Dəmir Yumruq bəxş etdi. Millətimizi, ölkəmizin yağı düşmən ayaqları altında qalmış torpaqlarımız dəmir yumruqla azad edildi.

Dəmir Yumruq öz işini layiqincə görəndən sonra mən də sağaldım. Çünki torpaqlarımıza İran İslam Respublikası ərazisindən yox, eləcə öz el-obamızdan baxa bilirəm. Orada arxayın gəzə bilirəm. Çünki dəmir yumruq əbədidir. Düşmən nə vaxt təxribata əl ata bilsə, o öz işində olacaq. İndi isə öz torpaqlarımızda yaşamağı düşünürəm. Hələ ölmək vaxtı deyil. Dünyaya gəldiyim yerlərdə hələ ömür sürmək marağındayam.

*20.10.2023*





***Çərkəz NƏSİRLİ***

*Çərkəz Cəlal oğlu Nəsirli 15 iyun 1949-cu ildə Zəngilan rayonunun Keçikli kəndində anadan olub.*

## QIRX DÖRDÜNCÜ ZƏNGİN SAHİBİ
*(esse)*

İşimlə əlaqədar bir şirkətə getmişdim. İçəri daxil oldum, salam verdim, hamı mənim salamımı səssiz cavablandırdı. İşçilərdən biri pıçıltı ilə "Müəllim, indi Ali Baş Komandanımız xalqa müraciət edəcək və yeni xəbərlər açıqlayacaq. Ona görə də hamımız sükut içərisində və intizarla xəbərləri gözləyirik", dedi.

Bu o vaxtlar idi ki, mənfur qonşumuz ermənilər xaincəsinə yenidən torpaqlarımızda təxribat törədərək hücuma keçmişdilər. Ali Baş Komandanımız təxribatın qarşısını almaq üçün əks əməliyyat başlatmışdır. Əməliyyat nəticəsində işğal olunmuş torpaqlarımızın bir hissəsini azad etmişdilər. Döyüşlər bütün cəbhə boyu davam edirdi. Düzdür, itkilərimiz olsa da, cəsur döyüşçülərimiz çox əzmlə vuruşurdular. İçəridəki bu sükut da onunla əlaqədar idi. Hamı diqqətlə gözünü televizora dikmiş, xəbərlərin başlamasını çox səbirsizliklə gözləyirdilər. Burda məni çox yaxşı tanıyan Kənan müəllim üzünü mənə tutaraq yavaş səslə söylədi: "Müəllim, döyüşlər sizin rayon ərazisində gedir, xəbəriniz var? Sizin rayon mərkəzi ətrafında".

Mən də eyni yavaş səslə ona cavab verdim: "Tezdən xəbərlərə qulaq asmışam. Maşallah, cəsur igidlərimiz Cəbrayıl rayonunun kəndlərini azad ediblər". Döyüşlər Araz boyu davam edirdi. Hələlik televizorda səs yox idi, aparıcı danışmırdı, hamı çox intizar içində gözlərini televizora dikmişdi. Kənan müəllim yenə yavaş səslə mənə bildirdi: "Sən axırıncı xəbəri eşitməmisən. Artıq məhşur Xudafərin körpüsü və yeni salınmış Araz üzərindəki bənd də azad edilib. Bizim ordumuzun igid döyüşçüləri çox cəsarətlə vuruşur, işğal olunmuş ərazilərimizi bir-bir azad edərək irəliyə gedirlər. Mənfur erməni dığaları dovşan kimi qaçırlar. Özü də bütün silahlarını, ağır texnikalarını tərk edib özlərini ölümdən qurtarmaq üçün ərazilərimizi tərk edirlər. Bilirsənmi onların ordusunda nə qədər itki var?!

Elə bu vaxt televizorun ekranında Ali Baş Komandan göründü. Qeyri-ixtiyari hamı bir nəfər kimi ayağa qalxdı. Burda 15-20 nəfər adam olardı, ancaq elə sakitçilik yaranmışdı ki, inanın milçək uçsa idi, onun səsi buranı başına götürərdi.

Ali Baş Komandan sözə başladı: *"Mən bu gün yenidən sizə şad xəbər vermək üçün özümü çox xoşbəxt hiss edirəm. Artıq cəsur əsgərlərimiz Zəngilan rayon mərkəzini və bir neçə kəndini mənfur düşməndən təmizləyib. İndi bizim üçrəngli bayrağımız azad olan Zəngilan şəhərində dalğalanır"*. Bu zaman elə bir gurultu

qopdu ki, içəridə olan adamların sevincinin həddi-hüdudu bilinmədi. Hər kəs mənə baxırdı, gözləri ilə məni təbrik edirdilər. Artıq mən həyəcanımdan Ali Baş Komandanımızın son dediklərini eşitmirdim. O qədər sevindim ki, bu yaşımda az qala qolumu qaldırıb oynamaq istədim. Elə oynadım da. Hami məni təbrik edir, göz aydınlığı verirdi. Üstümdə olan əl telefonum susmurdu, zənglər gəlir bir-bir açırdım, hamı məni təbrik edirdi. Lənkərandan, Gəncədən, Daşkəsəndən, Salyandan dostlarim zəng edirdi. Zəngin arası kəsilmirdi. Şəhərdə yaşayan dostlarım mənə göz aydınlığı verirdilər.

Bir xeyli vaxt olardı ki, telefonla gələn zənglərə cavab verirdim. Tərləmişdim. Səsim də kallaşırdı. Deyirdim, nə olar, zənglər ara verərdi, bircə qurtum su içib boğazımı yaşlayardım. Elə bil səsimi operator eşitdi. Telefonu yerə qoyub su götürmək istəyirdim ki, daha bir zəng gəldi. Ekrana baxdım, həyat yoldaşım idi, buna mütləq cavab verməliydim.

“Hardasan? Bir saatdı zəng vururam, məşğul göstərir, düşə bilmirəm”. Vəziyyəti izah etdim. Sonra həqiqətən operator səsimi eşitdi, daha zəng gəlmədi. Su içib telefonu götürdüm. Gələn zənglərin sayını müəyyənləşdirmək keçdi könlümdən. Baxdım ki, 44 zəng qeydə alınıb. İşin sehrinə bax – 44 günə qələbə və bu sevinci yaşadan 44 zəng. Ən əsası da 44-cü zəngin sahibinin kim olması…Mən özümü heç vaxt bu qədər xoşbəxt hiss etməmişdim. Ümumiyyətlə, demək olar ki, son otuz ildə belə sevinməmişdim. Nə deyim axı, digər həmyerlilərim kimi dogma torpaq həsrəti mənə o qədər təsir etmişdi ki, bunu sözlə ifadə etmək mümkün deyil. Bu xəbəri eşitmədən neçə-neçə dostlarım, qohumlarım, əzizlərim əbədiyyətə qovuşub. Yəqin ki, indi onların da ruhları şad olar.

*20.10.2020, Bakı şəhəri*





***Vüsalə CƏFƏROVA***

*Vüsalə Bayram qızı Cəfərova 29 iyun 1970-ci ildə Zəngilan rayonunun Hacallı kəndində anadan olub.*

## MEHDİNİN YARIMÇIQ QALMIŞ ARZULARI
(esse)

Mehdi 1995-ci il Tərtər rayonunun Sarcallı kəndində anadan olmuşdur. Ailədə bir qardaş, bir bacı idilər. Bacısı Arzu özündən bir yaş balaca idi. Mehdinin iki yaşı olanda atası uşaqlarını anası Laləzar xanımın himayəsinə qoyub, işləmək adı ilə Rusiyaya yollanmışdı. Elə o gündən iki azyaşlı uşağa baxmağa çətinlik çəkən Laləzar xanım uşaqlarını da götürüb, öz ata ocağına qayıdır. Ata-anasının köməyi ilə uşaqların bütün ehtiyaclarını ödəyir, əl-ələ verib uşaqları böyütmək üçün əllərindən gələni edirlər ki, uşaqlar atasızlığı hiss etməsinlər.

Məktəb yaşları çatanda Laləzar xanım uşaqlarını Sarcallı kənd orta məktəbinə yazdırır. Uşaqlar orta məktəbi bitirənə qədər Laləzar xanım övladları ilə birgə on səkkiz il ata-ana himayəsində yaşayırlar. Sonra nənəsi Mehdiyə öz məhlələrindən torpaq sahəsi hədiyyə edir. Onlar köməkləşib birotaqlı ev tikib, bu, birotaqlı evə köçürlər. Onların evi birotaqlı olmağına baxmayaraq, burada Laləzar xanım övladları ilə özünü çox xoşbəxt hiss edir. Qohum-əqrəbə, qardaş-bacı üçün bu bir otaq sanki ata-ana yurduna çevrilir. Tez-tez qonaq gəlir, süfrə başına yığışıb deyib-gülür, şirin-şirin söhbət edərdilər.

Onlar o qədər xoşbəxt idilər ki, günlərin necə tez gəlib keçdiyinin fərqinə varmadılar. Mehdi artıq məktəbi bitirmək üzrə idi. Son zamanlar məktəbə getməyə belə həvəsi yox idi. Fikirləşirdi ki, məktəbi bitirən kimi işə düzəlib işləsin və ana-bacısına dayaq olsun. Amma Mehdi düşündüyü kimi olmadı. Orta məktəbi bitirən kimi hərbi komisarlıqdan çağırış gəldi. Mehdini həkimlərdən keçmək üçün tibbi müayinəyə göndərdilər. Tibbi müayinədən keçdikdən sonra hərbi xidmətə yararlı olduğu qeydə alındı. Növbəti çağırışda artıq hərbi xidmətə yola düşdüyü tarix müəyyənləşdi. Laləzar xanım oğlunun tez bir zamanda hərbi xidmətə gedəcəyini öyrəndikdən sonra yaxınlarını çağırıb, yeni yığışdığı evində qonaqlıq verdi. Gələn qonaqlar süfrə başında əyləşib, ləziz yeməklərdən yeyib, deyib güldülər, xeyli söhbət edib, Mehdinin hərbi xidmətini sağ-salamat başa vurub gəlməsi üçün xeyir-dua verdilər.

2013-cü il noyabr ayında Mehdi hərbi xidmətə yollanır. Bir neçə gün sonra anasına zəng edib Naxçıvan Muxtar Respublikasında xidmət etdiyini bildirir.

Laləzar xanım ilk dəfə oğlundan ayrı qaldığı üçün çox darıxırdı. Gecə-gündüz oğlunu düşünürdü.

– Görəsən, oğlum nə yedi, nə içdi, üşüdümü?

Bu fikirlər, düşüncələr ananı rahat buraxmırdı. Beləcə, Mehdi məzuniyyətə gəlmədən bir il altı ayını başa vurub evlərinə döndü.

Mehdi xidmət etdiyi hərbi hissədə o qədər gözəl ad qazanmışdı ki, onun evə gəlməsinə heç kim razı deyildi. Hətda, komandiri ona təklif etmişdi ki, qal, hərbi hissədə səni işlə, evlə də təmin edəcəyik. O, isə bildirmişdir ki, gedib anama, bacıma baş çəkib mütləq qayıdacağam.

Mehdinin gəlişini anası, bacısı və bütün yaxınları sevinclə qarşıladı. Ana oğlunu görəndə sanki böyüdüyünü görüb, boynuna sarıldı və dedi:

– Maşallah, böyüyüyüb pəhləvan kimi olmusan. Çox şükür, sağ-salamat gəlib çıxdın. Daha arxasız, köməksiz qalmarıq.

Mehdi o qədər ağıllı, düşüncəli, mərhəmətli, Vətəninə, ailəsinə bağlı biri idi ki, anası onunla qürur duyurdu.

Mehdi gəldikdən bir müddət sonra bacısına elçi gəlir, nişanlanır. Bacısının toyuna az qalmış Mehdi anası ilə köməkləşib bacısına imkanları çatdığı qədər cehizlərini alıb hazırlayır və bacısını gəlin köçürür.

Bacısını köçürdükdən sonra anasına bildirir ki, mən artıq işləmək üçün Naxçıvana hərbi hissəyə qayıdacam və orada qalıb işləyəcəm. Ana ağlayıb yalvarır ki, məni tək qoyub getmə, burda iş tapıb işləyərsən, bizə dayaq olarsan.

Mehdi deyir:

– Narahat olma, ana, məni işlə, evlə təmin edəcəklər, gəlib səni də aparacağam.

Mehdi tez-tez komandiri ilə əlaqə saxlayıb danışır, tezliklə gələcəyini söyləyirdi. Laləzar xanım tez-tez oğlunu dilə tutur və deyir:

– Oğlum, biz getsək, bəs bacına kim baş çəkəcək? Arxasız, köməksiz qalmazmı?

Anasının dedikləri Mehdinin ağlına batsa da, o yenə qarşısına qoyduğu məqsədinə çatmağına can atırdı.

Artıq bir neçə müddət keçmişdi ki, sentyabrın iyirmi birində səhər saat beş-altı radələrində Mehdinin telefonuna zəng gəlir. Mehdi yatağından tez ayağa qalxıb telefonu götürüb danışmağa başlayır. Ana da telefon səsinə oyanıb təlaş içində ayağa qalxır.

– Kimdir, oğlum?

Telfonda qarşı tərəfin səsi açıq-aydın eşidilirdi.

– Mehdi Məmmədovdur?

– Bəli.

– Məmmədov, hərbi biletini də götür, hazır ol, hərbi komisarlıqdan gəlib sizi götürəcəklər, bura gələrsiz.

Mehdi anası eşitməsin deyə tez həyətə çıxıb, "yaxşı gələrəm", deyib telefonun düyməsini basıb danışığı yekunlaşdırdı, yenidən evə qayıtdı.

Ana yenə sual verdi.

– Kim idi, oğlum?

– Narahat olma, ana, hərbi komisarlıqdan çağırdılar.

Ana telfonda gələn səsləri eşitdiyini oğluna bildirmədi.

Səhər açıldı. Hava işıqlandı. Mehdi bacısıgilə getdi. Mehdinin bacısı həmin məhəllədə, yaxınlıqda yaşayırdı. Bacısı ilə hal-əhval tutub bir stəkan su istədi. Bacısı Arzu mətbəxə keçib su gətirdi. Mehdi suyu alıb içdi, bacısı ilə sağollaşıb həyətə düşdü. Arzugilin həyətində kiçik bir mağazaları vardı. Mehdi mağazaya girib Arzunun qaynından bir alışqan, bir siqaret götürdü. Tapşırdı ki, hazırlaş, hərbi komisarlıqdan gəlib bizi aparacaqlar. Mənsə gedib anamı bir yerə göndərim, biz gedəndə görməsin, yoxsa narahat olacaq.

Mehdi bunu deyib evə getdi. O, heç vaxt anasına yalan danışmamışdı. Amma bu dəfə anasının üzülməməsi üçün necə yalan danışacağı üçün yol boyu düşündü.

Evdə anasına üzünü tutub dedi:

– Ana, həyətdə işləyən fəhlə uşaqlara zəng edirəm, telefona cavab vermirlər. Get, onlardan kimi görsən, tapşır, denən Mehdi sizi çağırır.

Ana gedirdi, amma ürəyində bir şübhə yaranırdı sanki... Gedə-gedə yol boyu bir gözü arxada qalmışdı, cönüb tez-tez arxaya baxırdı. Küçənin başına çatanda yenə çönüb arxaya baxanda gördü ki, küçə qapısında bir ağ avtomobil dayanıb. Ana təlaş içində geri qayıtdı. Küçə qapısına çatana qədər Mehdi tez avtomobilə əyləşdi. Maşın gəlib Laləzar xanımın yaxınlığında saxlatdı. Kəndin Sovet Sədri başını pəncərədən çıxarıb dedi:

– Xanım, narahat olmayın, oğlunuz hərbi komisarlığa gedib, qeydiyyat üçün ərizə yazıb gəlir.

Ana onlara inanmadı, ürəyi çırpınmağa başladı.

Elə həmin gün Mehdini birbaş cəbhə bölgəsinə aparırlar. Hər gün anasına zəng edib, anası ilə danışır ki, anası narahat olmasın. Oktyabrın ikisi Mehdidən zəng gəlmir. Ana narahat olmağa başlayır. O gecə gözünə yuxu getmir.

Oktyabrın üçü Mehdidən zəng gəlir. Anası oğlunun səsini eşidib ağlaya-ağlaya deyir:

– Dünən niyə zəng eləmədin, bilmirsən ki, narahatam?

– Ay ana, telefona icazə verilmir. Həm də mən kimdənsə telefon tapıb danışanda, bütün əsgərlərin gözü telefonda qalır, hər kəs telefona boylanır, onlar da öz ailəsi ilə danışmaq istəyir. Ona görə hər gün səninlə danışa bilmirəm. Ola bilər tez-tez danışa bilmədim. Məndən nigaran qalma. Əgər mənə bir şey olarsa, bacım Arzunun əlini-əlindən qoparma.

Ana Mehdinin bu sözlərinə dözməyib ağlayıb deyir:

– Mən nə Arzunu istiyirəm, nə də heç kimi. Sənə bir şey olarsa, mən də ölərəm, yaşamaram.

Oktyabrın dördü olur, beşi olur, Mehdidən zəng gəlmir. Ana narahat olaraq yaxınlarına xəbər verir. Doqquzuncu gün axtarışdan sonra Mehdinin cəsədi tapılır.

Ana oğlu ilə son danışığında "sənə bir şey olarsa, mən də ölərəm, yaşamaram", demişdi.

Doğrudur, ana oğlundan sonra yaşasa da, sanki Mehdisiz onun qol-qanadı qırılıb yanına düşdü. Həyatı zülmət gecəyə döndü. Ağlamaqdan gözlərinin yaşı

qurudu. Ruhu öldü, həyat eşqi söndü. Bir sözlə Mehdisiz yaşamaq, bir şəhid anasına ölümdən betər oldu. Tək təsəllisi oğlunun məzar daşı və Şəhidlik zirvəsinə ucalması oldu.

Qapanmışam sənsiz öz otağıma,
Girə bilmirəm soyuq yatağıma.
Hardasan, oğlum, yetiş harayıma,
Qurban olum, məni apar yanına.
Qollarımı gəl, dolayım boynuna,
Ruhum ölüb, can ver mənim canıma.
Niyə acımırsan mənim halıma?
Gəl, nə olar, apar məni yanına.
Getmə dedim, eşitmədin sözümü,
"Vətən" deyib qurban verdin özünü.
Ağlamaqdan laxta tutub gözümü,
Anan qurban, məni apar yanına.
Sən gedəndən deyib-gülə bilmirəm,
Sənsiz bu dünyanı axı neynirəm?
Nəfəsim tükənib artıq ölürəm,
Gəl, çiynində məni apar yanına.

Sən demə, oktyabrın dördü Azərbaycan ordusunun hərbi qulluqçusu Mehdi Məmmədov, Azərbaycanın Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün 44 gün sürən Vətən müharibəsi (ll Qarabağ müharibəsi) zamanı öncə Ağdam, sonra isə Suqovuşan, Talış kəndi istiqamətində gedən qızğın döyüşlərdə iştirak edərək, düşmən üzərinə hücuma keçərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməlyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezdenti cənab İlham Əliyevin sərəncamlarına əsasən Mehdi Məmmədov ölümündən sonra "Vətən Uğrunda","Suqovuşanın azad olunmasına görə", "Ağdam uğrunda", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Mehdi Məmmədovu son mənzilə yola salmaq üçün bütün kənd camaatı və Dövlət qurumları tərəfindən vida mərasimi təşkil edilmişdir.

Vida mərasimində şəhidin doğmaları, kənd sakinləri, Dövlət Sərhəd Xidmətinin nümayəndələri, Tərtər Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Hərbi Xidmətə çağrış üzrə Dövlət Xidmətinin Tərtər Rayon şöbələrinin əməkdaşları, İctimai nümayəndələr, şəhid ailələri, qazilər və müharibə vetiranları iştirak etmişdir.

Vida mərasiminin sonunda Şəhidin tabutuna bükülmüş üçrəngli Azərbaycan bayrağı Laləzar xanıma təqdim edilmişdir. Laləzar xanım bayrağı öpüb gözləri üsünə qoyaraq demişdir:

– VƏTƏN SAĞ OLSUN!

Mehdinin əziz xatirəsi daima qəlbimizdə yaşayacaqdır.



***Əliağa CƏFƏROV***

*Əliağa Qafar oğlu Cəfərov 1954-cü il mayın 16-da Qubadlı rayonunun Əliquluuşağı kəndində doğulub.*

## QEYRƏT

Nahar edib bir az da dincəlmək üçün maşınları yol kənarında, ağacların əhatəsindəki çayxanada saxladıq. Burada bizdən başqa da uzaq yola maşın sürən sürücülər var idi. Hərə bir tərəfdə əyləşib ya nahar edir, ya da maraqlı söhbətlərlə vaxtlarını keçirirdilər.

Çoxdan görmədiyim sürücü dostumla da məhz burada rastlaşdım. Hal-əhval tutandan və hərəmiz nahara bir piti yeyəndən sonra ofisiantdan çay istədik, limonlu çay gətirib masaya qoydu. Dostum bir neçə il bundan əvvəl şahidi olduğu bir tarixçəni danışmağa başladı.

...Öz yük maşınımda cəbhəyə ərzaq aparmışdım. Qarabağda ağır döyüşlər gedirdi. Bərdədən Gəncəyə qayıdırdım. Yevlaxı yenicə keçmişdim ki, çınqıllı yolla addımlayan bir qadın gördüm. Bu qadın köhnə əski parçasına bükülmüş bir əşya aparırdı. Uzaqdan bunun nə olduğunu təyin etmək çətin idi. Qara nimdaş paltar geyinmiş bu arıq və hündürboylu qadın iri və möhkəm addımlarla irəliləyirdi. Onun əlli-altmış yaşı olardı, cəld, inamlı addımlarla tez-tez yeriməsi mənim diqqətimi çəkdi. Haraya getdiyini öyrənmək və ona öz köməkliyimi təklif etmək üçün maşını saxladım. Günün qızmar çağı idi.

– Hara gedirsan, ana, gəl səni aparım.

– Yox, oğlum, sağ ol. Mən Gəncəyə gedirəm.

– Gəncəyə piyada gedirsən?

– Bəli...

Onun qarayanız şərt sifəti sakit görünürdü, səsi güclü və inamlı idi.

– San haradan gəlirsən?

– Ağdərədən.

Ağdərədən Gəncəyə təxminən yüz kilometr məsafə vardı. O isə bunu elə sakit dedi ki, sanki qonşu kəndə gedirdi. Əlindəki əskiyə bükülmüş uzun əşyanın bir tərəfini yerə qoyub güclü əlləri ilə digər ucundan yapışıb saxladı. Mən ondan Gəncəyə kimin yanına getdiyini soruşdum. O, əlinin arxası ilə alnındakı tər damlalarına qarışmış tozu silərək:

– Hüseynin yanına, oğlum Hüseynin.

– Müharibənin bu ağır günlərində o Gəncədə nə iş görür? Bütün gənclər indi cəbhədədir...

– O da cəbhədə vuruşurdu, ağır yaralandı, müalicə üçün Gəncəyə gətiriblər, bağırsağından xeyli kəsib götürüblar. Yaraları sağalmayıb, deyirlər ona tikinti idarəsində oturaq iş veriblər. Ancaq mən bilmirəm bu idarə harada yerləşir. Gəncədə heç vaxt olmamışam, heç Ağdərədən kənara çıxmamışam.

Sakit və qərarlılığı ilə çox güclü təsir bağışlamış bu yaşlı qadınla daha çox söhbət etmək, danışmaq istəyirdim. Maşından düşüb günəşin yandırıcı istisindən gizlənmək üçün yaxınlıqdakı ağacın kölgəsinə tərəf yönəldim, o da arxamca gəldi.

– Bu Hüseyn üçündür? - əlində saxladığı uzun əşyaya işarə etdim.

– Hə bu tüfəngdir, onun qardaşı Həsənindir.

O köhnə əski parçasındakı bükülünü açmağa başladı. Parçanın arasından təzə tüfəngin parıltısı gözlərimi qamaşdırdı. Tüfəngi mənə göstərib qayğı ilə yenidən bükdü və üstündən iplə möhkəmcə sarıdı. Mən diqqətlə onun hərəkətlərini izləyirdim, o da öz növbəsində qarşısındakı adamın kimliyini öyrənmək istəyirdi.

– Gəncədən gəlirsən?

– Cəbhəyə ərzaq aparmışdım. Yolüstü özümüzünkülərə baş çəkib qayıdacağam. Əgər istəsən geri qaydanda səni də götürərəm. Gəncə böyük şəhərdi, orada oğlun Hüseyni tapmaq sənə bir o qədər də asan olmayacaq. Sənin üçün əlində ağır yük həm də payi-piyada bu uzaq yolu getmək çətin olacaq.

– Allah köməyin olsun, oğul! Gəncəyə kimi gedib çatmağa da, oradan geri dönməyə də qüdrətim, gücüm çatar, bu əlimdəki tüfəngin isə elə bir ağırlığı yoxdur, onu uşaq da apara bilər.

Onun gözlərinin dərinliklərində qığılcımların oynadığını gördüm, ancaq o təmkinini pozmadan sakitcə davam etdi:

– Həsən balam düşmənlə cin kimi vuruşurdu. Kənddə kiçik bir dükanımız vardı, oranı bağlayıb döyüşə getmişdi. Onların atası rəhmətə gedəndə Həsənin bir yaşı vardı, Hüseyninsə dörd. Onları təkbaşına böyütmüşəm. Atasız iki uşağı böyütməyin nə demək olduğunu ancaq yetim böyüdənlər bilər. Həsən cəbhədə döyüşən zaman Hüseyn bu kiçik mağazanı işlədir, bir təhər dolanırdıq.Uşaqlarımın hər ikisindan razıyam, mən onları cəsur, qoçaq, vətənini sevən tərbiyə etmişəm. Hamı onların qorxmazlığından danışırdı. Həsən aslan kimi döyüşürdü. Düşmən gülləələri ilə vurulanda qonşu qaçaraq gəlib dedi ki, sənin oğlun küçədə əlində silah vurulub qan içində qalıb.

Səsində həyəcan artdı, qəhərləndi. Bir az ara verib davam etdi:

– Göydən yağış kimi yağan güllələrin altında onu axtarmağa qaçdım, hara getdim, gördüm deyən olmadı, orada çünki hərənin başı özünə qarışmışdı. Düşmən şəhərin üzərinə dörd tərəfdən od ələyirdi. Bizimkilərin əlində ov tüfəngindən başqa bir silah yox idi.

Həsənimi al-qan içində tapdım, məni tanıdı, gözlərini açıb dedi: “mənim tüfəngimi götür, ana”. Onu çiynimə qaldırdım, silahını da götürüb evə gətirdim. Bax bunu görürsən, bu Həsənin qanıdır. O arıq barmaqları ilə əynindəki qat-qat tumanın bir qırağını qaldırdı və qırmızı qan ləkəsini göstərdi, qan ləkəsini oğlu Hüseynə göstərmək üçün yamamışdı. O üstdən geyindiyi bahalı geyimi çıxarıb

qardaşının qanına batmış paltarını Hüseynə göstərəcəkdi ki, onun qardaşında intiqam hissini daha da gücləndirsin. Aşağı sürüşmüş paltarını günəşdən qaralmış bir dəri, bir sümük olan sinəsindən boğazınadək çəkib davam etdi.

– Həsən qucağımda can verdi, son nəfəsində mənə and içdirdi ki, onun silahını qardaşına çatdırım. Mən onun cəsədini qonşuların köməyi ilə elə həyətimizdə dəfn etdim, çünki qəbiristanlığa getmək mümkün deyildi, düşmən güclü hücuma keçmişdi. Qonşumuz Gülxanım arvad və qızı Nargilə ilə birlikdə evimizi tərk etdik. Yenicə aralanmışdıq ki, güclü bir gurultu eşitdik, ayaq saxlayıb geri çevrildik. Bizim evin üstünə mərmi düşüb evi darmadağın etmişdi, evin qalıqları alışıb yanırdı. Üzümü Gülxanıma çevirib dedim: - Allah böyükdür. İndi ürəyim rahat oldu. Mənim evimin sağ-salamat qalıb kafir düşmənə qismət olmağındansa, elə bu cür od-alov içində alışlb yanması yaxşıdır...

Bu böyük ürəkli qadının sözlərinə heyran qalmışdım. Ona nə isə demək üçün söz axtardığım zaman o tüfəngi əlinə götürüb soruşdu:

– Bilmirsan, oğlum, Gəncədə, Bakıda dövlət işlərində işləyənlərə güllə atmağı öyrədiblər yoxsa hələ yox. Mən sevinclə:

– Bütün Azərbaycan güllə atmağı öyrənir, anacan.

O getməyə hazırlaşdı.

– Allah köməyin olsun oğul! Sən tezliklə yaxınlarının arasında olacaqsan, mən isə hələ yol getməliyəm, tələsmək lazımdır.

– Anacan, bir xeyli gedəndən sonra qarşına böyük boz rəngli bina çıxacaq. Bura məktəbdir. Orada dincələ bilərsən, xeyli qaçqınlar var orda. Onların arasında yəqin ki, tanıdığın adamlara da rast gələcəksən. Mən iki-üç saatdan sonra geri qayıdanda oraya gələcəyəm, əgər Allah qismət eləsə səni özümlə Gəncəyə apararam.

Qadın əlini gözünün üstüna qoyub üfüqə nəzər saldı.

– Məndən ötəri narahat olma, oğul. Mənim hələ ki, ayaqlarım yer tutur, piyada yol getməkdən yorulmuram.

– Bilirsənmi, anacan, maşınım boşdur, yol isə yoldaşlığı sevir, bir də ki, axı sən Gəncəni tanımırsan.

– İndi isə xudahafiz.

Mən ağacın altında qalıb onun necə inamla uzaqlaşdığına baxırdım.

Sonra maşına əyləşib qohumlarımızgilə baş çəkməyə yollandım. Üç saatdan sonra geri qayıdarkən maşını həmin məktəbin qarşısında saxladım. Burada xeyli adam toplaşmışdı. Onların hamısı qəfil düşmən hücumundan canını götürüb qaçanlar idi.

Həmin qadını bu insanların hamısından soruşdum, getmişdi, gördüm deyən olmadı. Gəncə yolunda da onunla rastlaşmadım. Bəlkə də başqa bir maşınla getmişdi.

Onu tapmadığıma çox heyfsləndim. Ancaq möhkəm inanırdım ki, Hüseyn öz borcunu, qardaşının vəsiyyətini şərəflə yerinə yetirib.

Bunu deyib o susdu. Sonuncu sözünü deyəndə dostumun səsinin tirədiyini hiss etdim. O kövrəlmişdi.

*14.05.2014.*



***Rəşid BƏRGÜŞADLI***

*Abdullayev Rəşid Nəriman oğlu 1971-ci il yanvarın 5-də Qubadlının Saray kəndində doğulub.*

## TİKANLI CIĞIRLAR
*(esse)*

Demək doğruymuş, insan bəlli yaşa çatandan sonra başlayır yaşadığı ömrü ərəb yazıları kimi tərsinə oxumağa... Bu aralar mənim də yuxuma yaman tez-tez girir otaqları iç-içə olan kənd evimiz. Yalan olmasın, hər gün internetə girib "kosmos"dan Qubadlıdakı uzun-şüllə evimizə baxıram, o illərin şirinliyinə dalıram... Dədəm iki ildən bir balaca xosma qaralayıb qatırdı evin bir ucuna. Qınamıram, böyük külfət idik... Evimiz aynabənddən başlayırdı, üç yataq otağından keçib kitabxanada bitirdi. Kişi axırdan-axıra nə qərara gəldisə, kitabxanadan eşiyə bir qapı açdı və evin ucuna növbəti yataq otağını da yamayıb dedi ki, – Ta bəsdi, bu da oldu gəlin otağı... Altı qardaşımın dördü bu axırıncı otaqda ata olub, ikinci övladı dünyaya gələndən sonra isə sərçə balasını fərləndirən sayaq üzüsulu ocaqdan ayrılırdı, otağı verirdi özündən sonrakı qardaşa. Mənim yatağım hələ ikinci otaqda idi və qardaşlarım hər yanımdan ötəndə başıma sillə-çırtma vurub yuxudan oyadırdılar. Cırnatmaqdan xoşları gəlirdi, belə əzizləyib sevirdilər məni. Baxmırdılar mal nabatından gəlmişəm, yorğun-arğınam, yuxu gözümdən tökülür... Otağımın kəlləsində dünya xəritəsi, çarpayımın yanında nənəmdənqalma qəribə çeşnisi olan kilim asılmışdı. Bu kilim mənim cehizliyim sayılırdı. Donqar çeşnilərin mənasını axıradək anlamadım – nə dəvəyə oxşayırdı, nə də gül-çiçəyə. Kilimi toxuyanın adı sapla toxunmuşdu üstünə – "Dilbər 1936"... Evlənməyə namizəd qardaşın cehizlik par-parçasıya anam çarpayımın altını doldurmuşdu və güvə düşməsin deyə vaxtaşırı naftalinləyirdi. Alışa bilmirdim naftalin qoxusuna, Allaha yalvarırdım ki, mənim də növbəm tez çatsın axırıncı otağa... İyirmi yeddinci il ötür, amma otağımdakı kilimin, çarpayımın altında buğlanan naftalinin qoxusu hələ də burnumdadır. Gecələr yuxum qaçanda o vədə əhəng suvağı eşən barmağımın ucu birdən elə göynəyir ki... Gözümü tavana zilləyib kənddəki bacanı axtarıram – alüminium "raskladuşka"nın profilindən olan antenamızı düzəltməyə çıxdığım həmin bacanı... Elə bilirəm ki, tavandan yuxarıda yenə Bərgüşadın şehindən mamır bağlamış sınıq-salxaq asbest şiferli damımızdır, çıxsam, samanlıqda qışa tədarük gördüyümüz alma, üzüm, heyva tapacağam...

O evin divarlarında "yad qızı"nı doğma bacıdan əziz etmək sehri vardı. Gəlinlərimizi qardaşlarımdan da çox sevirdim, çünki onlar insanı sevməyin yönü-

nü-yöntəmini daha yaxşı bilirdilər. İki qardaşım və üç gəlinimiz mənə orta məktəbdə dərs deyib. Gəlinimiz Zümrüdə dərsdə "bajı" deyəndə nəvazişlə başımı sığallayıb qulağıma pıçıldayırdı, – "Bajı" yox, qadan alım, dərsdə "müəllimə" demək lazımdır... – amma yenə də ona "müəllimə" deməyə utanırdım... Necə ki, su içən adamı ilan vurmaz, o sayaq da evdə əlinə kitab alanı bir işə buyurmazdılar. Biri əlibıçaqlı cumsun sənin başını kəsməyə, cəld tərpənib əlinə kitab aldınsa, qurtardı, sənə zaval yoxdu! Daha onun haqqı çatmaz sənə güldən ağır söz desin. Yoxsa, adamı namaz üstdə xırpxalamaq kimi yekə günah olardı! Bu hökmün ədalətinə o qədər sığınmışam ki... Düyəmiz dadanmışdı kolxozun yoncalığına, doymayınca axşam evə gəlməzdi. Bilirdim ki, əvvəl-axır itiyi axtarmaq mənim boynumda qalacaq, amma yenə də dirənirdim. Zeynəbin konserti bitər-bitməz söhbət gəlirdi düyənin üstünə. Xəlvətcə sivişirdim öz otağıma, ayağımı ayağımın üstünə aşırıb rahatca uzanırdım yerimə və "Ədəbiyyat müntəxabatı"nı alırdım qucağıma. Əvvəlcə dədəm gedirdi, sonra növbəylə Hacı, Muxtar, Fətəli. Hamısı əli ətəyindən uzun, düyəsiz qayıdırdı evə. Mal-heyvanın dilindən anlamadıqlarına görə dədəmin yanında ürəyimdən tikan çıxarırdım. Kişi çarəsiz gəlirdi otağıma, – Dərslərini bitirdinsə, gedib düyəni tapardın... – elə mən də bunu gözləyirdim. Dərhal Dostəlini çəkirdim kişinin yanına, dədə sərçə kimi cöjüyürdüm üzünə, – Söz ver ki, sabah məndən dərs soruşmayacaqsan! Yoxsa canavar sürüsü iki saata düyənin tikəsini də qoymaz qala! – kaş bu anda üzümdəki bicliyi görəydiniz...

– Yaxşı, get tap gətir... – başqa əlacı da yox idi. O vədələr düyə məndən çox qiymətliydi, Muxtarın toyunda məni kəsəsi deyildilər ki... Elə bil düyəni öz əlimlə cidarlamışam – gedirdim "Örən"ə, qamışlığın ortasındakı dəj yoncalıqdan düyəni tapıb qatırdım qabağıma. Evə girən kimi dədəm deyirdi, – Gözünüzə işıq verin, fərasət yaşda deyil, başdadır! – fərəhdən az qalırdım ağlayam. Kaş bircə dəfə şəstinə sığışdırıb bağrına basaydı, öpəydi. Öpməzdi!.. Gecənin şəriksiz qəhrəmanı kimi duvarda barmağımla oyduğum dəliyi bir az da eşib genəldir, sonra yuxuya gedərdim... Amma bu zövqü sabah Dostəli burnumdan fitil-fitil gətirirdi! Sinifə keçib oturan kimi jurnalı açırdı, – Abdullayev Rəşid, çıx dərsini danış... – adımın jurnalda birinci olmağına elə acığım gəlirdi ki... Ürəyimdə hayqırırdım ki, – "Bu xəyanətdir!" – suyum süzülə-süzülə çıxırdım yazı taxtasının qarşısına. Ona boylanırdım. Baxmırdı üzümə. Sanki axşam heç bir razılaşma-zad olmayıb. Naəlac başlayırdım yadımda qalanı üdüləməyə:

Padişahi-mülk, dinarü dirəm rüşvət verib,
Fəthi-kişvər qılmağa eylər mühəyya ləşkəri.
Yüz fəsadü fitnə təhrikilə bir kişvər alır,
ııı.., ıııı, ııııı......

Dolaşıq val kimi bir az da "ıı"ldayıb yeyəcəyim sillələrə özümü hazırlayırdım, – "Ölmək ölməkdi, ta xırıldamaq nədir!?". Ağrısını aldığımın da əli elə bil zindandı. Əlqərəz, məsələ dönüb olurdu, – "Nə yemisən? Turşulu şilə!"... Evə qayıdan kimi keçirdim hücuma, – Adam verdiyi sözü tutar! Bir də düyəniz-xö-

təyiniz itsin, axtarmağa getsəm, heç dədəmin oğlu deyiləm! – evin sonbeşiyi olmaq möhtəşəm təsadüfdür!.. Dədəm burda keçirdi qardaşımın tərəfinə, – Əziyyət çəkib vaxtında mal-heyvanı tövləyə yığeydin, yanağın da qız yanağı kimi belə qızarmıyeydi... – hələ bu azmış kimi dəstə-ittifaq hirsimdən ağlamağıma gülürdülər...

Çoxdandır özümü inandırmışam ki, evimizdə erməni Qurgenin ailəsi yaşayır. “Qurgen kirvə” çağırıram onu. Anası onu mənim otağımda dünyaya gətirib. Qurgen ilk gözünü açanda otağımdakı dünya xəritəsi və kilimi görüb. Mən o evdə cəmi on səkkiz il yaşadım, Qurgen isə iyirmi yeddinci ildir evimizin sahibidir. Heç otağımdakı dünya xəritəsinə də toxunmayıb, amma tiftiklənmiş kilimimi ayaqaltına sərib. Kilimin yerinə ailəvi şəkillərini asıb. Şəkil hin tərəfdəki xar tutun altında çəkilib. Tut ağacımız nə qədər qocalıbmış, İlahi... Qurgenin bir oğlu var, axırıncı otağımızda yatır. Kitabxanamızın yola baxan iki pəncərəsindən birini Qurgen daşla hörüb. Əhənglənmiş fasadda təkpəncərəli kitabxanamız aralıdan mayıf qoca kimi görünür. Erməni də olsa, Qurgen pis adama oxşamır. Deyir ki, ev-eşiyindən nigaran qalma, nə vaxt gəlsən, öz evindir, şəpir-şüpürümü də yığışdırıb gedəcəyəm. Hətta bir dəfə cürətimi toplayıb ona dedim ki, kirvə, gəlirəm, boşalt evimi. Aman Allah, evimiz hikkəsindən necə silkələndi!.. Daş divar dil açıb od püskürdü üstümə, – A biqeyrət, indiyədək hansı cəhənnəmdəydin, nə haqla onu qovursan!? Divarlarımı suvayıb, otaqlarımı əhəngləyib, damın şiferlərini dəyişib, bəs sən neyləmisən bu otuz ildə!? – təəccübdən əlim ağzımda qaldı. Zavallı Qurgen gözlərini döyə-döyə bir evə baxdı, bir mənə...

Aylardır evimi dilə tuturam, yumuşaltmaq istəyirəm, amma alınmır. Deyirəm ki, – Ocağın sonbeşiyiyəm, sən mənə dədə-babamdan qalıbsan, səni sevə-sevə nəvələrimə çatdırmalıyam”. Başa sala bilmirəm ki, bu otuz ilin boşluğu içimdə qabırğama bağlanmış it kimi dayanmadan hürür, içalatımı gəmirir. Göz yaşı çoxdan qurumuş kabus evimiz birucdan üstümə bağırır, – Gəlmə, biqeyrət! Rədd ol burdan, bu ev Qurgenindir! İtini apar başqa yerə bağla! – erməniyə qahmar çıxır... Hardasa, haqlıdır... Dədəm sağ olsaydı, bəlkə də evimiz bu qədər qudurmazdı. Nə də olsa, onu atam min əziyyətlə, alın təriylə tikmişdi. Amma mən? Mənim haqqım çatırmı Qurgenə, – “Çıx burdan, bura mənim evimdir!” deməyə? Nolsun ki, mən evimizi istəyirəm, axı evimiz məni istəmir!..

Oyrəli Dostəli soruşur ki, – Evimizin ən çox nəyini qəribsəmisən? Deyirəm: – Axırıncı otağını, mənə qismət olmayan bəy-gəlin otağını... Doluxsunur. Qurgendən söhbət açıram, deyir, – Kaş evimiz yerlə yeksan olaydı, qurgen-murgen öz murdar nəfəsiylə isitməyəydi evimizin divarlarını...

Dəli şeytan ağlıma pıçıldayanda ki, – “Axı nə var o evdə?! Səhər naxır-axşam axur. Yenə it zülmü çəkmək üçünmü darıxmısan?!” – baxıram, yox.., məni oraya dartan başqa şeydir. Mən o evi təzədən görməliyəm! Mən gəncliyi yaşamadan – uşaqlıqdan birbaş qocalığa adlamışam. Evim mənə gəncliyimi yaşamaq üçün lazımdır. Onun mayıf gözünün içinə baxaraq bütün hirsini-hikkəsini boşaldanadək susub dinləyəcəm. Qoy mənə itin sözünü desin, amma üzünə çırpacağam ki,

gündə birinə qucaq açan o da biqeyrətdir! Mən qorxağamsa, o da Qurgenin başına uçmadığı üçün qorxaqdır! Yetər ki, mənə olan nifrətini içindən boşaltsın, qovsun Qurgeni həyatimizdən. Məni sevməsə də, istəməsə də olar, yetər ki, vaxtilə yağış yağanda döşəməsinə qazan-qablama düzməkdən kələyim kəsilən otağımı son dəfə görüm. Ondan sonra daşı daş üstdə qalmasın, uçsun başıma sevimli evim! Onsuz da Allahın daşı çoxdan təpəmizi yarıb, dədəmin hördüyü ən yekə daş düşsə neyləyəcək...

*22.04.2020*

*Rəşid Bərgüşadlının bu essesi Azərbaycan Yazıçılar Birliyinin "Ulduz" jurnalı və AYB.az saytının birgə təşkil etdiyi Qarabağ mövzusunda esse müsabiqəsinin I mükafatçısı olub.*

*https://manera.az/index.php?newsid=3062*






*Qubadlı, Həkəri ilə Bərgüşad burda qovuşur*



***Abdulla Hacı Nərimanoğlu***

*Qubadlı, Saray kəndi*

## ANAMIN YANINA HAAA...

-Ə, məni hara aparırsız ?!!!

Dizi əsdi, əli titrədi, az qalmışdı çiyni cənazədən üzülsün, elə bil yaxasından yapışıb qabağın kəsmişdi: - sənə demədim məni anamın yanına apar…Yanınca addımlayan qaynına işarə elədi ki məni əvəz elə, özü qırağa çəkildi, dərindən nəfəs aldı. Xalaoğlusu Möhlət ona yaxınlaşdı: - sənə nolub, gəl, camaat getdi, özündən xəbərin var?

-Eşitdin səsin ?!

-Yox, nə səs?

- heeeç…

Qəbiristana girdilər, molla dua verdi. Qorxusundan cənazəyə tərəf baxa bilmirdi, meyidi qəbrə sallayanda səs onu yenə silkələdi: - ə bəs…Dözə bilmədi, camaatı gözləmədən qəbiristandan çıxdı, üç dəfə «bismillah» dedi. Torpağa tapşırıb geri qayıdırdılar, yanından çəkilməyən xalaoğlusuna tərəf çöndü, özünə gəlmişdi.

- Amma heç getmək istəmirdi, zorla dartıb apardıq, gərək elə dediyi kimi eliyəydik, aparaydıq anasının yanına.

- Uşaqları qoymadı da, əsas da qızları, görmədin nə oyun çıxartdılar ki neçə ildi birin orda basdırmışıq, bir dəfə gedə bilmirik...onları da qınamalı deyil, uzaq yoldu, çətin işdi, gəl bəri, camaat gedir, çətini bura qədərdi, torpağın üzü bərkdi.

…Qubadlıdan qaçqın düşəndən Yevlağın Aran qəsəbəsindəki çadır qəsəbəsində olurdular, uşaqların hamısı bir-bir aradan çıxıb şəhərə getmişdi, heç birin qınamalı deyil, bura yaşanılası yer deyildi, düzün ortasında çöl-biyaban, bir inni-cinni yox, hər rayondan 15-20 ailənin adı var idi, yardım günləri gəlib xaricilərdən karobkaların alıb gedirdilər, daimi yaşayanlar ancaq yaşlı adamlar idi, onların da gedəsi yeri, buradan aparası adamlarıı yoxuydu. Çadırxanada hamı onun anasına mehr-ülfətindən danışırdı, heç ana da körpəsin elə əzizləmirdi. Ər-arvad onları da burda saxlayan anasının qəbriydi, burda rəhmətə getmişdi, yaxınlıqdakı kənd qəbiristanlığında dəfn eləmişdilər.

-Yadına düşür Elgizin toyu? İki çadırın arasın açıb mağar eləmişdilər, yeyib içib keflənmişdi, sən çadıra girən kimi dili açıldı:

-Əmioğlu, görürsən də «Sovet Azərbaycanı» sovxozunun direktoru Vaqif Abdullayev oğluna harda, kimlərnən toy eliyir...

Ay onda da yaxşı ağlaşdıq ha, elə bil hamı dolmuş bulud idi, bir şimşəyə bənd imiş, neçə rayonun cavanı-ağsaqqalı bir-birinə qarışıb nətər ağlaşdılar...

-Səbəbkar mən oldum, söz mənə veriləndə o yerlərin toylarından danışdım, dedim böyük oğlu Rövşənin toyun xatırladım, raykom, icrakomun işçilərindən 7-8-i nətər vurmuşdularsə, leş qalmışdılar məhlədə, toy savılıb qurtarıb indi çıxıb gedə bilmirlər, uşaqlara təpindi ki, ə atın bunları o portlu UAZ-a, heyləcə yığıb göndərdik…Bir adamı qoymamışdı son günə qədər kənddən çıxa, ya bir şey çıxarda, özü də hamı kimi, elə deyirdi ki, kim çıxmaq istiyir birinci gedib qəbiristandakı meyidin



götürüb aparsın, günü sərhəddə əsgərlərin yanındaydı, kənddə, fermada gözəgələn mal-heyvan, qoyun-quzunu daşıtdırırdı onlara. Kolxoz sədri, sovxoz direktoru olanda ermənilər neçə dəfə onu arada götürməyə çalışmışdılar, o vaxt hələ sərhəddə Çayzəmi, Vəli düzündən torpaq almaq istəyəndə düz gedib Zeyvədə ermənilərin üstünə hücum edib söyüb gəlmişdi ki, kimdi məndən torpaq istəyən, çıxsın qabağa, güclə sakitləşdimişdilər ki, a Vaqif kirvə, vallah bizlik deyil, hamısı yuxarıdan gələn işdi.

-Deyirdi camaatın yanında gözükölgəliyəm, o dünyada sallaşacaqlar yaxamdan, qoymadım bir adam heç olmasa yorğan-döşəyin çıxarda, dinənə deyirdi, ə erməni nə köpəyoğludu gəlib bizdən torpaq ala.

-Bir də əsas buna görə heç şəhərə gəlib camaatın üzünə çıxa bilmirdi, qalmışdı çadırda, o Aranın düzündə, günahkar bilirdi özün…

Sağalmaz xəstəliyə tutulduğun gec bilmişdilər, özünə demədilər. Güclə gətirdilər Bakıya ki, həkimə göstərib qaytaracağıq, oğlu Mərdəkanda keçmiş pioner düşərgəsində iki otaq tutmuşdu, orda qalırdı. Bura birinci dəfə girəndə ürəyi dözməmişdi:- Dağıl səni dünya, gör Vaqifin balaları harda qalır e…bay sənin əvrahın dağılsın erməni, o vaxtı kənddə ev tikdirəndə elə mən dedikcə: - aya a Tacat, a dığa, yaxşı iş gör ha, bax! Qayıdırdı ki :- ara, a Vaqıp kirvə, arxayın ol eli, vallah elə bil özümə tikirəm,..bu günü görüb deyirmiş eee….

…Atası müharibədən qayıtmamışdı Vaqifin, bir anasıydı, bir də özü. Gecə-gündüz işləyib çalışıb oxutmuşdu onu. Rayonun ən qabaqcıl təsərrüfatında kolxoz sədri, sovxoz direktoru olmuşdu ta rus-erməni o torpaqları murdarlayana qədər. Mərdəkanda əvvəl çox dirəndi ki qayıdıram çadıra, dura bilmirəm burda, hər dəfə bir bəhanəynən yayındırmışdılar, deyirdi: -birdən ölüb eliyərəm, məni buralarda basdırarsınız haaa, anam tək qalar orda, sonra əlim yaxanızda qalar, qurtara bilməzsiniz əlimdən. Uşaqlar zarafata salıb söhbəti hansı səmtə yönəltmək istəsələr də, dediyin demişdi, baxın haaa…

-Torpaq yaman güclü şeydi, görürdün elə yatıb yuxudan duran kimi gözün açıb çölə baxırdı, özünə gəlib «kənddə-evimizdəydim, anam da yanımda» deyib qəhərlənirdi, bilirdik ki, yuxuda görüb, amma heç düz iş olmadı, gərək aparaydıq anasının yanına, yetim oğlan idi, vətənə həsrət qalmışdı, gərək anasına həsrət qoymayaydıq, elə son nəfəsinə kimi « anamın yanına», - dedi. Allah özü günahımızdan keçsin, onun da günahı biz dirilərin boynunda qaldı.

-Əsas da mənim boynumda, hər gələndə deyirdi ki, ay yeznə, sən yaxşı oğlansan, ümidim sənədi, bu arvadların sözünə baxma, öləndə əmimin uşaqlarına da xəbər elə, məni bürün, bükün qoyun bir maşına aparın Yevlaxa, dayıoğlu Salehə də o günü demişəm, zəng edin siz çatana qədər qəbrimi də qazıb hazırlatsın, anamın yanındakı tək yer mənimdi, dəmir cağa almışam, ana-bala yataq orda. Yeznə bax haaaa...

Son nəfəsi ağzından çıxana qədər diliynən, gözləriynən yalvarıb deyirdi: - anamın yanına haaaaaaaa......

*Bu hekayə "Azadlıq radiosu"nun "Ədəbi azadlıq" hekayə müsabiqəsinin qalibi, ən çox oxucu səsi yığan hekayə olub,* https://www.azadliq.org/a/2037069.html *"Ulduz" jurnalı (№5/2006), almanax, sayt, kitablarda yayılıb.*



*Şöhrət NAMAZOVA*

*1953-cü ildə Laçının Qarıqışlaq kəndində anadan olub.*

## BU ŞƏHƏR MƏNİM ŞƏHƏRİM
*(esse)*

Bilmirəm nə deyim. 30 ilədək Azərbaycan şəhərini işğal edib dağıdan bir düşmənə dünyanın cavabı yoxdur? Özünün olmayan şəhərdə küçələri dağıdıb öz binalarını arxayınlıqla tikən işğalçının cəzası yoxmu? Dünya ədalət istəyirsə, baxsın və desin kim zorakılıq edir. Bu şəhər mənim şəhərim, bu küçə mənim küçəm. O küçədə bir dağ şəhərinin uyumlu sıralanan binaları var idi. O küçədə Laçınlıların tarixə dönən zamanları o tarixi binaların ruhunda yaşayırdı. Düşmən birbaşa tariximizə qəsd etdi. Uçurub dağıtdı və özününküləşdirmək havasına düşdü. Havan boğazında qalsın, erməni. Biz o havanı dəyişdirdik. Oğullarımız var olsun. Sənin iblis niyyətini öz başında çatladan dövlətimiz, ordumuz, Prezidentimiz var olsun. Tariximizə qəsd edənləri Allaha və onun Haqq divanına tapşırırıq.

*Can, Laçın şəhərim, adına qurban,*
*Gözəl Qarabağın can sirdaşısan.*
*Alınmaz qala ol düşmənlərimə,*
*Əbədi məşəl ol şəhidlərimə.*
*Ana Zəngəzurun vuran qəlbisən,*
*Sən Vətən ətirli türkün elisən.*
*Dağlar qartalısan, ucalardasan,*
*Can Laçın şəhərim, Azərbaycansan!*

Erməni şəhərimizdə nələr tikibsə, sökülüb. Bizə haram gərək deyil. Azərbaycan öz varı ilə öz torpağını ilan-çayan yuvalarından təmizləyib. Laçın Azərbaycandır! Laçın Vətəndir! Laçın Zəngəzurdur!

***

Mənim doğma şəhərim! Hələ dözməklə keçən günlərimi bir yola çıxara bilmədim. Susuz səhra olar e, gedərsən bir içim su tapmadan, hey gedərsən... 30 ildir o yolçu kimi sənə doğru yoldayam. Yol yoldaşlarımızın çoxlarını itirdik. Sıralarımız seyrəldi.

Bu ayrılıqlar göz yaşlarımız ilə o yollara çiləndi. Yaxınlarımız, həmyaşlarımız, əzizlərimiz bir-bir ətrafımızı tərk etdilər. Dözmədilər ağrılara, ayrılıqlara. Dözmədilər, dözə bilmədilər. Dillərində “Laçın” və “keşkə” kəlmələri ilə bir anda yox oldular.

Hərəmiz öz qəlbimizdə bir Laçın elegiyası pıçıldayırıq:

*Ay Laçın, can Laçın,*
*Mən sənə qurban, Laçın...*

Hər birimizin qəlbində deyə bildiyimiz qədər və deyə bilmədiklərimiz qədər bir esse var. Həm də yanğılı esse. Hərəmiz bir Laçın sevdalı sevgi ünvanıyıq. O ünvanlar bir gün birləşəcək və bir ünvana - Laçına yetişəcək. Onda...sizləri, ey əvəzedilməz olan ellilərimiz...sizləri sadəcə anmayacağıq, sizlərə Həsrət və İnam adlı əbədi abidə ucaldacağıq. Ey Laçına həsrət köçənlər, köç etdiyiniz göylərdən baxan ruhlarınız Laçınladır, ruhlarınız şad olsun. Bizlər hələ ki, yolçuyuq, hara qədər bilmirik.

Amma bilirik ki, arxamızca böyük bir Laçın eli gəlir. Bir ünvana, bir Vətənə, Laçına doğru! Budur həqiqət. Həqiqətin əbədi olsun, Vətən.

Neçə ildir torpağımın ətri qalıb nəfəsimdə, O torpağa qurban olsun, bu canım da, nəfəsim də…





**Zeynəb ƏLİQIZI**

*Musayeva Zeynəb Əli qızı, Laçın, Əhmədli kəndi, 22 iyul 1965.*

## ŞƏHİD ANASI
*(hekayə)*

Həyətdə böyük toy mağarı qurulmuşdu. Həyətin dəmir qapısı açılıb-örtülməkdən səsini başına götürmüşdü. Mağardan bir az yuxarı tərəfdə, iki iri tut ağacının altında toya gələn qonaqların cürbəcür xarici maşınları dayanmışdı. Adamlar qaynaşırdı, uşaq-böyük bir-birinə qarışmışdı. Səsgücləndiricilər guruldayırdı, musiqi səsi uzaqdan eşidilirdi. Xanəndə "Əl çalın!" mahnısını oxuya-oxuya coşur, yerində dingildəyirdi. Mağardan bir qədər aralıda, evin böyründə isə samovarlar qaynayır, xörək bişirdi. Tüstü dumana dönmüşdü, kababın iyi adamı uzaqdan vururdu. Sağlıqlar deyilir, badələr cingildəyib boşalır, kefləri durulanlar ortalıqda atılıb-düşürdülər. Toy idi...

Geniş həyət qapısından ortaboylu, təxminən altmış beş yaşlarında arıq, çəlimsiz bir qadın girdi. Sifəti sapsarı saralmışdı, elə bil sarılıq xəstəliyi keçirmişdi. Və azardan qurtarmamış yorğan-döşəkdən durub gəlmişdi. Gözləri quyunun dibində idi, güclə işıldayırdı. Dodaqları öfkə rəngində idi. Ağappaq nazik hörükləri başına bağladığı qara yaylığının altından çıxıb biri sinəsindən, o biri kürəyindən – donunun üstündən sallanırdı. Ayaqlarında çit ayaqqabı vardı.

Onu tanıyanlar bir az narahat oldular.

Bu arvadın toya gəlməsi qəribə idi. O, əslində, heç vaxt şənliyə getmirdi. Nurxanım şəhid anası idi.

Ev sahibəsi arvadın qənşərinə yeridi:

– Xoş gəlmisən, ay Nurxanım bacı, həmişə toyda!

Ayrı bir söz deyə bilmədi. Deyəsən, axırıncı iki sözü də elə artıq demişdi. "Həmişə toyda" ifadəsi yerinə düşməmişdi. Bayaqdan toya gələnləri bu sözlərlə salamlayıb ardınca "subaylarınız üçün olsun!" deyirdi. Amma bunu Nurxanıma demək olmazdı. Onun nə subayı vardı, nə evlisi... Ev sahibəsi söz tapmayıb "nağıl" danışdı:

– Uşaqlar dedilər ki, restoranda eləyək, şəhərdən – Bakıdan da qonaqlarımız çox olacaq. Dedim, əşi, bu da Bakının bir qəsəbəsidir də, qoy gələnlər elə bilsinlər ki, kənd toyuna gəliblər. Həyətimiz var, gəlin mağar quraq...

Nurxanım bir söz demədi. Deyəsən, heç ona qulaq asmırdı. Bu deyilənlərin ona – Nurxanıma bir dəxli də yox idi. Yavaş-yavaş irəliləyib onu qarşılamağa gələnlərə qoşularaq mağara tərəf getdi. Mağarın yanına çatıb dayandı. Dərindən nəfəs aldı. Sonra içəri keçib musiqini yarımçıq kəsən çalğıçılara yaxınlaşdı. Bayaqkı havanı – "Əl çalın"ı sifariş etdi. Matı-qutu quruyub ona maraqla tamaşa

edən "tamaşaçılarına" məhəl qoymadan qollarını asta-asta yuxarı qaldırdı. Ayaqlarını da qolları kimi asta-asta, ahənglə oynatmağa başladı. Qadının ağayana, balaca bədəninə o qədər də uyuşmayan ağır hərəkətləri elə təbii, cəlbedici idi ki, ona tamaşa edənlər heç vaxt bu cür oynayan görməyibmişlər kimi, diqqətlərini bütünlüklə ona yönəltmişdilər. Qadın oynaya-oynaya çıxışa tərəf getdi. Adama elə gəlirdi ki, buradakı havasızlıq, daha doğrusu, içki, xörək qoxuları onu sıxır. Və o, bayıra çıxdı. Həyətdə ora-bura gedən, işlə məşğul olan adamlar matməəttəl yerlərində dondular. Bəzilərinin hətta dodağı qaçdı, amma tez də ciddiləşdilər. Musiqi susdu. Lakin Nurxanım arvad mağarın aşağı tərəfindəki açıq yerdən üzünü aşıqlara tərəf tutub işarə elədi ki, çalsınlar. Xanəndəyə də işarə etdi ki, oxusun. Onlar yenidən çalıb-oxumağa başladılar. Nurxanım arvad yenə işarə etdi, oynaq hava çalsınlar. Çalğıçılar havanı dəyişdilər. Qadın oynamağına davam etdi. Qol götürüb geniş həyət boyu o başdan bu başa süzürdü. Getdikcə sürətini artırıb ayaqlarını məharətlə oynadır, gözəl bir milli rəqsi ifa edirdi. Uşaqlar əl çalmağa başladılar. Lakin yanlarındakı böyüklərin donuq, sakit, müəmmalı baxışlarından nəsə anlayıb əllərini saxladılar. Gülmək istədilər, böyüklərin göz yaşlarından irilmiş gözlərinə baxıb susdular. Həyətdə get-gedə bir dairə yaranır və Nurxanım bu dairənin içində tək-tənha süzürdü. Qara yaylığı sürüşüb boynuna düşmüşdü. Nazik ağ hörükləri atdanıb-düşürdü. Ancaq elə səliqəli, təmkinlə oynayırdı ki, paltarının altında ayaqları belə hiss olunmurdu. Oyun havasının ritmləri təkrarlanırdı, çalğıçılar musiqini kəsmək istəyirdilər. Xanəndə bayaqdan dalbadal dediyi "Toy günüdür, əl çalın!", "Oğlan igid, qız qəşəng!" sözlərini yığışdırmışdı, hərdən yalnız "əl çalın!" deyirdi. Amma heç kəs əl çalmırdı...

Tanımadığı adamlar ortaya çıxmaq, onu tutub saxlamaq istədilər. Arvad yönünü o tərəfə çevirib aralandı. "Arvadın başına hava gəlib!" – deyə camaat arasında pıçıltı gəzdi. Amma kişilərdən kimsə camaata susmaq işarəsi verib onları sakitləşdirdi. Bəziləri üçün bu hadisənin sadəcə, necə qurtaracağı maraqlı idi.

Toyxanaya yemək, qab-qacaq daşıyan, əllərində dolu məcməyi tutmuş cavan oğlanlar, önlüklü aşpazlar, makiyajdan gen-bol istifadə edən qız-gəlinlər, atlas paltar geymiş yaşlı qadınlar, yarısərxoş kişilər, şən uşaqlar zamanın rəqsinə baxmaqda idilər. Mağarda adam qalmamışdı, içəri tamam boşalmışdı. Hamı açıq havada meydan sulayan arvada tamaşa edirdi. Arvad lap göyə tullanırdı...

Xanəndə susdu. Deyəsən, öz borcunu yerinə yetirib qurtarmışdı. İndi "əl çalın"ı gah gitara, gah qarmon, gah da qoşa nağara deyirdi. Amma heç kəs əl çalmırdı... Qadınlardan ağlayanları vardı. Orda-burda hıçqırıq səsləri eşidilirdi. Həyətdəki pişiklər fürsətdən istifadə edib toyxanaya girmişdilər, stolların üstündəki təamların oğrun-oğrun "dadına baxırdılar". Aləm bir-birinə qarışmışdı. Nurxanım oynayırdı...

Ev sahibi nəhayət, nəsə eləmək lazım olduğunu hiss edib irəli çıxdı. Arvada tərəf bir-iki addım atdı. Dayandı. Üzünü camaata tərəf tutdu. Ürəyindən keçdi



ki, qonaqlardan üzr istəsin, onları əvvəlki yerinə, mağara qaytarsın. Bacarmadı. İndi heç kəs onu eşitmək halında deyildi. Onlar elə bir hadisə görmüşdülər ki, gözlərini ondan çəkə bilmirdilər. Göz qulaqdan daha sərrastdır...

Nurxanım iki-üç dəfə də dövrə vurandan sonra ehtiramla hamıya baş əydi. Ayaq üstə güclə dururdu, tamam heydən düşmüşdü. Nəfəsini çiyinlərindən alırdı. Addım atıb yeriyə bilmirdi. Kimsə qaçıb bir stul gətirdi. Arvadı oturtdular, su gətirdilər, üzünə çırpdılar, bir-iki qurtum içirtdilər. Nurxanım özünə gəldi. Oturduğu yerdən fırlana-fırlana dörd yanına göz gəzdirdi. Elə bil bu camaatı indi görürdü. Hamısı bəzənib düzənmişdi, bahalı geyimdə idilər, toya gəlmişdilər...

Ona tamaşa edənlər arvadın qarşısında lal-dinməz durmuşdular. Sanki heç kəs danışmağa cəsarət eləmirdi. Və bu dəli arvadın nə deyəcəyini gözləyirdi. Elə bil bu camaat himə, onun işarəsinə bənd idi. Bu arvad nə əmr eləsəydi, ona hazır idilər. Elə bil bu toy mağarının "sakinləri" bir ordu idi və bu dəqiqə düşmən üzərinə hücuma keçməyə komanda gözləyirdilər...

Nurxanım ayağa qalxdı, dincəlmişdi, özünə gəlib toxtamışdı. Bir az da yüngülləşmişdi, özünü yaxşı hiss edirdi. Üzünü camaata tutdu:

– Mən dəli-zad olmamışam, ay camaat! Üzümə belə çaşqınlıqla baxmayın. Mən dəli-zad deyiləm... – Səsi güclə çıxırdı. – Mən əvvəla, bu cavanları təbrik eləyirəm, xoşbəxt olsunlar, qoşa qarısınlar, bir-birinə can deyib, can eşitsinlər. Oğul-uşaq sahibi olsunlar, sağlam bala böyütsünlər. Bir də, dünyamız salamat olsun, müharibə görməsinlər... heç biriniz görməyəsiniz, Allah sizə bir də müharibə göstərməsin...

Arvadın səsi qırıldı. Yer-yerdən dedilər:

– Sağ ol, var ol, Allah ağzından eşitsin! Allah bir də müharibə göstərməsin...

Nurxanım sözünə davam etdi:

– Mən toy görməmişəm evimdə. İki oğul böyütdüm, toylarını görə bilmədim. Qismət olmadı... Oğlanlarımdan biri Qarabağ müharibəsində həlak oldu. Onda hələ ordu nizamlanmamışdı, pərakəndə idi, ayrı-ayrı dəstələr vardı. Mənim balamı da maşına basıb əsgər aparmışdılar. On gün itkin oğlumu axtardım. Sonra xəbər çıxdı ki, əsgərdir, vətən torpaqlarını qoruyur... Amma mən ehtiyac içərisində övlad böyüdəndə həmin döyüşçü dəstələri yaradanlar bir cüt corab belə gətirib verməmişdilər ki, al, balanın ayağına geyindir. Balama, mənə neyləmişdilər, hansı haqla ölümə verdilər? Dedilər ki, "Vətən uğrunda həlak olub..." Neynək, bu da bizim qismətimiz imiş.

O biri oğlum da şəhid qardaşından sonra özünə toy eləmədi. Dedi ki, yasdan çıxa bilmirəm. Toysuz-filansız bir qız götürüb gəldi. Övladları olmadı. İkinci dəfə də bu cür evləndi. Bir oğlu oldu. Gəlinim uşağını götürüb xarici ölkələrin

birinə getdi ki, mən yaxşı yaşamaq istəyirəm. Ömrümü sizin kimi ehtiyac içərisində çürütmək istəmirəm! Oğlum arvadı haqqında ordan-burdan nalayiq sözlər eşitdi. Dözmədi, özünü öldürdü... Balalarımın ikisi də son mənzilə atasının çiynində getdi.

Mən dəli deyiləm, əzizlərim, qurban olum sizə. Sadəcə, ömrüm boyu dəli bir toy havası ilə yaşamışam. Bu sümüklərim oğul toyunda oynamaq həvəsi ilə alışıbyanıb... Bu qol-qıçım oynamaqdan yorulub əldən düşmək istəyib. İndi xəstə olan ürəyim oynamaqdan, sevincdən həyəcanlanmaq, şiddətlə döyünmək istəyib. Bunlar mənə qismət olmadı. İndi özümlə bacara bilmədim, dedim, qoy bir oynayım... – Nurxanım kövrəldi, lakin özünü ələ alıb sözünə davam etdi: – Deyirlər ki, xeyirlə-şər qardaşdır, amma belə deyilmiş. Yoxsa mənim oynamağım sizə belə qəribə görünməzdi. Şəhid anası oynamaz! Amma hərdən böyük məclislərdə, dost xətrinə qol götürüb oynayan şəhid analarını qınamayın, bala, hər havaya qol qaldırsalar da, onlara əl çalan olmur. Bizim oynamağımız nə dostu güldürəndir, nə düşməni öldürən. Çünki biz fərəhdən oynamırıq... Yarıkönül yaşadığımız bu qoca dünyanın qəribə qayda-qanunu varmış. Öz dərdini mənə yükləyib özü gülməkdən qəşş edir...

– Allah səbir versin, ay bacı. Qəbirləri nurla dolsun... – ev sahibi nəhayət, dillənib onun sözünü kəsdi.

– Şəhid balana qurban olum, elə o birisinə də. Allah köməyin olsun, Allah səbir versin... – ev sahibəsi ərinin sözünü alıb züy tutdu, "qonağına" dil-ağız elədi. Nurxanım onları başa düşdü: yəni yaxşı eləyib gəldin, indi isə mane olma, çəkil get, qoy işimizi görək, sən burada artıqsan. Burada toydur!

– Allah mübarək eləsin, Allah balalarınıza can sağlığı versin... – o, zəif, ölgün səslə cavab verdi. Əslində, onlar neyləməliydilər? Onlar ki günahkar deyildilər...

– Nurxanım bacı, gəl çörək ye, sən Allah, ac getmə bizim məclisdən. Xətrimizə dəyər. – Ev sahibi onu düşüncələrindən ayırıb ovundurmaq istədi.

– Allah var eləsin, ac deyiləm.

Nurxanım susdu. Deyəsən, buraya elə oynamaqdan ötrü gəlibmiş. Bu oyun onun gicgahlarının, sinəsinin, bütün bəndlərinin, fəqərə sümüklərinin, əl-ayaq barmaqlarının hönkürtüsü, ürəkdən gələn çılğın göz yaşları idi. İndi sakitləşmişdi, boşalıb dinclik tapmışdı.

Nurxanım əlini uzadıb yaylığını açdı, onu tələsmədən, arxayın bir hərəkətlə yenidən başına bağladı. Camaat elə bil suya dönmüşdü. Toy məclisi qəribə bir hüznə bələnmişdi. Onu əhatə edənlərin əksəriyyəti ağlasa da, arvadın gözündən yaş çıxmırdı. Sanki laqeydləşmişdi, hər şeyə biganə idi.

O daha bir söz demədən camaatı yara-yara həyət qapısına tərəf irəlilədi. Qarşıdakı döngədən burulanadək hamının nəzəri onda idi. Nurxanım arvad səndələsə də, yıxılmadı, gəldiyi kimi asta yerişlə də çıxıb getdi.



***Təranə VAHİD***

*1971-ci ildə Laçının Mişni kəndində anadan olub.*

## DURNA ADAM
***(Hekayə)***

***Yaddaşını küləklər daradıqca sümüyü sürmə olmuş anasının həzin laylasını eşidir, iki yaddaş arasında nə edəcəyini bilmirdi...***

Əlif kişi payızda sümüklərini şaqqıldada-şaqqıldada evdən həyətə çıxar, köhnə kötüklərdən birinin üstündə oturub özünü guya günə verərdi. Belə vaxtlarda hardansa bir durna qatarı qaqqıldaşa-qaqqıldaşa kəndin, həm də elə payızın üstündən ötüb keçərdi. Əlif kişi başını qaldırıb pıçılğanlı gözləriylə göydə durna qatarını axtarar, koruş gözləri qara kölgələrdən başqa bir şey seçməzdi. Dişsiz ağzını marçıldadıb "Allahın altında dönüb durna olaydım. Qoşulaydım bu qatara, gedəydim dünyanın axırına. Ax, ax..." – deyib uzun-uzadı ah çəkərdi.Bu dəfə də payız qapının ağzını kəsdirib alabəzək qanadını kəndin üstünə sərmişdi. Əlif kişi kötüyün üstündə oturub cani-dildən, ürəyinin lap dərinliyində insanlıqdan üz döndərib durna olmaq istəyirdi. Çox istəyirdi, lap çox istəyirdi eyyy....Duaları eşidildi, əvvəl ruhu titrədi, yer-göy birləşdi, qoca, heysiz bədəni qayış kimi bərkidi, uzunboyun, uzunayaq, uzundimdik ağbaş durnaya çevrildi. Bircə yaddaşı üstündə qaldı, insan yaddaşına bir az da durna yaddaşı qarışdı. Kötüyə söykəli əl ağacı sürüşüb yerə düşəndə başı dən yeməyə qarışmış toyuqcücə həyətdəki yad quşu görüb səs-səsə verdi. Əlif kişinin gəlini Firəngiz səs-küy eşidib başıalovlu həyətə qaçdı. Kötüyün üstündəki durnanı görəndə əlini ağzına aparıb qıyya çəkdi:

– Boooyyy, bu durna hardan gəlib çıxdı?!

Arvadının səsi evdə mürgü döyən ərini diksindirdi. Nəcəf arvadının keçmiş-keçəcəyini söyə-söyə eşiyə çıxdı.

– Az, noolub, ay naxırçı Güləhmədin qızı, dünyamı dağılıb?

– Ə, noolajax, durniyə, bax, durniyə. Dimdiyinin uzunluğuna bax, ayaxlarına bax, dədənin evi yıxılsın, durna yeyəsi!

Nəcəfin gözləri ov görən çalağan kimi parıldadı. Pıçıltıyla:

– Az, səs salıb ürkütmə - deyib dalı-dalı geri çəkilib evə keçdi. Yan otağın pəncərəsini açıb eşiyə çıxdı, odunluğa gedib oduncaqların arasından əlinə keçəni götürüb pişiksayağı yerişlə durnaya yaxınlaşırdı ki, oğlu Hikmət hardansa peyda olub quşun qənşərində dimdik dayandı:

– Nətəhər də babama oxşayır, - deməyi ilə Nəcəfin salvanı qolazlamağı bir oldu. Salva durnanın başının üstündən vıyıltıyla keçib qızılgül koluna ilişdi.

Durna göz qırpımında havaya qalxdı. Nəcəf durnanın dalınca gücü gəldikcə bağırıb, yağlı bir söyüş söydü. Hikmət gözlərini qıyıb mırıq dişlərinin arasından:

– Getdi - dedi.

Firəngiz əlini-əlinə vurub:

– Yediz!!! – deyib şaqqanaq çəkdi.

Nəcəf donquldana-donquldana evə keçdi, Hikmət gördüklərinin üstünə beşini də qoyub danışmaq üçün məhlə uşaqların yanına qaçdı. Gödək payız günü dağın dalına keçib itdi, axşam düşdü. Evin külfəti malı-qoyunu, toyuq-cücəni, iti-pişiyi rahatlayandan sonra evə yığışdı. Əlif kişinin yoxluğu da onda üzə çıxdı. Kişinin taxtın üstündəki bomboş yeri, söykəndiyi ipək mütəkkəsi, kəhrəba təsbehi, yay-qış üstündən düşməyən dama-dama köhnə şalı elektrik işığında birtəhər göründü. Birdən-birə hamı narahat oldu, Firəngizin rəngi qaçdı. Günahkarcasına:

– Balam, hara getmiş olar bu kişi? - deyib çiyinlərini çəkdi.

Nəcəf gözünü oğlunun, arvadının üzündə gəzdirib dilxor-dilxor:

– Bax, düzünü deyin ha, birdən kimsə xətrinə dəyər kişinin, Allaha and olsun evi başınıza uçuraram! – deyib səsini qaldırdı.

Evdəkilərin ağızlarına su alıb durmaları onu təbdən çıxardı.

– O boyda kişi iynə olub samanlıqda itmədi ki?!

Firəngiz gözlərini çıpıb deməyə söz tapmadı. Hikmət həyətə qaçdı, bir azdan Əlif kişinin əl ağacı ilə qayıdanda kişinin başına qəzavü-qədər gəldiyi gün kimi aydın oldu...Əlif kişi iynə olmamışdı, amma quş olub göyə uçmuşdu. Göylərin genişliyi, rahatlığı, azadlığı ağlını başından almışdı. Qocalıqdan canı qurtarmış, işıqsız gözlərinə haradansa işıq axmış, nəfəsinin yeri genəlmiş, ayaqları, qolları quş kimi yüngülləşmişdi. Uzun qanadları enib-qalxdıqca, ürəyində "İlahi, kərəminə şükür, bəxtimdə durna olmaq da varmış" – deyib Yaradandan dualarını əsirgəmirdi. Göylərdə süzdükcə ovuc boyda kənddə doğulub, yaşayıb, ölməyin necə kasad olduğunu düşünürdü. Pambıq tayaları kimi yumşaq buludlara baş vurduqca lələkləri dincəlir, tər-təmiz havanı ciyərlərinə çəkdikcə yaşamaq, yaşamaq istəyirdi.

Yuxarıdan yer üzü ovuc içi kimi aydın görünürdü. Göllər güzgüyə, çaylar mavi rəngli lentə, dağlar torpağı qoruyan keşikçilərə bənzəyirdi.

Hansısa hiss, hansısa yaddaşı onu elə hey səsləyirdi. Əlif kişi nə qədər uçduğunu, nə qədər qanad çaldığını xatırlamır. Bircə onu xatırlayır ki, ay işığında ağqara səslər eşidib yerə endi. Çayın kənarında köç salmış durna dəstəsinə yaxınlaşdı. Onun gəlişi köçə qarışıqlıq saldı. Durnalar ögey, yad baxışlarla pnu süzdü, durnabaşı açıqdan-açığa üstünə yeriyib çağırılmamış qonağı dimdikləyib qovmağa çalışdı. Əlif kişi bir ayağı üstə dayanıb köçündən ayrı düşmüş qərib durna kimi boynunu bükmüşdü. Durna köçü dalğalandı, durnalar pıçıldaşdı, deyəsən, nəşələrini pozmaq istəməyib ağbaş durnanı başına buraxdılar. Əlif kişi çaya enib göz yaşı kimi dupduru, aydın suda yuyunub-darandı, çayınqırağındakı körpə

otlardan, qum dənələrindən çinədanına atdı, sal daşın üstünə qonub mürgü döydü. Sən demə, durnalar da yuxu görürmüş. Əlif kişi durna yuxusunda gördü ki, müdrik bir durna qanadının ucuyla torpağın üstündə xətt çəkib durnalardan soruşdu:

– Kim deyər, xəttin o üzündə nə var?

Durnalardan biri:

– Xəttin o üzündə torpaq var.

Bu cavab müdrik durnanı qane etmədi.

Başqa bir durna:

– Xəttin o üzündə yadlıq var. Ora sərhədin o üzüdür, ora mənə yaddır, ora təhlükəli yerdi, - dedi.

Müdrik durna razılıqla başını tərpətdi.

Sonra müdrik durna həmcinslərinə son tövsiyəsini verdi:

– Yaddaşınıza yazın, durna üç iqlim, üç sərhəd keçə bilər. Dördüncü sərhəddi keçən, geri dönməyəcək.

Sonra durnalar yox oldu, müdrik durna Əlif kişiyə bərk-bərk tapşırıldı ki, keçmişini yaddaşından silib atsın, durna olduğunu unutmasın. Əlif kişinin yuxusunu durnaların səsi qırdı.Durnabaşı uçub Əlif kişinin daşına qondu, onu dimdiklədi, gözlərinin içinə baxdı, dəstəsindən ayrı düşmüş durnaya nədənsə qanı qaynamadı, ağbaş durnaya inanmadı. Bunu Əlif kişi də duydu, amma neyləyə bilərdi. Dünyanı görmək, ölkələrin üstündən keçmək üçün nələrdən keçməmişdi? Durnabaşı sonda Ağbaş durnaya dəstəsinin sonunda yer verdi. Əlif kişi sevindiyindən rəqs etdi, zərif durna rəqsi...Ay işığını yer üzündən yığışdıramda dəstə havaya qalxdı...Uçuş zolağında Əlif kişinin insan yaddaşıyla durna yaddaşı toqquşdu. İnsan yaddaşı onu keçmişə, durna yaddaşı gələcəyə səsləyir, iki yaddaşın arasında nə edəcəyini bilmirdi. Gün yarı olanda Durnabaşının xəbərdarlığını eşitdi:

– Hazırıaşın, bir azdan sərhədi keçəcəyik. Sərhədi keçəndə yaddaşımız silinəcək, keçmiş bütün sevinci, kədəri ilə heç olmamış kimi unudulacaq. Yeni yol başlayıb, yeni yaddaş yazılacaq!

Əlif kişi eşitdiklərinə mat qalmışdı. O, keçmişi unutmaq istəmirdi, keçmiş onun içində ürək kimi döyünürdü. İndi günəşli havaya, dadlı otlara, giləmeyvələrə görə yaddaşından keçəcəkdi? Kəndini, evini, ona doğma olan nə varsa hamısının üstündən xətt çəkəcəkdi? İnsan yaddaşını durna yaddaşına dəyişəcəkdi?

Əlif kişi ağ zolaqda – sərhəddin sərhədində dayandı. Bütün qəlbi titrəyirdi, bütün vücudu əsirdi, keçmişindən qaçmaq, keçmişindən ayrılmaq, keçmişini unutmaq ona ağır gəlirdi. Dəstə sərhəddən keçdikcə, yaddaşını itirirdi. Əlif kişi-arzularının sərhədini keçsə də, Vətənin sərhədini keçə bilmədi. Yaddaşları silinən durnaların arxasınca uzun-uzadı, qanadları yorulanacan baxıb geri döndü. Uçduğu yollar, keçdiyi sular, toxunduğu buludlar, dincəldiyi, nəfəsini dərdiyi torpaqlar ona nəğmə deyirdi. Əlif kişinin insan yaddaşını küləklər daradıqca çox-çox uzaqlarda sümüyü sürmə olmuş anasının həzin laylasını eşidir, göz açdığı kənd, gəzdiyi torpaq, yaşadığı vaxt onun yolunu gözləyirdi. Günlərlə uçub öz

yurduna yağışlı-çiskinli bir gündə qayıtdı. Əlif kişinin yoxa çıxmasından yeddi gün keçirdi. Yağışın altında kəndin evləri hüznlü, kədərli görünürdü. Əlif kişi uzun yoldan sonra ürəyi döyünə-döyünə köhnə kötüyün üstünə qondu. Möcüzə baş vermədi, Əlif kişi dönüb adam olmadı. Səhərəcən köhnə kötüyün üstündə bir ayağını götürüb, o biri ayağını qoyub mürgülədi. Səhəri gün ev sahibləri dəstəsindən ayrı düşən durnanı kötüyün üstündə görəndə çaşıb qaldılar. Üzünü tük basmış Nəcəf durnaya doğması kimi baxdı, Firəngiz qərib durnanı görüb ağlamsındı, Hikmət babasına oxşatdığı durnanın boynuna sarılmaq istədi. Əlif kişi əzizlərinin ürəyindən keçənləri anladı, kötüyün üstündən yerə enib dən yeyən toyuq-cücəyə qarışdı.

Nəcəf:

– Ona toxunmayın, madam ki, bu qapıya pənah gətirib, qoyun kefi istədiyi qədər burda yaşasın, – dedi.

Bir vaxtlar sahibi olduğu həyətdə durna kimi yaşamaq çətin olsa da, Durna Adam hər şeyə razı idi, təki keçmiş xatirələrinin həzinliyi, yaşadığı illərin ətri, yaddaşının sərhədləri pozulmasın.

Vaxt keçirdi, Əlif kişi hər payız köhnə kötüyün üstünə çıxıb köç edən durnalara baxır, adam olacağı günü gözləyirdi...

***

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən:**

*Əziz həmvətənlər! Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq.*

*1 dekabr 2021*



***Zümrüd RƏHİMOVA***

*Rəhimova Zümrüd Bahadur qızı Kəlbəcər rayonunun Abdullauşağı kəndində anadan olub.*

**BOZ İLAN**
*(Hekayə)*

İstirahət mərkəzində qaldığım evin pəncərəsindən azacıq uzaqda, illərin sınağından çıxan qocaman çinar ağacı günəşin istisindən, küləkdən qoruyurdu otağımı. Hər gün minnətdarlıq hissi ilə baxırdım qoca Çinara...

Hava çox isti idi. Pəncərəyə yaxınlaşıb, çölə nəzər salmaq istəyəndə, bir boz ilanın ağacın qabarıq köksündən asta-asta yerə can atdığını gördüm. Uşaqlıq çağlarımdakı kimi ilandan qorxsam da, onu seyr etməyə başladım. Sürünüb yerə düşdü və otların arasından yoxa çıxdı.

Ağacın gövdəsinə küləyin atağı köhnə bir kişi ayaqqabısı iki budağın arasında ilişib qalmışdı.  Məndə maraq oyanmışdı. Gözlərim boz ilanı axtarırdı. Axşama yaxın sürünərək yuvasına, ayaqqabının içinə girib təzədən yoxa çıxdı.

Otaq yoldaşım olan yaşlı bir qadın həyəcan qarışıq qorxu hissiylə üzünü mənə tutaraq dedi:

– Səhər adəti üzrə bu canıyanmış ağacdan yerə düşəndə qorxuram kiməsə ziyan vursun. Yaxşısı budur, gedim bir kişi xeylağına deyim, gəlib onu öldürsün!

– Yox, dedim, yəqin yuvada balası var.

– Nə bilirsən görmüsən?

– Əlbətdə görmüşəm.Keçən gün budaqdan sallanıb qalmışdı. Nə düşə bilirdi, nə də yuxarı çıxa bilirdi. Ana ilan bunu hiss edəndə, qabarıq gövdəli ağaca sürətlə qalxıb, çıxıb onu xilas etd.

Qadın gülümsəyərək:

– İlana yazığın gəlməsin.Onun adı üstündədir.

Ona cavabım gecikmədi:

– Nə olsun ki ilandır, axı o da anadır...

Bax, beləcə seyr edirdim bu mənzərəni görməyəndə darıxırdım. Ana ilan axşamlar qayıdıb, yuvasına girəndə, sanki rahatlıq tapıb, sakitcə,çəkilirdim pəncərədən...

Ertəsi gün divanda oturub kitab oxuyurdum. Bayırdan qəflətən qışqırıq səsi gələndə, yerimdən sıçrayıb pəncərənin qabağına gəldim. Çinar ağacının altına xeyli adam toplaşmışdı. Təcili yardım maşını həyəcan siqnalı verə-verə iztihama yaxınlaşdı. Tələm-tələsik aşağı düşüb, nə baş verdiyini öyrənmək istərkən, yanımdakı qadın mənə tərs-tərs baxaraq ucadan dilləndi:

– Deyirlər bir uşağı həmən ilan çalıb, xəstəxanaya aparırlar, vaxtında qoysaydın...

Çevrilib yan tərəfə baxanda boz ilanın başının əzildiyini görən kimi üzümü yana çevirib, dərhal qoca çinarın gövdəsinə baxdım. İlanın balası gözümə sataşmadı, yəqin ki sürünüb hardasa gizlənmişdi.

Məyus halda ilan vurmuş uşağını bağrına basıb, ağlaya-ağlaya "təcili yardım" maşınına minən ananın necə haray qopaqdığını eşidəndə, məzəmmət dolu baxışlarla məni süzən otaq yoldaşıma yanaşıb pıçıldadım:

– Bağışla məni, sən düz deyirmişsən, ilanın ağına da, qarasına da lənət, onu elə görən kimi öldürmək lazımmış. Ona mərhəmət edəndə hansı ananısa gözü yaşlı qoyurmuş, qarşımızdakı bu başı əzilən ilan kimi.

Qadın başı ilə sözümü təsdiqlədi:

– Yadında yaxşı saxla haa, cinayət cəzasız qalanda baax, Allah göztərməsin, axırı belə olur!..





***Nəriman MAHMUD***

*Mahmudov Nəriman Məhəmmər oğlu 1962-ci ildə Cəbrayıl rayonunun Xələfli stansiyasında doğulub.*

**ŞAHVERDİNİN AQİBƏTİ**
(hekayə)

Bəndalı müəllim dünyanın hər üzünü görmüşdü. Hələ gəncliyindən eyni məktəbdə müəllim işləmiş, halal zəhməti ilə ev-eşik qurmuş, ailəsini dolandırmışdı. Amma sovet hökumətinin tifaqı dağılandan sonra çoxları kimi, o da dolanışıq sarıdan korluq çəkirdi. Məktəbdən aldığı əmək haqqı ailənin cəmi on günlük xərcini güclə ödəyirdi. Uşaqları böyüdükcə xərcləri də özləri ilə birlikdə böyüyür və Bəndalının dərd-səri də artırdı. O, çox fikirləşdikdən sonra müəllimliyin daşını atıb, xırdavat alverinə girişdi. Amma bu da işinə yaramadı. Deyəsən, alver də onluq deyildi. İki-üç ay başını qarışdırıb, ticarətin də daşını atdı. Yenidən məktəbə qayıtmağa da utandı. Hardan ağlına yerləşdisə, fəhləliklə başını dolandırmaq qərarına gəldi. Bəndalı səhərin gözü açılmamış yuxudan oyanar, bir tikə şor-çörəyini yeyib evdən çıxar, xeyli işsizin toplaşıb müştəri gözlədiyi "qul bazarı" deyilən yerlərdə qaş qaralana qədər dayanardı. Hərdən evə cibi boş qayıtsa da, bəzən elə olurdu ki, bir "yağlı" müştəri çıxar, onu avtomobilinə əyləşdirib, özünün həyətyanı sahəsinə aparar, axşama qədər işlədər, sonra da qaneedici zəhmət haqqı ilə yola salardı. Və bu da Bəndalının ailəsinin beş-on günlük xərcini ödəyərdi. Amma müştərilərin hamısı belə olmurdu. O, yüz manatlıq iş üçün otuz-qırx manat verib yola salan insafdan kasıb "yağlı" müştərilərlə də qarşılaşırdı. Eləsi də olurdu ki, bir-iki saat işlədəndən sonra nəyisə bəhanə edərək "xox" gəlib evdən pul-parasız qovardı. Beləcə, Bəndalı müəllim, "bəy verən atın dişinə baxmazlar", – deyib başını ala-babat dolandırardı.

Bir dəfə Bəndalının başına indiyə qədər görüb eşitmədiyi qəribə bir iş gəldi. "Qul bazarı"nda dayanıb hər gəlib-gedənə müştəri kimi baxan Bəndalı müəllimin bəxti günortaya kimi gətirməmişdi. Günortadan az keçmişdi ki, qara rəngli "BMW" markalı avtomobil qəflətən qarşısında dayandı. Sürücüdən əlavə qabaq oturacaqda bir qadın da əyləşmişdi. "Bazar" yoldaşları avtomobilin üzərinə şığıyıb, onu dövrəyə alaraq xidmətlərini təklif etdilər. Sükanın arxasında əyləşən çil-çopur, kələ-kötür sifətli, şişman bədənli, özünü Şahverdi kimi təqdim edən zəhmli kişi başını pəncərədən çıxarıb hamını nəzərdən keçirdi. Xeyli baxıb domba gözlərini nədənsə Bəndalı müəllimin sifətinə tuşladı. Barmağının işarəsi ilə onu çağırıb avtomobilə əyləşdirdi. Üzünü hələ də ətrafda dayanan adamlara tutaraq, "bir nəfər kifayətdir", – deyib avtomobili işə saldı...Maşın Bakı kəndlərinin birində, hündür hasarlı həyət darvazasının ağzına yetişəndə gündüz saat dörd olardı. Həyətdə qələbəlik idi. Xüsusi zövq və səliqə ilə salınmış qalın kölgəli üzüm çardağının altında zəngin süfrə açılmışdı. Masanın arxasında iki nəfər orta

boylu, yoğun peysərli, sallaq qarınlı kişi oturmuşdu. Digər ikisindən biri nisbətən arıq və uzun boylu, o birisi isə normal bədənli, səliqə ilə geyinmiş, qalstuklu, amma sir-sifətdən azca eybəcər, gözləri porsuq gözünə bənzər bir kişi idi. Həmin kişilərlə üzbəüz dörd qadın da əyləşmişdi. Şahverdi avtomobildən düşüb yanındakı qadının qolundan tutaraq, onu da həmin xanımların cərgəsində əyləşdirdi. Ev sahibinin hərbi xidməti yenicə başa vuran oğlu Ağaverdi təxminən bir saatdan sonra evlərində olacaqdı. Sallaqqarın kişilərdən biri hamını qabaqlayıb Şahverdiyə gözaydınlığı verdi:– Gözlərin aydın, Şahverdi müəllim, gün olsun səs-sorağı böyük yerlərdən gəlsin! Sallaqqarının ardınca o biri kişilər və xanımlar da tutuquşu kimi eyni sözləri təkrarladılar. Şahverdi də adamların topasına bir təşəkkür edib, evin arxasına keçdi. Təzə kəsilmiş quzu ətindən kabab çəkən təxminən 35 yaşlarında iki kişidən soruşdu:– Hə, qoçaqlar, iş nə yerdədir?

– Narahat olmayın, Şahverdi müəllim, Ağaverdi gələnə qədər hazır olar, – deyə kişilərdən biri cavab verdi.

Şahverdi vəziyyətlə tanış olub qayıdana qədər hələ də avtomobilin salonunda gözləyən Bəndalının ev sahibindən ağlı bir şey kəsmədi. – Görəsən, bu kişi məni bura nədən ötrü gətirib, – deyə narahat olmağa başladı. Bir azdan ona tərəf gəlməkdə olan Şahverdidən nəsə soruşmaq istədi, amma ondan daha çox, masanın arxasındakı pəzəvəng kişilərə baxıb fikrindən daşındı. Canına qorxu oturdu. Ora-bura göz gəzdirdi. Deyəsən, bu həyətdə onun görəcəyi bir iş də yox idi. Canını dişinə tutub soruşdu:– Mən nə iş görməliyəm?

– Bir az səbrin olsun də, kişi, indi deyərəm,– Şahverdi cavab verdi.

Hesabla Ağaverdinin də gəlməyinə lap az qalırdı. Şahverdinin kefi də özü və qonaqları kimi kökəlmişdi. Üzünü Bəndalıya tutdu, hasarın uzaq küncündəki tikilini göstərərək: – Müəllim, ora bax, toyuq hinini görürsən? – deyə soruşdu.

– Görürəm, – Bəndalı dedi.

– Gedib hinin qapısını açarsan, orda iri bir xoruz var, onu açıb bayıra buraxarsan...

– Elə bu? – Bəndalı ev sahibinin sözünü kəsdi.

– Kişi, altıaylıq-zad deyilsən ki, bir az səbirli ol, – Şahverdi əsəbi tonda dilləndi. – Xoruzu açıb burax, sonra qovalayıb tut gətir, – dedi.

Bəndalı müəllimin içində nəsə qırılıb ayaqlarının altına düşdü sanki. İstədi ev sahibinin yeddi arxa dönənini "yağlı" söyüşlərə qonaq eləsin. Amma uşaqların ac-susuz yatdığı günləri yadına salıb susdu. Xoruzu açıb həyətə buraxdı, arxasına düşüb qovmağa başladı. Mal yiyəsinə oxşamasa haramdır, deyiblər. Xoruz da Şahverdi kimi tərsin biri idi, tutduruq vermirdi. Masa arxasında oturan qonaqlar da "ayə, qoyma getdi", "ayə, qabağını kəs" kimi sözlərlə müəllimə qıcıq verir, məzələnir, gülməkdən uğunub gedirdilər. Bəndalının da ürəyi daşdan deyildi. Daşdan ağır sözlərə tab gətirməyib qəflətən tappıltı ilə yerə sərildi. Bu vaxt üzü asfalta açılan həyət qapısı tərəfdən tükürpədici səs gəldi. Şahverdi, arxasınca da qonaqlar bayıra qaçdılar. Taksidən düşüb yolu adlamaq istəyərkən, KAMAZ markalı yük avtomobilinin təkərləri altında qalan Ağaverdinin qanı asfaltın üstündə göllənmişdi.



***Polad POLADOV***

*Poladov Polad Osman oğlu 6 iyun 1974-cü ildə Qafan rayonunun Kurud kəndində anadan olub.*

## O GEDİŞ BAŞQA GEDİŞ İDİ…

*(Hekayə)*

Dərs yenicə başlamışdı. Müəllim köhnə mövzunu şagirdlərin necə qavramasını yoxladıqdan sonra yeni mövzuya keçmək istəyirdi ki, məktəbin zəngi çalındı və uzun müddət zəng səsi kəsilmədi. Bütün müəllimlər odaya tələsdilər və tələsik də odadan geri qayıtdılar. Şagirdlərə göstəriş verdilər ki, siz evlərinizə gedin…

Biz nə baş verdiyini anlaya bilmirdik. Evə gəldik. Evdə dedilər ki, bəs Vətən Müharibəsi başlayıb. Kəndə maşınlar gəlib, gedirdi. Atam da o maşınlardan birinə minib rayon mərkəzinə getməyə tələsirdi. Evdən çıxanda üzümüzə baxıb kövrəldi və duyğulandığını gizlədib, azacıq gülümsəyərək, salamat qalın- dedi. Evdən çıxıb maçın yoluna çatana kimi bir neçə dəfə dönüb geriyə baxdı. Onun bu gedişi bambaşqa idi. O, rayona gedəndə bir dəfə də olsun geri baxmazdı. Bu dəfə isə...

Günün axşam xəbərlərində eşitdik ki, cəbhədə gərgin döyüşlər gedir. Hamı nigaran idi. Mən indi anlamışdım ki, atam niyə gedəndə tez -tez geri baxırdı.

Səhər yenicə açılmışdı. Biz məktəbə hazırlaşırdıq. Anam üzümüzə baxa-baxa nəsə demək istəyir, amma heç nə demirdi. Səssiz-səmirsizcə bizi məktəbə yola saldı. Artıq uşaqların hamısı siniflərə dolmuşdu. Nədənsə zəngin səsi gəlmirdi. Vaxt keçmişdi. Biz sinif otağından çölə sıxdıq ki görək niyə zəng çalınmır. Gördük ki, qadın müəllimələrimizin hamısı odanın qabağında dayanıb. Həmişə şən, gülərüz görünən, deyib gülən müəllimələrimiz indi sükut içindədirlər. Anladıq ki, müəllimələrdən heç biri kişi müəllimlər olamyan odaya girmək istəmirlər. Heç odanın qapısından qıfıl da açılmamışdı. Xadimələr müəllimlərsiz qapını açmaq istəmirdilər.

Az sonra uzun illər məktəbimizdə direktor işləmiş Tahir müəllimin bu yaşlı halında yavaş-yavaş məktəbə tərəf gəldiyini gördük. Biz onun qabağına qaçıb qarşısında sıraya düzüldük. Bir anlığa onun hər səhər dərsə gəlib bizi salamladığı vaxtları düşündük. Tahir müəllim bizi görmürmüş kimi yanımızdan keçib müəllimlər odasına tərəf getdi. Müəllimələrə çatanda bir an dayandı, arxaya dönüb, Salam uşaqlar,- dedi. Müəllimələr də uşaqlara qarışıb “Salam Müəllim” dedilər.

Tahir müəllim odaya yaxınlaşdı. Təqaüdlə bağlı neçə illərdi məktəbdən ayrılanda odanın açarının birini yeni direktor hörmət əlaməti olaraq ondan almamışdı. Açarı cibindən çıxarıb qapının qıfılını açdı. Odanın qapısını açanda bayaqdan gizlətdiyi kövrəkliyi saxlaya bilmədi. Gözlərindən yaş süzüldü. Müəllimələr də Tahir müəllimə qarışıb elə bil ki, bayaqdan gözləyirdilər ki, kimsə bunlara bir təkan versin ki, gözlərindən sel axsın.

Tahir müəllim içəri boylandı. Müəllimlər döyüşə tələsdiklərindən hərəsinin əşyaları bir yerdə qalmışdı. Atamın qələmi açıq jurnalın ortasında, onun yanında oturan coğrafiya müəllimimizin xəritə çubuğu stolun üstündə idi. (Hansı ki, o çubuq əlimizə başqa vaxt keçsəydi qırardıq. Çünki, müəllim o çubuqla kim dərsini bilməsə onu vurardı). Riyaziyyat müəllimimizin motosikletinin açarı yadından çıxıb burda qalmışdı. Digər riyaziyyat müəllimimizin stolunun üstündə bir vərəq vardı. Vərəqdə kvadrat tənlik həll edirmiş, dikrimantı tapanda "D=" yazıb və elə burdaca qələmi vərəqin yanına qoyub, çıxıb. Rus dili müəllimimiz hansısa dərsə gedəcəkmiş,- deyə həmin sinfin yoxlama dəftərlərini hazır qoymuşdu. Bunları görəndə kövrəlməmək mümkünsüz idi. Qocaman Tahir müəllim qadın müəllimələrə göstəriş verdikdən sonra şagirdlər siniflərə getdi.

Beləcə 44 gündən sonra Vətən Müharibəsi başa catdı. Hamı həsrətlə hər gün gözləyirdi ki, görəsən döyüşə gedən müəllimlərimizdən kim qayıdacaq. Həyəcan gündən günə artırdı. Birdən kəndə səs yayıldı.

Dolayıdan Hərbi Maşın gəlir...





***Elman RÜSTƏMOV***

*26 iyul 1966-cı ildə Qafan rayonun Aşağı Girətağ kəndində doğulub.*

## TƏSƏLLİ
*(hekayə)*

Ara-sıra fürsət tapıb əl telefonlaından etdiyi zənglər ailəni azca da olsa ümidləndirir, ailə üzvlərinə sevinc bəxş edirdi. Bu gün isə məktub yazmaqla ailəsinə sevinc bəxş etmək fikrinə düşmüşdü. Kaş imkan verərdilər bütün bunları telefon ilə çatdırardı ailəsinə. Ata-anasının, bacılarının necə sevindiklərinin şahidi olardı telefonda. Ancaq əfsuslar ki, hərbi xidmətdə telefon ilə danışmaq yasaq idi və hərdən imkan olanda da ürəkdolusu danışmaq mümkün olmurdu. Adətən, əsgər yoldaşlarının valideyinləri hərbi hissəyə təşrif gətirəndə, onların telefonundan zəng etmək fürsəti yaranırdı ki, onda da çox kontur getməsin deyə bir dəqiqədən artıq danışa bilmirdi... Axı evlərində atasının yeganə, köhnə markalı “Aselsan” telefonuna yüklədiyi konturdan necə qənaətlə istifadə etdiyinin şahidi olmuşdu. Atası həmin telefona əlillik təqaüdünü alarkən 5 manatlıq kontur yükləyər, həmin kontur bir ay müddətinə ailənin bütün telefon söhbətlərinə bəs edər, hələ ayın sonuna ehtiyat kontur da qalardı... Hərbi hissədə yalnız bircə dəfə, müşahidə postuna birgə çıxdıqları əsgər yoldaşının atası təşrif gətirəndə, onun telefonundan zəng edib ev ilə düz beş dəqiqə danışmış, ailə üzvlərinin hamısı ilə hal-əhval tuta bilmişdi. Əsgər dostunun atası telefonu ona uzadaraq “al, limitsizdir, nə qədər istəyirsən, danışa bilərsən ” demişdi. Əfsuslar olsun ki, əsgər dostunun atasının hərbi hissəyə ilk gəlişindən sonra dostunu başqa bölüyə, yardımçı təsərrüfat bölüyünə keçirmişdilər və bir daha limitsiz telefondan zəng etmək fürsəti ələ düşməmişdir. Odur ki, indi öz sevincini ailəsi ilə bölüşmək üçün məzuniyyətə yollanan kəndçilərindən məktub yazıb göndərmək qərarına gəlmişdi.

*Əziz və hörmətli, atam, anam, bacılarım.*

*Hamınızıa salamlar. Hamınızı bağrıma basıb bərk-bərk öpürəm. Ata, hər şey yaxşıdır burda, elə bir korluğumuz yoxdur. Orduda vəziyyət xeyli düzəlib. Ön xəttə olmağımıza baxmayaraq demək olar ki, hər şeylə təmin olunmuşuq. Geyimim, yeməyim, içməyim, hər şey qaydasındadır. Burda sizdən yaxşı qidalanıram desəm, gülməyin. Evdə axırıncı dəfə nə vaxt ət yeməyi yediyimi unutmuşdum. Burada isə, maşallah, hər gün ət yeməkləri, balıq konservləri verirlər. Yeməyimizi isə Əmir dayının yeməkxanasında işləyən xalam kimi xalalar bişirir. Elə xalam bişirən yeməklərin dadını verir bişirdikləri yeməklər. Anamın yadındadır, rayon mərkəzinə şəxsiyyət vəsiqəmi almağa gedəndə, günorta orada borş yemə-*

*yimiz. Sonra anam evdə nə qədər borş bişirirdisə də, həmin borşun dadını vermədi. Bunu anama deyəndə anam inciyərdi. Deyərdi, "onda ac idin, ona görə xalanın borşu sənə elə dadlı gəldi". Amma, ana, indi tapdım ki, səbəb ac olmağım deyilmiş. Sadəcə borşa dad verən ətdir. Sən borşa ət atmırdın axı... Bu gün isə əsl bayram oldu. Müdafiə nazirinin özü biz tərəfə gəlmişdi. Yeməkxanamıza girdi. Biz oturan stolda oturdu. Nələr yoxdu stolda. Kənd toylarını demirəm, heç telekanallarda göstərilən şəhər toyxanalarında da elə süfrə bəzəmirlər. Nələr yox idi süfrədə. Banandan tutmuş mandarinə qədər. Növbə-növ salatlar, dolma, kiftə bozbzaş, plov, nə bilim nələr. Doyunca yeyib, növbə-növ soklardan içdik. Əməlli-başlı kef etdik. Çoxdandır belə kef görməmişdim...*

*Ata, mənim yanıma gəlmək fikrini başından çıxart. Gəlmək lazım deyil. Vurtut iki qoyunumuz var. Onun da birini satsan o birisi xiffət eyləyəcək. Fikir etməyin. İnşallah əsgəri xidmətdən gələndən sonra bankdan kredit pul götürüb 10-15 qoyun alarıq. Bəsləyib çoxaldarıq. Qoyun gəlirli şeydir. Həm südündən pendir tutub satarıq, həm də yununu. Daha mən böyük kişi olmuşam. Qış üçün ot tədarükünü özüm edərəm. Yaxşı planlarım var. Siz özünüzdən muğayat olun. Məndən heç nigaran qalmayın. Fürsət düşəndə yenə zəng edəcəm. Telefon yanınızda olsun. Bu yaxınlarda bir dəfə nə qədər zəng etdim, götürən olmadı. Yəqin tarlada olmusunuz.*

*Söhbət gedir ki, yaxın günlərdə yenə bayram süfrəsi bəzəyəcəklər. Bakıdan qonaqlar gələcək, əsgərlərin vəziyyəti ilə tanış olmağa. Məndən nigaran qalmayin. Buraların havası da elə kəndimizin havası kimidir. Təmiz, qarlı şaxtalı dağ havasını ciyərimə çəkməkdən doymuram. İndi bu məktubu yazandan sonra posta çıxıram. Altı ayım tamam olan kimi mənə də məzuniyyət verəcəklər. Kəndçimiz Orxanın vaxtı tamam idi, ona görə ona məzuniyyət verdilər. Bir həftəlik. Əvvəlcə Sumqayıta xalasıgilə gedəcək, sonra oradan kəndimizə gələcək. İnşallah üç günə məktubum catar sizə..."*

***

Təəssüflər olsun ki, əsgərin nəşi məktubundan tez çatdı ailəsinə. Məktubu ilə ailəsinə sevinc bəxş etmək istəyən əsgər ölümü ilə fəryad, nalə, dərd-qəm bəxş etdi ailəyə. Anasının naləsi dağ-daşa səs saldı. Bacılarının fəryadı əks-səda verib qayaların qoynundan qar uçurumuna səbəb oldu. Cırılmış, didilmiş sifətlərdən axan al qan kəndə təzə yağmış ağ qarı qırmızı rəngə boyadı. Yas üçün qurulmuş cadırın çölündə kəndin kişilərinin biri digəri ilə alışdırılan siqaretlərinin kötükləri ağ qarda qara dəliklər yaratdı. Nə kənd əhlinin, nə tanışların, nə qohumların, nə hərbi hissədən və hərbi komissarlıqdan gələnlərin verdikləri təsəllilər, başsağlıqları ovundura bilmədi şəhid ailəsini. Ata-anasına şəhid ailəsi kimi qurürlu bir ada sahib olduqlarını bildirsələr də, nümayəndə heyyəti tərəfindən tabutuna bükülmüş mılli bayraq alqış sədaları altında şəhidin atasına təqdim olunsa da, bu təsəlli ola bilmədi madar oğullarını itirmiş valideyinlər üçün. Get-gəl qirx gün ara vermədi. Yerli bələdiyyə və rayon icrası bütün dəfn xərclərini öz üzərinə götürdü, xeyli yardım və pul da verdilər. Lakin bunların heç biri şəhid ailəsini ovundurmur, onların dərdini yüngülləşdirmirdi. Təskinlik tapa bilmirdi şəhid ailəsi...

***

Qırx məclisindən sonra gediş-gəliş yavaş-yavaş seyrəlməyə başladı. Hərdən qonşular, qohumlar, axşam mal-heyvanlarını yerbəyer etdikdən sonra gəlsələr də, çox otura bilmir, təskinlik üçün bir söz tapıb deyə bilmirdilər. Qırx məclisindən sonrakı günlərin birində qırx məclisi üçün alınmış kələmin qalıqlarından ana yenə borş bişirmiş, məclisdən qalan bişmiş ətləri də həmin borşa əlavə etmişdi. Ata, ana və 2 qız övladından ibarət şəhid ailəsi hüzn ilə nahar süfrəsinə oturmuşdular. Ana borşdan bir qaşıq həvəssiz olaraq ağzına apardı. Bir il əvvəl oğlu ilə şəxsiyyət vəsiqəsi almaq üçün gedərkən rayon mərkəzində bacısının işlədiyi yeməkxanada yedikləri borşun tamını verdi ətli borş. "Can balam. Bir daha həmin dadlı borşdan yemək nəsib olmadı sənə" deyərək hönkür-höhkür ağlamağa başladı. Qızları da ona qoşuldu. Ata isə borş çəkilmiş qabını kənara itələyib növbəti siqaretini yandırdı. Pəncərəni açıb siqaret kötüklərindən dolmuş külqabını boşaldanda şəhid övladları ilə eyni hərbi hissədə xidmət edən əsgərin valideyinlərinin onlara gəldiyini gördü. Yandırdığı siqaretdən bir qullab ürəkdolusu ciyərlərinə çəkdikdən sonra "sakit olun" – dedi – "gələn var". Gələnlər məktub gətirmişdilər. Məktub gətirənlər də qırx gün əvvəl övladlarının məzuniyyətə gəlməsindən ürəkdən sevinə bilməmişdilər. Necə sevinə bilərdilər?! Kəndçilərinin oğlu ondan üç gün əvvəl şəhid olub gəlmişdi axı. Bütün kənd yasa qərq olmuşdu. Məzuniyyətə gələn əsgərin özü də bu qəfil ölümdən şoka düşmüş, "ola bilməz" demişdi. "Üç gün əvvəl onu hərbi hissədə sağ-salamat qoyub gəlmişəm mən" söyləmişdi. "Hələ məktub da gətirmişəm ailəsinə". Əsgərin valideyinləri xeyli məşvərətdən sonra belə qərara gəlmişdilər ki, qırx məclisindən sonra məktubu versinlər ailəyə. "Bəlkə əsgərin ölüm sirri elə bu məktubda gizlənir" düşünmüşlər. Açıb oxumaq fikrinə düşsələr də, tez də vaz keçmişdilər bu fikirdən. Ancaq oğlanlarının kənddə olduğu 3 gündə onu camaat arasına çıxmağa qoymamış, xeyli sorgu-suala tutsalar da bir şey hasil edə bilməmişdilər. Ər-arvad içəri girib ailəyə xeyli təsəlli verdikdən və ananın bişirdiyi isti borşdan şəhid eysanı kimi bir qab yedikdən sonra, şəhid olmuş əsgərin ilk və son məktubunu onun valideyinlərinə verdilər. Məktub çox həyəcanlandırdı ailəni. Burada bir sirr olduğunu, bu məktubla oğlanlarının ölümündə hansısa birr sirrin üstünün açılacağını zənn etdilər. Halı pisləşdi ananın. "Oğlum nə yazıb görəsən?!. Bəlkə özümüzünkülər öldürüb?. Bəlkə bezdiriblər?. Məktub yazib qoyub, özünə qəsd edib bəlkə?!. Bu nə məktubdur belə"... Ancaq məktubu bir neçə dəfə oxuduqdan və qonşuların verdiyi ətraflı izahatdan sonra xeyli sakitləşdilər. Xeyli də ağladılar. Rahatlandılar elə bil. Odun peçi çatılmiş otağı, çətin alışan ağacların tüstüsü ilə bərabər, siqaret tüstüsü bürümüşdü. Kişilər otaqda sanki siqaret çəkmək yarışına girmişdilər. Artıq külqabı kötüklərdən yenə dolmuşdu. Bu dəfə qonşu kişi pəncərəni açıb külqabını boşaltdı. Şaxtalı, təmiz hava tüstülü otağa doldu. Ağlamağa fasilə vermiş ana ayağa qalxıb pəncərənin önünə gəldi, şaxtalı, soyuq təmiz qar havasından ciyərlərinə çəkdikdən sonra "Allah sənə min şükür", dedi. "Oglum dünyasını ac dəyişməyib. Allah, oğluma doyunca yemək verənlərin övladlarına aclıq göstərməsin".

Ana təsəllini oğlunun bu dünyadan ac deyil, tox köçməyində tapmışdı...

*08.02.2016*



**Tahirə BƏDƏLOVA**

*Bədəlova Tahirə Xaləddin qızı 1952 ci il avqustun 1-də Qubadlı rayonunun Dondarlı kəndində anadan olub.*
*Tahirə BƏDƏLOVA*

*Esselər*

## XİYABANDA...

*Şəhid Nadirimə*

Xiyabanda – onun məzarı önündə rastlaşdıq...Bir- birimizə baxırıq... Həmişə olduğu kimi, susaraq... Zahirən belə görünür. Baxışlarımız ürəyimizdə öz- özümüzlə danışdıqlarımızı biruzə verir... Beləcə anlar ötüşür..Birdən içimizdəki “vulkan” püskürür!.. Qucaqlaşırıq!..Sanki illərlə tutulmuş bulağın gözü açılır...Gözlərimizdən axan “sel” bir- birinə qarışır...Beləcə ağlayırıq, içimizə qalaqlanan dərd- ələm bir az boşa-lır. Sakitcə daşdan bizi maraqla seyr edən Nadirin önündə çökürük...Yəqin ki, O da illərdi bu ziyarəti gözləyirmiş!Mənsə???...

Mənsə Sənin bu görüşünü günlərlə ac qalmış insanın bir parça çörək tapdığı zaman dizlərinə necə qüvvə gələrsə, səhrada süsuzluqdan dodağı cadar- cadar olmuş yolçu bir parç su tapanda necə sevinərsə, mən də səni görəndə elə bildim, ürəyimin yanğısı bir az azaldı, bir az söndü...Sənin gözlərində gördüyüm işıq sevindirdi məni!.. Çox sevindim!.. Elə bil itirdiyim ən qiymətli bir daşı tapmış kimi! Həmişə təəssüflənərdik, gileylənərdik, kaş ki bir nişanəsi qalaydı...Sanki mən bu gün o nişanəni tapmışdım, Sənin şəxsində!..Sənin gözlərinin dərinliyində gizlənən o kədəri gördüm... Bir qədər yaşlaşmış çöhrəndə illərin yığılıb qalmış yorğunluğunu hiss etdim. Etiraf edə bilmədiyin bu hislər səni yormuşdu...

İncimə, mən sevinirdim.. .Səni tapdığım üçün, səni duydu-ğum üçün, səni kəşf etdiyim üçün...Sanki bir yükdən, bir ağırlıqdan xilas olmuş kimi...

Mənim Nadirimin də gözləyəni varmış!..Nadirimin, balalarımın qürur duyduqları, həsrətini qəlblərində daşıdıqları qardaşlarının onun ürəyində yaşadığını duydum...Deyirsən ki, yuxularımdan çıxmır Nadir...Deyirsən ki, hara baxıram, onu görürəm! Deyirsən ki, şəkilini saxlayıram..Deyirsən ki...Sənə təşəkkür edirəm! Allah səni qorusun!Həmişə yolun açıq olsun! Sənə dua edəcəyəm, neçə ki, varam! Neçə ki yaşayıram! Dua edəcəyəm Ana kimi! Dua edəcəyəm Anan kimi!

***

Ağlama, şəhid anası, ağlama!..

Ürəyim dağlanır sənin hıçqırqlarından...Göz yaşın yandırır məni vücudum boyu, ağlama!!! Deyirlər ki şəhid anası qürurlu olar, vüqarlı gəzər. Deyirlər ki şəhidlər Haqq dərgahında ən uca zirvədədir! Deyirlər ki Vətən üçün can qoyan, qan tökən “ölməz”, deyirlər ki...Hamısı düz!... haqlısınız...

Axı darıxıram... Bircə... Tək bircə dəfə...

Darıxıram sənin üçün!.. qucmaq istəyirəm səni... Barmaqlarımı gur saçlarına taxmaq, qarışdırmaq istəyirəm. Yanaqlarına sığal çəkib, qumral gözlərindən öpmək istəyirəm!.. Başımı sinənə qoyub, qoxunu ciyərlərimə çəkmək istəyirəm...

Bircə dəfə, bircə dəfə o xoş, həzin səsini eşidə biləydim kaş... Kaş oğlum, deyib sarıla biləydim...

...Kaş... bircə dəfə, bircə dəfə!..
Zaman hər şeyi həll etmir axı...
Darıxıram, bircə dəfə görmək istəyirəm...
“ölürəm” bu görüş üçün... darıxıram, çox darıxıram...
Sizdən çox şey istəmirəm ki...
Tək, bircə dəfə...

**VƏTƏN!**

“HƏR ŞEY VƏTƏN ÜÇÜN ” demişdik ya!
Səni sevdim, tutyam dedim!
Yolunda candan keçərəm dedim!
Heç kim, heç nə Sənin tək sevilmədi ki!
Heç kim ciyərinin bir parçasın nəyəsə, kiməsə qurban verməz!
Sənə Verdi!
Heç kim övladının tökülən qanına baxıb nəyəsə, kiməsə “sağ ol” deməz.
Sənə dedi!
Heç kim övladının üzündə kədər, gözündə yaş olsun, istəməz.
Sənin üçün istədi!
Sən fəxr et, Vətən!
Sən fəxr et ki, uğrunda vuruşan, qan tökən övladların var!
VƏTƏN!

**Qubadlıdan gəlirəm...**Dondarlı, Dəmirçilər, Mirlər...kəndlərimizi ilk dəfə ziyarət etmək nəsibim oldu...Bu xatirələrimi yazdıqca, heç düşünməzdim ki, vaxt gələcək "O yollar" tarixə çevriləcək, (eləcə də yaşayış yerləri) o tarixi yaşayanların ömrü qədər yaşaya biləcək. Xarabalığa çevrilmiş kəndlər, izləri yoxa çıxmış, alaq otları, tikanlarla örtülmüş yollar..
Ola bilər (olacaq da) "ağıllı kəndlər " salınacaq, gözəl şərait də düzələcək.
Ancaq...Bəli, ancaq...Axı yaşadığın, doğmalaşdığın, hər daşında, divarında, küncündə nəfəsinin istiliyin, Ata-Ananın pıçıltıların, əzizlərinin xatrirələrilə dolu olan, sənin üçün müqəddəsləşən bir məkanı nə əvəz edə bilər ki..Qubadlıdan gələndən, elə bil, bir "itiyim itib"... Ha çalışıram yerinə qoya bilmirəm ...Olanlar onsuz da olub, təki bir də şəhidimiz olmasın, heç bir ömür vaxtsız solmasın...may 2025-ci il.



***İlhamə NASİR***

*Qubadlı rayonunun Diləli Müskanlı kəndində dünyaya göz açıb.*

## MƏKTUBLAR

Züleyxa Yusif haqqında eşitdiyi hər bir xəbər üçün ənam verdiyi kimi, Gülzar da Qubadlıdan xəbər gətirənə heç olmasa bir stəkan çay verib rahatlanırdı. Məhəllənin uşaqları da çoxbilmiş idilər. Hər pensiya vaxtı Gülzarın qapısının önündə peyda olurdular. “Deyirlər danışıqlar gedir, tezliklə Qubadlı qaytarılacaq” deyib, 2-3 manat qopara bilirdilər ondan. Bəlkə də qaçqın gələndən min dəfə, milyon dəfə eşitmişdi bu üç sözlük cümləni – “tezliklə torpaqlar alınacaq!” Bu ilahi kəlamın əsiri olmuşdu sanki. Hər eşitdiyində, sifətində kök salıb iz buraxmış həsrət, niskil, ağrı-acı bir andaca yox olurdu, yerini itirmiş cavanlığının şıltaq gülüşü əvəzləyirdi. Bəlkə də onu bu yaşa gətirib çıxaran da elə bu üç sözlük cümləyə bağlılığı olmuşdu. İlahi, insan sözlərə nə qədər vurğun ola bilərmiş? Sanki, kimsə gəlib deməsə də, qeybdən eşidirdi o sözləri. – Qubadlı düşməndən alınacaq!

Tək yaşayırdı Gülzar. Yaşı elə də çox deyildi, amma xəstəlik, dərd, nisgil onu bəlkə də 90 yaşda yaşadırdı. Cavanlığı birdən-birə qeybə çəkilmişdi elə bil. Xəstəliyi çox ağırıydı; iri qara gözləri get-gedə torbalanıb bulanırdı, saçı-başı ağarmış, üzünə dərin qırışlar düşmüşdü, ağzında diş də qalmamışdı. Televizorda yayımlanan heç bir xəbəri buraxmazdı. Kətilini lap yaxına çəkib sona qədər dinləyirdi ki, birdən gözlədiyi xəbəri qaçırar. Ruhdan düşmürdü. Axşamlar özü-özünə təsəlli verib, yatağına girərdi. Son vaxtlar ağrılarını qorxusundan dilinə gətirə bilmirdi ki, fələyin qulağı çalar. Axı söz vermişdi özünə, canını ancaq Qubadlıya aparıb, İsmayıla təhvil verəcək. Cavanlığını harada itirdiyini bilməsə də, çalışırdı ki, heç olmasa tükənməkdə olan ömrünün son qır-qırıntılarını ora apara bilsin. Hələ də gözü gəzirdi şəhərdəki çörək mağazalarının qarşısını, hələ də əvvəl yaşadığı sökülmüş idarə binasının həndəvərinə boylanırdı cavanlığını görər deyə. Yadına sala bilmirdi, harada itirmişdi bu qarabəxt cavanlığını? Bəlkə Qubadlıdan gələn köç karvanlarında itirib, bəlkə həyətdəki tut ağacının dibində yaddan çıxıb qalıb, bəlkə top-tüfəng səslərindən bağrı partlayıb ölüb, bəlkə şəhid olub cavanlığı, bəlkə də özü onu öz göz yaşlarında boğub öldürüb? Bilmirdi, xatırlamırdı... Hərdən də inanırdı ki, onun heç cavanlığı olmayıb, elə anadan bu kökdə doğulub.Yadı-yaddaşı da gündən-günə öləziyib gedirdi.

Hər gecə yatmazdan əvvəl yerinin içində özü özünə layla deyib sonra yatardı Gülzar. Yenə məktub yazardı. Bir iri sandıq məktubları vardı. Qonşuluqdakı köşkdə dəftər-qələm satan Köçəri dayı da məəttəl qalmışdı Gülzarın hər dəfə ordan dəftər almağına. Axı bu adamın nəyinə lazımdır ki, bu qədər dəftər-kağız?

Bilən yoxuydu Gülzarın içini. Hələ qonşulardan bəzilərinə maraqlı qalmışdı, görəsən, sandığın içində nə var? Rayondan gətirmişdi o sandığı. Evdən çıxartdığı təkcə həmin sandıq olmuşdu. Göz bəbəyi kimi qoruyardı onu. İçi xatirələrlə dolub daşırdı sandığın. Hərdən qapağını qaldırıb, başını içinə salaraq anidən havasını ciyərinə çəkib bağlayardı. Ona elə gəlirdi ki, Qubadlının havası, sevgisi hələ də o sandıqda qalıb. Cirə ilə ciyərinə çəkirdi ki, qurtarmasın.Yenə əlində məktub sandığa yaxınlaşdı. Birdən-birə xəyalı keçmişinə uçub getdi. Yaddaşının ən qaranlıq yerində ay doğdu sanki. 22 yaşı vardı, universiteti bitirib kəndə qayıdanda. Hələ orta məktəbdən deyiklisi olan İsmayıl lap ön cəbhədə döyüşürdü. Ancaq məktublaşa bilirdilər, görüşməyə imkan olmurdu. İncəvara ordunun yanacaq daşıyan maşınını qonşusu sürürdü. Məktubları da elə o, aparıb gətirirdi. Ara bir az səngisə evlənəcəkdilər.

Avqust ayının 31-i idi. Həmin gün qonşunun maşını gözə dəymədi. Gülzar əlində məktub, tut ağacının altında durub, yola boylana-boylana qalmışdı. Dağın o tayından atılan mərmilər yağış kimi kəndə səpələnirdi. Hamı zirzəmilərə qaçıb girəndə, Gülzar yola tərəf qaçmışdı. O an İsmayıldan başqa gözünə kimsə, nəsə görsənməmişdi. Heç olmasa, ondan bir xəbər bilsəydi toxdayardı. Qara tüstü duman kimi kəndin üstünə çökmüşdü. Gülzar dəli kimi yol ilə hara qaçdığını da bilməmişdi. Mərmilərin qaldırdığı tozanaqda görünməz olmuşdu. Saatlarla huşsuz vəziyyətdə yolun kənarında yıxılıb qalmışdı. Gözlərini açanda köç maşınlarının birində idi. Bütün ailəsini itirmişdi. Atası ilə anası evdən qızlarının cehizindən bəzilərini maşına yığanda mərmi düz gəlib üstlərinə düşmüşdü. Əşyalarla birlikdə tikə-tikə olmuşdular. Bircə sandıq sıçrayıb kənara düşmüşdü. Onu da kənd camaatı köç maşınına atıb şəhərə gətirmişdi. O vaxtan bəri İsmayıldan da heç bir xəbər ala bilməmişdilər. Nə ölüsündən, nə də dirisindən... Gülzara elə gəlirdi ki, torpaqlar alınsa, özü gedib tapacaq İsmayılı və evlənəcəklər. Ahh, bircə “Qubadlı azad oldu!” xəbərini eşitsəydi... Gülzar o xəbərin sehrinə düşüb bütün ağrı-acısını da unudurdu.

**27 sentyabr 2020-ci il.**

Səhər-səhər həyətdən gələn hay-həşirə oyandı Gülzar. Pəncərəni açıb bulanıq gözlərini ovuşdura-ovuşdura həyətə boylandı. Gecə yuxusunu da qarışdırmışdı. Yuxu yadında qalmasa da, qarışıq olduğunu kəsdirə bilmişdi. “Xeyir olsun, allah!” deyə-deyə həyətə çıxdı. Hər kəsin ağzından eyni cümləni eşitdi – “müharibə başlayıb!” Gülzar bilmədi bu xəbərə sevinsin, yoxsa ki, üzülsün. Qəribə sifət almışdı. Gah gülümsünür, gah da kövrəlirdi. Hamı kimi o da yayımlanan xəbərlərə köklənib qalmışdı. İndi əvvəlkindən daha yaxın otururdu televizora. Hər dəfə prezidentin çıxışını izləyəndə televizoru qucaqlayıb öpürdü. Özündən ixtiyarsız şaqqanaq çəkib gülür, dalınca isə hönkürürdü. Günlərin necə gəlib keçdiyindən xəbəri olmadı. Hər gün bir şəhərin, kəndin düşməndən azad edildiyini eşidəndə uşaq kimi qol götürüb oynayırdı. Illərdir ki, gözlədiyi xəbər yaxınlaşırdı.




Nəhayət gəlib çatdı – 25 oktyabr. Həmin gecə sabaha qədər yatmadı Gülzar. Saçlarını açıb daradı, sandıqdakı məktubların arasından İsmayılın aldığı qırmızı donunu geyindi. 27 ildə birinci dəfəydi ki, qırmızı geyinirdi. Güzgünün qarşısında dayanıb saatlarla özünə tamaşa elədi. Ağappaq saçları gözünə qapqara şəvə kimi görsəndi, gülümsədikcə dişləri mirvari kimi sıralandı, gözlərinin bulanığı durulub işıldadı, sifətinin qırışları hamarlandı... Tapdı cavanlığını Gülzar. Bilirdi ki, rayonun bəzi aidiyatı qurumları ora tez gedəcəklər. Hər gün gedib yalvar-yaxış edirdi ki, onu da özləriylə aparsınlar. Nə qədər başa salsalar da, inadından dönmürdü ki, dönmürdü. Amma tanıyırdılar onu, vəziyyətindən haliydi hər kəs. Bilirdilər ki, ömrünün sonlarını yaşayır. Bu dəfə gələndə daha sözünü yerə salmadılar.

Sabah erkəndən qucağında iri bir bağlama, kənd sovetinin binası qarşısında dayanıb gözlədi. Onu da maşına mindirib yola düşdülər. Gülzar maşının pəncərəsindən boylanıb, rayona gedən yolları gözləri ilə yalayırdı. Yaxınlaşdıqca, həyəcandan bədəni titrəyirdi. Ürəyi necə çırpınırdısa, deyirdi bəs sinəsini dəlib çıxacaq. Nə qədər çalışdısa, özünü ələ alammadı, uçub dağlara tərəf gedən ruhunu tutub canında saxlaya bilmədi. Get-gedə ürəyinin çırpıntısı öləziyib bir cızıltıya döndü, sonra yavaş-yavaş yox oldu. Soyuq tər sifətində puçurlanıb üzü aşağı axırdı. Rayonun girəcəyində maşın saxladı, hamı yerə tökülüşdü, bircə Gülzar yerindən tərpənmədi. Gözləri qarşıdan görsənən, İsmayılın vuruşduğu dağlara dikili süst qalmışdı – keçinmişdi.

Bağlamasını açıb üzünə sərdilər. Bağlamanın arasından tökülən məktubları isə tutub saxlaya bilmədilər. Külək vıyıltıyla götürüb uzaqlara apardı. O gün postlardakı əsgərlər çoxlu məktub tapıb oxumuşdular. – “Sağ-salamat qayıt gəl, qurbanı olduğum!”



***Çinarə ÖMRAY***

*Qubadlı rayonu, Diləli Müskanlı kəndi.*

## SARI KİŞİ

Bu, sarı PAZ avtobusuydu, bir kənd adamı öz çiynində büdrəyə-büdrəyə üzü şəhərə qaçırdırdı. O qədər ağır-ağır gedirdi ki! Avtobusda biz uşaqlardan başqa hamı ağlayırdı, gülən təkcə biz üç-beş uşaq idik. Dayım qızı məndən bir neçə yaş böyükdü.

– Heç ağlıma gəlməzdi ki, şəhərə belə avtobusla gedəcəm, - dayıqızı dedi.

Xalam qızı:

– Avtobusa bax e. Biz düşüb qaça-qaça getsək, bundan tez çatardıq şəhərə.

O biri dayım qızı:

– Görən şəhər çox qəşəngdi?

Mən:

– Avtobusa bax e, elə bil qocalıb öskürə-öskürə gedir.

Bu sözümə uşaqlarla gülüşdük. Kiminsə anası uşağının böyründən bir çimdik götürdü, uşaq da böyüklərə qoşulub ağlamağa başladı.

Həmin sarı avtobus öskürə-öskürə bizi daşıyıb Sumqayıt avtovağzalına gətirdi. Hələ üç gün bizə ev sahibliyi də elədi. Sürücüdən başqa hamı qadındı. Yazıq sürücü düşüb hardansa telefon aparatı tapmışdı, bir-bir gəlib avtobusdakıların qohum-əqrəbalarının nömrələrini alıb gedirdi. Hərənin ardınca şəhərdə yaşayan bir qohumu maşınla gəlir, yığıb aparırdı. Üç günün sonunda bir biz qalmışdıq, bir də qoca avtobusla sürücüsü.

Sürücü dedi ki, sizin heç kiminiz yoxdu burda. Bütün doğmalarınızı, başıpapaqlılarınızı orda qoyub gəlmisiniz. "Siz mənim əmanətimsiniz” deyib, bizi elə o avtobusla da uçuq-sökük evin həyətinə gətirdi. Sürücü:

– Hələlik burda qalın, sizə bir yer düzəldəcəm, - deyib getdi. İki gün yenə o avtobusda qaldıq. Hər yeri sökülmüş evin pəncərələrini, qapılarını köhnə adyal, sellafon paketlərlə bağladı. Avtobusunu bizə, bizi isə o qapı-pəncərəsiz evə əmanət edib "Kişilər burda yox, öz torpağında olmalı, ölməlisə ölməli, qalmalısa qalmalıdır”, - deyib halallaşaraq getdi.

Avtobus o evdən daha rahat olduğu üçün bir neçə gün o qoca avtobusda yaşayası olduq. Sonra kişilər gəldi. Bizə sürücü dayının təzədən kəndə qayıdanda yolda əsir düşməsi xəbərini də gətirdilər. Babamgil canlarını güclə qurtarıb gəlmişdilər.

Sonra yavaş-yavaş uçuq evi düzəltdik, orda yaşamağa başladıq. Böyüdük... Həm ailə, həm də yaşca. Bircə böyüməyən o sarı avtobus idi. Bu illər ərzində

babam nənəmin xətrinə dəyən kimi, nənəm küsür, gedib o avtobusda otururdu. Biz uşaqlar da evcik-evcik oynayanda o avtobusu özümüzə ev seçirdik. Hamı kənddəki evimizin iyini də, qoxusunu da o avtobusdan alırdı. Babam da həmişə "Bizi kəndə elə bu sarı kişi aparacaq deyirdi”. Avtobusa ad qoymuşdu:

Təkərlərinə sığal çəkərdi, güzgülərini silərdi, faraları ilə dərdləşərdi. Avtobusla o qədər danışırdı ki, hərdən elə bilirdim, avtobus indi hövlündən bir siqaret yandırıb çəkəcək. Ya da bizi gətirəndəki kimi xırıltılı-xırıltılı öskürəcək.

Hamımızın böyüdüyü vaxtlar idi. Bir gün əmim dedi ki, bu avtobus həyətdə yer tutur, rədd edək, getsin.

Babamı heç bu qədər əsəbi və hövsələdən çıxan görməmişdim. Üzünü əmimə tutub rişxəndlə dedi:

– Məni də aparıb qojalar evinə verin, rahatlaşın, yeriniz genəlsin.

– Ay, ata, o nə sözdü? Niyə özünü o dəmir parçasıyla bir yerə qoyursan axı?

– Nə??! Dəmir parçası??? Bax sənin kimilər heç vaxt torpaq qədri bilməyəcəklər, dəyər nədi anlamayacaqlar. Sürük burdan, gözüm səni görməsin, - deyib, üzü avtobusa sarı getdi. Həmən gün babam nahar yeməyini də avtobusda yedi. Heç kim cürət edib ona nəsə deyə bilmirdi.

Mən getdim yanına.

– Niyə burda oturursan? Gəl evə də, baba.

– Bura da evimdi də, bala. Evimizi bu Sarı kişiylə daşımışıq bura, elə bununla da geri aparacağıq. Anlamırlar, qızım, anlamırlar. Bunlar dəyəri anlamadıqca, o torpaqları Allah bizə qaytarmayacaq, bala. Heç kim bilmir ki, bu bizim ailənin geri dönmək ümididir. Məni ayaqda saxlayan bu ümid də bu həyətdə artıq yer tutursa, mən nəyə gərəyəm axı?

O gündən sonra o avtobusa "gözün üstə qaşın var” deyən olmadı. Babam doğmalarını, dostlarını itirdikcə avtobusa daha çox sığınırdı. O avtobus babamı dünyada tək qalmaqdan qoruyan yeganə varlıq idi.

27 sentyabr idi. Hamını müharibə təlaşı bürümüşdü. Babam atama, əmilərimə zəng edirdi ki, nə durmusuz, gedin, könüllü yazılın, nəsə edin, irəliləmək vaxtıdır.

…Bir gecə hamımız həyətdən gələn səsə oyandıq. Nəydisə, səsin ardınca çölə çıxan heç kim geri qayıtmırdı. Mən də çıxdım. Bütün ailə üzvlərimiz heykəl kimi həyətin ortasındaydı.

Beş gün qabaq həkimlərin "yaşlı kişidir", "ölüm haqdır" deyib susduğu, xəstə yatağında yatan babam əlindəki dəmirlə avtobusun təkərlərini açırdı. Sonra kənarda dayanan bir maşını əl işarəsi ilə yanına çağırdı. Hamımız nə baş verdiyini anlamağa çalışırdıq. Gələn maşının işığı babamın üzünə vurduqca üzündəki sevinci, xoşbəxtliyi, fərəhi yəqin ki, təkcə mən görmürdüm. Sarı kişinin təkərlərini tanımadığımız adamlarla tanımadığımız maşına yüklədilər. Tanımadığımız adamlar babamın əlini sıxıb qucaqladılar. Yenə gələcəklərini, onu həmin böyük görüşə aparacaqlarını deyib getdilər.

Babam həvəslə:

– Nə baxırsız, bir çay dəmləyin içək, - deyib ardınca mazutlu əlini həyətdəki soyuq su axan krantda yudu. Sonra: - Səngərə gedir ey. İnşallah, igidlərim torpaqlarımızı alacaqlar bu dəfə. Mütləq alacaqlar.

Səhəri gün babam əmimi çağırıb ona bir büklüm pul verib dedi:

– Dar günlüyüm idi, kəfən pulum. Amma hələ ki sağ olsun, allahdan möhlət almışam. Bununla Sarı kişiyə dörd dənə təzə təkər al. Bir də bunu işə salmaq üçün lazım olan hissələri. Gətir yavaş-yavaş başlayım. Bizi o müqəddəs torpaqlara bu Sarı kişi aparacaq. O da, elə mən də son borcumuzu orda tamamlayacağıq.

Ondan sonra düz 45 gün hər səhərimizi babamın taqqıltı səsinə, ardınca şəhid xəbərlərinə, torpaqlarımızın müjdə xəbərlərinə açırdıq.

Xəbərlərin səngidiyi, səhərlərin qələbəyə açıldığı bir sübh çağı hamımız babamın hönkürtü səsinə oyandıq.

Gözlərindən tanımışdım mən onu. Qışın şaxtasında, meşənin dərinliyində tapdığı dənə sevinərək işıldayan sərçə gözlərindəki yorğunluq qarışıq sevinc çökmüş gözləri ilə gülümsəyirdi. Bizə bu daxmanı tapanda görmüşdüm o sevinci, ordan tanıdım onu.

Sarı kişinin sürücüsüydü. Əsirlikdən qayıtmış, vədinə xilaf çıxmayıb gəlmişdi.

Əmimin alıb gətirdiyi o ehtiyat hissələrini qurdalayaraq uca və şaqraq səslə deyirdi:

– Yır-yığış eləyin, avtobusu dirildim, sizi gəldiyiniz kimi geri qaytaracağam...








# III Bölmə

# PUBLİSİSTİKA




**Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanından:**

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə–Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin

səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

1.6.Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.13.Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları)…

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 7 iyul 2021-ci il

## Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonların

## ərazisi: 7,47 min kv. km

## əhalisi: 343,5 min nəfər

# Prezident İlham Əliyevin Zəngəzurun bütövləşməsinə, Qərbi Azərbaycana aparan siyasəti

## SOYKÖKÜ İLƏ ZƏNGƏZUR MAHALINA BAĞLI LİDER

Zəngəzur torpaqları ən qədim zamanlardan Azərbaycan xalqının yurd yerləri, oğuz-səlcuq türklərinin məskənidir, onların qurmuş olduqları dövlətlərin tərkibində mövcud olub, XIX əsrin II yarısından XX əsrin 20-ci illərinə qədər - çar Rusiyası və Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzası inzibati ərazi vahidi idi. Şərqi və qərbi Zəngəzurun Sisian, Gorus, Qafan, Meğri, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarında doğulub böyüyən onlarla dövlət xadimi, ədib, alim, xalqımızın ictimai-siyasi, elmi, ədəbi-mədəni tərəqqisinə, qəhrəmanlıq tarixinə, xüsusilə I və II Qarabağ müharibəsində qazanılmış hərbi qələbələrə mühüm töhfələr verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" 7 iyul 2021-ci il tarixli Fərmanı ilə işğaldan azad edilmiş ərazilərimizdə Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və "Şərqi Zəngəzur iqtisadi rayonu"nun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılması, heç şübhəsiz, 2021-ci ilin əlamətdar hadisələrindən biri oldu. 1933-cü ildə Azərbaycanın coğrafi xəritəsindən silinmiş Zəngəzur adının yenidən coğrafi, siyasi anlamda bərpası xalqımızın, dövlətimizin ictimai-siyasi, mənəvi həyatında mühüm hadisəyə çevrildi. Dövlət başçımızın bu növbəti müdrik, uzaqgörən qərarı həm də qarşımızda bizi tarixi ədalətin bərpası - minlərlə günahsız insanın qanı ilə suvarılmış, zorla Ana Vətəndən qoparılmış Zəngəzur torpaqlarımızın bütövləşməsi, birləşib biri-birinə və Azərbaycana qovuşması kimi mənəvi borcumuzun gerçəkləşməsinə aparan yola işıq saldı, mayak oldu. Azərbaycan Prezidenti İlham Əliyevin bu sözləri artıq strateji yol xəritəsidir:

*Qərbi Zəngəzura qayıdacağıq, kimsə bizi dayandıra bilməz! Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək, bütün region ölkələri üçün yeni imkanlar yaradacaq. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə, niyə də biz İrəvana qayıtmayaq? Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm. Zəngəzurun Şərqi varsa, onun Qərbi də var, bunların qovuşması artıq zaman məsələsidir.*

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları olan, 7,47 min kv. km ərazini, 343,5 min nəfər əhalini birləşdirən Zəngilan,

Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının Şərqi Zəngəzur iqtisadi rayonunda birləşdirilməsi vaxtında verilmiş qərar idi.

Möhtərəm Prezidentimizin siyasi iradəsi sayəsində gerçəkləşən bir çox taleyüklü məsələlər daim Ümummilli Lider Heydər Əliyevi də narahat edirdi. Ulu Öndər demişdi: " *...XX əsrin 20-ci illərində yeni sovet hakimiyyəti təzə qurulan zaman Qafqazda respublikanın sərhədləri yaranarkən Azərbaycana qarşı ədalətsizlik edilibdir. Azərbaycanın qədim torpaqları olan Zəngəzur mahalı, Zəngəzurun Araz çayı sahilində olan, qədim Azərbaycan torpağı olan Meğri rayonu da Ermənistana verilibdir. Beləliklə, böyük Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır".* Böyük siyasət, dövlət adamı Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bir qərinəlik dövrdə heç zaman qədim Azərbaycan torpağı Zəngəzurun unudulmasına, Azərbaycanla mənəvi, iqtisadi əlaqələrinin qırılmasına imkan verməmişdi. O, deyirdi: *"Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indiki Ermənistanda yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün yol açmalıyıq".*

Budur, 2021-ci il sentyabrın 27-də başlayıb 44 gün davam edən, hər günü xalqımıza qələbə sevinci, qürur yaşadan İkinci Qarabağ savaşının sonunda tarixi Zəngəzurun şərq hissəsi işğaldan azad edilərək yenidən Ana Vətənə-Azərbaycana qovuşdu. İndi o yerlərdə geniş miqyaslı dirçəliş, bərpa, tikinti-quruculuq işləri aparılır. Vətən müharibəsində hərbi əməliyyatlara, döyüşlərə yüksək komandanlıq bacarığı ilə rəhbərlik edərək, ümumxalq sevgisinin təcəssümü olan Müzəffər Ali Baş Komandan titulunu qazanan ölkə rəhbəri İlham Əliyev, şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzurun Qurucu Prezidenti kimi də tarixdə əbədi qalacaqdır. Zəfərin davamı Qarabağın, Şərqi Zəngəzurun dirçəlişi, yenidən məskunlaşdırılmasıdır. Bu, qarşıdakı dövrdə dövlətimizin və xalqımızın ən ümdə fəaliyyət istiqamətidir və görülən işlər, qazanılan Zəfərlər mütləq yazıya alınmalı, kitablarda yaşamalı, tarixin yaddaşına əbədi həkk edilməlidir. Prezident İlham Əliyev deyib: *"Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Dağlıq Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilinməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır."*

Zəngəzur həm də xalqımızın iradəsinin ziddinə olaraq zorla qoparılmış Qərbi Azərbaycan torpaqlarının rəmzidir, simvoldur, hazırda beynəlxalq siyasətdə ən çox maraq, müzakirə edilən, həllini gözləyən məsələlərdən biridir və heç bir şübhə yoxdur ki, güclü siyasi iradəyə, qətiyyətə malik Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində Qərbi Azərbaycandan

qovulmuş bütün azərbaycanlıların öz yurdlarına qayıtmaq hüququnu bərpa etmək üçün qəbul edilən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" da gerçəkliyə çevriləcəkdir.

Dövlətimizin başçısı 2022-ci il yanvarın 12-də yerli televiziya kanallarına üç saat davam edən müsahibəsində dövlət siyasətinin bütün əsas aspektləri barədə dolğun məlumat verib. Eləcə də Zəngəzurla bağlı olduqca maraqlı tarixi, siyasi bilgilərini paylaşıb, bu qədim torpağa dərin sevgisinin həm də soy, nəsil, ailə yaddaşından gəldiyini, qırılmaz mənəvi tellərlə o yerlərə bağlılığının, mərhəm duyğularının dərin səbəblərini də səmimiyyətlə bölüşüb: *"Məhz bu idi mənim ürəyimdə olan fikirlərim və ürəyimdə olanları mən hələ ki, deməyəcəyəm. Amma babamın məzarını ziyarət etməklə, eyni zamanda, ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir. Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm."*

Olduqca təsirli, səmimi, ürəkdən gələn etiraflardır və bir daha həmin inamı möhkəmlədir ki, biz ata-babalarımızın min illər boyu yaşadığı, tikib qurduğu, torpağına qarışdığı, ruhları dolanan o yerlərə mütləq qayıdacağıq. Bu müsahibədə siyasi uzaqgörənliyini, yetkin elmi, tarixi savadını, məntiqli diplomatik konsepsiyalarını da ortaya qoyan dövlət başçımızın Zəngəzur dəhlizi ilə bağlı bu müsahibədə xatırlatmaları əhəmiyyətli olduğu qədər də yeni, orijinal baxışları, mahiyyəti ilə də maraq doğurur: *"Bildiyiniz kimi, Ermənistan tərəfi bu Zəngəzur dəhlizi ifadəsinə çox böyük qısqanclıqla yanaşır. Bilmirəm, nəyə görə? Amma deyə bilərəm ki, bu terminin - təvazökarlıqdan uzaq olsa da, - müəllifi mənəm. Nə üçün mən bunu məhz Zəngəzur adlandırdım? Ona görə ki, birincisi, bu, Zəngəzurdur, bunun tarixi adıdır. Azərbaycan toponimidir, necə ki, Zəngilan, Zəngəzur, Zəngi çayı, - hansı ki, ermənilər indi Razdan adlandırırlar, - Azərbaycan toponimidir. İkincisi, biz bu dəhlizə, sadəcə olaraq, dəmir yolu kimi baxmırıq. Çünki bu dəhlizdən həm dəmir yolu keçəcək, həm avtomobil yolu keçəcək. Bizim planımızda var, gələcəkdə oradan Naxçıvana elektrik xətləri çəkilsin...Onu da bildirməliyəm ki, bizim səylərimiz nəticəsində artıq bu termin beynəlxalq leksikona da daxil edilib. Hətta qeyd etdiyiniz kimi, xarici jurnalistlər mənə sual verdikdə də Zəngəzur dəhlizi deyirlər. Bunu hər dəfə eşitdikcə, necə deyərlər, mənə çox xoş olur. Hər dəfə təxmin edirəm ki, Ermənistan tərəfi yəqin, yenə də başını divara vurur. Ona görə ki, bu, artıq beynəlxalq leksikona daxil edildi və əlbəttə, həyata keçiriləcək."*

44 günlük Vətən müharibəsindəki qətiyyəti ilə dünya birliyinə, bədnam qonşularımızın arxasında duran beynəlxalq güclərə əməli və siyasi, diplomatik dərs




verən Prezidentimizin qarşıdakı illərdə hansı xarici siyasət xəttini yürüdəcəyi və şübhəsiz qalib olacağı, nəzərdə tutub qarşısına qoyduğu məqsəd, mərama çatacağı indidən görünür: *"Əgər bizim ərazi bütövlüyümüzü tanımaq istəmirlərsə, o zaman biz də onların ərazi bütövlüyünü tanımayacağıq. Bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün bəlkə də yüz dəfə daha çox əsasımız var, nəinki onların bizim ərazi bütövlüyümüzü tanımaması üçün. Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Yəni, bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün, necə deyərlər, bir çox amillərimiz var. Amma buna baxmayaraq, gələcək sülh naminə, ölkələr arasındakı əlaqələrin qurulması naminə biz buna hazırıq. Amma mən qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, onda olmasın, onda görərik nə olacaq."*

Müzəffər Ali Baş Komandanın bu ideyalarının reallaşacağına bütün qəlbimizlə inanır, bu qayıdış strategiyasını bəyənir, Zəngəzurun bütün əhalisi kimi, o bölgənin ziyalıları, yazarları, elm, sənət adamlarının bu siyasətin gerçəkləşməsinə etibarlı arxa, dayaq olacağımızı bildirirk: *"Qərbi Zəngəzura gedən yol Şərqi Zəngəzurdan keçir. Zəngəzur dəhlizi mütləq açılacaqdır. Azərbaycan xalqı bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır. Əgər biz Zəngəzura qayıdırıqsa, niyə də İrəvana qayıtmayaq...".*

**Mönsüm Alışov**
*"İdrak" liseyinin təsisçisi, pedaqoji elmlər doktoru, Bakı Dövlət Universitetinin professoru.*
*10.05.2025*



## HİDAYƏT

*Hidayət Xuduş oğlu Orucov 5 sentyabr 1944-cü ildə Meğri rayonunun Maralzəmi kəndində doğulub.*



***HİDAYƏT ORUCOV: ULU ÖNDƏRİN DAHİLİYİ QƏRBİ AZƏRBAYCANDAN DAHA AYDIN GÖRÜNÜRDÜ***

**...** Ulu Öndərin rəhbərliyi altında işləyərkən bir məqamın şahidi olmuşdum ki, o, Azərbaycanın ərazi bütövlüyünün bərpa olacağına bütün qəlbi ilə inanırdı, buna heç bir şübhəsi yox idi. İşğal olunmuş rayonların məcburi köçkün düşmüş əhalisi ilə görüşlərdə də o, bu inamını dilə gətirirdi. Sonralar biz bütün qaçqınlarla görüşləri, materialları bir kitab halında nəşr etdik. Həmin kitabın adı belə idi: "Biz öz yurdumuza qayıdacağıq". Bunun ən böyük reallığı artıq xeyli vaxtdır yaşanıb, 44 günlük Vətən müharibəsində baş verib. Bu, Azərbaycan tarixinin azı son 300 illik tarixinin ən böyük hadisəsidir. Son 300 ildə tariximizdə bundan böyük hadisə olmayıb. Əksinə, bu tarix boyunca biz yalnız torpaq itirmişik. Nəhayət, indi biz ən möhtəşəm qələbəni, zəfəri yaşadıq. Bu, Heydər Əliyev ideyalarının ən böyük təntənəsidir. Möhtərəm Prezidentin həm ölkə başçısı, həm də Ali Baş Komandan kimi çox dəqiq, ölçülü-biçili, strateji siyasətinin sonluğudur. Buna görə də mən bir vətəndaş olaraq, ziyalı olaraq ona son dərəcə minnətdaram. Söhbətimizin bu yerində bir məsələni də qeyd etməyə bilmərəm: mən siyasi vəzifələrdə və diplomatik fəaliyyətimdə Müstəqil Dövlətlər Birliyinə daxil olan və bölgənin çox ali rəhbərlərini görmüşəm, dinləmişəm. Bəziləri ilə təmasda olmuşam. Qətiyyətlə bildirirəm: yalnız ölkəmizdə deyil, bu böyük coğrafi məkanda

Onun alternativi yoxdur. Ona görə də yaxınlaşan seçkilərdə mütləq qələbəsi şəksizdir! Qərbi Azərbaycana qayıdış ideyası da çox düzgün ideyadır. Bunun üçün zaman tələb oluna bilər, amma inanıram ki, o da həqiqətə çevriləcək.

– **“Zəngəzurda doğuldum, İrəvanda yaşadım, Bakıda öləcəyəm” misraları ilə bir zamanlar ümidsizliyə qapılan şair indi daha ümidli görünür. Elədirmi?**

– ...İndi ərazi bütövlüyümüzün bərpa olunması mənə çox ümid verib. Bu gün həmin şeiri yazdığım illərdən daha ümidli, daha nikbinəm. Azərbaycan güclənir, dünyada sözünü deyə bilir. Dünyanın ən böyük dövlətlərinin başçıları, qabaqcıl liderləri bizim Prezidentimizin siyasətini dəstəkləyirlər.

Mənbə: https://www.yeniazerbaycan.com/Musahibe_e96639_az.html

**ZƏNGƏZURDUR!**

Bu el çeşmə məskəni,
Lilparlıdır suları.
Vəcdə gəlir insanın
İstəyi, arzuları.

Burda hər qarış torpaq
Gözəlliyin quludur,
Hər daş, hər iz, hər bulaq
Müqəddəsdir, uludur.

Tale tərifləyibdir,
Hər cizgisi yerində -
nə artıq şey, nə qüsur,
Bir söz: - gözəllik yurdu
Zəngəzurdur, Zəngəzur!

Bağlarına dayan, bax!
Dağlarına boylan, bax!
Dərəsinə, düzünə,
Qayasına hər an: bax!

Arxlarına pıçılda
Ürəyində nəyin var?
De, köksünü sıxmasın
Kədər, həyəcan, qubar.

De, dinləyər dərdini,
Əlac eləyər sənə.
De, boşaldar qəlbini
Göylərin qübbəsinə.

Burda hər şey minnətsiz,
Dünya büllurdan - büllur.
Bir söz, dolaşdığın yer
Zəngəzurdur, Zəngəzur!

Harda qarşına çıxsa
Təmənnasız yaxşılıq,
Harda üzünə gülsə
Mehribanlıq, xoş qılıq.

Sevgin qanad açaraq
Zirvələrdə dolansa,
Harda yaran sağalsa,
Harda ömrün uzansa,
Harda qəlbinə dolsa
İnam, əzəmət, qürur -
O yerin əzəl adı,
İndiki gözəl adı
Zəngəzurdur, Zəngəzur!



***Əvəz Mahmud LƏLƏDAĞ***

*Əvəz Cəlal oğlu Mahmudov; 29 oktyabr 1935-ci ildə Sisian rayonunun Ağdü kəndində doğulub.*

## 37 İL HƏSRƏTİNİ ÇƏKDİYİM QARABAĞI ZİYARƏTƏ GƏLMİŞƏM

...Rəhmətlik anam vətən deyə-deyə intizar köçdü bu fani dünyadan. Arada bir kövrəlirdi, qəmrəlirdi, deyirdi: - Kaş o doğma yerləri, gəzdiyim allı-güllü yaylaqları, üstü qız-gəlinli, hay-haraylı buz bulaqları, baldırğanlı, yarpızlı dərələri bir də gedib görərdim, tumanımı cıran yamac kolları ilə didişərdim...

Ruhun şad olsun, qəbrin nurla dolsun, mənim gözəl anam, ağbirçək anam. Artıq yurd yanğısı, torpaq harayı, vətən həsrəti içimizi göynətmir. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə Vətən yolunda canlarını fəda edən ölməz şəhidlərimizin qəhrəmanlığı ilə, igid əsgərlərimizin qüdrəti ilə gözəl Qarabağımız düşmən tapdağından, işğalından azad oldu, kol-kosdan təmizləndi. Yaşıl yaylaqlardan qoyun-quzu mələşməsi, at kişnəməsi, tütəkdə çoban bayatısı səsi eşidilir...Yel qanadlı dəmir atın belinə qalxdım, Xanqızının doğma elinə gəldim. Elə bil Kəbəni, Turdağı ziyarət etdim. Pənahəli xandan yadigar qalan mədəniyyətimizin paytaxtı Şuşa Qalasını bağrıma basdım, o qaya səngərlərin daşından öpdüm, Gövhər ağanın məscidində səcdəyə endim, azan səsi eşitdim, Mir Mövsüm Nəvvabın xatirə muzeyinə baxdım. Çoxdan ürəyimdə gəzdirdiyim arzum çin oldu, diləyim hasil oldu. İsa bulağına endim, əyilib sərin suyundan doyunca içdim. Azərbaycanın üçrəngli zəfər bayrağı dalğalanan Xankəndinə getdim. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dayandığı meydana tamaşa etdim. Uzun müddət getməsək də, yaşamasaq da bugün Xankəndi bizimdi və əbədi bizim olacaq. Qarabağ Universitetinə getdim, könlüm açıldı.

Xankəndində süfrə saldıq,
Gözəllikdən ilham aldıq.
Qədəhləri qaldırdıq biz,
Yurdumuzun sağlığına,
Tufanlardan qalib çıxan,
Ordumuzun sağlığına.
Bizi azad, xoşbəxt edən,
Bu dövlətin sağlığına.
Yumruq kimi möhkəm olan,
Bu millətin sağlığına.

Amalımız, arzumuz var,
Arzumuzun sağlığına,
Azadlığın sağlığına,
Gözəl çağın sağlığına.

Yaraları indi-indi uyuşan, qaysaq bağlayan Xocalıya getdim. Qəddar düşmənin izi itən doğma torpaq öz doğmalarını gözləyir, yaxşı ki, gəldiniz deyir, sevinir. Xocalı da işğaldan azad olmuş hər bir yer kimi doğmalarının əli ilə tikilir, abadlaşır. Gözümüz aydın olsun, əziz Xocalılar. Tezliklə doğma yurdunuza qayıdacaqsınız. Tarixin yaddaşı Əsgərən qalasına baxdım, ulularımızın ilk məskən saldığı qədim Azıx mağarasına boylandım, Xocavəndə, Qırmızı bazara, Hadruta, Cəbrayıla baş çəkdim. Böyük təəssüratla doğma şəhərimə, gur işıqlı, yaraşıqlı Sumqayıtıma qayıtdım. Əminəm ki, növbəti səfərim möhtərəm prezidentimiz cənab İlham Əliyevin qayğısı ilə Qərbi Zəngəzura, Sisian bölgəsinə, doğma kəndim Ağdüyə olacaqdır, İnşəAllah!

*17.06.2024*




Mənbə: https://www.facebook.com/profile.php?id=100014536783107



***Əli İLDIRIMOĞLU***

*1927-ci il noyabrın 17-də Qubadlının Əliquluuşağı kəndində anadan olub, 18 noyabr 2020-ci ildə vəfat edib.*

## QUBADLILAR

…Sovet hakimiyyəti dövründə Mərkəzi Komitənin büro üzvlərindən dördü Qubadlıdan idi. Cəmi otuz minə yaxın əhalisi olan rayondan. Ötən əsrin ortalarında Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi Pospelovun iştirakı ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırovun vəzifədən götürülməsi məsələsi müzakirə olunurdu. Onda Bağırovun etibar eləyib arxa çevirdiklərinin, demək olar, hamısı haqlı-haqsız onun üzünə durdu və olmazın böhtanlar yağdırdı. Belə bir deyim var ki, yıxılana balta vuran çox olar. Çıxış edənlərin içərisində Möhbalı Əmiraslanov yeganə şəxs idi ki, baltasını başqa səmtə yönəltdi. Dedi ki, yoldaş Pospelov, burada çıxış edənlərin çoxu cəfəngiyyat danışır... Əsl həqiqət odur ki, bizi bu mərtəbəyə gətirib çıxaran Bağırovdur. Onun dediklərini Moskvanın göstərişi kimi qəbul edib yerinə yetirmişik. Burada səslənən fikirlərdə müəyyən bir həqiqət varsa, buna bir nəfər yox, hamımız cavabdehik... Möhbalının çıxışına bütün zal əl çaldı...On doqquz evli Balahəsənli kəndindən çıxan Möhbalı Əmiraslanov isə bu axına qoşulmadı. Qubadlının Eyvazlı kəndində pərvazlanan və nazir, Mərkəzi Komitənin büro üzvlüyünə yüksələn Zəhra Kərimovanın cəsarətli hərəkəti də əyləşənlərin pıçıltılarında rəğbətlə dolaşırdı. Ötən əsrin əllinci illərində Muradxanlı orta məktəbində direktorun tədris işləri üzrə müavini işləyirdim. Əynində xəz haşiyəli, məxmər arxalığı olan orta boylu bir qadın şəstlə içəri daxil oldu. O, təmkinlə salam verib ötkəm əda ilə həkimdən soruşdu: - Bakılı balası, sizdə sulfiddin var?!

Həkim gülümsəyərək:- Tavad xanım, sizin üçün tapılar, - deyib tez yan otağa keçdi və əlində bükülü kağız geri döndü. Qadın qəddini əyib həkimdən dərmanı alanda onun arxalığının altından gümüşü xəncər göründü. Təəccübləndim. Çünki o vaxtlar sadəcə ov bıçağı belə gəzdirmək xatalı idi. Bu çevik tərpənişli qadının kimliyi ilə maraqlandım. Direktor dedi ki, Başaratdandır. Ona “Xəncərli Tavad” deyirlər. O vaxt xozabirt erməniləri qardaşını işgəncə ilə qətlə yetiriblər. Tavad atasının göz yaşlarına dözməyb. Xəlvəti silaha sarılıb, qardaşının bütün qatillərini məhv eləyib. İndi də hər ehtimala qarşı xəncərli gəzir. Rayonun inzibati orqanları da bunu bilir. Ancaq ona toxunmurlar. Qaçaq Nəbi ilə onun həyat yoldaşı Həcərin qoçaqlığı aləmə bəllidir. Onların cəsurluğu, igidliyi Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunub. Ötən əsrin əvvəlləri idi. Qalın qar yağmışdı. Soyuq adamın iliyinə işləyirdi. Abdalanlı kəndindən olan İbadulla ilə Cəbrayıl qardaşları Əliquluuşağına təşrif gətirmişdilər. İbadulla Gorus qazamatında dus-

taq olan Qaçaq Qəbilin sifarişini camaata belə çatdırdı: - İbadulla, tale məni ermənilərin tələsinə salıb. Bir həftəyə qədər qətlə yetirilməliyəm. Yaxşı bilirsən ki, ölümdən qorxan deyiləm. Ancaq istəmirəm ki, qanım erməni torpağına tökülsün. İbadulla üzünü camaata tutaraq: - Ey Əliquluuşağı camaatı, nəyin bahasına olursa-olsun, Qaçaq Qəbili xilas etməliyik. Ancaq bəri başdan deyim ki, bu yol ölüm yoludur. Sizlərdən də kim istəsə könüllü bizimlə gedək. Əliquluuşağından da bir neçə nəfər İbadulla ilə Cəbrayıla qoşuldu. Qışın oğlan vaxtı, qaranlıq gecədə İbadulla ilə Cəbrayıl qardaşlarının başçılığı ilə Gorus qazamatı dağıdıldı. Bütün dustaqlar azad edildi. Qaçaq Qəbil azad olundu. Bu hadisənin canlı şahidləri danışırdılar ki, qaçaq Qəbili Mirzəmmədin evinə gətirmişdilər. Mirzəmmədin anası Göyçək arvad Qəbilin soyuğa düşmüş yalın ayaqlarını qarla ovurdu. Mingəçevir dənizini yaradan, bozumtul düzlərdə Sumqayıt kimi sənaye şəhəri salan fədakarlardan biri Çərəli kəndindən olan Kamran Hüseynovdur. Sovetlər dövründə neft sənayesinin inkişafında misilsiz xidmətləri olan SSRİ Elmlər Akademiyasının müxbir üzvü Əli Əmiraslanov on doqquz evli Balahəsənli kəndindəndir. Uzun illər Azərbaycanın Ali Sovetinə başçılıq edən Nəzər Heydərov, elm-ədəbiyyat sahəsində silinməz izləri olan Əhliman Axundov, Həsi Abdullayev, şair Qasım Qasımzadə, elm xadimləri Mədəd Allahverdiyev, Həbib Şirinov Qubadlı elinin yetirmələridir...

…Sumqayıtdakı görüşümüzün rəsmi hissəsi başa çatdı. Həyətə çıxdıq. Ətrafa göz gəzdirdim. Ancaq... Ancaq Bərgüşad görünmədi ki, görünmədi. Xəyalım dolandı. Özümü ulu göylərə tutub demək istərdim: - Tezliklə erməni əsirliyindən xilas olasan, Bərgüşad!! Heç vaxt məcrandan çıxmayasan, suyun qurumasın, yolun rəvan olsun, Bərgüşad!! Cahıllığımda sevincim, ahıllığımda qəmim-kədərim, Bərgüşad!!! Yazıb-pozduğum bəyaz kağızlar kimi sahilində qalan izimi, sözümü, həsrətli baxışlarımı əmanət saxla, Bərgüşad!! Çətin məqamlarda Qubadlı el-obasına həyan ol, Bərgüşad!! Qışda suların buz bağlayanda, qərib ölkələrdən quşların qonaq gələndə, baharda sahillərin əlvan gül-çiçəklərlə bəzənəndə gecə-gündüz həsrətini çəkən bu qələm əhlini də yad et, Bərgüşad!! Bir də ki, yoxluğumda, yazılarımın xeyirxahları o tərəflərə güzar salsa, həzin nəğmələrinlə onları da şad et, Bərgüşad! Yubiley tədbirində burada müvəqqəti məskunlaşmış həmyerlilərimdən xoş təəssüratla ayrıldım. Lakin fikrim Qubadlısız qubadlıların yanında qaldı...

Qubadlı elinə görüşə getdim,
Elə bil Kəbəni ziyarət etdim.
Ancaq Bərgüşadın gəlmədi səsi,
Qeyb oldu qəlbimin nuru, şöləsi.
Qalıb intizarda aranı, dağı,
Pozulub kəndlərin əzəl növrağı.
…Serjlər sevinməsin bəd əməlindən,
Fil belinə minib qürrələnməkdən,
Ohanyan cavabın alacaq yəqin,
Qazdığı quyudan çıxması çətin.
Qisas yerdə qalmaz deyib babalar,
Tarixin dərsindən bixəbər haylar.

https://www.anl.az/down/meqale/525/2015/iyul/448888.htm

## "Əmrahsız qalan dağlar" romanından parça

Sultan bəy Andranikin xahişnaməsini alıb tanış olduqdan sonra qaşlarını çatıb əlini bığlarında gəzdirdi. Dərin fikrə getdi. Çünki onun göndərdiyi məktubun hər bir sətri arxasında Andranikin hiyləgərliyi hiss olunurdu və hər kəlməsi Andranikin fitnəkarlığından xəbər verirdi. Lakin Sultan bəy daxili düşüncəsini büruzə vermədən Andranikin göndərdiyi elçiyə üzünü tutaraq:

- Əlbəttə, Andranikin belə bir xoş niyyətə düşməsini alqışlamaq olar. Bu, onun sülhpərvərliyindən, xeyirxahlığından irəli gəlir. Ona görə də Andranikin təklifinə heç bir etirazım yoxdur. Nə vaxt Qarabağa keçmək istəsə, Laçın yolu onun üzünə açıqdır. Ancaq burada bir şərtim var: Andranik onu qəbul etməlidir. Ordu Laçından Qarabağa keçəndə bütün silah-sursat arabalara, atlara, qatırlara yüklənsin və qabaqda getsin. Onun arxasınca hərəkət edən qoşun isə əliyalın olmalıdır.

Elçi Sultan bəyin dediklərini artırıb-əskiltmədən, olduğu kimi Andranikə çatdırdı. Andranik Sultan bəyin cavabından məmnun oldu və bəlkə də ömründə indiki qədər sevinməmişdi. Andranikin qanadı olsaydı, Zəngəzur dağlarının zirvəsində qanad çalardı. Həm də Kürdüstanın adlı-sanlı bəyini aldatmasından qürur duyurdu. Andranikin silahdaşları onun dərin zəka sahibi olmasına, uzaqgörənliyinə, hər kəsə müyəssər olmayan hərbi məharətinə heyran qalmışdılar.

Andranik fəxrlə ordusunun qarşısında çıxış edərək:

- Biz Laçın dağlarını aşıb Şuşadakı, Xankəndindəki müsəlmanları uşaqdan-böyüyə, hamısını süngüdən keçirməliyik, - dedi. - Sonra Sultan bəylə haqq-hesab çəkib, onun burnunu ovmaq asandır. Mənim həmyerlilərim bilməlidir ki, nəyin bahasına olur-olsun, Qafqazda Böyük Ermənistan dövləti yaratmaqdan ötrü başımızdan keçməliyik. Ona görə də var qüvvəmizi sərf edib, bütün müsəlmanların kökünü kəsməliyik...

Ordunun yüksək rütbəli komandirləri Andranikin dediklərindən vəcdə gəlib, onu təntənə ilə qollarının arasına alıb atıb-tutdular. Əsgərlər tüfənglərinin süngüsünü başlarından yuxarı qaldırıb, Ermənistanın xilaskarı kimi gur səslə deyirdilər:

- Yaşasın Andranik!!!
- Yaşasın Andranik!!!
- Yaşasın başımızın tacı!!!
- Yaşasın erməni xalqının əfsanəvi qəhrəmanı!!!

Ancaq onların sevinci çox çəkmədi. Andranikin qoşunu Zabux dərəsinə enəndə, Sultan bəyin əvvəlcə hazırladığı silahlı dəstələrin mühasirəsinə düşdü və son nəfərə qədər hamısı məhv edildi. Andranik ordunu qırğına verib, sağ qalmış bir neçə zabiti ilə məyus halda geri dönəndə, yaxınlıqdakı erməni kəndlərində gözünə dəstə-dəstə arvad-uşaq sataşdı. Onlar üzünü göylərə tutub Andraniki söyür, qarğış eləyirdi. Erməni qadınlarının vaynəv səsi aydınca eşidilirdi:

- Balan ölsün, Andranik!!!
- Evin yıxılsın, Andranik!!!
- Balalarımızı yetim qoydun, Andranik!!!
- Adın batsın, Andranik!!!

Qəm dəryasına qərq olan Andranik bu məşum ah-naləni eşitməmək üçün yanındakı zabitlərin qulağına əyilib pıçıltı ilə:

- Məni elə bir yolla aparın ki, nə bu ah-nalələri eşidim, nə də ki göz yaşı tökən o qadınlarla rastlaşım.

Sultan bəyin bu şücaəti bütün Zəngəzura yayılmışdı. Andranikin Sultan bəyin toruna düşməsi erməni daşnaklarını bərk sarsıtmışdı, onlar yasa batmışdılar.

Sultan bəy və Xosrov bəy qardaşlarını Qarabağda, Zəngəzur mahalında yaxşı tanıyırdılar. Xosrov bəy Gəncədə gimnaziyanı bitirdikdən sonra Odessa Ali Tibb Universitetinə daxil olmuşdu. Hündür boyu, gur saçları, qara qaşları, çevik davranışı olan Xosrov bəy dərsdən sonra Odessanın istirahət parklarının birində sakit-sakit var-gəl eləyirdi. Birdən qadın qışqırtısı eşitdi:

- Mənə kömək edin!!! Mənə kömək edin!!!

Xosrov bəy ayaq saxlayıb geriyə baxdı. Üstündə silah olan rus zabiti nazənin bir qızın qollarından yapışıb, zorla hara isə çəkib aparmaq istəyirdi. Qız isə qışqırıb yoldan keçənləri köməyə çağırırdı. Xosrov bəy bunu qüruruna sığışdırmır və onlara tərəf addımlayıb zabitin üstünə qışqıraraq:

- Hörmətli zabit, özünüzü ləyaqətli aparın, - deyir. - Xahiş edirəm, qızla işiniz olmasın!

Zabit Xosrov bəyi saya salmadan:

- Qarabala oğlan, başın bədəninə ağırlıq eləməsin. Yolunla düz get. Biz özümüz bilərik,- deyə cavab verir...

...Xosrov bəylə zabitin mübahisəsi duellə nəticələnir. Zabit tapança ilə Xosrov bəyə atəş açır və onun gözünün birini zədələyir. Xosrov bəy də özünəməxsus cəldliklə zabiti hədəfə alır və sərrast güllə ilə onu yerə sərir.

...Sonradan məlum olur ki, Xosrov bəyin müdafiə etdiyi qız Odessa Tibb Universiteti rektorunun yeganə övladıdır.

Bu hadisədən sonra qız Xosrov bəyə vurulur. Qızın valideynləri də buna etiraz etmir. Onlar evlənirlər... Hələ tələbə ikən övladları olur, adını da Murad qoyurlar. Təəssüf ki, Murad çox yaşamır, dünyasını dəyişir…

https://525.az/news/66419-emrahsiz-qalan-daglar



***Vahid MƏHƏRRƏMOV***

*Vahid Məmmədqulu oğlu Məhərrəmov 21 avqust 1961-ci ildə Zəngilan rayonunun Babaylı kəndində anadan olub.*

## SALAM TUT AĞACIM, MƏNİ TANIDINMI?...

*(esse)*

1993-cü ilin soyuq oktyabrında ermənilər torpaqlarımızı ələ keçirdilər. Ömrümüzün ağrı-acılarla dolu günləri başladı. Qoynunda dünyaya göz açdığın və illərlə yaşadığın yurddan didərgin düşməyin ağrısı dözülməzdir. Yəqin ki, dünyada bundan ağır, bundan üzücü dərd yoxdu. Bu dərdə dözməyənlər, dünyadan tez köçənlər çox oldu. Ancaq doğma ocaqlarımıza qayıdacağımıza olan ümidimizi üzmədik.

*"Gözlə bizi, tut ağacı, quruma, biz mütləq qayıdacağıq!"*

Beş-altı il əvvəlin söhbətidi. İnternet vasitəsilə çətinliklə də olsa, kəndimizə, evimizə baxa bildik. Dəhşətli mənzərələr gördük. Ürəyimiz alışıb yandı, qəlbimiz göyüm-göyüm göynədi. Ermənilər kəndimizi vəhşicəsinə dağıtmışdılar, viran qoymuşdular. Belə vəziyyətdə evlərimizi tanıya da bilmirdik. Yurdumuzun bu üzücü, ürəkdağlayan görkəmi varlığımızı titrədirdi. Ötən illər kino lenti kimi gözlərimiz önündən gəlib keçirdi. Həmin kino lentində evlərimiz yerindəydi, kəndimiz dağıdılmamışdı.

Belə kədərli anlarda kompüterin ekranından həyətimizə baxanda diqqətimi balaca qaraltı cəlb etdi. Yadıma düşdü ki, bu, tut ağacımızdır! Onu həyətimizə orta məktəbdə oxuduğum illərdə öz əllərimlə basdırmışdım. Deməli, tut ağacı uzun illər susuzluğa dözüb, qurumamışdı. O anlarda keçirdiyimiz kövrək hissləri sözə çevirib dedik: "Gözlə bizi, tut ağacı! Quruma, bir az da döz, bizi gözlə! Biz günlərin birində mütləq geri qayıdacağıq!" Heç bilmədim ki, tut ağacı səsimi, sözümü eşitdi, yoxsa yox?

İllər bir-bir ötüb keçsə də, ürəkaçan dəyişklik baş vermirdi. Qayıdış yollara çökmüş qatı duman çəkilmirdi. Bu yollara zəfərin, qələbənin işığı düşmürdü. Doğma ocaqlarımızın həsrətini çəkə-çəkə yaşayırdıq. Ermənilər sülh danışıqlarına gəlmir, vaxtı uzadırdılar.

2016-cı ilin aprel döyüşlərində qəlbimizdə geriyə dönmək üçün ümid qığılcımları sayrışdı, dumanlı, çiskinli olan qayıdış yollarına işıq düşdü. Dörd gün qanlı döyüşlər getdi. Həyəcan və narahatlıq dolu günlər yaşandı. Erməni ordusunun "məğlubedilməz" olduğu haqqında mif ayaqlar altında tapdalandı. Xalqın ordusuna inamı və sevgisi daha da artdı.

*Böyük həsrətlə gözlənilən gün*

Qarabağ uğrunda döyüşlərin yenidən alovlanmasını yenə dörd il gözlədik. 2016-cı ilin aprel ayında beynəlxalq təşkilatların məsləhət və təzyiqi ilə susdurulan silahlar ılıq bir payız günündə dilə gəldi. 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində silahlar yenidən gurladı. Uzun illər müharibəyə hazırlaşan və yeni ərazilərimizi işğal etmək xəyalları ilə yaşayan ermənilər torpaqlarımıza hücum çəkdilər. Yurd qeyrəti çəkən oğullar düşmənlə döyüşə atıldılar. 44 gün davam edən İkinci Qarabağ müharibəsi ordumuzun qələbəsi ilə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 28 ildən çox düşmən tapdağında qalan torpaqlarımız işğaldan azad olundu. Azərbaycan əsgərinin addım səsləri Qarabağda, Zəfərinin sədası isə onun başı qarlı dağlarında, geniş düzlərində, yaşıl meşələrində eşidildi.

Qoynunda dünyaya göz açdığım Zəngilan rayonunun Babaylı kəndi 21 oktyabr 2020-ci ildə işğaldan azad olundu. Artıq yollardan qatı duman çəkildi. İllərdən bəri həsrəti ilə yaşadığım kəndimizə getməyə, doğma evimizi, həyətimizi, bir vaxtlar bu həyətdə əkdiyim illərin susuzluğuna dözüb qurumayan bizi gözləyən tut ağacını görməyə gedə biləcəydik. O günü, o anı həsrətlə gözləyirdik.

Kəndimizə getmək üçün sentyabr ayının əvvəllərində imkan yarandı. Mənzil başına tez çatmaq üçün yola səhər ertədən çıxmışıq. Füzuli rayonunun Horadiz qəsəbəsini keçəndən sonra işğaldan azad olunmuş ərazilərə yaxınlaşırıq. Üzü Cocuq Mərcanlıya tərəf gedirik. Əvvəllər Füzuli istiqamətinə gedəndə yolumuz bu yaşayış məntəqəsində bitirdi. Artıq dörd ildən çoxdur yollarımız açılıb. Açılmış yollarla Cəbrayıldan keçib Zəngilana doğru gedirik.

*“Salam tut, ağacım, biz qayıtmışıq”*

Zəngilana, qoynunda dünyaya göz açdığım Babaylı kəndinə yaxınlaşırıq. Havalı kəndindən sağ tərəfə dönürük. Əgər yolda ləngiməsək, on-on beş dəqiqədən sonra ayağım kəndimizin torpağını dəyəcək. Həyəcanlanıram. Qonşu Məmmədbəyli kəndini də keçirik. Addım-addım 28 ildən bəri həsrətini çəkdiyim kəndimizə yaxınlaşırıq. Uzaqdan kəndimizin uçurulub dağıdılmış evləri gözümüzə dəyir. “Babaylı” sözü yazılmış lövhəni görəndə gözlərimiz dolur.

Doğma kəndimizin darmadağın edilmiş ürəkdağlayan mənzərələrinə, ot basmış məhəllərinə baxa-baxa evimizin iki addımlığına gəlib çatırıq. Başqa evlər kimi bizim evimizi də ermənilər uçurub-dağıdıblar. 31 il əvvəl axarlı-baxarlı olmuş kəndimizdə indi sükut hökm sürür. “Qu” desən qulaq tutular. Maşını məhəlləmizin aşağı tərəfində saxlayırıq. Əvvəllər həm maşınların, həm də piyadaların gediş-gəlişi üçün geniş yolu olan məhəlləmizi yabanı otlar basıb. Əvvəlki geniş yoldan indi balaca bir cığır qalıb. Doğma ocaqlarımız tanınmaz hala düşüb.

Kövrələ-kövrələ, ayaqlarım titrəyə-titrəyə evimizə tərəf addımlayanda ilk gözümə görsənən bir vaxtlar əkdiym tut ağacı və ona qısılmış nar ağacları oldu. Tut ağacı 31 ilin susuzluğuna dözüb qurumayıb. Dönüşümüzü gözləyib, bir an

olsun belə gözlərini yollardan çəkməyib. Evimizdə, həyətimizdə gördüyüm dəhşətli mənzərədən gözüm dörd olub. 1993-cü ilin payızında bu yerlərdən qaçqın düşəndə burada bir-birindən gözəl evlər, tikililər qoyub getmişdik. O boyda evlərdən indi yarıya qədər uçurulmuş divarlardan başqa heç nə qalmayıb.

Addım-addım tut ağacına tərəf gedirəm. Əl atıb onun budağını astaca sıxıram. Tut ağacı ilə salamlaşmadıq. Diqqətlə baxanda görürəm ki, ermənilər işğal günlərində onun lap dibindən gövdəsini kəsiblər. Sonra ağac həyətimizin torpağından güc alaraq pöhrələyib, yenidən günəşə boylanıb, yenidən ulduzlara salam verib. Düşmənin acığına bu dəfə lap sürətlə boy atıb. Yaxınaşan kimi ağacın yarpaqlarından, budaqlarından öpüb kövrək səslə pıçıldayıram: "Salam, tut ağacım, biz gəlmişik! Məni tanıdınmı? Sənə söz vermişdik mütləq qayıdacağıq! Bilirik ki, arxada qalmış illər günlərin sarsıntılar içində keçib. Evimizin, həyətimizin düşmənlər tərəfindən dağıdılmasına şahidlik etmisən. İçin-için sızlamısan, ağlamısan. Düşmənlər görməsin deyə, göz yaşlarını ürəyinə axıtmısan. Sənə sığınan nar ağacları da sənin göz yaşlarından su içib. Ona görə də qurumayıbsan. Ermənilər sənin ürəyini dağlayıb, qəlbini yandırıblar. Əgər dilin olsaydı, indi nələr danışardın, nələr! Sən danışmasan da biz kəndimizdəki, evimizdəki acınacaqlı vəziyyəti görürük. Görürük ki, ermənilər kəndimizə, həyətlərimizə, bağbağatımıza nə sitəmlər ediblər. Tut ağacı, sağ ol ki, bütün əziyyətlərə dözüb qurumamısan. Dözmüsən ki, doğma yurda qayıdanda bizi qarşılayasan! Gözün aydın, gec də olsa, biz qayıtdıq! Qayıtdıq ki, ermənilərin xaraba qoyduqları yerləri abadlaşdıraq, torpaqlarımızın yarasına məlhəm qoyaq, sənin göz yaşlarını silək. Gözün aydın, uzun çəkən həsrətə son qoyuldu, biz indən sonra heç vaxt ayrılmayacağıq!"

Hava küləkli deyildi. Amma biz sözlərimizi bitirəndən sonra ağacın yarparları həzin-həzin tərpəndi. Deməli, tut ağacı məni tanımışdı.

*Bakı-Zəngilan-Bakı, sentyabr, 2024*



*Vəfa XANLARQIZI*

*1968-ildə Qubadlının İşıqlı kəndində anadan olub.*

## DOĞMA OBAM, GÖZƏL YURDUM, İSTİ YUVAM QUBADLIM!

Mənim üçün Qubadlı haqqında yazmaq çox çətindir. Ancaq mənim uşaqlığım keçən o yerlər, ellər, obalar haqqında yazmağı özümə borc bilirəm. O gözəl, səfalı yerlər yaddan çıxmasa da, daima fikirlərim, xəyallarım oralarda dolaşır əcdadlarımızın əzəli beşiyi, son məzarı olan Qubadlımda! Həsrəti, niskili ürəyimdə qövr edən Qubadlımda!

Bəli, Qubadli rayonunun tarixi çox qədimdir. Bu yurd özünün folklorunu da, daş əsərlərini də, musiqisini də, abidələrini də bir tarix kimi yaşatmışdır. Bir əsrdə iki dəfə ermənilərin hücumuna məruz qalan Qubadlının həsrətini çəkməmək olmur. Torpağımıza göz dikən xain ermənilər 1993-cü ildə torpaqlarımızı işğal etdilər. Torpaq uğrunda çox igidlər qurban verdik, ailələr başsız, uşaqlar yetim qaldı. Ancaq Qubadlı həsrəti heç vaxt yaddan çıxmadı, sinəmizi göyüm-göyüm göynətdi...

Azərbaycan elminin inkişafında Qubadlı alimlərin də zəhməti böyük olmuşdur. Onlardan geologiya-mineralogiya elmləri doktoru, akademik Ə.Əmiraslanovu, akademik  Abdullayevi, iqtisad elmləri doktorları H.Şirinovu, M.Allahverdiyevi, fizika-riyaziyyat elmləri doktorları E.Eyvazovu, X.Şirinovu, tarix elmləri doktorları İ.Məmmədovu, K.Hüseynovu, H.Aslanovu, Pedaqoji elmlər doktoru Ə.Haşımovu, fizika-riyaziyyat elmləri namizədi M.Hacıyevi, M.Quliyevi, biologiya elmləri namizədi X.Babayevi və başqlarını göstərmək olar. Müasir Azərbaycan ədəbiyyatının görkəmli və tanınmış nümayəndələri S.Rəhimov, Ə.Vəliyev, Q.Qasımzadə, C.Bərguşad, Ə.İldırımoğlu, Ş.Arif, R.Rövşən, E.Baxış, R.Yusifoğlu, Ə.Aslan, H.Nərimanoğlu, Y.Həsən, Q.Əvəzoğlu və başqaları Qubadlı torpağının yetirmələridir.

Deyim ki, bu torpağın yetirmələrinin hamısının adlarını yazsaq, böyük bir siyahı alınar.

Qubadlı rayonunun təbiəti olduqca füsunkardır. Palıd bu meşələrin varı, vələs dövləti, alması, armudu, fındığı, üzümü, əzgili, zoğalı sərvəti, çayları, buz bulaqları şan-şöhrəti, xınalı kəklikləri, turacları, göyərçinləri, qaranquşları... gözəlliyidir. Təbiət bütün gözəlliyini bu yerlərə bəxş etmişdir. Əgər bir gün tale səni Qubadlıya gətirsə, sən bu gözəllik qarşısında heyrətə gələcəksən, sehrlənəcəksən. O yerlərdə hər daşın, hər dərənin, hər bulağın belə adları vardır. Məsələn,

mənim doğulub boya-başa çatdığım və kiçik bir ərazisi olan İşıqlı kəndinə məxsus yer adlarına fikir verək:

Bu kəndin adı Şıx Şərif adlı bir şəxslə, bir ocaqla bağlıdır. Şıx Şərif babanın ocağı bu kənddə olmuşdur. Bu ocaq adlandırılan yer XX əsrin əvvəllərindən adamların şəfa tapdığı bir ocaq olmuşdur. Hasara alınmış bu yer yüzlərlə insanların ziyarət yeri olmuşdur. Sonralar bu Şıx Şərif ocağı illər keçdikcə adını dəyişərək Şıxlı, sonradan İşıxlı şəklində deyiliş almışdı. Hal-hazırda İşıqli deyilir. Bu kənd Həkəri çayının sol sahilində yerləşir.

Və biz bu kənddən səyahətə başlayırıq. Kənddən qalxırıq Dəflər düzünə, keçirik Uzun düzə, sonra Daşlı güneyə, oradan Narcax bulağına, soyuq sulu bu bulaqdan içib, səfərimizi davam edirik. Gəlib çatırıq bu kəndin ilkin salındığı yerə - İşıqlı bulağından içirik, qoca çinarın kölgəsində dincələrik.

Həsrətli çinar! Yaşı necə yüz il oldugu bilinməyən bu çinar, görən öz sakinlərini gözləyirmi? Biz get-gedə yüksəkliklərə qalxmalıyıq. İndi gedəcəyimiz yerlər əhalinin əkin-biçin yerləri, camaata çox fayda verən meşəliklərdir. Çinarın kölgəsində dincimizi alıb, İbadın yoxuşu deyilən yerdən Damlamaç yurduna gedirik. Yerin adı damlaaç olub. Təbiətə uyğun addır. Bir gündə neçə dəfə yağar-açar, məhsulunu yığıb-yığışdırmaq olmaz. Nəhayət babamın - Qara kişinin saqqızları deyilən yerə gedirik (saqqız ağacdır). Rəhmətlik babam orada çox ağaclar əkdirmişdi. Çox füsunkar gözəlliyə malik bu meşəlik, cərgə ilə düzülmüş agaclara baxdıqca adam fərəhlənir. Oradan keçirik Zoğallı düzə və buradan Kiçik Həkəri deyilən çaya heyran-heyran baxırıq. Sonra istiqamətimizi sola dəyişib Boyaqlıya gəlirik. Çinarlının saf suyundan içib Cirəngi deyilən yurd yerinə baş çəkirik. Kim bilir, bu yerlərdə neçə-neçə igidlərin izi qalıb.

Cirəngi meşəsi! Çinarlar! Bu yerlərin adını təəssüflə çəkirik. Ona görə ki, neçə-neçə gəncin burada yeyib içməyi, bir-birilərinə xatirələr danışmağı və sonda adını bu çinara həkk etmələri bəllidir. Yadımdadır, hər il may ayında müəllimlərimiz şagirdləri ilə buraya, təhsillərini başa vurduqlarına görə dincəlməyə gələrdilər. Hərə adını bir ağaca yazardı, hətta sevdikləri qızın adını da! Bunlar hamısı xatirələrdə qalıb. İndi oranın həsrətini çəksək də, məkanımız bu gözəl diyarın başqa səmti olub.

Hələ bu söylədiklərim azdır. Kaş baharın gözəl çağlarında dağlara qalxıb, meşələrdə doyunca gəzəsən. Al-əlvan xalıya bənzəyən o yaylaqlardan kəkotu, qantəpər yığıb, sonra laləli çəməndə oturub, xəyala dalıb bulaq başında dincələsən. Ancaq xarıbülbüllə qarşılaşsan, heç təəccüblənmə, çiçəklər arasında onu da görəcəksən. Oradan üzü yuxarı baxanda uca qayalıq görünür - Qızıldaş deyirlər buraya. O tərəfdə Palıdlı dərə, bu yanda İncirli bulağı, bir də adına oxşayan Göbələkli deyilən yer görünür. Hələ burada bir yer də var - Kəlbətin deyilən bu yerin adı da çox maraqlıdır. İki dərənin başı birləşib kəlbətin şəklində olduğuna görə bura Kəlbətin adı verilmişdir. Bu yerlərin adlarını saymaqla qurtarmaz. İstəyirəm gəlib çıxam Qara quzeyin başına və oradan enəm İşıqlı kəndinə. Axı o yerlər üçün çox darıxmışam... Bu mənim doğma Qubadlımın zərrəsindən bir zər-

rədir. Sağlıq olsun, görüşərik, ey niskilini ürəyimdə gəzdirdiyim, həsrətinə bələndiyim doğma obam, gözəl yurdum, isti yuvam Qubadlım!..Böyük Allah bizdən heç nə əsirgəməyib, amma başımızın bəlası da az olmayıb. Bir əsrdə iki dəfə süfrəmizin qırıntıları ilə dolanan nankor ermənilər buranın əhalisini qaçqın salıb, ev-eşiyini talan edib, yandırdılar...

Yuxularımda, xəyallarımda o yerləri gəzsəm də, o yerlərə qovuşmaq istəyirəm.

Həmişə deyərdim, qismət olsun, Allah qovuşdursun! Nahaq qan isə yerdə qalmaz, deyib babalar, qalmadı da. Çox şükür!Mənfur düşmənlərimiz torpaqlarımızdan qovuldu, qəhrəmanlarımızın qanı və canı bahasına işğal edilmiş ulu yurdlarımız işğaldan azad edildi.Həsrətin içində vüsal görürəm, xatirələr həkk olan, gercəyə dönən, qaranlıq gecənin işıqlı sabahı olan arzular, bir vaxtlar haqqında danışdıqlarımız indi artıq gerçəkləşib. Ali Baş Komandanın əmri, xalqın yumruq kimi birləşməyi bizi Zəfərə qovuşdurdu. İndi həsrətin çəkdiyimiz doğma yurd-yuvamızı ürəklə ziyarət edirik. Çünki bu torpaqlar bizim üşün əsil ziyarətgahdır – Kəbə, Məkkə, Mədinədir.

Həsrətdən bozaran, xiffət çəkən dağ-dərə, çöl-yamac indi yaşıllığa, gül-çiçəyə büründü, yurd-yuva əsil sahibinə qovuşdu. Buludlar sevincdən ağlayır, çaylar sevincdən çağlayır, dağlar vüqarla boylanıb səsləndi!..

Qarabağ  Azərbaycandır! Qarabağ bizimdir!











***Nəzrin PƏRVİZQIZI***

*Bakı şəhəri Nizami rayonu Namiq Həmzəyev adına 238 saylı məktəbin X sinif şagirdi, 21.08.2009, əslən Qubadlının Qazian kəndindəndir.*

## ŞƏHİDLƏR, QAZİLƏR - SİZLƏRƏ BORCLUYUQ

*Məktəbimizin şəhid məzunlarının əziz xatirəsinə həsr edirəm.*

Həftənin ilk günü - sentyabr ayının 27-si idi. Ev işlərini görürdüm. Birdən televizorda ermənilərin hücuma başladığını və Ali Baş Komandanımızın əks hücum əməliyyatı əmrini verdiyini eşitdim.

Çox həyəcanlandıq. Evə zəng gəldi. Düzünü desəm çox qorxdum. Zəng edən hərbi komissarlıqdan idi. Qardaşım ehtiyatda olan zabit olduğu üçün onu hərbi xidmətə çağırırdılar. Qardaşım Polad müharibəyə yola düşdü. Evə tam sükut çökdü. Bu sükutu anamın ağlamaq səsi pozdu. Həmin axşam gözümə yuxu getmədi. Hey qardaşımı düşünürdüm. Gecənin yarısında anam mənim yanıma yaxınlaşdı. Biz bir-birimizə sarılıb ağladıq.

Günlər keçir, hər gün neçə-neçə şəhər, kənd, qəsəbəmiz azad edilirdi. Bu xəbərləri eşitdikcə sevinir, gecə-gündüz əsgərlərimizə dua edirdik. Həm də çox narahat idik. Qardaşım üçün çox qorxurduq. Nə etmək olardı. Əlimizdən heç nə gəlmirdi. Hərbi intizama tabe olan qardaşım müharibəyə gedəndən hələ bir dəfə də olsun evə zəng etməmişdi. 3 oktyabr idi. Bu dəfə Füzulinin bir kəndi, Cəbrayıln beş kəndi, Tərtər rayonunun iki kəndi işğaldan azad olundu. 4 oktyabr Cəbrayıl şəhəri işğaldan azad edildi. Hər xəbər eşitdikcə qürurlanırdıq. Qonşuluqda yaşayan Anar və Allahverdi qardaşları Cəbrayıl rayonundan idi. Çox sevinirdilər.

Günlər tez – tez keçirdi. 17 oktyabr idi. Hələ də qardaşımdan zəng gəlməmişdi. Başa düşə bilmirdim ki, niyə qardaşım bizi nigaran qoyurdu. O, vətənpərvər oğlan idi. Hər dəfə atamgil Qubadlı xatirələrini danışanda Ali Baş Komandan əmr verən kimi cəbhəyə gedəcəyini söyləyirdi.

20 oktyabr anamgilin doğma yurdu - Zəngilan şəhəri işğaldan azad olundu. Musa babama zəng vurdum. O danışa bilmir, hönkür-hönkür ağlayırdı. Doğma yurd, vətən həsrəti sona yetirdi artıq.Beləcə hər gün Ali Baş Komandanın xalqa müraciətlərində yeni bir zəfər xəbəri eşidirdik. Oktyabrın 24-dən 25-nə keçən gecə atama zəng gəldi. Bilinməyən nömrə idi. Sən demə zəng edən qardaşım imiş. O doluxsunmuş vəziyyətdə atamı təbrik edirdi. Nə olduğunu anlamadım. Qardaşım Qubadlı şəhərinin işğaldan azad olunduğunu söylədi. Atam əlində telefon donub qalmışdı. Telefonun o tərəfindəki səs isə "Bəhmən babamın yurduna qayıdırıq" deyə ağlayırdı. Həm qardaşımın artıq ordudan tərxis olunub evə




geri döndüyünü eşidib şad olur, həm də yurdunun azad edilməsinə sevinirdi. Atam kimi sərt, əyilməz, dözümlü kişi bir anda dizlərini yerə atıb babamın gözlərinin içinə baxdı. O dəqiqə qışqırıb ağlamağa başladım. Özümə yer tapa bilmirdim. Bilmirdim ağlayım ya gülüm. İllər sonra ağlayaraq ayaqyalın, başıaçıq çıxdığımız yurdumuza sevinərək, qürurla geri dönəcəkdik. Sözlə ifadə olunmayacaq hisslər yaşayırdıq. 8 noyabrda mədəniyyət beşiyimiz olan Şuşaya qovuşduq. Bütün xalq ayaqda idi, biz də qonşularımızla sevinir, əllərimizdə bayraq şənlənən insanlara qoşulmuşduq. Bu bizim birliyimizin zəfəri idi. Mənfur düşmən məğlubiyyətini qəbul edərək, bunu imzası ilə qəbul etməyə məcbur olmuşdu. Bütün dünya Şuşada əsgərlərimizin misli görünməyən qəhrəmanlığından danışırdı.

Biz bu Zəfər üçün minlərlə şəhid, yaralı verdik, ancaq bunsuz qələbə olmur, düşmənin itkisi bizimkindən xeyli çox idi. Artıq nankor yağılar Qarabağda onlara yer olmadığını anlayıb, Laçından ermənistana köçüb getmək üçün koridor istəyirdilər.

Hər kəsin dilində bu sözlər səslənirdi: Zəfərin mübarək, Azərbaycan! Şəhidlərimiz, Qazilərimiz, bu Zəfər üçün sizlərə borcluyuq. Ana yurdum Zəngilan, ata yurdum Qubadlı, eləcə də  Füzuli, Cəbrayıl, Şuşa... azaddır, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!



***Şəcahan GÜN***

*Şəcahan Xaməmməd qızı Ramazanova 20 avqust 1974-cü ildə Zəngilan rayonunun Günqışlaq kəndində anadan olub.*

## "MƏN SƏNİ SEVDİM AY İŞIĞINDA"

*Şəhidlərimizin əbədi xatirəsinə həsr olunur*

Ayan məktəbi təzəcə qurtarmışdı. O, özünü dərk edəndən bəri, demək olar ki, ömrü kitabların arasında keçmişdi. Nəticə də uğurlu idi. Ayan artıq tanınmış bir akademiyanın tələbəsi idi. Bütün ailə sevinirdi. Valideynləri ona məsləhət gördülər ki, bu yay gedib istirahət məkanlarından birində yaxşıca dincəlsin.

Ayan Bilgəhi seçdi. Çünki dənizi sevirdi. Saatlarla qayaların üstündə oturub dənizə tamaşa etməkdən doymazdı. Xüsusilə də meh əsəndə, dəniz o qədər gözəl görünürdü ki, elə bil masmavı suların üzərinə ağ mirvarilər səpiblər.

Havalar isti olduğundan, həm də universitetlərdə qəbul imtahanları qurtardığından, gənclər buraya axışmışdılar. Gündüzlər səs-küy olduğundan, Ayan gecələr gəzintiyə daha çox üstünlük verirdi. Akademiyada dərslərin başlanmasına qədər yaxşıca əylənmək istəyirdi.

Aylı gecələrdə gəzinti lap uşaqlıqdan Ayanın xoşuna gəlirdi. Həmişə atasına deyərdi ki, ata, axşamlar məni Xəzərin sahilinə apar. Atası da qızını çox sevdiyindən sözünü yerə salmazdı.

Ayan balaca olanda ona belə gəlirdi ki, Ay səmada gəzir. Bəzən də, sanki Ay onunla oynayırdı, o gedəndə gedir, o dayananda dayanırdı.

Yenə aylı bir gecə, Xəzərin sahili və Ayan.

İnsanların çoxu otaqlarına çəkilib istirahət edir. Ayan isə şam ağacının altında oturub, Ayın dənizi necə işıqlandırmasına tamaşa edir. Sular Ay işığında par-par parıldayırdı. Sanki Ay Xəzərin üstündən Ayana bir körpü atmışdı, onu özünə doğru çağırırdı.

– Salam, yanınızda oturmaq olar?

Ayan diksindi. Onu xəyallarından hündürboylu, yaraşıqlı, gənc bir oğlan ayırdı.

– Əlbəttə, buyurun!

– Gəlin tanış olaq. Mənim adım Müşfiqdir.

– Çox gözəl. Mən də Ayan.

Onlar yanaşı oturub sakitcə dənizi seyr edirdilər.

– Deyəsən, siz də aylı gecələri sevirsiz?

– Çoox, belə gecələrdə dənizə baxmaqdan doymuram. Elə bilirəm ki, dəniz axıb harasa uzaqlara gedir, məni də özü ilə aparır.

– Yəqin ona görə gözləriniz də dəniz rəngindədir, - Müşfiq güldü.

Məlum oldu ki, Müşfiq Ayanın oxuduğu akademiyanın bu ilki məzunudur. Burada da çox qalmayacaq. Bir neçə gündən sonra həqiqi hərbi xidmətə çağırılacaq.

Müşfiq danışırdı ki, yeddi yüz balla akademiyaya daxil olub. Riyaziyyatı gözəl bilir. Hələ tələbə ikən müxtəlif kurslara gedib, riyaziyyatın bütün sirlərini öyrənməyə çalışıb. Arzuları çox böyükdür...

– Mən də riyaziyyatı çox sevirəm. Saatlarla məşğul olsam, yorulmaram. - Ayan dedi.

– Nə kömək lazım olsa, etməyə hazıram. İndi isə düşək, dənizin sahilində gəzək.

Dəniz qayalığın aşağısında yerləşirdiyindən pilləkənlə enməli oldular. Gecənin sakitliyini suların qayalara çırpılan səsi pozurdu. Ayan düşünürdü ki, yəqin dəniz qayalara aşiqdir. Ona görə həsrətinin gücündən özünü qayalara belə çırpır. Beləcə, həsrətli bir sevgi var, dəniz ilə qayaların arasında.

Ayan ayaqqabılarını çıxarıb əlinə aldı. Dənizin ləpələri astaca ayaqlarına toxunub, geri qayıdırdı. Ləpirləri islanmış qumun üzərində yanaşı iz salırdı. Sakit, lal xeyli gəzdilər, yanaşı dürüb dənizə tamaşa etdilər. Gecənin qaranlığında dəniz vahiməli gəldi Ayana.

– Artıq gecdir, gedək, – Ayan dedi.

Onlar otelə qalxdılar. Axşamlar burada gənclər üçün diskoteka yarışmaları da keçirilirdi. Müşfiq Ayana dedi ki, bəlkə bəxtimizi sınayaq?

Gənclərə qoşulub rəqs etməyə başladılar. Ayan elə gözəl rəqs edirdi ki, hamı əl çalmağa başladı. Müşfiq də ondan geri qalmamağa çalışırdı. Rəqs bitəndə artıq insanların onlara necə təbəssümlə baxdıqları açıq-aydın görünürdü. Onlar bugünkü günün qalibi seçildilər.

– Bir-birinizə çox yaraşırsınız, – kimsə söz atdı. - Allah xoşbəxt eləsin!

Ayan qızardığını hiss etdi.

***

Qayalığın lap hündür yerində gözəl bir istirahət məkanı da vardı. Hava küləkli olanda Müşfiqlə Ayan gəlib buradan dənizə tamaşa edirdilər. Dalğalar şahə qalxırdı, dənizin suları qaralırdı. Amma bunun özündə də bir gözəllik vardı.

Müşfiqlə Ayan bir-birinə elə bağlanmışdılar ki, sanki birlikdə böyümüşdülər. Günləri biri birindən maraqlı və şən keçirdi.

Bir gün Müşfiq onun otağına gəlib rəsmləri ilə tanış oldu.

Ayan ona demişdi ki, lap uşaqlıqdan rəssamlıqla da məşğul olur. Hara getsə rəngləri və fırçasını da özü ilə aparır. İndi də gündüzləri rəsmlər çəkməklə məşğuldur.

– Gün gələr, mənim də portretimi çəkərsən, - zarafatla dedi Müşfiq.

Ayanın içindən bir qorxu keçdi. Elə bil ürəyinin telləri qırıldı. Ona belə gəldi ki, bir daha Müşfiqi görməyəcək. Tez bu fikirləri özündən uzaqlaşdırdı:

– Əlbəttə, inşallah, sağ-salamat əsgəri xidmətini başa vur, gəl, mütləq portretini işləyərəm.

Müşfiq Ayanla xüdahafizləşdi.

– Arıq Vətən qarşısında borcumu yerinə yetirməyin vaxtı gəlib çatıb.

Ayrılanda Müşfiq bir də dedi ki, onu unutmayacaq, harada xidmət etdiyini mütləq yazacaq.

Elə bil hər tərəf soyumuşdu. Ətrafda hər şey ona maraqsız gəlirdi. Ayan daha buralarda qala bilməyib, yır-yığış edib evlərinə qayıtdı.

Otağına çəkildi. Ürəyində tutmuşdu ki, Müşfiqin arzusunu yerinə yetirəcək, portretini öz əlləri ilə çəkib, əsgərliyini başa vurub gələn günü ona hədiyyə edəcək. Həm də gərək çəkdiyi portret onların ilk görüşünü xatırlatsın. Arxada Ay işığı canlansın. Görəsən, bütün ürəyindən keçənləri tabloda əks etdirə biləcəkmi?

Müşfiq yazırdı ki, Dağlıq Qarabağda, Tərtər rayonu, Talış kəndi ərazisində xidmət edir:

“-Düşmənlə üzbəüzük. Düşmənə nifrətim o qədər böyükdür ki, bir anda onları Yer üzündən silməyə hazıram.

– Mən ən böyük arzuma çatmışam, Vətənə xidmət edirəm.

– Düşmənlərimiz bizdən çox qorxurlar. Azərbaycan ordusunun necə güclü olduğundan xəbərdardılar. Ona görə də qaçmağa meyillidirlər.

– Ayan, sən təhsilinə diqqət et. Kaş, səni anamla tanış etmiş olardım...

– Elə igid, aslan ürəkli oğlanlarla birlikdəyəm ki, əsla məndən nigaran qalma, Ayan. Biz düşməni məhv etməmiş geri dönən deyilik.

– Bir gün gələr, bütün torpaqlarımızı azad edərik, bax, onda mütləq səni buralara gətirəcəm.

– Ayan, bir qarış torpağıımızı da düşmən əlində qoymayacağıq. Mən buna əminəm...

– Artıq az qalıb, Ayan, iki aydan sonra əsgəri xidmətimi başa vurub yanına qayıdacam. Bax, onda görəsən ki, Vətəni necə igidlər qoruyur...

– Vəziyyət gərgindir, düşmənlərimiz dinc oturmurlar, arada atışmalı oluruq.

– Sevirəm səni, Ayan, dəlilər kimi..., gözlə məni. Bir az da döz, tezliklə görüşəcəyik. Düşmənin məhvinə az qalıb”.

“Gözləyirəm, əlbəttə gözləyirəm, biləsən necə həsrətlə gözləyirəm. Hər dəqiqəm bir il kimi keçir, Müşfiqim...”

Gecələr səhərə kimi işləyirdi. Deyəsən, istəyinə nail olacaqdı. Müsfiqinə layiq bir portret çəkə biləcəkdi Ayan.

Müşfiqin qayıtmasına saylı günlər qalmışdı. Artıq portret hazır idi.

Müşfiq bəyənəcək yəqin - Ayan sevinirdi. Portreti hər kəsdən gizlədirdi, ilk dəfə Müşfiqinin görməsini istəyirdi.

Aprel döyüşləri... Aprel müharibəsi...

Müşfiqin məktublarının arası kəsilmişdi. Ayan səhərlərii ağ açırdı. Kimə desin dərdini, kimin yanına getsin, kimdən soruşsun Müşfiqini? Köksü yerində durmurdu. Kədəri boğazına yığılmışdı, boğulurdu...

Ağlamaq istəyirdi Ayan, qışqıraraq ağlamaq...

Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

Müşfiq və onun kimi onlarla igid oğullarımız, Aprel döyüşlərində qələbə çalaraq, əbədiyyətə qovuşdular, Şəhidlik zirvəsinə ucaldılar.

Ayan əlləri əsə-əsə, portreti Müşfiqin məzarı üstünə qoydu.

"Mən səni sevdim, Ay işığında..."

"Sakit yat, Müşfiqim, Ayanının sənə olan sevgisi əbədi qalacaq.

Artıq bundan sonrakı Ayan başqa Ayan olacaq, ruhu Müşfiqlə dəfn olunmuş Ayan..."





***Əli bəy AZƏRİ***

*Əli Qurban oğlu Rzaquliyev 15 iyul 1966-cı ildə Zəngilan rayonunun Vejnəli kəndində anadan olub.*

## ZƏNGİLAN – ZƏNGİN COĞRAFİ MƏKAN

44 günlük Vətən müharibəsinin xatirələri qəlbimizdə daima yaşayacaqdır. Hər kəsin simasında QƏLƏBƏ sevincinin işartılarını görmək adama xüsusi zövq verir.

Millətimizə xas olan xüsusiyyətlərdən biri də hər kəsin öz doğulub boya-başa çatdığı bölgə ilə öyünməsidir.

Zəngilan bir çox üstünlüklərinə görə fəxr etməli bölgədir. Belə ki, Zəngəzur dağ silsiləsinin ucu məhz bu bölgədə Araz çayına çatmaqla sona yetir. Birinci xətt Seyidlər kəndinin üstündəki adsız daş – Süsən dağı boyunca Oxçu çayının sol sahili ilə uzanan tirdir. Hətta sonda babalarımız orda saldıqları yaşayış məkanına Tiri kəndi adı qoyublar.

Xustub dağının ətəyi ilə uzanan silsilə Ayı daşı, Nəbi daşı, Əsgülüm dağı üzrə iki xətt boyunca uzanaraq Oxçu və Bəsitçay sahillərində qurtarır.

Ən uca yüksəklik hesab olunan Şüküratаz yaylasından Bürünc qayası, Qala daşı, Vəlixanlı yüksəkliyi, Göybənd qayası ilə uzanan xətt isə Bartaz qəsəbəsinin qərb hissəsində bir-birindən beş kilometr məsafədə Araz çayına çatarkən yekunlaşır.

Şüküratazdan cüzi fərq ilə seçilən Üç qardaş, Qızılqaya, Yaranmış (Sığırt yüksəkliyi kimi də qeyd olunur), Sürtün dağları, Narrıq daşı və Armudun yal, Movlu (Novlu) daşı, Ağbənd qayası ilə uzanan iki paralel xətt də Araz çayına qədər çatır.

Zəngilan zəngin coğrafi məkandır. Adları sadalanan dağ silsilələri təbii sərvətləri ilə zəngindir. Təkcə Vejnəli kəndi ərazisində yerləşən yüksəkliklərdə mütəxəssislərin hesablamasına görə altı tondan çox qızıl və digər əlvan metallar yatır. Əhəng daşı, qum-çınqıl, sement və bu kimi digər təbii sərvətləri ilə ölkəyə verəcək fayda heç bir coğrafi məkanla müqayisə olunmur. Buğda zəmiləri, üzüm və tütün plantasiyaları, digər kənd təsərrüfatı məhsulları üçün yararlı torpaqlar, heyvandarlıq üçün geniş örüş sahələri, qışlaq və yaylaq yerləri kifayət qədərdir.

Təsadüfi deyil ki, flora və faunası ilə seçilən Bəsitçay qoruğu Zəngilan rayonunun ərazisindədir. Belə bir məkanla öyünməyə dəyər.

Zəngilan işğaldan azad olunan gün (20 oktyabr 2020-ci il) bu xəbəri efir vasitəsilə xalqa çatdıran Ali Baş Komandanın sevinci də onun təbəssümlü simasından və parlaq gözlərindən bəlliydi.

27 il erməni işğalında inləyən Zəngilanın yaşayış məntəqələri vəhşicəsinə dağıdılaraq xarabalığa çevrilmiş, əkin sahələri və örüşlər baxımsızlıq ucbatından vəhşiləşmiş, qiymətli meşələr doğranaraq bərbad hala salınmışdır.

Ötən müddət ərzində işğaldan azad olunmuş digər bölgələrdə olduğu kimi Zəngilanda da nəhəng quruculuq işləri başlanmışdır. Adamlar sərbəst şəkildə gedib ziyarətlərini edirlər.

Böyük qayıdışın ilk müjdəçiləri məhz Zəngilan rayonunun Ağalı kənd sakinləri olmuşlar. Təsadüfi deyil ki, ilk "Ağıllı kənd" layihəsi bu kənddə həyata keçirilmiş və uğurlu alınmışdır.

Ümidvarıq ki, təbiətin əşrəfi sayılan insan – Zəngilanın əbədi sakinləri və onların nəsil davamçıları bölgəyə qayıdandan sonra bu gözəl məkan canlanacaq və tezliklə çiçəklənən Azərbaycanın ən gözəl, cənnətməkan bir diyarına çevriləcək.

*20.10.2022*





***Fəxri UĞURLU***

*Laçın rayonu, Oğuldərə kəndi, 1968-ci il.*

## VƏTƏNİM ADAMLAR

Laçınlılara, o cümlədən kəndlilərimə həsr olunur.

...Çınqılın başından fermaya enəndə qabağımızdan bir it qaçdı, bizi görən kimi səssiz-səmirsiz, hürmədən, zingildəmədən bir göz qırpımında yox oldu. Heç qorxmağa da macal tapmadıq. Ancaq mən o iti tanımağa macal tapdım – fermanın itlərindən idi. O itlər bir neçə ay irəliyəcən atlını atdan salırdı, uçan quşa sıçrayırdı. İndi o itlərin qalanı hardaydı – köçaköç vaxtı mal-heyvana qoşulub getmişdimi, acından ölmüşdümü, düşmən buralara “əl gəzdirəndə” güllə qabağına çıxmışdımı – bilmirəm, ancaq nəydisə, qabağımızdan qaçan itin gözü möhkəm qırılmışdı, bəlkə də gözünün qabağında itləri hürdüyünə görə öldürmüşdülər. Burası bəlliydi ki, o it daha özünü bu yerin-yurdun yiyəsi saymır, qorumağa obası, hürməyə doğma adamı qalmayıb, yuvası bir gecədə yağı düşərgəsinə dönüb, zənciri qırmağına qırıb, ancaq azad ola bilməyib, getməyə yer tapmayıb və indi heç acından ölmək qorxusu da onun insana etibarını, sədaqətini geri qaytara bilməz...

Kəndə çataçatda işğalın ilk gördüyüm əlaməti bu oldu. Sonra ot basmış qəbiristanlıq, ortasında ağac pöhrələmiş yol, alaqlamış divarlar, cəngəl basmış bostan yerləri. Çardağı üstünə uçmuş evlər...

Mən sizə 1992-ci ilin avqustundan danışıram. O zamandan ki, Laçın artıq üç ayıdı alınmışdı, bizim kəndin camaatı camaatlara qoşulub Kəlbəcər üzə adlamışdı, qonşu rayonda da bənd almayıb Murovun Gəncə üzünə aşmışdı, dağların dumanlı-çiskinli ətəyində, günün eyni açılmayan acı bir yurdda, taleyin yolu üstündə alaçıq qurub xəbər gözləyirdi. Bir azdan o camaat arxayınlaşıb gəldiyi yolla geri qayıdacaqdı, qışı kənddə çıxarıb, yazda bu dəfə Kəlbəcər alınanda öz ocağının qırağındaca mühasirəyə düşüb yalnız möcüzə sayəsində əsir alınmaqdan qurtulacaqdı...

Onda hələ bir neçə ay sonra Kəlbəcərin də əlimizdən gedəcəyi ağlımıza gəlməzdi və yatsam yuxuma da girməzdi ki, doqquz il sonra Laçının ikinci dəfə – bu dəfə sənədli-sübutlu düşmənə təhvil verilməsi təhlükəsi qarşısında qala bilərik. Onda hələ düşmənin bu gün-sabah ölkədən qovulacağını gözləyirdik və mən dağların çiskindən göz açılmayan ətəyində kənddən ötrü bərk darıxdığımdan yola çıxıb, “İstisu” şüşəsi daşıyan bir yük maşınıyla Murovu aşmışdım, maşın də-

yişə-dəyişə gəlib kəndimizə çıxmışdım. Mal-heyvan dırnağı dəyməyən yamacların, yastanaların, kərənti ağzına düşməmiş biçənəklərin otu özünə boy vermişdi, ayağıma dolaşırdı. Cığırlar iz itirməyə başlamışdı. Torpaq üz-gözünü saç-saqqal basmış səfilə oxşayırdı.

Kəndin xatirəsinə qarovul çəkən beş-altı tay-tuşum bir evə yığılmışdı. Otuza yaxın ev, o cümlədən neçə-neçə nəslin əvəzsiz xatirə arxivi olan qədim məktəb binası yandırılmışdı, üstünün dəmiri saçaq-saçaq doğranmışdı. Külə dönmüş divarlara əl atırdın, daşı əlində gəlirdi. Evlər, həyətlər, bağçalar, bostanlar ağzıgünə qalmışdı. Uşaq vaxtı meyvəsini daşladığımız, barını oğurladığımız ağaclar indi özü budaqlarını bizə sarı uzatmışdı, ancaq ağacların payına yiyə duran yoxudu. Burda insanın azadlığı fermada gördüyüm o itin azadlığından fərqlənmirdi...

Kəndin bütün pişikləri biz qaldığımız evə yığılmışdı – ömrümdə heç vaxt o qədər pişiyi bir yerdə görməmişəm. Deyəsən, yurda dönük çıxmayan təkcə elə pişiklərdi. Əlinə bir tikə aldınmı, miyoltudan qulağın tutulurdu; ac pişiklər altdan-yuxarı insan səsiylə yalvarışırdı.

Qonşumuzun iti məni görəndə bir ağız hürüb, qaçıb tövləyə girdi. Sən demə, boz qancıq küçükləyibmiş, hürməyi də balalarına görəymiş. Yoxsa o sakitlikdə hürməkmi yada düşərdi – adam öz səsindən diksinirdi, bir quşun səsi dağları yerindən tərpədirdi... Sonra boz qancığın küçükləri azalmağa başladı; uşaqlar dedilər ki, it acından balalarını yeyir.

Mən ot otlayan it də gördüm. Bir sözlə, gözə görünən nə vardısa, hamısı indiyəcən görünməmiş bir şəkil almışdı, anormal hala düşmüşdü: torpaq da, təbiət də, heyvan da, insan da. Yadımdadı, xamır yoğuran tay-tuşlarımı, anabacısız, arvad-uşaqsız qalıb yetimləşən kişiləri görməyə alışmadığım bir halda – çörəkbişirmə əməliyyatının hansısa mərhələsində nəyinsə üstündə mübahisə eləyən görəndə necə kövrəlmişdimsə, məni bir dəli gülmək tutmuşdu, uşaqlar da mənə qoşulmuşdular və eləcə gülə-gülə xamırı yoğurub kündələyib çörəyi bişirmişdilər.

Mən o gülüşün tarixini yazmağa bütün ömrümü həsr eləyərdim...

Hər şey öz yerindəydi – Vətən ayağımın altında, gözümün qabağında, ovcumun içindəydi; havası ciyərimdə, qoxusu burnumda, dadı damağımdaydı. Ancaq yenə nəsə çatmırdı, yenə mən özümü doğma kənddə qərib kimi, yad kimi hiss eləyirdim. Elə bil gözümün qabağındakı kəndimizin, dağlarımızın özü deyildi, surətiydi, şəkliydi – kəndin, dağların xatirəsiydi...

Və elə onda anladım ki, çatışmayan adamlardı, tanış, doğma üzlərdi, səslərdi. Gözümlə gördüm, canımla-qanımla duydum ki, vətən ilk növbədə vətəndə yaşayan insanlardı, vətən adamlarla canlıdı. O adamlar hansı torpağa-daşa, hansı ağaca-kola, hansı dağa-dərəyə, çaya-bulağa, hansı ata-itə, quşa öz dilini öyrədib ruhunu köçürsə, vətən oradadı.

...İndi Laçın böyüyüb Azərbaycan boyda olub. Mənim kəndlilərim neçə-neçə bölgəyə dağılıb. Hərdən onların arasında oluram. Ancaq doğma üzlər içində özümü yenə də qəriblikdəki kimi hiss eləyirəm; onlarsız kənddə necəydisə, eləcə.

Çünki vətən təkcə doğma üzlər, doğma səslər demək deyil. Vətən insandan başlayır, ancaq insanda qurtarmır. O insanın keçmişi, taleyi, yaddaşıyla bağlı nə varsa, hamısını toplayanda cəmi VƏTƏN eləyir. Vətənim adamın mindiyi at da vətəndi, o atın gəzdiyi dağlar da vətəndi, o dağlara yağan yağış, o yağışı gətirən bulud, o buludu saxlayan göy, o göydə süzən quş, o quşun qonduğu budaq da vətəndi. Əgər bu halqalardan biri qırılıb düşübsə, deməli, vətən zədəlidi, yarımçıqdı, şikəstdi. Laçınlıların yaşamadığı Laçın kimi. Və yaşadığı yerdə Laçın qura bilməyən laçınlılar kimi...

P.S. Vətən həsrətindən yoğrulan bu duyğularımı Böyük Zəfərimizdən öncə qələmə almışdım. O zaman neçə-neçə bölgəyə dağılan kəndlilərim indi yavaş-yavaş toparlanır. Vətən doğma adamlarla yenidən canlanır. Zədələri tam sağalmasa da, yaraları qaysaq tutur. Daha şikəst deyil. Vətənim adamlar isə bu torpaqlar uğrunda həyatlarını qurban vermiş şəhidlərimizi, yaralı qazilərimizi heç vaxt unutmur. Mənim bu yaralı xatirələrim də insanın keçmişi, taleyi, yaddaşıyla bütöv olan VƏTƏNİN qəmli bir səhifəsi kimi tarixdə qalsa yaxşıdir.





***Xanəmir***
*Telman oğlu Nəzərov 26 yanvar 1971-ci ildə Qafanda doğulub.*

## ŞUŞANIN ADINDAKI MUSİQİ - VƏ VAQİFİN ŞEİRİNDƏKİ ÖLÇÜ

Ey dili qafil fil faili məchul fani f...

Derlər, Unudulmuş oxucu, Üç gün boyunca Şuşada Vaqif Poeziya günlərində olduq. Bəzi təəssüratlarımı bölüşmək, ya ən azından dilə gətirmək ehtiyacı hiss etdim.

Məncə, gedənlərin əksəriyyəti Vaqif Poeziya (onu da qeyd edim ki, hələ bizimkilər nəyə görə Vaqif şeir yox, poeziya günləri deyirlər. Çünki Vaqifin yaradıcılığının poeziyaya deyil, şeirə dəxli var. Sonra...:-x.t.) günlərinə qatılmaqdan çox, Şuşanı görmək, bəlkə də (kimlərsə) bir daha görmək həvəsiylə tədbirə qatılmışdılar. Şuşa həvəsində olanlar da o yerlərə, elə bu şəhərin adının yaratdığı şüuraltı özləm və tarixi heyranlıqla gəlmişdilər. Şuşanın adı vətən torpağının bir parça füsunkar ərazisindən daha təsirli, daha özləmli, daha " buyur, bura gəl" dən idi. Mən Şuşa adının, toponiminin nə anlam ifadə etməyindən danışmıram. Adın doğurduğu yanğı və yaratdığı içsəl assosiasiya qəribə bir magik təlatümlər təşnəsinin mənbəyi idi.

Derlər,

Unudulmuş oxucu,

Bir yanda da bu qədər şairin, yazarın, düşünürün Şuşaya, o şəhərə, o ada gedişinin səbəbi Vaqif adının, şeirinin ecazkarlığı olmalı idi. Ama Vaqif, onun tarixdəki indiviudial faciəviliyindəki mədəniyyətə sirayət edən sindromu qalmışdı bir tərəfdə, bir yanda da Şuşa, onun adındakı ecazın üstünlüyü, ağır basması öz sözünü deyirdi. Bir sözlə, Vaqif, onun materialist dili, qadın gözəlliyinin əsarətinə düşmə tələsi, bütün bu kimi komponentlərin ədəbiyyata, mədəniyyətə sirayəti Şuşanın adının qarşısında görünmür, bəlkə də itib batırdı. Mənə maraqlı gələn bu idi ki, nəyə görə poeziyamızda Vaqif, Vaqif MƏRHƏLƏSİ, ŞUŞANIN 30 il YAĞMALANma, əsarət,  xalqın zəfər duyğuları, şəhid vermə riskindən SONRA, elə də effektli, elə də özgürlükcül, QALİBİYYƏTCİL duyğuların yanında özünü DOĞRULTMUR(du)? Yəni, Vaqif şeiri zəfər, qalibiyyət instinktimizdə niyə sönmüş şəkildə cərəyan edirdi. Məncə, sualın cavabı belədir: xalqımızın milli və metafizik əhval - ruhiyyəsini Təbrizlə birgə qoruyan şəhərlərimizdən, adlarımızdan biri də məhz Şuşadır. Belə bir önəmli rabitə olmasa, bu qədər sevilməzdi Şuşa.




Üstəlik, Şuşanın başından gəlib keçən hər cür tarixi, sosial, mədəni, metafizik olaylar onun adında, adının səslənişində özünə yuva sala bilib. Bizim Qarabağ adlı savaşımızın əvvəli də, axırı da o sarıdan Şuşa ilə simvolizə edilir, edilə bilir.

Derlər, Unudulmuş oxucu, beləcə, Şuşa Vətən savaşımızdan Mənəvi savaşımıza doğru yol alan bir sakral özəlliyi ilə vazkeçilməz, həm də mədəniyyət yönümüzə ipuclarını atması ilə olduqca güclüdür. Ancaq bu mədəniyyət faktorunun nə qəmində, nə nəşəsində M. P. VAQİF ədəbi estetik təmayülləri heç cürə görünmürdü. Çünki, Vaqifin yazdığı dil soyut, materialist, batiniyyətcə yoxsul, gözəllik fəlsəfəsini qadın təniylə qısıtlamaqla kifayətlənir, beləcə də ruhsallığımızda əksini bulurdu. Bu yanaşma Vaqifi inkar və çıxdaş etmək deyil əsla. Biz, sadəcə Şuşa adının SƏSLƏNİŞ testindən Azərbaycan ədəbiyyatının bir estetik fəlsəfi dönəminin təfəkkürümüzdə dominantlaşmış ehkamını, onun ən böyük daşıyıcılarından birinin dünyaya, həyata baxışını keçirdiyimizdə, təəssüf ki, xalqın qələbə və üst kimliyini qidalandıran özgürlük duyğusunun sonuclarını ala bilmədiyimiz zənnindəyəm. Əlbəttə, parlaq, pafoslu, xoşagələn, qrimlənmiş gerçəklərimizdən xalqımızın mənəvi təkamül kisvəli azadlığını ummaq da absurddur. Vaqif nə qədər böyük şair olsa da, o, Azərbaycan xalqının heç bir zəfər və qalibiyyət zəkasına, üst kimliyinə gedən yoldakı mənəvi estetik baxışlarına təkan verəcək, ən azından onunla paralel nöqtələrdə dayanacaq gücdə deyil. Şuşanın adı, sadəcə, səslənişdəki ecazıyla bütün dəyərli bildiyimiz komponentləri ört basdır edərək, yalnız təkbaşına bütün tarixi gerçəklərimizdən doğan mənəvi ehtiyaclarımızı ödəyə bilir. Şuşanın adındakı içsəl ritm, musiqi, intonasiya getdikcə möhtəşəm bir VƏZNƏ, ÖLÇÜYƏ ÇEVRİLƏRƏK, Vaqifin şeirlərindəki ritmi, ölçünü, vəzni əridib görünməz edirdi.

Niyə? Bu ayrı mövzu olacaq...Bələliklə, haqqını halal elə, Şuşa. Sənin üstünlüyündən milli və metafizik tənhalığını anlayıram....



***Elməddin BEHBUD***

*Elməddin Mahmud oğlu Behbud, 29 dekabr 1982-ci il, Qarakilsə rayonu, Vağudi kəndi.*

**Prezident İlham Əliyev:** "Qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistana qarşı ərazi iddiası demək deyildir. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaqdır. Təbii ki, öz yurdlarına dönəcək Qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir... İnanırıq ki, Qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaq və bölgədə davamlı sülh bərqərar olacaqdır".

## ERMƏNİLİK - QƏRBİ ZƏNGƏZURDAKI MƏZAR QİSASÇILIĞI

Ermənistana səfər edən İngiltərə vətəndaşı tviterdə Qərbi Zəngəzurun Qarakilsə (Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyətinin 1940-cı ildəki fərmanı ilə adı dəyişdirilərək Sisian qoyulub) rayonunun Urud (Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 1968-ci ildəki fərmanı ilə adı dəyişdirilərək Vorotan adlandırılıb) kəndindən fotolar paylaşıb. Şəkillərdən aydın görünür ki, kəndin qəbiristanlığı dağıdılıb, məzar daşları aşırılıb və sındırılıb. Təəssüflər olsun ki, erməni vandalizmi ilə üzləşən yalnız qədim yaşayış məntəqəmiz Urud, o cümlədən onun qəbiristanlığı deyil. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri - Qarabağ və Şərqi Zəngəzurun 2020-ci ildə azad olunmasından sonra ermənilərin işğal dövründə bu torpaqlarda məscid, məzarlıq, ziyarətgah, həmçinin, digər tarixi və mədəni abidələrimizə qarşı törətdiyi vəhşiliklərin miqyasından bir daha başa düşdük ki, onlar xarakterlərinə xas analoji davranışı nəzarətlərində saxladıqları bütün yerlərdə nümayiş etdiriblər. Amma təəssüflər olsun ki, bu məsələdə də yeni riyakar, ikili yanaşma ilə qarşılaşırıq. Dünyanın harasındansa Qarabağa köçüb gələn bir erməninin daxmasından kərpic düşəndə bəşəri cinayətin baş verdiyini dünyaya car çəkən "beynəlxalq insan hüquqları və mədəniyyət" qoruyucuları nədənsə hələ də ermənilərin Cənubi Qafqazda zəbt etdiyi on minlərlə kv. km ərazidə türk və müsəlman abidələrinə qarşı törətdiyi mədəni soyqırımla bağlı dərin sükut içindədirlər.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev 20 may 2022-ci ildə bu mövzu ilə bağlı UNESCO-ya - Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumuna bir daha çağırış edib: "Biz istərdik, UNESCO-nun nümayəndələri də işğaldan azad olunmuş ərazilərə səfər edərək ermənilərin törətdikləri dağıntıları öz gözləri ilə görsünlər. Lakin əfsuslar olsun ki, müharibənin bitməsindən il yarımdan artıq vaxt keçməsinə baxmayaraq, bu təşkilatın nümayəndələri həmin ərazilərə səfər etməyiblər".

Haqqında bəhs etdiyim tvitdə diqqəti çəkən məsələlərdən biri də toponimika ilə bağlıdır. Bloger nədənsə (tarix bilgisinin məhdud olması da istisna deyil) haqqında bəhs etdiyim tvitində Vağudi və Urud deyil, Vaghatin və Vorotan adlarından istifadə edir. İlk olaraq bir həqiqəti vurğulamaq lazımdır ki, adına Ermənistan deyilən bu kvazi dövlətin quzeyindəki Şörəyel mahalından cənubundakı Zəngəzura - Mehri rayonuna qədər olan hər qarışı qədim türk tarixinin soraqçısıdır. Qarakilsənin kəndləri isə bu sırada xüsusi ilə fərqlənirlər. Çox qədim tarixə ekskursiya etmədən, sadəcə Çar Rusiyasının Araz çayından quzeydəki Azərbaycan torpaqlarını işğal etdiyi zamandan sonrakı dövrdə Zəngəzurun kəndlərində yaşayan əhalinin siyahısına qısa nəzər salsaq aydın olar ki, ermənilərin bu torpaqlarda məskunlaşdırılma tarixi o qədər də uzaq keçmişə aid deyil.

Fədakar və zəhmətkeş tədqiqatçı, alim Nazir Əhmədlinin 2021-ci ildə Zəngəzur mahalı ilə bağlı nəşr etdiyi kitablar bu mənada qiymətli məxəzdir. Onun istər AMEA Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunan " Zəngəzur mahalının Kameral təsviri, 1832-1833-cü illər", istərsə də AMEA Milli Tarix Muzeyi Elmi Şurasının qərarı ilə nəşr olunan "Zəngəzur qəzasının Kameral təsviri, 1874-cü il" nəşrləri azərbaycanlıların XIX əsrdə Cənubi Qafqazdakı etnik coğrafiyasının sərhədlərinin müəyyənləşdirilməsi və yaşadıqları ərazidə dominant saya malik olması ilə bağlı dəyərli tarixi faktlarla zəngindir. Kameral təsvirlərdə Zəngəzur qəzasının bütün kəndlərində yaşayan əhalinin sayı, sosial kateqoriya mənsubiyyəti, ödənilən verginin növü və miqdarı, həmçinin, kişilərin yaşı, sayı və milliyəti dəqiq ifadə olunub. Bu sənədlərin önəmi həm də ondadır ki, kameral təsvirləri rus imperiyasının slavyan mənşəli məmurları, özü də 1828-ci ildən etibarən ermənilərin Araz çayından quzeydəki torpaqlarımıza kütləvi sayda köçürülməsindən sonra tərtib edib. Kameral təsvirlər bir daha təsdiq edir ki, nə Vağudidə, nə də Urudda 1874-cü ildə bir nəfər də olsun erməni millətindən olan şəxs yaşamayıb.

Çar Rusiyasının Zəngəzur qəzasının rəisi Arutyunov soyadlı məmurunun tərtib etdiyi 1874-cü il tarixli kameral təsvirdə göstərilir ki, həmin tarixdə Urud kəndində 125 kişi və 97 qadın olmaqla 27 ailə yaşayır. Sənəddə qeyd olunur ki, bu şəxslərin hamısı milliyətcə tatar, yəni türkdür. Yenə Arutyunovun 1874-cü ildə tərtib etdiyi kameral təsvirdə göstərilir ki, 3 Vağudi kəndində ümumilikdə 105 ailədə 383 kişi və 270 qadın yaşayır. Onların da hamısı tatar, yəni türkdür. Eyni zamanda Milli Məclisin deputatı Musa Urudun "Urud", “Zəngəzur”, “Zəngəzur toponimləri" və "Uruda iki səfər" kitabları da regionun avtoxon əhalisinin qədim tarixi, zəngin mədəniyyəti, coğrafiyası, əsrarəngiz təbiəti, həmçinin, ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımlarla bağlı faktoloji materiallarla zəngindir.

Məlumat üçün bildirirəm ki, ermənilər Qarakilsə rayonun Vağudi kəndinə 1918-ci ildə azərbaycanlıların soyqırımından sonra köçürülüb. Həmin tarixdən 1988-ci ilə qədər bu kənddə türk və ermənilər birgə yaşayıb. Urud kəndində isə 1988-ci ilədək yalnız türk əhali yaşayırdı.

Bu gün isə artıq 34 ildir ki, nəinki adıçəkilən kəndlərdə, Qarakilsə rayonunda, Qərbi Zəngəzurda, bütövlükdə qədim Oğuz yurdu olan Qərbi Azərbaycanın heç bir inzibati vahidində bir nəfər də olsun türk, müsəlman yaşamır. Bu məzarlarda uyuyanların hər birinin əcdadı yüzillər boyu bu torpaqlarda - doğma yurdlarında yaşayıblar. Elə onların özləri də doğulduqları və yaşadıqları, həmçinin, ətraf kəndlərin ictimai, mədəni həyatının aparıcı şəxsləri olublar. Yerli türk əhalinin sonuncu nümayəndələrinin 1988-ci ildə Zəngəzurdan deportasiya olunmasından sonra isə bu torpaqlarda yalnız yadellilər - ermənilər qalıb. Özlərinə saxta tarix uyduran, vaxtı ilə onlara rəhbərlik və sahiblik edən, onlarla çörəklərini bölüşən türk əhalinin hətta məzarlarına da dözümsüzlük nümayiş etdirən və nəhayət Vətən müharibəsindən sonra 30 illik avantüralarının, xəyallarının puç olduğu, kənar geosiyasi güclər üçün hər zaman alət sayılan nankor ermənilər...

Kəndin mərkəzində, kluba bitişik olan evimizin divarları, həyətimizin hər köşəsi, bulağımızın arxasındakı meyvə bağımız, babamın ll dünya müharibəsinə getməmişdən öncə əkdiyi qoşa armud ağacı, yay almasının rəngi, təndirxanamız, darvazamız, "Öküz bulağı"nın dupduru suyu, anamın çalışdığı kənd xəstəxanası, zavodun və kənd sovetinin binası...gözlərimin önündən getmir. Hələ də elə bilirəm ki, yenidən torpağımıza ayaq bassam 1988-ci ilin soyuq dekabr günündə yük maşını həyətimizdən çıxanadək sürdüyüm velosipedimi buraxdığım yerdə görəcəm... Uşaqlığımı həmin yerdə yenidən yaşamağa başlayacağam...

Xatirələr hər gün içimi göynədir...Hər gün...

Yalnız 5 yaşlı uşağın göz yaddaşındakı təsvirlərə deyil, həm də genetik yaddaşıma söykənərək inanıram ki, biz o torpaqlara yenidən dönəcəyik! İçimizdəki doğma yurda tükənməz sevgi hissi məşələ dönərək yolumuzu işıqlandıracaq...Son bir neçə əsrin tarixi istiqamətini dəyişən şanlı Vətən müharibəsindən sonra daha çox inanıram ki, yaxın gələcəkdə əzəli yurdlarımıza qayıdacaq və həsrətlə, nisgillə, ömrünün ən gözəl çağlarını keçirdikləri doğma torpaqları bir daha görməyərək həyatdan köçən ata-anamın, babalarımın, nənələrimin, çoxsaylı yaxınlarımın və minlərlə soydaşımızın ruhuna dualar oxuyacağıq. Onda məzarlığı ziyarət etməyə də gedəcəyik, son 37 ilədək hər qarışından Azərbaycan türklərinin hənirtisi gələn, hər yerində izimiz olan yurd yerlərimizə də baş çəkəcəyik.

Qərbi Zəngəzura böyük qayıdışdan sonra yalnız Qarakilsənin azərbaycanlıların 1988-ci ilədək yaşadığı Qızılcıq, Ərəfsə, Comərdli, Sofulu, Vağadi, Urud, Ağdü, Dəstəyurd, Şəki, Şıxlar, Murxuz kəndlərindəki məzarlıqlardakı həmvətənlərimizin deyil, bütün əcdadlarımızın ruhu şad olacaq.

Allah qərib ellərdə uyuyan bütün azərbaycanlılara rəhmət eləsin!



***Aygün ATTAR***
*Həşimzadə Aygün Mir Teyyub qızı 1962-ci ildə Qubadlıda doğulub, Türkiyədə yaşayır.*

## TÜRKİYƏ-AZƏRBAYCAN BİRLİYİ ƏBƏDİDİR

Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu İdarə Heyətinin sədri, "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin Türkiyə təmsilçisi, Prof. Dr. Aygün Attar: "... Ən şiddətli döyüşlər Qubadlı istiqamətində getdi. Ona görə ki, strateji olaraq çox əhəmiyyətli bir bölgədədir. Qubadlı alınmadan, o bölgə işğaldan azad olunmadan nə Laçın dəhlizinin, nə də Şuşanın azad olunmasından danışmaq mümkün idi. Ona görə də mən qürur duyuram və fəxr edirəm. Həm Zəngəzur torpağının tarixi keçmişi səbəbiylə, həm ermənilərin 1920-ci ildən sonra ruslarla işbirliyinə gedərək, min bir oyun çevirərək, bizdən alınmış Zəngəzurun tarixi



bizlər üçün əhəmiyyətlidir. Mənim 25 il bundan öncə "Zəngəzur eli necə ermənilərin oldu" yazım Türkiyənin "Asgeri tarih" jurnalında çıxmışdı. Burada bir qarış da deyil, bir santimetr torpağın belə, o tərəf-bu tərəf olmaması üçün zərgər dəqiqliyi ilə işlərin görülməsi çox əhəmiyyətlidir. Mən o bölgənin insanı olduğum üçün orada hər qarış torpağın nə anlama gəldiyini çox yaxşı bilirəm. Qonşumuz, sinif yoldaşımız dünən mənə zəng etmişdi, həm də dedi ki, bacı, bilirəm səni məyus edəcəyəm, amma bizim məhəllədə evlər darmadağındır, xarabazarlığa döndəriblər...Mənim şübhəm yoxdur ki, biz yenidən qurub-yaradacağıq. Düşmən bunu unudur ki, maddi zərər vura bilir, evləri uçura, körpüləri yıxa bilir. Amma mənəvi olaraq bizə aid olan mirasımıza heç nə edə bilmədiyi müharibə ərəfəsində bir daha ortaya çıxdı. Azərbaycan xalqının iradəsi, mənəviyyatına nə qədər sahib olduğu ortadadır.

Düşmənlər mənəviyyatımızdan heç bir şey ala, dağıda bilməyib, məncə, elə zəfər də budur. https://azpolitika.info/?p=620427



***Natəvan AĞAYEVA***

*Gorus rayonu, Şurnuxu kəndi*

## ZƏNGƏZURUN GİRİŞ QAPISI – ŞURNUXU

Şurnuxu kəndi Zəngəzur mahalının Gorus rayonunda yerləşir. Bura sıx meşələri, keçilməz dağları, şır-şır axan şəlalələri, bir-birini kəsib keçən dərin dərələri ilə tanınan bir diyardır. Xüsusilə Kəpəz dağının ətəyində yerləşən bu kəndin özünəməxsus gözəlliyi var: dağa doğru qalxan dik təpələr, meşəlik yamaclar, güneyli və quzeyli otlaqlar, kolluqlar bu dağlıq kəndin füsunkar və cazibədar görkəmini daha da artırır.

Şurnuxu — ana vətənim, ata yurdum, ulu əcdadlarımızdan bizə miras qalmış ən böyük sərvətimiz və dəyərimizdir. Bu torpaq bizə miras kimi yox, əmanət kimi qalıb. Bu əmanəti qorumaq və onu gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs borcudur. Vətən sevgisi müqəddəsdir və bəlkə də bütün sevgilərin ən böyüyüdür. Çoxəsrlik tarixə və zəngin mədəniyyətə malik olan, orta əsrlərdə inşa edilmiş əzəmətli memarlıq abidələri ilə tanınan bu kəndin yerli sakinləri Azərbaycan türkləridir. Azərbaycanın qədim və orta əsrlər dövründə keçdiyi şərəfli tarix kəndin keçmişində də əks olunur. Bu ərazilərdə əzəldən yaşamış qədim tayfalar və onların qoyub getdiyi toponim və etnotoponimlər buna sübutdur. Kənd ərazisindəki toponimlərə nəzər saldıqda tam əminliklə demək olar ki, Şurnuxu kəndi əzəldən Azərbaycan xalqına məxsus olub. Ali Baş Komandanımızın növbəti səyləri nəticəsində kənd sakinləri öz el-obalarına qayıdacaqlar. Bir xalqın tarixini, dilini və mədəniyyətini öyrənmək üçün onun yaşadığı əraziyə və toponimlərinə nəzər salmaq vacibdir. N.Y. Marrın dediyi kimi, “İlk ibtidai mədəniyyətə münasibətdə coğrafiya və toponimika etnoqrafiya və etnonimikadan daha möhkəm və daha etibarlıdır”. Hər bir ərazinin adı — yaşayış məntəqəsi, çay, göl, dağ, dərə, yaylaq adları xalqın minillik tarixi haqqında məlumat verir. A.V. Superanskaya yazır: “Coğrafi adlar ilk ibtidai məskənin qalıqları, qab-qacaq, sikkə, sümük və s. kimi maddi mədəniyyət nümunələridir.” Bütün tarixi mənbələr sübut edir ki, hazırkı Şurnuxu ərazisi vaxtilə azərbaycanlıların sıx şəkildə məskunlaşdıqları bölgə olmuşdur. Tarixi xəritələrə əsasən, bu ərazidə yerləşən yer adları və insan məskənləri açıq şəkildə göstərilmişdir. Məsələn, Baba dağı, Daşlı güney, Sarıyer, Kolabat, Ağsu, Qızlar bulağı, Uzun meşə, Göy bulaq, Güllü dərə, Quş bulağı, Göylük, Baba bulağı, Soyuq bulaq, Yastı yastan, Kəpəz dağı, Qəhrəman çəməni, Məcidli, Xarab körpü, Cəhənnəm dərəsi, Üçağac, Armudluq, Almalıq, Dəhnə, Göy bulaq, Həşim bəy bulağı, Anabat, Qaramalıq, Mərciмək yurdu, Quzeygah, Qoşnalı bulağı, Kərim yeri, Çala yurdu, Qoyun damı, Quş bulağı, Layış bulağı, Tas, Qaranlıq meşə və s. Obrazlı ifadə ilə desək, toponimlər xalqın tale kitabıdır, daş yaddaşıdır. Bu kitabı oxuduqca xalqın keçmişi və bu günü haqqında tam məlumat əldə etmək mümkündür. Xalqın milli varlığını özündə əks etdirən toponimlər, hidronimlər, oronimlər, etnonimlər və

urbonimlər, bir sözlə, bütün onomastik vahidlər xalqın ana dilində yaranır və onunla yaşayır. Şurnuxu toponimi bəzi tədqiqatçıların yazılarında Azərbaycan dilində "kiçik şəlalə" mənasında işlənən "çırnox" sözünün fonetik forması olan "şumux" və "şırnıx" sözləri əsasında əmələ gəlmişdir. Azərbaycan dilinin Qazax dialektində "sürətlə axın" mənasında "şırnoy" sözü də işlənir. Bəzi tədqiqatçılar bunu Şiraklar və ya Şuraklar tayfasının adı ilə də bağlayırlar. Tarixi mənbələrdə bu türk tayfasının IV yüzildə burada məskunlaşıb yaşadığı yer kimi göstərilir. Kənd sakinləri keçmişlərini xatırladıqca, şirin söhbətlərində mütləq kənddəki yerlərin adlarıyla xatırlayırlar. Kəndimizin hörmətli ziyalılarından olan **Ələsgər Həsənli** şerlərindən birində kəndi belə xatırlayıb:

**Yadıma düşür**

Unuda bilmirəm Daşlı güneyi,
Sarı yer, Kolavat yadıma düşür.
O Qızlar bulağı, Ağsunun neyi,
Dağ seli, o gürşad yadıma düşür.

Hanı boz dumanlı Kəpəzim, hanı?
Əsə dağ havası coşdura qanı,
Gəzib dolanardım bağı, bostanı,
Qapı-baca, bağ – bağat yadıma düşür.

Kim dərdi moruğun Kərim yerinin,
Yastı Almalığın, Güllü dərənin?
Kəsilib yolları bəndin, bərənin,
Baba dağ, Salavat yadıma düşür.

Görən nə haldadır o Uzun meşə?
Sürülər çıxırmı Köylükdə döşə?
Həyalı, ismətli o qız bənövşə,
Göl dibi, o göy ot yadıma düşür.

Pozuldu sahmanlı o gözəl çağım,
Gedib bir görəydim o Quş bulağı
Suyuna həsrətdir dilim, dodağım,
Göy bulaq, Batabat yadıma düşür.




Vətən müqəddəsdir, ülvidir. Onun hər şeyi – dağı, daşı, torpağı, suyu, səması bizim üçün əzizdir, doğmadır. Mənim Ana vətənim Şurnuxudur. Bu məmləkət azərbaycanlıların tarixi vətəni, tarixi yurdudur. Şurnuxu kəndinin tarixi çox qədimdir, bizi təkcə ölkəmizdə deyil, bütün dünyada tanıyırlar.

Ata nəsihətini yerinə yetirən Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin canı, qazilərimizin qanı, ordumuzun şücaəti hesabına 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. 2020-ci il dekabrın 24-ü Şurnuxu kəndinin Qubadlı rayonunun inzibati ərazisinə aid olan hissəsi Azərbaycan Ordusunun şanlı əsgərləri tərəfindən işğaldan azad edildikdə Ali Baş Komandan fəxrlə, qürurla “Şurnuxu Zəngəzurun giriş qapısıdır. Tezliklə biz Zəngəzurda qələbə zəfərini duyacağıq” dedi. Biz Sizlə qürur duyuruq, fəxr edirik, Ali Baş Komandan, cənab Prezident İlham Əliyev. İnanırıq ki, tezliklə Qafanda, Gorusda, Mehridə, Qarakilsədə deyəcəksiniz – “Zəngəzur bizimdir! Zəngəzur Azərbaycandır!”



***Nəsiman YAQUBLU***

*Nəsiman Qara oğlu Yaqublu 1962-ci il fevral ayının 22-də Zəngilan rayonunun Zəngilan kəndində doğulub, 25 avqust 2024-cü ildə vəfat edib.*

## ZƏNGİLAN NECƏ İDİ, NECƏ GÖRDÜM...

Maşınımız Zəngilana yaxınlaşdıqca qəribə həyəcan və hisslər bürüyürdü içərmi. Uşaqlıq illərimin keçdiyi və on səkkiz il yaşadığım, 28 il həsrət qaldığım yurduma yaxınlaşırdım. Məmmədbəyli körpüsü partladıldığından Ağalıdan keçib rayona daxil oluruq. "Ağ oyuq" deyilən yerə çatdıqda istəyirəm sürücüyə və dostlara deyim ki, burada düşüb piyada kəndimizə getmək istəyirəm, saxlayın maşını. Lakin bu istəyimi boğuram və düşünürəm ki, onlar hardan bilsinlər ki, bu yerlərdə bir vaxtlar üzümlüklər salmaqda iştirak etmişəm və bu yerin hər qarışına bələdəm. Təskinliyim isə hər iki tərəfdəki təpələrin yaşıl görüntüləridir. Rayon mərkəzinə çatırıq və baxıram ki, mənfur ermənilər hər yeri dağıdıblar. Maşınımızı doğulduğum kənd Zəngilana tərəf sürürük. Bir zamanlar məşhur olan, hər iki tərəfi uca çinar ağacları ilə örtülü olan, on üç kilometrə qədər uznluğundakı Pirçivan-Mincivan yolu pis günə qalıb. Ağaclar kəsilib və təskinlik verən odur ki, yerinə yeni pöhrələr çıxmaqdadır.

Qıraq Müşlan və Məlikli kəndlərinin yanından keçib kəndimizə daxil oluruq. Burda da yolun kənarındakı hündür çinar ağaclarını kəsiblər. Kəndimizlə ilk görüşdən çox təsirlənirəm. Bu kənd belə deyildi. Evlər dağıdılıb, xaraba vəziyyətə salınıb. Və mənə elə gəldi ki, kəndimiz həm də kiçilib və balacalaşıb. Evimiz tamamilə dağıdılıb. Yalnız divar qalıqları görünür. Oxuduğum orta məktəbdən isə iz də qalmayıb. Çox pis oluram. Məscidin, klubun yanına tərəf gedirəm. Düşünürəm ki, indi kəndimizin uşaqları gələcək və yenə söhbətlər edəcək, deyib güləcəyik. Bunların heç birisi baş vermir. Kəndimizin yanından axan Oxçu çayına tərəf gedirəm. Dağıdılmış, bəzi yerləri qalan körpüyə çıxıb qarşı tərəfdəki təpənin üstündə olan "Tək ağaca" baxıram. Əslində "saqqız" ağacı olan bu ağaca həmişə müqəddəslik rəmzi kimi baxmışıq və oraya nəzir-niyaz verənlər də az olmayıb. Kəndimizin qarşı tərəfində İran, Güney dağlarıdır. Həmin dağlar Savalanın bir silsiləsi olan Binə dağlarıdır. Elə o dağlara baxıb böyümüşük və içərimizdə güney həsrəti alovlanıb. Kəndimizin arxa tərəfindən isə Əsgülüm dağları və uzaqda isə Qafanın üstündə olan, Zəngəzurun məşhur və həmişə başı qarlı Xustub dağı görünür. "Süsən" meşəsi, lap uzaqlardan boylanan "Şükrataz" dağı da ye-

rindədir. Araz, Həkəri, Bəsit çay da öz gözəllikləri ilə axır və elimizə, obamıza sanki keşik çəkirlər. Kənddən heç ayrılmaq istəmirəm. Elə tək-tənha da olsa, burda qalmaq istəyirəm. Lakin getməliyik. Ayrılıq çətin olsa da, bir təskinliyim var - o kənd də, o dağlar da, o çay da yerindədir. Olmayan bizik. Biz insanlar...İndi Zəngilan xatirələrimi oxucularla bölüşürəm.Zəngilan 27 il erməni işğalında qaldı. 1993-cü ilin oktyabrın 29-da işğal edilən Zəngilan 2020-ci ilin oktyabrın 20-də düşmən əsarətindən azad olundu. Bu 27 il müddətində müxtəlif mövzularda 20-yə yaxın kitabım çap olundu, müəyyən kitabları nəşrə hazırladım, 100-dən çox məqaləm işıq üzü gördü. Qəribədir ki, bu müddətdə yaza bilmədiyim yalnız bir mövzu vardı: Zəngilan! Hərdən yaxın dostlar da bu sualı ünvanlayırdılar: Bəs Zəngilandan nə üçün yazmırsan?Qəribə idi ki, yazmaq sevimli peşəmə çevrilsə də, Zəngilan haqqında yazmaqdan ehtiyatlanır və sanki qorxurdum. Düşünürdüm ki, o xatirələri qələmə aldıqdan sonra artıq yaşamağın da mənası azalacaq və o duyğulardan tamam məhrum olacağam. Rayonumuzun da, kəndimizin də adı Zəngilandır. Kəndimiz rayon mərkəzindən təqribən üç kilometr aralıda, Zəngəzur dağlarından − Qafandan keçib gələn Oxçu çayının sahilində yerləşir. Rayonumuzun nə üçün Zəngilan adlanmasını isə kəndimizin qocalarından belə izahlar eşidirdim: "deyilənlərə görə, burada bir vaxtlar çoxlu zəng çalan ilanlar olub". Əlbəttə, sonradan öyrəndim ki, bu adın "Zəngi" tayfasının adı ilə, "zəngin ərazi" ifadəsi ilə bağlılığını qeyd edənlər də var.Kəndimizin isə gözəl təbii mənzərəsi var idi. Evimizin arxa tərəfindən hər zaman başı qarlı olan Zəngəzurun Xustub dağı görünürdü. Yay vaxtı evimiz isti olanda nənəm deyərdi: "Evin yan pəncərəsini açın, Xuştubun havası evə dolsun". Və həqiqətən həmişə də belə oludru. Xustub dağının kəndimizdən 40-50 kilometr aralıda olmasına baxmayaraq, onun təmiz havasını yenə hiss edirdik.

…Zəngilan rayonunun ərazisi çox da böyük deyil (707 kv km). Lakin bu yerlərin əsrarəngiz bir gözəlliyi var. Zəngilanın çox da böyük olmayan ərazisindən dörd çay axır: Araz, Həkəri, Bəsit, Oxçu.

Zəngilanın mərkəzi ilə Mincivan qəsəbəsi arasında on üç kilometrlik məsafədə olan şose yolunun hər iki tərəfində hündür çinar ağacları var idi. Bu yol təbii ağaclardan hörülmüş tuneli xatırladırdı. Hərdən o yolu gedəndə ağacların lap yaxınlığından günəşin zərrin şəfəqləri süzülüb insanın üstünə səpələnirdi və bu, özgə bir gözəllik yaradırdı.

Ümumi sahəsinə görə dünyada ikinci, Avropada birinci olan Zəngilanın məşhur Çinar meşəsinin arasından parıldaya-parıldaya axan Bəsit çayının gözəlliyi isə əsl bir rəssam tablosu idi.Rayon mərkəzindən Qafana doğru qatarla yol getməyin isə ayrı gözəlliyi var idi. Yolun hər iki tərəfində meşəliklər, qayalıqlar, zəngin təbiət görüntüləri... Bu yerlərin dadlı suları, bulaqları, Şayıflı kəndində turşsu, Malatkeşin kəndi yaxınlığındakı müalicəvi "qotur su", Nəcəflər kəndindəki bulaqlar... Zəngilanın məşhur alma, ərik, armud, üzüm bağları da çox məşhur idi. Hərdən yay vaxtı Xuştub dağının ətraflarına istirahətə gedirdik. 1920-ci illərdə sovet hökumətinin ermənilərə

hədiyyə edib verdiyi bu yerlərin onlarla heç bir bağlılığı yox idi. Həmin dağlardakı adlara diqqət edək: "Muşulan düzü", "Tərəkəmə", "Mal gədiyi" və s. Bu yerlərin ermənilərlə nə əlaqəsi?

Yadımdadır, dostlarla Qazançı, Ağkənd, Dərəli kəndlərini gəzirdik. O zaman çoxdan boşaldılmış “Karrar” adlanan dağın başında yerləşmiş bir kəndə rast gəldik. Kənddəki qəbirlərin böyüklüyü bizi təəccübləndirdi: iki metr uzunluğunda qəbirlər. Deməli o dövrün insanları belə pəhləvan görkəmli, boylu-buxunlu olublar. Həmin kənd çox yüksəklikdə idi və ətraf kəndlər buradan aydın görünürdü. Günəşin parlaq şəfəqləri isə adamın üstünə səpələnir, güc-qüvvət verirdi.Ulu babalarımızın bu yurd yeri bizə həqiqəti söyləyirdi: ucalıqda yaşayanlar həmişə güclü-qüvvətli olurlar.

2020-ci ilin oktyabrın 20-də Zəngilan işğaldan azad olundu. Təbii ki, bu çox böyük tarixi hadisə idi və hamımız sevinirdik.

Az keçməmiş görkəmli yazıçımız Anarla şair-bəstəkar dostumuz Şahin Musaoğlu Zəngilanın azad olunması ilə bir mahnı da ərsəyə qoydular. Bu mahnının bir təsiredici məqamı da məşhur müğənnimiz Zülfü Adıgözəlovun ifasında səslənmiş Zəngilanla bağlı xalq mahnısından bir hissənin bəstəyə daxil edilməsi idi. Mahnıda əsas xoş məqam bu idi: Artıq Zəngilana gedə bilirik!

Zəngilanın işğalı və Zəngilanın azad olunması tarixlərinin şahidliyini yaşayandan sonra belə bir fikrin təsiri altındayam: vətəni, yurdu sevmək azdır, gərək onu qorumağı da bacarasan!





***Samir ZƏNGƏZURLU***

*Quliyev Samir Almaz oğlu 21 oktyabr 1974-cü ildə Sisianın Sofulu kəndində anadan olub.*

## SOFULUM – ŞAH DƏRDİM

Əzizim dol gözüm
Dolan gözüm, dol gözüm
Gedərsən qayıtmazsan
Vətəni dolan gözüm.

Yerin-göyün sahibi Allahımla savaşa qalxmışam. Gözümü qan örtüb. Daha bəsdi deyirəm. Nə qədər həsrətli, torpaq, yurd nisgilli yaşamaq olar? Tanrımla, yuxumu ərşə çəkən, dodaqlarımı cadar-cadar edən, sevincimə qənim kəsilən doğma və əziz SOFULUmun – gözümü dünyaya açdığım təkrarsız gözəlliyə, oxşarı olmayan təbiətə malik ata ocağımın davasına durmuşam. Deyirlər, Uca Yaradanın iradəsindən kənar heç nə baş vermir? Bəs pərvərdigara niyə yaratdıqlarına belə dözülməz, qəmli notlarla naxışlanan ömür hekayəsi bəxş edir? Savaşım Yaradanımladı. Ondan kədərli ömür nəğməmi – SOFULUmu geri istəyirəm. Özü də israrla...

Bu elin adı nə?
Dostu nə, yadı nə?
Qürbət eldə bilmədim,
Ağzımın dadı nə?

Bu möhtəşəm türk yurdunu – SOFULUnu mənim əlimdən Tanrının yaratdıqları alıb. Adını nə qoyursunuz qoyun, istər erməni, istər rus, istər fransız, ingilis. Özü də uzaq və məşum 1988-ci ildə. Elə bu səbəbdən də ilk növbədə ona güvənirəm, ona sığınıram. Hər şeyə qadir Allaha...

Kəm bəxti sönən qərib,
Qürbətdə ölən qərib.
Bəxtəvər günə düşər,
Vətənə dönən qərib.

Bəli, bir qərib bəndə kimi SOFULUnu Xaliqdən diləyirəm. Tanrının əlində nədir ki, bəndə istəyi.

Əzizim Sofulunu,
El sevər Sofulunu.
Bu halını görüncə,
Doyunca ağla Sofulunu.

... Darın körpüsünü keçən kimi Xvostun asfaltından ayrılıb kəsələmə Sofulu yoluna çıxıram (Xvost, Darın körpüsü – bu terminlər sofululara yaxşı bələddi). Döngəni burulub təngnəfəs əziz kəndimi – həsrət çələngimi görməyə tələsirəm.

Armud pirinin yanında dayanıb, uşaqlığımda olduğu kimi müqəddəs ocaq ağacını dövrələyən çay daşlarının altında qəpik axtarıram. Sovet qəpiyi...

Yola davam. Sovxoz anbarına çatmamış uca dağlardan burula-burula naxışlanan Böyük çayın içindəki bənzərsiz bulaq suyundan ovucdolusu üzümə, alnıma çəkirəm ...Bundan sonrasını soruşmayın. Çünki yuxudan oyanıram. Nə Taravlu, Nəcəfalı, Telli bulaqlarını, Zınqırovlu çeşməsini, Turşsuyu, nə də Qırxlar, Təkçəpir, Mollaqayıb kimi müqəddəs ziyarətgahları bağrıma basıb yurd yanğımı söndürə bilmirəm. SOFULUnun güney-quzeylərini, kövşənlərini addım-addım gəzmək istəyim də röyaya çevrilir. Heyif.

... Xəyalım məni ötən əsrin 80-ci illərinin qənirsiz gözəlliyə malik SOFULUsuna aparır. Rayon mərkəzindən – Sisiandan 30-33 kilometr şimalda baş-başa verən uca dağların ətəyində qayğısız və bəxtəvər günlərini yaşayan SOFULUya.

Pisliklərin tükəndiyi, yaxşılıqların cücərdiyi, boy atdığı bir Tanrı məkanı idi, SOFULU. İlin fəsilləri bir-birinə bənzəməzdi. Mart ayının əvvəllərindən başlayan mülayim hava güneyli-quzeyli dərə-təpələrin, kövşənlərin ağ örpəyinə qənim kəsilərdi. Alma Ağacına dirənən yoxuşun qarı həzin-həzin əridikcə bihuşedici ətirləri ilə dünyamıza çeşidli çiçəklər boylanardı. Bəzən quşbaşı qar yaz yağışını əvəzləyər, təbiət bahar nəğməsi oxuyardı. Beləcə, may ayına qədər dağlarda qar əriyər, güllərin iyi kəndi sehrinə salardı. Ana təbiətin bu istiliyi kənd camaatını da izaholunmaz nikbin əhval-ruhiyyəyə kökləməklə ümid dolu sabahlara yönəldərdi. Novruz bayramında isə hər kəs xoş arzuları ilə göylərə bülənd olardı. Xüsusən, uşaqlar özgə bir aləmə düşərdilər. Qapı-qapı düşüb baca-baca payı toplayardılar. Kəndin mərkəzində dar ağacı qurulardı. Camaat hörmətli, sözükeçən, ciddi və ədalətli birisini Şah seçib düzəltdikləri taxtda əyləşdirərdi. Vəzir, vəkil, cəllad, ayrı köməkçilər də Şahın qulluğunda durardılar. Qara zurnanın sədaları SOFULUnun xoşbəxt günlərindən soraq verəndə əhli-əyan bayram meydanına axışar, Keçəllə Kosanın məzəli oyunlarına heyranlıqla tamaşa edərdilər. Xəstələri, qocaları eynləri açılsın deyə tonqal ətrafına gətirmək çaparların müqəddəs vəzifələrindən idi.

SOFULUnun yayı da özgə aləm idi. Sərin bulaqlar, dağ otlarından dəmlənən samovar çayı, Turşsuyun başında kəsilən quzular. Dan yerinin sökülməsi ilə qoyun-quzunun mələrtisi, mal-heyvanı sürüyə qatmaq üçün tövlədən çıxarıb kəndin baş küçəsinə toplaşan gəlinlərin şirin söhbətləri, bir də SOFULUnun nazəndə halına nəğmə oxuyan bəxtəvər quşların cəh-cəhi. Yay ayları qonaq-qaralı olardı SOFULU. Uzaq-uzaq diyarlardan baba-nənəsinin, əmi-dayısının evinə yay tətilinə gələn şəhərli uşaqların səs-küyü kəsilməzdi. Bu aylarda yazıq olurdu kənd uşaqları, şəhərdən gələnlərə qaşın üstə gözün var demək olmazdı:

– Qonağın böyüyü-kiçiyi olmaz, onlara hörmət, ehtiram vacibdir - deyərdi valideynlər.

Beləcə, kənd uşaqları da qorxularından bir söz deyə bilməzdilər şəhərlilərə.

Payız isə özü ilə çoxlu qayğılar gətirərdi. Uşaqların dərs qayğısı, böyüklərin uzun və üzücü qış gecələrinə azuqə toplamaq dərdi. Sentyabrda SOFULU camaatı bütün gücünü ot biçməyə yönəldərdi. Beş-beş, on-on köməkləşib mal-qara



üçün kövşənlərdən ot toplayar, tayalara vurardılar. Məhsullarının dadı ələ düşməyən alma-armud ağaclarının meyvələrini yığmaq da yaddan çıxmazdı.

Qara qoçun qovurmasının hazırlanması da qış tədarükünün ən vacib şərti idi. Kənd camaatının əksəriyyəti bu işlərə uşaqları da qoşar, onları dərsdən ayırardılar.

Qarlı qış günləri, buzlu yollar. Otaqları ağuşuna alan kömür peçinin hənirtisi. Qovurmanın əvəzsiz tamı və bir də uşaqların tez-tez xəstələnməsi. SOFULUnun qış mənzərəsi uzaq yaddaşımızda belə qısa qalıb. 35 ildir ki, varlığımı yox edən, yaşamaq, yaratmaq istəyimi vücudumda boğan SOFULU həsrəti bitib-tükənmir. Babamın məzarına qovuşmaq arzum bir an belə varlığımı tərk etmir. Bu 35 ildə Mingəçevir mənə SOFULUM qədər əziz olub. Yaralarıma sığal çəkib, dərdlərimə məlhəm olub, uğurlarıma ürək dolusu sevinib bu şəhər. Çoxlu dostlarım, əzizlərim, qayğıkeşlərim var. Hər birinə sonsuza qədər borcluyam. Amma hər kəs məni bağışlasın...

Əzizim yol gözləməkdən,
Sağı-sol gözləməkdən.
Nə sən yoldan əskik ol,
Nə mən yol gözləməkdən.



***Bayram MƏMMƏDOV***

*Heydər oğlu Məmmədov 1956-cı il martın 21-də Zəngilan rayonunun Canbar kəndində anadan olub.*

## RUHUN RUHUMUN GÖY QURŞAĞIDI!..

Cəmil Əlibəyovun "Mənim analı dünyam" romanını neçə dəfə oxumuşam. Zaminin düşüncələrini düşüncələrimə tən bilmişəm. Əsəri hər oxuyanda bir daha əmin olmuşam ki, hamının analı dünyası ruhunun dünyasıdı. Analı dünyanın səyyarəsi dünyanın səyyarələrinə bənzəmir, ayları-illəri bütün yaşlarda oğulların-qızların ömrünün beşiyidi. Mənim analı dünyam son nəfəsiməcən işığını uğurumdan - yolumdan, yaşantılarımdan - ömrümdən, közünü - közümdən, sözünü - sözümdən əsirgəməyəcək. Analı dünyam ona görə müqəddəsdi...

Ana adı gələndə salavat çevirsək, Allaha da xoş gedər...

Yeniyetməliyimdə ünlü Rəşid Behbudovun oxuduğu "Ana" mahnısının gözlərimdən yaş üzdüyünü hiss etməmişəmmiş. Onda anamın əlləri saçlarıma daraq olmuşdu. "Gözlərinə qurban olum, ay oğul..." - demişdi. Boynuna sarılmışdım. "Ay ana..." - pıçıltım dodağımda közə dönmüşdü. Fikrimi tamamlaya bilməmişdim. Mənə elə gəlmişdi ki, indiyəcən yaşadığım illərdə bundan müqəddəs anım olmayıb, yaşayacağım illərdə də olmayacaq...

İllərdi analı dünyamdan iraq düşmüşən. Analı dünyamda dünya nə qədər gözəliydi, İlahi, nə qədər gözəliydi! Qüdrətim olsaydı, analı dünyamın gözəlliyini beş-üç kəlmə ilə ifadə edərdim. Təkcə mən yox, kimsə analı dünyasının ecazkarlığını sözlə ifadə edə bilməyəcək, heç zaman buna qüdrəti çatmayacaq. Bunu heç zaman bacarmayacaq. Ana adının böyüklüyünə görə...

Bayaqdan bəri anamın ruhuyla kəlmələşməkdəyəm:

Laylalarını xatırlaya bilmirəm, ay ana. Onu bilirəm ki, sənin bayatıların bütün anaların bayatılarından fərqlənərmiş. Bacım Səadət də belə deyir. Sənin bayatıların çox gözəl, çox şeiriyyətli, çox düşündürücü, çox həyati olub. Belə olub ki, balaların dum-duru ömür yaşayıb...

Sənin də uşaqlığın müharibə illərinə düşüb, ay ana. O illərin ağrı-acılarını, gizlin-aşkar qubarını sən də yaşamısan. Ananı itirəndə dörd yaşın olub, sonra atanı itirmisən. Qardaşların davadaymış, hayançın yoxuymuş. Hayançın göydə Allah olub, Yerdə özün olmusan. Kiçik qardaşın Ələsgərlə yetim qalmısan. Dərdini kimsəyə açmamısan. Dünyamalı kişinin qızının xiffət çəkdiyini kimsənin duymasını istəməmisən. Sənə elə gəlib ki, bunu kimsə duysa, atanın ruhu səndən gileyli qalar. Ürəyin qan ağlasa da, kiçik qardaşını təhsildən ayırmağa məcbur olmusan. Zamanənin üzü qara olsun, "sümüyünüz bərkiməmiş" ikiniz də kolxozda işləmisiniz.

Qardaşın Surxaydan "qara kağız" gələndə göz yaşlarını Ələsgərdən gizlədə bilməmisən, gecənin üzünə pıçıldamısan:

Dərd bir olar, dərd beş olar, çəkərsən.
Necə çəkim bir ürəkdə min dərdi?!.

"Dərd gələndə batmanla gəlirmiş"; qardaşın Surxayın oğlu Ələkbər dünyadan qəfil köçüb. Onun 2 yaşlı bacısı Sahibə sənin himayəndə böyüyüb...

Kolxoz idarə heyətinin qərarı ilə səni Ağdama, kolxoz sədri hazırlayan kursa göndəriblər. Kursu bitirib Canbara qayıtmısan. İşləmisən. Candərdi işləməmisən, can yandırıb işləmisən. Sonralar bizə deyərdin ki, halal çörək şirin bərəkətdi, a bala. Özün o illərdə halal çörək qazanmısan. Harada işləmisənsə, həmişə yaşıdlarından öz zəhmətsevərliyin ilə fərqlənmisən və sayılıb-seçilmisən. Rayon komsomol komitəsinin büro üzvü olmusan, Azərbaycan komsomolunun qurultayına nümayəndə seçilmisən. "Şərəf nişanı" ordeni ilə, rəşadətli əməyə görə Lenin yubiley medalı ilə təltif edilmisən. Dəfələrlə sosializm yarışının qalibi olmusan. Əmək veteranı medalı veriblər sənə. Dəfələrlə kommunist əməyi zərbəçisi olmusan...İnsanlarla səmimi ünsiyyət və mehriban münasibət qurmaq bacarığın sənə el arasında sonsuz xətir-hörmət qazandırıb. İnsansevərliyin, sadəliyin, əməksevərliyin, şirin dilin, qayğıkeşliyin, el-obanın xeyir-şərində can-dildən iştirakın sənə bitib-tükənməz el məhəbbəti qazandırıb. Hər yaşı artan qadın elin ağbirçəyi sayılmayıb. Elin ağbirçəyi olmusan, El sənin kimi ağbirçəyin bir sözünü iki eləməyib. Ağbirçəkliyin neçə-neçə ailənin uğurlu təməlini qoyub.

Bizə - balalarına, bala bildiklərinə "Vətəndən ayrı düşənin sağ canı ayrı düşər" deyərdin, həm də illərin o üzündə qalanlardan danışardın. Baban Ələsgərdən, atamın babası Məhəmməddən, sonralar Canbar kəndində bulaq kompleksi tikdirən, Xustub dağına gedən yolun dar cığırdan ibarət 100-150 addımlıq uçurum hissəsinin qayalıqlarını yardıran Zeynəb nənəndən - Ələsgər babanın halalından, Qaçaq Nəbiyə kişi kimi dayaq duran əmin İldırımdan, Qaçaq Nəbinin ona bəxşiş göndərməsindən, İldırımın iki qoluzorlunu qol-qola çatıb atlarına mindirməsindən, babam Dünyamalının Gorus türməsinə niyə salınmasından, sonra nələrdən, nələrdən danışardın. Bunlar təkcə tarix, olmuşlar, yaşanılmışlar deyilmiş, ay ana, bunlar bizə - ciyərparalarına tarix dərsi imiş. İllər sonrası o dərs hər birimizin həyatının işığına, hər birimizin düşüncələrinin nuruna döndü.

Birinci sinfə getdiyin günü unutmurdun, unuda bilmirdin. Surxay dayıma görə unuda bilmirdin. "Elini ən şirin sözü kimi, görər gözü kimi, ocağının közü kimi sevərdi qardaşım. Ona görə davadan qayıtmayanda el yanıb-yaxıldı...", - deyərdin. Deyərdin ki, mən birinci sinifə gedəndə yağışlı günüydü. Məktəblə evimizin arası heç 100-120 addım da olmazdı. Surxay məni qucağında apardı ki, ayağım palçığa batmasın. Məktəbdə hamı mənim təp-təzə paltarlarıma, bir də qup-quru ayaqqabıma baxırdı. Surxayın üzündə iki damcı yaş gördüm. İllərdi o yaş ürəyimə axır, ay oğul. Ürəyimə axır...

Kövrələrdin, ay ana, bizi də kövrəldərdin. Göz yaşını baş yaylığınla silib deyərdin ki, dayınız Surxaya oxşayın. Dayınız tay-tuşlarına da, qohum-əqrəbaya da deyərmiş ki, kəndimizin hər qarışı bizə əzizdi, deməli, rayonumuz əzizdi, deməli, Azərbaycanımız əzizdi. Bizim kənddə biz, o biri kəndlərdə o biriləri elə yaşamalıdır ki, elə yaşamalıyıq ki, bu torpaqlara yad ayağı dəyməsin...

Ancaq dəydi. 1993-cü ilin oktyabrında Zəngilan işğal olundu. Ruhundan aralı düşənlərin dərd bacısı oldun. Dili bayatılı anaydın, ay ana. Hər mətləbi bayatıyla deyərdin. Bayatını bitirər-bitirməz yanağını közə döndərən göz yaşlarını silə-silə qardaşın Surxayı xatırlayardın: "Bizi bayatıya, şeirə, şeiriyyətə sən alışdırmışdın, a qardaş. Bu bayatıları səndən nişanə bilirəm. Balalarımı da belə böyüdürəm. Duyumları dayılarına oxşasın deyə...", - deyirdin...

Qaçqınlıqda bircə dəfə də özünə görə asılanmadın, el-obanın intizarına görə yeri-göyü qınadın, qınanılasıları qınadın. Əlini işdən ayırmazdın ki, dərdini unuda biləsən. Unuda bilməyəcəyini bilsən də, belə edərdin. Üzü Zəngilana sarı baxardın, Allah günaha yazmasın, ruhunun ziyarətgahına baxar kimi baxardın. Son nəfəsinəcən belə yaşadın, anam mənim. Sənin bu yaşantıların - Canbarsız, Zəngilansız günlərin, ayların, illərin həsrəti 12 nəvənin, 16 nəticənin nənə, böyük nənə öyüdü oldu:

... dənə sarı,
Saçlarım dənə sarı.
Canım qara torpağa
Ruhum Vətənə sarı.

Bu bayatın necə ömür yaşadığının söz heykəliydimi, ay ana? Səndən sonra bu bayatı Vətənsevərlərin dilinin əzbəri olmalı deyildimi?

Nəvələrini həmişə başına toplayıb keçmişdə xalqımızın başına gətirilən müsibətlərdən ürək yanğısı ilə söhbət açardın, onları Vətəni sevməyə, hərbi xidmət borclarını şərəflə yerinə yetirməyə, doğma və müqəddəs torpağı göz bəbəyi kimi qorumağa, lazım gələrsə, məqamında şəhid olmağı məsləhət görərdin. Onlara böyük sevgi və məhəbbətlə vətənpərvərlik dərsi keçmisən. Keçdiyin vətənpərvərlik dərsləri artıq öz müsbət nəticəsini verib:

Nəvən Rəhman polkovnik-leytenant rütbəsində baş zabit kimi xidməti vəzifəsini şərəf və uğurla davam etdirir. Vətən müharibəsi başlayanda könüllü döyüşlərə getdi, kişi kimi döyüşdü, sağ olsaydın ona "Surxayıma oxşamısan..." deyərdin.

Qalib Azərbaycan əsgər və zabitləri ilə birlikdə Vətənə oğulluq borcunu sənin də arzuladığın səviyyədə yerinə yetirdi, İlham kapitandı,İldırım leytenantdı, İldırımın bacıları Sevda, Səidə ordumuzda hərbi xidmətdədi. Orxanla Natiq ehtiyatda olan zabitdi, Natiq Zəngilan rayon Gənclər və İdman İdarəsinin rəisidi... Nəticən balaca Bayram "Mən babam Bayram müəllim kimi olacam", - deyir.

Öz ecazkar uşağlıq şıltaqlığı ilə gələcəkdə nəslin layiqli davamçısı olacağına xoş ümid və inam yaradır. Sənin ruhunun işığında böyüyür balaca Bayram. Belə olacağına necə inanmayaq?!




Orxan əlbəyaxa döyüşlər üzrə beşqat dünya çempionudu. Sağ olsan, "balamın qollarını fil də əyəmməz" deyərdin. Yerə-göyə inandığım kimi inanıram ki, Orxanın hər döyüşünü sənin ruhun uğurlayır...

Ruhun şad olsun, ay ana! Zəngilanımız, Canbarımız işğaldan azad edildi. Azərbaycan Ordusu düşməni torpaqlarımızdan nəyə layiqdirsə, həmin səviyyədə də qovdu. Göz torpağı götürmüşdün Canbardan, əzizlərin vəsiyyətinə əməl eləmişdi...

Sağ olsaydın, bu gün yenə dan yeri sökülər-sökülməz boynuna sarılardım, əlindən öpərdim, saçlarından öpərdim. Sənin göz yaşların mənim kürəyimi isladardı, mənim gözyaşlarım sənin kürəyini. "Mən yaşda adama nə bayram, a Bayram?", deyərdin. "Sən varsan deyə hər gün mənə bayramdı, ay ana", - deyərdim. Məni bağrına basardın. "Dayına oxşamısan" kəlmələri dodaqlarında közə dönərdi; təəssüf şükranlığa qarışardı, şükranlıq təəssüfə...

Bayaqdan bəri ruhunla dərdləşirəm, ay ana. Ruhuna deyirəm ki, bayramın mübarək. Ruhuna deyirəm ki, 27 il bayramları candərdi qeyd edən anamın ruhuna builki təbrik çox yaraşır. Zəngilan azad edilib deyə, Canbardan düşmən nəfəsi çəkilib deyə...

Anaların ruhu balalarının səsini eşidir, nəfəsini duyur. Ruhun ruhumun göy qurşağıdı, ay ana!



*Lətif BABAYEV*

*Lətif Şükür oğlu Babayev 1960-cı ildə Qafan rayonunun Qacaran qəsəbəsində anadan olub.*

## ZƏNGİLANDAN GƏLƏN VAR

Zəngilandan yenicə qayıtmış yaxın qohumum həmin günün axşamı bizə gəlmişdi. Çay süfrəsi arxasında təəssüratlarını bölüşdükcə, işğaldan azad olunmuş 1 il 7 aya yaxın müddətdə gedə bilmədiyimiz doğma yerlərin adlarını çəkdikcə, oraları necə gördüyünü təsvir etdikcə ixtiyarsız kövrəlir, içimiz titrəyirdi.

Çətin də olsa, özümü toxdaq tutdum, uşaqlıq və gənclik xatirələrimdə yaşayan Zəngilan şəhərində nələr gördüyünü, küçələrin, evlərin, bir sözlə, şəhərin işğaldan sonrakı durumunun necə olduğunu soruşmadım. Əvvəla, ona qədər də oralara baş çəkib qayıdanların lentə aldıqları bir neçə görüntüyə ürək ağrısı ilə baxmış, ölkənin müxtəlif televiziya kanallarının hazırladıqları rəsmi, qeyri-rəsmi verilişlərdə, fərqli süjetlərdə virtual da olsa erməni vandalizminin şahidi olmuşdum. Gördüklərim, ən çox da şəhər qəbiristanlığının ürək parçalayan vəziyyətinin əks olunduğu videoçəkiliş, atamın, başqa iki doğma insanın dağıdılmış məzarları başımdan tüstü çıxarmışdı. Təkcə Zəngilanda deyil, işğal dövründə bütün rayonlarımızda ermənilərin hansı vəhşiliklər törətdikləri, daş üstə daş qoymadıqları isə hər birimizə, hələ lazımınca etiraf olunmasa da, artıq dünyaya məlumdur.

Ancaq evin xanımı uşaqlığının keçdiyi, ayağı yer tutandan gəzib-dolaşdığı yer-yurd adlarını, suyunu içdiyi bulaqların, kölgələndiyi, meyvəsini daddığı ağacların indiki durumundan xəbər verən söhbətdən hədsiz təsirləndiyindən göz yaşlarını saxlaya bilmirdi.

Qohum isə ara vermədən elə yanğıyla, ürəkdolusu danışırdı ki...

– İsmayıl dayıgilin evindən yuxarı Pərəkəra gedən yolla, qayalıq vardı ha, ondan o tərəfə qədər getdik. Yol-irzi ot-ələf basıb keçilməz etsə də, maşını düz Ağbisə qalxan yolun ağzında böyük bir armud ağacı vardı ha, ora qədər sürdüm. O armudun, Gülməmməd dayıgilin biçənəyi ilə üzbəüzdəkini deyirəm, yaman şirin meyvəsi olurdu, alçaqlar onu da kəsiblər. Amma onun toxumundan bir az aralıda bir neçə cavan armud pöhrələyib. Yolqırağı təkəmseyrək meyvə ağaclarından da artıq əsər-əlamət yoxdur. Deyirəm, bunlar ağaca da düşmən kimi baxıblar.

Dediklərinin təsdiqi kimi xatirələrdən daha bir yarpaq düşür, bu, sanki söhbətinin davamına bir körpü olur.

– Giciktkanlıqdan güc-bəla "Şorsu"ya keçib, oradan Kələkliyə qalxdım ki, görüm örüş yerlərindəki saqqız ağacları yerindədirmi. Onlar yadındadırmı? Birini də tapmadım. O ağaclardan o qədər saqqız yığıb çeynəmişdik ki. O kənd-kəsəkdə ən çox baş çəkdiyimiz yerlərdən biri idi.

– O saqqız ağacları hamımızın yadındadır. Hərdən qızlarla onlardan danışırıq. Orda bir bulaq da vardı, Kürd navı, o, durumu? Məktəbə gedib-gələndə Məmmədxan müəllimin biçənəyinin otunu tapdalaya-tapdalaya keçib o bulağın suyundan o qədər içmişik ki. Bulaqdan birinci kim içəcək deyib, "Şorsu"nu qalxan kimi Kələklidən üzüaşağı kimisə qovurmuş kimi götürülürdük. Hərdən kiminsə ayağı ilişir yıxılır, qolu-dirsəyi sıyrılırdı. Ancaq heç nə olmamış kimi tezcə də qalxıb, göynərtisinə əhəmiyyət vermədən bulağa çatmaqda olan uşaqların arxasınca qaçırdıq. Ağrı-acının gəlməyi ilə getməyi an çəkirdi. Yara ilk dəfə qanayanda, bir də qabığı soyulub dərinin rəngini dəyişəndə yada düşürdü. Sıyrılmış, qançır olmuş yaraya kimsə bir gündən artıq, əsasən də ot-əncərdən hazırlanmış türkəçarə dərmanları yaxmazdı. Nədənsə, o bulağın suyunun dadı daha çox damağımda qalıb.

– Hə, bulaq yerindədi, ancaq böyür-başı tamam tanınmaz hala düşüb. Ətrafındakı örüş yerlərini də, kənd qəbiristanlığına gedən yolu da kol-kos, ot-ələf basıb. Ən çoxu da süddü qanqal dörd tərəfi bürüyüb. Süddü qanqalın qartalıb belə adamboyu qalxdığını görməmişdim, o qədər də sıx bitib ki, yarıb keçmək olmurdu. İstəyirdim, rəhmətliklərin məzarına baş çəkim, ora qədər getməyə azı 4-5 saat lazım idi ki, birtəhər yarıb keçəsən. Vaxtımızsa çox az idi. Uzağı iki saata geri qayıtmalıydıq. Qismət olsa, yayda baş çəkəcəm. Uzaqdan nə illah elədim, otların arasında qalan başdaşlarını doğru-dürüst seçə bilmədim.

Cavan yaşında dünyadan köçmüş atasının həmin qəbiristanlıqdakı məzarını göz önünə gətirdi, güclə tutduğu göz yaşları yenə yanağını islatdı. Çiyinlərinin xəfif titrəyişindən bildim ki, bu dəfə hönkürtüsünü saxlaya bilməyəcək. Ona görə, "bəlkə çayları təzələyək, deyəsən, soyuyub", dedim. Mətbəxə keçdi, ancaq durumundan görünürdü ki, hələ də o barədə düşündüyündən sakitləşə bilməyib.

Bu vəziyyət söhbətimizdə qısa fasilə yaratsa da, yaxşı ki, davamını çox gözləməli olmadıq.

– Sofular pirinə getdiyimiz yolun üstündəki o meşəlik də xeyli seyrəlib, ağacların çoxunu kəsiblər. Görünür, qışda yandırmaq üçün yaxınlıqdakı erməni kəndlərinə daşıyıblar. Yəqin meşədəki Sofular bulağının suyu da azalmış olar. Vaxtımız olmadığından ora da gedə bilmədik.

Bulaqlarımız da işğalla barışmayıb, birinin suyu azalıb, birinin gözü batıb, çoxunun da yan-yörəsi dağıdılıb, yolu-yolağası bağlanıb. Yəqin o illərdə suyunun dadı, tamı da dəyişib, soyuqluğu azalıb.

– Bizim 7 para kənddə bir salamat ev qalmayıb. Ancaq yerləri bilinir. Təkcə rəhmətlik Ədifin evinin bir divarı, bir də bizim axırıncı tikdiyimizin arxa divarının yarısı salamatdır. Onlar da 2-3 ilə sökülüb-töküləcək. İnşallah, qismət olar yenilərini tikərik, təki tezliklə o yerlərə qayıdaq. Yolboyu işlərin sürətləndiyinin şahidi oldum, ümidim artdı.

– Zəmi düzündə, Şamoğlu biçənəyindəki otu yığıb-yığışdırmaq olmaz. Az qala adamboyu qalxıb. Daldərədə, elə kəndin bütün ərazisində yaşıllıq, gül-çiçək adamın gözünü güldürür. Az qala Şahqulu qayası, Mal qayası da yaşıllıq içində görünməz olub. Bu il oralarda əkin-biçin üçün çox əlverişli, bərəkətli il olacaq.




Ancaq hələ bizim kəndlər tərəfdə əkin-biçin işlərinə başlanılmayıb. Əsas diqqət rayon mərkəzindən keçməklə Ağbəndə qədər gedəcək magistral yoluna və artıq Zəngilanın bir neçə kilometrliyinə çatmış yeni dəmiryoluna verilib.

– Deyirəm, kənd-kəsəyə qayıtsaydıq, elə bizim biçənəyin başında bir mal ferması tikərdim. Qohum-qardaş, dost-tanış arasında bunu istəyənlər çoxdur. İnşallah, gedərik, qurub-yaradarıq, kimin əlindən nə gəlir, onunla da məşğul olar.

– Geri qayıdanda bir az yağışa düşdük. Yaxşı ki, maşınımız batmadı, yoxsa torpaq yolun o yapışqan palçığından çıxmaqmı olardı.

Yağış bərəkət rəmzidir. O bərəkətli torpaqların bar-bəhərini bir az da artırar, yaşıl dağlarını bir az da təravətləndirər, gursulu çaylarının suyunu artırar, bulaqlarının gözünü güldürər. Biz tərəflərdə yağışdan sonra göyqurşağının görünməsi isə adi haldır. Özü də möcüzə olan göyqurşağının möcüzəli yerlərin gözəlliyinə necə rəng qatdığını sonuncu dəfə gördüyümdən 29 il keçir. Bir anlığa o göyqurşağının lap ucundan tutub uçub o torpaqlara getmək, bu həsrətə son qoymaq keçdi ürəyimdən...

**Sən müqəddəs torpağım, sən ey ata məzarım**

Var-yoxumuz talandı, yurd-yuvadan qovulduq,
Dəyirmanlıq buğdatək vəl altında sovrulduq.
Dağlardan iraq düşdük, dərd içində boğulduq,
Sən müqəddəs torpağım, sən ey ata məzarım

Sinəmə dağlar çəkib səndən uzaq günlərim,
Tüstüm təpəmdən çıxır, boğur məni qəhərim,
Bitməyən gecəm oldun, açılmayan səhərim
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Neçə illər yağılar çapıb-taladı səni,
Min ilin düşmənləri oda qaladı səni.
Qapında yal verdiyin itlər daladı səni.
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Yenə əlim çatmayır, yenə yolum bağlıdı,
Sənə sarı uzanan əlim-qolum bağlıdı,
İçimi qəzəb didir, sağım-solum bağlıdı
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Niyə başın dumandır, niyə eynin açılmır,
Yurd dediyin ocaqdır, hər alovla çatılmır.
Özündən qaçmaq olar, taledən ki qaçılmır,
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Torpağın-daşın qızıl, qoynun gülüstan olub,
Oğlun-qızın mərdanə, igid, əl tutan olub.
Sonuncu görüşümüz eh, gör bir haçan olub
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Dağılmış məzarlıqdan anam da yer umurdu,
Neçə qohum, dost, yaxın gözü yolda uyudu.
Qubarlı ürəklərdə dərdin şişdi, böyüdü,
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Varında, dövlətində gözü olanlar bilməz,
Süsənin, Çinar meşən hər nəfəsdən isinməz.
Nədən desən keçilər, Vətəndən ki keçilməz
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Necə köçkün deyiləm, bəs hanı yurdum mənim?
İşğalı ki bitirib qəhrəman ordum mənim.
Nə vaxtadək çəkəcək dərmansız dərdim mənim,
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

Bir gün yuxularımda uçub sənə gələcəm,
Uzağı yaxın edib, keçib sənə gələcəm,
Bir məzarlıq yer saxla, köçüb sənə gələcəm,
Sən müqəddəs torpağım, sən ey ata məzarım.

**Əziz dostum, Qubadlıya salam de**

*Vətənsevər dostum Hacı Nərimanoğluya*

Əziz dostum, Qubadlıya salam de,
İllər idi həsrət idik hüsnünə.
Sən alınmaz, basılmayan qalam de,
Xəncər oldu yağıların köksünə.
Topağacı, Hərtiz deyib gəz-dolan,
Göy qalada, "Qalalı"da sür dövran.
Pirdağında igidlərə kəs qurban
Düşmənləri yaxşı qoydu pis günə.
Həkəri, Bərgüşad oxusun nəğmə,
"Xırman yeri" bir də batmasın qəmə.
"Laləzar körpüsü" gül açsın yenə
El yığılsın toy-büsatın səsinə.
Məzar oldu yağılara hər qayan,
Qurbantəpə, Maltəpəsi, Qalaçan,
Eldar Baxış sözün deyib o zaman
Yolun azmış, quduz it sürüsünə.
Ulu yurdsan, ərənlərin sayı yox,
İgidlikdə Əlyarımın tayı yox.
Min şükür ki, Şükürüm də oldu ox,
Batdı qəvi düşmənlərin gözünə.
Sözüm yetməz səni öyəm qəlbimcə,
Dədə Süleymanın dili nə incə.
Hacı qardaş, əldə qələm gəlincə,
Könül istər qüvvət versin sözünə.

https://edebiyyat.az/1889-letif-babayev-taleyin-izlerikitabindanqelebe-xronikasi.html



***Vaqif BAYRAMOV***

*16 fevral 1959-cu ildə Sisianın Ağdi kəndində dünyaya göz açıb.*

## ŞUŞA – AZADLIĞIN, QAYIDIŞIN VƏ DİRÇƏLİŞİN ŞƏHƏRİ

Sübhdən Şuşaya yola düşəcəyəm. Düşməndən azad ediləndən sonra ikinci dəfə bu qala-şəhərin görüşünə, Qarabağ şəhidlərinin, Vətən uğrunda canından keçən övladların – yenilməz döyüşçülərin qalib ruhlarını ziyarətə gedəcəyəm. Vüqarla, qürurla dalğalanan bayraqlarımızın "qonduğu daşa pir deyəcəyəm", o bayrağın kölgəsi düşən torpağı gözümə çəkəcəyəm" (Ramiz Qusarçaylı). Yol boyu yağının viran qoyduqları kəndlərin, dağıtdıqları evlərin, qurutduqları bağ-bağçaların yanından keçdikcə yaşadığım ağrıacını canımda, iliyimdə hiss edəcəyəm. Oğlum Fəridin ermənin qazdığı səngərin, qurduğu istehkamın üzərindən mənə tərəf şəstlə "boylandığını" təsəvvürümə gətirəcəyəm...

**"Mən Şuşaya bağlıyam"**

Avtobusda yanımda əyləşən Vahid adlı yaşlı kişi yolun başlanğıcında tanışlıq zamanı əslən Şuşadan, Qaryağdılar nəslindən olduğunu, gediş-gəliş başlayandan bəri doğma şəhərinə özündən asılı olmayan səbəbə görə gedə bilmədiyini, tale-qismətin isə bu gün üzünə güldüyünü dedi. Onunla şuşalı illəri ilə söhbət etməyə nə qədər cəhd göstərsəm də, danışmadı. Füzulinin Əhmədbəyli kəndindən azca aralanandan sonra isə ətrafda ürək göynədən xarabalıqlara baxa-baxa gözündən süzülən yaşı əlinin arxası ilə bir kimsəyə hiss etdirmədən silməyə başladı.

Vahid kişi avtobusdan düşəndən sonra şuşalılara verilən "imtiyazdan" yararlanıb evi ilə, məhəlləsi ilə "görüşə" getdi. Səfərimizin sonuna yaxın qayıdanda isə "yurd-yuvanla salamlaşıb həsrətinin yanğısını söndürə bildinmi" sualıma cavabında dedi: "Qardaş, viranə qalan evimizə, uşaqlığımın, yeniyetməliyimin, gəncliyimin keçdiyi yerlərə ayaq basıb əhdimə çatdım, dədə-baba torpağıma qovuşmaq xoşbəxtliyini yaşadım, olub-keçənləri – xatirələrimi gözlərim önündə canlandırdım.Amma bu vüsal çilik-çilik olmuş arzu-istəklərimi bundan sonrakı ömrümdə göyərdəcəyinə, köçkün həyatımın dərinə işləyən yarasına məlhəm ola biləcəyinə inanmıram...O bir Allah bilir ki, mən ruhumla, varlığımla təkcə Şuşaya onun doğmalarına qovuşduğu bu xoşbəxt günündə deyil, həm də dilim söz tutandan, ağlım kəsəndən torpağına, daşına, suyuna, çiçəyinə bağlı olmuşam. Qoynundan aralananda, harasa gedəndə də fikrimdə, düşüncəmdə yaşatmışam. Bax, elə düşmən əsarətində qaldığı ötən 28 il yarımlıq uzun bir dövrdə də bilirsənmi həsrətilə nələr çəkmişəm, hansı əzabları, hansı ağrı-acıları yaşamışam?!".

...Şuşaya gedən yollar bağlanandan sonra Vahid kişinin neçə-neçə doğma-əzizi dinclik, rahatlıq görmədi, dünyanın ən ağır dərdkədər yükünü–Vətən həsrətini daşıdı, Vətəndə Vətən yanğısı ilə yaşadı. Dərdi ovuda-ovuda: “Uğursuz sevgi də, doğma adamların vaxsızvədəsiz itkisi də, dost xəyanəti də gec-tez vaxtın, zamanın gücünə təslim olur, unudulur. Təkcə yurdyuva, od-ocaq yarası sağalmır, qaysaq bağlamır”, – dedi. Şuşa 28 il yarım şuşalıların gözlərində dumana-çənə büründü. Bəlkə də bu illərdə övladlarını itirən, yadlara üz göstərməyən Şuşaya yaz-yay da gəlmədi. Sazın-sözün çal-çağırına həsrət qalan Cıdır düzü yağının keyf məclisləri qurduğu məkana çevrildi...

… 1992-ci il mayın 8-də Şuşa–strateji cəhətdən önəmli olan bu dağ şəhəri erməni faşizminin caynağına keçdi. Yurdundan qovularaq, kənd-kənd, şəhər-şəhər səpələnən şuşalıların məcburi köçkün həyatı başladı. Düz 28 il yarım uzun bir zaman ərzində onlar gündüzlər min bir qayğının ağır yükü altında, gecələr əzablı yuxuların qovğasında Şuşa intizarı ilə – yurd yerlərinə dönmək, sönmüş ocaqlarını yandırmaq istəyilə yaşadılar. Beləcə bir-birinə calanan əzablı illərin hər günündə doğma obalarına dönmək, hər daşa, qayaya üz sürtmək, hər gülünçiçəyin ətrini sinələrinə doyunca çəkmək həsrətilə sabahlara ümidlə boylandılar. Qarabağın işğalda olmayan azad yerlərinə gəlib Şuşa qalasına sarı boylandılar. Kədərli, hüznlü baxışlarını qala səmtdən saatlarla çəkmədilər. Bu lal baxışları ilə sanki, yurda qovuşmaq arzularına çatmaqda o şəhərin başı üzərində dolaşan narahat ruhlardan imdad, kömək dilədilər. Onları yurd-yuvalarından didərgin salan, doğmalarının qəbirlərini tapdalayan düşməni cəzalandırmağı da o ruhlara tapşırdılar.

**28 il 6 aydan sonra...**

Şuşanı küçə-küçə, məhəlləməhəllə gəzdikcə qalanın qəsbkarın caynağında olduğu illərdə yadlaşdırmağa, ögeyləşdirməyə cəhd göstərildiyi qənaətinə gəlirəm. Vaqifin məqbərəsindən üzü aşağı tamaşa edəndə isə şəhərin yaralarının daha dərinə işlədiyini görürəm. Erməni faşizmi Qarabağın bu qədim məkanındakı zəngin muzeyləri də talayıb, tarixi yadigarları yağmalayıb, misilsiz mədəniyyət ocaqlarına, türbələrə, qəbirlərə, xatirə abidələrinə amansızlıqla divan tutub, viranə qoyub, “La-ilahə-illəllah” nidalı minarələri nişangahlara çevirib. Şuşanın adını bütün dünyaya yayan sənətkarların heykəllərini güllələbaran edib. Bəlkə də Natəvanın, Bülbülün, Üzeyir Hacıbəylinin ruhu bu vəhşiliyə, bu vandallığa dözməyərək od tutub yanıb. Bəlkə də Pənahəli xan Cavanşirin, Molla Pənah Vaqifin, Qasım bəy Zakirin ruhu bu namərdlərin əməllərindən bu doğma diyardan perik düşsələr də, düşmənin diz çökəcəyinə, zirvələrdə Azərbaycan bayrağının əbədi dalğalanacağına, haqqın təntənəsinin, zəfər gününün nə vaxtsa yaşanılacağına ümid, inam bəsləyib.

28 il altı aylıq ağrı-acılardan, əzablardan sonra iki ildir ki, o perik ruhlar doğma yurda qayıdıblar. O ruhlar iki ildir ki, qalanın ənginliklərdən azad şəhərin qalib övladlarının yüzilliklərin qanqadalarına şahidlik edən məkanın yaralarına necə məlhəm qoyduqlarını görüb dinclik tapıblar. İki ildir ki, Şuşada üçrəngli,




ay-ulduzlu bayrağımız qürurla dalğalanır, 1992-ci il mayın 8-dən Zəfər gününədək düşmənin dağıtdığı, viranə qoyduğu evlər, yollar, düşmən tapdağında inləyən abidələr, müqəddəs ocaqlar bərpa edilir...

**"…Mən yollara baxaram..."**

Mən indi Cıdır düzündən, sıldırım qayalığın başının üstündən üzü Laçın səmtə baxanda qarşı İşıqlı dağının ətəyindəki yurd yerlərimiz xəyalımda canlanır, uşaqlığımın, gəncliyimin kəndi, o torpağın hər daşı, ağacı, çayı, dağı yaddaşımda xatırlanır, təsəvvürümdə neçə illərdi yağı tapdağında inləyən ocaq daşlarının hüznlü kimsəsizliyi təsəvvürümə gəlir: məhəlləmizə uzanan yol – yolağalar, cığırlar kol-kos içindədir, fərəhli günlərimin şahidi olan həyət-baca ot-ələf içindədir…"Bir qarış boyu, yarım qarış eni olan, tək-tənha qalan, gələni, gedəni görünməyən" (Nurəngiz Gün), ətrafında bir ins-cins gözə dəyməyən evimizsə beş addımlıqdakı köhnə qəbiristanlığın qaramatına bürünüb, miskin görkəmilə ürək dağlayır… Yadıma Xalq şairimiz Fikrət Qocanın bir şeirindən:

**"…Mən yollara baxaram,**
**Yollar əliboş gələr…"**

misraları düşür.Düşüncələrimdə həmin "əliboş gələn yollar"la geri dönüb kəndimizin baharını, yayını, payızını və dərd, kədər gətirən qışını xatırlayıram…

…Burada – bu sıldırım qayalıqda oturub duman-çəndə görünməz olan "əliboş gələn yollarla" xəyalən kəndimizə üz tuturam. Evimizin "başının üstdən asılan" Qızılqaya, dərin dərədən axan Bazarçayı, yayda yayladığımız Şükürbəyli, Kilsəli yaylaqlarının ecazkarlığı gözlərim önünə gəlir. Uşaq olub o sıldırım qayalıqlara dırmaşmaq, o dəli çayın o biri sahilinə keçib novruzgülü yığmaq, Şükürbəylinin, Kilsəlinin mamırlı qayalıqlarında yaşıdlarımla "gizlinpaç" oynamaq istəyim baş qaldırır. Amma o Qızılqaya, o Bazarçayı, o Şükürbəyli, o Kilsəli məni maqnit cazibəsilə özünə çəksə də, onları bir daha gedib görmək, ziyarət etmək istəyimin gerçəkləşəcəyinin "görünməz aylara, illərə qaldğını" düşünəndə dəhşətə gəlirəm...



***Rasim MƏDƏD***

*İsmayılov Rasim Mədəd 1967-ci ildə Qubadlı rayonunun Poladlı kəndində anadan olub.*

**QUBADLIDAN XANKƏNDİYƏ GEDƏN YOL...**

*Hələ uşaq idi... Həyətin bir tərəfində tay-tuşları ilə tez-tez top-top oynayırdı... Yorulanda babasının düzəltdiyi taxta tüfəngi çiynindən asar, ayağını tut ağacından yonulmuş çomağın üstünə aşırıb, at çapırmış kimi hey aşağı-yuxarı qaçardı...*

Namərdlər qoymadı ki, uşaq qayğısız günlərini yaşasın...

Ermənilər Qubadlıya hücum edəndə, anası əlindən tutub evdən zorla, ağlaya-ağlaya çıxartmışdı onu. (Heç kim bilmirdi ki, bu yol 30 il sonra gələcək şərəfli bir yolun başlanğıcı idi...) Hətta o vaxt özündən böyük taxta tüfəngini sinəsinə sıxaraq uşaq şıltaqlığı ilə evin bir küncündə gizlənmişdi ki, top-top oynadığı həyət-bacanı heç kimə verməsin. Ancaq...Hıçqıra-hıçqıra "Topum qaldı!", "Topum qaldı!" – deyən bu uşağın səsi sanki qayalara dəyib əks-səda verirdi. QAZ-53 markalı maşın hərəkət etdikcə, onun top-top oynadığı həyət, dərələr, dağlar addım-addım geridə qalır, doğma torpaqlarımızın hər daşı-kəsəyi, buz bulaqları əsir düşürdü. Balaca Xəyal maşının yük yerində başını anasının dizlərinə söykəyib yuxulamışdı...Toppuş əli ilə taxta tüfəngini sinəsinə elə bərk-bərk sıxmışdı ki, barmaqlarını qoparmaq mümkün deyildi. Bir əlində isə nənəsinin elədiyi yağlı dürmək var idi...İllər keçdi... Taxta tüfəngini əlindən yerə qoymayan bu uşaq bir gün böyüdü, dəmir tüfəngini götürüb, "dəmir atını" mündi. Zabit Mədədzadə Xəyal Həsən oğlu kimi tank belində geri döndü. Bölük komandiri yoldaşları ilə birlikdə odun-alovun içərisindən keçərək verilən döyüş tapşırıqlarını qəhrəmanlıqla, şərəflə yerinə yetirdi. Döyüş yoldaşları ilə birlikdə Cəbrayılı, Füzulini, Zəngilanı düşmən tapdağında xilas etdi. İllər əvvəl addım-addım geridə qalan doğma torpaqlarımız, buz bulaqlarımız, indi addım-addım yaxınlaşırdı. Qorxu bilməyən qəhrəman əsgərlərimiz dağları, daşları çırmaqlaya-cırmaqlaya Qubadlıya çatdı. Ağır döyüşlərdən sonra Qubadlı da işğaldan azad olundu. Xəyal bir vaxtlar top-top oynadığı həyəti göz yaddaşı və uşaqlıq illərinin şirin xəyalları ilə axtarıb tapdı. Maraqlıdır, top elə həmin yerində, top-top oynadığı həyətdə idi... Ancaq bu top, uşaqların oynadığı rezin top deyil, böyüklərin "oynadığı" nəhəng, dəmir bir top idi... Düşmən balaca Xəyalın vaxtılə top-top oynadığı həyətdə döyüş topu qurmuşdu. Uşaqlığını yaşaya bilməyən on minlərlə Xəyalların gəncliyinə, arzularına, xəyallarına tuşlanmışdı bu top... Üç metr aralıda isə kolun dibində tay-tuşları ilə 30 il əvvəl oynadığı rezin topun çürümüş qalıqları var idi. Təzada bir baxın, rezin topla dəmir top arasındakı üç metrlik bir məsafədə 30 illik həsrət dayanırdı. Bu topların biri xoşbəxtliyi, sevinci, biri isə ağrı-acını, ana-

ların göz yaşını, naləsini yaşadırdı sinəsində... ...Qarşıda daha çətin və daha şərəfli iki tapşırıq var idi. Şuşa kimi incini düşməndən azad etmək və qızı balaca İnciyə Şuşanın düşməndən azad olunması haqqında raport vermək, onun dilindən "Atam ermənilər Şuşadan qovdu" – sözlərini eşitmək... Bunlardan birincisi Vətən qarşısında, şəhidlərimizin ruhu qarşısında əsgər borcu, ikincisi isə bir ata istəyi idi. Vətən qarşısında hər kəsin öz sahəsi üzrə borcu olmasına baxmayaraq, bu hissi ancaq Şuşanı azad edənlər, belə bir xəbəri övladları ilə bölüşən əsgərlər yaşaya bilər. Bəli, bu hissi yaşamaq üçün igid əsgərlərimiz keçilməz qayalardan, dağlardan çığır açdılar, ağır döyüşlərdən, odun-alovun içərisindən keçib, Şuşanı da erməni işğalçılarından azad etdilər.İndi şəhid qanı tökülmüş keçilməz çığırlarda al qırmızı lalələr bitib. İndi neçə-neçə İncilər başlarını dik tutub atalarının qəhrəmanlığından danışır, "Atam ermənilər Şuşadan qovdu!"– deyir...Allah bütün şəhidlərimizə rəhmət eləsin! İğid əsgərlərimizə isə torpaqlarımızın bütövlüyü uğrunda başladıqları bu müqəddəs yolun sonuna çatması üçün güc, qüvvət versin! Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mayoru Mədədzadə Xəyal Həsən oğlu hazırda Şuşada hərbi xidmətini davam etdirir. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif edilib. Mayor Mədədzadə Xəyalın hər gün Şuşadan Xankəndiyə tərəf boylanarkən ürəyindən nələr keçdiyini anlamaq çətin deyildi. Xankəndini azad etmək, şəhid dostlarının qisasını almaq, onların ruhunu şad etmək, Xankəndi şəhərində şəhidlərimizin adını daşıyan küçələrdə gəzmək... Nə bilim, daha nələr, nələr..Müzəffər Azərbaycan Ordusunun 19-20 sentyabr 2023-cü ildə başladığı antiterror əməliyyatı zamanı düşmənin illərdir formalaşdırdığı terror yuvasını əsgərlərimiz qısa zamanda darmadağın etdi. Düşmən təslim oldu, ağ bayraq qaldırmaq məcburiyyətində qaldı. Mədədzadə Xəyal da silahdaşları ilə birlikdə Xankəndiyə daxil oldu. Həmin gün hamı kimi onun da arzularının reallaşdığı bir gün idi. İndi üçrəngli bayrağımız Xankəndi şəhərində və ətraf rayonlarda dalğalanmaqdadır. 30 ildən sonra Xan kəndinə qayıtdı...Xankəndi Azərbaycandır!Qarabağ Azərbaycandır!

**P.S.** Bu, bir eşq hekayəsidir – Vətən eşqi... Xəyalın 30 il əvvəl Qubadlıdan başladığı şərəfli yol Xankəndiyə qədər uzandı. O, bu yolda oddan- alovdan keçdi, şəhid qardaşlarını, yaralı dostlarını qolları arasında, çiyinlərində daşıdı, əyilmədi, sınmadı, hər zaman başını dik tutdu, ruh yüksəkliyini itirmədi – dedi ki, "Əsgər istənilən yüksəkliyi itirə də bilər, geri ala da bilər. Gərək əsgər heç zaman ruh yüksəkliyini itirməsin". Bəli, o, ruh yüksəkliyini itirmədi, addım-addım Vətənin bütövlüyünə doğru irəlilədi. Vətənə bağlılıq onun üçün kol dibində qalan rezin topdan, babaların düzəltdiyi taxta tüfəngdən və nənələrin yağlı dürməyindən başladı...İndi dayandığın o küçə qoy bir şəhidin adını dünya durduqca yaşatsın, Cənab mayor! *Bakı, 2023-cü il*



**Rafiq YUSİFOĞLU**
*Əməkdar mədəniyyət işçisi, professor*

## QARŞIDA ABAD, İŞIQLI QUBADLI GÖRÜRÜK

Torpaqlarımızın, ayrı-ayrı şəhər və kəndlərimizin, xüsusən doğulub boya-başa çatdığım Qubadlının işğalı, hamı kimi, mənim də ürəvımı göyüm-göyüm göynədirdi. Yurd həsrətli şeirlər, hekayələr, nağıllar, məqalələr yazmaqdan başqa əlimdən bir şey gəlmirdi. 1997-cı ildə "Həsrət köçü" kitabımdakı hərbi-vətənpərvərlik mövzulu silsilə şeirlərim əsasında Azərbaycan Dövlət Televiziyası "Bütün Azərbaycan əsgər olmalı" adlı televiziya tamaşası hazırlamışdı. Orada ağrılarımız, acılarımız, gənclərimizin vətənpərvərlik ruhu öz əksini tapmışdı. Soydaşlarımız kimi, taleyinə qaçqınlıq-köçkünlük adlı dərd payı düşən heykəllərimizin də taleyi məni göyüm-göyüm göynədirdi. Natəvanın, Üzeyir bəyin, Bülbülün abidələrinə müraciətlə deyilirdi ki, sizin postamentinizi uçursalar da, tarixin ucalığından endirə bilmədilər. Çox şükür, uzun illərin məşəqqətli ayrılığından sonra arzularımız çin oldu. Azərbaycan Respublikasının Prezidenti, Alı Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalq bir yumruq kimi birləşdi. Hamımız tarixi bir müharibənin iştirakçısına çevrildik. Müharibədə, az qala, hər ailəni düşmənə nifrət, vətənə məhəbbət ruhunda tərbiyə edilən oğullar təmsil eləyirdi. Əlində üçrəngli bayrağımız yellənən körpə uşaqlarımızdan tutmuş köksündə ürəyi payız yarpağı kımı titrəyən qocalarımıza qədər hamı müharibənin gedişini həyəcanla izləyir, Prezident İlham Əliyevdən qələbə müjdəli xəbərlər gözləyirdi...

Vətən sevgisi on milyon "məni birləşdirib vahid “biz’:ə döndərmişdi. Qələbənin ən mühüm şənlərindən bırı də elə bu idi. Bütün açıq və gizli havadarlarının köməyinə baxmayaraq, düşmən Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmirdi. Nəyi nə vaxt, necə etməyi hamıdan gözəl bilən Alı Baş Komandanın “dəmir yumruğ"u düşməni, dəmir məntiqi isə onların havadarlarını məhv eləyirdi. 44 günlük müharibədə torpaqlarımızın tamamilə işğaldan azad edilməsi fantastik bir hadisəyə bənzəyirdi. Cənab Alı Baş Komandanın rəhbərliyi altında əsgər və zabitlərimiz misilsiz qəhrəmanlıqlar göstərib, yeni Ьи- tarix yaratdılar. Bunun üçün hərə öz əlindən gələni etdi.Müharibəni zəfərlə başa ’/urandan sonra Prezident İlham Əliyevin işğaldan azad edilmiş şəhərlərimizi, rayonlarımızı ziyarət etməsi hamı kımı, məni də çox fərəhləndirirdi. Xüsusən, ötən ıl 23 dekabrda Prezident İlham Əliyevlə Mehriban xanımın Qubadlıya səfəri məni çox duyğulandırmışdı. Elə həmin gün “Alı Baş Komandanın Qubadlı səfəri" adlı bir şeir yazmışdım. Bu ıl çapdan buraxılan “Zəfər dastanı" kitabıma daxil edilən həmin şeir budur:

Açır gözlərini yaralı torpaq,
Üzləri təbəssüm bəzəyir indi.
Zirvədə yellənən üçrəngli bayraq
Zəfər çələnginə bənzəyir indi...



Bu şeir yazılanda heç ağlıma da gəlməzdi ki, Qubadlının işğaldan azad edilməsinin bir ili tamam olan gün - 25 oktyabr 2021- ci ildə mən də Qubadlını ziyarət edənlərin arasında olacağam. Bəli, inana bilmirdim ki, gün gələcək, cənab Prezidentlə şəxsən görüşə. Ali Baş Komandanın işğaldan azad edilmiş torpaqların, o cümlədən bizim rayonumuzun gələcəyi ilə bağlı çıxışım dinləyə, onunla söhbət edə, daşı daş üstə qalmayan Qubadlının küçələrində birlikdə gəzə biləcəyəm. 28 ildən bəri üzünü görmədiyim Qubadlıda o qədər duyğulu anlar yaşadım kı...Bütün bunlara görə, yurd həsrətimizə son qoyduğu üçün Prezidentə, Müzəffər Alı Baş Komandana dərin təşəkkürümü bildirirəm.O gün, yəni o müqəddəs səfərdə Ulu Öndər Heydər Əliyevin yolunu ləyaqətlə davam etdirən, onun arzularını reallaşdıran Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanının çıxşlarını dinləyə-dinləvə viranəyə dönmüş Qubadlının gələcəyini gözüm önündə canlandırmağa çalışırdım. Möhtərəm İlham Əliyevin söhbətlərini dinlədikcə tam əmin oldum ki, dünənki qaçqın-köçkünlərin ürəyinə zəfər məlhəmi qoymağı bacaran Prezidentimizin rəhbərliyi altında Qubadlı da tezliklə Şərqi Zəngəzurun ən gözəl, möhtəşəm şəhərlərindən birinə çevriləcək. Qubadlıdan geri qayıdanda isə bu sözlərimə Siyavuş Kəriminin bəstələdiyi "Ulu Öndər" mahnısını dinləyirdim.Abad Qubadlıya qayıdacağımız günü xəyalımda canlandıra-canlandıra Ulu Öndərə rəhmət, yolunu ləyaqətlə davam etdirən Prezidentimiz İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, onların ailə üzvlərinə cansağlığı arzulayırdım...Xarabazara çevrilmiş rayon mərkəzinin ürək göynədən mənzərəsi gözüm önündən getmirdi. Çox kövrəlmişdim. Ancaq mənə elə gəlirdi ki, yurd həsrəti ilə dünyasını dəyişən insanların, torpaqlarımızı öz qanları bahasına azad edən şəhidlərimizin ruhu şaddır.Yurduma təskinlik verib devirdim: Gözün aydın. Qubadlı! Sən azadsan, sən abad olacaqsan. Sənin işğaldan azad edildiyin gündə Prezidentimizin Qubadlıda elektrik yarımstansiyasının açılışını etməsi də mənim üçün simvolik məna daşıyır. Xaraba yurd yerinə ilk dəfə işıq gətirən uzaqgörən dövlət başçısının - İlham Heydər oğlu Əliyevin rəhbərliyi ilə Qubadlımız, sənin də gələcəyin həmişə işıqlı olacaq...

https://www.azerbaijan-news.az/index.php/az/posts/detail/qarshida-abad-ishiqli-qubadli-goruruk-230255

# ZƏNGƏZUR


ŞƏRTİ İŞARƏLƏR
GORUS - qəza mərkəzləri
Qubadlı - mahal mərkəzləri
Ərəfsə - kəndlər
Şose yolları
Araba yolları
Qırxlar d. - hündür dağlar
Müəlliflər: t.ü.f.d., dos. Elmar Məhərrəmov
t.ü.f.d., dos. Hacı Həsənov
elmi işçi Lətifə Əsgərova-Surxəlizadə
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı: 2020-ci il
MİQYAS
1 santimetr = 2000 metr
2 km
4 km
10 8 6 4 2 0 10 20
Gorus
Qubadlı
Şuşa
Ordubad
Bazarçay
Həkəri
Mıxtökən silsiləsi
Qarabağ silsiləsi
ÇAXMAQ ÇÖLÜ
Qarağöl

***Elçin HÜSEYNBƏYLİ***

*23 dekabr 1961, Mahmudlu, Cəbrayıl rayonu*



## XİFFƏT... LƏNƏT VƏ SEVGİ
*(Cəbrayılı düşünərkən...)*



Yazını başlamaq çətin, bitirmək asandır. Bunu qələm çalanların hamısı bilir. Ona görə də nə uzaqdan, nə də yaxından başlamaq lazımdır. Sadəcə ortadan və mətləbə dəxli olmayan epizoddan. Məsələn: pəncərəmin önündən qumru ötdü. Halbuki qumrular uçmaqdan çox gəzişməyi sevirlər. Fındıq boyda başlarını yellədə-yellədə, buğda boyda gözlərini çalxalandıra-çalxalandıra, bənövşəyi ayaqlarını yüyrək ata-ata ora-bura vurnuxur, təşər-təşər yürüyürlər...

Qumrunun adını ona görə çəkdim ki, gözümü açandan bir cüt qumrunu həyətimizdəki qarağacın budaqlarında görmüşəm. Həm də bu quş Cəbrayılda müqəddəs hesab olunurdu. Deməli, pəncərəmin önündən qumruların uçub keçməsi təsadüfi deyilmiş. Həmin qumruları Bakıda, həyətimizdəki çinarın budaqlarında da görmüşəm. Külək əsdikcə budaqlar yellənir, qumrular da onlarla birgə mürgü vururdular. Və mənə elə gəlmişdi ki, bunlar elə həmin qumrulardır, həyətimizdəki. Sonra o çinarı kəsdilər və quşlar da yox oldu. Küsüb getdilər, yəqin. Bəlkə də, elə həmin vaxt həyətimizdəki ağacları da düşmənlər, yağı qonşularımız kəsirmişlər.Bu yazı, bəlkə də, belə başlamalı deyildi. Hər yazının bir düzəni olmalıdır. Orası da düzdür ki, plansızlıq yazının özəlliyi və gözəlliyidir.

Orta məktəbdə oxuyanda ədəbiyyat müəllimimiz bizə vətən haqqında inşa

tapşırdı. Mən təxminən belə yazdım: Vətən mənim evimdən başlayır, sonra həyətimizə keçir, məhləmizlə davam edir və getdikcə böyüyür. Sonra kənd, sonra rayon, axırda Ana Vətənimiz gəlir. Uzun illərdən sonra onu da anladım ki, əslində, elə dünyanın özü də bizim Vətənimizdir. Çünki hamımız burda yaşayırıq və onun inkişafı, rifahı, əmin-amanlığı üçün çalışırıq. İlk dəfə ana yurdumu (Cəbrayılın Mahmudlu kəndini, elə həyatın özünü də) alaqaranlıq bir otaqda, lampa işığında görmüşəm. Atamın dizləri üstdə. Məni atıb-tuturdu. Bəxtimə gün düşüb, deyəsən, həmin vaxt. Və evdə işıq yanıb. Yəni mən "İliç lampası" ilə birgə doğulmuşam. Həmin il kəndimizə işıq çəkilib. 1962-ci ildə. Sonra kəndimizin ortasındakı tonqal yadıma düşür. Gur-gur yanır, alov dilimləri ərşə qalxırdı və adamlar onun ətrafında dövrə vururdu. Deməli, Novruz bayramında kəndimizi tanımışam, həmrəyliyin, birliyin qoxusunu duymuşam, suluq yaddaşıma köçürmüşəm. Sonra. Sonrası da sonralardır da: Cəbrayılın özü, yəni rayon mərkəzi, müxtəlif biçimli dükan- mağazalar, foto-atelyelər. Sonuncu ən çox sevdiyimiz yer idi. Çünki böyüdükcə sənədlərimizin sayı da, şəkillərimizin ölçüsü də dəyişirdi. Axırda Bakı, Rusiya, Türkiyə və müxtəlif ölkələr, məkanlar...Cəbrayılın ortasındakı çinar, onun altından keçən dupduru və buz kimi kəhriz suyunun tamı, soyuqluğu indi də yadımdadır. Həmin kəhriz Ziyarət Dağından başlayırdı. Bu cür sərin sudan Ərdəbildə, Şeyx Səfi məqbərəsinin həyətində də içmişəm: soyuqluğu, tamı eyniydi. Həmin qocaman çinarı nadan, nankor düşmənlərimiz kəsiblər, amma dibindən pöhrəsi çıxıb. İndi beş-altı metr hündürlüyündədir... Yaddaş təkcə ürək və beyinlə yox, həm də duyğusal orqanların varlığı ilə diridir. Deməli, qocaman çinarın da yaddaşı diridir və hələ də bizə lazım olduğunu anlayır və bizi gözləyir. Cəbrayılda kəhrizlər, bulaqlar çox idi. Sadalasam, uzun bir siyahı çıxar, amma mən tanıdıqlarım və suyundan içdiyim bulaqların adını çəkməsəm, olmaz: "Dostluq bulağı", "Ayı bulağı", "Şam bulaq", "Cəfərabad bulağı" (ona "Urus bulağı" da deyirdilər), "Yaloba bulağı", "Qoşa Çinar bulağı"...

Bir dəfə yaxşı tanıdığım, suyundan bolluca içdiyim Cəfərabad kəhrizinin mənbəyini tapmaq üçün uşaqlarla xeyli yol getdik. Elə-belə, maraq xatirinə. Təbii ki, sona qədər gedə bilmədik. Kəhrizin çəkildiyi arxın üstündə bacalar vardı, kənkanlar ordan sallanır və kəhrizin gözünü açırdılar. Kəhriz öz mənbəyini rayonumuzu dövrələyən Kiçik Qafqaz dağlarından alırdı. Onu necə çətinliklə çəkmişdilər, hansı müsibətlərdən keçmişdilər, bir Allah bilir.

İlk pioner düşərgələrindən biri Sirikdəydi. O dağların ab-havası, suyu əvəzolunmazdır. Orda bircə dəfə, özü də ötəri olmuşam. Sonralar getməyə zaman olmadı. Çünki gəncliyimiz qanlı-qadalı illərə düşdü. Düşmənlər 28 ilimizi oğurladılar.Cəbrayıl azad olunandan sonra jurnalistlər sual verdilər ki, kəndə gedəndə ilk işin nə olacaq? Cavab verdim ki, öncə kəndimi qarış-qarış gəzəcəm, doğmalarımızın məzarlarını ziyarət edəcəm. Mənə tanış olan gülünü-çiçəyini, bağlarını, dağ və dərələrini salamlayacam. Uşaqlığımızın yadigarı, daim altında oynadığımız, kölgəsində dincəldiyimiz, "Alı xəndəyi"ndə "məğrur tənhalıqda" qərar tutan "Tək tut"a baş çəkəcəm, "Yaloba bulağı"ndan su içəcəm... Sonra bütün rayonu, axırda Qarabağı gəzəcəm, başımızın tacı Şuşaya gedəcəm...

Körpəlikdən indiyə qədər hər şey xırdalıqlarına qədər yadımdadır. Bəlkə, ona görə ki, xaraktercə impressionistəm, nostalji hisslərə qapılmağı xoşlayıram, indidən daha çox keçmiş xatirələrimlə yaşayıram. Rəssam olsaydım, qəmli bir cocuğun rəsmini çəkərdim. Təxminən belə: ayaqyalın, qüssəli bir uşaq, əlində künaltaq (çubuq) yerdə nəsə cıza-cıza, suya düşən kölgəsinə baxa-baxa Arazın qırağı ilə gedir və nəyisə düşünür...Ötən 28 ili mən bu cür qəmli-qüssəli xatırladım, yurdumun xiffətini çəkdim...

Cəbrayıl elatı yayda Sisiana gedərdi. Bizim yaylaqlarımız orda idi. İmişlidən tutmuş bu yana qədər hamı sürüsünü Bazarçaya tərəf apardı. Biz aralıda durub, kəndimizin yanından ötən köçə baxardıq. Atların üstündə çobanlar, dəvələrin belində arvad-uşaq oturardı, sürünü isə itlər qoruyurdu. Mərcanlı obası (Cəbrayılın ən böyük kəndi) SSRİ dağılana, münaqişə başlayana kimi yaylağa gedib-gələrdi...Mən o yaylaqlarda olmamışam. Amma yaylağın marşrutunu, yol- yolağasını böyüklərdən öyrənmişdim: Mahmudludan yola düşürsən, Laçını keçib "Üç təpə"yə qalxırsan, oranı adlayıb "Yazı"ya çıxırsan, "Xınzirəy"i, "Kömür təpə"ni, "Farmaş təpə"ni arxada qoyandan sonra "Göbək daşı"na çatırsan. Ondan sonra "Zor-zor bulağ"ı, "Qabırrı gədik", "Qısır aşırım", "Bazar çay", "Bazar düz", axırda da "Ballı sofka" və "Cənnət yurd". Hərə bir tərəfdə alaçıq qurur. Hər tərəf yamyaşıl, aşağıdan isə dəli- dolu Bazarçay axır... Gözəl mənzərədir, eləmi? Oralara getmək mənim də qismətimə düşüb, lap sonralar, işğal zamanı...

2001-ci ilin yayında Avropa Şurasının xətti ilə beş jurnalist İrəvandan Gorusa, ordan isə Sisianı keçməklə Xankəndinə səfər eləmişik. Cənnətməkan yerlər, sərin və təmiz hava, buz kimi bulaqlar... Şuşanı da ilk dəfə onda gördüm. Bizə yalnız bir küçəni göstərdilər - Yuxarı Gövhərağa məscidinə aparan küçəni. O gözəllikdə Şuşa xarabazara çevrilmişdi. Ətrafdakı yarıuçuq binalarda hərbçi ailələri qalırdı. Eyni aqibəti viran qalmış, dağıdılmış Laçın da yaşayırdı. Bizi ora aparmadılar. Ancaq aralıdan görə bildik. Səfər yoldaşım, operator Emil Süleymanov (laçınlıdır) evlərini görmək istədi, icazə vermədilər. Ermənilər bizi elə əhatə eləmişdilər ki, sanki hansısa terror hadisəsi törədəcəkdik.

Səfərdən sonra bir yazı yazdım: "Bakıdan Xankəndinə uzun bir yol". Yazının sonluğu beləydi: "Xankəndinin qonaq evində yatanda gecənin bir vədəsi qulağıma saz səsi gəldi. Bəlkə, babalarımızın ruhu bizi çağırırdı?" Bu, şişirtmə, gop-filan deyildi. Həmin səs vardı. Mən onu eşidirdim...

Şuşa bizə yaxın idi və hər yay, son zəngdən sonra orta məktəbi bitirənlər ya Göygölə, ya da onu ziyarətə gedirdilər. Amma mən gedə bilməmişdim. Səbəbi uzun və anlaşılmaz olduğundan yazmıram. Bircə onu deyim ki, son zəngi daha çox Şükürbəylinin (orta məktəbi orda bitirmişəm) aşağısında "Quycaq dərəsi" deyilən yerdə, "Çinarlığın altı"nda, ya da Sayaq düzündə keçirirdik. "Çinarlığın altı" həm də pir, ocaq idi.

May bayramı özgə bir aləm idi. Yaşıl çəmənliklər, bağ-bağat bizi ağuşuna çağırırdı. O bayram bizi kişiləşdirirdi...

İlin axır çərşənbəsi və Novruz bayramı, vətənimin hər guşəsində olduğu kimi,

bizim də həsrətlə gözlədiyimiz günlər idi... Döyüşdürmək üçün yumurta tədarükü, atəşfəşanlıq üçün yalançı güllələr və mütləq papaq - qohum-əqrəba, qonşu qapısına atmaqdan ötrü.

Uzun müddət, çoxları kimi, məni də bir sual daim düşündürüb: bu gözəl günlər hara yox oldu? Niyə belə oldu? Bəlkə, bayramlar uşaqlar üçündür? Çünki işğaldan sonra böyüklər o bayramları yadırğamışdılar, yalnız uşaqlar üçün keçirirdilər. Yurd, doğma ocaq olmayan yerdə nə bayram!? Və bu suallara öz yazılarımda, qismən də olsa, cavab verməyə çalışmışam...



Cəbrayılın özəlliklərindən biri də bazarının olmamasıydı. Bəlkə, ona görə ki, bura sufilər diyarıydı və təsadüfi deyil ki, rayon ərazisində ondan çox təkyə vardı: Tanrıyla baş-başa qalmağın, tək ibadətin nişanəsi kimi.

Pirlərimizdən danışarkən "Mazan nənə" ziyarətgahının, Aşıq Dirili Qurbani məzarının adını çəkməsəm olmaz.

Çələbilər kəndindəki "Hacı Qaraman" rayonda ən ağır pir, ocaq hesab olunurdu. Bizdə adamlar həkimlərdən daha çox ona inanırdılar. Hacı Qaraman Sufi təriqətinin qollarından biri kimi hər yerdə tanınır: nəqşibəndilər kimi, bəktaşilər kimi... Mən orda olmamışam, amma Cəfərabad kəndinin üstündə yerləşən "Pir Çinar"a (ora "Yel Piri" də adlanır) getmişəm, çərşənbə gününün səhəri özümdən böyük uşaqlarla... Bu barədə "Pirə inamım necə itdi və necə qayıtdı" yazımda danışmışam. Bircə onu deyim ki, pirin ətrafı, budaqlarına rəngbərəng parçalar, lentlər bağlanmış ağacın altı qələbəlik idi: kimi qurban kəsir, kimi diləyinin qəbul olunması üçün ocağa nəzir-niyaz verir, kimisi də bulaqdan çıxan palçığı bədəninin ağrıyan yerinə sürtürdü... Uşaqları bilmirəm, amma mən ürəyimdə heç bir arzu tutmamışdım, nəzir-niyaza isə şərik çıxmışdım...




Yeri gəlmişkən, Qüdsdə "Fəryad divarı"nın olmasını hamı bilir. İsrail səfərində olarkən ora da baş çəkdik və arzularımızı yazıb divarın yarıqlarına qoyduq. Tanrı vahiddir və hər dini məkan da ona məxsusdur. Bu şəhərdə beş konfessiya, beş məbəd yerləşir. Onlardan ən möhtəşəmlərindən biri də müsəlmanlara məxsus olan Əl-Əksa məscididir. Deyilənə görə, Tanrının elçisi Məhəmməd Peyğəmbər məhz burda Musa peyğəmbərlə görüşüb... Geri dönüşdə sədrimiz, Xalq yazıçısı Anar müəllim belə bir etiraf elədi: "Heç kim divara yazıb qoyduğu ürək sözlərini demir, ancaq mən deyəcəm: Qarabağın azadlığını dilədim!" Və Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin Şuşanın azad edilməsi müjdəsini verən zaman dediyi sözləri xatırlayıram: "Məkkə ziyarəti zamanı Tanrıdan xahiş elədim ki, mənə güc versin, Qarabağı azad edim, atamın vəsiyyətini yerinə yetirim!" Biz bütün dualarımızla, elliklə Qarabağın azadlığını istəmişdik. Mən İç Anadoluda olarkən Hacı Bektaş ziyarətgahına getdim və onun girişindəki tut ağacının altında bu arzumu dilə gətirdim...

Cəbrayılın rəmzi sayılan, milli və klassik memarlığımızın şah əsərlərindən biri Xudafərin körpüsü azad edildikdən sonra möhtəşəmliyi daha da artıb. Bu memarlıq abidəsi çox hadisələrin şahididir. Bu körpüdən şahlar da keçib, nökərlər də, igidlər də, yağılar da, amma yenə də bizimdir. Dadaloğlu demiş "Fərman padişahın, dağlar bizimdir!" O taylı-bu taylı Azərbaycan türklərini birləşdirən Xudafərin indi Dostluq körpüsünə çevrilməkdədir...

**Xudafərin körpüsü**

Mən bu körpünü lap yaxından 80-ci illərin sonlarında görmüşəm: "Xudafərin körpüsü" romanının müəllifi, mərhum yazıçımız Fərman Kərimzadə ilə birlikdə. İş elə gətirmişdi ki, ondan bir il əvvəl, yəni 88-ci ilin qışında Fərman Kərimzadə bir qrup ermənistanlı soydaşımızla Moskvaya, SSRİ Ali Sovetinə şikayətə gəlmişdi. Onunla Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində tanış oldum. O zaman mən "Zemlyaçestvo" ("Yurddaşlar") adlanan tələbə cəmiyyətinin sədriydim. Ali Sovetə məktubu bir qrup tələbə ilə, həm ermənistanlı soydaşlarımız adından, həm də öz adımızdan hazırladıq. Sonra Fərman müəllimlə tələbələrin görüşünü təşkil elədim. Tədbirdən sonra Moskva şəhərini gəzdik, dərdləşdik və xatirimdə mərd, təpərli bir insan kimi qaldı. Həmin yay Fərman Kərimzadə bizim rayona gələndə məni axtarıb tapmış və onun təklifi ilə Xudafərin körpüsünə getmişdik. Körpünün yanına çatanda dedi ki, əlini Arazda yumaq istəyir. Amma rus sərhəd keşikçiləri bizi ora buraxmadılar. Fərman bəy də onlarla ağızlaşdı,



yarı rus, yarı azərbaycanca yağlı söyüşlər də söydü. Azman yazıçı olduğu qədər də azman kişiydi. Cənnətməkan olsun! İllər əvvəl onun barəsində "Vedinin yanı Fərman..." adlı bir yığcam məqalə də yazmışam. Yazıçının "Vedinin yanı dağlar..." adlı publisistik dənəməsi vardı...Fərman Kərimzadə dünyadan nisgilli, Vedidən narahat köçdü, özü də qəfil. Bəlkə də, əbədi dünyada bu bayatı ona rahatlıq vermir:

*Vedinin yanı dağlar,*
*Ürəyi, canı dağlar,*
*Burda bir el var idi,*
*Siz deyin, hanı, dağlar!?*

Rahat uyu, ustad! Fərman ağa! Vedi gözümüzün önündədir. Əlini gözünün üstünə qoysan yetər!..

Bayaq dedim ki, bizim rayonda bazar yoxuydu, yəni həyətinin məhsulunu satmaq tabuydu, yasaq idi. Yalnız Cəbrayılın özündə, Ziyarət dağının ətəyində bir balacası vardı. Ona şərti olaraq "erməni bazarı" deyirdilər. Çünki əsas alver edənlər ermənilər idi. Hadrutun ətrafındakı kəndlərdən - Hərəküldən, Banazurdan gəlirdilər. Əsasən göy-göyərti, çəkmə araq satırdılar. O bazarda bircə dəfə olmuşam: qarlı qış günündə atamla. Sonralar ora gedib-getməməyimi xatırlamıram...

Sözümə qüvvət: Seyfəddin dayım (nənəmin dayısı oğlu) 80-ci illərdə rayonda təzə açılmış "Tədarük məntəqəsi"nə 60 kilo nar satmışdı (daha doğrusu, təhvil vermişdi). Nənəm bu xəbəri eşidəndə onun abrını ətəyinə bükdü, dedi ki, dayısı

Məhyəddinin ruhunu incidib, bütün nəsli el içində biabır edib.

Kişi ha and-aman elədi ki, bunu eləməyə məcburdu, çünki partiya (Kommunist Partiyası) üzvü və idarə müdiridir, xeyri olmadı...

Bizim el-obada hamı dərdini bölüşdüyü kimi, olan-qalanını da bölüşərdi. Anam yaxşı bostan əkərdi. Yolnan gedən kəndçilərimizə bostanın nübarını verərdi. Qəribə səslənməsə deyərdim ki, burda hər şey kommunizm üstə qurulmuşdu: hər kəsə bacarığına görə, hər kəsə tələbatına görə. Yəni vətəndaş cəmiyyəti deyilən bir nəsnə hələ o zamandan bizlərdə vardı: qapın və süfrən açıq, evin də ən yaxşısı qonağındır. Hara gedirsən get - qonşular həyət-bacana, mal-heyvanına, toyuq-cücənə yiyə duracaq, onları ac-susuz qoymayacaqdı. Bəlkə, elə ona görə də yazılarımın, demək olar ki, hamısında kəndimizin ən mərdimazar adamına belə, sevgi və mərhəmətlə, ən pis halda isə ironiya ilə yanaşmışam. Bomarşesayağı desək, "ağlamamaq üçün dünyaya gülməyə tələsmişəm..."

Maraqlı bir əhvalat danışım. Başqa bir rayonda yaşayan tələbə yoldaşım kəndimizə qonaq gəlmişdi. Bir gün məndən soruşdu ki, sizdə bazar var? Mən də qayıtdım ki, var, rayonun özündədir, təzə tikilib, ancaq orda nəsə tapmaq çətindir. Söhbət 80-ci illərin ortalarından gedir. Bazara gəldik. O böyüklükdə bazarda iki alverçi vardı. Biri bazarın bəri başında kartof, biri də o biri başında armud satırdı...

Desəm ki, cəbrayıllı olmağımla fəxr edirəm, bəlkə də, düzgün anlaşılmaz. Vətəni bölməzlər, düzdür. Mən həm də lənkəranlıyam, qusarlıyam, balakənliyəm, sabirabadlıyam. Amma xatirələrim daha çox Cəbrayılla bağlıdır. Çünki ilkin olaraq onu tanımış, onun özəlliklərini sevmişəm, insanlarının mərdliyinin, etibarlılığının, səmimiyyətinin, gözütoxluğunun şahidi olmuşam. Bəlkə, bu mehribançılıq, xeyirxahlıq həm də rayonun adının Cəbrayıl mələklə bağlı olmasıdır. Tanrının sevdiyi xoşniyyətli mələk daim insanlarımızın başının üstündə olub, onları şərdən-xətadan, haramdan qoruyub...

Addan söz düşmüşkən, deyilənlərə inansaq, Cəbrayılın ilkin adı Qıraxdın olub. Niyə Qıraxdın? Bəzi ehtimallara görə, Şah Abbas töycü və vergi yığanlarını bu mahala göndərib, onlar da əliboş qayıdıblar və səbəbini belə izah ediblər: "Şahımız sağ olsun. Ona görə əliboş qayıtdıq ki, o mahalın adamları alqı-satqı nə olduğunu bilmirlər, varlarını bölüşürlər". Şah özü də sufi olduğundan tapşırır ki, bir də o yerin camaatından töycü və vergi almasınlar. Ona görə də Cəbrayılın adı "qıraxda qalan" kimi dəftərə düşüb.

Cəbrayılın qəribə relyefi var. Ərazisinin çox az bir hissəsi Arazbo- yunda (aranda) yerləşir. Bəridən gedəndə sağa tərəf təpələr, yaylalar və dağlar ucalır. Hər fəslə uyğun da meyvəsi...

El-obamız, əsasən əkinçilik, ipəkçilik, maldarlıq və xalçaçılıqla məşğul olurdu.

Bir haşiyə çıxım. Türkiyədə olarkən Konya qalasına qalxdıq. Qalanın ətrafında əntiq əşyalar satılırdı. Onların arasında "Gül gəbə" gördüm. Mənə elə gəldi ki, həmin gəbə bizim evdə, ya da kənddə toxunub. Rəngi solmuşdu. Bəlkə, o da vətənin həsrətini çəkirdi. Kövrəldiyimdəm satıcıya heç bir sual vermədim, eləcə

gəbəni sığalladım, ruhum dincəldi...

O gəbənin bütün naxışları mənə tanış və doğmaydı, özümü də əməlli- başlı inandırmışdım ki, bizimkidir...

Qış vaxtı hana qurulardı və gəbə kəsilənə qədər mən onun yanından əl çəkməzdim. Nənəmlə birgə dizi üstə oturub gəbəni toxuyardım, ilmələri qarışdıranda nənəm deyinə-deyinə onları açardı... Bizim o rəngli, naxışlı günlərimiz bir il əvvəldən başlayardı. Payızda qoyunlar qırxılardı. Yunun yuyulması, didilib əlçimlənməsi, daranıb əyrilməsi, yumağa dönməsi yaza qədər davam edərdi. İpin boyanması böyük bir ritual idi. Yazın əvvəlində, ağaclar çiçəklərini tökəndə nənəm məni kişi qırığı kimi yanına salıb yola çıxar, Rəşidin "Paz" avtobusuna mindirib rayona gətirərdi, ordan da payi- piyada çaylağa düşərdik. Tonqalın üstündə qaynayan ala-bəzək tiyanlar müştəriləri gözləyirdi. Biz də növbəmizi tutub dayanardıq. İplər boyanandan sonra nənəm onu çaylağın qırağındakı daşların üstünə sərərdi. Dağlarda qar ərimişdi və sel-su çaylaq boyu aşağı şütüyürdü. Getdikcə bollanır, özü ilə dağlardan mer-meyvə, qoz-fındıq gətirirdi. Suya girib onları tutmaq istəyirdim...

Mən suya baxa-baxa və kişi dəyanətilə, özü də ac-susuz boyaq mərasiminin qurtarmasını gözləyirdim...

Çay demişkən... Bizim çaylarımız balıqla dolu idi. Çoxları buna inanmır. Axı balıq əsasən Bakı, Siyəzən və Lənkəranda olur, yəni dənizətrafı bölgələrdə. Hərdən, az qala, özüm də inanmaq istəmirəm. Çünki paytaxtımızın bazarlarında Cəbrayıl balığı olmazdı. Ancaq çoxları bilmir ki, Araz İranla sərhəddən axsa da, qolları bizim kəndlərdən keçirdi. Araz sanki bizi qucaqlayırdı. Biz Arazın övladlarıydıq. Əbəs yerə Xan Araz demirlər ki... Xan təkcə hökmü və duruşu ilə yox, həm də mərdliyi və xeyirxahlığı ilə dəyərlidir. Onlardan biri, ən sulusu da bizim kənddən - Mahmudludan keçirdi. "Maralyan arxı" deyilən bol sulu kanal Şıxalağlı kəndində Arazdan ayrılırdı. Mən günlərlə ordan balıq tutmuşam: xəşəm, şirbit ("usaç"), durna balığı, sazan... Ona görə də yuxularımda daha çox balıq tutduğum epizodları görürəm. Bircə şeydən çox qorxurdum: Araz quruyar, balıqları ölər. Hətta bəzən yuxuda çayın quruduğunu, balıqlarının öldüyünü də görürdüm, səksənirdim. Məlum və möhtəşəm qələbəmizdən sonra kəndi görmüş, bizə qohum hərbçilərimizdən Arazı soruşdum. Eşidəndə ki, tam qurumayıb, suyu hələ də gəlir, arxayın oldum... Üzməyi beş-altı yaşından öyrənərdik. Yay başlayandan payız girənə kimi çaydan çıxmazdıq. Selliyin qırağındakı cillərdən bağ bağlayar, kəndin o başından suya atıb üstünə minər, bir də ayağında çıxardıq. Hərdən onları qayıq bilib yarışardıq da. Sudan çıxandan sonra "qayıq"larımızın arxasınca baxar və kədərlənərdim. Bir zamanlar ala-bəzək topum da, bax beləcə axmışdı...

Mən öz qayığımın üstünə uzanıb, geniş səmaya baxa-baxa dünyanın sonuna qədər getmək istəyirdim.

Cəbrayıl haqqında statistik məlumatlarla yazını doldurmaq istəmirəm. İstəyənlər internetdən, müasir məlumat kitabçalarından, ensiklopediyadan öyrənə bilərlər. Amma bizim üçün mahiyyət daha önəmlidir. Bilənlər bilir ki, Cəbrayıl

öz alimləri, dövlət və sənət adamlarının çoxluğu, fərqliliyi ilə seçilib və seçilir. Tənbəllik edənlər və maraqlananlar üçün deyim ki, qaçqınlıq illərində rayonun əhalisi təxminən iki dəfə artıb, əlli mindən səksən minə yüksəlib.

Bu illər ərzində nələrdən keçmədik. Cəbrayıl işğal olunanda mən ordaydım. Bir qrup əcnəbi jurnalistlərlə bölgəyə getmişdik. Yolboyu, günün istisində ev-eşiyini, bağ-bağçasını qoyub gedən, yalnız gücü çatanı götürən adamlar, əsasən də qadınlar və uşaqlar ürəyimi ağrıdırdı. Elə bil o yolu mən özüm gedirdim. Yerdən qalxan toz-torpaq sir-sifətlərindən süzülən tərə qarışıb üzlərində şırımlar açmışdı. Sanki bu adamlar bir çay idilər və müxtəlif qollara ayrılırdılar. Yəqin, bu, onların hissləriydi: bir gözləri arxada, biri irəlidə, yan-yörədə... uzaqlarda... bilinməzlik... narahatlıq...

Bu yerdə mərhum Xalq yazıçımız Sabir Əhmədlini də yada salmasam olmaz. Cavan qardaşı, Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovu Böyük Vətən müharibəsində (1941-45), nakam oğlu Məhəmmədi isə Birinci Qarabağ müharibəsində itirdi. Böyük itki və nisgildir. Amma təmkinlə, ədəb-ərkanla bu ağrını öz içində çəkdi. "Axirət sevdası" romanını oxuyanlar bunu yaxşı bilirlər. Ən ağır dərdlərindən biri də Cəbrayılın işğalıydı... "Gedənlərin qayıtmağı" romanında Böyük Vətən müharibəsindən qayıdanların bizim Mahmudlu stansiyasında qatardan düşmələrindən yazır...

Ustad yazıçımız indi rahat uyuya bilər! Çünki ruhu şaddır. Çünki gedənlər qayıtdılar! Bizim igid oğlanlarımız onun doğma yurdunu - Cəbrayılı, bütün Qarabağı qaytardılar və qayıtdılar. Qayıtmayanlar isə onun yanındadırlar. Yəqin ki, göz-qulaq olar!

Cəbrayıl sona qədər döyüşdü. Hətta bir düjün erməni kəndini də dincliklə köçürdü. Amma sonralar fələyin çərxi döndü. Erməni himayədarları və özümüzdən olan bəzi nadürüstlər ov tüfənglərini belə əhalidən yığdılar... Xocalı soyqırımından sonra adamlarda ruh düşkünlüyü yarandı. Mən həmin vaxt insanların üzündə bir təlaş, gözlərində narahatlıq duyurdum. Bununla belə, əzmkarlıqlarını itirmirdilər. Qarabağ savaşında, o cümlədən Cəbrayılda çox şəhidlərimiz, çox igidlərimiz döyüşüb: istər Birinci Qarabağ savaşı olsun, istəsə də İkinci. Onların arasında 14 yaşlı, qarayanız, çəlimsiz Tiqananı (Samiri) unuda bilmirəm: əsgərlərə su, çörək, silah-sursat daşıyan, kəşfiyyata gedən, ölərkən ölümünə inanmayan cəsur oğlanı... Bir də əsirlikdə olarkən erməni bayrağına tüpürən vətənsevər İlqar Mehdiyevi...

Hərdən dostlarla, qohum-əqrəbayla söhbətdə bir şeyi vurğulayıram: biz çox çətinliklər gördük. Uşaq vaxtı gözümüz ağarana qədər işlədik, qoyun-quzu otardıq, dərs oxuduq, Arazda çimdik, düzlərdə top qovduq, amma ac qalmadıq. Tək bir şeyə təəssüf edirəm: qulağımızın dibindəki "İsa bulağı"na, "Turşsu"ya gedə bilmədik. Zaman çatmadı, qoymadılar... Bu mənada Heydər Əliyev Fondunun dəstəyi və Respublika Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən, şagirdlərin cəlb olunduğu "Ölkəmizi tanıyaq!" layihəsi çox vacibdir və inanıram ki, pandemiyadan sonra bu layihə davam edəcək. Vətəni sevmək, qorumaq üçün onu gəzmək, görmək lazımdır. Bu mənada gələcək nəsil hardan gəldiyini və hara



getdiyini dəqiq bilməli, yaxşını pisdən, yalanı doğrudan ayırmağı bacarmalıdır. Qisas yox, ədalət hissi gənclərimizin amalına çevrilməlidir.

Mənə elə gəlir ki, ilk, yəni ibtidai insandan indiyə kimi hisslər dəyişməyib: məhəbbət də eynidir, nifrət də. Dəyişən çağdaşlıq və zəmanədir. İnsanlar isə ona uyğunlaşmağa məcburdular. Yaddaş isə dəyişməyə yox, təzələnməyə məhkumdur!

28 il bizə çox şeyi öyrətdi. Sağ olsun vətənimiz, millətimiz. Məcburi köçkünlərə, bacı-qardaşlarına sahib çıxdılar. Dam verdilər, torpaq verdilər. Amma onların güzəranına ağız büzənlər, yerli-yersiz qınayanlar da oldu, ikitirəliyə cəhd edənlər də tapıldı. Bir dəfə uşaqlıq dostum mənə zəng elədi və kövrələ-kövrələ dedi ki, televizorda bir nəfər məcburi köçkünlərin qarasına deyinirdi. "Niyə televizora çıxanda bizim haqqımızı müdafiə eləmirsən? Axı bizim hansı əzablardan keçdiyimizi özün görmüsən!"

Mən onu anlayırdım. Çünki gözümün qabağında ev-eşik qurmuş, min bir əziyyət və zillətlə bağ salmış, ailə sahibi olmuşdu. Zəhmətkeş adam idi. Qaçqın düşəndən sonra şəhərətrafı qəsəbələrdən birində məskunlaşmış, gecə-gündüz işləmiş, özünə güzəran qurmuşdu. İnsan zülmə tabedir, sözə yox. Ancaq elə adam var ki, zülmü götürür, haqsız sözü yox. Təsəvvür edin: min bir əziyyətlə qurduğun, yaratdığın ocağın tar-mar olur, illərlə yığdığın qazanc ayaqlar altına atılıb tapdanır, ruhun incidilir... Bütün bunlardan sonra ayağa qalxmaq üçün insanda iradə, inam və gələcəyə ümid olmalıdır. Bizim elatımız bunu bacardı.

Qarabağlıların, yəqin ki, ən böyük dərdi ölməyə yerlərinin (qəbiristanlığın) olmamasıydı. Çoxları da üzü vətənə tərəf baxa-baxa dünyasını dəyişdi. Bir dəfə həmkarım Seymur Verdizadə mənə xitabən yazmışdı: "Bu iş çox uzandı. Ölənləri əmanət basdırırlar ki, yurda dönəndə özləri ilə aparsınlar. Biz getdikcə məzar yerlərimizi də unuduruq". Mənim cavabım qısa oldu: "Qibləmiz itib, qağa! Çünki hərə bir tərəfə səpələnib. İndi harda olduğumuzu bilmirik".

Nə qədər ağrılı olsa da, daim işlətdiyim bir fikri yenə də təkrarlayıram: "İşğal təkcə torpağın qəsbi deyil, işğal - mənəviyyatımızın, adət- ənənələrimizin, ruhumuzun, dostluq-qonşuluq əlaqələrimizin, mərasimlərimizin yağmalanmasıdır..."

Bizim qibləmiz Arazın o tayında - Güneydə olan "Üç qardaş" dağıydı...

Bu sətirləri yazarkən fikirləşdim ki, bəndənizin Qarabağla bağlı onlarla məqaləsi var və onları bir kitabda toplamağın zamanı çatıb: iki il əvvəl nəşr etdirdiyim "Qarabağ hekayələri" kimi...

Yurdumuzun xarabalıqlarına baxarkən (adamın bu sözü deməyə dili də gəlmir) düşünürdüm ki, onların bir qismini ermənilər dağıdıblar, bir qismi də baxımsızlıqdan, öz-özünə dağılıb gedib. Çünki tənha ruhlar kimsəsiz evlərdə dolaşmazlar. Qaraçuxalarımız yatıblar, yəqin... Şükür ki, oyandılar!

Tez-tez cəbhə bölgələrində olur, məcburi köçkünlərlə görüşürdüm. Onların gözlərindəki kədəri ifadə eləmək çətindir.

2013-cü ildə İsraildə səfərdəydik. Dönəndən sonra belə bir sual verdilər: "Bakıdan gedən dostlarımızı gördünmü?" "Bəzilərini gördüm" dedim. "Necəydilər?" "Yaxşıydılar, - dedim, - yurd həsrəti çəkirlər. Sanki uşağı ən gözəl pioner düşərgəsinə göndərmisən, hər şəraiti var, ancaq anasından ötrü darıxır..."

Məcburi köçkünlərə nə qədər qayğı göstərilsə də, onlar vətənlərini istəyirdilər. Balıq sudan ayrı yaşaya bilmədiyi kimi, insan da vətənindən, doğma yurdundan ayrı yaşaya bilmir. Avropada yaşamağa can atan və ora getməyə nail olan tanışlarımızdan biri qürbəti yarımçıq buraxıb vətənə qayıtdı, məşhur atalar sözünü dəyişdirib, belə bir status yazdı: "Gəzməyə də, ölməyə də vətən yaxşı!"

**Cocuq Mərcanlıya səfər**

Nə gizlədim. Hətta məclislərdə də "gün o gün olsun, ad günlərimizi, toylarımızı, bayramlarımızı kəndimizdə, yurdumuzda keçirək!" tostları da ciddi səslənmirdi...

2017-ci ilin payızında sədri olduğum Azərbaycan Yazarlar Klubunun xəttilə bir qrup tanınmış qələm adamı Cocuq Mərcanlıya, Horadizə səfər etdi. Səfərdən qayıdarkən Xalq şairi Nəriman Həsənzadə rəhbərimiz və ağsaqqalımız Anar müəllimə belə dedi: "Anar, Elçin bizi Cocuğa gətirdi, Şuşaya da aparacaq!"

"Əlbəttə aparacam!" dedim. Ancaq boynuma alım ki, bu sözlərimdə bir inamsızlıq vardı. Çünki Azərbaycanın ürəyini, Qarabağın tacını işğaldan azad eləmək müşkül məsələydi. Beynəlxalq təşkilatlar, ermənipərəst qüvvələr "bu münaqişənin hərbi yolu yoxdur" deyirdilər, Ermənistana da heç bir təzyiq göstərmirdilər. Amma Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi, hərbi həll vardı və bunu sübut elədik. Əsgərlərimiz ermənilərin 30 ildə yaratdığı istehkamları aslan kimi yarıb keçdilər və doğma Şuşamıza üçrəngli bayrağımızı sancdılar.

İndi Cəbrayıla, işğaldan qurtulan yurdlarımıza dönüşə sayılı günlər qalır. İndidən sosial şəbəkələrdə, məclislərdə belə bir söhbət gedir: hökumət geri qayıdan məcburi köçkünlər üçün ayrıca qəsəbə salmalıdır, yoxsa öz dədə-baba yurdunda ev tikməyə vəsait ayrılmalıdır? Mənə elə gəlir ki, kəndin kənd olması üçün hərə öz-dədə baba yurduna qayıdıb binə olmalıdır. Çünki bunsuz kənd ol




mayacaq. Axı söhbət torpaqda yox, mahiyyətdədir. Özü də hər şeyi dövlətin boynuna qoymaq olmaz. Ayrıca qəsəbələrin tikilməsi üçün həm bolluca vəsait, həm də zaman lazımdır, özü də öz həyətindən, ocağından kənarda yaşamaq darıxdırıcıdır. Zaman isə gözləmir. Ölkəmizin qarşısında duran işlər də həddən artıq çoxdur. Hamılıqla əl-ələ verib, dövlətin də dəstəyi ilə kəndlərimizi tikməli və orda məskunlaşmalıyıq. Özü də bunun üçün yerli təbii sərvətlərimiz yetərincədir. Bir şeyi də deyim: Mən 18 yaşımda kənddən çıxmışam. İki ali təhsil almışam, Bakıda qeydiyyata düşmüşəm, işləmişəm. Və kəndə getməyə, ömrümün qalan hissəsini quruculuq işlərinə sərf etməyə hazıram və belə də olacaq. Bir əlimizdə qələm, bir əlimizdə külüng ata ocağımızda çalışmalıyıq...

Zəfər əməliyyatının adını "Dəmir yumruq" adlandırırıq. Mənsə deyərdim ki, "Dəmir yumruq" elə Prezident İlham Əliyevin özüdür. Çünki xalqı, ordunu, bütün dövlət strukturlarını öz ətrafında beş barmağı kimi birləşdirməyi bacardı...

Çoxdanın bir filmi yadıma düşür. Brut qalların mühasirəsində olan Avqust Yuli Sezara deyir: "Hücum etməliyik, Sezar!" Sezar isə tələsmir, səbirli olmağı məsləhət görür. "Nəyi gözləyirik!?" - Brut həyəcanla soruşur. "Qalların hücumunu!" "Bəlkə, etmədilər!?" "Edəcəklər, darıxma, təmkinli ol! Çünki onların sərkərdələri çoxdur".

Sezar deyən kimi olur. Qallarda çoxtirəlik yaranır, hücuma keçirlər və romalılar onları yenir. Eyni hadisə 90-cı ilin əvvəllərində bizim də başımıza gəlmişdi. Ancaq ulu öndər Heydər Əliyev və onun varisi, Ali Baş Komandan İlham Əliyev vahid lider və sərkərdə olduqlarını göstərdilər. Torpaqlarımız, yurd yerlərimiz, bizim doğulduğumuz, sevdiyimiz, daim həsrətində olduğumuz məmləkətimiz yağı düşməndən azad olundu!

Yurdumuzun xarabalıqlarına baxdıqca ürəyimiz dağlanır. Zatən biz onları xəyallarımızda, yuxularımızda da görürdük, əsərlərimizdə yazırdıq ("Vida" romanımda və "Qaçaq qocalar" pyesimdə olduğu kimi). Amma biz xarabalıqları yox, gözlərimizin önündə yenə də güllü-çiçəkli dağları, dərələri, abad evləri canlandırırdıq. İnanırdıq ki, belə də olacaq! Biz yenidən oraları abadlaşdıracağıq. Ayağımızın dəydiyi hər yer güllü-çiçəkli bağçaya, yaşıl xiyabana çevriləcək!

Vətənimizi qarşıda böyük bir intibah gözləyir: iqtisadi dirçəlişdən tutmuş mədəni qalxınmaya qədər. Buna görə şəhidlərimizə, qazilərimizə, hərbçilərimizə borcluyuq. Şəhidlərsiz vətən azad və abad olmaz. Onların qanı ilə suvarılan torpaqda gül-çiçək bitər!

Şəhidlərimizin ruhu qarşısında baş əyir, analarının hüzurunda diz çökür, atalarının əllərindən öpürük...




Mənə elə gəlir ki, biz Şuşada, ya ona yaxın böyük bir ərazidə şəhidlərimizə, Xocalı soyqırımı qurbanlarının xatirəsinə, məcburi köçkünlərimizin 90-cı illərin əvvəlində yaşadıqları, gözlərimlə gördüyüm, qəlbimlə duyduğum məşəqqətə (dəmir vaqonları, çadırları, palçıq evləri unutmaqmı olar!?) və qəhrəman əsgərlərimizin şərəfinə bir muzey kompleksi tikməliyik. Belə komplekslər bir neçə  ölkədə var və onlardan ən möhtəşəmi Qüdsdəki "Xolokost abidəsi"dir. Biz bu kompleksi ona görə tikməliyik ki, beynəlxalq təşkilatların nümayəndələri, xarici turistlər oranı ziyarət etsinlər, həm millətimizin başına gətirilənləri, həm də onların dəyanətini öz gözləri ilə görsünlər. Gələcək nəsillərimiz isə olanları unutmasınlar. Qoy, birinci sinfə gedən şagirdlərimiz məktəbdən öncə oranı ziyarət etsinlər...

Hər şəhərimizdə isə düşmən vəhşiliyinin gerçək nümunəsi olan dağıdılmış binalar saxlanılsa yaxşıdır. Artıq dövlət başçısı İlham Əliyev belə bir göstəriş verib və belə də olacaq.

Erməni vandalizmi (elə bütün vəhşiliklər) bəşəriyyətin lənət damğasıdır...

Özümdən bir təklif: "Qəhrəman şəhər" adı təsis edilsin və bu ad həm işğaldan azad olunmuş şəhərlərimizə, həm də düşmən hücumlarına mərdliklə sinə gərən Tərtər, Bərdə, Gəncəyə verilsin...

Bir şeyi də deyim: Mən bəzən məyus olsam da, ümidsizliyə qapılsam da, həmişə gələcəyə inanmışam. 1991-ci ildə yazdığım, ozamankı "Ədəbiyyat və incəsənət" qəzetində çap olumuş "Küləkli çöl" hekayəsində Qərbi Azərbaycanımızdan didərgin düşmüş, bütün ailəsini itirmiş, yurdu yağmalanmış qoca deyir: "Elə bilirlər, hər şey belə qalacaq!? Gələcək o oğullar, gələcək! Görərlər!.."

Və 2013-2016-da yazdığım "Yenə iki od arasında" romanından son cümlələr: "Mən ustadın (Yusif Vəzir Çəmənzəminlinin) başının üstündə dayanıb Vətən tərəfə baxırdım... Və sis-dumanın, qaranlığın arasından zəif Günəş şəfəqləri süzülür, ara-sıra atəş səsləri eşidilirdi. Deyəsən, bir də qələbə hayqırtıları vardı.

Haydı, dostlar!!!

Ruhun şad olsun, ustad!!!

Vətənə doğru, millət!!!"

Arzularımız çin oldu, Vətən! Biz yurdumuzdayıq! Biz Qarabağdayıq!!!

***Yanvar, 2021, Bakı***

https://kitabxana.net/files/books/file/1635532182.pdf



***Ramiz RÖVŞƏN***
*Xalq şairi*

## QAPISIZ AÇARLAR

Qubadlı mənim ata-baba yurdumdu.

Mən özüm Əmircanda doğulmuşam. Amma bizim Əmircanda yaşadığımız məhəllə də elə Qubadlının "filialı" kimi bir yer idi: "Qarabağlılar məhəlləsi".

Sağımız-solumuz hamısı qubadlılılar idi.

Məhəlləmizdən üzüaşağı düşəndə gedib birbaşa Şorgölün qırağına çıxırdıq.

Qubadlıda, bizim Teymur Müskanlı kəndinin də aşağısından Bərgüşad çayı axırdı.

Hələ lap uşaqlıqdan, ağlım kəsəndən biz Qubadlıya həmişə yayda gedərdik. Odur ki, ən çox yadımda qalan da Qubadlının çaylarıdı; Bərgüşad, Həkəri. Hər ikisi şırıltıyla, gurultuyla axan, heç vaxt suyu azalmayan dəli-dolu dağ çaylarıydı.

Mən üzməyi Bərgüşadda öyrənmişdim deyən Şorda üzmək mənim üçün heç nə idi. Bərgüşadda ən özündən deyən üzgüçü bu tayda suya baş vurardısa, üzə-üzə gedib ən azı əlli metr aşağıda o taya çıxardı. Çünki axına qarşı üzmək çox çətiniydi. Amma Şorda, suyun üzündə dalıqatlı uzanıb, əlində kitab oxuya-oxuya sabahkı dərslərə hazırlaşmaq da mümkün idi.

Qubadlıya əsasən "Bakı-Noraşen" qatarıyla gedərdik. Və sübh tezdən qatardan düşdüyümüz o balaca stansiyanın özü də həmin o iki çaydan birinin adını daşıyırdı: Həkəri stansiyası.

O stansiyayla bağlı anamın danışdığı bir əhvalat hələ də yadımdadı.

3-4 yaşım varmış. Dayım bizi aparırmış rayona.

Anam deyirdi ki, sübh tezdən stansiyada düşdük. Bir xeyli gözlədik, avtobus gəlib çıxmadı. Gün də döyür başımıza. Bir ağacın altında oturduq ki, bir tikə çörək yeyək. Stansiya növbətçisi də bir qoca kişiydi. Çağırdıq, o da gəldi, oturdu böyrümüzdə. Nəyimiz vardı, bir az yedik, sonra ağzımız qızışdı söhbətə. Bir də gördük, bu qocanın sifəti qorxudan ağappaq ağardı. Bizə də barmağıyla işarə elədi ki, susun, tərpənməyin!

Bizdən aralıda bir iri kötüyə bir yekə it bağlanmışdı. Bu, qocanın öz itiydi. Bizim başımız söhbətə qarışanda, sən gözdən yayınıb, gedib durmuşdun o itin böyründə, itin başını tumarlayırdın. O boyda əzazil it də necə çaşıb özünü itirmişdisə, elə yerindəcə quruyub qalmışdı, gözlərini döyə-döyə gah sənə baxırdı, gah bizə. Dayın da, mən də, elə istədik çığırıb yerimizdən qalxaq, kişi yenə işarə elədi ki, susun, tərpənməyin, yoxsa uşağı parçalayar. Biz də elə o cür quruyub qaldıq yerimizdə. Sən də bir xeylək o itin başını tumarladın, sonra da o itdən aralanıb yavaş-yavaş gəldin bizim yanımıza. İt də elə o cür mat-məəttəl sənin dalınca baxa-baxa qaldı.

Anamın ən azı altmış il əvvəl danışdığı bu əhvalatın mənasını mən bir çox illər sonra anladım; sən demə, ən əzazil, ən zalım məxluqu da nəvazişlə, tumarla, sığalla yumşaltmaq, ən azı çaşdırmaq mümkün imiş.

Amma təəssüf ki, bu dünyada heç bir nəvazişlə, yaxşılıqla, xeyirxahlıqla xisləti dəyişməyən məxluqlar da vardı; özü də Həkəri stansiyasından, Qubadlıdan o qədər də uzaqda deyildilər, elə qulağımızın dibindəydilər. Və bizim bir çox sonrakı faciələrimizin səbəbi bunu bilməməyimiz, üstəlik, bildiklərimizi də unutmağımız idi...

Biz Qubadlıya həmişə yayda getsək də, amma yay aylarını çox vaxt kəndimizdə yox, yaylaqlarda keçirərdik; Tağyurdda, Üçtəpədə, Qanlıcada...

Yüz illər boyu bizim olan o qədim yaylaqlarımız sovet vaxtı Ermənistanın ərazisində qalmışdı və ermənilər də, cürbəcür bəhanələrlə, ildən-ilə bir-bir o yaylaqların yolunu üzümüzə bağlayırdılar.

Getdiyimiz o yaylaqlardan ən çox yadımda qalanı Qanlıcadı. Çünki o vaxt mən yekə oğlanıydım. Hər yay Qanlıcaya gedəndə, böyüklü, uşaqlı, maşınlı, atlı, ulaqlı, yüklənib kənddən çıxardıq, çayqırağı gedib Gorusun, köhnə Gorusun, Burunkəndin yanından ötərdik və dağın lap ayağındakı Qanlı gölün də böyründən keçib asta-asta Qanlıcanın başına qalxardıq.

Qanlıcanın da, o Qanlı gölün də adı hələ on doqquzuncu əsrin əvvəllərində ermənilər bizim torpaqlara köçürüləndə yerli camaatla gəlmələrin arasındakı dava-dalaşdan, hansısa qanlı savaşdan qalmışdı.

Əslində, o ətrafdakı bütün adlar bizimkiydi; Xəlil bulağı, Sarıdağ, Keçəldağ, Əyriqar... Qanlıcaya qalxanda, yuxarıda, dağın döşündə də bir iri göl vardı; Qaragöl.

Biz alaçıqları elə o dağın döşündə qurardıq.

Oralar çox hündür idi deyən ağac-zad bitmirdi. Qışdan yaya qalan qar da əriməK bilmirdi; xarlanırdı, qurdlanırdı. Bir tərəfdə qar ağarırdı, o biri tərəfdə də ağappaq göbələklər bitirdi. O göbələklər çox dadlıydı, amma Qanlıcanın xarlanmış qarı məndən ötrü daha qiymətli və əziz idi. Çünki o qar bir dəfə məni ölümdən xilas eləmişdi.

Hələ dörd-beş yaşım olanda, kənddə, yayın cırhacırında məni çayda çimizdirmişdilər, naxoşlamışdım, qızdırmam qırxı ötmüşdü, nə dərman, nə keçi piyi, heç nə kömək eləməmişdi. Və əgər dayım atı çapıb gecəynən gedib Qanlıcadan iki xurcun dolusu o xarlanmış qardan gətirməsəydi, bütün gecəni məni o qarla ovuşdurub istiliyimi salmasaydılar, bəlkə də, sabaha sağ çıxmazdım.

Qanlıcada ən məşhur yer Nəbi səngəriydi.

Qanlıcanın ən hündür nöqtəsində, sıldırım qayaların əhatəsində olan səngərə tək bircə yol qalxırdı. Və mən başı üstündə çox vaxt qartallar uçub dövrə vuran o səngərə qalxmağı, ordan dörd tərəfə tamaşa eləməyi çox sevirdim. O səngərdən baxanda lap aşağıda qar kimi ağappaq evləri olan çox gözəl bir kənd görükürdü.

Bir dəfə dayımdan soruşdum:

- O nə kənddi?

Dedi ki, Şəkidi. Sisian rayonunun Şəki kəndi.

Mən o vaxt hələ özüm görməsəm də, amma Azərbaycanda bir gözəl Şəki şəhərinin olduğunu bilirdim. Sən demə, Ermənistanda da bir gözəl Şəki kəndi var imiş.

Və səksəninci illərin sonunda, hələ SSRİ vaxtı, ermənilər Qarabağa yiyə çıxmaq istəyəndə, böyüyüb azı otuz illik müharibəyə dönən o qanlı hadisələr təzə başlayanda öz yerindən-yurdundan ilk qaçqın düşənlərdən biri də elə Sisian rayonunun və o gözəl Şəki kəndinin camaatı oldu...

Qubadlı camaatı öz torpağından bir neçə il sonra, 1993-cü il avqust ayının 31-də qaçqın düşdü.

Dayım deyirdi, hər şey elə qəfil oldu ki, evdən heç nə götürə bilmədik. Evi elə o cür dolu qoyub, qapıları bağlayıb, açarları götürüb çıxdıq.

Qaçqın düşən qohumların az qala hamısı eyni sözü deyirdi.

Bir neçə ildən sonra cavanlardan biri danışırdı ki, gördüm anam nəvəsinin üstünə qışqırır. Oğlum da ağlayır. Dedim, ay ana, uşağı niyə ağladırsan? Dedi ki, bəs açarları itirib. Soruşdum, hansı açarları? Dedi, Qubadlıdakı evin açarlarını.

Bu açar söhbətini mən azı on beş il bundan əvvəl bir televiziya çıxışımda dedim. Sonra məlum oldu ki, başqa işğal olunan rayonlardan da camaatın çoxu elə o cür, qapıları bağlayıb, açarları götürüb çıxıb.

Keçən il, avqust ayının 31-də, Qubadlının işğal gününə həsr olunan bir televiziya verilişində mən yenə o açar söhbətinə qayıtdım və çox nikbincəsinə dedim ki, o açarlar nə qədər ki bizdədi, o torpaqlara qayıtmaq ümidimiz qalır və mən inanıram ki, biz o torpaqları görəcəyik.

Amma sözün düzü, dediyim o ümidin, arzunun belə tez çin olacağını gözləmirdim. Azərbaycan əsgəri bizim ümidlərimizdən, arzularımızdan daha sürətli çıxdı.

İndi o torpaqlara qayıtmışıq. Açarlar da bizdədi. Amma qapılar yoxdu. Bir vaxt qapılarını bağlayıb, açarlarını götürüb, içidolu qoyub çıxdığımız o evlər də yoxdu. Ermənilər uçurdub-dağıdıblar, yandırıblar, xarabalığa çeviriblər.

Az-çox salamat qalan evləri də, o evlərdə yaşayan ermənilər indi qorxub qaçanda yandırdılar. Nəyi apara bildilərsə apardılar, apara bilmədiklərini də, evqarışıq, od vurub külə döndərdilər. Təkcə ev əşyalarını yox, ev heyvanlarını da, mal-qaranı, toyuq-cücəni, hətta iti, pişiyi də qırıb məhv elədilər. Neçə illər bundan əvvəl bu kəndlərə necə zalımcasına, rəhmsiz, dağıdıcı bir nifrətlə girmişdilərsə, elə o cür dağıda- dağıda da çıxıb getdilər. Və bu mənzərəni təkcə biz yox, bütün dünya gördü.

Qəribədi, bəs, görəsən, neçə illər bundan əvvəl bizimkilər bu yerlərdən qaçqın düşəndə niyə bu evlərin bir daşına-kərpicinə də əl vurmadılar, elə o cür içidolu qoyub, qapıları bağlayıb çıxdılar? Elə bil düşmənə hədiyyə elədilər. Niyə?!

Doğrusu, bu sualı mən təkcə indi yox, qələbəmizdən xeyli əvvəl də, illər uzunu, ara-sıra eşitmişəm. Amma əvvəllər təəssüflə deyilən bu sual, indi, erməni-lə-

rin törətdiklərini görəndən sonra elə bil özümüzə qarşı bir az ittiham kimi səslənir. Və özümüzə bəraət olaraq verilən cavab da təxminən budu ki, biz o vaxt o evləri qoyub çıxanda bu ayrılığın bu qədər uzun çəkəcəyini bilmirdik. Ümidimiz vardı ki, uzağı bir-iki həftəyə, ya biriki aya qayıdacağıq.

Amma sözün düzü, bu cavab mənə həmişə məntiqsiz görünüb. Öz evini çox yox, lap bircə günlüyə düşmənin ixtiyarına buraxıb gedən adam qayıdanda o evi nə vəziyyətdə görməyə ümid eləyə bilər ki?!.

Əslində, bu ritorik suallara da, məncə, ehtiyac yoxdu. Hər şey çox sadədi. Məsələ hər xalqın öz xarakterində, xasiyyətində, xislətindədi. Öz evini, üstündə körpələrinin iməkləyib ayaq açdığı xalçanı, palazı, üstündə balalarının yatdığı çarpayını, daha nəyi, nəyi, düşmənə qismət olmasın deyə yandırmağa hansı azərbaycanlının əli gələr ki? Axı öz evinin irili- xırdalı hər əşyası ona öz ailə üzvləri kimi doğma və əzizdi.

Odur ki, bir vaxt dolu qoyub çıxdığımız, düşmənin soyub, talayıb, sonra da od vurub yandırdığı o doğma evlərin xarabalıqlarına baxanda, indi nəyəsə peşman olmağa, çox da kədərlənib qüssələnməyə ehtiyac yoxdu. O xarabalıqların yerində təzə, daha gözəl evlər tikmək, o köhnə evlərin illər boyu göz bəbəyi kimi qoruyub saxladığımız, indi qapısız qalan açarlarını da, o təzə evlərin ən görüntülü yerində, gözmuncuğu kimi divardan asmaq lazımdı. Qoy təzə evlərimizə göz dəyməsin!..

Mənbə: https://kitabxana.net/files/books/file/1635532182.pdf





***Şirindil ALIŞANLI***

*Alışanov Şirindil Həsən oğlu (28 oktyabr 1952, Əhmədli, Laçın rayonu – 14 mart 2024)*

## SU SƏLTƏNƏTİ LAÇIN

Ömür bir parça yaddaşdır. İllər keçir və bu yaddaşın müqabilində ömrün əxlaqi-mənəvi tutumu göz önünə gəlir, bir göz qırpımında keçən zaman hər şeyi öz yerinə qoyur. Vay o gündən ki, qan yaddaşı, nəsil- nəcabət yaddaşı, uşaqlıq və gənclik yaddaşı öz məhvərindən ayrı düşə, nisgilli bir xatirəyə çevrilə. Doğulduğum, uşaqlıq təsəvvürümün, dünya- duyumumun formalaşdığı, Zəngəzurun heç hara bənzəməyən şəfalı guşələrindən - Laçın dağlarından perik düşmüş insanlarla hər görüşüm nisgilli, ağrılı-acılı bir sonluqla bitirdi. Sözümüz-söhbətimiz o dağların ulularımıza təlqin etdiyi əxlaqi dəyərlərdən başlayır, 25-30 yaşına çatmış övladlarımızın öz ulularından qırılan yaddaş telləri bizi tarıma çəkir, bizi dəhşətli bir qorxu hissi bürüyürdü. Axı nəsil yaddaşı qırılır, böyük bir elin- obanın öz duyumu, öz həyat vərdişləri acı zaman kəsiyində yoxa çıxırdı.

Həmyaşıd ellilərimə söz düşəndə deyirəm: siz Laçınsız bir dəfə yetim qalmısınız. Mən isə Laçının xoşbəxt günlərində - 1960-cı ildən Bakıya oxumağa gətirildiyim gündən bu həsrəti - Laçın həsrətini çəkmişəm. Doğulduğum Əhmədli kəndi İşıqlı dağ silsiləsinin ətəyində idi. Ordan yuxarı Çalbayırın, İşıqlının, Əlyetməzin yaylaqları başlayırdı. Mənə elə gəlirdi ki, dünya bu kənddən başlayır, bu kənddə də qurtarır. Hər dərs ilini gün-gün, ay-ay sayırdım. Gözümü açandan bu yolların hər döngəsini, enişini-yoxuşunu yaddaşıma köçürmüşdüm. Vətənimizin bu başından o başına gedən yollar məni axşam qəribliyi çökmüş, toran vaxtı kəndimizə çatdırırdı. Üç ay Turşsunun, Aqibətixeyir dərəsinin, İşıqlının qanıma, ruhuma hopmuş çəni, çiskini, bəyaz gecələri ilə baş-başa qalır, qohum-qardaşın bəxtəvər günləri ilə öyünürdüm. Sentyabrın birinə az qalmış dünya başıma daralırdı. Dağlardan, eldən-obadan ayrılıq anı çatanda xəlvət yerə çəkilib xısın-xısın ağlardım. Bakının 21, 19 və 111 nömrəli məktəblərində oxuduğum illərdə izlədiyim qəzet və jurnallarda Laçınla bağlı bir parça yazı görəndə ürəyim yerindən çıxırdı. Sinif yoldaşlarımın çoxu mənim bu “qəribliyimə” şərik olurdular, yeni dərs ilinə bircə gün geciksəm, mənzilimizin kandarından əl çəkməzdilər, Laçında yubanmağımdan nigarançılıq keçirərdilər. 1974-cü ildə Laçın şəhərinin 50 illiyi qeyd olunurdu. Televiziyada 2 dəqiqəlik bir informasiyaya baxıb fərəhlənirdik. Laçının - dağ qartalının gözəlliyinə qəribə bir biganəlik vardı, mənim Laçın haqqında təəssüratlarıma ağız büzənlər də olurdu. Həmişə arzulayırdım ki, imkan yaranaydı Laçını istəyimcə tanıdaydım, sevdirəydim. Tale elə gətirdi ki, 1991-ci ildə AMEA-nın nəzdində, akademik Eldar Salayevin təşəbbüsü

ilə “Akadem- Studiya” yaradıldı. Məni baş redaktor təyin etdilər. “Azərbaycan mühacirət ədəbiyyatı” simpoziumunu lentə aldıq, indi həyatda olmayan onlarca mühacirimizin canlı çıxışlarını çəkdik, sənədli film kimi hazırladıq. Laçın haqqında sənədli film çəkmək qərarına gəldik. Rayonun ovaxtkı rəhbəri Xanlar müəllim maliyyə məsələlərini həll etdi, bizi Laçına aparmaq üçün maşın göndərdi. 1991-ci il iyulun əvvəllərində Laçına yola düşdük.

Qarabağ hadisələri başlayandan sonra Laçın yuxarıların da, aşağıların da yadına düşdü. Laçının səksəkəli, lakin bəxtəvər günləri idi. El-obamız özünə yaxşı güzəran düzəltmişdi. 1991-ci ildə Laçın-Şuşa yolu bağlı idi. Laçına Zəngilan-Qubadlı yolu ilə gedirdik. Qardaşım, bu ellərin əziz tutduğu şair Hüseyn Kürdoğlu yol boyu bizə böyükcəlik edir, qarış-qarış gəzdiyi bu yerlərin hər qayasına, daşına, bulağına yazdığı şeirləri ilə səfərimizə romantik bir çalar aşılayırdı. Qubadlının Xanlıq kəndində su içmək üçün kəndin ortalığındakı bulağın yaxınlığında dayandıq. Camaat Hüseyni tanıdı, hal-əhval tutdular. Bilirdim ki, Hüseyn 10-cu sinfi Xanlıqda bitirib, vinetkasın da görmüşdüm. Aşağı Molla kəndində atamın dostu Nemət kişigildə yaşayır, hər gün Xanlığa dərsə gəlirmiş.

Biz Laçın ərazisinə, Güləbird kəndinə çatanda toran çalmışdı. Məsləhət oldu ki, bu kənddə gecələyək, Sarı Aşığın qəbrini ziyarət edək, lentə alaq. Mənim Güləbirdə ikinci gəlişim idi. Bundan iki il öncə Sarı Aşığa ucaldılmış abidənin açılışına gəlmişdim. Yadımdadır, 1989-cu ilin sentyabr ayı idi. Respublikamızın sayılıb-seçilən ziyalılarının böyük bir qrupu ilə Sarı Aşığın abidəsinin açılışına gəlmişdik. Həmin vaxt da Şuşa-Laçın yolu təhlükəli olduğu üçün Qubadlı yolu ilə getdik. Sevincim, fərəhim yerə-göyə sığmırdı. Ağsaqqal folklorşünas Mirəli Seyidov, Xəlil Rza, Akif Hüseynov, Muxtar İmanov, Vladimir Qafarov və digər həmkarlarım, laçınlı ziyalılar Hüseyn Kürdoğlu, Malik Fərrux Laçın camaatının əziz qonaqları idilər. Sarı Aşığın abidəsinin ucaldılması, “Bayatı” muzeyinin yaradılması, ustad sənətkarın sevgilisi Yaxşının məzarının abadlaşdırılmasında mərhum Səbahəddin Rüstəmin böyük əməyi olmuşdu. Filmin çəkilişinə Güləbirddən başladıq. Yamyaşıl bağlara bürünmüş qədim Güləbird kəndinin qoynundakı məzarıstan XVII əsr ədəbiyyatımızın böyük klassiki, ozanlar ozanı, dədələr dədəsi Sarı Aşığın və sevgilisi Yax- şının adıyla şöhrətlənib el ziyarətgahına çevrilmişdi. Zaman-zaman bu ocağa ziyarətə gələnlər Haqq Aşığının ölməz ruhuna, sazın-sözün ülviyyətinə tapınmışdı. Həkəri gecə-gündüz Sarı Aşığın və Yaxşının nisgilli taleyinə sanki bayatı oxuyurdu.

*Bilmirəm yanıram niyə mən axır,*
*Nə Yaxşı qalıbdır, nə Yaman axır.*
*Aşıq bu taydadır, Yaxşı o tayda,*
*Ortadan Həkəri nə yaman axır. (Hüseyn Kürdoğlu)*

Şeirimizin bayatı möcüzəsini yaradan Sarı Aşığın sinə daşındakı saz sanki dilə gəlib od saçır, aşığın nisgilli ruhu Laçın dağlarının başına dolanıb ot basmış yollar üstə qonurdu. Sarı Aşıq poeziyası bu ellərin nəsil-nəcabət, qan yaddaşını yüksək poetik biçimdə bu günlərə yetirmişdir. Sarı Aşığın misilsiz sənət nümunələri olan bayatılarında ulu diyarımızın bədii coğrafiyası yaddaşlara

möhürlənib. Bu torpaqlara göz dikənlər Sarı Aşığın vəsf etdiyi Həkəri, Çəyən, Yazı, Bərgüşad, Səfyan, Əlyan, Maralyan, Məndil, Qızılcıq kimi onlarla oğuz məskənlərini inkar edə bilməzlər. Çünki bunların tarixi böyük sənət yaddaşıdır.

*Mən Aşıq ağ zindəyəm,*
*Aləmin ağzındayam.*
*Yurdum Qaradağlıdır,*
*Məzmərək ağzındayam.*

*Ha Sarıyam, hasarı,*
*Təbib, yaram ha sarı.*
*Aşıq dərddən ev tikmiş,*
*Qəmdən çəkmiş hasarı.*

Bu gün viranəyə bənzəyən Güləbird ellərinə Sarı Aşığın bayatı laylası ilə böyüyən mərd oğullar qayıdıb. Hələ 1993-cü ildə Sarı Aşığın "Seçmə bayatılar" kitabını Hüseynin tərtibi və dəyərli ön sözü ilə kiril və latın qrafikası ilə "Sabah" nəşriyyatı xətti ilə beş min nüsxə nəşr etdim. İndi də bu sənət incilərini oxuduqca dünyaya göstərməli olduğumuz klassik sərvətimizə çox borcluyuq.

*Zülfün südü mar kimi,*
*Oynar su damar kimi.*
*Sızıldatdın Aşığı*
*Yağa su damar kimi.*

Bu sənət möcüzəsinin müəllifi, Haqq aşığı - Sarı Aşığın qəbirüstü abidəsinin bərpasını görəcəyimiz günü səbirsizliklə gözləyirik. Bir həftəyə yaxın Laçını kənd-kənd, oba-oba gəzib lentə aldıq. O vaxt film üçün yazdığım ssenarini bir də oxudum. Laçının işğalından keçən 29 illik sarsıntıların sonu çatdı. 29 ildir əldən-ələ gəzən, illər ötdükcə saralıb- solan lentlərdən üzümüzə boylanır Laçın! Ağır ellərini, didərgin oğul- qızlarını, qərib düşən karvanını gözləyir talan olan, viran qalan dərdli-nisgilli Laçın! Şuşa kimi, Kəlbəcər kimi, Ağdam kimi... Şükür sənə, İlahi, bu əzablara tab gətirdik. Laçının yaddaşımıza həkk olunan obrazını təbiət, tarix özü yaradıb. Dəlidağ, İşıqlı, Qırxqız dağ silsilələri Vətənimizin bu nadir guşəsinin sərhədlərini cızmışdı. İşıqlıdan, Çalbayırdan göz işlədikcə uzanan yaylaların bir ucu Qaradağa qədər gedib çatırdı. Həkəri buradan baş alıb Araza qovuşurdu. Qarabağla mənfur qonşularımız arasında mərdlik qalasıdı Laçın! Tarixən torpağımıza, elimizə, obamıza göz dikənlər buranı "Qarabağın qara qapısı" adlandırırdılar. Onlara "qara qapı", Azərbaycana mərdlik, əzəmət ünvanıdır Laçın dağları. Onun 126 kəndindən, ağ qartala bənzər şəhərindən perik düşmüş 80 minlik əhalisinin ümid dolu gözləri bu dağlardadır.

*Dizim altda qart yağılar eşənəm,*
*Fərhad kimi qaya bağrı deşənəm.*
*Gec gəlmişəm, anam Laçın, əfv elə,*
*Gəlmişəm ki, ayağına döşənəm. Hüseyn Kürdoğlu*

Azərbaycanın qədim Zəngəzur mahalının Laçın dağları öz məğrur, vüqarlı dağ yaddaşında Babəkin, Qaçaq Nəbinin, Həcərin qəhrəmanlıq ənənələrini ya-

şadırdı. Tarix boyu laçınlıların əxlaq meyarına, qan yaddaşına çevrilmişdi, ərənlərin ruhunda, qəlbində yuva qurmuşdu bu ənənə. Babalardan yadigar dağları Laçın elləri, onun əyilməz, sınmaz oğulları mərdliklə qoruyurdular. 1918-ci ildə Naxçıvanı, Zəngəzuru qana bələmiş Andronikin 30 minlik ordusunun böyük hissəsi burda - Zabux dərəsində məhv edildi. Bu torpağın Xosrov bəy, Sultan bəy, Firudin bəy kimi oğulları Andronikin Qarabağa yolunda sipər oldular. Pərən-pərən düşmüş yaraqlıları ilə buradan qaçar oldu tayqulaq Andronik.

Mənim ata yurdum Molla Əhmədli, anamın kəndi Quşçu hələ 1905-ci ildən dəfələrlə erməni xəyanətinin qurbanına çevrilmişdir. Ancaq düşmən qarşısında mərdi-mərdanə dayanmış, bu yurdun oğulları öz ata-baba ocaqlarını göz bəbəyi kimi qorumuşlar. Ana babam Molla Mustafa Baxşəli oğlu Mir Möhsün Nəvvabın tələbəsi olmuş, sonralar dostluq etmişlər. M.Nəvvabın “1905-1906-cı illər erməni-müsəlman davası” kitabında bu kəndlərdə ermənilərin törətdikləri vəhşiliklərlə yanaşı, babalarımızın qürur doğuran şücaətindən də geniş bəhs olunmuşdur. M.M.Nəvvab yazırdı: “Molla Əhmədli kəndinə xəbər gəldi ki, ermənilər toplaşaraq Quşçu müsəlman kəndinə hücum edərək oranı mühasirəyə alıblar. Molla Əhmədli cavanları dərhal atlanaraq Quşçu kəndinə tərəf çapdılar. Onlar kəndə yaxınlaşarkən gördülər ki, ermənilər Quşçunu mühasirəyə alıblar. Kənddə döyüşçülər az olduğuna görə az qalmışdı ki, ermənilər qələbə çalsınlar. Elə bu zaman Molla Əhmədli kəndindən gələn atlılar erməniləri arxadan mühasirə edərək “Ya Əli” nərəsi çəkib hər tərəfdən onların üstünə güllə yağdırmağa başladılar. Quşçu kəndinin döyüşçüləri “Ya Əli” nərəsi çəkib erməniləri araya aldılar. Ermənilər vəziyyəti belə görüb onların arasında çaşqınlıq düşdü. Beləliklə də, onlar yavaş-yavaş qaçmağa başladılar”. Bu tarixi mənbədə Zəngəzurdakı, o cümlədən indiki Laçın ərazisində baş vermiş erməni-müsəlman davası ilə bağlı faktlar içərisində mənim diqqətimi çəkən bu toqquşmalarda Çar Rusiyasını təmsil edən səlahiyyətlilərin, silah-sursat sahiblərinin tərəfkeşliyi, ikiüzlülüyünü göstərən, mahiyyətcə, zaman etibarı ilə dəyişməyən məqamlardır.

1918-ci ildə Novruz bayramı günü Andronikin qoşunları bizim kəndimizi - Molla Əhmədlini mühasirəyə almışlar. Qanlı döyüşlər zamanı bu kəndin, mənim bildiyimə görə, 36 igidi şəhid oldu. Lakin Andronikin qoşunları geri oturduldu, Sarıbabadan Qarabağa keçmək niyyəti baş tutmadı.

Həmin döyüşlərin canlı şahidlərini çox dinləmişdim. Atam Həsən Alışan oğlu da bu döyüşlərin iştirakçısı olmuşdu. Atamın əmisi, dövrünün tanınmış aşığı Aşıq Məşədi Dadaşın evinin divarında Andronikin top mərmisindən qalan çatlar kəndin işğalına qədər qalırdı. Ermənilər on il qabaq məktəbi və Aşıq Dadaşın evini sökdülər. Ərazini genişləndirib müasir məktəb tikdilər. Təntənəli açılış etdilər. Bunları izləyərkən bu sətirlərin müəllifinin nələr çəkdiyini bir Allah bilir, bir də özü. Müzəffər Ordumuz Laçını boşaltmaq üçün verdiyi vaxt ərzində mənim doğma kəndim yeni vəhşiliyin qurbanı oldu. Məktəb, xəstəxana, salamat evlər dağıdıldı, yandırıldı. Bizim qəhrəman əsgərlərimiz müvəqqəti yaşamaq üçün təsadüfən yararlı vəziyyətdə qalmış əmimin evində yaşayırlar. Bəlkə, inan-

mazlar ki, bundan da təskinlik tapdım. Laçının, burada yaşayan Vətən oğullarının el-oba içərisində öz obrazı vardı. Laçın başdan-başa təbiət abidələri idi. Adamlar və təbiət elə uyuşmuşdu, elə qovuşmuşdu ki, elə bil hər ikisi yalçın bir qayanın iki parçası idi. Xalqımızın adlı-sanlı söz sahibləri Süleyman Rəhimov, Əli Vəliyev, Əlfi Qasımov, Qulu Xəlilov, Hüseyn Kürdoğlu, Ağa Laçınlı, Malik Fərrux bu dağlardan bizə əbədi söz yadigarı qoyublar. Bu dağların bənzərsiz obrazını yaradıblar. Bu dağlarda təbiət abidələri ilə qədim və möhtəşəm mədəniyyət abidələri bir-birini tamamlayırdı. Düşmən tapdağında qalan gündən dağlardakı qədim alban abidələri erməniləşdirildi, məscidlər, kurqanlar, qədim qəbiristanlıqlar yerlə-yeksan edildi. Hələ 1991-ci ildə lentə alınmış məşhur Ağoğlan abidəsinin divarlarında cızılmış saysız-hesabsız erməni xaçları bədnam qonşularımızın murdar xislətindən, bəd niyyətindən xəbər verirdi. Qədim alban gerbi ilə yanaşı, bu xaçların hara gəldi döyülməsi vandalizmdən başqa bir şey deyildi.

Bədnam qonşularımız elə həyasızlaşıblar ki, Laçın şəhərinin axarlı- baxarlı yerində Qriqoryan kilsəsi tikiblər. Halbuki işğala qədər bütün Laçın rayonu ərazisində cəmi iki erməni ailəsi yaşayırdı və 1924-cü ildə əsası qoyulmuş bu şəhərdə “qədim” erməni kilsəsini kim tikmişdir? Cicimli, Güləbird, Soltanlar və Zeyvə kəndlərində erməni vəhşiləri tərəfindən dağıdılan nadir tarixi abidələr bu torpaqlarda min illər boyu yaşayan xalqımızın bizə ərməğan qoyduğu nişanələr idi. Sovet hakimiyyəti illərində qədim Azərbaycan torpağı olan Zəngəzurun böyük bir hissəsi Ermənistana peşkəş edildi. Yerdə qalan hissədə qəza mərkəzi kimi Laçın şəhəri salındı. 1924-cü ildə əsası qoyulmuş Laçın şəhəri bu obanın güvənc, qürur yeri, Şuşaya qardaş, arxa idi. Əsl dağ şəhəri idi Laçın. Hər daşı, hər ağacı onun sakinlərinə əziz idi. Ətraf kəndləri, obaları başına yığmışdı Laçın şəhəri. Hamı bir-birini yaxşı tanıyırdı. Böyüyün böyük yeri vardı, kiçiyin kiçik. Xeyiri də bir idi, dar günü də. Vüqarlı bir dağ vardı bu şəhərin başı üstündə. Ulu babalarımız Laçın adı vermişdilər o dağa. Laçın dağı da yazıçı Tağı Şahbazi Simurğun diliylə öz adını verdi doğma övladına. Şəhərin salınmasına cavabdeh olan dövlət komissiyasının sədri Tağı Şahbazinin qərarı müdrik və ədalətli olub: babalarımız bu dağa Laçın deyiblərsə, şəhəri də Laçın adlandıraq. Çox son- ralar məlum oldu ki, Laçın qədim bir şəhərin yerində salınıbmış. Təəssüf ki, bu şəhərin adı və taleyi tarixin qaranlıq səhifələrində qalıb. Laçın dağlarında hər daşın, hər qayanın, hər bulağın adı, onlarla bağlı əfsanə və rəvayətlər tariximizin və folklorumuzun ulu keçmişindən xəbər verir. Əsli bulağı, Kərəm gədiyi, Məcnun bulağı, Sona bulağı, Sarıbaba, Əlyetməzli, İşıqlı, Qızılboğaz, Canqurtaran, Qırxqız dağları haqqında nə qədər əfsanələr yaranmışdı. Misli-bərabəri yox idi Laçın təbiətinin. Nəhəng çiçək dənizini xatırladır alp çəmənlikləri. Yüzlərlə mineral bulaqlardan baş alıb gedən Ağoğlançay, Hoçaz çayı Laçına gecə-gündüz layla çalır. Nadir ağac növləri ilə zəngin meşələr bir təbiət muzeyinə bənzəyir. Tarix-diyarşünaslıq muzeyi Zəngəzur mahalından bizə yadigar qalmış Laçının canlı salnaməsi idi. Qədim tariximizi əks etdirən onlarca eksponat işğal günlərində yanıb külə döndü. Bu diyarın yetirdiyi böyük tarixi şəxsiyyətlərin ömür yolunu

əks etdirən sənədlər məhv edildi. Qədim tariximizin izlərini bu torpağın üstündən silməyə cəhd edənlər bir həqiqəti unudurlar. Azərbaycan Xalq Cümhuriyyətinin nazirləri olmuş Xosrov bəy Sultanov və Nuru Şahsuvarov kimi şəxsiyyətlərin mərd varisləri yurd itkisi ilə barışa bilməzlər. Zəngəzurun ilk dünyəvi təhsil ocağı da bu mahalda, 1890-cı ildə Minkənddə yaranmışdı. Minkənd məktəbinin rəsmi qeydiyyatına qədər Şahsuvar bəyin tikdirdiyi məktəb 1870-ci ildən fəaliyyət göstərmişdir. Minkənd Azərbaycanın dağıyla aranının qovuşduğu məkan idi. Qarabağın elatı Çalbayıra, Əriməzə çıxırdı. Aranlı-dağlı Qarabağın bu kəndin suyundan içməyəni, naz-nemətini dadmayanı yox idi. Minkənd bu ellərin ünsiyyət ünvanı idi. Laçının gözəlliyinə heyran olan Xalq yazıçısı Anar, Anar müəllim mənim doğma yurduma bənzərsiz ad qoyub: Su səltənəti.

1988-ci ildən Laçın vuruşurdu. Ululların qeyrətinə sığınırdı. Yüzlərcə şəhid vermişdi. Laçının qanlı döyüşlərində həlak olub güllə leysanı altında basdırılan şəhidlərin məzarlarından bizə xatirələr qaldı. Milli qəhrəmanlar Kamil Nəsibovun, Oqtay Güləliyevin, İsrafil Şahverdiyevin, Qorxmaz Eyvazovun, Fazil Mehdiyevin və onlarca, yüzlərcə əbədiyyətə qovuşmuş şəhidlərin didərgin ruhu burada yaşayır. Bu dağların təbiəti adamların xarakteri ilə uyuşurdu. Sərtlik də vardı, nəciblik də! Elinə, obasına gün ağlamaq, əl tutmaq həyat vərdişi idi. Su çəkdirmək, yol salmaq, körpü tikdirmək ənənəsi yaranmışdı. Seyid Əmir körpüsü, Süleyman bulağı, Fətiş bulağı, Kor Teymur bulağı təbiət abidəsi deyildi. Təbiət abidəsi qədər mərd kişilərin xeyirxah əməllərinin bəhrəsi idi. Laçında hər daşın, hər qayanın öz rəngi, öz duruşu vardı. Aran Qarabağ obalarının qədim yaylaq yeriydi Laçın dağları. Yamaclarında ətəyi bükülməz ağlı-qaralı ağır sürülər otlayır, qızıl-qonur naxırların sayı bilinməzdi. Qayaların bağrından pıqqıldayıb çıxan, hərəsi bir dad verən yüzlərlə şəfa qaynağının adı dillərə düşüb mahal-mahal gəzirdi. Minkənddən, Əhmədlidən, Aqibətixeyir dərəsindən axan bulaqların, İstisuyun suları Qarabağ ellərinin şəfa tapdığı bir məkan idi. Öz halal tikəsini dostla, qonaqla yarı bölən, yurdundan-yuvasından perik düşmüş Laçın camaatı Mil düzünə, ümid yerimiz Bakıya, onlarca kənd və şəhərimizə pənah gətiriblər. Xoş sifət də görüblər, naşı sözü də. Qaçqın sözünün ağrısına, əzabına dözüblər. Üzü Laçına yatır, bu həsrətlə qovrulurdular. Vüsal gününə, zəfər gününə inanır, bu inamla yaşayırdılar.

*Əzab görməmişdim hələ bunca mən,*
*Ayıldım Tanrıdan mehr umunca mən.*
*Qeyri daş qoymayın məzarım üstə*
*Laçın alınmasa göz yumunca mən.(Hüseyn Kürdoğlu)*

Yüzlərlə laçınlı, o cümlədən ən yaxın adamlarım, doğma qardaşlarım, əmim oğlanları cavan yaşlarında el-oba həsrətinə dözməyib dünyalarını dəyişdilər. İndi onların ruhu şaddır. Laçın torpağında Azərbaycan əsgəri, zabiti 126 kəndi bir-bir gəzir, çəkdiklərini hamımızla bölüşürlər. O dağla sərbəst gedəcəyimiz günləri gözləyir, Tanrıdan Laçına qovuşmaq üçün möhlət diləyirik.

**Mənbə:** https://kitabxana.net/files/books/file/1635532182.pdf



*Rəşad MƏCİD*

*Məcidov Rəşad Müseyib oğlu; 21 avqust 1964, Laçın*

## GECİKMİŞ AĞOĞLAN BƏLƏDÇİLİYİM

*Gündüz İsmayılova və Mirmehdi Ağaoğluya*

Ağoğlana - mənim doğulduğum, üç tərəfindən çaylar axan kəndə qədər getmisiniz. Böyük çayı - gah Minkənd, gah Ağoğlan dediyimiz çayı necə keçdiniz? Maşın körpüsü vardımı?

Mən videoyazısını görəndə Ağoğlan çayını şırıltısından tanımışdım. Adamın ruhunu bu qədər oxşayan ayrı çay şırıltısını sonralar çox axtarsam da, heç yerdə eşitmədim.

Ağoğlan məbədinin mistik aurasını hiss etdiniz, yəqin. Uşaqlığımda o məbədin divarlarına, içərisindəki və çölündəki qədim daşların naxışlarına saatlarla tamaşa eləmişəm. O keçmişə, qədimliyə aparan ovqat, bir vaxtlar o daşlardan aldığım enerji hələ də ruhumda, canımdadır.

Kəndə niyə girməmisiniz, bilmirəm...

Ağoğlan məbədindən balaca Hacılar çayı səmtinə düşsəydiniz, oradakı bulağı görəcəkdiniz: kəndin qız-gəlinləri o bulaqdan su gətirərdilər.

### Ağoğlan məbədi

Çayın içindən qabarıb çıxan sal daşlara ayaq qoyub adlasaydınız, Umudun, Əhlimanın çəpərləri arasından daşlı-çınqıllı yola çıxardınız. Bax o yolla kəndə qalxaydınız gərək. Sol tərəf hündür qayaya çıxır. Kənd camaatı ora Yal deyərdi. Orda sal daşların üstündə oturub sola baxanda Qarıqışlaq-Minkənd yolu, aşağı baxanda qıvrıla-qıvrıla axan Ağoğlan çayı, dərin dərələr, Sultanlar, Malıbəy kəndləri görünür. Minkənd-Ağoğlan çayı bir az aşağıda - Gündüzün doğulduğu Zabuxda qıvrılıb Həkəriyə qovuşur, adı da Həkəriyə çevrilir. Dayanıb saatlarla xəyala dalmaq olar o dikdə. Açılan geniş ənginlik adamın içini duruldur, saflaşdırır.

Orada, 1983-cü ildə Familin kənd barədə kədərli monoloqunu hekayəyə çevirmişdim, adı "Cənnət dərəsi" idi. Yala qalxmayıb sağa dönsəydiniz, solda Musa müəllimin, sağda Qaçay müəllimin evini, bağını, həyətini görəcəkdiniz. Görsəydiniz, deyərdiniz, nə qalıb oralardan...

Mirmehdi reportaj hazırlayardı, APA-nın operatoru videogörüntülər çəkərdi. Bir az da düz getsəniz, Aralığa - kəndin düz ortasına çıxardınız. Oradan bir az



sağa burulanda sol həyət Halay babamın, Balaxanım nənəmin eviydi. Mən 1964-ün avqust ayında o evdə doğulmuşam. Sonra hələ qırxı çıxmamış körpəni sentyabrın istisində Ağcabədiyə gətiriblər...

O həyətə girsəydiniz, yəqin, doğulduğum evin uçuq-sökük divarlarını görəcəkdiniz. Həyətdəki yekə tut, gilas, alma ağacları, bəlkə də, qalmamış olmaz. O ağacların kölgəsində yerə xalça-palaz salıb, üstünə mütəkkə, döşək atıb dincələr, oynayardıq. O uca gilas ağaclarına dırmaşmağımız, qollu-budaqlı o tut ağaclarının budaqlarını gücümüz yetdiyincə silkələməyimiz indi də yadımdadır, dolu, gur yağış kimi karxanaya tökülən tutların səsi hələ də qulaqlarımdadır.

Oradan yuxarı qalxsaydınız, Taxtaya çıxardınız - Zakirin dükanı, kəndin klubu, kitabxanası vardı orda. İndi uçuqları qalar, yəqin. Yuxarı kəndlərdən ermənilər atla-ulaqla hərdən un almağa, alış-verişə gələr, Taxtadan "Zaakir, huuy" deyib onu dükana çağırardılar. Yay aylarında kinonu klubda yox, Taxtada, açıq havada göstərərdilər; yük maşınının yan tərəfinə ağ parça salardılar, kinomexanik Nizami hər dəfə lentləri dəyişəndə evdən gətirdikləri stulların, kötüklərin, döşəkçə qoyub daşların üstündə oturan kənd adamları filmi öz baxışlarıyla təhlil edər, növbəti hissələrin proqnozunu verərdilər.

Yay ayları o kitabxananın kitablarını su kimi içərdim.

Məktəbin direktoru, tarixçi Musa müəllimin Ağoğlana gələn ermənilərlə sərt, kəskin söhbətləri yadıma düşür. Davaya çevrilərdi çox vaxt o söhbətlərin axırı. Ağoğlan məbədinə ətraf kəndlərdən bizimkilər də gələr, qurban deyər, şam yandırar, oranı müqəddəs sayardılar. Musa müəllimin ermənilərin Ağoğlan üçün düzəldib gətirdikləri qapını məbədə yaxın buraxmaması, qapını ora qoymağa icazə verməməsi, qədim daşları çıxarıb aparmalarına mane olması ermənilərə bərk yer eləmişdi. Onlar da acıqlarını Ağoğlan camaatının atlarını kəndləri səmtdəki qayadan uçurmaqla çıxmışdılar.

Xırman yerinin böyründən adlayan yol Oqtayla Rəcəbin evləri arasından Yuxarı Kosalar çayına düşüb, qəbiristanlığın yanından dik qalxaraq dağın

başında Ermənistan ərazisinə girərdi. Oradakı qədim türk kəndlərindən - Xənəzək, Bayandur, Xoznavardan keçib Məscid düzündən İşıqlı dağının ətəyinə qalxardıq. İşıqlının zümrüd qaşı kimi qoynunda saxladığı dupduru Qara göl orada idi. Ermənilər bu gölü də mənimsəmişdilər, suyunu çəkib bağlarını suvarır, balığını tutub Gorusdakı mağazalarda satırdılar. Qara gölün Azərbaycan ərazisi olmasıyla bağlı Moskvaya gedib çıxan, "İzvestiya" qəzetində məqalə çap etdirən qarıqışlaqlı kənd müəlliminin - Çingiz Mehrəliyevin fədakarlığından, haqlı mübarizəsindən 1987-ci ildə "Elm və həyat" jurnalında dərc etdirdiyim "Qara göl, yoxsa Sevlic?" adlı yazımda danışmışdım.

İşıqlının o üzündən - Əhmədlidən, Minkənddən də keçib Ağoğlana gəlmək olurdu.

Bilmirəm, siz niyə o kəndə girmədiniz?

Bəlkə, heç kənd yerində yoxuymuş?

Haçansa o yerdə kənd olduğu, bəlkə, heç bilinmirmiş?

Bir yandan, sizi də qınamalı deyil. Getdiyinizi bilməmişəm, bilsəydim ya sizə qoşular, ya da bunları əvvəldən deyib, vaxtında bələdçilik edərdim.

Amma yenə də maraqlıdır: orayacan ki getmişdiniz, kəndə niyə girmədiniz axı?..



*Ulu Çinar*

Mənbə:https://www.adalet.az/az/posts/detail/gecikmis-agoglan-beledciliyim-resad-mecid-yazir-2021-02-10-112939



***Adil CƏMİL***

## TANRININ KƏLBƏCƏR MÖCÜZƏSİ

Mən Kəlbəcərdə doğulmuşam. Suyu, havası məlhəm, insanları işıqlı, sazlı-sözlü bir mahalda. Dəniz səviyyəsindən 3000-3700 metr yüksəklikdə yerləşən və ərazi etibarı ilə Azərbaycanın ən böyük rayonu olan bu əsrarəngiz torpaq Tanrının bizlərə əvəzsiz bəxşişi idi.

Doğulduğum kəndin adı Kilsəli (sonradan Günəşli) idi. Bu kənddə bir Alban kilsəsi vardı. Yarıuçuq vəziyyətdə olan kilsəyə kənd əhli müqəddəs məbəd kimi baxırdı. Kəndimizin adı bu kilsənin ərazidəki mövcudluğundan irəli gəlirdi. Ümumiyyətlə, Kəlbəcərdə kilsə adı ilə bağlı başqa kəndlər də (sınıq Kilsə, Kilsə və s.) vardı. Rayondakı Alban abidələri Qafqaz Albaniyası dövrünün dini-tarixi, mədəni-kulturoloji baxımdan araşdırılması üçün mötəbər tədqiqat mənbəyi olsa da, buna diqqət yönəldən olmamışdı. O üzdən də ermənilər bu abidələrdəki alban xaçını qriqor- yan xaçı ilə əvəz edərək özlərininki kimi qələmə verməyə çalışmışdılar. Təkcə onu deyim ki, Kəlbəcərdə - Tərtər çayının sol sahilində yerləşən möhtəşəm Xudavəng abidə-kompleksini də milli-dini mənsubiyyətindən balta zərbələri ilə qaşıyıb qoparmağa cəhd edən xain və oğru qonşularımız abidənin eksteryerində və interyerində əməlli-başlı “redaktə” işləri aparmışdılar. Əslində, kompleksin girişindəki yazıdan bəlli olmuşdu ki, Alban sərkərdəsi Həsən Cəlal bu ehramı qızı Arzu xatunun şərəfinə tikdirib...

Kəlbəcərdə bir dağ o biri dağa, bir kənd o biri kəndə, bir bulaq o biri bulağa bənzəmirdi. Tanrının fövqəl “fırçası” bu yerlərdə bənzərsiz peyzajlar yaratmışdı. Mənim kəndim də bir tərəfi sıldırım qayalıq, digər tərəfi sıx meşəlik olan ərazidə yerləşirdi. Obanın ən böyük bulağı - Kişmiş bulaq bizim evimizin yanından axırdı. Bulağın yanında qocaman, həm də əzəmətli bir armud ağacı vardı. Ona da “kişmiş armud” deyirdilər. Bu meşə armudunun meyvəsi balaca olsa da, kişmiş kimi şirin olardı. Yeri gəlmişkən deyim ki, Kəlbəcər bulaqlar və yaylaqlar diyarı idi. Bu torpaqda minlərlə bulaq vardı. Dörd yüzdən artıq narzan su mənbəyi vardı ki, tərkibi minerallarla zəngin idi. Bunların arasında ən məşhurları İstisu və Turşsu idi. Bölgənin su təminatında irili-xırdalı dağ çayları mühüm rol oynayırdı. Ən böyük çaylarımız Tərtər, Tutqu, Lev, Qamışlı və Tatallar idi. Əslində, bu çaylar ayrı-ayrı bulaqların birliyindən yaranmışdı. Göz yaşı kimi dupduru bu sularda həvəslə üzən forel balıqları gözlə görüb, əllə tutmaq da olurdu. Bu torpağın üstündəki dağ göllərinin - Alagöllərin, Qara gölün, Zalxa gölünün də özünəməxsus tarixi və gözəlliyi vardı. Alagöllər ancaq saf sularda yaşayıb nəsil artıran forel balıqların təhlükəsiz düşərgəsi idi.

Kəlbəcərdə hər kəndin, hər obanın öz yaylağı və binəsi vardı. İyun ayında yaylaqlara el köçü başlayardı. Çubuğu, çətəni və çadırı atlara yükləyib yurd yerlərində alaçıq qurmağa həvəslə tələsən biz insanlara aran bölgələrindən gələnlər təəccüblə baxardılar ki, dağdan dağa köçürük...

Kəndimizin yaylağı Qaradağlı idi. Gül-çiçəklə naxışlanmış alp çəmənliklərində, yamyaşıl düzəngahlarda alaçıq qurub payıza qədər yaşamaq əslində, nağılvari bir həyatın özü idi. Onu da deyim ki, yazılmamış el qanunlarına görə, kimsə kiminsə yurd yerində (alaçıq qurduğu yerdə) məskunlaşa bilməzdi. Hər yeni mövsümdə hər kəs öz yuvasına dönərdi. Biçənək yerləri də belə idi. Əsasən heyvandarlıqla məşğul olan əhalinin dədə-babadan bəlli olan biçənək yerləri vardı. Kimsə kiminsə ərazisinin bir qarışına belə toxunmazdı.

Bizim yaylaqdakı yurd yerimiz də bulağa çox yaxın idi. Yaylağın qız- gəlinləri çiyinlərindəki sənəklə daşların arasından sızan bu bulaqdan su aparmağa daha çox üstünlük verərdilər. "Yaylaq xatirəsi" şeirimdə o günləri belə xatırlayıram:

*Bulaq başı idi bizim yurd yeri,*
*Bulağa qonşuydu alaçığımız.*
*Şığıyan buludu qovardı geri*
*Keçədən yapılan qalacığımız.*

*...O illər yatdığım yuxu kimidir,*
*Qismətin qəsdinə durub neyləyim?*
*Anamın yaydığı yuxa kimidir*
*Kövrələn ürəyim, yuxa ürəyim.*



**Kəlbəcərdə tapılmış qoç, at heykəlləri**

Kəlbəcərdə beş yüzdən artıq yaylaq yeri vardı. Qoçdaş, Sultan Heydər, Böyükdüz, Dədə yurdu, Taxta düzü, Keyti yaylağı, Sarıyer, Bəzirgan və s. Qoçdaş yaylağında bu torpaqların qədim tarixindən soraq verən qoç fiqurları vardı. Sonradan bu fiqurlar rayonun tarix-diyarşünaslıq muzeyinə aparılsa da, muzeyin digər eksponatları ilə birgə 1993-cü ildə erməni işğalına məruz qaldı. Türk-oğuz

yurdu Kəlbəcərin çox qədim tarixindən, etnomədəni və inanc sistemindən mükəmməl informasiya verən dəyərli arxeoloji tapıntılar, qədim məişət əşyaları barbar qonşularımız tərəfindən talan edildi, yaxud da onların boş tarixlərinə yamaq edildi.

İstisudan qalxıb Gəlin qayasına yaxınlaşanda sol cinahda al-əlvan çəmənlikləri, buz bulaqları ilə diqqəti çəkən Sultan Heydər yaylağı vardı. Deyilənə görə, bu yerlər Şah İsmayıl Xətainin atası Sultan Heydərin hər yay gəlib istirahət etdiyi yaylaq imiş. Kəlbəcərdəki yer adları - toponimlər müəyyən türk tayfalarının adları ilə bağlı idi. Qaraçanlı, Alxaslı, Tirke- şəvənd, Almalıq, Ağdaban, Hopurlu, Kolanı, Qılıclı, Yanşaq və s. Bu adların hərəsi təkcə bir kəndin yox, həm də bir tayfanın adını daşıyırdı. Şah İsmayıl Xətainin bir oğlu Əlqas Mirzə olub. Mənbələr təsdiq edir ki, el dilində adı Alxas Mirzə kimi çəkilən bu şəxsin irsi-genetik davamiyyətində günümüzə gəlib çıxan Alxaslı tayfası dayanır - mənim ata nəslimin də mənsub olduğu tayfa...

Tirkeşəvənd (əslində "türkeşə bənd") kəndinin də türk qövmünün qüdrətli boylarından olan Türkeşlərin adını daşıyan etnonim olduğu həqiqətdən uzaq deyil. Yəni araşdıranda görünür ki, Kəlbəcərdəki toponimlər həm də öz tədqiqini tapmamış etnonimlərdir.

Az öncə Kəlbəcərdəki yaylaqlardan danışdım. İndi "yaylaq" söhbəti yadıma tarixi bir məqamı saldı. Xatırladıram ki, Ermənistanla keçmiş "Dağlıq Qarabağ" arasında yerləşən Kəlbəcər rayonu hələ 70-ci illərin əvvəllərində üzdəniraq qonşularımızın məkrli niyyət və murdar əməllərinin qurbanı olmalı idi. O vaxtlar Mərkəzi Komitədə məsul vəzifələr tutmuş ermənilər və ermənipərəst məmurlar uydurma arqumentlərlə respublikamızın rəhbəri Heydər Əliyevi inandırmağa çalışmışlar ki, Kəlbəcər yaşayış üçün yox, yaylaq sahəsi üçün əlverişlidir. Guya iqtisadi baxımdan perspektivsiz olan bu rayonu ləğv edib əhalini aran rayonlarına köçürmək, Kəlbəcərdən yaylaq sahəsi kimi istifadə etmək daha məqsədəuyğundur. Lakin bu sözlərin səmimiliyinə inanmayan Ulu Öndər təcili Dövlət Komissiyası yaradır. Kəlbəcərin daxili imkanları, iqtisadi potensialı barədə geniş məlumat hazırlanır. Dağlar diyarının yeraltı və yerüstü sərvətləri, qızıl, civə, mərmər yataqları, əvəzsiz şəfa qaynaqları, zəngin meşələri, bir sözlə, bənzərsiz flora və faunası barədə dolğun informasiya hiyləgər düşmən fikrini alt-üst edir. Beləliklə, ermənilərin Kəlbəcəri ələ keçirərək Dağlıq Qarabağa rahatca qovuşmaq planı Heydər Əliyevin uzaqgörənliyi sayəsində baş tutmur.

1977-ci il dekabrın 8-də Heydər Əliyevin təşəbbüsü ilə "Kəlbəcər rayonunun iqtisadiyyatını və mədəniyyətini inkişaf etdirmək tədbirləri barədə" hökumətin 428 saylı qərarı qəbul olunur. Bu qərardan sonra Kəlbəcərin və kəlbəcərlilərin nəyə qadir olduqları görülən genişmiqyaslı quruculuq işləri ilə sübuta yetirilir. Rayonun sosial-iqtisadi vəziyyəti kökündən dəyişir. Yeni Kəlbəcər şəhəri salınır və s.

Bölgənin əhalisi əsasən maldarlıqla məşğul olurdu. Hər bir ailənin xüsusi təsərrüfatı vardı. Atam öncə müəllim, sonralar iqtisadçı, baş mühasib vəzifələrində çalışsa da, bizim ailənin də məxsusi təsərrüfatı - qoyun- quzusu, mal-heyvanı,

atı, ulağı vardı. Bundan əlavə, evimizin bir otağında həmişəlik yer alan hana qurğusu vardı. Bu, təkcə bizə deyil, Kəlbəcər insanlarının əksəriyyətinə tanış bir gəbə (xalça) dəzgahı idi. Qarabağ xalça-kilimlərinin, gəbələrinin ən parlaq və keyfiyyətli nümunələri bu hanalarda toxunardı. Mənim də nənəm, anam, bacılarım belə gəbələrin əriş-arğacına vurduqları ilmələrə gözlərinin işığını verməkdən zövq alardılar. Məhz bu səbəbdən hər bir kəlbəcərli ailəsində orta hesabla 20- 30 xalça olardı. İşğal zamanı bu xalçaları Ermənistana daşıyan soyğunçular onları xarici ölkə vətəndaşlarına dəyər-dəyməzə satmışdılar. Rayonda arıçılıq təsərrüfatı da çox yüksək səviyyədə inkişaf etmişdi. Hər tərəfi gül-çiçəklə süslənmiş ətirli dağlar diyarında şirə toplayıb bal çəkmək arı üçün problem deyildi. Kəlbəcər balı Sovet dönəmində keçirilən ümumittifaq sərgisində dəfələrlə birinci yerə çıxmışdı. İşğaldan sonra o balı çəkən arılar da didərgin düşdü...

Kəlbəcərdəki İstisu ümumittifaq əhəmiyyətli kurort şəhərciyi idi. Yayda bu şəhərcikdə qələbəlik olardı. Azərbaycanın və müttəfiq respublikaların hər yerindən buraya müalicə məqsədilə axın-axın insanlar gələrdi. Dünyanın şəfa bulaqları sırasında mineral tərkibinə görə yalnız Çexiya- dakı Karlovı Varı ilə müqayisə edilən İstisu, sözün həqiqi mənasında, möcüzə idi. Bir çox daxili xəstəliklərin dərmanı idi. Həmin ərazidə müxtəlif təyinatlı başqa müalicəvi sular da (baş suyu, diş suyu və s.) vardı. Yaxından, uzaqdan İstisuya ümid yeri kimi baxıb gələn xəstələr tezliklə sağalıb sevinə-sevinə öz evlərinə qayıdardılar. Suyun mənbəyinə ən yaxın yerdə pasiyentlərə yüksək səviyyədə xidmət göstərmək imkanına malik sanatoriya və müalicə korpusları vardı.

İstisu kurortu ilə üzbəüz - sıldırım qayalıqlı dağın döşündən üzü yuxarı ilan kimi qıvrılan bir yol uzanırdı. Bu yolun bitdiyi zirvədən o tərəfə yeni bir lövhə açılırdı. Göz işlədikcə uzanan allı-güllü düzənliklər, yamyaşıl vadilər, bu əsrarəngiz məkanda qurulan alaçıqlar, saz-balaban, dəf-zurna səsi insanın ruhunu təzələyir, həyatına yeni bir rəng qatırdı. Bu - məşhur Taxta yaylağı idi. İstisuya gələn qonaqlar Taxta düzünə çıxıb o bənzərsiz gözəllikləri seyr etməsəydi, demək, Kəlbəcərdə olmamışdı. Onu da vurğulayım ki, İstisuya yaxın ərazilərdə, həmçinin Kəlbəcərin digər guşələrində - Sultan Heydər, Ayı çınqılı, Gəlin qayası deyilən yerlərdə tarixi eramızdan əvvəlki minilliklərə gedib çıxan qayaüstü təsvirlər vardı. O dövrdə bu təsvirlər üzərində az da olsa tədqiqat aparan alimlər Kəlbəcər ərazisindəki qayaüstü təsvirləri Qobustanla müqayisə edərək onları "Qobustanın qardaşları" adlandırmışdılar. Bu qayaların eroziyaya uğramayan yaddaşında günümüzə qədər gəlib çıxan rəsm- lərdəki dinozavrlar, ov səhnələri, yallını xatırladan oyun, Günəşin, Ayın, keçinin, ibtidai döyüş səhnələrinin təsviri sözügedən torpaqda məskunlaşma tarixinin çox dərin qatlara işlədiyini təsdiqləyirdi. Kəlbəcərin yetərincə tədqiqata cəlb olunmayan arxeologiyasından, qədim abidə və qalalarından, zəngin meşələrindən, çaylarından, göllərindən, narzan bulaqlarından, sərin yaylaqlarından, dərman bitkilərindən, dəyərli dağ-mədən süxurlarından daha geniş danışmaq, təbii ki, bir məqalə formatına sığışan deyil. Ancaq yeraltı sərvətlərdən söz düşərkən bu torpaqdakı qızıl və civə yataqlarını da unutmaq olmaz.

1960-cı illərdən Kəlbəcər ərazisində müxtəlif geoloji ekspedisiyaların ardıcıl fəaliyyəti başlamışdı. Rayonun Söyüdlü, Lev, Tutxun, Dəlidağ zonalarında qızıl və civə axtarışı ilə bağlı kəşfiyyatlar müsbət nəticələr vermişdi. Kiçik Qafqazın böyük geoloqu Mirəli Qaşqayın rəhbərliyi ilə bir neçə yerdə qızıl, civə, mis yataqları kəşf edilərək istismara verilmişdi. Əsas qızıl yatağı Kəlbəcərin Ermənistanla sərhədində yerləşən Söyüdlü (Zod) kəndinin ərazisində olduğundan mədənin bir hissəsi erməni tərəfinin istismarına məhkum idi. Sovet dönəmində ermənilər həmin mədəndəki lağımı genişləndirərək bizim ərazidə olan qızıl suxurlarını İrəvana daşıyırdılar. 80-ci illərdə ermənilərin bu qanunsuz əməlləri ilə bağlı bir yazı yazmışdım. Yuxarılardan reaksiya belə olmuşdu ki, biz hamımız - yəni bütün müttəfiq respublikalar ümumittifaq büdcəsinə xidmət edirik və qızılın kim tərəfindən çıxarılmasının heç bir fərqi yoxdur...

Söyüdlü kəndi yaxınlığında Zar kəndi də vardı. Arxeoloji qazıntılar zamanı onun ərazisindən qədim bir şəhərin qalıqları üzə çıxmışdı. Mənbələrdən bəlli olur ki, bu qədim şəhərin adı Şəhrizər imiş. Bu ərazidən qızıl çıxdığına görə şəhərin adı Şəhrizər, yəni "qızıl şəhəri" imiş. X əsrin ərəb tarixçisi Əbu Dulefin yazdıqlarına görə, VIII-IX əsrlərdə ərəblər Şəhrizər şəhərinə gələrək buradan (indiki Söyüdlüdən) qızıl tərkibli torpağı, daşı, suxurları dəvələrə yükləyib öz ölkələrinə aparar və kustar üsulla qızıl emal edərmişlər.

Rayonun Ağ yataq adlandırılan yerində civə zavodu vardı. Birbaşa Moskvanın tabeliyində olan zavodun rəhbərləri və əsas işçi kontingenti ruslardan ibarət idi. Yerli əhalidən az sayda fəhlə kimi bura cəlb olunanlar orada nələr baş verdiyini dövlət sirri kimi məxfi saxlayırdılar - çünki tapşırıq belə idi. Nəzərə alsaq ki, civə qızıldan da bahadır, o zaman bu torpaqdan illərlə Rusiyaya daşınıb onun hərbi və kosmonavtika sənayesinə sərf olunan milli sərvətimizin dəyərini özünüz hesablayın.

Kəlbəcərin yayı kimi qışı da gözəl olardı. Demək olar ki, hər kəsin evində ov tüfəngi vardı. Elə ki qar yağdı, ovçular cuşa gəlib tüfənglərini, patrondaşlarını götürüb dağlarda, meşələrdə, qayalıqlarda düşərdilər əliyin, cüyürün, qabanın izinə. Bu yerlərdə dovşandan, tülküdən, ceyrandan, canavardan tutmuş ayıya qədər heyvanların nəsli yaşayırdı. Ova gedən təcrübəli ovçular özləri ilə sürəkçilər də aparardılar. Sürəkçinin vəzifəsi ov heyvanının ehtimal olunduğu ərazi çevrəsində səs-küy salmaq, onları ürkütmək, bununla da ovu ovçunun nişangahına yaxınlaşdırmaq idi...

Uşaq vaxtı mənim də sürəkçisi olduğum, quşu gözündən vuran məşhur Ovçu Əmrah vardı. Necə deyərlər, heyvanlar onun əlindən qan ağlayırdı. Heç vaxt gülləsi boşa çıxmazdı. Sonralar Əmrah kişiyə bir şeir də yazmışdım. Bir neçə bəndini xatırlamaq, bəlkə də, yerinə düşər:

*Gözün aydın, ovçu Əmrah, Gözlədiyin qış gəlibdir. Deyirlər ki, siftə-siftə Sınamısan şikarını, Tüfənginə tuş gəlibdir....Elə, bəlkə, bu peşənin həvəsiylə, Elə, bəlkə,bu meşənin nəfəsiylə Sən qalmısan gümrah, kişi? Qocaldıqca qıvraqlaşan Əmrah kişi, Əmrah kişi.*

Ov tüfəngi bizim evimizdə də vardı. Hərdən ova çıxmağa atam da həvəskar idi.

Mənimsə ilk "ovçuluğum" öz evimizin içində olmuşdu.

Günlərin bir qış günündə, hər tərəf bəyaz örtüyə bürünən bir zamanda Alxaslı kəndindən atamın dayısı oğlu Kamran bizə qonaq gəlmişdi - çiynində də tüfəngi. Çay-çörək süfrəsindən sonra atamla birlikdə ova çıxmaq qərarına gəldilər. Bir neçə saatdan sonra gülə-gülə əliboş qayıdıb tüfənglərini bizim yemək otağımızdakı taxtın (o zaman kənd yerlərində uzun taxt olardı) baş tərəfindəki divara söykədilər. Məlum oldu ki, çoxdan bir-birlərini görməyən dayıoğlu, mamaoğlular o qədər şirin söhbətlər ediblər ki, ov etmək yadlarından çıxıb.

Kamranla atam az sonra kolxoz idarəsinə getdilər. Mənim o zaman 7-8 yaşım olardı. Evin tək oğlu, üç bacının yeganə qardaşı idim. Ancaq həmişə bacılarımı görüb əsəbləşirdim ki, kənddə hamının qardaşı var, mənim niyə yoxdur! Və onları döyməklə, öldürməklə hədələyirdim. Xatırlayıram ki, anam xəngəl bişirmişdi. Nənəm, anam, bacılarım və bizə qonaq gəlmiş bibim taxtın üstündə oturaraq məxsusi sinilərdə yanlarına qoyulmuş xəngəli yeyirdilər. Mən hamıdan tez yeməyimi yeyib ayağa qalxdım və atamın tüfəngini götürərək üzü bacılarıma tərəf tuşladım və yalandan çaxmağa başladım. "Sizi öldürəcəyəm" deyib bunu tez-tez təkrarladım. Nənəm Nabat yalvardı ki, çıx həyətə, quşlara tuşla! Anam da dedi ki, belə etmə, nə olsun tüfəng boşdur, şeytan doldurar...

Bu dəfə mənim nəzərimi Kamranın tüfəngi çəkdi. O, mənə başqa təsir bağışladığından atamın tüfəngini öz yerinə qoyub Kamranın tüfəngini götürdüm. 3-4 metr aralıdan böyük bacımı nişan aldım. "Sizi öldürəcəyəm" deyə tətiyi çəkdim. Evin içində güclü bir gurultu qopdu. Taxtın üstündə oturub yemək yeyənlərin hamısı (nənəmdən başqa) bir- bir yerə töküldülər. Mən şokda olduğuma görə nə baş verdiyini anlamadım. Ancaq görəndə ki, heç birinin heç yeri qanamayıb, sağ-salamatdılar, bir az toxtadım. Bir də baxdım ki, yaxama qan tökülür. Qan alnımdan axırdı. Gördüm ki, bayaqdan yerə yıxılanlar artıq ayağa durublar, hamısı salamatdır, zənn etdim ki, güllə özümə dəyib. Bütün bunlar çox ani oldu. Və mən "ölürəm" deyib kəllayı dediyimiz qonaq otağına qaçdım, içəridən qapını bağladım. Nənəm özünü yetirib "aç qapını, qorxma, sənə heç nə olmayıb, hamı salamatdır, tüfəngin çaxmağı alnını cızıb, qorxma" desə də, mən inanmadım və "gəlməyin, ölürəm" deyə qapını açmadım. Qaçaq Cəmilin həyat yoldaşı olaraq həyatın hər üzünü görmüş Nabat nənəm dəmir ling ilə qapının kilidini sındırıb içəri girdi və mənə tutarlı bir sillə çəkdi: "Sənə dedim ki, heç nə yoxdur, güllə divara dəyib". Bu sillədən sonra şokdan ayıldım, alnımı isə nənəm özü sarıyıb qanını kəsdi.

Bəli, güllə bacılarımın ayağı altından keçib divarda böyük bir oyuq açmışdı. Bu, həmin güllə idi ki, ovdan qayıdanda Kamranın yadından çıxıb tüfənginin yuvasında qalmışdı. O ki qaldı alnımın yaralanmasına, bu da tüfəngi boş tutduğum üçün çaxmağın geri təpməsinin nəticəsi idi.

Qəribədir ki, bu olaydan bir müddət sonra dünyaya iki qardaşım gəlmişdi - Xaqani və İlham. Kənddə deyib-gülürdülər ki, Adilin atdığı güllənin səsi Tanrıya tez çatıb.

Yeraltı, yerüstü sərvətləri, füsunkar təbiəti öz yerində, ancaq Kəlbəcərin ən

qiymətli sərvəti onun insanları idi. Saf ürəkli, namuslu, qeyrətli, sadə, səmimi və qonaqpərvər insanları. Ən kasıb ailənin də evində qonaq üçün ayrılmış toxunulmaz bir otaq, yaxud guşə olardı. Hər kəs istəyərdi ki, gəlmiş qonağı öz evinə aparsın. Necə deyərlər, qonağın üstündə "dava" düşərdi. Bəzi şeirlərimdə bu məqamlara da toxunmuşam: *Kimsə ayırmazdı yaxın-uzağı, Hamıya bir idi dağlar qucağı. Üstdə dava düşən Allah qonağı Evin yiyəsindən mötəbər idi, O, mənim torpağım Kəlbəcər idi.*

Kəlbəcərlilər danışanda obrazlı danışardılar. Zərbül-məsəldən, atalar sözündən, müdrik deyimlərdən çox istifadə edərdilər. Onların leksikonu Qarabağın bu bölgəyə məxsus şivəsinin şirinliyini nümayiş etdirirdi. Dilin bu qədər cazibədarlığı, hətta poetikliyi ərazidə əsrdən-əsrə, nəsildən- nəslə ötürülən folklor yaddaşı və saz-söz mühitilə bağlı idi. Hər kəsin evində divardakı xalçanın üstündən asılan saz bu bölgənin atributu kimi görünərdi. Xalqın pozulmayan folklor yaddaşı və aşıq mühiti dağlar diyarında Ağdabanlı Qurban, Aşıq Şəmşir, Bəhmən Vətənoğlu, Sücaət, Bimar Əli, Ənvər Rza, Məmməd Aslan kimi görkəmli sənətkarlar yetirmişdi.

Aşıq Şəmşir aşıq-ozan sənətinin dədəlik mərtəbəsinə ucalan sonuncu mogikanı olmuşdu. Onun atası - görkəmli el şairi Ağdabanlı Qurban ötən əsrin əvvəllərində "Qurban bulağı" adlı bir ədəbi məclis yaradaraq dövrünün istedadlı aşıq və şairlərini həmin məclisə dəvət etmişdi. Aşıq Ələsgər, Növrəs İman, Aşıq Bəsti və başqa saz-söz sənətkarları "Qurban bulağı"nın fəal üzvləri olmuşdular. Kəlbəcər ədəbi mühitinin təməl daşları məhz bu məclisdə qoyulmuşdu.

1955-ci ildə Xalq şairi Səməd Vurğunun istirahət üçün Kəlbəcər dağlarına - İstisuya gəlişi tarixi hadisə kimi yadda qalmışdır. O, bəzi şeirlərini aşıqlardan eşitdiyi, lakin şəxsən tanımadığı Aşıq Şəmşirlə məhz İstisuda - Ceyran bulağının başında tanış olub ünsiyyət qurmuşdu. Bu tanışlıqdan hər iki sənətkarın dillər əzbəri olan deyişməsi canlı tarix kimi yaşamaqda, aşıqların ifasında hələ də səslənməkdədir:

*Aşıq Şəmşir, Dəlidağdan keçəndə*
*Kəklikli daşlardan xəbər al məni.*
*Ceyran bulağından qızlar içəndə*
*Saz tutub, söz qoşub yada sal məni.*
*(S.Vurğun)*

Kəlbəcər, sözün həqiqi mənasında. şairlər məskəni idi. Aşıq Şəmşir, Qamışlı Rüstəm, Zal Cabbarlı, Şair Nəbi, Bimar Əli, Ayrım Əhməd, Bağban Umid, Əyyub və Yaqub Cabbarovlar, Mirsəyyaf Zamanlı, Yusif Hüseyn, Bəhmən Vətənoğlu, Sücaət, Ənvər Rza, Məmməd Aslan kimi onlarla istedadlı qələm sahibləri bölgədə sağlam və səviyyəli bir ədəbi mühitin formalaşmasında fəal iştirak etmişlər.

2004-cü ildə elimizin nüfuzlu ağsaqqalı, şair-publisist Qənbər Şəmşiroğlunun təşəbbüsü, Cavid Qurbanovun maddi və mənəvi dəstəyi ilə bölgə ədəbi mühitinin klassik və müasir mənzərəsini əks etdirən bir antologiya nəşr etdirmək qəra-

rına gəldik. Əslən kəlbəcərli yazar Məhəmməd Nərimanoğlu ilə birgə yurddaşlarımızın məskunlaşdığı müxtəlif bölgələrə ardıcıl səfərlər etdik. İki yüzdən artıq müəllifin yazılarını toplamağa nail olduq. Mən redaktə zamanı yalnız yüz nəfər müəllifin şeirini qənaətbəxş hesab edərək nəşrə hazırladım. Antologiyanın "Kəlbəcər dünyası: yüz şairin bir kitabı" (Bakı, "Adiloğlu", 2005, 460 səh.) adlandırılması məhz bu rəqəmdən doğuldu. Yüksək tirajla işıq üzü görən antologiya hər bir kəlbəcərli ailəsinin sevimli kitabına çevrildi. Bu kitab Kəlbəcərdən kənarda da bölgəyə məxsus ədəbi mühitdən gələn ənənənin uğurla davam etdirilməsini bir daha təsdiqlədi.

Kəlbəcərlilərin doğma yuvalarından didərgin düşərək ölkənin 466 yaşayış məntəqəsinə səpələnməsi, qaçqınlıq, köçkünlük həyatı onların nəinki yazılı, şifahi ədəbiyyatına da sirayət etdi. Gəncəbasarda məskunlaşmış yurddaşlarımdan topladığım bayatılar bunların bariz nümunəsidir:

*Dağda dağ ilanları, Bağda bağ ilanları. Eşidib görməmişdim Evi dağılanları.*

Beləliklə, qaçqınlıq, köçkünlük dövrü həm yazılı, həm də şifahi müstəvidə yeni bir ədəbiyyatın təməlini qoydu. Təhsil görməmiş evdar qadınların da Kəlbəcərsiz keçən iztirablı həyatı yanıqlı bayatılarda, ağılarda ifadə olunaraq ürəyimizi dağladı:

*Amansız bir gündü bu, Dərmansız bir gündü bu. Demə qaçqın olmuşuq, Zülmdü, sürgündü bu.*

Vətəndə özünü "vətənsiz" hesab edən, qaçqınlığı sürgünə bərabər tutan bu insanlar 1988-ci ildən 1993-cü ilə kimi mühasirədə qalan doğma Kəlbəcərindən ayrılmamışdı - bütün məhrumiyyətlərə baxmayaraq...

1988-ci ildə məlum Qarabağ qovğası başlayanda ən böyük zərbələrdən biri Kəlbəcərə dəydi. Rayonun Ağdərədən keçən avtomobil yolu bağlandı. Erməni quldurları dəfələrlə bu yoldan keçən avtomobillərimizə hücum çəkib neçə yurddaşımızı qətlə yetirmişdilər. Dədə Şəmşirin qızı Çimnaz xanım da bu qanlı-qadalı yolda düşmən gülləsinə hədəf olaraq dünyasını dəyişmişdi.

Beş il blokada vəziyyətində yaşayan 55 minlik rayon əhalisi Yevlax- Kəlbəcər marşrutu ilə işləyən və cəmi 18 nəfərlik tutumu olan bir vertal- yotun ümidinə qalmışdı. O da ki, hava duman olanda uçuşunu təxirə salırdı. Mən hələ 1989-cu ildə - işğaldan 4 il əvvəl yaxınlaşan faciəni dərk etdiyim üçün Xalq şairi Sabir Rüstəmxanlının baş redaktoru olduğu "Azərbaycan" qəzetində "Yolları bağlı dağlar" adlı bir məqalə dərc etdirmişdim. Bildirmişdim ki, "Kəlbəcər indiki vəziyyətdə sərhəd boyunda qala qapısına bənzəyir. Bu "qapını" unutmaq, onun daha da möhkəmləndirilməsi qayğısına qalmamaq ağır nəticələrə, dözülməz fəlakətlərə səbəb ola bilər". O zamankı hakimiyyət bu mesaja heç bir əhəmiyyət verməmişdi.

Əslində, Kəlbəcərin işğalı 1992-ci ildən başlamışdı. Həmin il fevral ayının 25-də Xocalıda törətdikləri soyqırımdan daha da ilhamlanan ermənilər 40 gün sonra - aprelin 8-də Kəlbəcərin Ağdaban kəndinə silahlı hücum çəkərək yuxuda olan dinc əhalini amansızlıqla qətlə yetirmişdilər. Həlak olanların 31 nəfəri Dədə Şəmşirin yaxın qohum-əqrəbası olmuşdu. Bu faciəni Qənbər Şəmşiroğlu belə

xatırlayır: “1992-ci il aprelin 8-də, səhər tezdən ermənilər öz faşist əməllərini gizləyə bilmədilər. Çoxdan pusquda dayanan ac canavar kimi günahsız kənd camaatını parçalayıb onları odlara qaladılar. Ağdabanla Çayqovuşan darmadağın edildi. Bizim nəsildən 31 nəfəri ermənilər vəhşicəsinə qətlə yetirdilər. Bəkir kişini, Tutunu, Zeynəb arvadı, Fatmanı, Həyatı, Musanı həmin gün diri-diri yandırdılar.”

Odlara qalanan Ağdaban kəndində Dədə Şəmşirin öz əlləriylə tikdiyi ev-muzeyi və burada atası Ağdabanlı Qurbanın və özünün nəşr olunmamış yüzlərlə şeirinin əlyazması yanıb külə döndü.

Diri-diri yandırılmış ağdabanlıların da harayı Mərkəzə çatmadı. Və nəhayətdə 1993-cü il aprelin 2-də Kəlbəcər rayonu tam işğal olundu. Əlli beş minə yaxın əhali Murov dağının qarlı-çovğunlu aşırımlarından keçərək Göygöl rayonuna, oradan da respublikanın müxtəlif bölgələrinə səpələnib qaçqın və köçkün həyatının zillətini yaşamağa başladı.



**Asıq Səmsir adına Kəlbəcər rayon Mədəniyyət evi**

Ev-eşiyini, mal-mülkünü qoyub ermənilərin rayonu boşaltmaq üçün verdiyi 10 saat ərzində ayaqyalın, başıaçıq vəziyyətdə yalnız canlarını qaçıra bilən yurddaşlarımızın Murovun qarlı-buzlu gədiklərində donub ölənləri, döyüşüb şəhid olanları, əsir düşüb, girov gedənləri də az olmadı. Bu qaçqın köçündə mənim də atam, anam, qardaşım, bacım gəlmişdi...

Hələ işğaldan öncə Kəlbəcərin qeyrətli oğulları özünümüdafiə dəstələri yaradaraq həm Ermənistan tərəfdə, həm də Ağdərə istiqamətində yurdumuzun keşiyini çəksələr də, silah-sursatın qıtlığı, canlı qüvvənin məhdudluğu təpədən-dırnağa müasir silahlarla təchiz edilmiş erməni hərbçilərinin qarşısında çox zəif olduğundan, dövlət tərəfindən heç bir hərbi yardım göstərilmədiyindən, yüksək çinli bir neçə zabitimizin xəyanəti nəticəsində Kəlbəcər təslim oldu. Daha doğrusu, Kəlbəcər satıldı. Şübhəsiz ki, bu müharibədə saysız-hesabsız şəhidimiz, əsir düşənlərimiz oldu. Təkcə bizim kənddən 32 nəfər erməniyə əsir düşdü. Onların bəziləri əsirlikdə həlak oldu, "Qırmızı xaç"ın köməyi ilə vətənə dönənlər isə çox yaşamadılar.

Kəlbəcərin müdafiəsi zamanı cəngavər oğullarımız misilsiz rəşadət göstərdilər. Onlardan Sərdar Səfərov, Şahlar Şükürov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldülər.

2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsini zəfərlə başa çatdıranlar məhz o ataların övladları idi. Necə deyərlər, üstündən 27-28 il keçsə də, qisas qiyamətə qalmadı. Bu qələbəni bizə yetirən əsgər və zabitlərimizin çoxu bir zamanlar - 2-3 yaşında olarkən ana qucağında qaçqın kimi gəlib çadır şəhərciklərində, yarımçıq binalarda, yöndəmsiz yataqxanalarda məskunlaşmış, yurd həsrətini genində və qanında daşıyan oğullarımız idi...

Azərbaycan 44 günlük Vətən müharibəsində 30 ilə yaxın müddətdə işğalda qalmış torpaqlarını özünə qaytarmaqla dünyanın hərb tarixinə (təkcə Azərbaycanın yox!) qızıl hərflərlə yeni səhifələr yazdı. İndi bütün dünya - super dövlətlərdən tutmuş cırtdan ölkələrə kimi Azərbaycanın böyük qələbəsindən, bütün müstəvilərdə məharət və əzmkarlıqla döyüşən Ali Baş Komandan İlham Əliyevdən, onun müzəffər ordusundan, ətrafında yumruq kimi birləşən xalqından danışır və hələ neçə illər danışacaqlar.

Müharibənin gedişində Ali Baş Komandanımız alınan şəhər və kəndlərimizin adlarını bir-bir çəkdikcə (demək olar ki, bu, hər gün olurdu) düşünürdüm ki, Kəlbəcərin adı çəkiləndə mən hansı ovqatda olacağam.

Sevinc şokundan "salamat çıxan" kəlbəcərlilər indi doğma yurda tezliklə qayıdıb özlərinin ənənəvi gün-güzəranını, həyat və məişətini bərpa etməyin həsrətindədirlər. İçimdə bir inam var ki, 27 il torpaq həsrətilə yaşayan yurddaşlarım doğma yurd yerlərinə qayıdanda o torpağın qədrini əvvəlkindən də çox biləcəklər. Bir təsəllim də var ki, Kəlbəcər həsrətilə dünyadan köçmüş ata-anamın Masazırdakı məzarlarına o torpaqdan gətirib tökməklə onların vəsiyyətinə qismən də olsa əməl etmiş olacağam. Tezliklə Kəlbəcər dağlarında görüşənədək!

https://anl.az/el/Kitab/2021/06/Azf-317681.pdf



**Tamxil ZİYƏDDİNOĞLU**

*Hacıyev Tamxil Ziyəddin oğlu 20 mart 1958-ci ildə Qafanın Kurud kəndində anadan olub.*

**Bütöv Azərbaycan yolunda**

**Şəhidlər xiyabanı**

Ucalığa, ölməzliyə gedən yollar burda bitir. Müqəddəsliyə, əbədiyyətə aparan yollar burdan başlanır. Dünyanın ən müqqəddəs yerləri, ən gur çıraqları burdan görünür. Dünyadakı müharibələrə, işğalçılara, acgözlüklərə nifrət burdan yağır. Günahsız anaların göz yaşından yaranmış mavi Xəzər bu zirvənin ətəyində cilvələnir. Üçrəngli hürr bayrağımız bu zirvənin başı üstə dalğalanır. Planetimizin hər yerindən milyonlarla Azərbaycan övladını çəkib gətirən uzun-uzun haça yollar burda-bu bayrağın altında kəsişir. Neçə illərdir ki, dünyanın ən işıqlı, ən aydın yolları burdan-azərbaycanlıların ziyarətgahına, qibləgahına çevrilmiş bu müqəddəs məkandan keçir. Çünki burda Vətən eşqi, Vətən sevgisi var!

**Azərbaycan Qadını**

Nə qədər şərəfli, uca adın var, Azərbaycan qadını! Sən anaların anası, doğmaların doğması, ucaların ucasısan! Cəngə gedən ər igidlər sənə, səninetibarına güvənib, sənin sədaqətinə bel bağlayıblar. Güvəndiyimizdən də güvəncli olmusan. Şanımıza şan qatıb adımızı, ünvanımızı, ellərimizi, obalarımızı şərəfləndirmisən. Koroğluya Nigar, Nəbiyə Həcər olan, yenilməz bir ər kimi ərənlərlə cəngə çıxan Tomris sən deyilmisən, Azərbaycan qadını?!

Bölük-bölük, parçalanmış, yağmalanmış torpaqlarımızın ağrı-acısı da ən çox sənin taleyinə yazılıb. Dərdlilərin ən dərdlisi, qəriblərin ən qəribi, vüqarlıların da ən vüqarlısı sənsən Azərbaycan qadını! Kəlbəcər işğal olunanda adını qorumaq üçün özünü qayadan atdın. Düşmən əlinə keçməsin deyə,-bələkdəki balanı öz əllərinlə boğdun. Fədakarlığını nə qədər vəsf etsək azdır, Azərbaycan qadını! Bayramlarda, şənliklərdə şərəfinə nə qədər xoş söz desək, yenə də azdır. Amma inanırıq ki, Şuşanın Xarıbülbülündən, Zəngəzurun dağçiçəyindən, Göyçənin tər gülündən bağlanmış çələngimiz hamınıza ən dəyərli hədiyyə, dərdlərinizə dərman olacaq!

Tamxil Ziyəddinoğlu 2010-cu ilin mayında 1805-ci il Kürəkçay andlaşmasının 205-ci ildönümü münasibətilə Azərbaycanda Atatürk Mərkəzində tarixçi alimlərin və media nümayəndələrinin iştirakı ilə keçirdiyi tədbirdə demişdi:

**Həqiqət budur!**

**Qarabağın işğalından 205 il keçir!*

**Əzəli torpaqlarımız hələ də düşmən tapdağındadır!*

**Ərənlər, məmləkətimizin nicatı sizə bağlıdır!*

**Analar, yurdumuzu qəsb edənləri, yağmalayanları parçalamaq üçün aslanlar doğun!*

**Aslanın erkəyi, dişisi olmur!*

**Aslanlarım, sevdiklərinizi vətənin keşiyində sınağa çəkin!*

Ölənimiz ölsün, qalanımız şərəflə yaşasın! Qədərimiz belədir!

Belədirsə, gəlin 205 illik yaramızın qaysağını qoparaq! Qoparaq ki, yaralarımız qan versin. Qan versin ki, qan yaddaşımız təzələnsin! Pas atmış tövrümüz dəyişsin! Özümüzü, kimliyimizi, dostumuzu, düşmənimizi tanıyaq! Mövqeyimizi müəyyənləşdirək! Hədəfimizi seçək! Atacağımız addımı ataq! Ölənimiz ölsün, qalanımız şərəflə yaşasın! Yaşasın ki, yurdumuzu, sərvətimizi, şərəfimizi qorusun, bayrağımızı uca tutsun! Bizim 50 milyonluq soydaşımız var. Bu qüvvəni birləşdirməliyik ki, heç bir xarici qüvvə öz iradəsini bizə diktə edə bilməsin.

**Sosial media istifadəçiləri üçün yaddaş:**

*Vətəndaş mövqeyinizin peşəkarlığın ən gözəl ifadəsi olduğunu unutmayın;

* Düşmənlərimizin Azərbaycanın milli maraqlarına zidd, dövlətimizin imicinə ləkə gətirən yalanlarını ifşa etmək üçün sosial şəbəkələrdə daha da fəallaşın;

* Cəbhəyanı bölgələrdə yaşayan yaxınlarınızdan əldə etdiyiniz məlumatları yayarkən diqqətli olun;

* Xarici media orqanlarında yer almış xəbərləri analiz etmədən tirajlamayın

Cəbhə xəttində baş verənlərlə bağlı məlumatların təqdimatına daha da həssas yanaşın, ciddi dəqiqləşdirmələr aparın;* Xəbər yaymaq istəyəndə rəsmi məlumatlara istinad edin;

* Dezinformasiyalara rast gəldikdə, dərhal münasibət bildirin;

* Paylaşılan məlumatların doğru olmadığını duyduqda, şərhlər verin;

*İnformasiya savaşı cəbhəsində həmişə olduğundan bir az da fəal mübarizə aparın; **2016-cı il**

**Budur, "Oğul böyüdürəm qisas almağa"- deyən ata! And iç, oğlum, and iç!** Andın mübarək olsun!-deyə oğlunu Vətən Müharibəsinə yola salır:

Ordu sıralarına gedərkən Azərbaycan bayrağını öpmək, Vətənimə, millətimə, dövlətimə sədaqət andı içmək mənə nəsib olmadı. Çünki Sovet ordusunda xidmət elədim. O orduda ki, adını "Qızıl Ordu" qoyaraq Azərbaycanımızı qızıl qana boyadı, məmləkətimizi işğal edib, Azərbaycan Xalq Cümhuriyyətimizi süquta uğradıb. Vahid dövlət, vahid millət yaratmaq istəyən Sovet ideoloqları xalqları azadlıq çağırışlarına səsləyə biləcək hər kəsi ya güllələyib, ya da uzaq Sibirə sürgün eləyib. Bu amansız ideologiyanın başında duran Stalin deyirdi: "Biz nəinki millətçiləri, hətta onların keçdiyi küçələrdəki insanları da məhv etməliyik."

Azərbaycanda bu ideya xüsusi qəddarlıqla, amansızcasına həyata keçirilib. Çünki hakimiyyətdə bolşevik libasında yuva qurmuş erməni quldur dəstələrinin nümayəndələri Sumbatovun, Gerasimovun, Qriqoryanın, Markaryanın, Qalstyanın, Avanesyanın əllərinə türk düşmənçiliyini gerçəkləşdirmək üçün fürsət düşmüşdü. Onlar bu fürsətdən faşistcəsinə istifadə edib Azərbaycanın ziyalı nümayəndələrini - alim, yazıçı, incəsənət xadimi, müəllim, Sovet və partiya idarəsi əməkdaşı, hərbçi, din xadimi- bir sözlə, bütün düşünən beyinləri məhv etməyə start veriblər. Generallarımızı istintaqsız, sorğu-sualsız güllələyiblər.

O illərdə Azərbaycan Respublikası ərazisində totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insan əsasən milli

özünüdərk və milli dövlətçilik əqidəsinə, siyasi rejimin diqtəsilə deyil, milli hissiyatla düşündüyünə görə repressiyalara məruz qalıb. Təkcə 1937-ci ildə Azərbaycanda 29 min "xalq düşməni" adı verilən ziyalımız güllələnib. 30 illik repressiya dövründə(1920-1950) müxtəlif ittihamlarla ziyalılar əleyhinə xüsusi cəza tədbirləri görüblər. Sürgün adı ilə göndərilənləri də getdikləri yerlərdə güllələyiblər.

Azərbaycanın Qazaxıstandakı səfirliyinin əldə etdiyi məlumata görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb, bunlardan 28 mini məhkəmə və istintaq olmadan güllələnib. Sənin ulu baban, Zəngəzur mahalının Kurud kəndindən sürgün edilən Əfəndiyev Əbdürrəhim Hacıbaba oğlu da 1937-ci ildə sentyabrın 9-da güllələnənlər arasında olub. Yetimçiliklə ərsəyə gələn atamı, əmilərimi Şura hökuməti İkinci Dünya Müharibəsinə aparıb. Xalq düşməni damğası vuraraq güllələtdiklərinin oğullarını düşmənlərinə qarşı silahlandıran Şura Hökuməti sonralar bizlərə- ordu sıralarına çağırılan Azərbaycan oğullarına silah etibar etmədi. Ən nəhayət bizi əliyalın qoyub sərvaxtdan saldı. Silahlandırdığı erməni quldur dəstələrini üstümüzə buraxdı. İrəvandakı, Göyçə mahalındakı, Zəngəzurdakı dədə-baba yurdlarımızın qalanını da əlimizdən alıb daşnaklara verdi. Ata yurda bağlı son 300 min nəfəri də beləcə 1988-ci ildə yerindən elədi. 366 -cı motoatıcı diviziyanın azğınlaşmış erməni-rus heyəti Xocalıda soyqırımı törədib şəhərimizi yer üzündən sildi. 10 min əhalinin 3813 nəfərini amansızlıqla qətlə yetirdilər. İz itirmək üçün meyitləri topa-topa yandırdılar. Qız-gəlini əsir apardılar Əlimdən heç nə gəlmədi. Gücsüz, çarəsiz qalıb sənin dünyaya gəlişini gözlədim. 40 yaşıma qədər doğum gününü gözlədim. Daha 18 il əsgərlik yaşına çatmağına səbr etdim. Amma sən məndən səbrsiz çıxdın. 647 balla daxil olduğun universitetin diplomunu almadan, hərbi xidmətə çağırış vərəqəsi gözləmədən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətinə müraciət etdin.

Budur, artıq ordu sıralarındasan. Üçrəngli hürr bayrağımızın kölgəsində Vətənə, millətə, dövlətə sədaqət andı içirsən! Andınızın sədası məni qürurlandırır. Yerə-göyə sığmıram. Sənin sərhədçi adın, əsgər andın illərdi qövr eləyən yaralarıma məlhəm oldu. İndi sən Azərbaycan əsgərisən. Vətənin gözü aydın, Azərbaycan əsgəri!

And İç, Azərbaycan əsgəri! And iç ki, Odlar Yurdunun yaralarına məlhəm qoyacaqsan. Çadırlarda doğulub illərlə od-ocaq həsrəti ilə zillət çəkənlərimizi doğma ocağına qaytaracaqsan. And iç, Azərbaycan əsgəri! And iç ki, şəhidlərimizin ruhuna dinclik verməyən qarı düşmənin yuxusunu ərşə çəkəcəksən. Azərbaycanımızın ərazi bütövlüyünü bərpa eləyib bütövləşən ərazilərimizdə dövlətimizin suverenliyini hər kəsə-istəyənə də, istəməyənə də qəbul etdirəcəksən. And iç, Vətən əsgəri, and iç! Andın Mübarək olsun!

**Aprel 2020-ci il**

**İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Əli Nağıyevə yazdığı məktub:**

**Hörmətli Əli müəllim!**

Bir vətəndaş olaraq dövlətimizin təhlükəsizliyinin təmin olunmasındakı xidmətinizdən qürur duyur, sizə minnətdarlığımı bildirərək bundan sonrakı fəaliyyətinizdə uğurlar diləyirəm!

Cənab general-leytenant, son dövrlər Müdafiə Nazirliyində kimlərsə cəbhədəki uğurlarımızda xüsusi xidməti olan cəsur döyüşçülərimizi tanıtma kampaniyası başladıblar. Güman etmirəm ki, belə təhlükəli səhvə, ordumuzun şəxsi heyətinə zərər vuracaq xətalara bilmədən yol verirlər. Odur ki, bu məsələni şəxsi nəzarətinizə götürüb, müharibənin qızğın vaxtında igidlərimizi düşmənə hədəf göstərənlərin araşdırılmasına göstəriş verməyinizi xahiş edirəm!

**Hörmətlə: Tamxil Ziyəddinoğlu**, **Hərbi Jurnalistlər Birliyinin sədri**,

**14 oktyabr 2020-ci il**

Müraciət ünvanına çatan kimi təxribat dayandırılıb və Azərbaycan Ordusu düşmən üzərində sarsıdıcı qələbə qazanıb. Tamxil Ziyəddinoğlu qələbədən sonrakı ilk layihəsini Şəhidlərimizə ithaf edib. **“Vətən sənə canım fəda”** adlanan layihə çərçivəsində 44 günlük qələbənin rəmzi olaraq Şuşa uğrunda döyüşərək Şuşaya çatmadan şəhid olanlarımızın 44-ünün ailə üzvlərinin Şuşaya səfərini təşkil edib. Səfər zamanı o qədər həyəcanın, kədər qarışıq sevincin, emosiyanın içində Şəhid Fərid İlyaslının ziyarətçilər arasında olan qardaşı Kamala azad Qarabağda, “Xarıbülbül” restoranında ad günü keçirməsi ziyarətçilərə duyğulu anlar yaşadıb.

Tamxil Ziyəddinoğlu vətəndaşlarımıza, yurdumuzu xırda regionçuluq hisslərindən xilas etmək üçün “Bütöv Azərbaycan yolçusu” sərlövhəli yazısı ilə müraciət edib:

Məndən haralısan, deyə, - soruşmayın! Parça-parça, bölük-bölük, zərrə-zərrə doğulmuşam. Hər sümüyüm bir ormanda, hər tikəm bir ostandadır.

Gözümün biri Təbriz, biri Bakı, bir əlim Borçalı, biri Dərbənddir. Ayağımın biri İrəvanda, biri Qarabağda yer tutub. Dizlərim Ərdəbildə, Qəzvində, Zəncanda, Marağada təpər alıb. İgid olum deyə, - atam məni at belində böyütmək istədi, böyümədim. Çünki bütövləşə bilməmişdim. Nənəm məni Zəngəzurda qundaqladı, qundağında dil açmadım. Dilləndirmək istədikcə dilimi dişlədim, yaralarım qan verdi.

**Balama qurban ilanlar,**
**Balam nə vaxt dil anlar?!**

- deyə, təlaşlandı. Mən dil anlamadım. Çünki bu taylılar rusca, o taylılar farsca anladırdılar. Babamı bayrağımızı sevdiyi üçün güllələdilər. Anam məni ağlamağa qoymadı. Saçlarıma sığal çəkib, kürəyimə əl qoydu. Yola çıxarıb, get dedi:- özünü tap, bütövləş! Əgər bütövləşə bilsən, onda sən mənim oğlum Tamxil, mən də sənin anan - Bütöv Azərbaycan olacağam. Odur ki, 50 ildir yol gedirəm, 50 milyonluq “zərrə”lərimə qovuşmaq, bütövləşmək üçün yol gedirəm…

**Qafanım mənim!**

Dözə bilməm sən yağıda qalınca,
Gözlə, ordum döyüş əmri alınca.
Azərbaycan əsgərinin dalınca,
Özüm gələcəyəm, Qafanım mənim!

İlanbaşlı yağıları əzməyə,
Əsir düşmüş oymaqları gəzməyə,
Lalələri, nərgizləri üzməyə,
Özüm gələcəyəm, Qafanım mənim!

Köç gözləyir bir gün geri dönməyə,
Gədiklərdən bulaq üstə enməyə,
Yorğa köhlənləri yenə minməyə,
Özüm gələcəyəm, Qafanım mənim!

Laçında düşmənin kəfənin biçib,
Mehridə atlanıb, Gorusdan keçib,
Orda qan içənin qanından içib,
Özüm gələcəyəm, Qafanım mənim!

Əl uzatdı qol boynuna salmağa,
Dədəm dözəmmədi sənsiz qalmağa,
Oğul böyüdürəm qisas almağa,
Özüm gələcəyəm, Qafanım mənim!

Çevirib düşmənin taxtı-tacını,
Siləcəm köksündən ağrı-acını,
Ziyarət etməyə Acıbacını,
Özüm gələcəyəm, Qafanım mənim!

Tamxil deyər ormanlara baxmağa,
Qartal kimi qayalara çıxmağa,
Al bayrağı başın üstə taxmağa,
Özüm gələcəyəm, Qafanım mənim!



**Fadil Paşayev**

*Qubadlı rayonunun Dondarlı kəndində doğulub.*

**Dondarlı dağıdılmış xatirələrimin, alt-üst olmuş dünyamın tablosudur**

19 mart 2024. İlaxır çərşənbəsində sizi Dondarlıdan salamlayıram.O Dondarlıdan ki, burada təkəm. Yanımda heç kim yoxdur. Özüm belə istədim. Axı demişdim, Dondarlımla baş-başa qalacam. Sizcə, insan övladı viran qalmış yurdunda neçə saat tək qala bilər ki?! Məncə, azı iki-üç saat. Amma mən çox qaldım. İndi də burdayam. Buraxmır məni. Deyir getmə. 30 ildir mənsiz qalmısan, indi də ömrünü mənimlə başa vur. Bilmirəm, nə cavab verim. Amma kəndimlə baş-başa qalandan sonra bir çox mətləblər agah oldu mənə.

…Dondarlı, sən demə, başqa qalaktika imiş. Mən məhz kainatın bu gözəl, məsum məkanından yer üzünə endirilmişəm. Dondarlı bu baxımdan əziz imiş mənə. Elə ona görə də məndən soruşanda ki, axı niyə belə sevirsən, Məkkəyə oxşadırsan Dondarlını. Çünki Dondarlı mənim adımdır, ülvi hisslərimin ünvanıdır, yer üzündən kənar bildiyim hüzur yerimdir. Keçən yazımda da vurğulamışdım. Bu kənd mənim qibləgahımdır. Ona görə ziyarətə gəlmişəm qibləgahımı. Heç kəs yoxdur deyə, ilk baxışdan səssizlik hökm sürür buralarda. Amma əslində belə deyil. Burada hər şey danışır. Qulaqlarım eşidir, gözüm görür, nəfəsim duyur. Anlayıram ki, Dondarlı həm də mənim dağıdılmış xatirələrimin, vaxtilə alt-üst olmuş dünyamın tablosuymuş. Qarşısında durduğum baba ocağım həsrətimin rəsmidir. Bilirsiniz, mən Allaha inandığım üçün Aləmlərin Rəbbinin o dünyasına da inanıram. Cənnətə də, cəhənnəmə də. Mənə elə gəlir ki, Dondarlı mənim cənnətimdir. Adəm cənnətdən qovulduğu üçün yer üzünə göndərilir. Amansız tale də bizi öz cəhənnəmizdən qovdu. Zavallı, alçaq yağı obamızı talan etdi, öz şeytan xisləti ilə bizi 30 il yurdumuza həsrət qoydu. Şükür Allaha ki, Şəhidlərimizin qanı ilə İlahi qayıdışımız təmin edildi. Elə ona görədir ki, bu qan bizim üçün müqəddəsdir, qazilərimiz bizim üçün dini üləmalar kimi əzizdir.

…İki gün yağan yağış yolları təhlükəli etdi. Kəndimizdə piyada gəzmək çox çətinləşib. Maşın əsas yoldan kəndə daxil ola bilmir. Kəndimizi əhatəsinə alan dağların başını duman, çən alıb. Narın yağış yağır. Dondarlının səsinə qoşulub cazibədar dünyamın sehirli səslərini yaradır. Dedim axı, hələ burdayam. Bu gün elə kəndimizdə qalacağam. Kimin nə sözü olsa, şərhə yaza bilər. Xüsusən, doğma Dondarlı camaatı. Allah sizə ömrünüzün qalan hissəsini bu planetdə yaşamağı nəsib eləsin. İlaxır çərşənbəniz mübarək!

***

**Şəhid dostum, AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimova**



*Məhərrəm Əli oğlu İbrahimov (16 aprel 1982, Ardanış, Krasnoselsk rayonu – 4 iyun 2021, Susuzluq, Kəlbəcər rayonu*)

Bu gün yadıma sən düşdün, sakit, mehriban, doğma, qəlbi, niyyəti saf olmuş Məhərrəmim. Hər dəfə də sosial şəbəkələrdə geniş yayılmış bu şeiri pıçıldayıram:

Məni ağ kəfənə bükməyə nə var
Üstümə torpağı tökməyə nə var
Bazardan gül alıb əkməyə nə var
Məni sağlığımda yoxla, bəsimdir.

Öz səmimiyyətinə, sadəliyinə, hər kəsi valeh edən mehribanlığına baxmayaraq, bəzən haqsız münasibətlə qarşılaşırdın. "Bir-birimizin sağlığında qədrini bilək", - deyirdin.

Sinəmi oxlayıb, dağlama mənim
Yolumu, izimi bağlama mənim
Yeddimi, qırxımı saxlama mənim
Məni sağlığımda yoxla, bəsimdir.

Amma insanlarda bir qəddarlıq var, sağlığında çox pərişan edilir, diqqət göstərilmir...Elə bu mövzuda söhbətlərimiz tükənmək bilmirdi. Qismət elə oldu ki, sən getdin, biz qaldıq. Amma biz də gedəcəyik. Ona görə də elə hey sənin kimi haray çəkib qışqırmaq istəyirəm ki, qədrimi sağlığımda bilin, öləndə min ağı deyin, bayatı deyin, xeyri yoxdur. Vallah da, billah da belədir...

Cırma üz-gözünü, tökmə göz yaşı.
Yığma dost-tanışı, qohum-qardaşı.
Neynirəm süfrədə yağlı bozbaşı.
Məni sağlığımda yoxla, bəsimdir.

***



**AzTV-nin şəhid operatoru Sirac Abışovun anım gününə**

*Sirac Abış oğlu Abışov (29 avqust 1989, Qubadlı – 4 iyun 2021, Susuzluq, Kəlbəcər rayonu)*

Sirac mənim üçün təkcə dayıoğlu deyildi, eyni zamanda çox yaxın qardaş idi. Onu televiziyaya elə mən gətirmişdim. Çünki qaqama (bir-birimizə elə belə müraciət edirdik) özüm qədər güvənirdim, inanırdım.

Onunla bağlı çox xatirələrim var. Amma altından qırmızı xətlə çəkilən bir məqamı qeyd etməyi özümə borc bilirəm. Mən Sirac qədər ata-anasına bağlı bir insan tanımadım. Şişirtmirəm. İlahi, o atasını - Abış dayını necə dəlicəsinə sevirdi. Anasına ilahi bağlılığı bir bilsəniz hansı həddə idi.

Bir dəfə dayımdan bərk incimişdim. Eşidəndə mənə zəng etmişdi. "Fadil, sən bilirsən ki, atam mənim üçün çox müqəddəs varlıqdır. Ondan niyə incimisən, bilmirəm. Bilmək də istəmirəm. Ancaq istəyirəm ki, biləsən ki, o mənim özümdür, elə bil ki, içimdəki MƏNdir. Deməli, sən məndən incimisən. Məndən incimə".

O bu sözləri elə emosional demişdi ki, çox ürpənmişdim. Öz atasına belə bağlı olan bir övlad yaşaya bilməz deyə dəhşətli bir nəticəyə gəlmişdim.

Qorxduğum da oldu. Atasına zəngindən 15-20 dəqiqə sonra Kəlbəcərin Susuzluq kəndində əbədiyyətə qovuşmuşdu.

O acı xəbəri də elə ilk mən mediada yaymışdım. Hər kəndə gedəndə bizi elə Sirac qarşılayır. Mamam oğlu Səbahəddin, Həmzə, Bədəl, Nadir də onunladır sanki. Əziz şəhidlərimiz, siz bizim ünvan yerimizə çevrilmisiniz. Rahat uyuyun. Biz də sizinləyik.



## Bizim layihələr: Qaçaq Nəbi xalqımızın qəhrəmanlıq, mübarizlik rəmzidir




Xalq qəhrəmanı Qaçaq Nəbinin və ömür-gün yoldaşı Qoçaq Həcərin adı 150 ildən çoxdur ki, Quzey və Güney Azərbaycanda, Anadolu ellərində sevgi ilə anılır. Yazılı və şifahi ədəbiyyatımızda şəninə ən çox xalq mahnısı, qoşma, dastan, roman, povest, pyes, hekayə, poema, şeir, bədii film həsr edilən qəhrəmanımız Qaçaq Nəbidir.

"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun yenicə çapdan çıxan "Qaçaq Nəbi tarixdə, elmi, yazılı və şifahi ədəbiyyatda, incəsənətdə" monoqrafiyasında həm də bunun gerçək səbəbləri də aydın görünür. Azərbaycan xalqının milli azadlıq hərəkatı və qəhrəmanlıq tarixində xüsusi yeri olan, 20 ildən çox rus çarizminin işğalçılıq siyasətinə, bu imperiyanın əlaltısı olan nankor, xəyanətkar erməni hampalarına, sapı özümüzdən olan zalım xan, zülmkar bəylərə qarşı silahlı partizan mübarizəsinin başında duran Qaçaq Nəbiyə, dəstəsinə və ən yaxın silahdaşı, vəfalı ömür-gün, əqidə yoldaşı qaçaq, qoçaq Həcər xanıma həsr olunmuş kitabda Azərbaycan, Rusiya, Gürcüstan, İran və Türkiyə mənbələrinə, sənədlərə, arxiv materiallarına, tədqiqatçı alimlərin əsərlərinə istinadla Qaçaq Nəbi mübarizəsinin həqiqi mahiyyəti, əsas qayəsi, real tarixi xronikası oxuculara çatdırılıb. Kitabda bu mübarizənin xalq yaddaşında, incəsənətimizin müxtəlif növlərində, folklorumuzda, ədəbiyyatımızda bədii inikasını əks etdirən xeyli nümunələrə də yer ayrılıb. Çoxsaylı faktlarla diqqətə çatdırılıb ki, Qaçaq Nəbi, Qaçaq Həcər həyatlarını xalqın azad yaşamasına həsr ediblər, zülmə, ətalətə və ədalətsizliyə boyun əyməyiblər, xalq da illərlə onlara arxa, dayaq olub, bütün təhlükə, təzyiqlərə baxmayaraq, özlərini, ailəsini, qaçaq dəstəsinə qoşulanları düşmən əlinə keçməkdən qoruyub saxlayıblar.

2021-ci ildə sevilən xalq qəhrəmanımız Qaçaq Nəbinin anadan olmasının 170 ili, xəyanətlə qətlə yetirilməsinin 125 ili həm də 2020-ci il sentyabrın 27-də başlanıb 44 gün davam edən Vətən müharibəsində Qaçaq Nəbinin və Qaçaq Həcərin dünyaya göz açdığı Şərqi Zəngəzur elləri, o cümlədən, qəhrəmanların doğulduğu Qubadlı torpağı 25 oktyabr 2020-ci ildə işğal, girovluqdan qurtuluşu ilə üst-üstə düşür. Müzəffər Azərbaycan Ordusu bu savaşda ölkəmizin 20 faiz torpaqlarını 28 illik əsirlikdən azad etməklə bərabər, qanlı döyüşlərdə qazandığı qələbə ilə xalqımızın milli mənliyinin, heysiyyətinin tapdanmasına da son qoyub, milli şərəf və qürurunu da özünə qaytarıb, ucaldıb, sübut edib ki, Nəbilər, Həcərlər yetirən torpaq yağı tapdağında əbədi qala bilməz. Qaçaq Nəbinin, qoçaq Həcərin düşmənə boyun əyməyən misilsiz qəhrəmanlıqlarla dolu fədakar mübarizəsi də bu müqəddəs savaşda əsgər və zabitlərimizə mənəvi dayaq, örnək, nümunə olub. Onların çox sayda həmyerlisi, qan qohumları da dədə-baba torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərin önündə mərdlik, cəsarət, şücaət nümunəsi

göstərib, bir çoxu şəhid və qazi olub, dövlətimizin ən yüksək təltiflərinə layiq görülüb.

Kitab Qaçaq Nəbi, Qaçaq Həcərin timsalında xalqımızın azadlığı, müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda yadellilərə qarşı savaşlarda canlarını fəda etmiş igid vətən övladlarının, şəhidlərimizin, qazilərimizin əbədiyaşar xatirəsinə həsr olunub. Qeyd edək ki, kitab AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə nəşr edilib. Nəşrin üz səhifəsində verilən aforizm də düşündürücüdür: *"Tarixinə, tarixi şəxsiyyətlərinə sahib çıxmayan xalq məhvə məhkumdur"*. Kitab həm də zaman-zaman xalqın sevdiyi, dəyər-qiymət verdiyi tanınmışlarımıza çamur, böhtan, iftira atan bəzi "hərşeyşünas"larımıza da cavabdır. Elə kitabın başlıq, mövzu düzümü də Qaçaq Nəbi və Həcər xanımın həyat, mübarizə tarixinin miqyası barədə aydın təsəvvür yaradır; "Qaçaq" kimlərə deyilir, Qaçaq Nəbinin həyatı, mübarizəsi tarixi mənbələrdə, Nəbinin fiziki görkəmi, əxlaqı, Qaçağı el saxlar, Nəbinin həbsdən iki qaçışı, Qaçaq Nəbi mübarizəsinin əsas hədəfi işğalçı rus çarizmi idi, 3 rus və 1 fars generalı Nəbiyə qarşı, Peterburqdan xəfiyyə generalının gəlişi, Qaçaq Nəbi xəyanətkar ermənilərin qənimi idi, Mehdini ermənilərin öldürməsi, Nəbinin intiqamı, Novruz bayramında sui-qəsd, Nəbinin İranda xəyanətlə qətli, Həcəri özündən ay qoçaq Nəbi, Qaçaq Nəbi elmi tədqiqatlarda, Qaçaq Nəbi kinoda, musiqidə, heykəltaraşlıq və rəssamlıqda, Qaçaq Nəbi və qoçaq Həcər Türkiyə mənbələrində, Qaçaq Nəbinin Türkiyə variantı, Qaçaq Nəbi Güney Azərbaycanda, Bəhlul Behcət və onun "Qaçaq Nəbi" əsəri, Nəbi-Həcərin kəndi, ailəsi, soy-kökü, törəmələri, Qaçaq Nəbi, Qaçaq Həcər obrazı nəsrimizdə, Qaçaq Nəbi - Həcər obrazı şeirimizdə, Qaçaq Nəbi və Qoçaq Həcərə həsr edilmiş xalq nəğmələri, qoşmalardan seçmələr, Qaçaq Nəbi-Həcər yurdunun şəhid övladları və s. Kitab xalq qəhrəmanlarımız haqqında yazılmış ən populyar əsərlərdən biri olan tanınmış yazıçı Cəlal Bərgüşadın "Bozatın belində" romanından epiqrafla açılır: *"Dünyada mənə elə bir igid göstərin ki, iyirmi bir il el-obasından didərgin düşüb, öz ömür-gün yoldaşı ilə qaranlıq mağaralar da, qalın meşələrdə, qarlı dağlarda məskən salmış olsun. Dünyada mənə elə bir cəngavər göstərin ki, at belində yaşa dolub, at belində vuruşsun; at belində qocalıb, at belində həlak olsun. Belə bir xalq qəhrəmanına və onun özündən qoçaq can yol daşına bəstələnən el nəğmələri bir vaxt anamın laylasına qarışıb mənim də beşiyimə axmışdır. İndi bu nəğmələri mən öz sə simlə oxumaq istəyirəm"*.

Tariximizə, xalq qəhrəmanlarımızın şərəfli ömür yoluna ayna tutan Qaçaq Nəbi - Qaçaq, Qoçaq Həcər haqqında bu kitab da eyni sevgi ilə yazılıb.

https://525.az/news/178746-qacaq-nebinin-170-illiyine-hesr-olunmus-kitab-nesr-edilib?fbclid=IwAR22r7fquYUWy7ZuOxrVV3qa5JSkUDHVeA30bsZtFLQM1K_LXg7LA9BKbyM
https://azertag.az/xeber/Xalq_qehremani_Qachaq_Nebinin_170_illiyine_hesr_olunmus_kitab_nesr_edilib-1904914
https://xalqqazeti.com/mobile/az/news/87844 və s.




## Sultan bəy və Xosrov bəy qardaşları

### "Zəngəzur" Cəmiyyətləri Birliyi Sultan bəy və Nuru paşanın yubileyləri münasibətilə müsabiqə keçirib

"Zəngəzur" Cəmiyyətləri Birliyinin İdarə Heyəti 1918-1919-cu illərdə Azərbaycanın rus-ingilis-fransız-erməni silahlı qüvvələri tərəfindən işğalına, xalqının soyqırımına, milli müstəqilliyinin ləğvinə yönəlmiş hərbi fəaliyyətlərinin qarşısının alınmasında Azərbaycan Cümhuriyyətinin ilk hərbi naziri Xosrov bəy Sultanovla böyük qardaşı Sultan bəyin və Osmanlı Dövlətinin son hərbi naziri Ənvər paşa ilə qardaşı Nuru paşanın mühüm xidmətlərini, şəxsi qəhrəmanlıq və misilsiz şücaətlərini;

– 2011-ci ildə adları Azərbaycan tarixinə əbədi yazılmış Sultan bəyin anadan olmasının 140, Nuru Paşanın anadan olmasının 130 illik yubileylərini;

– işğal altında olan Qarabağ-Zəngəzur bölgələrimizin düşmən əsarətindən qurtuluşunun xalqımızın milli mənlik, heysiyyət, qürur, vətənpərvərlik və hərbə hazırlıq duyğularının oyanışından keçdiyini;

– bu yolda Sultan bəy və Nuru paşanın komandanlıq, qəhrəmanlıq və xalqı vahid məqsəd uğrunda birləşdirmək bacarığının tariximizin şərəfli, ibrətamiz örnəyi olduğunu;

-Türkiyə-Azərbaycan birliyinin xalqlarımız və dövlətlərimiz üçün çağdaş dövrümüzdə hər zamankından daha ümdə əhəmiyyət kəsb etdiyini əsas tutaraq qərara alır:

1.Sultan bəyin və Nuru paşanın həyat və mübarizəsinə, Türkiyə-Azərbaycan qardaşlığına həsr edilmiş ən yaxşı kitab, məqalə, teleradio materiallarının hazırlanması və qaliblərin müəyyən edilməsi, ən yaxşı tədqiqat əsərinin QHT-nin maliyyəsi hesabına nəşri və müəlliflərin mükafatlandırılması məqsədilə müsabiqə elan edilsin, təşkilat komitəsi yaradılsın.

2. İlboyu ölkə mediasında Sultan bəy və Nuru paşanın həyat və mübarizəsinin təbliği istiqamətində yazılar dərc edilsin.

20 fevral 2011-ci il, "Zəngəzur" Cəmiyyətləri Birliyi İdarə Heyəti

**Qeyd:** Bu müsabiqənin yekunu olaraq professor Ziyadxan Nəbibəylinin (1946-cı ildə Laçının Bölüvlük kəndində doğulub) "Sultan bəy və Xosrov bəy qardaşları" kitabı nəşr olunub (Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, 224 s.).

https://zengezur.com/index.php/kh-b-rl-r/107-znzhzur-dzmiyytlri-birliyi-musabige-elanan-by-nuru-paa-l-elan-etdi

## "Zəngəzur" 2 topluda 10 dildə yazan 168 müəllifin yaradıcılığını birləşdirib




"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi Vətənimizin cənub regionunda yaşayan, Azərbaycan və talış dillərində yazıb-yaradan 128 şair və nasirin yaradıcılığından seçmələrin toplandığı **"Gəl bizim yerlərə..."** və Azərbaycanın şimal bölgəsində yaşayan, 8 dildə - Azərbaycan, ləzgi, tat, xınalıq, dağ yəhudiləri, qırız, buduq dillərində yazan 55 şair və nasirin əsərlərinin toplandığı **"Bir yanı Şah dağı, bir yanı Xəzər"** adlı ədəbi-bədii topluları nəşr edib.

Astara, Lənkəran, Quba, Qusar rayonlarındakı Heydər Əliyev mərkəzləri və mərkəzi kitabxanalarda keçirilən təqdimatlarda çıxış edənlər ölkəmizin multikultural mənzərəsinə ədəbi-bədii yönünə güzgü tutan bu almanaxların toplanıb nəşr edilməsini əlamətdar hadisə adlandırıblar.

Birliyin "Etnik qruplar arasında azərbaycançılıq ideologiyasının təbliği və mədəni müxtəlifliyin inkişafına dəstək" layihəsi çərçivəsində təşkil edilən "Azərbaycan - ümumi evimiz, doğma Vətənimizdir" mövzusunda konfranslar da yaddaqalan olub.

"Zəngəzur" Birliyi tərəfindən respublikamızın elm, təhsil, turizm, mədəniyyət müəssisələrinə, kitabxanalara, tədbir iştirakçılarına, yaradıcı ziyalılara kitabların nüsxələri ilə birlikdə ölkəmizdə yaşayan azsaylı xalqların tarix, mədəniyyət və məişətini, turizm imkanlarını əks etdirən sənədli filmlərin toplandığı audio-video disklərlər də hədiyyə edilib.

https://azertag.az/print/1070310




**Əyyub Abasovun**
**"Zəngəzur" romanından**
**seçmələr**
**12 dildə yayılıb**




Əyyub Abasov: yazıçı, dramaturq, jurnalist, Azərbaycanın Əməkdar İncəsənət xadimi. 1905-ci ildə Azərbaycanın Zəngəzur mahalının Şəki kəndində (indiki Ermənistanın Sisian rayonunda) anadan olub.

1918-ci ildə general Andranik Ozanyanın başçılığı ilə erməni yaraqlılarının Zəngəzurda törətdiyi genosid nəticəsində doğmalarını itirir. 13 yaşında, qətliamdan qurtulmuş az sayda həmkəndliləri ilə Naxçıvana üz tutur, orada qohumlarının yanında yaşayır.

1930-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirdikdən sonra 1934–1937-ci illərdə Leninqradda (indiki Sankt-Peterburq) redaktorluq və tərcüməçilik kurslarında təhsil alır.

Sovet-KQB rejiminin hökm sürdüyü bir dövrdə 1918-1920-ci illərdə ermənilərin Zəngəzurda törətdiyi qanlı qətliamların obyektiv mənzərəsini əks etdirən, Andranik, Dro, Njde, Hamazasp, Karo kimi qaniçən erməni cəlladlarının obrazlarını ustalıqla təsvir edən ikicildlik "Zəngəzur" tarixi romanını yazır.

1957-ci ildə işıq üzü görmüş bu romanın nəşrindən az sonra – həmin ilin dekabr ayının 18-də yazıçı 52 yaşında şübhəli şəraitdə dünyasını dəyişir.

"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin dəstəyi ilə roman nəşr edilib. T.ü.fəlsəfə doktoru Hacı Nərimanoğlunun müəllifi olduğu "Zəngəzur faciəsini yaşayan və yaşadan ədib" monoqrafiyası akademik İsa Həbibbəylinin Ön Sözü ilə nəşr edilərək ölkənin elm, təhsil, mədəniyyət  müəssisələrinə paylanıb.

Tarixi romandan hissələr 12 dilə - ingilis, rus, türk, fars, ərəb, gürcü, fransız, ukrain, çex, ispan və alman və digər dillərinə çevrilərək, xarici KİV-də, beynəlxalq internet məkanında yayılıb.

https://www.aztc.gov.az/az/posts/id:1295

**"Zəngəzur" romanından parçalar**

"Qızılcıq kəndində hələ bu gecəki qədər adam olmamışdı. Evlər, küçələr, xırmanlar adamla dolmuşdu. Onlar yayın bu gözəl gecəsində kəndə qonaq deyil, ölümün pəncəsindən qurtulub gəlmişdilər. Bu adamlar dağıdılmış, yandırılmış ayrı-ayrı kəndlərdən – Ağudidən, Vağüdidən, Uruddan, Qarakilsədən gəlmişdilər. Hamısı Andronikin topunun, tüfənginin ağzından qurtarmışdı. Lakin fəlakət onları yenə izləyirdi... "bala, vay", "bacı, vay", "ata, vay", "yazıq balam, qaldı",

“yurdum, komam yandı”, “çörək...” fəryadı, ürəkləri yandıran ah-nalə səsindən qulaq tutulurdu... Bu ətrafda yeməyə ot da, gicitkən də qalmayıb... Andronik qoşununu və erməni əhalisini Gorusda bir meydana toplayıb “qələbə” münasibətilə onları təbrik etmiş və demişdi: “Gördünüzmü, Türkiyədə qırılan ermənilərin intiqamını Zəngəzur müsəlmanlarından necə alıram! İndi mən qalan müsəlman kəndlərinin də daşını daş üstə qoymayacağam”.

***

“1919-cu il, aprel ayının axırları idi… Malını, pulunu özü ilə aparmağa müvəffəq olmuş dövlətlilər və bəzi kəndlilər istisna olunarsa, Zəngəzur qaçqınlarının güzəranı getdikcə pisləşirdi. Minlərlə insan səfalət içində idi, onların əkməyə torpaqları, yeməyə çörəkləri, geyməyə paltarları yox idi. Boğazlarına keçmiş fəlakət zəncirini qırıb atmağa heç bir yol və imkan tapa bilmirdilər. Yaxşı yaşamaq üçün deyil, yalnız ölməmək üçün hər bir əzab-əziyyətə, təhqirə dözməyə məcbur idilər. Zəngəzur qaçqınları fəlakətli, səfalətli bir həyat içində haradansa xoşbəxtlik günəşinin doğacağını gözləyirdilər. Hamı, yandırılıb viran edilmiş də olsa, öz kəndinə, yurd-yuvasına qayıtmaq, yenidən yaşayış qurmaq həsrətində idi. Lakin daşnakların hökmranlıq etdikləri bir torpağa qayıtmaq mümkün deyildi…”

***

“…Kəndlilər, yoxsullar! Daşnak hökuməti dövlətlilərin, məliklərin, mülkədarların hökumətidir. Daşnaklar iş başına gələndən sizin güzəranınız daha pisləşib. Kəndləri aclıq, dilənçilik əldən salıb. Daşnaklar müsəlmanlarla və gürcülərlə davanı kəsmək istəmirlər, əksinə, getdikcə qızışdırırlar. Az-çox taxılınızı, mal-qoyununuzu əlinizdən alıb qoşuna yedirdirlər. Evdə isə külfətiniz acından ölür. Sizi cürbəcür yalan vədlərlə aldadırlar. Yoxsullar, uşaqlarının göz yaşını bir parça çörəklə qurutmaq üçün torpağını satmağa məcbur olur. Varlılar isə “Mənim sizə verəsi artıq torpağım yoxdur. Toxumdan da borc olmaz, gedin başınızın çarəsini özünüz qılın…” – deyir”.

***

“Erməni zabiti dedi:

– “Ərə, a dəli musurman, lovğalanma, yava-yava danışma! Siz Zəngəzuru necə ala bilərsiniz? Bilmirsiz ki, amerikanlar və general Denikin də bizim dalımızda durub! Yəqin bilin ki, sizi Əsgərana kimi qovacayıq. Hələ Qarabağı da, Naxçıvanı da əlinizdən alacayıq!”

***

“İkimərtəbəli evin qabağında böyük bir izdiham vardı. Öz aralarında kədərli-kədərli danışan, cır-cındalı adamlar nə isə bir xəbər gözləyirdilər. Bir xeyli keçəndən sonra 58–60 yaşlarında, ortaboylu, enlikürəkli, başı-bığı çallaşmış, rus generalı paltarında bir adam içəridən balkona çıxdı. Onu görən kimi hamı:

– Andronik paşa! Andronik paşa! – deyə əl çaldı.

Andronik əlini qaldırıb onların sakit olmalarına işarə etdi. Hamı sakit olub gözünü ona dikdi. Andronik dedi:

– Qaxdaqanlar! (ermənicə qaçqın deməkdir – H.N.) Elindən, kəndindən ayrı düşmüş ermənilər! Mən sizin dərdinizi bilirəm. Yaşamağa eviniz, əkməyə torpağınız, yeməyə çörəyiniz yoxdur. Siz onları Ərdəhanda, Qarsda, Sarıqamışda qoydunuz. Burda isə sizin dərdinizə ağlayan, qeydinizə qalan yoxdur. İndi məndən kömək istəməyə gəlmisiniz. Mən əlimdən gələni eləyəcəyəm. Mən sizi bu hala salan türklərdən Türkiyədə intiqam ala bilmədimsə, Qafqazda, bax, bu Zəngəzurda alacağam. Gözləyin, o günü gözləyin! İndi evinizə gedin!

"Bəs haçan? Biz axı dolana bilmirik!" – deyən səslər ucaldı. Andronik onların suallarına, dediklərinə fikir verməyib içəri girdi.

Adamlar bir-birinin üzünə baxdı. Aralıqda yavaşdan və ucadan danışıqlar getdi: "Zəngəzurda kimdən intiqam alacaq? O bizə nə kömək edəcəyini demədi. Əşi, bəri gəlin. Andronik paşadan da bir şey çıxmaz..."

"Andronik gülümsünərək:

– O hansı hökumətdir? – dedi.

– Ermənistan milli hökuməti.

– Bəlkə, siz Tiflis hökuməti demək istəyirsiniz? O ki, oyuncaqdır, hökumət deyil!

– Məncə, hərbi adamlar siyasətdə daha gözüaçıq olmalıdırlar. İndi Tiflis hökuməti yoxdur. Zaqafqaziyada üç hökumət var: menşevik, müsavat və erməni hökumətləri. Siz erməni olduğunuz üçün Ermənistan hökumətinə tabe olmalısınız. Haralı olduğunuzu, nə fəaliyyət göstərdiyinizi və haradan gəlib bura çıxdığınızı öyrənmişik. Sizin də, bizim də məqsədimiz bir olmalıdır. Mən onu demək istəyirəm ki, siz başınıza topladığınız hərbi dəstəni erməni milli qoşununa qatmalısınız. Özünüzsə bir zabit kimi erməni ordusunda xidmət etməlisiniz. Siz...

Andronik onun sözünü kəsərək:

– Mən sadə zabit deyiləm, cənab, generalam! – dedi.

– Məsələ adda deyil, sizə paşa da deyirlər. Halbuki bu türk hərbi adı da erməni olduğunuz üçün sizə yaraşmır. Nə isə, bizim Zəngəzurda topladığımız qoşun hissəsinin iqamətgahı bu Gorus olacaqdır. Elə eləmək lazımdır ki, soldatlar arasında toqquşma olmasın".

***

"Keşiş dedi:

– İçməmişdən qabaq iki sözüm var, – hamı gözünü ona zillədi. Keşiş davam etdi: – Pristav ağa buyurdu ki, Qafqaz xalqlarının dillərini öyrənir. Bu yaxşıdır. Amma qabaqca erməni dilini öyrənsə daha yaxşı olar. Çünki erməni dili, erməni tarixi daha qədimdir.

– Onu da öyrənərik, keşiş, – deyə pristav gülümsündü.

Onun gülüşündə müəmmalı bir istehza hiss edən Mesrop pərt olaraq dedi:

– Bəli, bəli, pristav ağa, mən isbat eləyərəm ki, erməni milləti çox qədim tarixə malikdir. Mənim dediyim budur ki, erməni dilində məktəb açılsın."

***

“Keşiş Mesropun bu sözləri erməni kilsə düşüncəsinin ifadəsidir: "Mənim millətim hamı millətlərdən alidir. Heç bir millətin tarixi ermənilərinki kimi qədim deyil. Hər daşı qaldırsan, altından bir erməni tarixi çıxar..."

***

“Andronik birinci davada buraxdığı səhvə yol vermək istəmirdi. İkinci hücumda bütün çıxış yollarını kəsməli, heç kəsi salamat buraxmamalı idi.... Müsəlman kəndlərinin biri də salamat qalmamalıdır”.

“Njde dedi:

– Keşişağa, sən bu saat Tehrana yola düşməlisən.

– Tehrana?

– Bəli, keşiş ağa. Səni özümə sədaqətli bir adam bilib Tehrandakı ingilis konsulunun yanına göndərirəm. Syunik hökumətinin və erməni millətinin bir nümayəndəsi kimi onunla görüşüb danış. De ki, Syunik hökuməti Zəngəzurun meşələrini, mis mədənlərini, bütün yeraltı sərvətlərini onlara verməyi vəd edir. Xüsusi qeyd et ki, Njde sizə arxalandığı üçün qırmızılara təslim olur. Bəs ingilis qoşunu niyə hərəkətə keçmir? Niyə bizi döyüş meydanında tək qoyur? Britaniya hökuməti Zaqafqaziya kimi bir incinin bolşeviklərin əlində qalmasına niyə razı olur? Sonra ingilis konsulun vasitəsilə İran hökumətinin başçıları ilə də görüş. Onlara de ki, bolşeviklər yerlərini Zaqafqaziyada bərkitsələr, İran həmişə təhlükə altında qalacaq. Qoy İran hökuməti də bizə bacardığı qədər kömək etsin...”

***

“Başı qarlı, dumanlı dağlar, yaşıl otu daha öz təravətini itirib saralmış çəmənlər Zəngəzur qaçqınlarını öz qoynunda çox saxlaya bilmədi. Sanki onların fəryadını dinləməkdən yoruldu... Paltarsız, yorğan-döşəksiz, ac insanlar köçəri quşlar kimi başqa yerlərdə həyat axtarmağa getdilər. Bəzi ailələr Naxçıvan mahalına yol aldı. Bəziləri Kürdüstan, Cəbrayıl, Bərdə, Ağdam, Yevlax tərəfə üz tutdu. Bəziləri: əlsiz-ayaqsızlar, atsız, ulaqsızlar, xəstələr, yaralılar özlərinə yaxınlarda mənzil seçdilər. Onlar Minkəndə, Mollaəhmədliyə, Qarakeşişə getdilər. Orada da bir yer, sığınacaq tapa bilmədiklərindən kahalara doluşdular.

***

Bu isə “Zəngəzur” romanının son sətridir:

**“Biz o yerlərə dönəcəyik!”**




**Şəhidlər, Qazilər! Bu Zəfər üçün sizlərə borcluyuq!**

***Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev: "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı".***

Torpaq, Vətən, Haqq, Ədalət uğrunda savaş müqəddəs kitabımız "Qurani-Kərim"də ən böyük savab əməl hesab olunur və bu yolda canını qurban verənlər müqəddəs Şəhidlik zirvəsinə ucalır, dinimizə görə Haqq dərgahında əcrə yetişmiş, cənnətə qovuşmuş sayılırlar. "Haqq yolunda şəhid olanları ölmüş hesab etməyin, əksinə, onlar öz Rəbbinin dərgahında diridirlər və əcrə yetişən sayılırlar." Ali-İmran, 169. "Allah yolunda savaşın sizinlə savaşanlarla. Ancaq təcavüz etməyin. Təcavüzkarları sevməz Allah. Harda yaxalasanız öldürün onları, sizi çıxardıqları yerdən siz də çıxarın onları." Bəqərə, 190-194 "Ey iman sahibləri, qisas alırsınızsa, yaşayırsınız deməli, beləcə qorunursunuz Allahın əzabından". Bəqərə, 179 "Fitnədən əsər-əlamət qalmayana qədər onlarla savaşın". Ənfal, 39 "Sizə qarşı hərb açıldığı üçün, zülmə uğramanız səbəbi ilə cihada izin verildi". Həcc,39 "Qüvvəniz yetən qədər qüvvə yığın, savaş atlarını hazır saxlayın ki, qorxuya salasınız Allahın və sizin düşməninizi". Ənfal, 60 "Küfrü artırmaq deməkdir savaşı başqa aya keçirmək. Bununla kafirlər azdırırlar sizi". Tövbə, 37 "Ey Peyğəmbər! Savaşa qalx kafirlərlə. Budur o böyük qurtuluş".Tövbə, 73 və sair.

Məhəmməd Peyğəmbər (s.ə.s), Həzrət Əli (r.a), İmam Hüseyn (r.a) torpaq, din uğrunda, Allahın sevmədiyi, öldürməyi əmr etdiyi təcavüzkarlarla savaşda özlərindən sonra gələn islam ümmətinə, müsəlmanlara Şəhid olmağın yolunu,




nümunəsini, mərtəbəsini də göstərmişlər. Bədir, Hüneyn, Əbtac, Xeybər döyüşlərində Peyğəmbərimiz özü öndə getmiş, hücum, müdafiə planları qurmuş, sərkərdəlik etmiş, hər dəfə də qalib olmuşdu. Uhud döyüşündə çoxlu yara alıb al qanı axan Peyğəmbərimiz özünün sonuncu oxlarını da yanında vuruşan Əbu Vənnasa verərək deyib: - Al bu oxları da at, vur, öldür düşməni! Peyğəmbərimizin qılıncı üzərində yazılmışdı: "Qorxaqlıqda ar və zillət, irəli atılmaqda şərəf və izzət vardır".

Ana kitabımız olan “Kitabi-Dədə Qorqud”da, Dədə Qorqudun öyüd, vəsiyyət, kəlamlarında yağı düşmənlərdən intiqam, qisas almaq ən şərəfli borc, örnək sayılıb: “Qazan xan durub söylədi: - Uca Tanrıdan səs gəldi. Beyrək mənə süs gəldi - Niyə qanım yerdə qalıb? Alın onun qisasını...”

28 ildən bəri yağı tapdağında qalmış Qarabağın, Zəngəzurun əsarətdən azad edilməsi uğrunda döyüşən Vətənimizin ən sayseçmə gəncləri ürəklərində həm də bu inamı daşıyır, intiqam, qisas üçün savaşır, bu ruhla, amal – intiqam hissləri ilə vuruşurdular. Şəhidlik türk düşüncəsində şəxsin yetişə biləcəyi ən yüksək məqamdır.

Türkün böyük şairi Mehmet Akif Ərsoyun Çanakkala şəhidlərinə həsr etdiyi dahiyanə şeirin son misraları sanki eynilə Azərbaycan şəhidlərinə yazılıb: “Ey şehid, isteme benden makber, sana âğûşunu açmış duruyor Peygamber."

*Ümummilli lider Heydər Əliyev: Vətənin müdafiəsi hər bir vətəndaşın ən ülvi, ən uca, ən müqəddəs borcudur. Bu müqəddəs borcun yerinə yetirilməsində Şəhid olanlar ən böyük hörmət və ehtirama layiqdir. Onların qəhrəmanlığı xalqın xatirəsində daim yaşayacaqdır.*

Azərbaycanın 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük savaşda canlarını qurban verən şəhidlərimizin böyük bir qismi 1988-1994-cü il I Qarabağ müharibəsi şəhidlərinin övladları, mənəvi yetirmələri və davamçıları idi. Allahtaala şəhidlərimizi cənnətlə müjdələmişdir və sevgili Peygəmbərimiz isti qucağını açıb şəhidlərimizi gözləyir. Şair Kamil Sərbəndi yazır:

Kim Şəhid olmuş, bəqa mülkündə cənnətdir yeri,
Atəşə düşməz, nə də görməz əzabi- məhşəri.
Bunları Allah edib nazil, yazıb Peyğəmbəri
Ayeyi-Quran ilə dillərdə əzbərdir Şəhid.

Şəhidlərimiz fəxrimiz, başucalığımızdır, torpağı vətən edənlərimizdir, düşmən belini qıranlarımız, xalqımızın mənlik, heysiyyətini özünə qaytaranlarımızdır, əyilmiş qəddini, bağlı dilini, qırpıq gözlərini, bağlı qollarını açanlarımız, sapı özümüzdən olan xəyanətkarın kökünü kəsib doğrayanlarımızdır. Şəhidlər, Siz torpaq altında dərin köklərimizsiz yatırsınız al- qan içində. Siz torpaq altında dərin uyqudaykən düşməni cağırdılar satıldıq, oyanın!!! Biz torpaq üstündə dərin uyqudayıq qalxın, oyadın, oyandırın bizi, Şəhidlər!!! Xalqımıza, türksoylu qardaş ölkələrimizə, bütün azadlıqsevər millətlərə qələbə sevinci gətirən Ordumuzun II Qarabağ savaşında qazandığı zəfər, xüsusilə alınmaz, əlçatmaz, ünyetməz sayılan Şuşa qalasının alınması dünya hərb tarixinə yazılan unikal döyüş səhifəsidir, nadir qəhrəmanlıq, cəsarət, şücaət nümunəsidir. İnsan ayağı dəyməyən keçilməz meşəliklərlə, vəhşi heyvanların əhatəsində, yalnız təbiəin yetirdiyi ağac, bitkilərlə qidalanan, özlərinə yeyəcək tapan xüsusi təyinatlılarımız gündüzlər gizlənib yalnız gecələr qibləyə - Şuşaya doğru irəliləyib yol gedirdilər. Şuşaya aparan bütün yollarda istehkamlar düzəldən ermənilərin yatsa yuxularına girməzdi ki, insan ayağı dəyməyən bu sıldırım hündür qayalıqlardan bəni-insan yuxarı dırmaşa bilər, keçilməzi vəhşi meşəliklərdən kimsə cığır aça bilər. Bunu yalnız Azərbaycan əsgəri bacara bilərdi. Onlar hamısı 14 yüngül silahlı idilər, ilk sırada döyüşə atılanlar də səs salmamaq üçün bıçaq, süngü ilə, illərin təlim məşqlərində qazandıqları əlbəyaxa savaşlarla qarşılarına keçənləri qırıb çatırdılar. İsti otaqlarda yeyib yatmış mənfur düşmən bu qorxunc qara paltarlıların qorxubilməyən hücumu qarşısında əzilib sınır, məhv olurdular. Hətta, avtomat atəşlərindən ağır yara alan döyüşçülər də qanları axa-axa caynaqlarını keçirdiyi əzanı dartıb qoparmadan, can almadan can vermirdilər. Üzü üstə yerə sərilən hər əsgəri başqası əvəz edirdi. Belə savaşı yalnız kino-filmlərdə görünmmüşdü. Onlar xəyalı gerçəyə çevirmişdilər, Azərbaycan əsgərlərinin fiziki, mənəvi ruhu, enerjisi bitib tükənmək bilmirdi. Atilla qoşunlarının Avropa yürüşlərində düşmən üstünə atılanda hayqırdığı “vur aaa!!!” nidası iki min ildir ki “uraaaa” sədası ilə yaddaşlara həkk olunduğu kimi, Azərbaycan xüsusi təyinatlılarının “Allahüəkbər!” nidaları da düşməni eləcə vahiməyə salırdı. Budur müsəlman, islam, türk ruhu, iman, inamı! 30 ildən bəri Qarabağın hər qarışını istehkama çevirən düşmən və onun hərbi-siyasi havadarları bunu nəzərə almamışdı, anlamamışdı. Sıldırım qayalarda biri-birinin çiyinləri üzərində Şuşa qalasına qalxan Azərbaycan

əsgərinin bu qəhərmanlığı, şücaət, rəşadəti ən gözəl film, bədii əsər mövzusudur, həm də ən böyük alqışa, əbədi sevgiyə layiqdir.

Bu fikirləri digər əməliyyatlara da şamil etmək olar. Prezident, Ali Baş Komandan İlham Əliyevin bu sözlərində böyük həqiqət var: "Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi".

Alqış Vətən torpağını,
Candan əziz bilənlərə.
Alqış olsun Vətən üçün,
Döyüşlərdə ölənlərə!

…Belə oğullarla torpaq – Vətəndir,
Əllərdən düşməyən bayraq – Vətəndir,
İgidlər uyuyan torpaq - Vətəndir,
Diz çökək, güc alaq Şəhid adından,
Torpaq Vətən olur Şəhid qanından.

Qaçaq Nəbi, Həcər xanım, Sultan bəy, Xosrov bəy, Valeh Bərşadlı, Məhəmməd Əsədov, Rövşən Cavadov, Əliyar Əliyev, Şükür Həmidov kimi qəhrəmanların yurd yerləri olan Zəngəzur ellərinin igidləri Vətən, Torpaq uğrunda döyüşlərdə rəşadətləri ilə örnək göstəriblər .Bizlərə son 200 ilin ən böyük Zəfərini yaşadan II Qarabağ müharibəsinin Komandanı İlham Əliyevdir, Azərbaycan Ordusudur, Şəhid və Qazilərdir, əsgər və zabitlərimizi dünyaya gətirən, Vətən sevgisi ilə böyüdən Ata-Analardır.

*Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva "Əziz analar, mən bir ana kimi sizin qarşınızda baş əyirəm. Siz elə övladlar böyütmüsünüz ki, bu gün bütün xalq onlarla fəxr edir. Əlbəttə, heç bir ana istəməz ki, müharibə olsun, övladlarımız gənc yaşında dünyalarını dəyişsin. Dünyanın ən böyük sərvəti olan ömrünü Vətən naminə qurban verən hər bir övladımız Azərbaycanın tarixində qəhrəman kimi yaşayacaq. Bu günlər bütün xalqımız ordumuza dəstək verir. Əziz analar, sizin qəlbinizdə yaşayan ağrı və kədər əminəm ki, hər bir Azərbaycan qadınının ürəyində yaşayır. Bir daha çox sağ olun. Çox sağ olun ki, belə övladlar böyütmüsünüz. Allah sizləri, Azərbaycanı qorusun!*

Torpaq, Vətən, Bayraq sevgisi şəhidlərimizin qanında, canında idi. Müharibədən onlarla canlı kadr yaddaşlarda əks olunub; qanı axmaqda olan yaralı qazilərimiz son nəfəsdə dövlət bayrağımızı gözlərinə, köksünə, ağuşuna, yaralı sinəsinə sıxır, qanı ilə isladır, torpağa qovuşmadan sanki bayrağına borcunu ödəməsi, əmri yerinə yetirməsi barədə raport verir. Bayraqları bayraq edən üstündəki qandır, Torpaq-əgər uğrunda ölən varsa, Vətəndir! Torpaq Şəhid qanı ilə suvarılmasa, Azadlıq ağacı bar verməz. Qarabağı Azərbaycana, Azərbaycanı Qarabağa qovuşduran müzəffər Ordumuzun Şəhid və qazilərinə, əsgərlərinə sevgimiz əbədidir, onlar hər zaman bizimlədir!

Ölüm sevinməsin qoy! Ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirə tək, qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər!***

# "ZƏNGƏZUR" TOPONİMİ HAQQINDA

"Zəngi" oğuz-səlcuq türklərinin ən geniş yayılan güclü tayfalarından biri olub; Mosul, Kərkük, Suriya, Özbəkistan, Türkmənistandan başlamış, Qərbi Azərbaycan, Arazın o tay bu tayında zəngi adına bağlı 60-dan çox yer adı var; Zəngiçay, Zəngitəpə, Zəngərik, Zəngişamlı, Zəngənə, Zəngilan, Zəngəran, Zəngənə, Zəngişalı, Zəngidərə çayı, Zəngibasar, Zəngilər, Zəngan – Zəncan, Zəngilli, Zəngi çayı və b. Mahmud Kaşğari, Fəzlullah Rəşidəddin, Abbasqulu ağa Bakıxanov, Əbdülqazinin və b. əsərlərində, habelə bir çox digər yazılı mənbələrdə «zəngi» etnoniminin adı çəkilir.

Zəngi tayfaları Azərbaycan Atabəylər, Səfəvilər hakimiyyətlərinin əsas sütunlarından olub. 1127-1250-ci illərdə Mosul, Dəməşq, Hələbi də əhatə edən Zəngi dövləti mövcud olub. Səlcuqlu əmirlərdən Mosul hakimi İmad əd-din Zəngi ibn Sonkur (sunqur-şahin, qartal cinsindən quş adıdır) ilə başlanan (1127) zəngi soyunun hökmranlığı Mosul bəyliyində Mahmudun ölümü (1222) ilə bitdi, lakin zəngi soyu təkcə Mosulda deyil, Hələb və Dəməşq bəyliklərində də hakimiyətdə idi. Zəngi soyunun əhali arasında geniş dayağı olub.

Qırğız mifologiyasında qaramal hamisinin, qoruyucusunun Zəngi-Ata adlandığını qeyd edir. İraq valiliyinə təyin olunan İmadəddin Zəngi, 1127-ci ildə Mosul, 1128-ci ildə Hələb və sonra da Suriya şəhərlərini ələ keçirib. İmadəddin Zəngi siyasi bacarığı ilə və Səliblərə qarşı nailiyyətli mübarizəsilə, Mesopotamiyanı və Surıyanın böyük bir hissəsini hakimiyyətinə daxil edib. İmaməddin Zənginin oğlu Nurəddin Mahmud Zəngi Suriyada fəth işlərini başladaraq 1154-cü ildə Dəməşqi ələ keçirib. Nurəddinin qardaşı Seyfəddin isə 1146–1149-cu illər arasında Mesopotamiyanı fəth edib. Seyfəddin Zəngi xanədanın Mosul bölgəsini təşkil edib və 1146–1262-ci illər arasında hakimiyyətdə olub. Zəngi idarəsini zirvəyə çıxaran şəxs isə Nurəddindir. O, hakimiyət sahəsini Fatimi Dövləti idarəsindəki Misirə qədər genişlədib və ailənin bütün tayfalarını hakimiyyətinə daxil edib. Nurəddinin oğlu İsmayil 1174-cü ildə Zəngilərin xidmətində güclənən Səlahəddin Əyyubiyə məğlub olub. Zəngi xanədanının, soyunun ən nüfuzlu təmsilçilərindən birinin adı Laçın-dır. Sincar qolu 1220-ci ildə, Cəzirə qolu 1250-ci ildə Əyyubilər Dövləti və Mosul qolu isə 1262-ci ildə Elxanlılar dövləti tərəfindən aradan qaldırılıb. Türk qardaşlarımızın ekranlara çıxan "Kudüs Fatihi Selahaddin  Eyyubi" serialında Zəngilərin adı tez-tez çəkilir (bizim də bacanaqlar, baldızlar, xala-bibilər...səviyyəsindən qurtulub Şah İsmayıl Xətai, Nadir şah, Qaçaq Nəbi, Sultan bəy, Şuşa fatehləri...haqqında abırlı filmlər çəkən vaxtımız olacaqmı?!).

"Zəngəzur"dakı ikinci leksem «sur/zur» barədə

Sur təmiz türk mənşəli sözdür, bu cümlələrdə gen-bol işlənən "sur" lekseminə,  kəlməsinə diqqət yetirək: "Kaleleri düşman saldırılarından korumak için inşa edilmiş olan yüksek duvarlara sur adı verilir. Tarihteki en uzun surlar Çinliler tarafından, M. Ö. 3. yüzyılda yapılmıştır. Bu surun en ayırt edici özelliği ise

uzaydan görülebilen tek yapı olmasıdır”. https://www.milliyet.com.tr/egitim/sur-ne-demek-sur-tdk-sozluk-anlami-nedir-6549828

“İstanbuldaki Semt İsimleri nereden geliyor” başlıqlı yazıdan: “Bizans zamanında yapılan surların”, “Bizans Döneminde “her tarafı surlarla çevrili” anlamını taşıyan Pantecion, Latin egemenliğinde ise “duvar” anlamına gelen Peninda-kot ismini almıştır. Mercan ya da Beyazıt dolaylarındaki eski sur benzeri yapının aşağı kotunda yer aldığı için bu ismi aldığı tahmin ediliyor.

sur sözünün leksik mənası və izahı: sur - hasar, təbii istehkam, qala divarı... https://sozluk.obastan.com/sur#izah: https://az.wikipedia.org/wiki/Sur

sur/zur -un Zəngəzur bölgəsindəki xeyli yer adında izi daşlaşıb qalıb; Cağazur, Astazur, Ərcəzür, Əynəzur, Goranzur, Təkəzür, Gecəzür, Dərməzür, Zor və s.).

Aydın görünən budur ki, həm türk, həm ərəb dilində “sur” qala, divar, hasar... anlamında işlənir, bu söz həm ərazinin təbii istehkam, dağlıq, qayalı, sıldırım məkan, həm də müdafiə, yaşayış yeri olan divarlı, hasarlı yer kimi mənaları ifadə edir.

S fonemi, səsi 1-ci tərkibdəki z və digər samitlərin ahənginə, ü özündən əvəlki ə saitinə uyğunlaşıb, heca vəzninə görə incələşib, asan tələffüzə görə S Z-yə Ü Ə-yə çevrilib, fonetikada bunlar qanunauyğul dil hadisələri sayılır.

Zəngəzur - zəngi tayfalarının yaşadığı dağlı, qalalı məkan, müdafiə divarları olan yer-yurd deməkdir.

Bu baxımdan rus və ermənilərin tarixi torpağımız haqqında “Etimoloqiya nazvaniya «Zanqezur» neyasna"-?! http://ru.wikipedia.org. fikri etibarsızdır, yanlışdır, erməni nəyi özününküləşdirə bilmirsə, belə yazır.

Demək istədiyim budur ki, gəlin Zəngəzur toponimi barədə hər yazımızda ərəb, fars, erməni izi axtarmayaq.



Zəngəzur hər qarış torpağı, daş parçası, şərqi, qərbi, şimalı, cənubu ilə dil açıb - "Zəngəzur Azərbaycandır!" - deyir.

Hacı Nərimanoğlu, tarix üzrə fəlsəfə doktoru

# RUSİYA ZƏNGƏZURUN ERMƏNİLƏRƏ VERİLMƏSİ BARƏDƏ QƏRARLARINI LƏĞV ETMƏLİDİR

Bolşevik Rusiyası 1920-ci il aprelin 28-də Azərbaycanı işğal etdikdən sonra ölkəmizdə idarəetmə rus bolşeviklərinin, əsas da XI qırmızı ordunun komandirləri İ.V.Stalin, S.M.Kirov, Q.K.Orconikidze, M.K.Levandovski, A.İ.Mikoyan, V.Pankratovun əlinə keçdi. 10 iyun 1920-ci il tarixdə RSFSR-lə Ermənistan arasındakı bağlanmış hərbi-siyasi müqavilənin 3-cü maddəsində yazılmışdı: "Rusiya hökuməti İrəvan quberniyasının, Zəngəzur qəzasının Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır". Bu barədə Azərbaycan rus, erməni, mətbuatı ilə yanaşı, Fransanın paytaxtı Parisdə çıxan "L,OEUVRE" qəzetinin 1920-ci il 1 iyul tarixli nömrəsində də xəbər dərc olunmuşdu. "Entre Russes et Armeniens" başlıqlı məqalədə yazılırdı: "Rusiya Zəngəzuru erməniləşdirdi. Ermənistan Respublikası ilə Azərbaycanın tatarlar (Azərbaycan türkləri) yaşayan bölgəsinin Ermənistana verilməsi barədə müqavilə imzalandı".

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycan türklərinin tam əksəriyyət təşkil etdiyi Şərur-Dərələyəz bölgəsinin Ermənistana verilməsi bərədə qərar çıxardı, Qarabağ və Zəngəzuru isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan etdi, yəni bu torpaqların da ermənilərə peşkəş edilməsinə siyasi-hüquqi zəmin hazırladı.

Bakıda 1920-ci il noyabrın 4-də Rusiya K(b)P Qafqaz bürosunun Azərbaycan K(b)P MK Siyasi Bürosu ilə birgə iclasında Zəngəzurun Ermənistana verilməsinə dair məsələ müzakirə edildi (protokol №4, 2-ci bənd). 1920-ci il 9 noyabrda RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı Soveti və s.-nin nümayəndələrinin birgə iştirakı ilə keçirilən plenumda «Zəngəzur məsələsi» təzədən müzakirə edildi.

Zəngəzurda Xosrov bəy və qardaşı Sultan Sultanov qardaşları, Zəngəzurun sonuncu qazısı Bəhlul Behcət (bolşeviklərrə qarşı "Cihad Bəyannaməsi"nin müəllifi, fədailər dəstəsinin, "Xanlıq üsyanı"nın başçısı), qaçaq Lətif, qaçaq Kərim, qaçaq Tavat, qaçaq Babaş, qaçaq Kəbil, qaçaq Qardaşxan, Şahverdi qardaşları, Bəhmən bəy və son olaraq sayı 300 silahlıya çatmış Əliyanlı qaçaqlarının dədəbaba torpaqlarını zor gücünə qoparıb ermənilərə peşkəş edən rus-bolşevik-daşnak hərbi dəstələrinə qarşı silahlı müqavimətləri, zəngəzurluların aramsız şikayət və etirazları nəzərə alınaraq, həm də bolşevik Rusiyasına qarşı etibarın itirilməməsi məqsədilə Qafqaz bolşeviklərinin rəhbərliyində belə fikir formalaşdı ki, Zəngəzurun Azərbaycandan alınıb Ermənistana verilməsi barədə qərarın məsuliyyəti Azərbaycan rəhbərliyinin üzərinə yıxılsın, məsələ barədə təklif, təşəbbüsün də iki respublikanın rəhbərliyindən gəlməsi təşkil olunsun.

1920-ci il noyabrın 30-da S.Orconikidze, Sarkis-S.Ter-Danielyan, Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov və başqalarının iştirakı ilə keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat büro iclasında İrəvandan göndərilən "Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin

elan olunması haqqında teleqramı" müzakirə edilib qərar çıxarıldı və Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanova qəbul olunan qərarlar barədə Bəyanat hazırlayıb onu Bakı Sovetinin plenumunda elan etmək tapşırıldı. 1920-ci il dekabrın 1-də Bakı Sovetinin Dram Teatrda məxsusi olaraq Ermənistanda sovet hakimiyyəti qurulması münasibətilə keçirilən təntənəli iclasında N.Nərimanov xüsusi bəyanatla çıxış etdi: "Zəngəzur... Ermənistana keçir... Zəngəzur... qəzalarının ərazisi sovet Ermənistanının bölünməz hissəsidir... Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; sovet Azərbaycanının qoşunları buradan çıxarılır" və sair.

İrəvanda əsas söz, ixtiyar sahibi olan daşnak partiyasının əsas tribunası "Aşxatavor" ("Zəhmətkeş") qəzetinin 10 dekabr 1920-ci il tarixli nömrəsinin ilk səhifəsindəki rəsmi məlumatda bu bəyanatın verilməsinə dair əmrin Moskvadan gəldiyi sevinc və minnətdarlıq duyğuları ilə xəbər verilirdi: "Moskvadan göndərilən əmrə uyğun olaraq Azərbaycanın Zəngəzurdan... imtina etməsini biz alqışlayırıq". RK(b)P Qafqaz diyar komitəsinin katibi A.M.Nazaretyan, Rusiyanın Qafqazdakı "baş canişini" S.Orconikidze, millətlərin işləri üzrə komissar İ.Stalin Zəngəzurun ermənilərə verilməsinə dair bəyanatı Rusiyanın Qafqaz, Azərbaycan üzərində qəti qələbəsi, Ermənistanın daşnakların hakimiyyətindən qurtulub sovetləşməsi, şirnikləndirilməsi yolunda mühüm addım sayırdı. İ.Stalin: «Dekabrın 1-də Sovet Azərbaycanı mübahisəli vilayətlərdən könüllü olaraq əl çəkir və Zəngəzur, Naxçıvan, Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini elan edir». S.Q.Orconikidze bəyanatı «əzabkeş erməni xalqının» sovet hakimiyyətinin bayrağı altına gəlməsini alqışlayaraq «bəşəriyyət tarixində nümunəsi olmayan mühüm əhəmiyyətli tarixi akt» sayır, artıq bu torpaqlarda Rusiyanın külli-ixtiyar sahibi olduğunu, kimə haranı istəsə verib, ala biləcəyini utanıb çəkinmədən elan edirdi: «Zəngəzur, Naxçıvan və Qarabağ ruslar üçün heç nə deməkdir. Zəngəzur məhsulsuz dağlardır, taxılı yox, suyu yox, Naxçıvan bataqlıq və malyariyadan başqa bir şey deyildir, Qarabağda da heç nə yoxdur. Və budur yoldaş Nərimanov deyir: «Onları özünüzə götürün. Bu məhsulsuz torpaqları Ermənistan üçün götürün». Sanki Sovet Azərbaycanı artıq yükdən xilas olur». Nazaretyan bu bəyanat barədə: «Bərəkallah, azərbaycanlılar!» - dedi. Bu da S.Orconikidzenin 1920-ci il dekabrın 2-də Bakıdan V.Leninə və İ.Stalinə teleqramıdır: «Azərbaycan artıq dünən Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsini rəsmən bəyan etmişdir».

1921-ci ilin 3 iyununda RK(b)P MK Qafqaz Bürosu Stalinin iştirakı ilə keçən iclasda Zəngəzur məsələsini müzakirə etdi, Zəngəzurun Ermənistana birləşdirilməsi barədə qərara təkrar baxıldı. Bu iclasda bir nəfər də olsa azərbaycanlı, müsəlman yox idi. Bu qərardan bir neçə gün sonra, iyun ayında Zəngəzur Ermənistanın 9-cu qəzası kimi ilk dəfə inzibati bölgüyə daxil edildi, Ermənistandan fərqli olaraq Azərbaycanda başlanan əhali siyahıyaalınmasında isə artıq Zəngəzur qəzasının yox, rayonların adları var idi. Bununla da tarixin ən qədim dövrlərində Azərbaycan ərazisində qurulmuş dövlətlərin ayrılmaz parçası, o cümlədən son iki əsrdə Qarabağ xanlığı, çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Şura Hökumətinin tərkibində mövcud olmuş Zəngəzur qəzası coğrafi,

inzibati ərazi vahidi olaraq xəritədən silindi, 1918-ci il mayın 29-da 9 min kv.km ərazidə elan edilmiş Ermənistana 1920-ci ilin dekabrından başlayaraq 10 il ərzində rəsmi Moskvanın qərarları, himayəsi ilə rəsmən Azərbaycan ərazisi kimi müəyyən edilmiş keçmiş Zəngəzur qəzasından – Laçın, Qubadlı, Zəngilan rayonlarından hissə-hissə 405.000 desyatin (4414,5 kv.km.) torpaq zorla qoparılıb Ermənistan ərazisinə qatıldı, Ermənistan şişib 29,743 kv.km-ə çatdırıldı. 70 il rəsmi Moskvanın dəstəyi ilə zəngəzurluların doğma torpaqlarından məcburi deportasiyası, onların əsrlərlə yaşadıqları kəndlərə, mülklərinə xarici ölkələrdən erməni əhalisinin köçürülüb yerləşdirilməsi prosesi davam etdi. Bunu bir də vurğulayırıq: Zəngəzur məhz 1922-ci il dekabrında SSRİ yaranana qədər bolşevik Rusiyasının qərarları ilə qoparılıb Ermənistana verilib, həm də Rusiya Federasiyası SSRİ-nin hüquqi varisidir, SSRİ dövründə SSRİ Hökumətinin qərarları ilə Azərbaycandan qoparılıb Ermənistana birləşdirilən torpaqlar da Rusiya Federasiyasının ali qanunvericilik, icra orqanları tərəfindən qüvvədən salınmalı, ləğv edilməlidir. Ona görə də Zəngəzuru Ermənistana sovet hökuməti, SSRİ verdi kimi iddiaların da əsası yoxdur, bu səbəbkarı hədəfdən yayındırmaqdır, təcavüzkarı birbaşa adı ilə göstərmək qorxusundan irəli gəlir. XI qırmızı ordu Azərbaycan Xalq Cümhuriyyətini devirib, müstəqil dövləti tam işğal edəndə SSRİ yox idi, işğalçı ordu rus ordusu idi.

2020-ci il noyabrın 9-da 44 gün davam edən Vətən müharibəsində qələbədən, imzalanmış üçtərəfli bəyanatdan və 2023-cü ilin 20 sentyabrında 24 saatdan az davam edən antiterror əməliyyatından sonra Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi, qətiyyəti sayəsində Cənubi Qafqaz regionunda, Rusiya-Azərbaycan-Ermənistan arasında münasibətlərdə yeni situasiya yaranmışdır.

Azərbaycan hökuməti və parlamenti Zəngəzur qəzasının qərb hissəsinin xalqımızın iradəsi əleyhinə olaraq Azərbaycandan qoparılıb Ermənistana verilməsinə dair 1920-ci illərdə Rusiyanın dövlət, siyasi idarəetmə orqanlarının qəbul etdiyi qərarların ləğvi istiqamətində rəsmi Moskva ilə danışıqlara başlamalı, müvafiq sənədlər toplusu ilə RF Federal Məclisinin Dövlət Dumasına rəsmən müraciət etməli,  tarixi ədalətin bərpasına, qərbi Zəngəzur torpaqlarında qanlı repressiyalara, deportasiyaya məruz qalmış azərbaycanlıların varislərinin öz tarixi dədə-baba yurdlarına sülh yolu ilə, qan tökmədən, beynəlxalq hüquq çərçivəsində dinc qayıdışına hüquqi təminat yaradılmalıdır.

Azərbaycanla Rusiya arasında yüksək səviyyəli siyasi, strateji müttəfiqliyin mövcud olduğu hazırkı şərait, Prezident İlham Əliyevin 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Zəngəzur dəhlizinin açılması ilə bağlı beynəlxalq hüquqa söykənən nikbin açıqlaması bu məsələnin müsbət həll edilməsinə inam yaradır.

**Dr. Hacı Nərimanoğlu**

Məqalə "525-ci qəzet"in 2025-ci il 15 yanvar nömrəsində dərc olunub:
https://525.az/news/284950-rusiya-zengezurun-ermenilere-verilmesi-barede-qerarlarina-yeniden-baxmalidir

## Zəngəzurlu döyüş generalları: Xosrov bəy Sultanov, Valeh Bərşadlı, Məhəmməd Əsədov, Mayis Bərxudarov

Azərbaycan Xalq Cümhuriyyətinin ilk Hərbi naziri Xosrov bəy Sultanov 1918-ci il 28 mayda Tiflisdə İstiqlal Bəyannaməsinə imza atan 26 nəfərdən biri, Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarından ibarət Qarabağ quberniyasının general-qubernatoru idi.

Qarabağda baş verən hadisələrin mərkəzi siması olaraq Xosrov bəy Sultanovun 1918-ci ilin ortalarından başlayaraq aprel 1920-ci ilin aprelin son günlərinədək Nazirlər Şurasına, Hərbi Nazirliyə, Milli Şuraya, Baş nazirlər Fətəlixan Xoyski və Nəsib bəy Usubbəyova ünvanlandığı xeyli məktub, teleqram, raportlarında, xüsusən Qafqazda əsas söz sahibi olan ingilis generalı Şatelvortla Qarabağ məsələsinə dair apardığı müzakirələrdən dərhal sonra - 22 avqust 1919-cu il Milli Şuraya göndərdiyi “Qarabağda ingilis siyasəti ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər” adlı məlumat-məruzəsində qoyduğu aşağıdakı tələblərinin və müşahidələrin nə qədər düzgün olduğunu zaman göstərdi: “*Qarabağ və Zəngəzur məsələsinin həllində ingilis köməyindən* (oxu: ABŞ, Rusiya, Fransanın həmsədr olduğu ATƏT-in Minsk qrupunun vasitəçiliyindən) *qətiyyətlə imtina edilməlidir; 2. İngilislər Qarabağ və Zəngəzur məsələsinin həllində bizə yalnız maneçilik yaradırlar; 3. Məcburi tədbirlər görülmədikcə, ermənilər Azərbaycan hakimiyyətinə tabe olmayacaqlar; 4. Bu problem həllini tapmadıqca əhali AXC Hökumətinin gücsüz olduğuna inanacaqdır...”*

Xosrov bəy bilirdi ki, “İngilis barmağı”nın Qarabağ, Zəngəzurda olması Azərbaycana yaxşı heç nə vəd etmir. Rusiyada çar hökuməti devriləndən bolşeviklərin 28 aprel 1920-ci ildə Azərbaycana gəlişinə qədər Qafqazda cərəyan edən bütün proseslərdə ingilislər əsas ssenari müəllifi, rejissor və baş rolun ifaçısı idilər, Azərbaycandan qoparılıb Ermənistana veriləcək torpaqların sərhədlərini də ingilislər cızmışdı; ilk mərhələdə Qarsdan Gəncəyədək olan ərazilər, sonra dənizdən dənizə Böyük Ermənistan. Böyük Britaniyanın Qafqazdakı diplomatik nümayəndəliyinin rəhbəri general Tomson 1919-cu il martın 28-də Yerevanda Ermənistan hökumətinin iclasında çıxışında demişdi: *"...Zəngəzur Erməni Milli Şurası tərəfindən idarə ediləcək...Dağlıq Qarabağın idarə edilməsi üçün Ermənistan təcili öz nümayəndələrini verməlidir... Erməni qoşunları Qars və Naxçıvanı, Şərur-Dərələyəz-Sürməlini tuta bilər... Azərbaycan ordusu indi durduğu yerdən-Ağdam və Xankəndindən bu tərəfə keçməyəcək... Azərbaycan hökumətinin martın 19-da keçirilən iclasında qərar qəbul edilmişdir ki, Daxili İşlər Nazirliyi 1300 nəfərlik piyada və 500 nəfərlik erməni süvari dəstəsinin Şuşa, Xankəndi, Əsgərandan keçib Ermənistana getməsi üçün hərtərəfli səy göstərəcək. Mayor Monk Mezon mənə məlumat vermişdir ki, Azərbaycan hərbi hissələri general Mehmandarovun rəhbərliyi ilə onların sağ-salamat keçməsi üçün bütün tədbirləri görmüşdür...Azərbaycan Dağlıq Qarabağ və Zəngəzurun mübahisəli ərazi kimi Paris sülh konfransında həll olunacağını gözləyəcəkdir".*

Tomson Ermənistan hökumətinin rəhbərlərinə 5 milyon ədəd patron və pul da göndəriləcəyini də vəd edir, vədini də yerinə yetirir. Böyük Britaniyanın Hərbi naziri Çörçill 1919-cu il martın 6-da Qafqazla bağlı bir konfransda demişdi: *"Heç şübhə yoxdur ki, Rusiyanın gələcək hökuməti bu regiona (Qafqaza-H.N) yenidən qayıdacaqdır, indiki fasilə məqamında baş verənlər əsas problem deyil, lakin Britaniya qoşunları o ərazilərdə nə qədər çox qalacaqsa, bizim caynağımız bir o qədər dərinə işləyəcəkdir."* 1917-ci ildə Rusiyada oktyabr inqilabından sonra, bolşeviklərə qarşı "14 dövlətin yürüşü" planının müəllifinin bu uzaqgörənliyini, ingilis diplomatiyasının gücünü, anlamaq üçün bp şirkətinin Azərbaycana-Xəzər regionuna gəlişi və burdakı fəaliyyəti, mənfəətlərini yada salmaq kifayətdir. Zəngəzur torpağına canı, qanı, əsli-soykökü, ata-baba mülkləri ilə bağlı olan cəsur hərbçi və qətiyyətli siyasətçi olan Xosrov bəy problemin həlli yollarını da göstərirdi: "*təxirə salmadan hərbi hissələri Zəngəzura yeritmək, ermənilərin İrəvandan Zəngəzura, Azərbaycanın digər bölgələrinə hərəkətinin qarşısını almaq; 2. Dağlıq Qarabağa (Erməni Milli Şurasının idarəsində olan) Azərbaycanın hakimiyyətini tanımaq barədə ultimatum vermək və altı gün vaxt qoymaq; 3. Bütün ermənilərə Azərbaycanın bütün rayonlarından getməyi təklif etmək, ultimatum dövründə onlarla hər cür danışıqları kəsmək, ultimatum bitdiyində dərhal hərbi əməliyyatlara başlamaq və bütün məsuliyyəti erməni başçılarının üzərinə qoymaq".*

Xosrov bəy qatil ermənilər Dro, Njde, Amazasp kimilərə hamilik edən general Tomsonun üzünə demişdi: *"Mən ermənilərin başını əzmək istəyirəm".* O, Osmanlıda Hərbi nazir Ənvər Paşanın erməni məsələsini necə həll etdiyini də gözəl bilirdi: erməni durduqca problem duracaq, erməni məsələsini həll etməyin yeganə yolu ermənilərdən azad olmaq, onları bu torpaqlardan təmizləməkdir, çibanı kökündən qoparıb atmaqdır. 1919-cu ilin Novruz bayramında erməni-daşnak hərbi dəstələri general Dronun rəhbərliyi ilə Qarabağa yeganə keçid olan Əsgəranı zəbt etmiş, Şuşa, Zəngəzurla əlaqələri kəsmişdilər. Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri dəqiq, çevik hərbi əməliyyatla mayın 30-da erməni qoşunlarını darmadağın edərək Xankəndi və Şuşanı düşməndən geri almışdı. 1919-cu ilin iyununda X.Sultanovun başçılığı ilə keçirilən digər əməliyyatda Şuşaya gizli yolla silah aparan Erməni Milli Şurasının üzvləri həbs edilərək Qarabağ ərazisindən çıxarılmışdı. Top, haupitsa, pulemyotlarla silahlanmış, nizami süvari və piyada dəstələrinə malik olan daşnak ordu hissələrinə qarşı yerli özünümüdafiə və partizan dəstələri tez-tez sarsıdıcı zərbələr də vurur, erməniləri itkilərə məruz qoyurdu. İngilis missiyasının arabuluculuğu ilə Mərkəzlə aparılan ermənilərin aldadıcı barışıq müraciətləri bu dəfə də nəticə verdi, ermənilərin aldığı belə sarsıdıcı zərbələrdən sonra Cümhuriyyətin silahlı qüvvələri yaranmış vəziyyətdən istifadə edərək Zəngəzur və Qarabağda erməni mövcudluğuna son qoymaq fürsətini əldən verdi. Xüsusilə Xosrov bəyin qardaşı Sultan bəyin Andronikin nizami ordu hissəsinə qarşı Zabux dərəsində öldürücü zərbə vurması, Laçın-Şuşadan keçib Qarabağ erməniləri ilə birləşmək planlarının pozulmasının

ardınca Osmanlı-türk-Qafqaz İslam Ordusunun uğurlu hərbi yardımı ermənilərin Zəngəzur və Qarabağdan birdəfəlik çıxarılmasına yol açmışdı. Tarix bir dəfə şans verilir, sən ondan yararlanmadınsa, qarşındakı yararlanacaq, Zəngəzur da, Qarabağ da ortada qalıb sahibini gözləyən ov kimi idi, birinci kim götürdüsə onun idi. Sultan bəy hələ 1906-cı ildə öz dəstəsi ilə Laçından gəlib Şuşada rus-erməni silahlı üsyanını, müsəlman əhalinin qırılıb Şuşanın tamamiə erməniləşdirilməsinin qarşısını almışdı, bu namərdlərə layiqli qulaqburması vermiş, erməni virusundan qurtuluşun yeganə düzgün yolun göstərmişdi.

Xosrov bəy 1919-cu il aprelin 2-də AXC Nazirlər Şurasının sədrinə məktubda yazırdı: *"general-qubernatorluğun hüdudlarında siyasi məsuliyyəti mən daşıdığım halda hərbi hissələrin mənə tabe olmaması, lazımi zamanda silahlı qüvvələrin gücündən istifadə etmək hüququndan istifadənin, həm də hökumətlə teleqraf, rabitə əlaqəsi, xüsusən zəruri hallarda Hərbi nazirlə əlaqə qurmağımın qeyri-mümkünlüyü bölgəni böhranlı vəziyyətə salıb, faktik olaraq ikihakimiyyətlilik hökm sürür, ingilis missiyası öhdəsinə götürdüyü missiyanı yerinə yetirmir, ermənilərlə, ingilislərlə apardığımız danışıqlar heç bir nəticə vermir, ermənilərin hərəkətlərindən görünür ki, onlar yeni hücumlar üçün güclü hazırlıq aparırlar. Qanuna görə general-qubernatorun hakimiyyəti Baş komandanın hakimiyyətinə bərabər tutulur, ona görə də hərbi hissələr onun tabeliyinə keçməlidir."*

AXC Nazirlər Şurasının sədri Nəsibbəy Yusifbəyli Xosrov bəyin bu məktubu ilə bağlı Hökumətin 1919-cu il 19 aprel iclasında şəxsən məruzə edir, qızğın müzakirə keçirilir və məsələ həllini tapmır, heç bir konkret qərar qəbul olunmur, tədbir görülmür. Onun «Azərbaycan» qəzetinin 5 aprel nömrəsində çap olunmuş müsahibəsi də vəziyyətin nə qədər ağırl olduğunu göstərsə də, Hökumət və Parlamentdəki müəyyən qüvvələr müxtəlif bəhanələr, əsassız arqumentlərlə, ən başlıcası isə ingilis nümayəndəliyinin təzyiqi qarşısında geri çəkilərək Qarabağda, Zəngəzurda vəziyyətin birdəfəlik Azərbaycanın xeyrinə həlli yolunda ciddi sipər çəkdilər. Xosrov bəy Sultanov haqqında ən düzgün qiyməti Üzeyirbəy Hacıbəyli vermişdi: *«Həqiqətən, o, Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücuda malik olan kimi sağlam və salamat politika yerindən və təht idarəsinə tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaəti tərəfindən dəxi möhtərəm sayılan bu zat Qarabağın hökuməti başında olması idi, burası - Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital olmuşdu».* Və bir də ermənilər hər vəchlə Xosrov bəyin əvvəl Hərbi nazir, sonra da Qarabağdan uzaqlaşdırılmasını, ya da səlahiyyətlərinin məhdudlaşdırılmasını israrla tələb edirdi və Parlament, Hökumətdəki tərəfdarlarının yardımı ilə buna nail oldu. «Наше время» qəzeti 1919-cu il 13 iyun tarixli sayında yazırdı: «8 iyunda Qarabağda qanlı hadisələrə dair Van kilsəsi yanında mitinqdə qəbul edilmiş aşağıdakı qət-

namə Müttəfiq Dövlətlərə, beynəlxalq təşkilatlara göndərilmişdir və bu müraciətdən də Xosrov bəyin erməni planlarına qarşı ən böyük maneə olduğu görünür: *"...məşhur türk agenti və Azərbaycan general-qubernatoru Xosrov bəy Sultanov və bütün Azərbaycan hərbi hissələri Qarabağdan çıxarılsın".*

Xosrov bəy, Sultan bəy rus-bolşevik işğalından sonra Osmanlı-Türkiyə torpaqlarına keçib ömrünü vətən həsrətilə Xosrov bəy İstanbulda, Sultan bəy Qarsın Köçköy kəndində ömürlərini başa vurublar, hər ikisinin məzarı bəllidir.

Zəngəzur Babəkin ərəblərə qarşı savaşından başlamış tarixin bütün dövrlərində indiki Azərbaycan ərazisində siyasi hadisələrin, hərbi qarşıdurmaların, sonsuz faciələrin əsas məkanı olub. 1919-cu il 23 noyabrda Tiflisdə Azərbaycan və Ermənistanın hökumət başçıları ABŞ və Gürcüstan təmsilçilərinin də iştirakı ilə atəşi dayandırmaq barədə saziş imzalayır. Azərbaycan öz qoşunlarını dərhal geri çəkir, bu fürsəti gözləyən Njde, Dro, Qazaryan, Hamazaspın quldur dəstələri 1919-cu il dekabrın 1-i sübh çağı üç istiqamətdə başlayan hücumla Qafan bölgəsinin müsəlmanlar yaşayan kəndlərini oda qalayır, təkcə Çaylı və Oxçu kəndlərindən 400-ü uşaq, qadın olmaqla 900 insanı heç bir xalqın tarixində görünməmiş amansız vəhşiliklə, güllə, mərmi işlənmədən məhv edilir. Atqız kəndinin əhalisi erməni hücumundan tez xəbər tutub çıxıb qaçmağa macal tapsa da, Ordubada çatanadək 167 uşaq və qadın qarlı yollarda şaxtada donub həlak olur. Qafanın Gığı dərəsi boyu kəndlərinin 4 min sakinindən yalnız 262-si sağ qalır. Noyabrın 26-dan başlayan hücumlarla Qubadlının Bərgüşad çayı boyu 48 kəndi viran qalır. 1919-cu ilin noyabr-dekabr və 1920-ci ilin yanvarında Qafan, Zəngilan, Meğri, Qubadlı bölgələrində 200-dək kənd günahsız dinc insanların qanı ilə suvarılır, viran qalır – Andranikin Sisian, Gorusda törətdikləri təkrar olunur.

1920-ci ilin aprelində Azərbaycan Cümhuriyyəti rus bolşevik işğalına məruz qalır, Zəngəzur qəzası AXC parlamentinin stenoqramında yazıldığı kimi o dövrdə yenə də: *"...Zəngəzurda daşnaklarla mübarizəni yalnız qəzadakı yerli qüvvələr aparırlar",* bu yerli qüvvələrin başçısı Xosrov bəylə Sultan bəy idi. Sultan bəyin Andranikin 5 minlik hərbi dəstəsini mühasirəyə alıb qırması, sağ qalan 300 əsgəri ilə qaçıb aradan çıxması barədə arxiv sənədlərilə, eləcə də Xosrov bəylə Zəngəzur Milli Polis Dəstəsinin rəisi Sultan bəyin Laçın, Şuşada abidələrinin ucaldılmasının vacibliyi barədə dəfələrlə yazmışıq, bu arzumuzun reallaşacağına inanırıq. Bu qardaşlar tək deyildi, Zəngəzurun sonuncu qazısı Bəhlul Behcətin, pristav Şahsuvar bəyin, qaçaq, partizan, milis dəstələrinin, nüfuzlu insanların sayəsində Zəngəzurun şərq hissəsinin ermənilərə verilməsinin qarşısı alınmışdı. XKS sədri Nəriman Nərimanovun əmri ilə Zəngəzur qəzasının pristavı Aslan bəy Sultanov Fövqəladə Komissar təyin edilir və XI qırmızı ordu hissələri ilə birlikdə daşnakların Zəngəzurdan təmizlənməsinə, yeni bolşevik hakimiyyətinin qurulmasına başlanır. O, Qubadlının Hacılı kəndində doğulmuşdu, Qori seminariyasını və Rusiyada ali hərbi məktəbi bitirmişdi, sərrast atıcı idi, çox sayda ermənini cəhənnəmə göndərmişdi. Bolşevik libasına girib təzə hökumətdə mühüm postları tutan daşnaklar Aslan bəyin ermənilərə qarşı qətiyyətli savaşını unutmamışdı və illər sonra onu izləyib öldürdülər.Tarix təkrar olundu;

1990-91-ci illərdə müstəqil Azərbaycanın ilk müdafiə naziri general-leytenant Valeh Bərşadlı və ilk daxili işlər naziri general-mayor Məhəmməd Əsədov da ağır tale yaşadı. Valeh B.özünə doğulub böyüdüyü Qubadlının Eyvazlı kəndinin içərisindən axan Bərgüşad-Bərşad çayını özünə soyad götürmüşdü, SSRİ Silahlı Qüvvələrinin Avropadakı qoşunları komandanının I müavini olmuş generalın müdafiə naziri, Zəngilanda doğulmuş M.Əsədovun daxili işlər naziri təyin olunmasını ermənilər təşvişlə qarşılamışdı. Valeh Bərşadlı və Məhəmməd Əsədovun komandanlığı ilə 1991-ci ilin iyun-avqust aylarında biri-birinin ardınca qısa zamanda Şəmkirin ermənilər yaşayan Barum, Barsun, Göygölün Azadkənd, Çaykənd, Cəbrayılla həmsərhəd Hadrutun Zamzur, Banazur, Dolannar və digər 23 kənd erməni terrorçu dəstələrindən tamam təmizlənmişdi, ordu hissələrimiz Xankəndinin bir neçə kilometrliyinə qədər irəliləmişdi və ermənilər biryolluq köçüb getmək üçün onlara imkan yaradılması məqsədilə danışıqlara başlamışdı. Valeh Bərşadlı və Məhəmməd Əsədov sonun başlandığı belə günlərdə vəzifədən çıxarıldıqlarını bilmişdilər. Azərbaycanda Milli Ordu yaradılmasına Valeh Bərşadlı başlamışdı. Daxili İşlər Nazirliyinin tabeliyində "OMON"un yaradılması isə Məhəmməd Əsədovun adı ilə bağlıdır. OMON-un ilk rəisi Qubadlıda doğulmuş polkovnik Əbil Rzayev, ardıcılı Laçınlı Rövşən Cavadov idi və OMON erməninin qorxduğu əsas qüvvə idi. Və Xosrov bəy Əkinçilik naziri təyin edildiyi kimi, V.Bərşadlı C.Naxçıvanski liseyinə rəis, M.Əsədov PA-a müşavir təyin edildi.

Aprel döyüşlərində bir sıra strateji yüksəkliklərin alınması, 700-dən çox erməni hərbşisinin məhv edilməsi xalqımızın milli ruhunun oyanışında mühüm rol oynadı, ancaq böyük savaşa hazırlıq yetərincə deyildi. Beynəlxalq, regional siyasətin uzlaşdırılması, Rusiya amili, Türkiyə və İsraildən modern silahların alınması, Orduda tam döyüş hazırlığı üçün zamana ehtiyac var idi. Azərbaycanın son 200 illik tarixində ən şərəfli səhifəni Prezident, Ali Baş Komandan İlham Əliyev öz parlaq zəkası, siyasi iradəsi, sərkərdəlik bacarığı ilə yazdı; 44 günlük savaş və 23 saatlıq anti-terror əməliyyatı ilə Azərbaycanın Dövlət Suverenliyini tam bərpa etdi – tariximizə əbədi olaraq Müzəffər Ali Baş Komandan adını yazdı! 2020-ci il sentyabrın 27-də müqəddəs savaş – Vətən müharibəsi başlananda Prezident - Ali Baş Komandan, Xalq, Ordu Birliyi, milli ruh tariximizdə ən yüksək səviyyədə idi. Bu şərəfli savaşda Aprel döyüşlərinin komandirləri – Zəngəzur-Qubadlı torpağının yetirmələri; ilk döyüş generalımız, Şərqi Zəngəzur torpaqlarının mənfur düşməndən azad edilməsi əməliyyatlarının önündə gedən korpus komandanı Mayis Bərxudarov və müavini, ana-ata yurdu Qubadlının azad edilməsində xüsusi fədakarlıq göstərib şəhid olan polkovnik Şükür Həmidovun qəhrəmanlığı Vətən müharibəsi tarixinin parlaq səhifəsidir.

Prezident İlham Əliyevin sərəncamları ilə Şükür Həmidov “Azərbaycanın Milli Qəhrəmanı” adına, "Zəfər" ordeninə (ölümündən sonra), Mayis Bərxudarov general-leytenant rütbəsinə, "Qarabağ", “Azərbaycan Bayrağı", "Rəşadət" ordenlərinə layiq görülüb.




Sələflər, xələflər:

Xosrov bəy Sultan bəy




Məhəmməd Əsədov Valeh Bərşadlı





Şükür Həmidov Əliyar Əliyev Mais Bərxudarov

# UNUTMAYAQ, BİZİM O TORPAQLARI YENİDƏN VƏTƏNƏ ÇEVİRMƏK BORCUMUZ VAR!

**Əziz həmkəndlilərim!** Saray kəndimizə həsr etdiyim şeir çoxunuzda var, "Qubadlısız 16 il" kitabımda gedib o şeir, kitabdan hər evə pay göndərmişdim, 70 yer var idi o şeirdə. Qoyub gəlməyə məcbur qaldığımız yurd yerlərimizə geri qayıdanda o şeirdə adı keçən yerlərin çoxunu görməyəcəksiniz; 28 illik ayrılıq, işğal, yağı tapdağı bizdən intiqamını gərəyincə alıb; məcrasını dəfələrlə dəyişən, aşıb-daşan, qarşısına keçəni yuyub aparan Bərgüşad çayı yatağını tamam dəyişib, kövşənlərimizi, bağ-bağatlarımızı yuyub aparıb, çoxunun heç izi də qalmayıb. Dərəyuxarıdan gələn sellər də ondan geri qalmayıb; yollar, cığırlar, yarğanlar itib, bulaqların gözü tutulub, nər kimi barlı-bərəkətli ağaclarımız quruyub, kol-kos yol-irizi basıb, təbiət vəhşiləşib. Qala, Yastı təpə, Qara qaya, Böyük düz, Kiçik düz elə bil kiçilib, örüş, kəvşən, hər yer elə bil dərd çəkməkdən büzüşüb. Xarabalığı qalan kəndimizin aralığına qədər enib gələn kəkliklərin, sərçələrin, qarğaların səsi də dəyişib, hüzünlü kədərə bürünüb, daş, torpaq dil açıb deyir: harda ölmüşdünüz bu günə kimi, hamınızmı qırılıb batmışdınız?!

Allah goreşən xislətli mənfur, insan adına ləkə olan erməni adlı ikiayaqlı murdar canlının əli ilə bizə günahlarımızın qədərindən artıq cəza verib; qəbirlərimiz eşilib, qazılıb, baş, sinə daşları daşınıb aparılıb, ölülərimizin nəşi, sümükləri də çıxarılıb, ətrafa səpələnib. Qubadlı, Cəbrayıl, Füzuli, Zəngilan-hər yer belədir.

Dünyada, bəşər tarixində ikinci belə mənzərə görünməyib...Sumqayıtda yaşayan qaçqın, məcburi köçkün həmyerlilərimin heç ağlına da gələ, əli açılarmı, şəhərin mərkəzindəki qəbiristanlıqda sağ-salamat qalan erməni qəbirlərinə qarşı belə iyrənc vəhşilik etsin?! Qətiyyən! Mən Sumqayıtda, 11-ci mikrorayonda yerləşən Qubadlı qəsəbə məktəbinə iki gəlişimdə yaxınlıqdakı xristian qəbiristanlığındakı üstündə əksi, ad, "yan" soyadları olan, ətrafındakı hasarları, dəmir-metal məhəccərli qəbirləri sağ-salamat görəndə sevinmişəm ki yaşadığımız, bizə yaşatdıqları bu qədər ağır müsibətlərdən sonra belə biz o murdar canlıların səviyyəsinə enməmişik, bizə insan olduğumuzu unutdurmayıb Ulu Yaradan…Vəhşi qanqal, yabanı şam ağac, kolların bürüdüyü, talan, qarət edilib dağıdılan, üstü açıq qəbirlərimizin bir neçəsinin üstünü kəndə ilk gəlişimizdə qardaşım Muxtar, qardaşoğlu Rövşən, bacıoğlu Nurəddinlə örtdük, ağır, çətin, üzüntülü olsa da…Kəndimizə qayıtmaq arzusu ilə yaşayan ellilərimin bir çoxu arzusuna qovuşmadan dünyadan nisgilli köçdü. Dədəm Hacı Nəriman Məhəmməd oğlu, hacıxanım bacım Zərxanım, qardaşlarım Hümmət, Dostəli Saray, Qubadlı deyə-deyə getdilər dünyadan....Qayıdanda kəndimizdə quru divarları qalan evlərimizi, dağılan qəbirlərimizi, örüşdə, kövşəndə, yaxın-uzaq qonşu kəndlərdə -hər tərəfdə hüzünlü mənzərələr görəcəksiniz; izi itən, itirilən təkcə ev-eşiklərimiz, bağ-bağatlarımız deyil, həm də dünyaya göz açıb ilk gördüklərimiz, yaddaşlarımıza hopmuş uşaqlıq, gənclik xatirələrimizdir. Ancaq başqa yolumuz yoxdur: dədə-babalarımızın, dogma-əzizlərimizin cismi uyuyan, ruhu dolanan yurdumuza qayıtmalıyıq, yurd-yuvalarımızı yenidən qurmalı,

diriltməliyik. Yoxsa…yoxsa dədə-babalarımızın ruhu, torpaqları mənfur düşmən tapdağından qurtarmaq üçün qan töküb, cavan canlarını o torpaqlarda qurban verən şəhidlərimizin, ölülərimizin ruhu bağışlamaz bizi!

***

İşğaldan azad edilən torpaqları yenidən daimi Vətənə çevirmək üçün Qubadlı, Zəngilan, Laçın rayonlarının Ermənistan sərhədlərində çoxminlik əhalinin yaşaya biləcəyi yeni abad, müasir şəhər, qəsəbə, kəndlər tikməliyik.Qubadlı, Laçın, Zəngilanda yeni təhlükəsiz iri şəhər, qəsəbə, kəndlər salmaq üçün əlverişli yerlər, təbii şərait vardır. Bu şəhərlər əsas o rayonların sayca çox olmayan sakinləri üçün nəzərdə tutulmaqla yanaşı, həm də hərbçi ailələrinin üzünə açıq olmalı, burada normal yaşayış üçün ən yaxşı imkanlar, maddi təminat, iş yerləri, ali, orta ixtisas təhsili müəssisələri, peşə məktəbləri, sənaye-istehsal sahələri, sosial obyektlər, avtovağzallar tikilməli, infrastruktur qurulmalı, yerli, xarici investorlar cəlb olunmalı və görülən işlərdə, layihələndirmədə mütləq bu torpaqların sahiblərinin, gələcək sakinlərinin fikirləri nəzərə alınmalıdır. Tale bizi nankor, doğuluşdan varlığımıza kinküdurətlə baxan qonşularla yanaşı yaşamağa məhkum edib. Həmişə bu amili nəzərə almalı, tarixin verdiyi dərslərdən ibrət götürməliyik ki, yaşadığımız faciələr bir daha təkrar olmasın! **Ana kitabımız "Kitabi-Dədə Qorqud"**da, oğuz-türk tarixində ibrətamiz olay, detal, öyüdlər var. “Bəkil oğlu İmranın boyu”nu xatırlayaq; Xanlar xanı Bayındır xan İç Oğuz və Daş Oğuz bəylərini hər zaman olduğu kimi yenə məsləhətə yığmışdı. Bu zaman doqquz tümənlik Gürcüstanın xəracı da gəldi. Dədə Qorqudun məsləhəti ilə bu dəfəki xərac- bir at, bir qılınc və bir çomaq oğuz elinin sərhəddinə qarovul çəkmək üçün Bəkil deyilən bir igidə verilir. Dədə Qorqud qılıncı onun belinə bağlayır, ox-yayı qoluna keçirir, Bəkil şahanə ayğırı çəkib minir, qohum-əqrəbasını ayırır, ev-eşiyini yığışdırıb oğuz elindən köçüb Gürcüstan sərhədində çadır qurur, buranı vətən edib, həm də yurda qarovulçuluq edir. Buralara gələn yad kafirin başını kəsib Oğuz elinə hədiyyə göndərir. Xanlar xanı Bayındır da Bəkili hər zaman hörmət, izzətlə çadırında qonaq edər, ən yaxşı atı, qaftanı, bolluca xərcliklə ona verər, əzizlər, hörmət edərdi...Biz də bu haqq yolu tutmalıyıq. Dövlətimizin qayıdış, yurda dönüş proqramlarında bu və digər amillər nəzərə alınır. Təbii ki, söhbət kiçik, pərakəndə kəndlərin tamam ləğvindən getmir, onların da hamısı olmasa da, bir çoxu qalacaqdır və qalmalıdır, bu, sakinlərin istəyinə bağlı olan məsələdir. Ancaq Dövlətimizin siyasətində, düşünürəm ki, sərhədlərdə böyük yaşayış məskənləri salınması yolu ilə hərbi, mülki möhkəmləndirmə işləri də əsas məsələlərdən biri olmalıdır. Sərhəd etibarlı, keçilməz səddə çevrilməli, xalqın, dövlətin güc, güvvəsinin, rifah və qüdrətinin aynası olmalıdır-həm də sərhəddəki abad şəhər, kəndləri ilə! Torpağı Vətən etməyin yolu budur.

Unutmayaq, Dövlət, Xalq olaraq şəhid qanı ilə suvarılmış o torpaqları yenidən Vətənə çevirmək kimi şərəf borcumuz var***!* *Hacı Nərimanoğlu***

**Zəngəzurun dirçəlişində yeni mərhələ: Laçın Beynəlxalq Hava Limanının açılışı, Azərbaycan-Türkiyə-Pakistan liderlərinin görüşü, 28 May 2025**








**MDB Humanitar Əməkdaşlıq Şurasının qərarına əsasən, Azərbaycanın Şərqi Zəngəzur rayonunun Laçın şəhəri 2025-ci ildə MDB-nin mədəniyyət mərkəzi elan edilib.**






**Prezident İlham Əliyev: Azərbaycan xalqı Zəngəzura qayıdacaq!**

**Zəngəzur dəhlizi Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirmək imkanı verəcək.**

Ermənistan azərbaycanlılara qarşı dövlət səviyyəsində soyqırımı törətmişdir. Baxmayaraq ki, bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, biz gələcəyə baxmalıyıq. Biz, əlbəttə ki, erməni vəhşiliyini heç vaxt unutmayacağıq. Bu gün Ermənistanda böyük hay-haraya səbəb olan Hərbi Qənimətlər Parkının yaradılmasının əsas məqsədi odur ki, Azərbaycan xalqı bu vəhşiliyi heç vaxt unutmasın. Biz heç vaxt unutmamalıyıq. Biz bunu heç vaxt bağışlamayacağıq. Bunu hər kəs bilsin. Amma bununla paralel olaraq, biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq...

Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq.

...Azərbaycan xalqı bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır.

**Qubadlı ziyalılarının müraciəti**

**Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!**

Komandanlığınızla 2020-ci il 27 sentyabrdan başlanan Qurtuluş Savaşı hər gün yeni qələbələrlə xalqımızı sevindirir, vətəndaşlarımıza sonsuz ruh yüksəkliyi bəxş edir. Bizim üçün Azərbaycanın hər qarış torpağı doğmadır, əzizdir. Ancaq etiraf edək ki, dünyaya göz açdığımız, 28 ildən bəri həsrət qaldığımız, əzizlərimizin cismi uyuyan Qubadlının yağı düşməndən azad edilməsi xəbərini sizin dilinizdən eşitmək, ekran-efirdə görüb izləmək bir özgə hissdir. Bizim həyatımızda, mənəvi dünyamızda Qubadlının başqa yeri var. Bu xoş xəbərin bəxş etdiyi duyğunu sözlə ifadə etmək çox çətindir. İnanırıq ki, tezliklə hər birimizin o torpaqları ziyarət etmək, o ellərə dönmək arzumuz gerçəkləşəcəkdir. Xalqımız Laçın, Kəlbəcər, Şuşa, Xankəndinin də yağı tapdağından qurtuluş xəbərini Sizdən eşitmək arzusu ilə yaşayır

Hər birimiz yaxşı anlayırıq ki, bu zəfər, bu qalibiyyət yürüşü yalnız Sizin siyasi iradəniz, qətiyyətinizin, güclü təzyiqlərə sinə gərib dəf edən zəkanızın bəhrəsidir, bu qələbələr yalnız Sizin hərbi sərkərdəlik bacarığınız, Milli Ordumuza ilham, güc-qüvvət verən komandanlıq məharətiniz sayəsində gerçəkləşib. Sizinlə fəxr edirik, ən böyük minnətdarlığımız sizədir. Xalqımızın milli qürur hisslərinin özünə qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi sizin adınıza yazılan əbədi şöhrət, şərəf-şandır. Uşaqdan böyüyə hər bir azərbaycanlının qəlbində bu gün bir İlham Əliyev sevgisi boy atıb, ucalıb. İşğaldan azad edilən hər bölgəmizin ən uca zirvəsində sizin adınız, surətiniz əbədi heykəlləşəcəkdir, çünki bunu yalnız sizin kimi qüdrətli Prezident, Komandan reallaşdıra bilərdi. Azərbaycanı əsarətə baş əyməyən xalqı, hərb meydanında savaşmağı, döyüşməyi bacaran ordusu ilə, bütün gücü ilə dünyaya tanıdan, qəbul etdirən siz oldunuz. Hər zaman sizinləyik, ölkəmizi işıqlı günlərə aparan siyasətinizi dəstəkləyənlərin ön sırasındayıq. Bizlərə bu sevincli və qürurverici günləri yaşatdığınız üçün sizə sonsuz təşəkkürümüzü bildiririk.

Var olun, 100 yaşayın! Allah sizi, ailənizi qorusun, qalib Prezident, müzəffər Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır, yaşasın bütöv Azərbaycan!

Sonsuz sevgi və ehtiramla,

Professorlar; Abbas Abbasov, Mahirə Əliyeva, Edil Eyvazov, Məhəmməd Quliyev, Yaqub Şərifov, Rafiq Yusifoğlu, İlham Şahmuradov, Möhsün Alışov, elmlər doktorları, fəlsəfə doktorları, dosentlər; Əliağa Cəfərli, Fətəli Abdullayev, Aytən Bayramova, Rövşən Hümbətəliyev, Mahirə Abdulla, Xankişi Məmmədov, Cabir Quliyev, Mübariz Xəlilov, Şakir Alıyev, jurnalistlər; Dağbəyi İsmayılov, Dostəli Abdullayev, Namiq Məna, Mahir Babayev, Rəsul Mirhəşimli, Qafqaz Əvəzoğlu, Qarabağ müharibəsi veteranları; Tofiq Mehdiyev, Razim Əliyev, Allahverdi Haxverdiyev, İlham Əhmədov, Aslan Allahverdiyev, Rəşid Bərgüşadlı, Hacı Nərimanoğlu və b

Mənbə: https://president.az/articles/44578 https://azertag.az/xeber/1625951


AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
1918–1920
ZƏNGƏZUR QƏZASI
CAVANŞİR QƏZASI
ŞUŞA QƏZASI
NAXÇIVAN QƏZASI
İRAN
1
2
Alaqaya d.
Qutan
Əlıkçi
Qayalıq d.
Qaracanlı
Qarabəyli
Çurman
Dəlidağ
Qovşud
Əziz pəyəsi
Uluxan
Suad
Budaqkənd
Hətəmlər
Kürdhacı
Qatırdaş d.
Şəlvə
Muncuqlu
Haqnəzər
Gəlinqaya
Piçənis
Dəvəgözü d.
Üçtəpə d.
Yuxarı Ağkörpü
Daşlı
Bülövlük
Ayıbasan
İnəkli
Aşağı Ağkörpü
Lacakənd
Əliqulukənd
Babadinli
Qaragöl
Qaracanlı
Qutan
Qarakeşiş
Çıraxlı
Pircan
Zerti
Alagöllər
Kamilli
Qutan
Minkənd
Sunasar
Qutan
Bozlu
Qaladərəsi
Mirək
Mollalar
Ağanis
Böyük Kirs d.
R.D.Dəmirov
Qışçu
Zeyvə
Müslümanlar
Qısırdağ
Qızıltəpə d.
Sultankənd
Qaraqışlaq
R.D.Soyuqbulaq
Hacılar
Arış
Qırmızıtəpə d.
Arıqlı
Sis
Bağırbəyli
R.D.Bazarkənd
Kosalar
Murut
Zabuq
Məlikpəyəsi
Arpaqədu
Bayandur
Pərvizli
Məlik
Qalacıq
Verdiqala
Qaragöl
Ərəfsə
Dığ
Çinarlı
Daşaltı
Keçəldağ
Cecimli
Xarar
Tezxarab
Tağlar
Şükər
Əngələkot
Şəki
Qızılcaq
Daşkənd
Kürdəli
İskəndərli
Ağdaban d.
Ərikli
Şağat
Bələk
Pir d.
Cecimli
Qaracallı
Maqsudlu
Milanlı
Qalalı
Qarakilsə
Ağudi
Dərəkənd
Gorus
Məzməzək
Seyidlər
Məzrə
Vaqudi
Əliqulukənd
Abdərəsi
Bağırbəyli
Uz
Urut
Yantəpə d.
Əliquluuşağı
Babaylı
İskəndərli
Burunqot
Ağkənd
Tavadərə
Tulus
Urumis
Dovuqlu
Qaraqışlaq
Baharlı
Xəndək
Əlili
Qarakilsə
Baharlı
Lizin
Kürdlər
Şahverdilər
Mamalı
Qubadlı
Quşçu Təzəkənd
Yaycı
Mahmudlu
Şayıyataq
Comərdli
Axlatyan
Məzrə
Kərciman
Gödəkli
Horekdüz
Şıxlar
Lor
Kürcalanlı
Xocalı
Qubadlı
Tatev
Kürdqala
Zeyvə
Dəmirçilər
Saray
Mollaquranlı
Ərəfsə
Əlişar
Qıvraq
Şilətağ
Avqanna
Qalacıq
Dolulıdağı
Dəstəgird
Binəxanımbağ
Zor
Dondarlı
Moliu
Murxuz
Şagermoses
Ayad
Əlibəy qışlağı
Maldaş
Xotanarx
Mülkəcan
Pircan
Çərəli
Çərəli
Məmməd
Dördlər
Sevaker
Almalı
Mollalı qışlağı
Çanaxçı
Qaradiga
Böyükdaş
Cibullu
Yemzəli
Axtaxana
Gödəkli
Aqayyurd
İsgəndərbəyli
Kirs
Qasar
Çiriş
Qaraçəmən
Qiyaslı
Şəkərcik
Qarababa
Sancaraqlı
Daşbaşı
Qatar
Gödəkli
Qaraqoyunlu
Peyqan
Baharlı
Ağkənd
Qaraiman
Mahmudlu
Qarabaş
Qazançı
Kürdkənd
Muğanlı
Zərnəli
Bıx
Bodqum
Şirvanşıxlı
Əladdin
Qoçatı
Kürdkənd
Müsəlləm
Saralı
Şərifan
Tağlı
Genlik
Tatar
Panıslu
Tunus
Qaragöl
Pirçivan
Tatar
Şabadin
Məzrə
Zəngilan
Oxçu
Nurqud
Şıxyavuz
Məlikli
Mincivan
Şahbəyli
Yağludərə d.
Səbətkeçməz d.
Kilsəkənd
Razidərə
Tərəkəmə
Düman
Basutçay
Ordəkli
Baharlı
Göllər
Qand
Saralı
Qaragöz
Vəng
Taqəmir
Çapadərə
Betnadzır
Mülkü
Qul
Bartaz məntəqəsi
Şıxyurdu d.
Vartanadzor
Bartaz
Tey
1.Şərur-Dərələyəz qəzası
2.Cəbrayıl qəzası
Astazur
Daşqaya
Əlidərə
Nüvədi
Mehri
Araz

  

## "ZƏNGƏZUR" CƏMİYYƏTLƏRİ İCTİMAİ BİRLİYİNİN 33 YAŞI VAR

Azərbaycanın ilk QHT-lərindən biri olan "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi 1992-ci ilin aprelində Bakı Dövlət Universitetinin Akt zalında Zəngəzur bölgəsindən olan 300-dən çox tanınmış alim, yazar, ziyalının iştirakı ilə keçirilən təsis konfransında yaranıb və 1992-ci ilin mayında Dövlət qeydiyyatına alınıb.

Birliyin ilk sədri Kamran Əsəd oğlu Hüseynov 15 dekabr 1913-cü ildə Qubadlı rayonunun Çərəli kəndində anadan olub. Binəqədi, Neftçala rayon, Mingəçevir, Sumqayıt şəhər partiya komitələrinin birinci katibi, respublika Həmkarlar İttifaqları Şurasının sədri, Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, respublika Ticarət və Sənaye Palatasının sədri vəzifələrində işləyib. Azərbaycan və RSFSR Ali Sovetlərinin deputatı olub. Tarix elmləri doktoru, müxtəlif dillərdə çap olunmuş 16 kitabın müəllifidir. Azərbaycanın ictimai-siyasi həyatında uzun illər səmərəli fəaliyyətinə görə «Şöhrət» ordeni ilə təltif edilib. 2006-cı il aprelin 20-də ömrünün 93-cü ilində vəfat edib.

Birliyin ikinci sədri Tofiq Şəfaət oğlu Mehdiyev 14 sentyabr 1946-cı ildə Zəngilan rayonunun Pircivan qəsəbəsində anadan olub. Kənd Təsərrüfatı Nazirliyində, Azərbaycan KP MK-da işləyib, Zəngilan Rayon Partiya Komitəsinin birinci katibi, "Azərittifaq"ın sədri vəzifələrində çalışıb, MK-nın üzvü, XI, XII çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olub. Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktına imza atan, müstəqil Azərbaycanın Dövlət atributlarının-Bayraq, Himn, Gerbinin qəbul olunmasına səs verən deputatlardan biri olub. Birliyin Ağsaqqallar Şurasının sədridir. "Zamanın axarında Zəngəzursuz illərim" kitabı nəşr olunub.

2008-ci ildən Birliyin sədri olan tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlu Qubadlı rayonunun Saray kəndində doğulub, rayon komsomol və icraiyyə komitələri, icra hakimiyyəti, AzərTAc Dövlət İnformasiya Agentliyi, AR Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, AR Sənaye və Energetika Nazirliyi, AR Prezidenti yanında Bilik Fondu, Azərbaycan Dövlət Tərcümə Mərkəzində (ADTM) çalışıb, həm də bir neçə universitetdə müəllim işləyib. 25 kitabın, tərcümə əsərlərinin, Azərbaycan, türk, rus, ingilis dillərində dərc olunmuş 100-dən çox elmi məqalənin müəllifidir. 2020-2024-cü illərdə ADTM-in "Azərbaycan həqiqətləri" layihəsi çərçivəsində müəllifi olduğu 21 məqalə, video-çarx ssenarisi 12 dilə tərcümə edilərək 120-dən çox xarici KİV-də yayılıb.

Birlik QHT Şurası və QHT Agentliyinin donorluğu ilə Azərbaycan, Gürcüstan, Çexiya və Türkiyədə 16 layihəni icra edib, 8 adda kitab buraxdırıb, layihələrin icrası Fəxri fərmanlara layiq görülüb, dəfələrlə "əla" qiymətləndirilib. Birliyin Sisian, Gorus, Qafan, Meğri, Laçın, Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl özəkləri və Türkiyədə nümayəndəliyi (rəhbəri prof.dr.Aygün Attar), zengezur.com saytı fəaliyyətdədir.

# MÜNDƏRİCAT

*Prof. Dr. Mönsüm Alışov.* Zəfər ovqatlı topluya Ön Söz ............................ 4

**I Bölmə**
**ŞEİRLƏR**

*Ramiz Rövşən*. Vətənə tərif ........................................................................ 7
*Musa Urud*. Qarabağ Azərbaycandır ........................................................... 8
*Rafiq Yusifoğlu*. Mənim Zəngəzurum .......................................................... 9
*İsmayıl İmanzadə*. Şəhidliyin zəfər nəğməsi ................................................ 10
*Flora Xəlilzadə*. Vətən ................................................................................ 11
*Adil Cəmil* . Qayıtmadı o Kəlbəcər ............................................................. 12
*Təvəkkül Goruslu*. Zəfərin mübarək ........................................................... 13
Biz sənin əlini öpürük, ana! ........................................................................ 13
*Əlirza Xələfli*. Mən Şuşaya gedirəm ............................................................ 14
*Mahirə Abdulla*. Qorxu .............................................................................. 15
Qara kötük ................................................................................................. 15
Çiynimizdəki daşlar .................................................................................... 15
*Mürvət Qədimoğlu Həkəri*. Mənim zəfər bayramım .................................... 16
*Mahir Cavadlı*. Yurdumu azad elə .............................................................. 17
Salam, od-ocağım ........................................................................................ 17
*Əjdər Yunus Xələfli*. Gəlmişəm kəndimə ..................................................... 18
*Xankişi Bəxtiyar*. Zəfərin mübarək, Cənab Komandan! .............................. 19
*Namiq Məna*. Biz gedirik Qubadlıya ........................................................... 20
*İlham Qəhrəman*. Əsgərlərimizə ................................................................. 21
*Zakir Zahir*. Şəhidimin anası ..................................................................... 22
Qəlbimdən keçən duyğular ........................................................................... 22
*Nanə Yavərqızı*. Şəhid qanıdır .................................................................... 23
Zəfər nəğməsi ............................................................................................. 23
*Pənah Azəri*. Maralzəmiyə ......................................................................... 24
*Füzuli Həsənov*. Nüvədidədir ..................................................................... 25
*Firdovsi Cəfərxan*. Azərbaycanım ............................................................... 26
Qalx ayağa, Azərbaycan övladı! .................................................................. 26
*Asif Talıboglu*. Yada düşübdür .................................................................. 27
*Fərzalı Abbasəlioğlu*. Ulu bayrağım ............................................................ 28
*Şakir Əlifoğlu*. Cənab Ali Baş Komandan! .................................................. 29
*Dürdanə Qaraşova*. Cəbrayıla gedəcəyəm .................................................. 30
*Qüdrət Məmmədov*. Zəfər nəğməsi............................................................... 31
*Musa Aslanxanlı*. Yenilməz Vətənlə nəfəs alanlar ....................................... 32
*Hidayət Səfərli*. Gəlmişəm ......................................................................... 33
*Kamal Fərhad*. Könlüm .............................................................................. 34
Dəhnədi ..................................................................................................... 34

*Namiq Zaman*. Zəfər günün mübarək ............ 35
*Mirzə Mirimli*. Gecələr yuxuda bir kənd görürəm ............ 36
*Sabir Şirvan*. Qayıtdım ............ 37
*Malik Əhmədoğlu*. Dağları-dağları ............ 38
*Valeh Heydər*. Vətən sevər uşaqlar ............ 39
*Fariz Çobanoğlu*. Həyat ............ 40
*Novruz Sirikli*. Vətən, məni torpağında bir də ək ............ 41
*Səidə Nur*. Qarabağ ............ 42
Yurdum ............ 42
*Xosrov Natil*. Gəldim kədərinə şərik çıxmağa ............ 43
*Asya Əhmədova*. O kənd, bizim kəndimizdi ............ 44
*Salam Cavadlı*. Altı qardaş nağılı ............ 45
*Lalə İsmayıl*. Zəfər bayramımız mübarək olsun! ............ 46
*Vaqif Qüdrət*. Mənə yovşan gətir ............ 47
*Aysel Nəsirzadə*. Dünyaya şəfəq saçan Azərbaycanımız var! ............ 48
*Sona Əli*. Dünənlər, sabahlar ............ 49
*Bərxudar Səlimoğlu*. Zəngəzur dağlarına ............ 50
Sındırarsa... ............ 50
*Ruslan Bəhmənoğlu*. Zəngilanım, qayıdışın mübarək! ............ 51
*Səadət Salmanqızı*. Azad Vətənim ............ 52
*Elvin Əlizadə*. İlahi, o kənddə nələr var idi ............ 53
*Ceyran Qurbanova*. Əsgərim ............ 54
*Elşad Zəfər*. Neynirəm ............ 55
*Həsən Orucoğlu*. Mənim şagirdlərim nənə, babadır ............ 56
*Adil Həsənoğlu*. Gəlimmi? ............ 57
*Səttarxan İmaməli*. Şəhid ............ 58
*Pərvanə Zəngəzurlu*. Zəngəzur ............ 59
*Zöhrə Həbibulina*. Vətən boyda Vətənəm! ............ 60
*İsrayil Hüseynov*. Azərbaycan ............ 61
*Ramazan Səmərоğlu*. Zəfər paradımız mübarək, Vətən! ............ 62
*Sədayət*. Qadir Allah ordumuza yar olsun! ............ 63
*Həmzə Həmzəyev*. Dağlarin ............ 64
Sevmişəm ............ 64
*Abbas Gülmaliyev*. Azərbaycan ............ 65
Gəlib ............ 65
*Bariz Bəhramoğlu*. Bütöv Azərbaycanın himni ............ 66
*Əliş Əhmədoğlu*. Şəhidlər ............ 67
*Nailə İbrahimova*. Necə gözəl günlərdi ............ 68
*Xanlar Zəngəzurlu*. Azərbaycan əsgəri ............ 69
*Allahverdi Əliyev*. Dədə, Kəklik ............ 70
*Mir MƏHƏMMƏD Mir SƏDİ oğlu*. Qubadlıya gəl ............ 71
*Mirsədi Mirlər*. Aida ............ 72
*Sabir Yaqub*. Dəyişməm ............ 73

*Mehdi Mükərrəmoğlu*. Bu toy Qubadlıda olaydı gərək ............................... 74
*Əbdül Səmədov*. Miri ........................................................................................ 75
*Ərşad Bədəlov*. Şəhidliyin mübarəkdir, ay oğul ! ........................................ 76
Zəfərə aparan nəğmə ......................................................................................... 76
*Sevi Sevdimalı*. Qubadlım ................................................................................ 77
*Həmid Cabbarov*. Ay Allah ............................................................................... 78
*Dostəli Abdullayev*. Qubadlım, Saray kəndim… ......................................... 79
*Məhəmmədhüseyn Şəhriyar*. Qaçaq Nəbi ...................................................... 80
*Mikayıl Bədəlov*. "Qələbə nidası" poemasından ........................................... 81
*Zahid Şahsuvarov*. Bu axşam-axşam .............................................................. 82
*Xasay Cahangirov*. Ərdoğana ........................................................................... 83
*Elnur Məxfi*. Vətən üçün... ............................................................................... 84
Şəhidlər ............................................................................................................... 84
*Rəfiqə İsaqqızı*. Şəhid İsa Məmmədovun xatirəsinə......................................85
*Xeybər Göyyallı* Ramiz Kərəmin "Zəfər şeiri"ni türkcədən təqdim edir.......86
*Kəmalə Mahmudova*. Şəhid polkovnik Şükür Həmidovun xatirəsinə .......... 87
Yarımçıq eşq hekayəsi ....................................................................................... 87
*Akif Amal*. Bayrağı baş üstdə tutmusan, Vüsal ............................................ 88
*Nurəddin Bərgüşad*. Xoş gördük, ay ellər ....................................................... 89
*Flora Piriqızı*. Dilimin əzbəri ancaq vətəndir ............................................... 90
Elimə bənzəyən bir el, de, hanı? ....................................................................... 90
*Gülxar Əmrahqızı*. Qəlbimizdə yaşayacaq! .................................................. 91
*Qaratel Azəri*. Bayatı, şeir ................................................................................ 92
Tut ağacı ............................................................................................................. 92
*Zaur Zəngəzurlu*. Sənsizliyə alışa bilmirəm .................................................. 93
*Qafqaz Əvəzoğlu*. Şəhidlərə ........................................................................... 94
*Ceyran Hümmətqızı*. İgid əsğər ...................................................................... 95
*Mahir Sarıyev*. Məktəbim ................................................................................ 96
*Mehdi Calal*. Şəhidlər Xiyabanında düşüncələr ........................................... 97
Bir əsgərimizin dilindən .................................................................................... 97
*Qazi İmadəddin*. Bir ana hələ də oğlun axtarır ............................................. 98
*Vahid Əlirzayev*. Yaşamaq haqqı .................................................................... 99
*Şəfəq Üfüq*. Şəhid anası ................................................................................. 100
*Ağaverdi Zəngəzurlu (Nəsirov)*. Qarabalam gəlmədi ................................. 101
*Babək Zeynalov*. Vətən ................................................................................... 102
*Əlizamin Qubadlı*. Bizim ellər ....................................................................... 103
*Elbrus Qayalı*. Qubadlıdanam......................................................................... 104
*Çingiz Salmanov*. Qubadlıdadır .................................................................... 105
*Eldar Xanlaroğlu*. Bu ordu sən deyən ordu deyil ki... ................................. 106
*Fərid Muradzadə*. Müzəffər Ali Baş Komandana ........................................ 107
*Saleh Əlioğlu*. Kəndimiz ................................................................................. 108
Qayıdıram ......................................................................................................... 108
*Hacı Baxşəli*. Gedirəm .................................................................................... 109

*Ədalət Nicat*. Yarı canım Qubadlıdadı ........ 110
*Eldar Baxış*. Salam, doğma kəndim ........ 111
*Qasım Qasımzadə*. Gəlmişəm ........ 112
*Haqverdi Hacıoğlu*. Kəndə qayıdaq ........ 113
*Əliağa Aslan*. Bərgüşad ........ 114
*Azadə Novruzova*. Zəfərin mübarək, Vətən! ........ 115
Bu meh Vətəndən əsir ........ 115
*Bəhruz Niftəliyev*. Mübarək şəhidim ........ 116
*İbadulla İsmayılov*. Ata ocağı ........ 117
*Ruzigar Cəbisoy Çələbi*. Qalib Azərbaycanım ........ 118
*Natiq Vüqarlı*. Kəndimizi görürəm mən ........ 119
*Sücaət*. Kəlbəcər ........ 120
Mən olaydım ........ 120
*Faiq Bayramov*. Özümü... ........ 121
*Yasir Bayramov*. Yuxuda görür... ........ 122
İtirmişəm ........ 122
*Məhyəddin Məhərrəmoğlu*. A dağlar ........ 123
*Salman Kəlbəcərli*. Qarabağ Vətəndir - Azərbaycandır! ........ 124
*Rəfael Dəmiroğlu*. Kəndim ........ 125
*Hüseyn Şahbəndəyev*. 25 noyabr Kəlbəcər gününə ........ 126
Şəhid Hüseyn Nəcəfova ........ 126
*Bəhmən Vətənoğlu*. Darıxdım ........ 127
Mən olmalıyam ........ 127
*Nicat Hunalp*. Arazı gördüm... ........ 128
*Namiq Dəlidağlı*. Kəlbəcərə dönürük... ........ 129
*Əjdər Əslisaf*. Göyçədi ........ 130
*Elşad Qazi Kəlbəcərli*. “Dəmir yumruq” ........ 131
*Səxavət Kəlbəcərli*. Qayidiş ........ 132
*Məcnun Məmişov*. Dağlarda baharın ətri qalıbdı ........ 133
*Adil Həmid*. Kəlbəcər ........ 134
*İlham Məmmədli*. Məmməd ........ 135
*Məhəmməd Nərimanoğlu*. Kəlbəcərimin dağları ........ 136
*Milli Daşqın*. Kəlbəcər ........ 137
*Elşən Əzim*. Şuşaya köç gəlir ........ 138
*Ələmdar Keştəkli*. Dərələyəz ........ 139
*Elbrus Şahmar*. Dünyada ........ 140
*İlham Baxışoğlu*. Bir də o yerlərə düşsəydi yolum ........ 141
*Vidadi İlyasoğlu*. Biri Azərbaycan, biri Türkiyə ........ 142
*Yavər Həsən*. Dostum Əmraha ........ 143
*Balaş Tanrıqəlb*. Səngər Vətən - Azərbaycan ........ 144
*Şakir Mirlər*. Cənab Ali Baş Komandan! ........ 145
*Mayıl Məmmədli*. Az qalıb ........ 146
*Aydın Qədimoğlu*. Salam a Kəlbəcər, salam ay Laçın ........ 147

*Aşıq Umbay*. Bayram günləri ........ 148
*Nazim Əhmədli*. Göy üzünün adamı ........ 149
Laçına məktub ........ 149
*Bənövşə Daşdılı*. Ali Baş Komandana təbrik ........ 150
*Xaliq Laçınlı*. Payız günlərı ........ 151
*Adil Şirin*. Qılıncımız oynadı ........ 152
Yenə qar yağırmı ........ 152
*Rövşən Atakişioğlu*. Yolum dağlara sarıdı ........ 153
*Eynulla Sadıq*. Laçınla xəyali görüş... ........ 154
*Cəbrayıl Qəhrəman*. Bu gecə yuxuma gəlmişdi anam ........ 155
*Xuraman Camalqızı*. Gələcəyin nurlu olsun, Laçınım ........ 156
*Ağa Laçınlı*. Azərbaycan ........ 157
*Hüseyn Kürdoğlu*. Həkəri ........ 158
*Nadir Azayoğlu*. Vətən ........ 159
*Malik Fərrux*. Gözünüz aydın ........ 160
*Şərahil Laçın*. Ey qəhrəman şəhidlər ........ 161
*Rəfail Laçın Sarıbabalı*. Anım günüdür ........ 162
Dağlara ........ 162
*Adil Cəfakeş*. Şəhidlər qürur yerim ........ 163
*Azər Laçinli*. Laçınım ........ 164
*Kamil Vəfadar*. Qan yaddaşımsan ........ 165
*Ötərxan Eltac*. Mən əsgər atasıyam ........ 166
*Arif Pənahoğlu*. Laçin, gözün aydın, sabahın xeyir ........ 167
*Ənvər Məsud*. Sözüm vardi ........ 168
Hələ bilmir ........ 168
*Sevinc Qərib*. Sonra... ........ 169
Hələ... ........ 169
*Vəzirxan Mirzəoğlu*. Dağlarin ........ 170
*Kərəm Arxud*. Azərbaycan əsgərinə ........ 171
*Xan Rəsuloğlu. Aforizmləri* ........ 172
*Məmməd İbrahimli*. Sən demə ........ 173
Qayitdim ........ 173
*Şükür Mürsəloğlu*. Gedirik ........ 174
*Cənnət Qılıncsoy*. 44 gün ........ 175
*Xosrov Camal*. Laçındanam ........ 176
*Nazim Əkrəm*. Dağlar ........ 177
*Araz Elsevər*. Görəm ........ 178
*Daşqın Laçinlı*. Öpəcəm ........ 179
*Namiq Zaman*. Zəfər günün mübarək ........ 180
*Ziyəddin İsmayılov*. Arzuma çatan yerdəyəm ........ 181
*Əlibala Ağayev*. Canımızda bir cansan ........ 182
*Məhəmməd Ağalarov*. Gəlmişəm ........ 183
*Seyid Malik*. Gəlirəm ........ 184

*Xələf Azəri*. Göynədi ........ 185
*Səddam Laçln*. Laçin - doğulduğum şəhər ........ 186
*Arif Gürşadoğlu*. Kəlbəcər… ........ 187
Laçına yağış yağır ........ 187
*Zahir Abbas*. A köhnə divarim, a köhnə evim ........ 188
Laçınım mənim ........ 188
Güləbird ........ 188
*Pərviz Axund*. Zəfər andı ........ 189
*Şərif Ağayar*. Ay Laçın ........ 190
*Elman Elsevər*. Laçınım, mən sənə qayıdacağam ........ 191
*Arif Məmmədli*. Vətən qazilərinə ........ 192
*Maarif Köçkün*. Gəlib keçir ........ 193
*İntiqam Cəfərov*. Qubadlım əldən gedəndən ........ 194
*Elşad Qasımoğlu*. Ağlama, şəhid anası ........ 195
*Sahib Böyükturan*. Zəfər çaldi ordumuz ........ 196
*Elgiz Xanlar*. Laçinda ........ 197
*Vüqar Laçınlı*. Vətən, sənə dönə bildik ........ 198
*Şahgündüz Cabbarov*. Darıxdım ........ 199
Qoca Qartal ........ 199
*Səadət Cahangir*. Ey sevgili azadlıq ........ 200
*Məmməd Aslan*. Qayadan qumacan ........ 201
Tanımadın bəs məni ........ 201
*Sarı Aşıq*. Bayatılar ........ 202
*Seyid Mir Həmzə Nigari*. “Divan”ından seçmələr ........ 203
Olsun ........ 204
*Məhəmməd Yaqublu*. Neçə ayrılım? ........ 205
*Tarıyel Çahangir*. Qubadlıdadır ........ 206
*Çərkəz Məmmədov*. Elin bu günündə gələydin, Nəbi ........ 207
*Şahgəldi Kazımov*. Kazımağa - şəhid qardaşım ........ 208
*Nuşirəvan Əsədov*. Qubadlıda........ 209
*Hacı Mirhəsən Hadi*. Vətən düşüb yadıma ........ 210
*Vaqif Bayatlı Odər*. Qarabağda İlahi qələbələrin ən şahanəsi ........ 211
Aşk Azərbaycan, eşq Türkiyə ........ 211
*Nəriman Qasımoğlu*. Şuşa ........ 212

**II BÖLMƏ.**
**HEKAYƏLƏR, ESSELƏR**

*Azad Qaradərəli*. Noçuyev taktikası ........ 214
*Ayaz İmranoğlu*. Dəbilqə ........ 217
*Zəhra Səfəralıqızı*. Sirr ........ 220
*Tarverdi Abbasov*. Yaradanımızın bəxş etdiyi dəmir yumruq ........ 223
*Çərkəz Nəsirli*. Qırx dördüncü zəngin sahibi ........ 225

*Vüsalə Cəfərova*. Mehdinin yarımçıq qalmış arzuları ................................ 227
*Əliağa Cəfərov*. Qeyrət ........................................................................ 231
*Rəşid Bərgüşadlı*. Tikanlı cığırlar .......................................................... 234
*Hacı N. Abdulla*. Anamın yanına haaa... .................................................. 238
*Şöhrət Namazova*. Bu şəhər mənim şəhərim ............................................ 240
*Zeynəb Əliqızı*. Şəhid anası .................................................................. 242
*Təranə Vahid*. Durna adam .................................................................... 246
*Zümrüd Rəhimova*. Boz ilan ................................................................... 250
*Nəriman Mahmud*. Şahverdinin aqibəti .................................................... 252
*Polad Poladov*. O gediş başqa gediş idi… ................................................. 254
*Elman Rüstəmov*. Təsəlli ........................................................................ 256
*Tahirə Bədəlova*. Xiyabanda... ............................................................... 259
Vətən! ..................................................................................................... 260
*İlhamə Nasir*. Məktublar ........................................................................ 261
*Çinarə Ömray*. Sarı kişi .......................................................................... 264

**III Bölmə**
**PUBLİSİSTİKA**

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanından ............................ 268
*Mönsüm Alışov* Prezident İlham Əliyevin Zəngəzura, Qərbi Azərbaycana aparan siyasəti ..........................................................................................270
*Hidayət Müsahibə,* Zəngəzurdur................................................................ 275
*Əvəz Mahmud Lələdağ*. 37 il həsrətini çəkdiyim Qarabağı ziyarət ............. 276
*Əli İldırımoğlu*. Qubadlılar, Əmrahsız qalan dağlar-romandan parça .......... 279
*Vahid Məhərrəmov*. Salam tut ağacım, məni tanıdınmı?............................. 282
*Vəfa Xanlarqızı*. Doğma obam, gözəl yurdum, isti yuvam Qubadlım!.......... 285
*Nəzrin Pərvizqızı*. Şəhidlər, qazilər - sizlərə borcluyuq .............................. 288
*Şəcahan Gün*. "Mən səni sevdim ay işığında” ............................................. 290
*Əli bəy Azəri*. Zəngilan – zəngin coğrafi məkan .......................................... 294
*Fəxri Uğurlu*. Vətənim adamlar ................................................................. 296
*Xanəmir*. Şuşanın adındakı musiqi - və Vaqifin şeirindəki ölçü .................. 299
*Elməddin Behbud*. Ermənilik - qərbi Zəngəzurdakı məzar qısasçılığı .......... 301
*Aygün Attar*. Türkiyə-Azərbaycan Birliyi əbədidir ....................................... 304
*Natəvan Ağayeva*. Zəngəzurun giriş qapısı – Şurnuxu ................................ 305
*Nəsiman Yaqublu*. Zəngilan necə idi, necə gördüm... .................................. 308
*Samir Zəngəzurlu*. Sofulum – şah dərdim .................................................. 311
*Bayram Məmmədov*. Ruhun ruhumun göy qurşağıdı!.. ............................... 314
*Lətif Babayev*. Zəngilandan gələn var. Qubadlıya salam de ......................... 318
*Vaqif Bayramov*. Şuşa – azadlığın, qayıdışın və dirçəlişin şəhəri ............... 323
*Rasim Mədəd*. Qubadlıdan Xankəndiyə gedən yol... ................................... 326
*Rafiq Yusifoğlu*. Qarşıda abad, işıqlı Qubadlı görürük ................................ 328

*Elçin Hüseynbəyli.* Xiffət... Lənət və sevgi ..... 331
*Ramiz Rövşən.* Qapısız açarlar ..... 344
*Şirindil Alışanlı.* Su səltənəti Laçın ..... 348
*Rəşad Məcid.* Gecikmiş Ağoğlan bələdçiliyim ..... 354
*Adil Cəmil.* Tanrının Kəlbəcər möcüzəsi ..... 357
*Tamxil Ziyəddinoğlu. Bütöv Azərbaycan yolunda. Qafanım mənim!* ..... 367
Fadil Paşayev. Dondarlı xatirələrim, Şəhid dostlarıma..... 372
"Zəngəzur"un layihələrindən: Qaçaq Nəbi qəhrəmanlıq rəmzidir..... 375
Sultan bəy və Nuru paşanın yubileylərinə müsabiqə keçirilib..... 377
"Zəngəzur" 2 topluda 10 dildə 168 müəllifin yaradıcılığını birləşdirib..... 378
Əyyub Abasovun "Zəngəzur" romanından seçmələr 12 dildə yayılıb ..... 379
*Hacı Nərimanoğlu:* Şəhidlər, Qazilər, bu Zəfər üçün sizlərə borcluyuq!..... 383
Zəngəzur toponimi haqqında ..... 387
Rusiya Zəngəzurun erməniyə verilməsi barədə qərarlarını ləğv etməlidir..... 389
Zəngəzurlu döyüş generalları: Xosrov bəy Sultanov, Valeh Bərşadlı, Məhəmməd Əsədov, Mayis Bərxudarov ..... 392
Unutmayaq, bizim o yerlərə qayıdış borcumuz var ..... 398
Zəngəzurun dirçəlişində yeni səhifə: Laçın Beynəlxalq Hava Limanının açılışı, Azərbaycan-Türkiyə-Pakistan liderlərinin görüşü, 28 May 2025 ..... 400
*Prezident İlham Əliyev:* Azərbaycan xalqı Zəngəzura qayıdacaq!..... 401
*Birinci vitse-prezident xanım Mehriban Əliyeva:* Zəfər günü təbriki..... 403
"Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin 33 yaşı var..... 404

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Leyla Məmmədli, Röya Nəsirova

---

Yığılmağa verilmişdir: 12.05.2025
Çapa imzalanmışdır: 05.06.2025
Format: 70×100 1/8; şərti çap vərəqi 51,5
Sifariş № 203; tiraj 300 nüsxə
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com